AZƏRBAYCAN RESPUBLİKASI ELM VƏ TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Ümummilli lider Heydər Əliyevə həsr olunmuş

“HEYDƏR ƏLİYEV VƏ MİLLİ MƏDƏNİYYƏT STRATEGİYASI”

adlı Respublika tələbə-şagird elmi konfransı

MƏRUZƏLƏRİN TEZİSLƏRİ

Bakı şəhəri – 02 may 2024-cü il

Azərbaycan Dillər Universiteti Elmi Şurasının 27 dekabr 2017-ci il tarixli iclasının qərarı ilə (pr. № 14) çapa tövsiyə edilmişdir

TƏŞKİLAT KOMİTƏSİ

1. **Abdullayev K.M.** - *Azərbaycan Dillər Universitetinin rektoru, akademik, sədr;*
2. **Qəribova J.Ə.** - *Beynəlxalq əlaqələr üzrə prorektor, dosent, sədr müavini;*
3. **Hacıyeva K.B.** - *Tədris məsələləri üzrə prorektor, dosent, üzv;*
4. **Cəfərova T.Ş.** - *Sosial məsələlər və ictimaiyyətlə əlaqələr üzrə prorektor, dosent, üzv;*
5. **Mehrabov V.A.** - *Ümumi işləri üzrə prorektor, dosent, üzv;*
6. **Abdiyeva Ə.M.** - *Fəlsəfə və ictimai elmlər kafedrasının müdüri, dosent, üzv;*
7. **Allahverdiyev Q.Ə.** - *Multikulturalizm məsələləri üzrə müşaviri, professor, üzv,*
8. **Cahangirov F.F.** - *Təhsil 1 fakültəsinin dekanı, professor, üzv;*
9. **Əliyeva R.Y.** - *Tələbə Elmi Cəmiyyətinin sədri, baş müəllim, üzv;*
10. **İmanova S.R.** - *Elm şöbəsinin müdüri, dosent, üzv;*
11. **Kazımbəyli İ.F.** - *Beynəlxalq münasibətlər və regionşünaslıq fakültəsinin dekanı, professor, üzv;*
12. **Məmmədova B.G.** - *Tərcümə fakültəsinin dekanı, dosent, üzv;*
13. **Nuriyev S.S.** - *Təhsil 2 fakültəsinin dekanı, professor, üzv;*
14. **Rzayeva F.Ə.** - *Magistatura şöbəsinin müdüri, dosent, üzv;*
15. **Tanrıverdiyeva N.İ.** - *Maddi-texniki və maliyyə məsələləri üzrə müşavir, üzv,*

BÖLMƏLƏR

1. **Filologiya**
2. **Pedaqogika. Psixologiya**
3. **Siyasi elmlər**
4. **Tarix. Fəlsəfə**

Baxışov Bürhan E.
8 sinif şagirdi
Ağcabədi rayonu Qaravəlli tam orta məktəb
Elmi rəhbər: b/müəl. Baxışova Elvina F.
Azərbaycan Dillər Universiteti

FOOTBALL İDİOMS İN ENGLİSH

Football is a popular sport that has influenced the English language in many ways. In addition to the sport's rules, strategies and terminology, there are various idioms and expressions that have been derived from football. Here are some idioms that are related specifically to football:

1. Get the ball rolling: This idiom is used to describe starting something, often a project or activity. It is similar to the idea of initiating a football match by kicking the ball at the beginning of the game.

2. Move the goalposts: This expression describes changing the rules or expectations in the middle of a process. It is similar to moving the goalposts during a football match, which would make it more difficult for the opposing team to score.

3. Play hardball: This idiom is used to describe being aggressive or uncompromising in negotiations. It is similar to the idea of playing football with a hard ball, which can be painful and difficult to control.

4. Play by the book: This phrase is used to describe following the rules exactly. It is similar to the idea of playing football by the rules, which is essential to the game's fairness and integrity.

5. Kick off: This expression is used to describe starting or initiating something. It is similar to the idea of kicking off a football match at the beginning of the game.

6. Drop the ball: This expression is used to describe making a mistake or failing to do something. It is similar to the idea of dropping the ball during a football match, which means failing to catch or control the ball.

7. Move the chains: This idiom is used to describe making progress, often in small increments. It is similar to the idea of moving the chains during a football match, which means advancing the ball towards the opposing team's goal.

8. End run: This expression is used to describe circumventing obstacles or rules to achieve a goal. It is similar to the idea of making an end run in football, which means running around the opposing team's defense to score a touchdown.

9. Winning streak: This idiom is used to describe a series of consecutive successes or victories. It is similar to the idea of a football team having a winning streak, which means winning several matches in a row.

10. A game changer: This idiom is used to describe something that radically alters a situation or outcome. It is similar to the idea of a game changer in football, which means a play or strategy that fundamentally alters the direction of the game.

11. Offside: This expression is used to describe being in a position ahead of the ball when it is played, leading to a foul. It is similar to the idea of being offside in a football match, which means being in an illegal position when the ball is played.

12. Under the radar: This idiom is used to describe doing something without attracting attention or notice. It is similar to the idea of a football player moving under the radar of the opposing team's defense, which means avoiding being noticed by the defenders.

13. Score an own goal: This expression is used to describe inadvertently harming one's interests or causing a setback. It is similar to the idea of scoring an own goal in a football match, which means inadvertently putting the ball into one's own goal, resulting in a point for the opposing team.

14. G.O.A.T: . The acronym GOAT stands for Greatest of All Time

These idioms are used in everyday English to describe various situations.

Reference:

1. https://www.linkedin.com/pulse/eight-football-related-idioms-you-can-use-business-english-molony
2. https://blog.elsaspeak.com/en/ten-english-idioms-related-to-football

Гайдаров Агшин Араз
Научный руководитель: преподаватель Алиева Тамара Нуруш
Лицей имени Академика Зарифы Алиевой, Баку

ПЕРЕВОД ФРАЗЕОЛОГИЗМОВ В МУЛЬТСЕРИАЛЕ «ГРАВИТИ ФОЛЗ»

«Гравити Фолз» является американским мультипликационным сериалом, который первоначально был нацелен на детскую и подростковую аудиторию, но после распространился также на более взрослую. В следствии с этим возникла необходимость качественного перевода сериала для привлечения иностранных зрителей. Переводом мультсериала на русский язык занималась студия «Кириллица» по заказу канала Disney Channel. Одной из задач, стоящих перед переводчиками, являлся перевод фразеологических оборотов с языка оригинала и сохранить тот же смысл, чтобы они были понятны целевой аудитории.

К способам, применяемым при передаче фразеологизмов с английского языка на русский, относятся: подбор эквивалента (полного или частичного), поиск фразеологического аналога, описательный перевод, калькирование и т.д. В особых случаях используется комбинированный перевод, при котором совмещаются ранее упомянутые методы перевода.

В процессе исследования был изучен первый сезон сериала, состоящий из двадцати серий. В первой серии главная героиня, раскрывая новость дня, опрокидывает банку с бобами. При этом она употребляет фразу «Well, time to spill the beans». В данном примере использование фразеологического оборота основано на игре слов, при котором одновременно употребляются как прямое, так и переносное значение фразы, что создает комический эффект ситуации. Однако фразеологизм был передан аналогом «Что ж, пора раскрыть карты», который по контексту был подобран неудачно. Упомянутый в шестой серии оборот «… you guys took me under your wing», переведён полным эквивалентом «Парни, спасибо, что взяли меня под крыло». В той же серии смысл фразы «Look, face the music, kid» передаётся описанием «Ты уж извини за прямоту». При переводе фразеологизм был опущен, и вместо него была употреблена частица «уж», которая передаёт речевую характеристику персонажа.

Оригинальный сериал «Гравити Фолз» и его перевод ярко демонстрируют широкое использование фразеологических оборотов и передачу их значений на русский язык.

Список литературы

1. Влахов С., Флорин С. Непереводимое в переводе: – Издательство «Международные отношения» М.: 1980. – 416 с.
2. Transcripts of Gravity falls episodes and shorts // gravityfalls.fandom.com/ URL: https://gravityfalls.fandom.com/

Алиева Нармин Акиф
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb
Научный руководитель: Гасанова Медина Ильхам
Азербайджанский Университет языков

ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКИЙ ЯЗЫК

Гейдар Алиев, выдающийся государственный деятель, сыграл значительную роль в сохранении, развитии и продвижении азербайджанского языка как одного из фундаментальных элементов национального самосознания. В период его правления как первого секретаря ЦК Коммунистической партии Азербайджана в 1969-1982 годах, а затем как президента Азербайджанской Республики с 1993 по 2003 год, были предприняты широкие меры по укреплению статуса азербайджанского языка как государственного и официального языка страны. Под его руководством были разработаны и внедрены языковые политики, направленные на поддержку азербайджанского языка в образовании, администрации и средствах массовой информации. Это способствовало распространению языка и укреплению его позиций в различных сферах общественной жизни.

Гейдар Алиев также активно выступал за защиту и развитие языкового многообразия в стране, обеспечивая равные права для всех языковых групп и национальных меньшинств. Его поддержка многоязычности и культурного плюрализма способствовала гармоничному сосуществованию различных языков и культур в многонациональном обществе Азербайджана. Таким образом, Гейдар Алиев сыграл ключевую роль в укреплении и продвижении азербайджанского языка как важного элемента национального и культурного единства страны. Его деятельность оказала существенное влияние на формирование лингвистического ландшафта и языковой политики Азербайджана, а его усилия направлены на сохранение и развитие богатого языкового наследия этой страны.

Список литературы

1. azərtac.az
2. ahik.org

Шихалиева Айсу Асиман
Научный руководитель: преподаватель Гайдарова Нурай Араз
Экономический и Гуманитарный Колледж при Бакинском Государственном Университете,

РЕГИОНАЛЬНАЯ МАРКИРОВАННОСТЬ ТЕРМИНОВ ПРИ ПЕРЕВОДЕ ЭКОНОМИЧЕСКИХ ТЕКСТОВ

На сегодняшний день английский язык по праву считается глобальным языком мира. Он является главным инструментом для осуществления эффективной деловой коммуникации.

Для текстов в области экономики характерно частое использование терминов. Термин – это слово или словосочетание, обозначающее конкретное понятие какой-либо области знания или сферы деятельности. Одной из особенностей английской экономической терминологии является региональная маркированность. Среди существующих региональных разновидностей английского языка основными считаются британский (BE) и американский (AE) варианты.

Различия терминов разных вариантов английского языка могут встречаться в написании (labour (BE) и labor (AE) – «рабочая сила»), употреблении числа существительного (emoluments (BE) и emolument (AE) – «вознаграждение» «довольствие») и др. Одно и то же понятие может быть выражено разными наименованиями (bonus issue (BE) и stock dividend (AE) – «выпуск бесплатных акций для акционеров компании», stand (BE) и booth (AE) – «стенд на торговой выставке»). Существуют такие бизнес-термины, которые обладают разными значениями в британском и американском вариантах языка (controller – «финансист-контролер» (BE), а также «главный бухгалтер компании» (AE)). Также стоит отметить наличие определенных экономических терминов, которые характеризуются особым использованием в различных вариантах английского языка. Так, например, слово “bankruptcy” («банкротство») в США применяется как к физическим лицам, так и корпорациям, в то время как в Великобритании используется по отношению только к физическим лицам.

Для достижения эквивалентного перевода терминов переводчикам и экономистам стоит обращаться не только к англо-русским бизнес-словарям, но и к англо-английским, которые помогут избежать серьезных ошибок в будущем.

Список литературы

1. Иванов С. С., Кочетков Д. Ю. Большой англо-русский экономический словарь. - М.:ЗАО Центр Полиграф, 2005. - 620 с.
2. Collin P. H. Dictionary of Business, 4th edition. -A&C Black Publishers Ltd., 2006. - 481 p

Şahbazlı Gülnur Rabil qızı
Şamilli Aydan Kamran qızı
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri
Mübariz İbrahimov adına Bağça-Məktəb-Lisey Kompleksi, Biləsuvar
Elmi rəhbər: B/m Kərimova Kəmalə Hüseynəli qızı

FRANSIZ ƏDƏBİYYATINDA AZƏRBAYCANLI, AZƏRBAYCAN ƏDƏBİYYATINDA FRANSIZ PORTRETİ

Zaman-zaman dünya və Azərbaycan ədəbiyyatında müxtəlif millətlərin portretlərinin təsviri yer almışdır. Təqdim etdiyimiz tələbə-şagird araşdırması da bu mövzuda etdiyimiz cəhdlərdən bəhs edir. Fransız ədəbiyyatının görkəmli nümayəndələrindən biri, dünya şöhrətli nasir və dramaturq olan Aleksandr Düma XIX əsrdə Qafqaza səyahət etmiş və "Qafqaz Səfəri" adlı əsərini yazmışdır. Bizim hazırladığımız bu tədqiqat işi A.Dümanın müşahidələrindən irəli gələn fikirlərin təhlilinə yönəlmişdir. Kitabın Azərbaycanla bağlı hissəsində şəhərlərimizdən; qədim Dərbənd, Quba, Bakı, Şamaxı, Nuxa və digərlərindən, xalqımızın mədəniyyətindən, adət-ənənələrindən ürək dolusu danışan Avropalı yazıçının yaratdığı Azərbaycanlı portreti digər Qafqaz ölkələri insanından daha fərqli bir formatda təqdimat edilmişdir. Yazıçının azərbaycanlıları necə təsvir etməyə çalışdığını əsərin Azərbaycan dilinə tərcüməsi üzərində apardığımız qarşılıqlı müqayisələrlə edəcəyik.

Yazıçı qeyd edir ki, elə xalqlar var ki,öz əli ilə imza qoyduğu, möhür vurduğu sənəddən boyun qaçırır. Azərbaycanlılar isə verdikləri sözdən heç vaxt dönməzlər.

« Il a été conquérant, ıl est resté guerrier. Avec le Tatar, on n'a pas besoin de signature, la parole suffit., (Bu xalq vaxtilə müzəffər olmuş, ürəyində indinin özündə də döyüşkən olaraq qalır. Azərbaycanlı ilə bir şey barədə sövdələşəndə ondan imzalanmış sənəd tələb etməyə ehtiyac yoxdur. Söz verdi, qurtardı).

Yazıçı ölkəmizdə görüşdüyü insanlardan,ölkəmizin qonaqpərvərliyindən narazı qalmamış, hər zaman öz təşəkkürünü dönə-dönə bildirmişdir.

« Je ne remercie plus; je constate seulement: pendant toute la route, l'hospitalité eut cette magnificence à notre égard », (Göstərilən qonaqpərvərlik üçün söz tapa bilmirəm.Bircə onu deyə bilərəm ki, bütün yol boyu bizə göstərilən qonaqpərvərlik gözlədiyimizdən də üstün idi).

Azərbaycanın təbiəti yazıçının ürəyində dərin iz salmışdır:

"Un pressentiment nous disait que nous nous ne verrions rien de si beau que Nouka" (Elə bil ürəyimizə dammışdı ki,daha Nuxadan gözəl bir yer görə bilməyəcəyik)

A.Düma əsərdə bəzi məlumatların şatdırılmasında səhvlərə yol vermişdir;

« La princessse Khazar-Outzmief, avec laquelle nous avions dîné la veille, était dans ce cas. Elle fit un pélerinage à la mosquée sainte, et dans la même année elle eut un garçon. Le prince en reconnaissance de ce don du ciel, a fait faire à ses frais un chemin de Bakou à la mosquée », (Xasay Usmiyevin xanımı da bu müqəddəs məqbərəyə pənah gətirmiş, sonra oğlu olmuşdur. Buna görə də Xasay xan Bakıdan bu məscidə yol çəkdirmişdir). Əslində Bakıdan Şıx kəndinə daş yolu Xurşidbanu Natəvan çəkdirmişdir.

Aleksandr Dümanın "Qafqaz Səfəri" əsərində olduğu kimi Azərbaycan ədəbiyyatında da xarici obrazlar, xüsusilə, Fransız portretinin yaradılması həm nəsr, həm də nəzmdə özünü göstərmişdir. Ən qədim dövrlərdən əsası qoyulmuş, zəngin Azərbaycan ədəbiyyatında, ilk olaraq M.F.Axundzadənin 1850-ci ildə qələmə aldığı "Hekayəti-Mösyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah Caduküni-Məşhur" əsərindəki fransız alim Müsyö Jordandan başlayaq. Müəllifin bu əsərdə fransız alim obrazının yaratmasının səbəbi cahillik və geriliyi tənqid edib, gəncləri inkişafa, tərəqqiyə çağırmasıdır. Mösyö Jordan Qarabağın məşhur və müalicəvi bitkilərini araşdırmaq üçün Hatəmxan ağanın evində qonaq olur. Nəbatat alim qayıdarkən, Hatəmxan ağanın qardaşı oğlu Şahbaz bəyi firəng dilini öyrənməsi üçün özü ilə Fransaya, Parisə aparmaq istəyir. Əslində bu fikir dramaturqun gənclərin maariflənmək yönündə düzgün inteqrasiya etmələrinə nümunə idi. Lakin, köhnəliklə yeniliyi qarşılaşdıran Axundzadə, Mösyö Jordanı "çör-çöp döşürən firəng" adlandıran Şəhrəbanu xanımın, öz bildiyi üsullarla ona qarşı mübarizəsini cahilliyin nümunəsi kimi vurğulayır. Sonda isə Parisdə baş vermiş əsl inqilaba işarət edərək Mirzə Fətəli Axundzadə şeytanların, əcinnələrin, divlərin Parisi partlatdığını elan edir və Mösyö Jordanı başı lovlu Parisə yollayır. Dramaturqun əsərdəki hədəfi Avropadan gələn alimin müasir, maarifçi baxışlarını və ideyalarını öz dövrünün insanlarına ötürməkdən ibarət idi.Eyni zamanda azərbaycanlıların dünyəvi inkişafa meyilləndirilməsi ön planda idi.

Digər bir əsər, poeziyada Abbas Səhhətin "Şair,şeir pərisi və şəhərli" şeiridir. A.Səhhət bu şeiri fransız şairi Alfred dö Müssenin "May gecəsi" şeri əsasında yazmışdı. Şeir şairlə şeir pərisi arasındakı dialoq əsasında qurulub. Şəhərli obrazı isə müəllifin əlavəsidir. A.Səhhət öz şeirində fransız şairi A. Müsse kimi şairi cəmiyyətə mənəvi qida, cəmiyyətin dəyişməsinə kömək edə biləcək qüvvə kimi göstərir. Maarifçi ədəbiyyatımızın nümayəndəsi olan A.Səhhətin bu strategiyası şeirimizdə fransız kimi düşünən dəyişdirici ruh, ab – hava yaradacaq yazarların olmasına işarət idi.

Yazıçı Əmir Pəhləvanın "Əhlikef" povestinin motivləri əsasında ssenarisi hazırlanan və 1995-ci ildə Vaqif Mustafayev tərəfindən ekranlaşdırılan "Fransız" bədii filmindəki Əlibala obrazı həm ədəbiyyatımızın, həm də kinomuzun Fransız obrazına ya doymasını, ya da ondan zəhərlənməsini əks etdirən prototipdir. Avropadan qayıdandan sonra özünün milli kimliyini qəbul etmək istəməyən və fransızca danışan Əlibala bir az da Çingiz Aytmatovun " Gün var əsrə bərabər" romanındakı "Manqurt"laşmış bəşər övladı Yedigeyin yeni nəsli idi. Başına qoyun dərisi geymiş Yedigeyin beyni quruduğu kimi, Əlibalanın da beyninə yad mədəniyyət düzgün təsir etməmişdi. Müəllifin bu filmi yaratmasının səbəbi azərbaycanlıların başqa xalqlara olan meyli və kökümüzdən ayrılmaq istəyidir. Həmçinin müəllif bu əsərlə qərbləşməyə Paris dəbi kimi baxanların içindəki mədəni köləliyi vurğulayır. Axundzadə Əlibalanın nitqindəki "Millətimə qurban olum ay ana, amma sizdə millət olun nə olar" ifadəsi ilə fransızlaşmaq istəyən gəncin içindəki paradoksallığı önə çıxarır.

Bu tip ssenarilərdən birinin əsasında ekranlaşdırılan "Şərikli Çörək" filmindəki "fransız xalqı kef eliyir", "Badenbadenin mavi gecələri", "Şəhərin adı Jeneva, gözəlin adı Jenevyeva", "madam, madmazel" kimi ifadələri ilə göstərdiyi şəkilli animasiya filmini taclandırmağa çalışan "kinogöstərən" bu ifadələrlə fransızların müharibə gedəndə də, paytaxtlarında nahaq qan axıdılanda da, kef çəkməyi, qan tökməyi bacarıb, öz qanının tökülməsinə şahidlik etməyi də bacardıqlarını ifadə edir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Alexandre Dumas, "La Caucase impressions de voyage", Montréal, Le Joyeux Roger, 2006
2. Aleksandr Düma, "Qafqaz səfəri" (tərcüməçi - Qəzənfər Paşayev), Bakı, Qanun nəşriyyatı, 2014
3. Mirzə Fətəli Axundzadə, "Əsərləri"- l cild, Bakı Şərq- Qərb nəşriyyatı 2005
4. Modern.az
5. Moderator.az

Nuray Zeynallı Daşqın qızı; 9³
Elmi rəhbər: B/m Kəmalə Kərimova Hüseynəli qızı
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri
Mübariz İbrahimov adına Lisey Təhsil Kompleksi

J.B.MOLYER VƏ M.F.AXUNDZADƏ YARADICILIĞINDA OXŞARLIQLAR VƏ QARŞILAŞDIRMALAR

"Şərqin Molyeri" adlandırılan Mirzə Fətəli Axundzadə yaradıcılığı ilə müasir Azərbaycan dramaturgiyasının təməlini qoymuşdur. O, öz əsərlərində dövrün problemlərini, sosial-ictimai vəziyyəti əks etdirməyə çalışmışdır. Mirzə Fətəli Axundzadənin Molyerlə müqayisə olunması təsadüfi deyil. Onun yaradıcılığında Molyeri xatırladan, ondan təsirləndiyini əks etdirən bir çox faktlar mövcuddur. Dövrünün istinad mənbəsinə çevrilmiş J.B.Molyer kim idi? Niyə məhz Molyer?

Ədəbi yaradıcılığa başlayarkən Molyer ləqəbini götürmüş Jan Batist Poklən böyük fransız komediya yazarı, Fransa və Qərbi Avropa ədəbiyyatında klassik komediya janrının banisidir. Molyerin əsərləri böyük islahedici gücə və maarifləndirici təsirə malikdir. Bu əsərlər nöqsanlı, əxlaqsız insanları ələ salmaqla onlara ağır zərbə vurur.

J.B.Molyer və M.F.Axundzadə arasında ən yaxın bənzərlik onların yazdığı pyeslərin obrazları arasındadır. Dünya ədəbiyyatı tarixində ədalətsiz cəmiyyətə qarşı duran, çürük adət-ənənələrə, haqsız qanunlara, gülünc vərdişlərə üsyan edən surətlərin toplusu olduqca böyük və qədimdir. Onlar həmin ictimai mühitdə haqsızlıq, bərabərsizlik, istismar, ətalət kimi ictimai nöqsan və qəbahətlərə qarşı mübarizə aparmışlar. Məhz bu səbəbdən J.B.Molyer və M.F.Axundzadənin yaradıcılığında belə surətlərə tez-tez rast gəlirik.

Mirzə Fətəlinin “Hekayəti-molla İbrahim Xəlil kimyagər” pyesində Hacı Nuru şair də həmin surətlər silsiləsinə daxildir. Birinci pərdədə Hacı Nuru şair qiyafəsində bilavasitə əsas ifşaçı kimi iştirak edirsə, sonrakı pərdələrdə təsvir olunan komik vəziyyət içərisində onun kəskin tənqidlərinin nəticələri nümayiş etdirilir. Hacı Nuru şairin son sözü xüsusilə mənalıdır. O, deyir ki: "Gedirəm, doğru söz acı olar" (5 s. 35). Hacı Nurunu Molyerin "Mizantrop" əsərinin qəhrəmanı Alsest ilə müqayisə etmək olar.

Molyer qəhrəmanı Alsesti Selimena adlı dul bir saray qadını ilə aşiqanə bir macəra ilə bağlamışdır. Bu nəticəsiz aşiqanə macəra olsa da, ancaq şərait Selimenanın tənqidi ağlını hərəkətə gətirir. O da cəmiyyətin o zamanki hadisələrinə qarşı çıxır. Burda Molyerin bir sitatı olduqca obrazın fikrini ifadə edir: “Tous ces défauts humains nous donnent dans la vie - Des moyens d'exercer notre philosophie” (Bütün bu insan qüsurları bizə fəlsəfəmizi həyata keçirmək üçün vasitələr verir; 3 s. 35). Hər iki obrazı birləşdirən əsas məqamlardan biri, onların dövrə, cəmiyyətə qarşı çıxmalarıdır. Onlar öz mübarizələrində bir istinadgah tapa bilmirlər. Ancaq hər iki qəhrəmanı bir-birindən ayıran cəhətlər daha çoxdur. Hacı Nurunun tənqid obyekti mülkədarlar, tacirlər, ac göz sənətkarlar və yalançı "türkəçarə" həkimlərdir. Alsestin tənqid obyekti isə ətrafında cərəyan edən haqsızlıq, ikiüzlülük, satqınlıq və əqli boşluqdur.

Jan Batist Molyerin “Xəsis” pyesinin qəhrəmanı Qarpaqon ilə, Mirzə Fətəlinin “Sərgüzəşti-mərdi xəsis” pyesinin qəhrəmanı Hacı Qara surətləri arasındakı müqayisəyə də diqqət çəkmək istədik:

Qarpaqon xəsis bir adamdır, pyes tamamilə bu obrazın üzərində qurulmuşdur. Pul hərisi olan Qarpaqon ailəsinə qarşı xəsislik edir, onlardan mücrüsünü (xəzinəsini) gizlədir və elə buna görə də övladları ilə münasibətləri yolunda getmir. Bu xəsislik Qarpaqonu vicdan və mənəvi əxlaqdan məhrum edir. Molyer bu obrazın vasitəsi ilə xəsisliyi mənfi bir hal kimi oxuculara çatdırmaqla yanaşı, əsəri müsbət sonluqla bitirir. Məqsəd mühitin maarifçi ideyalardan bəhrələnməsi idi.

Axundzadənin Hacı Qara obrazı da həmçinin, eyni xüsusiyyətlərə malikdir. O, parça alveri ilə məşğul olan tacirdir, həyatda yalnız pul qazanmaq barədə düşünür. Qarpaqon və Hacı Qara hər ikisi mənfi obrazdır, hər ikisi şübhəçidir, hər ikisi qorxu içindədir. Lakin, Hacı Qara obrazı ilə Qarpaqon arasında fərqlər də mövcuddur. Qarpaqonun başına gələn hadisələr yalnız sarayda baş verir, onun konflikti yalnız ailəsi ilə bağlı olur. Hacı Qara isə cilddən-cildə girir, həm ailə, həm özünün ticarətçi sələfləri, həm də müxtəlif gömrük məntəqələrində konflikt yaşayır.

Biz həm Molyerin, həm də Axundzadənin əsərlərində qadın məsələsini görə bilirik. Azərbaycan filosofu qadının cəmiyyətdə yeri, rolu məsələsinə dönə-dönə toxunur, ictimai həyatın bütün sahələrində qadınlara kişilərlə bərabər hüquqların verilməsi fikrini qətiyyətlə müdafiə edirdi. M.F.Axundzadə yaşadığı dövrdə savadsız mollaların şəriət qaydalarından öz mənafelərinə uyğun istifadə edib qızları və qadınları cəhalətə məhkum etmələrini tənqid edirdi. Eyni zamanda o, qadın hüquqsuzluğundan istifadə edən kişilərin onları "al-ver" obyektinə çevirmələrini də pisləyirdi. Məsələn, “Hekayəti-Xırs-Quldurbasan” pyesində Pərzadın dili ilə qadın hüquqsuzluğunu göstərərək, onların ixtiyarının ya ata və ya əminin əlində olduğunu yazıb.

Molyerin əsərlərində də həmin fikirləri görmək olur. Hətta onu bu düşüncələrinə görə feminist belə adlandırırlar. O qadının ər üçün bəzəndiyini, ona daim xidmət etməli olduğunu düşünənləri kəskin şəkildə tənqid edirdi. Onun “Qadınlar Məktəbi” əsərində Arnolf surəti əxlaqda yazılmış patriarxal cəmiyyəti təsdiq edir, burada kişi qadın üzərində hökmranlıq edir. Bunu tənqid edən fransız yazıçısı sayəsində biz onun qadın mövzusunda Mirzə Fətəli kimi necə həssas olduğunu anlaya bilirik.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. “Dil və ədəbiyyat” beynəlxalq elmi-nəzəri jurnal; Bakı-2013; Səh. 158-160
2. “Filologiya məsələləri” jurnalı; Səidə Dadaşova; Molyerin estetik baxışları; Bakı-2019; No. 10; Səh. 287-291
3. Molière. Le Tartuffe. Don Juan. Le Misanthrope. Paris: Edition de Georges Couton, 1883,35 p.
4. https://teatro.az/az/post/guler-edilzade---molyer-ve-axundzade-tandemi-480
5. Mirzə Fətəli Axundzadə. Hekayəti Molla İbrahim-Xəlil Kimyagər. Əvvəlinci məclis
6. https://medeniyyet.az/page/news/804/Mirze-Feteli-Axundzade-ve-XIX-esrde-qadin-meselesi-.html?lang=az
7. https://www.humanite.fr/culture-et-savoir/moliere-400-ans-et-tout-son-mordant/moliere-offre-aux-femmes-une-liberte-toute-nouvelle-757601

Пашазаде Гемер Ришад
Научный руководитель: преподаватель Гайдарова Нурай Араз
Экономический и Гуманитарный Колледж при Бакинском Государственном Университете, Баку

СПОСОБЫ ПЕРЕВОДА ИМЕН СОБСТВЕННЫХ В ПРОИЗВЕДЕНИИ ДЖ. РОУЛИНГ “HARRY POTTER AND THE PHILOSOPHER'S STONE”

Среди русскоязычных читателей цикл произведений о Гарри Поттере приобрел большую популярность. Существуют различные версии книг на русском языке, главными из которых можно выделить переводы издательств «Росмэн», сделанный И.Оранским, и «Махаон», сделанный М.Спивак. Эти переводы заметно отличаются друг от друга.

При написании художественного произведения особое внимание уделяется выбору имен героев. Иногда имя заключает в себя скрытый замысел автора. Поэтому появляется необходимость в правильном их переводе. Существуют несколько способов передачи имен собственных на русский язык: транскрипция, транслитерация, контекстуальный перевод, калькирование и т.д.

При переводе имени главного персонажа Harry Potter («Гарри Поттер») оба переводчика применили транслитерацию. Для передачи имени Hermione Granger переводчики использовали транскрипцию («Гермиона Грейнджер»). Несмотря на тот факт, что данное имя в оригинале звучит иначе, вариант «Гермиона» является распространенным в других переводах англоязычных произведений на русском языке, так как он более благозвучный и легко произносимый.

Имя другого персонажа Rubeus Hagrid является «говорящей» и требует особого подхода при переводе. И.Оранский переводит транскрипцией («Рубеус Хагрид»). М.Спивак же передает значение имени как «Огрид», созвучное слову «огр», что является неудачным решением. Этот герой является добродушным великаном. Огр представляет собой образ злобного людоеда и вызывает негативные ассоциации. Имя одного из преподавателей Хогвартса Professor Quirrell также является «говорящей». И.Оранский вновь применяет транскрипцию при переводе («Профессор Квиррелл»). М.Спивак использует калькированный перевод и переводит как «Профессор Белка».

При сравнительном анализе оригинального текста и его переводов можно отметить, что для достижения эквивалентности переводчики воспользовались всеми возможными способами передачи имен собственных.

Список литературы

1. Роулинг, Дж. Гарри Поттер и Волшебный камень / Дж. Роулинг; пер. с англ. М. Спивак. - М.: Махаон, 2013. - 432 с.
2. Роулинг, Дж. Гарри Поттер и философский камень / Дж. Роулинг; пер. с англ. И. Оранский; обраб. М. Литвиновой. - М.: Росмэн, 2002. - 398 с.
3. Rowling, J. K. Harry Potter and the Philosopher's Stone / J. K. Rowling. - L.: Bloomsbury, 1997. - 342 p.

Cəfərova Nur Musa qızı
Elmi rəhbər ADU4-cü kurs tələbəsi Arzu Alieva Yaşar qızı
S.Məhərrəmov adına 106 nömrəli tam orta məktəbin 2Ç sinif şagirdi

DAHİ ŞƏXSİYYƏT

"Sən elə bir zirvəsən, mələklər neyləyəcək?
Dünənim bu günümsən, sənindir gələcək
Nə qədər Azərbaycan, nə qədər bu millət var
Heydər xalqım deyəcək, xalq Heydər söyləyəcək....."

Bu misralar xalqımızın dahi şəxsiyyət Heydər Əliyevə olan əbədi, ölməz sevginin nümunəsidir.O şəxsiyyət ki,çiçəkli bir bahar çağında May ayında dünyaya göz açmışdı.Bu sanki xalqının gələcəyini çi-

çəkləndirəcəyinə bir işarə idi. Prezidentliyi dövründə Vətənimizi tapdağ altından azad etmişdi, beləliklə Azərbaycanın müstəqilliyi bir çox ölkədə tanınmışdı.

Xalqımızın, ölkəmizin inkişafında böyük rol oynamışdır.Heydər Əliyevin güclü siyasəti, bilik və bacarığı sayəsində Azərbaycan tanınmış və inkişaf etmiş ölkələr siyahısına daxil olmuşdur.Ulu öndərimiz xüsusən gənclər siyasətinə önəm vermişdir və bildirmişdi: "Gənclər bizim gələcəyimizdir!" Onun sayəsində biz hal-hazırda yüksək səviyyədə təhsil alırıq,boş zamanımızda fərqli və maraqlı fəaliyyətlərlə məşğul oluruq, beləliklə vətənimizin bilikli, inkişaf etmiş gənclərinə çevrilirik. Müdrik düşüncəsi, gələcəyə dair qurduğu planları onun layiqli davamçısı cənab İlham Əliyev həyata keçirir.

Azərbaycan artıq tam azad və inkişaf etmiş ölkə kimi tanınır.Bizim artıq düşman taptağında torpağımız yoxdur. Biz bunu cənab Heydər Əliyeva, onun layiqli davamçısı İlham Əliyevə və torpaq uğrunda savaşan, hər zaman qəlbimizdə yaşayan şəhid və qazilərimizə borcluyuq. Qürur duyuram ki,belə dahi insanların Vətənində doğulub, böyüyürəm. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!"

Ədəbiyyat siyahısı:

1. E.Axundova "Heydər Əliyəv" 2016(səh 300)
2. H.Əliyev Fondu 2009 ,"Heydər Əliyev :Müdrik Fikirlər" 2008 2009 (səh 206)

Hüseynzadə Elmir Ramiz oğlu
Elmi rəhbər: Zülfiyyə Əkbərli,
filologiya fakültəsi, IV kurs, qrup B20-441
176 saylı tam orta məktəb 8b

ULU ÖNDƏRİN YOLU VƏTƏNƏ VƏ XALQA XİDMƏT NÜMUNƏSİDİR

Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı.

Telman Şahbazovun Heydər Əliyev haqqında sözlərinə diqqət yetirək: Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqımızın millimənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adətənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Ulu öndər Heydər Əliyevin ordu quruculuğunda irəli sürdüyü tələblərə onun bu istiqamətdəki təşkilatçılıq qabiliyyəti və işgüzarlığı nümunə idi. Məsələn, təkcə 1993-1998-ci illər ərzində ulu öndər Heydər Əliyev tərəfindən ordu quruculuğu məsələləri ilə bağlı 109 müşavirə, iclas və görüş keçirilmişdi. Həmin tədbirlərdə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantı olacaq möhkəm ordu formalaşdırılmasının ən müxtəlif məsələləri və vəzifələri müzakirə edilmiş, əldə olunmuş qərarlar Müdafiə Nazirliyinin və digər müvafiq dövlət strukturlarının fəaliyyətinin əsasını təşkil etmişdi. Ordu quruculuğu məsələlərinə dövlət rəhbərliyinin qayğı və tələbkarlığının artırılması, bu istiqamətdə görülən işlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi Silahlı Qüvvələrin formalaşmasına da müsbət təsir göstərirdi.Ulu öndər Heydər Əliyevin qətiyyətinin və böyük sərkərdəlik məharətinin nəticəsi idi ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu və 21 min hektar ərazi işğaldan azad edildi. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Hilal Nəcəfov bildirirdi ki,Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

Ədəbiyyat siyahısı:
1. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. 9 aprel 2002-ci il // "Gələcək gənclərindir", s. 410–416
2. Hilal Nəcəfov General-mayor, Telman ŞAHBAZOV, Silahlı Qüvvələrin Hərbi Akademiyası(Ulu öndərin Vətənə və xalqa nümunəsidir məqaləsindən)

Əzizova Cəmilə Elxan qızı
Elmi rəhbər: Fatimə Mehdili,
ADU,filologiya fakültəsi, IV kurs, qrup B20-441
176 saylı tam orta məktəb, 7a sinfi

DÖVLƏT VƏ AİLƏ SİYASƏTİNİN BANİSİ HEYDƏR ƏLİYEV

Bu il Azərbaycan xalqının böyük oğlu, tarixi şəxsiyyət, Ümummilli Lider Heydər Əliyevin anadan olmasından 101 il ötür. Ulu Öndər Heydər Əliyevin ictimai və siyasi fəaliyyətini araşdıran hər kəs, onun necə qüdrətli, hərtərəfli şəxsiyyət olduğunun şahidinə çevrilir. Müxtəlif peşəli, geniş dünyagörüşlü insanların, həm də əsl ailə həyatını təcəssüm etdirməsi bu gün də gənclərə nümunədir. Azərbaycan xalqının sadiq oğlu, Ümummilli Lider Heydər Əliyevin ailəsi də gənclərimizə örnəkdir. Bütün dünyada layiqli hörmət və böyük nüfuz qazanmış Ulu Öndər Heydər Əliyev bu uğurun arxasında hər zaman ailəsinin dayandığını bildirirdi. Böyük şəxsiyyətlərin arxasında böyük qadınlar dayanır. O qeyd edirdi ki: "Gənc yaşlarımdan mənim həyatım dövlət işi ilə bağlı olubdur. Mən bütün həyatımı buna sərf etmişəm və bu gün də bu yolda çalışıram. Bu yolda mənim həmişə səmərəli, müvəffəqiyyətlə çalışmağımda, hesab edirəm ki, ailə vəziyyətimin rolu böyük olub. Zərifə xanım kimi həyat yoldaşım olduğuna və o, ailəmdə çox yüksək mənəvi mühit yaratdığına görə mən xoşbəxt olmuşam. Həyatımın bütün dövrlərində işlə məşğul olduğuma görə ailə məsələlərinə fikir verməyə vaxtım olmayıb. Bunların hamısı Zərifə xanımın üzərinə düşüb və o da bu vəzifəni şərəflə, sədaqətlə, çox böyük məharətlə yerinə yetirib." Zərifə xanım Əliyevaya verdiyi yüksək dəyər heç kimin diqqətindən yayınmazdı. Hər kəs onların bir-birilərinə necə qarşılıqlı hörmət münasibəti bəslədiklərinin şahidi olmuşdur.

O, Azərbaycanda ailə adətlərimizin ləyaqətlə davam etdirilməsi üçün hər bir imkan və şəraiti yaradır, bu işdə dəstəyini xalqdan əsirgəmirdi. Ailəni, ailə münasibətlərini son dərəcə yüksək dəyərləndirən Heydər Əliyev hesab edirdi ki, cəmiyyətdəki qarşılıqlı münasibətlərdə olduğu kimi, ailədə də hər bir insan özünəməxsus statusa, qayda-qanuna, əlaqələrə və prinsiplərə riayət etməlidir. Hər bir ailə üzvü öhdəsinə düşən funksiyaları yerinə yetirməli, ailənin rifahı üçün bacardığını etməli, ailə üzvlərinə hörmət və qayğı göstərməli, ailənin sevincini və kədərini birgə yaşamalı, bu sahədə mövcud olan ümumi ənənə və qaydalara sadiq olmalıdır. Çünki ailə olmasa, cəmiyyət də inkişaf edə bilməz. Cəmiyyətin inkişafı ailələrin inkişafından asılıdır.

Ədəbiyyat siyahısı:
1. https://sesqazeti.az/news/social/606520.html
2. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu. 9 aprel 2002-ci il // "Gələcək gənclərindir", Bakı: Azərbaycan, 2004, s. 410–416

Mirzəyev Hüseyn Tərlan oğlu
Elmi rəhbər: Leyla Əbilova,
filologiya, IV kurs, qrup B20-441
176 saylı tam orta məktəb 5a sinfi

HEYDƏR ƏLİYEV-UĞURLU TƏHSİL İSLAHATLARININ BANİSİ

Təhsil siyasəti hər bir ölkənin strateji hədəflərində birinci yerdə durur, inkişaf konsepsiyasının mühüm tərkib hissəsi kimi qəbul edilir. Ölkəmizdə təhsilə qayğı və diqqət, onun inkişafının dəstəklənməsi Ümummilli Liderimiz Heydər Əliyevin dövlət quruculuğunun mühüm tərkib hissəsi olmuşdur. Onun təh-

sil siyasətinin fəlsəfəsi Azərbaycan təhsilini artıq öz sistemini yarada bilməklə bərabər, uğurlu nəticələrini qazanmış ölkələrin təhsil təcrübələri ilə zənginləşdirməkdən ibarət idi.

Bir fakt aydındır ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda elm və təhsillə bağlı siyasəti artıq real şəkildə özünün müsbət təzahürünü göstərməkdədir.

Ulu öndər bu sahələrə xüsusi həssaslıqla yanaşmış və daim qayğı göstərmişdir. Çıxışlarında təhsilin mürəkkəb bir sahə olduğunu dəfələrlə vurğulayaraq demişdir ki, "Təhsil sahəsi nə sənayedir, nə kənd təsərrüfatıdır, nə ticarətdir. Bu, cəmiyyətin xüsusi, intellektual cəhətini əks etdirən bir sahədir. Belə halda təhsil sisteminə çox diqqətlə yanaşmaq lazımdır və bu sistemə münasibət çox həssas olmalıdır".

H.Əliyev dahi bir şəxsiyyət kimi daim gələcəyə, irəliyə, sabaha baxıb, bütün işlərini Azərbaycanın gələcək müstəqilliyinin təmin edilməsi idealının gerçəkləşdirilməsinə yönəldirdi. Digər tərəfdən, azərbaycanlılar üçün o dövrün mürəkkəbliklərindən, çətinliklərindən biri də sovet Azərbaycanının partiya və inzibati orqanlarında kök salmış erməni mafiyası idi. Bakıda yaşayan ermənilər siyasi-iqtisadi, hərbi və hüquq-mühafizə orqanlarında, hakimiyyətin bütün pillələrində isti yuva qurmuşdular və qüvvələrini milli kadrların yetişməsinin qarşısını almağa yönəltmişdilər. Belə ziddiyyətli, ağır və mürəkkəb bir dövrdə, 1969-cu ildə H.Əliyev Azərbaycana rəhbər təyin olundu.

Hələ ötən əsrin 70-ci illərində Heydər Əliyev bu məsələni daim diqqət mərkəzində saxlamış, təhsil sistemində ciddi islahatlar həyata keçirilmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində sovet Azərbaycanında orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-ə çatdırılmışdır.

70-ci illərin əvvəllərinə qədər Azərbaycanda orta ümumtəhsil məktəblərinin dərsliklərlə təminatı olduqca aşağı səviyyədə idi. Lakin ümummilli lider qısa müddətdə bu problemin də həllinə nail oldu və 1978-ci ildən etibarən şagirdlərin dərsliklərlə pulsuz təminatı ənənəsinin əsası qoyuldu.

İstifadə olunmuş mənbələr:

1. https://www.anl.az/down/meqale/xalqqazeti/xalqqazeti_dekabr2009/99233.htm
2. https://www.muallim.edu.az/news.php?id=6595
3. https://files.preslib.az/projects/heydaraliyev/articles/he0395.pdf
4. http://www.anl.az/el/Kitab/259542.pdf

Qasımov İsmayıl Elşad oğlu
176 saylı tam orta məktəb 5b sinfi
Nəzrin İsrafilzadə Ağarəfi qızı; 329A
Elmi rəhbər: Səbinə Abbasova,
filologiya fakültəsi, qrup B20-441

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN DİLİNİN İNKİŞAFI

Tarix göstərir ki, Azərbaycan dili müxtəlif dövrlərdə rəsmən dövlət dili kimi elan edilib bir müddət fəaliyyət göstərsə də, dövlət dili statusu uzun sürə bilməmişdir. Yalnız xalqımızın ümummilli lideri Heydər Əliyev 1969-cu ildə hakimiyyətə gəldikdən sonra milli dilimizin xilaskarı kimi tarixə öz əbədi imzasını qoydu. Tam qətiyyətlə demək olar ki, ulu öndər Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində yeritdiyi fəal və ardıcıl dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi.

Ölkə rəhbərinin təşəbbüsü və fəal iştirakı ilə 1995-ci il oktyabrın 31-də Konstitusiyanın dövlət dili haqqında maddəsi ilə bağlı keçirilən demokratik müzakirələr nəticəsində Azərbaycan dilinin qanuni haqqı özünə qaytarıldı. Həmin il noyabrın 12-də qəbul olunan Konstitusiyada Azərbaycan dili Azərbaycan Respublikasının Dövlət dili kimi təsbit olundu.

Azərbaycan dilinin dövlət dili statusuna yüksəlməsi yolunda möhtərəm Heydər Əliyevin başladığı müqəddəs milli mücadilənin tarixi bir qərinədən çox davam etmişdir. 1969-2003-cü illərdə Azərbaycan dilinin hərtərəfli inkişafı yalnız rəsmi sənədlərdə deyil, sözün həqiqi mənasında, gündəlik həyatda, təcrübədə ümumişlək dilə, dövlət dilinə çevrilməsi, dünya diplomatiyasına yol tapması ulu öndərimizin ana

dilimizin inkişafına göstərdiyi qayğı və diqqətin nəticəsində mümkün olmuşdur. Heydər Əliyev xalqın formalaşmasında, yaşamasında ana dilinin rolunu yüksək qiymətləndirmişdir: "Hər bir xalq öz dili ilə yaranır. Ancaq bu dili yaşatmaq, inkişaf etdirmək və dünya mədəniyyəti səviyyəsinə qaldırmaq xalqın qabaqcıl adamlarının, elm, bilik xadimlərinin fəaliyyəti nəticəsində mümkün olur". Azərbaycan dilinin inkişafı, onun yabançı təsirlərdən qorunması, habelə bu dilin saflığı, təmizliyi istiqamətində Heydər Əliyevin yeritdiyi siyasət bu gün onun siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Ədəbiyyat siyahısı:

1. Ayşən Sadıqlı, Ümummilli Lider Heydər Əliyev və Azərbaycan dili; Bakı, Azerbaijan-News.az2011
2. Azerbaijan-News.az

Караева Алсу Эльхан
Научный руководитель: студентка Мамедова Сабина Джабир
Комплекс Школы Лицея имени Гюльтекин Аскеровой

ГЕЙДАР АЛИЕВ И АФОРИЗМЫ

Афоризмы – это короткие выразительные высказывания, содержащие глубокие истины или мудрые мысли. Гейдар Алиев, выдающийся государственный деятель, также был известен своими мудрыми и запоминающимися афоризмами. В данном тезисе мы рассмотрим не только сами афоризмы Гейдара Алиева, но и их значение в контексте его политической деятельности и восприятия обществом.

Афоризмы как инструмент политической коммуникации:

1. Убедительность и эмоциональная окраска: Афоризмы Гейдара Алиева часто отличались ясностью и эмоциональной окраской, что делало их запоминающимися и убедительными. Например, его знаменитый афоризм "Азербайджанцы не станут рабами никому" отражает глубокие национальные чувства и решимость защищать независимость страны.

2. Метод обучения и воспитания: Гейдар Алиев использовал свои афоризмы как средство обучения и воспитания. Многие из них содержат важные уроки мудрости и патриотизма. Например, его слова "Слава тому народу, который помнит своих героев!" подчеркивают важность сохранения и передачи исторической памяти.

3. Политическая стратегия и риторика: Афоризмы Гейдара Алиева были частью его политической стратегии и риторики. Они помогали укреплять его авторитет как лидера, обретать поддержку народа и формировать общественное мнение. Например, его высказывание "Всегда нужно делать то, что нужно делать" подчеркивает принципиальность и целеустремленность его лидерского стиля. [1, 67]

Влияние афоризмов на общество и их актуальность:

1. Поддержание национального единства: Афоризмы Гейдара Алиева, отражающие его патриотические и национальные ценности, помогали укреплять национальное единство и самосознание. Они поднимали дух народа и напоминали о важности общенациональных ценностей. [2, 38]

2. Актуальность в современном контексте: Многие афоризмы Гейдара Алиева сохраняют свою актуальность и в современном мире. Их ценность заключается в их универсальности и применимости к различным ситуациям и обстоятельствам. [1, 24]

Афоризмы Гейдара Алиева не только отражают его мысли и убеждения, но и играют важную роль в политической коммуникации, воспитании и мотивации общества. Они оставляют незабываемый след в истории Азербайджана и продолжают вдохновлять людей. Также отметим, что в 2023-м году в результате совместной работы заведующей кафедры лексикологии и стилистики немецкого языка Азербайджанского Университета Языков Хураман Аскеровой и студентов Азербайджанского Университета Языков была издана книга с афоризмами Гейдара Алиева на немецком языке.

Использованная литература:

1. Рамиз Мехтиев. "Гейдар Алиев: афоризмы и мысли". Баку: Издательство "Истина", 2005.
2. Айгюль Гасымова. "Лидерство и риторика Гейдара Алиева". Москва: Издательство "Просвещение", 2010.

Rzayev Abbas
Nesirli Gulsum, ADU, Təhsil-1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 6b sinfi

AZƏRBAYCAN RUHUNUN SİMVOLU

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.
Heydər Əliyev

Zaman-zaman hər bir xalqın inkişafında və tərəqqisində müstəsna xidmətlər göstərmiş şəxsiyyətlər yetişir. Heç şübhəsiz, Azərbaycan xalqı da, bu baxımdan, tarixi şəxsiyyətlər yetişdirib və bu mənada Ulu öndər Heydər Əliyev xalqımızın yetişdirdiyi ən böyük şəxsiyyətlərdən biridir. Məhz xalqımız üçün göstərdiyi misilsiz xidmətlər Heydər Əliyevi Ümummilli lider zirvəsinə yüksəldib. Bu xidmətlərin nəticəsidir ki, hər il 10 may tarixi xalqımız tərəfindən milli bayram səviyyəsində qeyd olunur. Məlum olduğu kimi, bu il 90 illik yubileyini qeyd edəcəyimiz Ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycan xalqının tərəqqi və inkişaf dövrü başladı. Təsadüfi deyil ki, məhz Ümummilli liderimiz Heydər Əliyevin ötən əsrin 70-ci illərinin əvvəllərindən başlayaraq xalqımızın milli-mənəvi dəyərlərinin qorunması, tariximizin düzgün istiqamətdə öyrənilməsi, ana dilimizin rolunun artırılması, xalqın azadlıq istəyinin təcəssümü kimi ortaya çıxan ədəbi-bədii nümunələrin hücumlardan qorunması yönündə apardığı məqsədyönlü siyasət cəmiyyətdə milli ruhun oyanışına təkan verdi.

Ulu öndər Heydər Əliyev Azərbaycanın gələcək müstəqilliyi üçün zəruri olacaq sosial-iqtisadi əsasları, infrastruktur təminatını, milli kadr potensialını formalaşdırdı. İnsanlarımıza milli dövlətçilik düşüncəsini aşıladı. Hər bir azərbaycanlı özünü bəlli bir coğrafiyanın gələcəyinə görə məsuliyyət daşıyan vətəndaş kimi dərk etməyə başladı. Ölkə üçün gərəkli mütəxəssislərin hazırlanması məqsədilə 1970-1982-ci illər arasında və daha sonralar minlərlə azərbaycanlı gənc məhz Heydər Əliyevin təşəbbüsü əsasında keçmiş SSRİ-nin müxtəlif şəhərlərindəki nüfuzlu ali məktəblərdə təhsil almağa göndərildilər. Sadalananlar Ulu öndər Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə Onun siyasi iradəsi əsasında görülmüş işlərin yalnız məhdud bir hissəsidir və bütün bunlar 80-ci illərin sonlarına doğru Azərbaycanın istiqlal mübarizəsi tarixinin hərəkətverici qüvvəsi rolunda çıxış etdi. Ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir.

Təbii ki, bu istiqamətdəki fəaliyyətində Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan dilinin inkişafına xüsusi diqqət yetirib. Çünki ana dili hər bir xalqın varlığını təsdiq edən başlıca amildir. Ana dili hər bir xalqın milli sərvəti, həmin xalqın varlığının təsdiqidir. Dil millətin formalaşmasında vacib olan amillərdən biridir. Xalqın keçdiyi tarixi yol, onun mədəni səviyyəsi, ilk növbədə, onun dilində öz əksini tapır. Dil, həm də, çətin tarixi-siyasi dövrlərdə millətin varlığını sürdürməsi üçün əsas vasitədir.

Dilini itirən xalq məhvə məhkumdur. Azərbaycan dili də Azərbaycan xalqının milli sərvətidir və xalqımız, millətimiz tarix durduqca bu sərvətin qayğısına qalmalı və dilimizi gələcək nəsillərə ötürməlidir. Azərbaycan dilinin bugünkü inkişaf səviyyəsi xalqımızın dünyanın ən qədim xalqlarından biri olduğunu təsdiqləyir. Lakin Azərbaycan dilinin yaxın keçmişdə ciddi sınaqlarla üzləşdiyini də unutmaq olmaz.

Belə ki, çar Rusiyasının ruslaşdırma siyasətindən sonra 1918-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu qısa müddətdə dilimizin inkişafına böyük önəm verildi. Daha sonra Azərbaycanın Sovet imperiyasının tərkibində olduğu illərdə isə dilimizə qarşı hücumların yeni dalğası başlandı. "Sovet xalqı" formalaşdırmaq adı altında müxtəlif xalqların dilini, mədəniyyətini, milli kimliyini yox etməyə yönələn siyasət Azərbaycanda da özünü göstərirdi. Belə ki, ölkədə rəsmi dövlət dili rus dili idi, rəsmi tədbirlərdə bir qayda olaraq rus dilində çıxışlar üstünlük təşkil edirdi. Oxşar vəziyyət özünü radio, televiziya və mətbuatda da göstərirdi. Ölkədə elə bir psixoloji mühit yaradılmışdı ki, hətta, bəzən sıravi insanlar arasında da Azərbaycan dilində danışmaq, rus dilini bilməmək qəbahət hesab olunurdu.

Lakin Azərbaycan dilini sevən, ona hörmətlə yanaşan Ümummilli lider Heydər Əliyev dilə münasibəti ilə hər kəsə örnək oldu. 1969-1982-ci illərdə sovet Azərbaycanına rəhbərlik edən Ulu öndər bir çox ziyalıların cəsarət etmədiyi halda, müxtəlif tədbirlərdə Azərbaycan dilində çıxış etməklə dilimizə verdiyi dəyəri göstərdi. O, həmçinin, rusdilli məktəblərdə Azərbaycan dilində dərsliklərin daha çox istifadəsinə dair göstərişlər də vermişdi.

Bunlarla kifayətlənməyən Ulu öndər 1978-ci ildə tarixi bir uğura imza atdı. Belə ki, həmin ildə qəbul olunan Azərbaycan SSR-in növbəti Konstitusiyasında ilk dəfə olaraq, rus dili ilə yanaşı, Azərbaycan dili rəsmi dil statusu əldə etdi. Azərbaycan yerli dilin rəsmi dil statusuna malik olduğu azsaylı Sovet respublikalarından biri idi.

Ədəbiyyat:

1. https://azertag.az/xeber/uchrengli_bayragimiz_xalqimizin_mubarizlik_ruhunun_simvoludur-1215662
2. https://ednews.net/az/news/society/475481-azerbaycan-xalqinin-sinmayan-ruhunun-simvolu

Dünyamalıyeva Zəhra
Elmi rəhbər: Sevinc Nuriyeva
Elmi rəhbər: ADU, Filologiya fakültəsi, 441
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 7c sinfi

HEYDƏR ƏLİYEVİN SİYASƏTİNİN TƏNTƏNƏSİ

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.
Heydər Əliyev

Xalqın, millətin böyüklüyü say tərkibi ilə deyil, soy-kökünün qədimliyi, tarixinin, mədəniyyətinin, milli-mənəvi dəyərlərinin zənginliyi, ən əsası bəşəriyyətə bəxş etdiyi tarixi şəxsiyyətləri ilə müəyyənləşir. ölkəmizdən çox-çox uzaqlarda şöhrət tapmış dövlət xadimləri, siyasətçilər, uzaqgörənliyi ilə tanınan müdrik şəxsiyyətlər haqqında söz düşəndə, ilk növbədə, ümummilli lider Heydər Əliyevin adı çəkilir. Ulu öndər Heydər Əliyev xalqımızın dünya tarixinə bəxş etdiyi elə qüdrətli dövlət xadimlərindəndir ki, yeni-yeni nəsillər zaman-zaman Onun ömür yoluna müraciət edəcək, zəngin irsini araşdıracaq, təhlil edəcək, öyrənəcək, liderlik məktəbindən dərs alacaqlar. Hər bir xalq, millət keçmişinə hörmət bəslədikdə onun gələcəyi parlaq olur, dünyada özünü yüksək səviyyədə təsdiq edir. Ulu öndər Heydər Əliyev Azərbaycanın keçmişi deyil, ölkəmizin bugünkü uğurları və perspektivləri Onun adı ilə bağlıdır. ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən çoxlu kitablar yazılıb və bundan sonra da yazılacaq. Bu, yalnız Ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə deyil, Onun şəxsiyyətinin miqyası, dünyagörüşünün genişliyi və Azərbaycan xalqı, dövləti qarşısındakı misilsiz xidmətləri ilə bağlıdır. Şəxsiyyətin böyüklüyü onun sadəliyində ifadə olunur. Ulu öndər Heydər Əliyev "Mən çox böyük sınaqlardan keçmiş bir adamam və həyatımı da özümə yox, xalqıma həsr etmişəm" söyləməklə Vətənə, xalqına olan məhəbbətini aydın şəkildə ifadə edirdi. "Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır" – söyləyən Ulu öndər Heydər Əliyev istər sovetlər dönəmində, istərsə də 1993-cü ildən sonra ölkənin iqtisadi, sosial inkişafı istiqamətində mühüm addımlar atmış, Azərbaycanın bugünkü inkişaf səviyyəsinə çatmasının möhkəm təməlini qoymuşdur. Heydər Əliyev ideyaları Azərbaycanın dünəninin, bu gününün və sabahının təminatçısıdır. Bugünkü Azərbaycan ümummilli liderin əsasını qoyduğu möhkəm təməl üzərində ucalır. Arzusu, amalı Azərbaycanı iqtisadi cəhətdən inkişaf etmiş müstəqil, dünya birliyində tanınan bütöv bir dövlət kimi görmək idi. ölkəmizin hərtərəfli inkişafında iqtisadiyyatın rolunu önə çəkən Ulu öndər Heydər Əliyevin bu sahədə gördüyü işləri ətraflı təhlil etsək, Onun uzaqgörənliyinin bir daha əyani şahidi olarıq. Ulu öndər Heydər Əliyev hələ 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrlərdə iqtisadiyyatın inkişafına xüsusi diqqət göstərərək, ölkəmizi geridə qalmış respublikadan çiçəklənən, inkişaf edən bir diyara çevirmişdir. Ən böyük sənaye obyektlərinin tikilib istifadəyə verilməsi, sosial infrastrukturun formalaşması, yüksək səviyyədə elmi tədqiqatların aparılması, kadr hazırlığı, gənclərin dünyanın ən nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi və digər istiqamətlərdə əldə olunan uğurlar ümummilli lider Heydər Əliyevin əzmkar fəaliyyətinin nəticəsidir. Sovetlər birliyi dövründə ölkəmizi qabaqcıl respublikalar sırasına çıxar-

dığı kimi, 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə dövlətçilik tarixinin yeni mərhələsinin, müstəqilliyi əbədiləşdirən uğurlu bir yolun başlanğıcını qoydu. Bir məqamı da xüsusi qeyd etmək istərdim ki, Ulu öndər Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri olarkən Muxtar Respublikada həyata keçirdiyi islahatlar sonradan daha böyük miqyasda, bütün Azərbaycanda tətbiq olundu. Onun Naxçıvanda yaşadığı illərə nəzər saldıqda aydın görürük ki, bu gün haqqında ürəkdolusu danışdığımız və ölkəmizin beynəlxalq aləmdə nüfuzunu artıran yeniliklərin, islahatların təməli məhz o çətin illərdə qoyulub. Ulu öndər siyasətə qayıtdığı ilk gündən "nədən başlamalı" sualına qarşıdakı onillər üçün hesablanmış addımları ilə cavab verdi. Naxçıvan parlamentinin 1990-cı ilin noyabrında keçirilən sessiyasında Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın suverenliyi və müstəqilliyi üçün böyük əhəmiyyəti olan mühüm qərarlar qəbul olundu. "Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında", "Naxçıvan MR dövlət hakimiyyəti orqanları haqqında", "Naxçıvan MR-in dövlət rəmzləri haqqında", "1990-cı ilin yanvar ayında törədilən Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında"kı tarixi qərarlar dərin zəkadan doğan siyasi uzaqgörənliyin nümunəsi olmaqla, sonrakı islahatlar üçün bağlanğıc oldu.

Ədəbiyyat:

1. https://www.anl.az/down/meqale/xalqqazeti/2021/may/744093.htm
2. https://respublika-news.az/news/heyder-eliyev-siyasetinin-tentenesi

Mahmudzadə Kamal
Elmi rəhbər: ADU.Filologiya fakültəsi, 441
Nuriyeva Sevinc,
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 7c sinfi

HEYDƏR ƏLİYEVİN XARİCİ SİYASƏT STRATEGİYASI

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir.
Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.
Heydər Əliyev

Ötən əsrin sonlarında dünyada bir sıra dəyişikliklərin baş verməsi nəticəsində Şərqlə Qərb arasındakı qarşıdurma və gərginlik tədricən aradan qalxdı və beləliklə "soyuq müharibə" başa çatmış oldu. Həmin proseslərin nəticəsi olaraq bir sıra Şərqi Avropa ölkələri öz dövlət müstəqilliklərini əldə etdilər. Bunun ardınca ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ kimi böyük bir imperiyanın dağılması nəticəsində yeni müstəqil dövlətlərin yaranması prosesi başladı. Belə müstəqil dövlətlərdən biri də 1991-ci ilin oktyabr ayının 18-də öz dövlət müstəqilliyini qazanmış Azərbaycan Respublikası oldu. Dövlət müstəqilliyinin elan olunmasından sonra qısa bir zaman müddətində dünyanın bir çox dövlətləri Azərbaycan Respublikasının dövlət müstəqilliyini tanıdı. Yeni yaranmış müstəqil dövlət kimi Azərbaycan Respublikası bir çox beynəlxalq və regional təşkilatlara daxil olaraq həmin təşkilatlarla və eyni zamanda dünyanın bir sıra dövlətləri ilə diplomatik əlaqə və münasibətlər yaratmağa başlamışdır.

Çox təəssüflər olsun ki, dövlət müstəqilliyinin ilk illərində qısa bir zaman kəsiyində bir-birini əvəz edən məlum hakimiyyətlərin səriştəsiz və naşı siyasətləri nəticəsində ölkəmiz dünyada və regionda təcrid vəziyyətinə düşdü. Hətta iş o yerə çatdı ki, bəzi yaxın və uzaq ölkələrlə Azərbaycan arasında qarşıdurma vəziyyətinə gətirib çıxara biləcək ziddiyyətlər meydana gəldi.

1993-cü ildə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəlməsi nəticəsində ölkə həyatının başqa sahələrində olduğu kimi xarici siyasət sahəsində də əhəmiyyətli dəyişikliklər baş verdi. Həmin dövrdə yenicə dövlət müstəqilliyini əldə etmiş gənc dövlətin milli maraqlara uyğun və elmi cəhətdən əsaslandırılmış xarici siyasət kursunun işlənib hazırlanmasına və praktik olaraq həyata keçirilməsinə çox böyük ehtiyac vardı. Çox çətin və mürəkkəb dövrdə və əhatədə olan Azərbaycan dövlətinin xarici siyasət kursunu böyük dövlətçilik təcrübəsi olan, dünyada baş verən siyasi hadisə və proseslərə dərindən bələd olan Heydər Əliyev işləyib hazırlaya bilərdi. Heydər Əliyevin qeyri-adi əzmkarlığı, iradəsi və zəkası sayəsində ölkənin daxilində baş verən vətəndaş müharibəsi və hakimiyyət çevrilişləri cəhdlərinin qarşısı alındı. Ölkənin daxilində davamlı sabitliyin və vətəndaş həm-

rəyliyinin əldə olunması kimi çətin və mürəkkəb vəzifələr də öz həllini tapmış oldu. Bütün bu hadisə və proseslərin düzgün istiqamətə yönəldilməsi Ermənistanın Azərbaycanın ərazisinə hərbi təcavüzü və təcavüzün qarşısının alınması fonunda baş verirdi. Həmin dövrdə Ermənistanın Azərbaycan torpaqlarını işğal etməsi və işğalın nəticələrinin dünya ictimaiyyətinə çatdırılması və Azərbaycanın haqlı tələblərinin yerinə yetirilməsi ölkəmizin xarici siyasət kursunda əsas yerlərdən birini tutmuşdu.

Dünyada və regionda baş verən siyasi hadisə və prosesləri dərindən və hərtərəfli təhlil edərək, ulu öndər Heydər Əliyev ilk növbədə Azərbaycanın beynəlxalq təşkilatlarda təmsil olunmasına nail oldu. Həmin dövrdə Heydər Əliyev beynəlxalq təşkilatların tribunalarından çox bacarıqla istifadə edərək, Ermənistanın Azərbaycana təcavüzünün nəticələri və ölkəmiz haqqında obyektiv məlumatları dünyaya çatdırmağa çalışırdı. Ulu öndər bütün xarici səfərlərində keçirdiyi görüşlər zamanı ölkəmizin tarixi, mədəniyyəti, təbii sərvətləri, geosiyasi mövqeyi haqqında ətraflı məlumatlar verməklə yanaşı əsas diqqəti Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və həmin münaqişənin sülh yolu ilə tənzimlənməsi məsələlərinə yönəldirdi.

Ədəbiyyat:

1. https://aircenter.az/uploads/JFmbTHN8xUPn.pdf
2. https://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/118928.htm

Həsənli Hümeysa
Ağalarlı Nəzrin, ADU, Təhsil-1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 7a sinfi

MÜSTƏQİL AZƏRBAYCANIN YENİ İNKİŞAF STRATEGİYASINN MÜƏLLİFİ

Həqiqi mənəviyyatı milyonlara, milyardlara da almaq mümkün deyildir.
Amma milyonları, milyardları olan adamlar cəmiyyətdə mənəviyyatsız heç bir şeydirlər.
Heydər Əliyev

Tarixi proseslərə nəzər saldıqda bir daha aydın olur ki, ictimai-siyasi formasiyalarda məhz xarizmatik liderlər məsuliyyəti öz üzərlərinə götürərək xalqın daim arzusunda olduğu azadlıq, müstəqillik və milli dövlətçilik kimi müqəddəs idealların gerçəkləşməsində həlledici rol oynayır, bununla da özlərinə əbədiyaşarlıq qazanırlar. Tanrı belə şəxsiyyətlərə həm də xilaskarlıq missiyası verir – zamanın ən sərt sınaqlarından çıxmış bu insanlar bütün bir milləti, ölkəni fırtınalardan, bəlalardan, fəlakətlərdən xilas edir, onu işıqlı gələcəyə aparır. Azərbaycan xalqının Ümummilli Lideri, görkəmli dövlət xadimi Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.

Xalqımızın müstəqillik arzusunu gerçəkliyə çevirərək milyonların qəlbində əbədi abidə ucaldan Ulu Öndərimiz həm də müstəqil Azərbaycanın inkişaf strategiyasının müəllifi kimi böyük ehtiramla anılır. Gəncliyində memar olmaq istəyən dahi şəxsiyyət özünün şah əsəri olan müstəqil Azərbaycan Respublikasını yaratmışdır.

Heydər Əliyev bütün dövrlərdə ölkəsinin, xalqının milli mənafeyini hər şeydən üstün tutub Ümummilli Liderimiz siyasi müdriklik və düha ilə hələ totalitar sovet rejimi dövründə Azərbaycan xalqının müstəqil dövlətçilik konsepsiyasını formalaşdırıb, sonralar isə ilk tarixi fürsətdə elə özü də bu mühüm siyasi konsepsiyanı həyata keçirib. Düz 35 illik bir epoxanın aparıcı şəxsiyyəti, nəhəng siması olan dahi öndərin böyük siyasətdə qət etdiyi çətin və şərəfli yol, siyasi iradə və obyektiv mövqe, atdığı qətiyyətli addımlar, Azərbaycan xalqı və dövlətçiliyinə bəxş etdiyi töhfələr əsl məktəbdir. Heydər Əliyev siyasi məktəbi...

10 may 1923-cü ildə Naxçıvanda dünyaya göz açan, gəncliyindən öz dərin zəkası və fitri istedadı ilə seçilən, sovet dövlət təhlükəsizlik orqanlarında çalışmaqla siyasi yetkinlik qazanan, dövlət idarəçiliyi sirlərinə yiyələnən ulu öndər Heydər Əliyev deyirdi: "Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda, yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi, bəlkə də, bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".

Bu gün müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğurun təməlində Ümummilli Liderimizin müəllifi olduğu inkişaf strategiyası dayanır. Bu strategiyanın tarixi Ulu Öndərimizin 1969-cu ildə Azər-

baycana rəhbər seçilməsindən başlayır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, ölkəmiz ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerləri tuturdu. Görkəmli dövlət xadiminin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açıb və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilib. O dövrdə dahi rəhbər sənaye və kənd təsərrüfatının inkişafına yönəlmiş çox mühüm qərarlar qəbul edib, 14 il ərzində 1048 sənaye obyekti tikilib.

Reallıqdır ki, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması və kadr hazırlığı kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq lazım idi. Ötən əsrin 70-ci illərindən başlanan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə zəmin yaratdı.

Türk dünyasının böyük oğlu 1982-1987-ci illərdə Siyasi Büronun üzvü və SSRİ Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək dövlət vəzifələrində fəaliyyət göstərəndə də Azərbaycanın mənafeyini üstün tutub, keçmiş ittifaqın maddi resurslarının respublikamızın inkişafına yönəldilməsinə nail olub.

Sovet İttifaqında hamı Heydər Əliyev-Azərbaycan birliyi ilə hesablaşır, heç kim Azərbaycanın inkişafının qarşısını almağa, əsassız torpaq iddiası irəli sürməyə cəsarət etmirdi. Təsadüfi deyil ki, qərəzli təzyiqlər nəticəsində 1987-ci ildə Ulu Öndərimiz siyasi hakimiyyətdən uzaqlaşdırılandan 15 gün sonra Azərbaycanın Dağlıq Qarabağ ərazisinin müstəqilliyi məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılı günləri başlandı.

Ədəbiyyat:

1. https://genprosecutor.gov.az/az/post/2436
2. https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_dekabr2008/63932.htm

Babayeva Hülya
Elmi rəhbər: Ağalarlı Nəzrin, ADU, Təhsil-1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 7a sinfi

MÜKƏMMƏL KONSTİTUSİYANINN BANİSİ

Xalqımız üçün qürur hissini yaradan, iftixar hissini verən odur ki, o, artıq azad yaşayır, öz taleyinin sahibidir və Azərbaycan xalqının dünya xalqları içərisində imzası var.
Heydər Əliyev

Dünya təcrübəsi göstərir ki, hər bir xalqın yaranmış tarixi imkandan bəhrələnərək öz müstəqil dövlətini qurması, ilk növbədə lider amili ilə bağlı olmaqla onun yaradıcı təfəkkürü, siyasi əzmi, yüksək intellekti, qətiyyəti və dövlətçilik səriştəsi sayəsində gerçəkləşir. Bütövlükdə millətin taleyində tarixi dönüşə zəmin yaradan taleyüklü məqamlarda bir daha təsdiqlənir ki, əsl siyasi lider öz cəsarəti, çevik və prinsipial qərarları, ən çətin şəraitdə çıxış yolu tapmaq məharəti ilə seçilən fitri istedada malik insanlardır. Milli tariximizə bu kimi keyfiyyətləri ilə öz adını əbədi həkk etmiş lider Heydər Əliyevdir. Məhz bu nadir tarixi sima XX əsrin sonunda xalqımızı əsrlər boyu can atdığı həqiqi müstəqillik amalına qovuşdurmuş, mütərəqqi tarixi ənənə əsasında yeni dövlətçilik konsepsiyasını irəli sürmüş, onun dayanıqlı inkişafı üçün etibarlı zəmin yaratmışdır.

Ümummilli lider daim xalqın saf və ali məqsədlər uğrunda mübarizəsinin önündə dayanmış, əlverişli siyasi şansdan böyük ustalıqla bəhrələnmişdir. Heydər Əliyev dühası Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra siyasi reallıqdan çıxıb ideya formasında azərbaycanlıların istiqlal duyğularında qığılcım kimi közərən milli dövlətçilik düşüncəsini – müstəqil Azərbaycan dövləti kimi əzəmətli reallığa qovuşdurmuşdur. Sağlığında ümummilli liderlik ucalığına qovuşmuş bu müdrik şəxsiyyət böyük fədakarlıqlar hesabına qurub-yaratdığı dövlətin sarsılmazlığını, demokratik yüksəlişini, Azərbaycanın müstəqilliyinin əbədiliyini, daimiliyini, dönməzliyini təmin etmişdir.

Hər bir millətin tarixi inkişafı, qarşıya qoyduğu hədəflərə yetişmək əzmi, ilk növbədə onun malik olduğu milli-mənəvi potensialdan, dəyərlər sistemindən qaynaqlanır. Bu reallıqdan çıxış edən ulu öndər Heydər Əliyev Azərbaycanı qoruyub inkişaf etdirmək, hansısa mərhələdə milli müstəqilliyə qovuşdurmaq üçün ilk növbədə xalqımızın zəngin milli-mənəvi irsini, tarixini, mədəniyyətini, dilini, bir sözlə özünə-

məxsusluğunu şərtləndirən dəyərlərini qorumağa çalışmışdır. Əslində, ümummilli lider Heydər Əliyevin 1969-cu ilin 14 iyulunda Azərbaycanda siyasi hakimiyyətə gəlişinin ən qabarıq siyasi təzahürü də imperiyanın sərt ideoloji qəlibləri, buxovları şəraitində azərbaycançılıq məfkurəsinin, milli ruhun yüksəlişi, xalqın tarixi kökünə qayıdışı kimi fundamental prinsiplər əsasında milli dövlətçilik arzularının və hisslərinin güclənməsinin real siyasi amilə çevrilməsidir.

Respublika rəhbərliyinə irəli çəkildiyi ilk gündən mövcud nöqsanları açıq-aşkar ictimai müzakirəyə çıxararaq onların həlli yollarını göstərən Heydər Əliyev problemlərin tez bir zamanda aradan qaldırılması üçün lazımi iradə, qətiyyət və prinsipiallıq göstərmiş, intibah prosesinə təkan vermişdir. Bu baxımdan ümummilli liderin Azərbaycan KP MK-nın 5 avqust 1969-cu il tarixli plenumundakı dərin məzmunlu, eyni zamanda tənqidi ruhlu çıxışı sovet Azərbaycanını problemlər məngənəsindən dinamik inkişaf yoluna çıxaran pozitiv prosesin başlanğıcı kimi ehtiramla xatırlanır. Heydər Əliyev plenumda mövcud problemləri konkret şəkildə, çılpaqlığı ilə önə çəkmiş, dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməz olduğunu demişdir. Ümummilli lider, eyni zamanda çoxsaylı problemlərin həllində bir sıra rəhbər şəxslərin məsuliyyət daşıdığını da açıq bəyan etmişdir.

Ulu öndər keçmiş ittifaqın iqtisadiyyatı üçün əlverişli xammal bazasına çevrilmiş Azərbaycanın yeni inkişaf strategiyasını böyük uzaqgörənliklə işləyib həyata keçirmişdir. Bunun nəticəsi kimi bir sıra əsas göstəricilər üzrə geridə qalmış Azərbaycan qısa müddətdə inkişafının yeni mərhələsinə qədəm qoyaraq keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi. Bugünkü müstəqil Azərbaycan dövlətinin iqtisadi-siyasi əsaslarının, milli kadr potensialının formalaşması, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin açılması da məhz ötən əsrin 70-80-ci illərinə təsadüf edir. Ümummilli lider Heydər Əliyevin qətiyyəti, iradəsi və təşəbbüskarlığı ilə keçmiş SSRİ-nin bir sıra strateji əhəmiyyətli müəssisələri məhz Azərbaycanda inşa olunmuş, bununla da, ölkəmizin gələcək müstəqilliyinin iqtisadi əsası formalaşdırılmışdır.

Ədəbiyyat:

1. https://azertag.az/xeber/azerbaycanin_mukemmel_tehlukesizlik_sisteminin_banisi___ulu_onder_heyder_eliyev-2830591
2. https://sabahinfo.az/posts/detail/bmukemmel-qanunvericilik-sisteminin-banisi-b-18138

FAAS Zəhra
Allahverdiyeva Aysu, ADU, Təhsil-1 fakültəsi, 414A qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 6a sinfi

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN GƏNCLİYİ

Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq
müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir.
Heydər Əliyev

Gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli lider Heydər Əliyev ölkə rəhbəri olduğu ilk dövrlərdən gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib. Ulu Öndərimizin bu sahədə həyata keçirdiyi siyasət gənc nəslin mənəvi-əxlaqi tərbiyyəsinin gücləndirilməsinə, sosial rifahının yaxşılaşdırılmasına və zəngin elmi potensialın yaradılmasına xidmət edib. Heç də təsadüfü deyildir ki, Heydər Əliyev hər zaman gənclərə qayğı ilə yanaşıb, onların problemlərini həll etməyə çalışıb.

Ulu öndər Heydər Əliyevin gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi. Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək, gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq, Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq ümummilli liderin müəyyən etdiyi strateji hədəflər olub.

Hələ keçən əsrin 70-80-ci illərində müdrik rəhbərin göstərişi ilə yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin Moskva da daxil olmaqla aparıcı ali məktəblərinə, müxtəlif ixtisaslar üzrə təhsil almağa göndərildi. Təkcə bir faktı xatırlatmaq kifayətdir ki, 1970-ci ildə Heydər Əliyevin təşəbbüsü ilə 1500-dən artıq azərbaycanlı gənc bu qayğı ilə əhatə olundu. 1970-1985-ci illərdə Sovet İttifaqının tanınmış 170 ali təhsil ocağında oxuyan azərbaycanlı gənclərin sayı 3500-ə çatdırıldı. Məhz həmin gənclər sonradan ali təhsilli mütəxəssis kimi ölkəmizdə iqtisadiyyatın müxtəlif sahələrində bacarıqlı kadr kimi fəaliyyətə başladılar. Hər il təhsil almaq üçün Azərbaycandan kənara 800 tələbə yola salınırdı. Gənclər Sankt-Peterburqda, Kiyevdə, Xarkovda, Minskdə təhsil alırdılar. Onlar Azərbaycan Respublikasının daxil olacağı yeni dövrün problemlərini həll etməli idilər.

Ədəbiyyat:
1. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1284.pdf
2. https://www.yeniazerbaycan.com/Siyaset_e17345_az.html

Səmədova Mənsurə
Elmi rəhbər: Allahverdiyeva Aysu, ADU, Təhsil-1 fakültəsi, 414A qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 6a sinfi

HEYDƏR ƏLİYEV VƏ MİLLİ MENTALİTET FƏLSƏFƏSİ

Xalqı həmişə mənəviyyat birləşdirilmişdir.
Çünki başqa əsaslara nisbətən mənəvi əsaslar daha üstündür.
Heydər Əliyev

Qismət nəşriyyatı fəlsəfə elmləri doktoru Qoşqar Əbiyevin "Heydər Əliyev və milli mentalitet fəlsəfəsi" kitabını çapdan buraxmışdır. Kitabın elmi redaktoru fəlsəfə elmləri doktoru Ramiz Mehdiyevdir.

Əsərdə Heydər Əliyevin sosial fəlsəfəsinin və xalqın mentalitetinin formalaşmasının elmi-metodoloji prinsipləri açıqlanır. Xalqın mentalitetinin qaynaqları, tarixi yaddaş, vətən amalı, azərbaycançılıq ideyası, milli həmrəylik və siyasi mentalitet kimi az tədqiq olunan problemlər şərh edilir.

Yeddi fəsildən ibarət bu əsər Prezident Heydər Əliyevin fəlsəfi-intellektual ideyaları barədə geniş təsəvvür yaradır. "Milli mentalitet sosiomədəni fenomendir" sərlövhəli ilk fəsildə müəllif belə bir ideyanı əsaslandırır ki, hər bir ölkənin tarixi onun bioqrafiyasıdır. Hələ antik dövrdən başlayaraq mütəfəkkirlər xalqların, tayfaların xarakterini, psixologiyasını, adət və ənənlərini öyrənmişlər. Bu gün də postsovet məkanında sosial və etnik identikliyin transformasiyaya uğraması problemi etnopsixoloqları və filosofları dərindən düşündürür. Sosiomədəni praktikanın təkamülü və inkişafı prosesi hər bir millətin sosial yaddaşında kök salmış mənfi stereotiplərin aradan qaldırılması və xalqın milli mənlik şüurunda sağlam mental xüsusiyyətlərin formalaşması cəmiyyətin sosial təbəqələrinin səyləri ilə yanaşı, sabit inkişaf mühitinin yaranmasından da asılıdır.

Müəllif tədqiqatının aparıcı istiqaməti kimi əsas diqqəti Heydər Əliyevin "Müstəqilliyimiz əbədidir" ideyasının konseptual səviyyədə işlənməsinə yönəldir və bu qayəni xalqımızın mentalitetinin fəlsəfi qaynağı kimi oxucularına təqdim edir. Əsərdə ölkə Prezidentinin vaxtında söylədiyi "Müstəqilliyimiz əbədidir" ideyasının milli həyat fəlsəfəmizin formalaşmasında oynadığı zəruri rolu, bu fəlsəfi konsepsiyanı meydana gətirən müqəddəm şərtlər barədə maraqlı mülahizələr var.

Ölkə rəhbərliyinə ikinci qayıdışdan sonra "Mənim, gücüm, ilhamım mənim xalqımdır" fikrini özünə mənəvi ideal seçən Heydər Əliyev Azərbaycanda sosial sabitliyi yaratmaqla xalqın mənəvi potensial enerjisindən rasional istifadə etmək, azərbaycanlıları sağlam, mənəvi düşüncə tərzinə qaytarmaq problemlərini həll etdi. Kitabda ölkə Prezidentinin bu şərəfli fəaliyyəti geniş işıqlandırılır. Xalqın tarixi yaddaşının, onun mentalitetinin, milli psixologiyasının, düşüncə tərzinin formalaşmasında konkret tarixi mədəni mühitin, insanı əhatə edən sosiomədəni dəyərlərin rolu Heydər Əliyevin sosial-fəlsəfi görüşlərinin kontekstində nəzərdən keçirilir.

Prezidentin sosial-fəlsəfi ideyalarına söykənən sərrast siyasəti sayəsində xalqımızın şüurunda və əqidəsində Vətən amalı və azərbaycançılıq kimi önəmli keyfiyyətlərin formalaşması prosesi kitabda geniş təhlil edilmişdir. Müəllif maraqlı mülahizələr əsasında inandırıcı şəkildə göstərir ki, Heydər Əliyev dün-

yagörüşünün ən önəmli cəhətlərindən biri xalqının psixologiyasını gözəl bilməsidir. Xalqın əsl lideri kimi onun fəaliyyətinin böyük gücü bundadır ki, milli inkişafımızın ayrılmaz hissəsi olan milli həmrəylik hissini mentalitetimizin dəyərli amilinə çevirə bildi.

Vətən amalı və azərbaycançılıq kimi mənəvi-əxlaqi keyfiyyətlərin formalaşması prosesinə Heydər Əliyev dühasının verdiyi töhfə əsərdə cox geniş işıqlandırılmışdır. Azərbaycançılıq ideyasının milli ideologiya kimi dünya azərbaycanlılarının həmrəyliyi amilinə çevrilməsi Heydər Əliyevin yorulmaz və milli inkişaf naminə məqsədyönlü siyasətinin nəticəsində mümkün olmuşdur. Müəllif Prezident Heydər Əliyevin siyasət fəlsəfəsinə söykənərək, Azərbaycan xalqının dünya sivilizasiyasında layiqli yer tutması üçün titanik səylərindən bəhs edir, onun özünün şəxsi nümunəsini xalqın siyasi mentalitetinin formalaşmasında mühüm sosial-siyasi mexanizm kimi araşdırır. Azərbaycanlıların siyasi mədəniyyətinin artması onların müstəqilliymizin əbədiliyinə, Heydər Əliyev dühasına inamın təzahürüdür.

Ədəbiyyat:

1. https://ebooks.az/az/book/SHUiRy53
2. http://web2.anl.az:81/read/page.php?bibid=vtls000001571

Ələkbərova Sona
Elmi rəhbər: Qaraşlı Aydan, ADU, Təhsil-1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5b sinfi

HEYDƏR ƏLİYEVİN ŞAH ƏSƏRİ – MÜASİR AZƏRBAYCAN

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir.
Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə, tədricən gedir.
Heydər Əliyev

Əsrlər keçəcək, nəsillər dəyişəcək, amma Ulu öndər Heydər Əliyev xalqımızın yaddaşında, tariximizdə daim yaşayacaq. Təkcə ona görə yox ki, Heydər Əliyev dühası, Onun siyasi kursu, ölkəmizə rəhbərliyi Azərbaycana, xalqımıza yalnız tərəqqi, inkişaf bəxş etmişdir, Heydər Əliyev öz bilik və bacarığını rəhbərlik etdiyi bu dövlətin xoşbəxt gələcəyinin qurulmasına yönəltmişdir. Həm də ona görə ki, Heydər Əliyev bütün ömrünü, həyatını dövlətinin, xalqının rifahı, intibahı üçün həsr edən, bu yolda canını belə əsirgəməyən liderdir. Bu böyük şəxsiyyət Azərbaycanın ən çətin və mürəkkəb dövrlərində hakimiyyətə gələrək dövlətini xilas etmiş, millətinin gələcəyini təmin etmişdir. Heydər Əliyev öz əməlləri, fəaliyyəti, xalqımıza, dövlətimizə bəxş etdiyi azadlıqlarla əsil xilaskarlıq örnəyi nümayiş etdirmişdir. İki dəfə – 1969cu ildə və 1993cü ildə Azərbaycanın ən ağır dövrlərində hakimiyyət sükanına əyləşən Ulu öndər Heydər Əliyev həm də zəngin bir dövlət idarəçiliyi ənənəsi formalaşdırmışdır. Bu baxımdan 1969cu il Azərbaycan tarixində daşıdığı missiya və spesifikliyi ilə öz layiqli və şərəfli yerini tutmuşdur. Bu dövrdə iqtisadi, sosial, ideoloji sahələrdə böyük problemlər yaşayan Azərbaycan keçmiş ittifaq dövlətləri sırasında ən geridə qalmışlardan biri idi. Mərkəzi hakimiyyət bu durumu düzəltmək və böhranı aradan qaldırmaq üçün müxtəlif addımlar atsa da, bu, faktiki olaraq mümkün olmamışdı. Yalnız Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumunun qərarı ilə Heydər Əlirza oğlu Əliyevin Mərkəzi Komitənin birinci katibi seçilməsi ilə respublikada köklü, inqilabi dəyişikliklərin edilməsi üçün zəmin yaranmışdır.

Ulu öndər Heydər Əliyev uzun müddət Dövlət Təhlükəsizlik Komitəsinin sədri işlədiyindən respublikadakı bütün problemləri və onların aradan qaldırılması yollarını yaxşı bilirdi. Bu işlərin görülməsi isə rəhbərdən yalnız işgüzarlıq deyil, həm də prinsipiallıq və qətiyyət tələb edirdi. Bunlar isə Heydər Əliyev siyasi portretinin prioritet ştrixləri idi. Məhz elə bu səbədən Ulu öndərimiz qısa zaman çərçivəsində respublikanın həyatında müsbət dönüş yarada bilmişdir. Onun respublikamıza rəhbərlik etdiyi 1969-82-ci illərdə Azərbaycan üçün strateji əhəmiyyət kəsb edən bütün bu məsələlər müvəffəqiyyətlə həyata keçirildi. İlk olaraq, respublikanın inkişafını təmin edəcək böyük sənaye potensialı formalaşdırıldı. Bu dövrlər ərzində yaradılmış çoxsaylı sənaye müəssisələri, həmin dövr üçün ən müasir texnologiyalara əsaslanan istehsal sahələri respublikanın iqtisadi infrastrukturunu köklü surətdə dəyişdirdi, onun aqraryönümlü respublikadan daha çox sənayeyönümlü respublikaya çevrilməsinə zəmin hazırladı. Həmin illərdə analoqu olmayan istehsal sahələri inşa edilərək istifadəyə verildi. Bunlardan Bakı kondisionerləri zavodu, "Ozon" Elmi İstehsalat Birliyi, Elektron hesablayıcı maşınlar zavodu, Dərin özüllər zavodu, Azərbaycan DRES-i,

Sumqayıt Kompressor zavodu, Üst trikotaj fabriki, Bakı Tikiş və ayaqqabı fabriki, Gəncə Əlvan metallar emalı zavodu, Naxçıvan Şüşə qablar zavodu, Əli-Bayramlı Məişət cihazları zavodu və s. istehsal müəssisələrinin adını xüsusi qeyd etmək lazımdır. İri sənaye və kənd təsərrüfatı müəssisələrinin istifadəyə verilməsi, ilk növbədə, həm bu müəssisələrdə işləyənlərin, həm də respublikanın digər vətəndaşlarının maddi rifah halının daha da yüksəlməsinə səbəb oldu.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi illərində, Azərbaycanın ənənəvi təsərrüfat sahələrinin - aqrar bölmənin sürətli inkişafı, respublikanın əlverişli üstünlüklərindən bacarıqla istifadə edilməsi 70-ci illərin iqtisadi strategiyasının mühüm tərkib hissələrindən biri oldu. Əsası 1969-cu ildə qoyulan strateji xətt çox qısa vaxtda öz bəhrəsini verməyə başladı. Azərbaycan keçmiş SSRİ-nin ən böyük üzümçülük respublikasına çevrildi. Pambıqçılıq, bağçılıq-bostançılıq, heyvandarlıq sahələrində böyük uğurlar qazanıldı.

Heydər Əliyevin böyük diqqət və qətiyyətlə həyata keçirdiyi məsələlərdən biri də xalqımızın öz milli, tarixi köklərinə, ənənələrinə qayıdışı, dəyərlərimizin yenidən bərpası idi. Bu mənada illərdir ki, qadağan olunmuş tarixi bayramlarımızın yenidən qeyd olunmağa başlanması, dini dəyərlərin bərpası kimi o zamankı dövrün reallaqları ilə qeyri-mümkün görünən işləri Heydər Əliyev cəsarətlə görə bilmişdi. Digər tərəfdən, Azərbaycan dilinin dövlət dili kimi elan olunması və bu məsələnin 1978-ci ildə qəbul olunmuş Konstitusiyada təsbit olunması Azərbaycan xalqının milli kimliyinin özünə qaytarılması baxımından atılmış ən önəmli addımlardan biri idi. Tarixi şəxsiyyətlərə münasibətin dəyişdirilməsi, Azərbaycan tarixində öz xidmətlərinə görə fərqlənmiş, seçilmiş insanların layiqincə dəyərləndirilməsi Ulu öndərin "Qoy ədalət zəfər çalsın" şüarı altında göstərdiyi genişmiqyaslı və çoxşaxəli fəaliyyətinin başlıca istiqamətləri idi.

Ədəbiyyat:

1. https://science.gov.az/az/news/open/20825
2. https://www.azerbaijan-news.az/view-32466/Ulu-%C3%B6nd%C9%99r-Heyd%C9%99r-%C6%8 Fliyevin-%C5%9Fah-%C9%99s%C9%99ri-Onun-yaratd%C4%B1%C4%9F%C4%B1-m%C3% BCst%C9%99qil-Az%C9%99rbaycan-d%C3%B6vl%C9%99tidir

Əlizadə İnci
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5b sinfi
Qaraşlı Aydan, Azərbaycan Dillər Universiteti, Təhsil-1 fakültəsi, 414B qrupu

HEYDƏR ƏLİYEV HÜQUQİ DÖVLƏTİN BANİSİ

Əgər hər hansı ölkənin xalqları öz hüquqlarını anlayır və onları qoruya bilirsə,
o zaman ən kiçik dövlət belə ən böyük məmləkət qədər güclü olar.
Heydər Əliyev

Xalqımız görkəmli siyasi və dövlət xadimi, müasir Azərbaycanın qurucusu, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyini geniş qeyd edir. Bu münasibətlə Prezident İlham Əliyevin imzaladığı Sərəncamla 2023-cü ilin Azərbaycan Respublikasında "Heydər Əliyev İli" elan edilməsi Ulu Öndərin əziz xatirəsinə dərin ehtiramın ifadəsi olmaqla hər bir soydaşımız, bütövlükdə, dünya azərbaycanlıları tərəfindən böyük rəğbətlə qarşılanıb.

Mənalı ömrünü doğma Vətəninə və millətinə fəda edərək adını müasir Azərbaycan tarixinə əbədi həkk etdirmiş Ümummilli Lider müstəqilliyimizin xilaskarı, milli dövlətçiliyimizin memarı və demokratik hüquqi dövlətin banisi olmaqla qədirbilən xalqımız tərəfindən daim yad edilir, misilsiz xidmətləri dərin minnətdarlıqla qeyd olunur. Tarixdə çox az dövlət xadimi tapılar ki, ölkənin hərtərəfli inkişafı onun adı ilə bağlı olsun. Ulu Öndər Heydər Əliyev Tanrının Azərbaycan xalqına bəxş etdiyi nadir tarixi şəxsiyyətlərdəndir.

Bu fikirlər Sumqayıt Kommersiya Məhkəməsinin hakimi Həlimə Alıyevanın məqaləsində yer alıb. Xalqımızın böyük oğlu Heydər Əliyevin 1969-cu ildə Azərbaycanın rəhbərliyinə gəlişindən sonra ölkəmizin bütün sahələrində yeni mərhələ başlandı, hərtərəfli canlanma yaşandı. Milli-mənəvi və əxlaqi dəyərlərə söykənən genişmiqyaslı tədbirlər həyata keçirildi və bunun nəticəsi kimi insanlarda milli ruh, özünüdərkin oyanışı formalaşmağa başladı. Heydər Əliyev ölkədə hüquqi dövlətə xas olan qanunçuluğun, ədalət və hüquq qaydasının təmin olunması sahəsində qətiyyətli və cəsarətli addımlar atdı, gələcəyə hesablanan ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirdi. Milli qürur hissinin və milli şüurun yüksəlməsi həm sosial-iqtisadi, həm elmi və mədəni, həm də ictimai həyatın digər sahələrinin dirçəlişinə bünövrə oldu.

Ulu Öndər Heydər Əliyevin o illərdə həyata keçirdiyi islahatlar sonradan milli dövlətçilik ideyalarının əsasında duran ana xəttə çevrildi, xalqın bir ideya ətrafında birləşməsinə şərait yaratdı. Azərbaycanın hazırkı siyasi və iqtisadi müstəqilliyi, dünyaya inteqrasiyası məhz ötən əsrin 70-80-ci illərində təməli Heydər Əliyev tərəfindən qoyulmuş möhkəm potensiala əsaslanır.

Xalqımızın müstəqilliyi və azadlığı uğrunda gedən mübarizəsinin uğuru da Ulu Öndərin fədakar siyasi fəaliyyətinin nəticəsində əldə olundu. Bu yolda ağır vəziyyətdə olan ölkəsinin, xalqının xilası naminə 1993-cü ilin iyununda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədiliyini və dönməzliyini təmin etdi, xalq-dövlət birliyini, ictimai-siyasi sabitliyi və iqtisadi dirçəlişi təmin etməklə, demokratik hüquqi dövlət quruculuğunu özünün dövlətçilik strategiyasının prioritet istiqaməti kimi müəyyənləşdirdi.

Ümummilli Lider Heydər Əliyev demokratik cəmiyyət və hüquqi dövlətin ən vacib atributlarından olan insan hüquq və azadlıqlarının müdafiəsi üçün tarixi xidmətlər göstərdi. Hakimiyyətə qayıtdıqdan dərhal sonra insan hüquq və azadlıqları sahəsində ən vacib sayılan insanın yaşamaq hüququnun təmin edilməsi ilə bağlı önəmli addım atdı, Azərbaycanda ölüm hökmünün icrasına moratorium qoydu. 1998-ci il fevralın 10-da isə Ulu Öndərin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq Azərbaycanda ölüm cəzası tamamilə ləğv edildi. Bununla bağlı Ümummilli Lider deyirdi: "Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm". Bu qərar bütün dünyaya bir daha bəyan etdi ki, Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolu ilə inamla addımlayır.

Demokratik hüquqi dövlət quruculuğunda Ulu Öndər Heydər Əliyevin ən böyük əməyi müstəqil Azərbaycanın ilk konstitusiyasının hazırlanması və qəbul edilməsi oldu. Ümummilli Liderin müəllifi olduğu və 1995-ci il noyabrın 12-də Azərbaycanın tarixində ilk dəfə olaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil dövlətimizin Konstitusiyasında insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi dövlətimizin ali məqsədi kimi bəyan olundu. Ulu Öndər hesab edirdi ki, demokratik dəyərləri üstün tutan, haqq və ədalətin bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya birinci dərəcəli əhəmiyyət daşıyır. Dahi Öndərin bilavasitə rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış Konstitusiya tarixi əhəmiyyətə malik sənəd kimi ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət quruculuğunun möhkəm təməlini qoydu.

Ədəbiyyat:

1. https://www.anl.az/down/meqale/respublika/2013/may/308670.htm
2. https://respublika-news.az/news/azerbaycanda-huquqi-dovlet-modelinin-banisi

Nəcəfli Fatimə
Elmi rəhbər: Qaraşlı Aydan,
ADU, Təhsil -1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5b sinfi

HEYDƏR ƏLİYEV MÜASİR AZƏRBAYCAN QURUCUSU

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur,
çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.
Heydər Əliyev

Böyük dövlət xadimi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusudur. Onun xalqımız qarşısındakı xidmətləri misilsizdir. Azərbaycan xalqını müstəqil dövlət qurmağa doğru aparan yol, əslində, 1969-cu ildən – məhz Heydər Əliyevin respublikamıza rəhbərlik etməyə başlamasından sonra başlanıb. Həmin vaxt respublikada bütün sahələrdə sürətli inkişaf başladı. Heydər Əliyevin respublikanın rəhbəri vəzifəsində fəaliyyətinin ilk günlərindən aydın oldu ki, Onun simasında Azərbaycan xalqı əsl milli Liderini tapmışdır. O, milli ruhun dirçəldilməsinə, Azərbaycan mədəniyyətinin inkişafına və çiçəklənməsinə nail olmaqla yanaşı, həm də bütün ziyalıların, bütün Azərbaycan xalqının diqqətini tarixi və mədəni qaynaqlara yönəltmişdir. O illərdə Azərbaycan dili, Azərbaycan ədəbiyyatı, Azərbaycan tarixi, Azərbaycan musiqisi – nadir milli mədəniyyətimizin bütün qatları sanki təzədən açılır və yenidən qiymətləndirilirdi. Ulu Öndər Heydər Əliyev Azərbaycanı dirçəltməklə və yeni Azərbay-

can yaratmaqla yanaşı, həm də onun gələcəyini düşünürdü. O, gənclərə çox böyük diqqət yetirirdi. Gənclər respublikanın elmi-texniki və mədəni potensialının yüksəldilməsindən ötrü son dərəcə gərəkli ixtisaslara yiyələnmək üçün Sovet İttifaqının qabaqcıl ali məktəblərinə göndərilirdi. Azərbaycanın elmi və kadr potensialı möhkəmlənir, xalqımızın milli-mənəvi, əxlaqi dəyərlərinin təbliği üçün imkanlar genişlənirdi. Bununla yanaşı, 1971-ci ildə Ulu Öndərin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılması da böyük tarixi əhəmiyyətə malikdir. Ordu quruculuğunda və Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasında bu məktəbin rolu böyükdür. Məlum olduğu kimi, müstəqilliyin ilk illərində respublikada baş alıb gedən siyasi hərc-mərclik, hakimiyyət uğrunda çəkişmələr dövlətimizə ağır zərbələr vururdu. 1992-ci ilin may ayında Xalq Cəbhəsi-"Müsavat" cütlüyü hakimiyyətə gəldi. Bu cütlüyün hakimyyəti dövründə nəinki dövlət quruculuğu prosesi ilə bağlı məsələlər ön plana çəkilmirdi, hətta hər bir azərbaycanlının ləyaqətinə və qüruruna toxunan ağlasığmaz qərarlar qəbul edilirdi. Belə bir şəraitdə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin hakimiyyətə qayıdışı xalqımızın itmiş inamını özünə qaytarmaqla ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Xalqın iradəsi və təkidli tələbi ilə 1993-cü ildə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Azərbaycanı xaos və böhrandan çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, böyük xilaskar missiyasını yerinə yetirdi. Məhz bu taleyüklü məsələlərin reallaşmasından sonra bütün diqqət cəbhə xəttində müdafiəyə və bununla yanaşı, iflic olmuş iqtisadiyyatın dirçəldilməsinə yönəldildi. Böyük qurtuluşdan dərhal sonra xalqın həqiqi Lideri olduğunu hər işdə sübuta yetirən Heydər Əliyev böyük quruculuğu, daxili vəziyyətin stabilləşməsi tədbirlərini gerçəkləşdirməyə başladı. Düşünülmüş və gələcəyə hesablanmış siyasətin uğurlu nəticələrini görən xalqımızın sabaha ümidi daha da artdı. İqtisadi inkişafı müstəqilliyin mühüm amili hesab edən Ulu Öndər Heydər Əliyev iqtisadiyyata sərmayə qoyuluşunun prioritet əhəmiyyət kəsb etdiyini yaxşı bilirdi. 1994-cü il sentyabrın 20-də Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının dərinlikdə yerləşən hissəsinin birgə kəşfiyyatı, işlənməsi və hasilatın bölgüsü üzrə dünyanın tanınmış neft şirkətlərinin birləşdiyi konsorsiumla "Əsrin müqaviləsi" adlandırılan tarixi Saziş imzalandı. "Əsrin müqaviləsi"nin imzalanması ilə ardıcıl şəkildə reallaşdırılmağa başlayan neft strategiyası iqtisadiyyatın kəskin ehtiyac duyduğu xarici investisiya qoyuluşunun dinamik şəkildə artmasına, ölkənin sosial-iqtisadi inkişaf yoluna çıxmasına və dünya birliyinə hərtərəfli inteqrasiyasına mühüm təsir göstərmişdir. Bu razılaşmanın imzalanmasından sonra ölkədə gedən ictimai-siyasi və iqtisadi proseslər xarakterində nəzərəçarpacaq dəyişikliklər baş verdi. Ulu Öndər Heydər Əliyevin xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətlərindən biri ümumxalq partiyası olan Yeni Azərbaycan Partiyasının yaradılmasıdır.

Ədəbiyyat:

1. http://www.khizi-ih.gov.az/az/news/250.html
2. https://www.anl.az/down/meqale/yeni_az/2014/oktyabr/395124.htm

Səbzəliyev Elvin
Elmi rəhbər:Nesirli Gulsum, ADU, Təhsil 1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 6b sinfi

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşıbdır, xalqımızın fəaliyyətində formalaşıbdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.
Heydər Əliyev

Qədim və köklü milli-mənəvi dəyərlər sisteminə malik olan Azərbaycan xalqı bu dəyərləri sədaqətlə qorumuş, əsrlərlə yaşatmış və inkişaf etdirmişdir. Milli-mənəvi dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması keçmişdə olduğu kimi, bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki milli-mənəvi dəyərlərimizin Azərbaycan xalqının formalaşmasına təsiri ilə yanaşı, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Milli-mənəvi, o cümlədən dini dəyərlərimizin, adət-ənənələrimizin dərindən öyrənilməsi və araşdırılması müasir cəmiyyətimizin prioritet istiqamətlərindən biridir. Tarixi təcrübə göstərir ki, öz soykökündən, tarixindən, milli-mənəvi dəyərlərindən uzaq düşən millətlər və dövlətlər müəyyən zaman kəsiyində yox olmaq, tarix səhnəsindən birdəfəlik silinmək təhlükəsi ilə üz-üzə

qalmışlar. Bəs milli-mənəvi dəyərlər deyəndə nə başa düşülür? Milli ideologiya, mənəvi yaddaş, milli tarix, milli dil, ənənəvi dini dəyərlər, milli mədəniyyət və incəsənət, milli ədəbiyyat, milli özünüdərk, ailə sistemi, dahi şəxsiyyətlərimiz, milli musiqimiz və s. Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir. Müasir Azərbaycan tarixinə nəzər saldıqda milli-mənəvi dəyərlərimizin qorunması və inkişafı prinsiplərinin banisi kimi Ulu öndər Heydər Əliyevi görürük. Müstəqillik dövrünün təməl daşları üzərində tarixi imzası olan Ulu öndər Azərbaycançılıq ideologiyasının əsasını qoyaraq milli-mənəvi dəyərlər sistemimizi daha da gücləndirmiş, aşınmadan xilas etmişdir. Milli-mənəvi dəyərlərimizə qayıdışın və milli oyanışın xalqımız üçün gərəkliliyini nəzərə alan, hər zaman bu məsələni diqqət mərkəzində saxlayan Ümummilli liderimiz Heydər Əliyev bu sahədə inqilabi addımların atılmasına zəmin yaratmışdır. Ulu öndər milli-mənəvi dəyərlərimizi təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu hesab edirdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mənəvi irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğuları ilə yanaşan Ulu öndər deyirdi: "Hər xalqın özünə, öz tarixi köklərinə, əcdadları tərəfindən yaradılmış milli-mənəvi dəyərlərinə bağlılığı böyük amildir. Biz də indi dünyanın mütərəqqi mənəvi dəyərlərindən istifadə edərək, xalqımızın mədəni səviyyəsini daha da inkişaf etdirərək, gənc nəsli daha da sağlam əhval-ruhiyyədə, saf əxlaqi əhval-ruhiyyədə tərbiyələndirməliyik". Xalqımız 70 il Sovet rejimində ateist təbliğatın aparıldığı bir şəraitdə yaşasa da, milli-mənəvi dəyərlərimizin ən önəmli komponentlərindən biri olan öz dini-mənəvi dəyərlərini unutmamış, onları gizli də olsa, yaşatmışdır. Lakin bununla belə, o dövrdə dini dəyərlərin sərbəst şəkildə yaşadılması və inkişafı mümkün deyildi. Həmin dövrdə ölkəmizdə cəmi 17 məscid fəaliyyət göstərirdi. Dini ibadətgahlarımızın və abidələrimizin bərpası və yenidən inşası da Ulu öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Məhz bu dövrdə yüzlərcə ibadətgah inşa və ya bərpa edilmiş, dini dəyərlərimiz yenidən canlanmışdır. Xalqımızın əsrlərcə ziyarət yeri olan, lakin Sovet rejimi tərəfindən dağıdılan Bibiheybət məscidi və ziyarətgahının Heydər Əliyevin göstərişi ilə dövlət hesabına yenidən inşa edilməsi Onun bu sahədəki xidmətlərinin bir göstəricisidir. Belə misalların sayı olduqca çoxdur. Heydər Əliyev İslam dinini bizim milli-mənəvi kimliyimizin ayrılmaz tərkib hissəsi kimi qəbul edirdi. "Bizim dinimiz mütərəqqi dindir. Əsrlər boyu İslam dini özünün mütərəqqi olduğunu və eyni zamanda, İslam dininə itaət edən insanlara özünün nə qədər tərəqqipərvər və nə qədər dünyəvi əhəmiyyətli olduğunu sübut edir, müsəlmanlara daimi xoşbəxtlik bəxş edir. Bizim dinimiz müsəlmanları həyatlarında rast gəldiyi çətinliklərdən xilas etməyə, düşmənlərə qarşı mübarizədə qalib gəlməyə və özlərini, öz ölkələrini, öz dinini, öz məsləkini qoruyub saxlamağa həmişə yardım etmişdir. Heç şübhə yoxdur ki, İslam dini indiyə qədər olan tarixində dünyaya nümayiş etdirdiyi əzəmətini, qüdrətini bundan sonra daha da gücləndirəcək və bütün İslam dininə itaət edən adamların hamısını xoşbəxtliyə, səadətə gətirib çıxaracaqdır" sözləri Onun dinə baxışını çox aydın şəkildə xülasə edir. Ulu öndər dinimizin əxlaqi dəyərlər sistemi kimi mənimsənilməsinin gənclərin formalaşmasında müsbət bir funksiya icra edəcəyini düşünürdü.

Ədəbiyyat:
1. https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf
2. https://anl.az/down/meqale/525/2011/yanvar/150114.htm

Mayılova Məltəm
Məmmədzadə Aytac, ADU, Təhsil-1 fakültəsi, 414A qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5a sinfi

HEYDƏR ƏLİYEV VƏ ANA DİLİMİZ

"Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi kökləri vardır. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm."
Heydər Əliyev

Aqillər deyib ki, xalqın, millətin nəyini əlindən alırsansa al, o, yaşayacaqdır. Dilini əlindən alsan, o, milli varlığını itirər, yox olar. Bu, tarixin ortaya qoyduğu bir həqiqətdir. Dil – millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur!

Tarixi minilliklərin sınağından, hakim rejimlərin işğalından, yadelli təcavüzlərin təzyiqindən, yabançı dəblərin axınından, müxtəlif dillərin təsirindən qalib çıxan, bu günümüzə qədər saflığını, təmizli-

yini, zənginliyini qoruyaraq gələn dilimiz – Azərbaycan dili haqqında düşünərkən, bu dil haqqında əlimə qələm alıb yazmaq istəyərkən gözlərimin önündə Dədə Qorqud, Nəsimi,Füzuli, Şah İsmayıl Xətai, Molla Pənah Vaqif, Həsən bəy Zərdabi, Mirzə Fətəli Axundzadə, Üzeyir bəy Hacıbəyli, Cəlil Məmmədquluzadə, Mirzə Ələkbər Sabir, Cəfər Cabbarlı, Mikayıl Müşfiq, Hüseyn Cavid, Aşıq Ələsgər, Şəhriyar canlanır. Bunlar Azərbaycan söz sənətinin, Azərbaycan təfəkkür dünyasının, Azərbaycan dil xəzinəsinin, Azərbaycan ictimai-siyasi fikrinin təməl daşları, bünövrəsi, ən dəyərli incilərdirlər. Əlbəttə ki, bu siyahını davam da etdirmək olar. Azərbaycan ədəbiyyatını, Azərbaycan ədəbi dilini yaradanların və onu milli varlıq kimi sonrakı nəsillərə – bizlərə olduğu kimi çatdıranların hər birinə heç şübhəsiz, borcumuz və ehtiramımız sonsuzdur. Çünki məhz onların sayəsində Anamızın-Azərbaycan adlı cənnət vətənimizin doğma dili olan Azərbaycan dili əsrlərin keşməkeşlərindən alnı açıq, üzü ağ çıxaraq mükəmməl, şirin, axıcı, işlək və zəngin bir dilə çevrilmişdir.

Yuxarıda sadaladıqlarım Azərbaycanın böyük mütəfəkkirləri, ədəbiyyat tariximizin nəhəngləri, şair və yazıçıdırlar.Lakin mən bu sıraya bir ismi də əlavə etmək istəyirəm. Düzdür, o nə şairdir, nə yazıçıdır, nə də dilçidir. Onun şeirləri, romanları, hekayələri yoxdur. Bir sözlə, o əlinə qələm alıb əsər yazmayıb. Lakin o, ən istedadlı yazıçının, şairin belə yarada bilməyəcəyi, qüdrətli bir əsər yaradıb. Bu misilsiz əsərin adı – Azərbaycan, yazarı, banisi və yolgöstərəni isə xalqının çox haqlı olaraq ulu öndər adını verdiyi Heydər Əlirza oğlu Əliyevdir.

Bir az əvvəl yuxarıda qeyd etdim ki, dilimiz haqqında yazmaq istəyərkən gözlərim önündə simalar canlanır. Bu mövzunu düşünərkən yaddaşımın səhifələrində yer alan fikirlər, toxunmaq istədiyim məsələlər, qısacası dilimizin dünəni, bu günü və sabahı haqqındakı kiçik qeydlərim məni bu yazıya məhz Heydər Əliyev kontekstində yanaşmağa çağırır. Mən də ürəyimin səsinə qulaq asaraq yola çıxıram...

Ölkəsinin başı üzərində qara buludların dolaşdığı, xalqının ölüm-qalım sualıyla qarşılaşdığı, torpaqlarının düşmən tapdağı altında qaldığı bir zamanda bir Simurq quşu kimi qanadlarını açaraq Vətəninin səmasında görünən Heydər Əliyev, ona doğru uzanan milyonlarla Azərbaycanlının ümidsiz əllərini öz qüdrətli əlləriylə tutdu, onu çağıran, onu səsləyən milyonlarla azərbaycanlının həyəcanlı səsinə öz güclü səsiylə səs verdi. Qarşısındakı bütün sədləri, maneələri öz dərin zəkasıyla, iti ağlıyla, ancaq nadir şəxsiyyətlərə xas olan parlaq istedadıyla, ən əsası isə xalqına və Vətəninə bəslədiyi tükənməz sevgisiylə, doğulub böyüdüyü torpağa sədaqəti və bağlılığıyla aşaraq, müstəqil Azərbaycanı yaratdı.

Ədəbiyyat:

1. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-v%C9%99-ana-dili/
2. https://azertag.az/xeber/heyder_eliyev_ve_azerbaycan_dili-748

Əliyeva Zəhra
Məmmədzadə Aytac, ADU, Təhsil 1 fakültəsi, 414A qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5a sinfi

YAZIÇILARIN DOSTU – HEYDƏR ƏLİYEV

Mədəniyyət bəşəriyyətinin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.
Heydər Əliyev

Heydər Əliyevin ədəbiyyata, ədəbi mühitə marağı son dərəcə böyük sənət və ədəbiyyat sevgisindən doğmuşdur. Ulu öndər ədəbiyyatın xalqın, millətin həyatında əvəzsiz olduğunu çıxışlarında dəfələrlə vurğulamışdır: "Ədəbiyyat bizim xalqımıza çox böyük faydalar gətiribdir. Ədəbiyyatımız bizim böyük milli sərvətlərimizdən biridir. Biz bununla fəxr etməliyik. Şəxsən mən həmişə belə hesab etmişəm, bu gün də belə hesab edirəm, daim belə düşünəcəyəm. Hesab edirəm ki, bizim ədəbiyyatımızın, bədii sözün, yazıçı sözünün cəmiyyətə, millətə, xalqa təsiri böyükdür".

Heydər Əliyev ədəbiyyatın, eyni zamanda hər bir insanın, ayrıca fərdin həyatında misilsiz rolunu məxsusi vurğulayırdı: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur...".

Heydər Əliyev ədəbiyyat və sənətin öz həyatı və taleyində mühüm rolu və iştirakını da minnətdarlıqla anırdı: "Birincisi, şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm. Bu gün sizə deyə bilərəm ki, şəxsən mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum, onları bu gün də unutmamışam... Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam, ədəbiyyatla, mədəniyyətlə daim bağlı olmuşam..." (Heydər Əliyev, Ədəbiyyatın yüksək borcu və amalı.

Hələ uşaqlıq çağlarından qeyri-adi istedadı, universal bacarıqları ilə seçilən Heydər Əliyevin ilkin ədəbiyyat sevgisi də erkən təzahür etmişdir. Ulu öndərin bioqrafı Elmira Axundova "Heydər Əliyev: şəxsiyyət və zaman" tədqiqatında həmin məqamları çoxsaylı xatirələr, faktlar, təhlillər əsasında təfərrüatlı araşdırır.

Heydər Əliyevin ədəbiyyata və bütövlükdə sənətə böyük sevgisi orta məktəbdə oxuduğu illərdən, üzvü olduğu çoxsaylı dərnəklərdən başlayır. Bu barədə roman-tədqiqatda "Heydər Əliyevlə bir sinifdə oxuyan, hətta bir müddət eyni parta arxasında oturan" Azərbaycanın xalq artisti Zəroş Həmzəyeva xatırlayır: "Məktəbdə biz səylə oxuyur, çoxlu bədii ədəbiyyat mütaliə edir, Nizami Gəncəvidən tutmuş o dövrdə gənclərin sevimlisi olan Səməd Vurğun, Süleyman Rüstəm kimi cavan şairlərin əsərlərini əzbər öyrənirdik. Biz incəsənətə maraq göstərir, təbiəti sevir, öz diyarımızın, Azərbaycanın tarixini yaxşı bilirdik. Heydər aramızda qabiliyyət cəhətdən birinci idi, o, hər şeyi hamımızdan yaxşı bilir, hamımızdan yaxşı oxuyurdu...".

Ədəbiyyat:

1. https://www.gununsesi.info/1991-ci-ild%C9%99-heyd%C9%99r-%C9%99liyev-yazicilarin-qurultayina-nec%C9%99-g%C9%99lib/
2. https://www.anl.az/down/meqale/525/2023/sentyabr/863904.ht

Həşimova Mənsumə
Məmmədzadə Aytac, ADU, Təhsil 1 fakültəsi, 414A qrup
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 5a sinfi

HEYDƏR ƏLİYEV VƏ XARİCİ DİLLƏR

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.
Heydər Əliyev

“Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm...”. Bu müdrik sözlər Azərbaycan xalqının Ümummilli lideri, dahi rəhbərimiz Heydər Əliyevə məxsusdur. Bütün həyatını doğma xalqının, Vətəninin inkişafına, intibahına həsr edən, bu yolda misilsiz tarixi uğurlar qazanan Heydər Əliyev Azərbaycan dilinə həmişə layiqincə diqqət yetirib, tükənməz övlad məhəbbəti, rəhbər uzaqgörənliyi ilə xüsusi qayğı göstərib. Hələ sovet dövründə, imperiya qadağalarına baxmayaraq, dilimizin dövlət dili statusu alması, Azərbaycan dilçi alimlərinin yüksək dövlət mükafatlarına layiq görülərək daha böyük tədqiqat işlərinə ruhlandırılması, nəticədə Azərbaycan dilçiliyinin sürətli inkişafı, eləcə də dahiyanə nitq mədəniyyəti ilə hamıya nümunə göstərməsi Heydər Əliyevin şərəfli xidməti idi. Azərbaycan dilinə o tarixi xidmət bu gün, müstəqillik dövründə daha böyük miqyasda davam etdirilir. “Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanı, dahi şairimiz Məhəmməd Füzulinin 500, Azərbaycan varlığının ensiklopediyası sayılan “Dədə Qorqud” eposunun 1300 illiyinin dünya miqyasında təntənə ilə qeyd edilməsi, respublikamızda Azərbaycan dili haqqında qanunun ciddi elmi-praktik müzakirələri bunu bir daha təsdiq etdi. Ulu öndər Heydər Əliyevin doğma Azərbaycan dili uğrunda on illər boyu necə şərəflə, cəsarətlə, elmi-nəzəri əsaslara söykənən prinsipiallıqla mübarizə aparması, obyektiv, real nəticələrə nail olması dünyada yaşayan bütün azərbaycanlılara, 50 milyonluq Azərbaycan xalqına ən gözəl nümunədir. Onun dil siyasətinin uğurları bütün incə, “görünməz” məqamları ilə öyrənilməli, ciddi elmi-analitik təhlil, tədqiq yolu ilə xalqımıza, xüsusilə gənc nəslə çatdırılmalıdır. Ulu öndər Heydər Əliyevin bitkin elmi-nəzəri əsaslara, praktik tətbiqə əsaslanan Azərbaycan dili siyasəti böyük uğurlar qazanıb

desək, yanılmarıq. Vaxtı ilə öz doğma dilində danışa bilməyən, yaxud danışmaq istəməyən bir sıra yüksəkvəzifəli dövlət məmurları Heydər Əliyevin ciddi tələbkarlığı nəticəsində indi Azərbaycan dilində sərbəst danışırlar; ümumiyyətlə, dövlət dilimizə kompaniyaçılıqdan uzaq olan daimi diqqət və qayğı cəmiyyətimizin milli dil mühitinin - dövlət dili mühitinin əsaslı şəkildə genişlənməsinə, əsl ümumdövlət xarakteri almasına gətirib çıxarmışdır. Bu həm də Heydər Əliyevin dil siyasətini həyata keçirən Yeni Azərbaycan Partiyasının uğurudur. "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 18 iyun 2001-ci il tarixli Fərmanını Heydər Əliyevin uğurlu dil siyasətinin fundamental yekun sənədi adlandırmaq olar. Dilimizin ən qədim tarixinə obyektiv elmi-tarixi qiymət verən, Azərbaycan dilinin türk köklü müstəqil dil olmasını bir daha təsdiqləyən, onun əsas təkamül mərhələlərini, inkişaf yollarını dahiyanə bir müdrikliklə, elmi-nəzəri əsaslarla izləyərək son söz deyən, rəsmi dövlət münasibəti bildirən bu fundamental tarixi sənəd Ulu öndər Heydər Əliyevin dil siyasətinin uğurlar miqyasını daha da genişləndirdi. Müstəqilliyini təzəcə qazanmış Azərbaycan 1992-ci ildə faciəli günlər yaşayır, sosial-siyasi burulğanlar, dərəbəylik və anarxiya məngənəsində sıxılırdı. Cəmiyyətin həqiqi milli liderə, əsl rəhbərə, müdrik yolgöstərənə ehtiyacı vardı. Azərbaycanın 91 nəfər görkəmli ziyalısı, alimi, sənətkarı bir araya gələrək dünya miqyaslı liderə – xalqın yeganə ümidi, pənahı, xilaskarı Heydər Əliyevə üz tutdu. Bu təkcə 91 nəfər ziyalının yox, əslində, bütün xalqın dar ayaqda ümidi, tələbi, xahişi, təkidli çağırışı idi. Heydər Əliyev xalqın səsinə səs verdi, Azərbaycanın xilası, dirçəlişi, böyük intibahı, əbədi azadlığı naminə zamanın sözünü dedi, Yeni Azərbaycan Partiyasını yaratdı. Qısa bir tarixi dövrdə çox böyük uğurlar, ümumxalq, ümumdövlət miqyaslı qələbələr qazanan bu partiya zəmanəmizin Atatürkü Heydər Əliyevin Azərbaycan xalqına misilsiz töhfəsidir, tarixi xidmətidir.

Ədəbiyyat

1. https://anl.az/down/meqale/az_muellimi/az_muellimi_iyun2009/82811.htm
2. https://azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ve-dil-medeniyyetimiz-1650490040

Kərimli Fatimə
Ağalarlı Nəzrin, ADU, Təhsil 1 fakültəsi, 414B qrupu
Y.Mirzəyev adına 44 nömrəli tam orta məktəb, 7a sinfi

TARİX ELMİMİZİN BÖYÜK HİMƏYADARI

Tarix həmişə hər şeyi öz yerinə qoyur.
Heydər Əliyev

Heydər Əliyev görkəmli siyasi xadim və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin çox gözəl və dərindən bilicisi, vətən elminin, mədəniyyətinin hərtərəfli himayədarı idi. Ensiklopedik biliyə, güclü iradəyə və milli ruha, dərin fəlsəfi düşüncə tərzinə və möhkəm tarixi yaddaşa malik olan bu dahi şəxsiyyətin bütün fəaliyyəti doğma və sevimli xalqına sədaqətlə xidmətin parlaq təcəssümüdür.

Heydər Əliyev müdrikliyindən, taleyin ona qismət etdiyi bilik və qabiliyyətindən öz şəxsi məqsədləri üçün deyil, millət və xalqı yolunda istifadə etdi. Keçən yüzilliyin son qərinəsindən başlayaraq çağdaş günlərimizədək Azərbaycanın bütün uğurları, istər sosial-iqtisadi inkişaf, istərsə də təhsil, elm və mədəniyyətin tərəqqisi böyük öndərin əsaslandırdığı strategiyanın uğurla həyata keçirilməsinin nəticəsidir. Xüsusilə belə bir cəhəti vurğulamaq vacibdir ki, onun layiqli varisi, yeni əsrin yeni lideri, Prezident İlham Əliyevin böyük təşkilatçılıq fəaliyyəti sayəsində son 10 ildə respublikanın iqtisadi potensialı dəfələrlə artmış, onun beynəlxalq imici yüksəlmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında" sərəncamda deyilir ki, ölkəmizdə müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı dahi Heydər Əliyevin adı ilə bağlıdır.

Öz yurdunun, doğma torpağının qızğın təəssübkeşi olan böyük azərbaycanlı Heydər Əliyev vaxtilə dövlət təhlükəsizlik orqanında işləməsinə baxmayaraq ikinci ixtisas kimi tarixi seçmiş, Bakı Dövlət Universitetinin tarix fakültəsini qırmızı diplomla bitirmişdir. Belə bir seçimin başlıca səbəbi Heydər Əliyevin

xalqımızın zəngin və qəhrəmanlıqla dolu tarixinə boyük sevgi bəsləməsi, onun həyatında baş verən hadisələrin incəliyə qədər hərtərəfli öyrənilməsinə səy göstərməsi idi. Ulu öndər demişdir: "Bizim xalqımızın böyük tarixi qəhrəmanlıq səhifələri ilə dolu olan tarixi məlumdur. ...Əsrlər boyu dəfələrlə xalqımız yadelli qəsbkarla üzləşib, qarşılaşıb və dəfələrlə döyüşə qalxıb, torpaqlarımızı müdafiə edib, öz milli mənliyini qoruyub saxlaya bilibdir".

Zəngin və dərin tarixi, fəlsəfi biliyə malik olan Heydər Əliyev vətən tariximizin düzgün araşdırılması və təbliğ olunmasına, onun bütün səhifələrinin təhriflərdən təmizlənməsinə böyük diqqət yetirmişdir. Azərbaycan tarix elminin metodoloji əsaslarının müəyyənləşdirilməsi, çox dəyərli ümumiləşdirmələr edilməsi sahəsində onun xidmətləri misilsizdir.

Azərbaycan alimləri və tarixçiləri ilə sıx əlaqə saxlayan və görüşlər keçirən ulu öndər çoxcildli "Azərbaycan tarixi", "Azərbaycan şəhərlərinin tarixi", "Azərbaycan xanlıqlarının tarixi", "Azərbaycan xalqının hərbi tarixi" kimi fundamental əsərlərin, habelə Azərbaycanın görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini işıqlandıran monoqrafiyaların nəşr edilməsini qarşıya qoymuşdu. Məmnunluq hissi ilə qeyd etməliyik ki, onun bu tövsiyəsi uğurla həyata keçirilmişdir. 2012-ci ildə Prezident İlham Əliyevin tarixçilərin bir qrupuna Dövlət Mükafatı Laureatı fəxri adları verməsi də ümummilli liderə bir daha ehtiram göstərilməsinin nümunəsidir.

Ulu öndər hakimiyyətə gəldiyi 1969-cu ildə Azərbaycan xalqının taleyində mühüm rol oynamış görkəmli yazıçı, dövlət xadimi Nəriman Nərimanovun anadan olmasının 100 illiyini geniş qeyd etmək barədə sərəncam imzaladı. Bununla əlaqədar "Pravda" qəzetində çap etdirdiyi məqaləsində totalitar sovet rejimi şəraitində Nərimanovun haqsız hücumlara məruz qalması, Azərbaycanın müstəqilliyinə və ərazi bütövlüyünə qarşı, mərkəzin antiazərbaycan siyasətinə qarşı cəsarətlə mübarizə apardığını nəzərə çatdırdı.

1970-ci ildə N.Nərimanovun ev-muzeyinin açılması və ona əzəmətli abidələrin ucaldılması, əsərlərinin çap edilməsi və onun barəsində çoxsaylı monoqrafiyaların nəşri sahəsində görülən işlər ulu öndərin təkcə Nərimanova deyil, həm də Azərbaycanın bir çox tarixi şəxsiyyətlərinə bəslədiyi ehtiramın nəticəsidir.

Heydər Əliyevi Azərbaycan tarix elminin banisi və himayəçisi adlandıranlar tam haqlıdırlar. Onun bütün nitq və yazılarında tarix elminin ən aktual problemlərinin tədqiqi qarşıya qoyulurdu. O, dəfələrlə M.K.Atatürkün belə bir fikrinə diqqəti cəlb edirdi: Tarixi yazmaq onu yaratmaqdan daha çətindir. Tarix elm olmaqla heç bir təhrifə və ideyalaşdırmaya məruz qalmamalıdır.

Ulu Tanrı Heydər Əliyevə fenomen bilik və möhkəm yaddaş bəxş etmişdi. O, ən mötəbər beynəlxalq konfranslarda və toplantılarda heç bir mətndən istifadə etmədən məzmunlu nitq söyləmək, dinləyiciləri sehirləmək qabiliyyətinə malik şəxsiyyət idi. Ulu öndər "tarix nəsillərin varisliyi, onların bir-birini əvəz etməsi deməkdir" konsepsiyasını əsas götürərək çağdaş hadisələri keçmişdə baş verənlərlə əlaqələndirmək, düzgün nəticələr çıxarmaq qabiliyyətinə malik idi.

Ədəbiyyat:

1. https://www.academia.edu/92522540/Heyd%C9%99r_%C6%8Fliyev_d%C3%BChas%C4%B1_elm_v%C9%99_t%C9%99hsilimizin_b%C3%B6y%C3%BCk_him%C9%99yadar%C4%B1
2. https://www.anl.az/down/meqale/xalqqazeti/2010/may/119621.htm

Rail Şahbazlı Rauf oğlu
8-ci sinif, Elmi rəhbər: Mövlanə Nuruzadə Pünhan qızı
249 nömrəli tam orta məktəb

HEYDƏR ƏLİYEVİN TƏHSİLDƏ ROLU

Azərbaycan Reapublikasının demokratik, milli və bəşəri dəyərlərə sadiq müstəqil dövlət kimi təşəkkülü Ümumilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev müasir Azərbaycan Respublikasının memarı və qurucusudur. Ulu Öndərin birinci dəfə 1969-1982-ci illəri əhatı edən quruculuq fəaliyyəti qədim dövlətçilik tariximizin ən böhranlı dövrlərindən hesab edilən 1990-cı illərin həlledici məqamında ikinci dəfə siyasi hakimiyyətə gəldiyi zaman yeni vüsət aldı.[3]

Ulu Öndər Heydər Əliyev təhsilin əhəmiyyətindən danışarkən deyirdi: "İndi bizim təhsilimizin məqsədi gənc nəslə, uşaqlara təhsil verib onları gələcəyə hazırlamaqdır." [1, səh. 254]

Ümumilli lider Azərbaycan əhalisinin təhsil,ümum mədəni və intellektual səviyyəsinin yüksəldilməsində böyük rol oynadı. Onun təşəbbüsü ilə 1972-ci ildə"Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında"qərar qəbul edildi.[5]

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək,onların təhsil alması üçün daha əlverişli şərait yaradılmasını təmin etmək və təhsilə olan həvəslərini artırmaq məqsədilə respublikamızın ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Prezident təqaüdünün təsis edilməsi ilə bağlı fərman da görkəmli liderin gənclərin ali təhsil almalarına böyük dəstəyinin bariz təzahürü idi:Qeyd etməliyik ki,təhsil sahəsində Heydər Əliyevin xidmətləri 2 istiqamətdə getmişdir. [4]

Hələ SSRİ dövründə dahi şəxsiyyətin təşəbbüsü ilə Azərbaycanda 5 yeni ali təhsil müəssisəsi açılıb. Kənd məktəblərinin iş şəraitinin daha da yaxşılaşdırılması barədə ardıcıl qərarlar qəbul etmişdir.

1988-ci ildə Azərbaycan müəllimlərinin XI Qurultayında Ümumilli Lider məktəb tikintisinə diqqətin artırılması barədə iş adamlarına çağırış etdi. Onun təşəbbüsü ilə hazırda da bütün şagirdlər dərsliklərlə, müəllimlər isə tədris vəsaitləri ilə pulsuz təmin edilirlər.

Dahi rəhbər hər zaman müəllim peşəsinə böyük dəyər vermiş,"Müəllim adı ən yüksək addır.Mən yer üzündə müəllimdən yüksək ad tanımıram."demişdir.

1970-ci illərdə 817 nəfər "Əməkdar müəllim" fəxri adı almış,3 nəfər müəllim o dövrün ən yüksək təltiflərindən olan Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdü.

Müstəqil Azərbaycanın memarı olan Heydər Əliyevin bir özəlliyi də ondan ibarət idi ki,hər yeni tədris ilinin ilk günündə məktəblərdə olur,müəllim və şagirdlərlə görüşür,onları dinləyir və öz müdrik tövsiyyələrini verirdi.

Əvəzolunmaz liderin respublikadan kənarda milli kadr hazırlığı sahəsində apardığı siyasətin mühüm istiqamətlərindən biri də milli hərbi kadrların yetişdirilməsidir. Onun birbaşa rəhbərliyi və qayğısı ilə 1972-ci ildən etibarən hər il yüzlərlə gənc keçmiş SSRİ-nin böyük təcrübəyə malik ali hərbi məktəblərinə təhsil almağa göndərilirdi. 1970-ci illərdə Heydər Əliyevin təşəbbüsü ilə Bakıda C.Naxçıvanski adına Hərbi məktəb yaradıldı. Bu gün müstəqil Azərbaycanın Milli Ordusuna rəhbərlik edən zabitlərin əksəriyyəti məhz Heydər Əliyevin xeyir -duası ilə o illərdə təhsil almağa göndərilən və ölkəmizin hərbi məktəblərini bitirən gənclərdir.[2]

Bu gün isə unudulmaz şəxsiyyətin uğurlu siyasəti Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən həyata keçirilir. Dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycan dövləti və milləti qarşısında xidmətli unudulmazdır.

İllər ötəcək,nəsillər bir-birini əvəz edəcək,lakin Azərbaycan xalqının iftixarı olan Heydər Əliyevin uzaqgörən strategiyası uğurlu gələcəyə gedən yollarımızı əbədi məşəl kimi daim işıqlandırmaqda davam edəcək.

Ədəbiyyat siyahısı:

1. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. Bakı, 2007. 21-ci cild,
2. Ceyhun Bayramov, Azərbaycan Respublikasının Təhsil naziri. "Azərbaycan" qəzeti.
3. https://e-qanun.az/framework/52506
4. https://e-qanun.az/framework/8759

Sevda Xəlilzadə Nazim qızı
254 nömrəli tam orta məktəb
Elmi rəhbər: Azərin Abdullayeva
Azərbaycan Dillər Universiteti

XVI-XVII ƏSRLƏRDƏ SƏFƏVİLƏR VƏ OSMANLI İMPERİYASI ARASINDAKİ MÜHARİBƏLƏR

Yarandığı ilk gündən tarixə ən güclü addımlarını atmış Səfəvi İmperiyası ölkəmiz üçün dövlətçilik ənənələrinin bərpası, inkişafı və möhkəmləndirilməsində əvəzsiz rola malikdir. Şah İsmayıl Xətainin başçılığı ilə onu idarə edən sülalənin – "Qızılbaşlar" və ya "Səfəvilər" – adını daşıyan bu dövlət Azərbaycanın

istər mədəni, istər iqtisadi, istərsə də siyasi cəhətdən inkişafına yol açmışdır. Bu səbəbdən də Səfəvilər XVI-XVII əsrlərin ən qüdrətli dövlətləri siyahısına daxil edilmişdir. Həmin dövrün böyük imperiyalarından sayılan Osmanlı İmperiyası isə Səfəvilərin qərb qonşusu olmuşdur. Məlumdur ki, bu dövrdə bu iki dövlət arasında həm dini məzhəb, həm də geosiyasi maraq fərqləri toqquşmalara səbəb olmuşdur.

Bu toqquşmalar ilk özünü 1514-cü il qızılbaşların komandanı Şah I İsmayıl və osmanlı I Səlim arasında olmuş Çaldıran döyüşündə osmanlıların xeyrinə nəticələnsə də, I Səlim Səfəvi dövlətinə son qoymaq arzusuna çata bilmədi. Lakin I Səlimin bu dövlətə süquta uğratmaq istəyi 200 illik müharibələrə səbəb oldu.1514-1555-ci illər ərzində davam edən müharibələr 1555-ci il mayın 29-da imzalanmış Amasiya sülhü ilə yekunlaşdı. Amasiya sülh müqaviləsi bu iki dövlət arasında imzalanan ilk rəsmi sülh müharibəsi olaraq tarixə adını yazdırmışdır.

Növbəti Səfəvi-Osmanlı müharibəsi – 1578-1590-cı illər arasında baş vermişdir. 1578-ci ildə Qızılbaşlar İmamqulu xan Qacarın rəhbərliyində Çıldır düzündə Osmanlıları qarşıladılar. Ancaq Qızılbaşlar məğlub olaraq Qarabağa çəkildilər. Müharibələr zamanı Səfəvilər bir çox qələbələr qazansalar da, dövlətin daxili vəziyyətində baş verən çəkişmələr Osmanlı imperiyasının qələbəsinə gətirib çıxartdı. Azərbaycanın şimal qərbində Qanıxçay sahilində – Zaqatala-Balakən ərazisi baş verən döyüşdə Səfəvi qoşunları qalib gəldi. Lakin müharibənin sonrakı döyüşlərində Osmanlılar bir çox döyüşdə qazanırlar və 1590-cı ildə bağlanan İstanbul sülh sazişi ilə iki dövlətin müharibələrinə yenidən yekun verildi. İstanbul sülh müqaviləsinə əsasən, Talış bölgəsi istisna olmaqla Bütün Şimali Azərbaycan, Qərbi Azərbaycan, eləcə də Cənubi Azərbaycanın bir hissəsi – Şirvan və Qarabağdan Təbriz və Marağayadək ərazilər Osmanlı dövlətinin nəzarətinə keçib.

1603-1639-cu illərdə Səfəvi-Osmanlı arasındakı müharibənin 3-cü mərhələsi olmuşdur. 1587-ci il Şah I Abbasın taxta gəlməsi ilə isə itirilmiş torpaqlarımız və Səfəvilər dövlətinin qüdrəti yenidən geri qaytarıldı. Belə ki, 1603-1607-ci illərdə bütün Azərbaycan torpaqları Osmanlılardan alındı. Lakin müharibə hələ davam edirdi. 1612-ci ildə Sərab sülhü bağlandı. Bununla da 1555-ci ildəki Amasiya sülhünün şərtləri bərpa edildi. 1622-1623-cü illərdə Bağdad, Kərbəla, Nəcəf, Kərkük və başqa şəhərlər də Azərbaycana qatıldı. Bununla belə Şah I Abbasın uğurlu siyasəti Şah I Səfi tərəfindən uğurla davam etdirilə bilmədi. Şah I Səfinin hakimiyyəti dövründə Azərbaycanın ən görkəmli Bağdad şəhəri itirildi.

XVII əsr Səfəvi-Osmanlı müharibələri 1639-cu ildə müəyyən müddətlik sona çatdı. Həmin ildə Qəsri-Şirin sülhü imzalandı və bu sülh müqaviləsinin imzalanması ilə Amasiya sülhünün şərtləri yenidən bərpa olundu. 1639-cu ilə qədərki müharibələr hər iki imperiyanı həm iqtisadi, həm siyasi, həm də mədəni cəhətdən zəiflətdilər. Bu zərər isə ən çox təbii ki Səfəvilər imperiyasının inkişafına mənfi təsir göstərdi.

Ədəbiyyat siyahısı

1. https://www.wikimedia.az-az.nina.az/S%C9%99f%C9%99vi-Osmanl%C4%B1_m%C3%BCharib%C9%99si_(1730-1732).html
2. anl.az/down/meqale/xalqcebhesi/2015/dekabr/465784.htm

Süleymanzadə Qumral Elşad q.
İlyas Əfəndiyev adına Elitar Gimnaziya 10a2
Elmi rəhbər: Solmaz Xəlilova
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ

Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan xalqının Çar Rusiyasına qarşı milli azadlıq mübarizəsi nəticəsində l Dünya müharibəsindən sonra Şimali Azərbaycanda yaranmışdır. AXC Türkiyə müsəlman dünyasında yaranmış ilk dünyəvi demokratik respublika və parlament respublikası idi.AXC və onun parlamenti çox çətin və mürəkkəb bir tarixi dövrdə meydana gəlmişdir. AXC 1918 may ayının 26-da Zaqafqaziya Seyminin son iclası nəticəsində Gürcüstan Zaqafqaziya Seymindən çıxaraq öz istiqlaliyyətini elan etdi. Cümhuriyyətin paytaxtı ilk öncə Gəncə, sonra Bakı şəhəri oldu. Bir sıra danışıqlar aparıldıqdan sonra sərhədlər nizama salındı.Nəticədə Azərbaycan Xalq Cümhuriyyəti Cənubi Qafqazdakı tarixi Azərbaycan torpaqlarının 113.9 min kv. Km-ni əhatə edirdi. AXC-nin əhalisi isə 2.8 milyondan çox idi. Azər-

baycan Tariximizin səhifələrinə adını qızıl hərflərlə yazdırmış AXC-nin qurucusu Məmməd Əmin Rəsulzadədir. Şanlı tariximizə baxdığımız zaman müasir Azərbaycan Respublikamızın demokratik fikirlərinin başlanğıcı hələ AXC dövründən öz sədasını yayırdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövlət parlamentinin qəbul etdiyi qanun və qərarlar əsasında idarə olunurdu.Parlamentdə Azərbaycan ərazisində yaşayan bütün xalqlar o cümlədən sayları çox az olan xalqlarda öz debatları ilə təmsil olunmuşdur. İcra hakimiyyəti hökümətə məxsus idi. Hökümət parlament qarşısında cavabdeh idi. Azərbaycan Xalq Cümhuriyyəti Paris Sülh Konfransının qərarına əsasən müstəqil dövlət kimi tanınmışdır.

Azərbaycan Xalq Cümhuriyyəti elan edildiyi gündən dövlət rəmzlərinin yaradılmasına xüsusi önəm verirdi. Ən böyük dövlət atriputlarından biri kimi dövlət bayrağının qəbul edilməsi "Əli bəy Hüseynzadənin" türkləşmək,islamlaşmaq və müasirləşmə şüarı ilə 1918-ci il 9 noyabr tarixində "mavi, qırmızı və yaşıl rənglərdən ibarət" Bayrağın milli bayraq kimi təsdiq olunması haqqında qərar qəbul etdi. Azərbaycan Xalq Cümhuriyyəti Hökümәti 1919-cu il 23 mart tarixində dövlət gerbinin hazırlanması üçün müsabiqə elan olundu.Dövlət gerbinin, orden və medallarının hazırlanmasın da ilk peşəkar heykəl təraş Zeynal Əlizadə iştirak etdi. Həmin dövr Azərbaycan teatr sənəti də öz töhvəsini verdi. Cümhuriyyət dövründə Bakı da fəaliyyətini bərpa etmiş ilk truppa "Hacıbəyli qardaşları"olmuşdur. Truppa tanınmış sənətkarlardan Hacağa Abbasov, Mirzağa Əliyev, Əhməd Ağdamski, Cəlil Bağdadbəyov, Hüseyn Ərəblinski, Muxtar Məhəmmədzadə kimi dahi şəxsiyyətlər iştirak etmişdir.

Əfsuslar olsun ki, cümhuriyyətimiz hərbi müdaxilələrə uzun müddət davam gətirə bilmədi. 1920-ci ilin 28 aprelində beynalxalq hüquq normalarını kobudcasına pozan RSFSR-in hərbi müdaxiləsi nəticəsində süqut etdi.

22 aylıq fəaliyyəti olmasına baxmayaraq şanlı tariximizdə əvəzsiz yer qoymuş Azərbaycan Xalq Cümhuriyyəti əsla unudulmur, xalqımız, vətənpərvər gənclərimiz olduğu müddətcə də əsla unudulmayacaq!

Ədəbiyyat siyahısı:

1. https://az.m.wikipedia.org/wiki/Az%C9%99rbaycan_Xalq_C%C3%BCmhuriyy%C9%99ti
2. https://meclis.gov.az/cat-az.php?cat=91&lang=az

Qədirova Elvira Rizvan qızı
245 nömrəli tam orta məktəb
Elmi rəhbər: Solmaz Xəlilova
Azərbaycan Dillər Universiteti

MAMMAD EMİN RASULZADA

Mammad Amin Hadji Molla Alekbar oghlu Rasulzadeh was born on January 31, 1884 in Novkhani village of Baku. He received his first education at Sultan Majid Ganizade's Russian-Tatar (Russian-Azerbaijani) school No.2 and graduated from Baku Technical School. He joined the revolutionary movement from a young age, founded and headed the association of young Azerbaijani revolutionaries called "Muslim Youth Organization" (1902-03). In 1904, he participated in the creation of the "Muslim Social-Democratic "Hummat" group under the Baku Committee of the Russian Social Democratic Labor Party. In 1906-07, he wrote in "Takamul" and other newspapers demanding equal rights and freedom for nations, tribes, classes, people (individuals) and over time, he formed these political demands as a call for "freedom for people, independence for nations!" Rasulzade actively participated in the Iranian revolution of 1908-11, national-democratic awakening in South Azerbaijan, met with Sattarkhan and Bagirkhan. During this period, he published the first European-style daily newspaper "Irane-nou" ("New Iran") in Tehran (1910-11). In 1915, he published the newspaper "Açık soz". In October 1917, M.A.Rasulzadeh was elected the chairman of the Central Committee of the party at the 1st congress of the "Turkish People-Central Party of Musavat". In his speech at the congress, he defined the direction of the party's struggle and stated: "A nation without national independence, freedom and cannot preserve its culture. Freedom for people, independence for nations". But after the October Revolution (1917), the Bolshevik reaction and a new era of national slavery began in Russia.İn March 1918 mass genocides were

committed against the Azerbaijani people in Baku and in other parts of the country. At this time, Rasulzade, together with other prominent representatives of the national liberation movement, began to fight for the creation of an independent confederation state of the Caucasus, separate from Russia, and for entering into peace negotiations with Turkey. As a result of secret voting, Rasulzade was elected as the chairman of the National Council (parliament) of Azerbaijan (May 27, 1918). Azerbaijan was declared an independent state and M.A. Rasulzade, as the chairman of the Azerbaijan National Council, together with the Minister of Foreign Affairs, Mammad Hasan Hajinsky, signs the Batumi Treaty with the Ottoman State (June 4, 1918). Provides fraternal assistance to the Azerbaijani people who are being subjected to genocide by the Armenian-Dashnak gangs. In 1942, he entered into negotiations with the Ministry of Foreign Affairs and the Ministry of the East of Germany in order to achieve the independence of Azerbaijan. But the negotiations ended in failure. Rasulzadeh is one of the most prominent representatives of political journalism in the history of Azerbaijan press. Researches show that in 1903-20, more than 1200 of his articles in various genres were published in the periodical press of Azerbaijan alone. In this period, the magazines "Yeni Kafkasya" (1923), "Azeri Türk" (1928), "Odlu Yurd" (1929), "Qurtuluş" (1934), "Musavat Bulletin" (1936), "Azerbaijan" (1952), " He published the newspaper "Istiklal" (1932). Rasulzade continued the independence struggle for the restoration of Azerbaijan's independence until the end of his life. He died in Ankara on March 6, 1955 and was buried in the Asri cemetery of that city.

Literature:

1. https://tarixinstitutu.az/personalities/view/104
2. https://en.m.wikipedia.org/wiki/Mahammad_Amin_Rasulzade
3. https://www.muallim.edu.az/news.php?id=24908

Qədirova Dəniz
245 saylı tam orta məktəb
Elmi rəhbər: Xəlilova Solmaz
Azərbaycan Dillər Universiteti

QIZ QALASI

Qız qalası – Azərbaycanın paytaxtı Bakı şəhərinin qədim tarixi rəmzlərindən biri, milli memarlığımızın nadir nümunəsidir. Abidə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində yerləşir. Daşdan hörülmüş nəhəng silindr formasında olan bu abidənin hündürlüyü şimal tərəfdən 28, cənub tərəfdən isə 31 metrdir. Təməl hissədə qala divarlarının qalınlığı 5, 8-ci mərtəbədən yuxarıda isə 4 metrə çatır. Qala 8 gümbəzdən ibarətdir ki, onlar da qalanı 8 mərtəbəyə bölür. Hər mərtəbə yonma daşlarla tikilmiş, günbəz formalı tavanla örtülmüşdür. Daşla hörülmüş bu tavanların ortasında dairəvi deşiklər vardır. Deşiklər şaquli xətt istiqamətindədir. Belə ki, VIII mərtəbənin tavanının ortasında olan dairəvi deşikdən baxdıqda birinci mərtəbənin döşəməsini görmək mümkündür.

Tikilmə çağı ətrafında mübahisələrin heyrətləndirici böyük zaman intervalı çərçivəsində aparılması baxımından memarlıq tarixində Qız qalası ilə müqayisə edilə biləcək abidə yoxdur. Belə ki, abidənin yaşının Şumer dövründən başladığını iddia edən mütəxəssislər də var, XII yüz ildə tikildiyini sübut etməyə çalışanlar da. Burada zaman fərqi tikilmə tarixi bilinməyən başqa abidələrdə olduğu kimi bir neçə il deyil, hətta bir neçə əsr də deyil, 3000 ildən artıqdır. Elə buna görədir ki, 2000-ci ilin dekabrında Qız qalası İçərişəhər və Şirvanşahlar sarayı ilə birlikdə UNESCO-nun Dünya İrs siyahısına salınıb.

Qız qalasının cənub-qərb divarında 14 metr hündürlükdə ərəb dilində qədim kufi xətti ilə yazılmış daş kitabə yerləşdirilmişdir. Yazıda "Qülleyi Məsud ibn Davud" sözləri həkk olunub. Yazı kalliqrafik xüsusiyyətlərinə görə XII əsrə aid edilir. Bəzi alimlər burada qalanı ucaldan memarın adının həkk olunduğunu ehtimal edirlər.

Əsrlər bir-birini əvəzlədikcə Qız qalası təbii proseslərin təsiri nəticəsində zədələnərək ciddi təhlükə ilə üz-üzə qalsa da, bu möhtəşəm abidə tarixin bütün sınaqlarına sinə gərərək ümumilikdə öz ilkin görkəmini və struktur quruluşunu qoruyub saxlaya bilib. Ötən əsrin 60-cı illərində aparılan bərpa işlərindən sonra həmin abidə muzey kimi fəaliyyət göstərib. Dünya əhəmiyyətli bu abidənin qorunub saxlanması və mövcud

görkəmdə gələcək nəsillərə çatdırılması üçün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığı əsasında 2009-2013-cü illərdə burada konservasiya işləri aparılıb. Görülən işlər nəticəsində Qız qalasının təkrarolunmaz görkəmi tam bərpa edilmiş, bu bənzərsiz abidə yenidən istifadəyə verilmişdir.

Qalanın adının etimologiyası, təyinatı ilə bağlı mübahisələr indiyə qədər səngimək bilmir. Onun ucaldılma tarixi və mahiyyəti yetərincə müəmmalıdır. Qız qalasının adının mənşəyi çoxsaylı əfsanələrlə bağlıdır. Bəzi müəlliflərə görə, qalanın qızla bağlı əfsanəyə (Bakı xanının qızı) əsasən Qız qalası adlandırılmasıdır. Belə ki, əfsanəyə görə, qardaşı (bəzi mənbələrdə hökmdar atası) tərəfindən qalada saxlanılan qız bu əzaba dözməyərək özünü qalanın başından ataraq Xəzər dənizinin sularına qərq etmişdir. Söylənilən digər əfsanələrdən biri də şahın aşıq olduğu və evlənmək üçün qala tikdirməyi ona şərt qoyan bir qıza həsr olunanıdır. Bütün bu əfsanələr göz oxşayan Qız Qalasının ad-sanının dillərə dastan olmasına səbəb olmuşdur.

Ədəbiyyat siyahısı:

1. anl.az/down/meqale/az_muellimi/2014/sentyabr/393862.htm

Süleymanzadə Fəridə Elşad qızı
Elmi rəhbər: təhsil-1 fakültəsi, 407a Aynur Qəniyeva Füzuli qızı
9 a² sinifi İlyas Əfəndiyev adına Elitar Gimnaziya

HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN GƏNCLİYİ

Bu gün hər bir Azərbaycan gəncinin idealı olan məhz bir şəxs var. Bu şəxs hər birimizin qəlbində xüsusi yerə sahib olan Ümummilli lider Heydər Əliyevdir. O, biz gənclər üçün əvəzolunmaz, təkrarsız bir rola sahibdir. O, hər daim öz çıxışlarında, qərarlarında Azərbaycan xalqını, xüsusilə də gəncləri düşünmüş, mənafeləri uğrunda əlindən gələnin ən yaxşısını etmişdir. Onun həyat yolunda atdığı addımları, əldə etdiyi uğurları, bizə bəxş etdiyi fürsətlər biz gənclər üçün misilsiz bir mirasdır.

"Gənclərin vəzifəsi Azərbaycanın dövlət müstəqilliyini qorumaq, Azərbaycanda hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu prosesində fəal iştirak etmək, ölkəmizin iqtisadiyyatını, mədəniyyətini, elmini inkişaf etdirməkdir", məhz bu nəsihətlər onun tərəfindən biz gənclərin qarşısına qoyulmuş əsas missiya olmalı, şanlı Azərbaycan xalqının gənci olaraq bu vəzifələrimizi yerinə yetirmək başlıca əməlimiz olmalıdır. Heydər Əliyev gəncləri hər daim vətən uğrunda birləşməyə, addım atmağa, səylə çalışmağa səsləmişdir. O, gənclərə hər daim etimad etmişdir. Heydər Əliyev gəncləri xalqın gələcəyi olaraq görmüş, dövlətçilik ənənələrinin davam etdirilməsi, qorunması və inkişafı uğrunda çalışmağa sövq etmişdir.

Keçən əsrin 90-ci illərində, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə gənclərin qarşısında duran problemlər və onların həll yolları da dəyişməyə başlamışdır. Uzaqgörən lider gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyul 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı ilin yanvarın 26-da Heydər Əliyevin imzaladığı siyasətə əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət və qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu.

Heydər Əliyevin gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönəldilən, onların öz bacarıqlarını inkişaf etmələrinə kömək edən fərman, sərəcanmlar və dövlət proqramları qəbul etməsi bu sahədə zəruri qanunvericilik bazasını formalaşdırmağa kömək etdi. O, bu siyasətin əsasını qoymaqla gənclərin mənəvi-ideoloji və hüquqi cəhətdən formalaşmasına səbəb olmuşdur. Bu gün onun etimadı öz təsdiqini tapmaqdadır. Azərbaycan gəncləri, hər bir sahədə mahiyyət və keyfiyyət cəhətdən öz fərqlərini və peşəkarlıqlarını nümayiş etdirirlər. Heydər Əliyevin də dediyi kimi: "Hər bir Azərbaycan gənci, hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Belə ki, biz Azərbaycan gəncləri, ulu öndərin bizlərə qoyub getdiyi bu vəzifələri layiqincə yerinə yetirmək üçün çalışırıq və çalışacayıq da!

Ədədbiyyat siyahısı:

1. https://www.anl.az/down/meqale/yeni_az/2014/aprel/363849.htm
2. https://www.yeniazerbaycan.com/Siyaset_e17345_az.html

Babayeva Eleonora
IV sinif, 308 saylı orta məktəb
Elmi rəhbər; Müəllim: Talıbova Pərvanə
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEVİN "TƏMİZ ƏTRAF MÜHİT VƏ YAŞIL ARTIM ÖLKƏSİ" SİYASƏTİ

Mən 1993-cü ildə Bakıya gələrkən bizim əkdiyimiz, becərdiyimiz bəzi ağacların kəsilməsini görərkən elə bildim ki, məni yaralayıblar. Mən dəfələrlə demişəm, bir də deyirəm, kim hansı bir sağlam ağacı kəsirsə, hesab edin ki, o, mənim qolumu, barmaqlarımı kəsir.... İnsan qurmalıdır, yaratmalıdır... hər bir insan ağac əkməlidir, becərməlidir, böyütməlidir. Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir, o, öz ailəsinə, özü-özünə xəyanət edir.

Ümummilli lider Heydər ƏLİYEV

Hər bir xalqın, millətin böyüklüyü onun yetirdiyi böyük şəxsiyyətlərlə ölçülür, hansı ki, dar gündə, çətin vaxtda yalnız ona arxalanır. Bu baxımdan Azərbaycan xalqı xoşbəxtdir ki, Heydər Əliyev kimi əzəmətli bir şəxsiyyəti həyata bəxş edib. Elə bir şəxsiyyət ki, mənsub olduğu xalqını, dogma Azərbaycanı bütün dünyaya tanıtdırdı. Respublikamızda ekoloji problemlərin həll edilməsini daim diqqətdə saxlayan, xüsusilə yaşıllaşdırmaya böyük önəm verən Ulu Öndər Heydər Əliyev 2001-ci il 23 may tarixində Fərman verdi.

"Mən istəyirəm ki, hamınız təbiəti qoruyanlar olasınız" dedi dahi rəhbər Heydər Əliyev. O, ətraf mühitin mühafizəsi və təbii sərvətlərdən səmərəli istifadə məsələlərinə daim xüsusi qayğı ilə yanaşıb. Ulu Öndər ana yurdumuzu qarış-qarış gəzərkən, onun inkişafının təməl planlarını qurarkən heç vaxt ekologiyanı, təbəti yaddan çıxarmamışdır. Çünki Tanrı bizə bənzərsiz bir təbiət gözəlliyi bəxş etmişdir

Ekoloji vəziyyətin sağlamlaşdırılması, cəmiyyətdə ekoloji mədəniyyəti və təbiətə qayğını təbliğ etmək ənənələrini davam etdirmək, ağac əkilməsini və yaşıllıqların çoxaldılmasını təşviq edərək ətraf mühitin qorunmasına töhfə vermək Ulu Öndərin siyasətinin bariz nümünəsidir.

Yeri gəlmişkən, ulu öndər 2002-ci il mayın 2-də Bakıda kecirilən "Azərbaycanın milli – mədəni və təbii irsin qorunub saxlanması milli parklar proqramı'' beynəlxalq konfransının iştirakcıları ilə görüşündə demişdir ki, ekologiya indi bəşəriyyət ücün ən əsas məsələlərdən biridir: "İnsanlar hələ bunun əhəmiyyətini, demək olar ki, tam başa düşə bilməyiblər. Hərə öz işini görmək ücün məqsədinə nail olmaq ücün istər – istəməz təbiətə, ətraf mühitə böyük ziyan vurur".

Azərbaycanda salınan yaşıllıq zonaları məhz Heydər Əliyev zəkasının, onun yorulmaz fəaliyyətinin, bu, böyük insanın varlığına hopmuş Vətən sevgisinin nəticəsidir.

Ümummilli Lider Heydər Əliyevin ölkənin ekoloji vəziyyətinin yaxşılaşdırılması, ağacların əkilməsi, yaşıllıq zolaqların genişləndirilməsi üçün verdiyi tapşırıqlar, su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, inkişafı və dirçəlişi istiqamətində gördüyü tədbirlər onun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında bu gün də uğurla davam etdirilir. O, Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncam verdi.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası – COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir.

"Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam...". Ulu Öndər bu gün də aramızdadır, nə qədər Azərbaycan varsa, Heydər Əliyev vardır. Bu iki varlığı bir-birindən ayırmaq mümkün deyil. Heydər Əliyev hər bir azərbaycanlının qəlbindədir. Biz xoşbəxtik ki, Tanrı bizə belə dahi şəxs bəxş etmişdir.

Ulu Öndər Heydər Əliyevin zəngin maddi sərvətlərimizə yaşıllığa, meşələrə, dağlara, çaylara, bulaqlara bir sözlə, təbiətə münasibəti onun azərbaycançılıq ideyasının tərkib hissəsi idi. Bu münasibətlərdə Azərbaycana nəhayətsiz sevgidən, ana Vətənə məhəbbətdən doğan heyrətamiz bir cazibə qüvvəsi vardı. Dünyanın tanınmış siyasətçisi, xalqın əbədi lideri, Ulu Öndərin təbiət sevgisində də dövləti idarə etmək səriştəsi, Azərbaycanı dünyaya tanıtmaq missiyası möhkəm və dönməz idi.

Muhammadova Sadoqat Nurmatjonovna
A first student of Bukhara state university,
Foreign languages faculty 11-2 ING 23 group

SYNTAX: STRUCTURE, MEANING AND FUNCTION

Syntax is a linguistic term that refers to the rules governing how words are combined to form sentences in a language. It involves the study of sentence structure, word order, and the relationships between different elements in a sentence.

In linguistics, syntax deals with the arrangement of words to create well-formed sentences in a language. It includes:

A) Word order B) Phrases C) Clauses D) Agreement E) Modifiers F) Transformation etc…

Syntax is a fundamental aspect of language that allows speakers to create meaningful and grammatically correct sentences. It plays a crucial role in understanding how words are structured and combined in a systematic way to convey information effectively in communication.

Syntactic structure refers to the hierarchical arrangement of words and phrases in a sentence according to the rules of syntax in a particular language. It defines how individual words and phrases are combined to form meaningful and grammatically correct sentences.

At a basic level, the syntactic structure of a sentence includes:

1. **Words:** The smallest units of language that carry meaning. Words are categorized into different parts of speech (nouns, verbs, adjectives, adverbs, etc.) based on their grammatical functions.

2. **Phrases:** Groups of words that function as single units within a sentence. Phrases can be noun phrases, verb phrases, prepositional phrases, etc., and they often consist of a head word (e.g., a noun or a verb) with modifiers.

3. **Clauses:** Units of syntax that contain a subject and a predicate. A clause can stand alone as a complete sentence (independent clause) or be part of a larger sentence (subordinate clause).

Analyzing the syntactic structure of a sentence involves identifying the various components (words, phrases, clauses) and how they are combined to create a coherent and grammatically correct structure.

Syntactic meaning, also known as structural meaning, refers to the meaning that arises from the grammatical structure of a sentence rather than the specific words or content used. It focuses on the relationships between words, phrases, and clauses in a sentence and how they combine to convey meaning within a particular linguistic framework.

In linguistic terms, syntactic meaning is derived from the arrangement of elements in a sentence and how they interact to create coherent and well-formed communication.

Syntactic meaning can include the following aspects:

1. Word Order: Different languages have specific word orders that convey distinct meanings. For example, changing the order of subject, verb, and object can alter the focus or emphasis in a sentence, even if the words used remain the same. For example, English typically follows a subject-verb-object (SVO) word order, as in "She eats apples."

2. Structural Ambiguity: The syntactic structure of a sentence can sometimes lead to ambiguity in interpretation. For instance, phrases like "old men and women" can be interpreted as "old men and old women" or "men and women who are old" based on the syntactic structure.

3. Grammatical Relations: The syntactic meaning of a sentence is also related to the grammatical relationships between words and phrases. Subjects, objects, verbs, and modifiers all contribute to the overall meaning through their positions and functions in the sentence structure.

4. Sentence Types: Different sentence types (declarative – The sun comes up in the morning, interrogative- Would you take out the trash? Imperative – Give me the money, exclamatory- Run for your lives!) convey different meanings through their syntactic structures and intonational patterns.

Syntax is a crucial component of language that deals with the structure and arrangement of words in a sentence to convey meaning. Syntactic functions refer to the roles that words, phrases, and clauses play within the structure of a sentence.

Some common syntactic functions include:

1. **Subject**: The subject is the noun or pronoun that performs the action of the verb in a sentence or about which something is stated. It is usually located at the beginning of a declarative sentence. For example, in the sentence "She reads books" "She" is the subject.

2. **Verb:** The verb is a word that expresses an action, occurrence, or state of being in a sentence. It is the core element that predicates the subject. In the sentence "They are running" the verb is "are running."

3. **Object:** The object is a noun or pronoun that receives the action of the verb in a sentence. There are direct objects (receives the action directly) and indirect objects (receives the action indirectly). In the sentence "She gave him a book" "him" is the indirect object, and "a book" is the direct object.

4. **Complement**: Complements are words or phrases that complete the meaning of a verb. They can be subject complements (nouns, pronouns, or adjectives that rename or describe the subject) or object complements (words that provide additional information about the object). An example of a subject complement is "She is a doctor."

5. **Modifier:** Modifiers are words or phrases that describe or provide additional information about other elements in a sentence. They can include adjectives (modifying nouns), adverbs (modifying verbs, adjectives, or other adverbs), and prepositional phrases (providing information about time, place, manner, etc.).

6. **Adverbial:** Adverbials are words or phrases that modify or provide additional information about the action described by the verb. They can indicate time, place, manner, frequency, or degree. For example, in the sentence "She sings beautifully" "beautifully" is an adverbial modifying the verb "sings"

Syntactic theory is a branch of linguistics that focuses on the principles and rules underlying the structure of sentences in natural languages. Syntactic theories attempt to explain the rules and constraints that govern sentence structure and how these rules are applied across different languages.

Some key aspects of syntactic theory include:

1. Phrase Structure: Syntactic theories propose different models of phrase structure to represent the hierarchical relationships between words and phrases within a sentence. Common structures include constituency-based models like X-bar theory and dependency-based models like Dependency Grammar.

2. Sentence Structure: Syntactic theories analyze how sentences are built from smaller units such as phrases and clauses, and how these units are combined based on specific rules. This includes studying word order, agreement patterns, and the formation of complex sentences.

3. Generative Grammar: Generative grammarians propose that language is generated by a set of rules or principles that govern the generation of an infinite number of grammatical sentences. This approach, pioneered by Noam Chomsky, introduced the concept of a universal grammar that underlies all human languages.

4. Transformational Grammar: Transformational grammar is a framework within generative grammar that focuses on the transformations that can apply to a base sentence to produce various surface structures. Transformations allow for the movement, deletion, or insertion of elements to create different grammatical sentences.

5. Universal Grammar: Universal Grammar is the idea that all languages share a common underlying structure or set of principles that are hard-wired in the human brain. This concept suggests that humans are innately predisposed to acquire language and predict certain syntactic patterns across languages.

6. Minimalism: Minimalist syntax is a recent framework in syntactic theory that aims to simplify the syntactic rules and structures by positing minimal computational principles that generate sentences efficiently. It seeks to account for syntactic phenomena with minimal theoretical apparatus.

Syntax is a fundamental aspect of language that allows speakers to create meaningful and grammatically correct sentences. It plays a crucial role in understanding how words are structured and combined in a systematic way to convey information effectively in communication.

References:

1. Summer Ives “Some notes on syntax and meaning” 18 (3), 179-222, 1964
2. Robert D Van Valin, Randy J LaPolla “Syntax: Structure, meaning, and function” Cambridge University Press, 1997
3. Silvia Luraghi, Claudi Parodi “Key terms in Syntax and syntactic theory”, 2008
4. Eugene A.Nida “A Synopsis of English Syntax”,2013

5. Lucien Tesniere “Elements of Structural Syntax”, 2015
6. Izomovich, R. Z., & Fazliddinovna, U. D. (2022). Influence of orthography in teaching english and second language acquisition. Thematics Journal of Applied Sciences, 6(1).
7. Расулов, З. И. (2017). Особенности позиционными типологик ва лингво маданиятшунослик ўрни. 56. Илмиймақ https://scholar. google. com/citations n_for_view= BMFYYzIAAAAJ, 7.
8. Erkinovna, Y.F., Djurabaevna, D. N., & Madina, S. (2020). The Expression of Politeness Category in The Uzbek And English Languages. International Journal of Psychosocial Rehabilitation, 24(09).
9. Erkinovna, Y.F. (2022, January). Politeness strategies. In Integration Conference on Integration of Pragmalinguistics, Functional Translation Studies and Language Teaching Processes (pp. 80-82).
10. Yuldasheva Feruza Erkinovna. (2023). Cross-Cultural Variation and Distribution of Politeness Strategies American Journal of Language, Literacy and Learning in STEM Education (2993-2769), 1(8), 31–34. Retrieved from http://grnjournal.us/index.php/STEM/article/view/864
11. Erkinovna, Y. F. (2023). Four Current Approaches to Politeness. Best Journal of Innovation in Science, Research and Development, 2(6), 250–255. Retrieved from http://www.bjisrd.com/index.php/bjisrd/article/view/321

Aynur Zamanlı Ayaz
Filologiya fakültəsi, qrup B22-245
Elmi rəhbər: Gülşən Bağırova
Azərbaycan Dillər Universiteti

FRANSIZ İNTİBAH ƏDƏBİYYATINDA ŞƏRQ ÜNSÜRLƏRİNİN TƏZAHÜRÜ

Ədəbiyyat, bir çox baxış tərzlərinin ortaq nöqtədə birləşdiyi mövqedir. Unutmaq olmaz ki, dünya xalqlarının böyük ədəbiyyat tarixi olmuşdur. Tarixi və texniki baxımlardan irəliləyişlərin mövcudluğu ədəbiyyatın dövrlər üzrə təsnifinə səbəb olmuşdur.

İntibah - hərfi mənada oyanış və dirçəlmə deməkdir. Bütün dünya xalqlarının ədəbiyyatı məhz bu mərhələdən keçmişdir. Burada özünəməxsusluqla yanaşı kənar təsirlərin təsiri nəticəsində də adıçəkilən xalqa məxsus ədbiyyatın inkişafını unutmaq olmaz. İntibah ədəbiyyatı ilk olaraq şərqdə yaranıb formalaşmış və sonrakı dövrdə, xüsusilə üç əsr davam edən Səlib - Xaç yürüşləri nəticəsində Avropa ərazisinə yayılmışdır. Məhəbbət, din, saflıq, lətafət bunların hamısı İntibah dövründə, hər iki qitə xalqı şair və yazıçılarınln ardıcıl olaraq dəfələrlə müraciət etdiyi başlıca mövzular idi. Azərbaycan və fransız ədəbiyyatları arasındakı oxşar nüansları nəzərdən keçirmək lazımdırsa hər iki xalqın eposunda ("Kitabi Dədə-Qorqud" və "Roland haqqında nəğmələr") Şarlemanın hücumu nəticəsində İspaniyanın məğlub edilməsi, hər iki aşiqin bir-birinə olan sadiqliyi, Rolandın qəhrəmancasına həlak olması və sairə kimi oxşar nüansları ilə bu mövzuya başlanılmalıdır. İntibah dövrünə nəzər saldığımızda isə bu nüansların artdığına şahid oluruq. Şərqdə İntibah, Qərbdə isə Renessans adlanan bu ədəbi dövr ədəbiyyatdakı

ilk ən böyük bədii sistemdir. Əslində, bu dövr özündə Antik Yunan mədəniyyət və ədəbiyyatının yenidən öz ruhuna qovuşma mərhələsindən ibarətdir.

4. Ibrahim Talaat. Types of Omissions in Simultaneous Interpretation research. 2005. (p. 2-3)
5. Paul Maergner, Kevin Kilgour et all. Unsupervised Vocabulary Selection for Simultaneous Lecture Translation. Carnegie Mellon University, USA; 2003. (p. 3-4)
6. Proceedings of the 4th International Scientific Conference. "Progress in science". Brussels, Belgium. 2023. p129-131

Nəzakət Elçin qızı Əhmədzadə
Tərcümə fakültəsi, qr. 347b
İngilis dilinin qrammatikası kafedrası, dos. Ş.Ə.Əliyeva
Azəybaycan Dillər Universiteti

METHODS OF ORAL TRANSLATION

Oral translation, also known as interpreting, involves the real-time conversion of speaking language from one language to another. Here are some common methods of oral translation: simultaneous, consecutive, liaison, whispered, sight, escort, remote or virtual and sign interpretation [1]. In simultaneous interpretation, the speaker speaks and is often almost unaware being translated. As the translator speaks at the same time with the speaker, translator has no need to memorize or write down what the speaker says. Simultaneous interpretation is often more suitable for conferences, seminars, and other formal events with a large number of participants and it requires particular translation equipment since the interpreter is normally isolated in a booth. [4]. The interpreter does not start speaking in consecutive interpretation, until the speaker has stopped. In this type of translation, one person speaks at a time. Therefore, the interpreter has time to analyze the idea, thought, or sentence as a whole, which makes it easier for the translator to interpret, translate, and transmit the sentence in a matter of a few seconds.

The other method of oral translation is liaison interpretation, which is used to facilitate understanding between two parties that speak different languages, which could be two people, an individual and a small group, or two small groups. Therefore, the interpreter must possess a sound command of both languages that he or she works with. This type of translation can also be called bilateral interpreting. The interpreter uses whispered or chuchotage interpretation when there is only need translation for one or a few listeners in situations. The interpreter whispers the translation to the listener while the speaker continues to talk. Sight translation is the method of oral interpretation where the interpreter reads a written text in one language and verbally translates it into another language. Sight translation comes into play in a wide range of work situations. Most frequently, these include meetings which are usually conducted in consecutive mode. [2]. Escort interpretation, is different than others, because it is only used when it needed during the interaction of an individual or a group communication. The escort interpreter, sometimes called travel interpreter, can behave almost as an assistant, helping clients to navigate while they are traveling on business trips [5]. Remote or virtual interpretation, driven by technological advancements, provides interpreters with the flexibility to work from different locations using video or audio conferencing tools. There are two types of remote interpretation, video remote interpretation (VRI), where interpreters provide their services through video conferencing platforms and participants can see the interpreter in real-time and over-the-phone interpretation (OPI), which involves interpretation conducted over the phone without a visual component. The last type of oral translation is sign language translation, which interpreters translate spoken language into sign language or vice versa for individuals who are deaf or hard of hearing. This method of interpretation is common at public events, conferences, and religious services to make information accessible to the deaf community.

In conclusion, translation serves as a bridge between languages, facilitating communication and understanding across diverse linguistic and cultural boundaries. Each method of oral translation has its own unique features and applications, tailored to meet the specific needs of the communicative situation.

References

1. Bayramov Q. "Tərcümə sənəti" dərslik, "OKA Ofset", Bakı, 2008, s.141.
2. Čeňková I. "Sight translation", "Handbook of Translation Studies" book, Volume 1, John Benjamins Publishing Company, 2010, p.329

3. Gile D. “Simultaneous Interpreting”, “An Encyclopedia of Practical Translation and Interpreting” book, The Chinese University of Hong Kong Press, 2018, p.532
4. Karjagdiu L. & Krasniqi S. “Written and oral translation challenges and solutions in Kosovo”, “HOMEROS” Journal, Volume 3, Issue 2, 2020, p.95
5. https://www.languagescientific.com/what-is-escort-interpreting/
6. 6.https://linkterpreting.uvigo.es/interpretacion-de-enlace/?lang=en#:~:text=Liaison%20interpreting%20is%20used%20to,he%20or%20she%20works%20with.

Aytən Azad qızı Səlimli,
Tərcümə fakültəsi, qr. 347b
İngilis dilinin qrammatikası kafedrası, dos. Ş.Ə.Əliyeva
Azəybaycan Dillər Universiteti

MACHİNE TRANSLATİON

Translation is being described as an effort of finding equivalent meaning of a text into the second language. We emphasis meaning equivalence since in translation meaning is the object to be founded from the source language text into the target language text. Therefore, translator is faced with a text as components of meaning in the form of sets of words or sentences. Machine translation (MT) is a modern method of translation through computer assistance, which is an art of computational linguistics. This academic and professional area connected with both Translation and Computer Science explores the functions of computer software that can translate texts in foreign languages to be readable and understandable. In the frequently employed practice of post-editing, a MT system outputs an initial translation and a human translator edits it for correctness, saving time over translating from scratch. MT performs simple replacements with basic translated key words for non-native speakers to understand content in an original foreign language that they need to assess. Using computer translation software, such as Dr. Eye, translation functions in Google toolbar or Yahoo toolbar, complex contents in foreign languages can be comprehended at a glance by people who does not familiar with the languages in the original contents.

There are different types of applications for MT technology. The main aim is to produce an understandable raw translation. A possible goal is that a human can determine whether a foreign language text contains relevant information. To extract this information from the document, typically a human translation would be performed. In post -editing applications, the main goal is to produce a translation that is then corrected by a human translator. In fully automatic MT, the computer is used to produce a high quality translation. The easiest approach is the direct translation approach where a word-by-word translation from the source language to the target language is performed. In the transfer approach, 2 the translation process is decomposed into the three steps analysis, transfer and generation. In the analysis step, the input sentence is analyzed syntactically and semantically producing an abstract depiction of the source sentence.

While technology in the translation industry continues to evolve, translation and language are still subjective. Not all content is created equal - advertising, slogans or marketing content will always demand input from a native-speaking linguist. Post-editing is a key stage in machine translation, which involves input from a human translator, to ensure accuracy and a high-quality production. This level of input can alter, from ‘light’ to ‘full’. For a secure environment, it is a huge risk to your copyright and the security of your files to translate your files using free, online translation tools and as the minute you transfer your content to the internet, this information is made public property.

Improved productivity - Machine translation can improve the capacity of translation, letting for more content to be translated, with reduced costs and within a smaller time frame. What’s more, machine translation can produce core meaning of translations too, so content that was not previously translated as part of a standard translation process, due to higher cost and turnaround time, can now be processed via machine translation. Lower translation costs- Effective deployment of these tools can see translation costs and turnaround times decreased by up to 30%, without any sacrifice in quality. Applying technology obviously speeds up the process, so greater volumes of work can be translated in a very little time. Studies shows that a translator carrying out post-editing can produce 5,000 to 10,000 words per day, in comparison to 2,000 through human-only translation.

So as conclusion, machine translation can be productive and effective but it can't be as good as a human translation. So it would be better if we try to develop our technologies and make a better future for machine translations.

References

1. MEANING AND TRANSLATION, Andy Bayu Nugroho S.S 2005: p.1
2. Proceedings of the International Conference on TESOL and Translation December 2009: p.134
3. https://www.mylanguagesupplier.com/wp-content/uploads/Capita-TIMachine-Translation-Whitepaper.pd

Hüseynli Nüşabə Səbuhi qızı
Elmi rəhbər: Fil.f.dok Ü.Ç.Əliyeva
Azərbaycan Universiteti

CƏHƏNNƏM: DANTENİN MİRASI, DAN BROWUNUN ŞƏRHİ

Braunun ədəbi əsərləri müasir dünyanın mürəkkəb problemləri ilə birləşdirən orijinal yanaşması ilə tanınır. Dantenin "Cəhənnəm" əsəri Orta əsrlər İtaliyası və insanın əxlaqi səyahətini təsvir edən epik əsərdir. Braunun bu klassik əsərə müasir perspektivi və təhlili ədəbi əsərlərin müasir dünyada əhəmiyyətini və təsirini anlamağa kömək edir.

Den Braunun "Cəhənnəm" romanının əsas personajı Robert Lenqdonun Dantenin "Cəhənnəm" əsərinə olan ehtirası və əsərin sirlərini həll etmək səyindən bəhs edir. Braun öz romanında Dantenin yaradıcılığına tez-tez istinad edir və oxucuları bu klassik əsərin dərinliklərinə səyahətə çıxarır.

Romanın mərkəzi mövzusu əxlaqi və etik çətinliklərlə dolu bir dünyada bəşəriyyətin xilasını axtarmaqdır. Dan Braun bu axtarışı Dantenin "Cəhənnəm" əsəri ilə müasir dövrün mürəkkəbliyi arasında paralellər apararaq həyata keçirir. Romanın gedişatında Dantenin "Cəhənnəm"ində günah və cəzalar arasındakı əlaqə tez-tez vurğulanır. Dantenin mətnindəki simvollardan və ipuçlarından istifadə etməklə Lenqdonun həll etdiyi tapmacalar klassik ədəbiyyat və Braunun yaradıcılığında müasir gərginlik arasında mükəmməl tarazlığı nümayiş etdirir.

Sitatlarla dəstəklənən romanın atmosferi və mövzuları

1. "Cəhənnəmin qapıları qarşısında dayanarkən, Lenqdon qaranlığa baxdı və öz içindəki qaranlıq haqqında düşündü. İnsanın zehninin qaranlığını kəşf etmək Dantenin Cəhənnəmində dolaşmaqdan daha qorxulu ola bilərdi."

Bu sitat Lenqdonun öz içindəki zülmət üzərində düşündüyü anı əks etdirir. Cəhənnəmin fiziki qaranlığı insanın daxili qaranlığı üçün bir məcaz rolunu oynayır. Bu sitat vasitəsilə Braun personajın öz daxili mübarizəsini və kəşflərini əks etdirir.

2. "Cəhənnəmin çıxılmaz küçələrində itən Lenqdon Dantenin labirintində öz qorxuları ilə üz-üzə idi. Hiss edirdi ki, hər addımda onu xəyanət və ağrı gözləyir."

Bu sitat, romanın əsas mövzularından biri olan qorxu və xəyanət haqqında dərin düşüncələr təqdim edir. Lenqdonun daxili konfliktləri insan təbiətinin mürəkkəbliyini və onun Cəhənnəmin simvolik labirintləri ilə səyahətini əks etdirir.

Cəhənnəmin bu dərin təhlili Dantenin "Cəhənnəm"i ilə Dan Braunun müasir şərhinin heyrətamiz kəsişməsini təklif edir. Bu əsər insan təbiətinin mürəkkəbliyini, günahların ağırlığını və Lenqdonun əqli və fiziki səyahəti boyu xilas axtarışının çətinliyini araşdırır.

Sitatlar vasitəsilə Lenqdonla Cəhənnəmin qaranlıq dəhlizlərində səyahət edərkən öz daxili dünyalarının labirintlərinə dalacaqlar. Hər səhifə bəşəriyyətin ümumi təcrübələrini və mənəvi çətinliklərini əks etdirən bir güzgüdür.

Nəhayət, "Cəhənnəm" ədəbiyyatın gücünü və insanın əbədi axtarışını qeyd edir. Dantenin irsi Den Braunun modern şərhində canlandırıldıqca, oxucular bir daha əsrlər boyu insan hekayəsinin zənginliyinə qərq olurlar. Dantenin "Cəhənnəm" irsi Den Braunun qələmindən axan müasir işıqla işıqlandırılan müasir dünyada hələ də parlayır. Bu səyahətdə hər addım bir kəşf, hər söz bir sorğudur.

Ədəbiyyat siyaahısı:

1. 1.Aligyeri Dante.İlahi komediya.Bakı,"Öndər nəşriyyat",2004,592 səh.

2. Dan Brown.Cəhənnəm.Bakı"Qanun nəşriyyat",2014,763 səh.
3. Erhat, A. (2009), "Mifoloji Sözlüğü", Remzi Kitabevi, İstanbul.
4. Çelebioğlu, A. (2014), Edebi Medinlerde Cehennem Tasvirlerinin Karşılaştırılması,
5. Atatürk Üniversitesi Güzel Sanatlar Enstitüsü Dergisi, Sayı32, 69

Haqverdiyeva Nərmin Asif qızı
Elmi rəhbər: B/m Mürşüdova Rəfiqə Mustafa qızı
Azərbaycan Dillər Universiteti

HEYVANLARLA BAĞLI FRAZEOLOJİ BİRLƏŞMƏLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Frazeologiya yunan sözü olub, "phrasis" - ifadə və "logos" - təlim sözlərindən ibarətdir. [2] Biz ona dildə olan bütün sabit söz birləşmələrinin, bölünməz ifadə və ibarələrin məcmusu da deyə bilərik. [1] Frazeologiya dilçiliyin ən yeni bölmələrindən biri hesab olunur. Bu da öz növbəsində onunla bağlı onlarla mübahisəli məsələlərin mövcud olduğunu göstərir. Frazeologiya vaxtı ilə leksikanın daxilində öyrənilib, ona müstəqil bir dilçilik sahəsi kimi yanaşılmayıb. [4]

Frazeoloji birləşmələr tərkib etibarı ilə müxtəlif ola bilir. Məsələn: müxtəlif bədən üzvləri ilə bağlı ifadələr, rənglərlə bağlı ifadələr, tərkibində mücərrəd mənalı sözlərin işləndiyi ifadələr, heyvanlarla bağlı ifadələr, quşlarla bağlı ifadələr, əşyalarla bağlı ifadələr və s. Tərkibində heyvan, quş, eləcə də həşərat adları işlənmiş bəzi ifadələri araşdırdım və azərbaycan dilində tərcümələrini yazdım. [3]

· Avoir d'autres chats à fouetter – "etməyə daha vacib işləri olmaq".

Avoir (v) – malik olmaq; de (prép); autre (pronom indéfini) – başqa; chat (n) – pişik; à (prép) – a2; fouetter (v) - qamçılamaq

· Avoir un mal de chien - "bir şey etməkdə son dərəcədə çətinlik çəkmək". Dilimizdə "it zülmü çəkmək" ifadəsidir.

Un (article indéfini) ; mal (n, m) – ziyan, pislik ; chien (n) - it

· Être bavard comme une pie - "çox danışmaq", bizim dildə qarşılığı "çənə döymək".

Être (v) - olmaq; bavard (adj) – boşboğaz, söhbətcil ; comme (conj) – kimi ; pie (n, f) – sağsağan

· Être doux comme un agneau - "mehriban, xoşrəftar olmaq". Hətta bizdə "quzu kimi olmaq" ifadəsinin qarşılığını verə bilər.

Doux (adj) – mülayim, mehriban; agneau (n, m) - quzu

· Être rusé comme un renard – "ağıllı davranıb digərlərini aldatmaq", bizdə "tülkü kimi hiyləgər olmaq" ifadəsidir.

Rusé (adj) – bic, hiyləgər; renard (n, m) – tülkü

· Ne pas avoir gardé les cochons ensemble – dilimizdə olan "birlikdə duz-çörək kəsmək" ifadəsinin əksi kimi qəbul edilir. Yəni həmin fransız dilli ifadənin mənası belədir: "dost münasibəti saxlamamaq", "yaxın olmamaq".

Garder (v) – saxlamaq, cochon (n, m) – donuz; ensemble (adv) – birlikdə

· Prendre le taureau par les cornes – əsasını yunan əfsanəsindən götürmüş bu ifadə "çətinliyə sinə gərmək", "qorxmadan problemlərin üstünə getmək" mənalarını verir.

Prendre (v) – götürmək; taureau (n, m) - buğa ; par (prép) – dan2 ; corne (n, f) - buynuz

· S'entendre comme chien et chat – "it və pişik kimi yola getmək" və ya sadəcə "yola getməmək".

S'entendre (v) – yola getmək

Ədəbiyyat siyahısı:

1. http://anl.az/down/meqale/filologiya_meseleleri/2019/01/08(meqale).pdf
2. http://www.anl.az/down/meqale/bdu_dil_edebiyyat/2019/03/42(meqale).pdf
3. https://www.francaisavecpierre.com/20-expressions-francaises-avec-des-animaux/
4. 4.https://www.sdu.edu.az/userfiles/K%C9%99rimova%20Sevinc%20AAK%20%C3%BC%C3%A7%C3%BCn%20dissertasiya.pdf

Fatalieva Aysel Nariman
Supervisor: Senior Lecturer Eminova Vefa

The Azerbaijan University of Languages

EVERYDAY SIMILES IN STUDENTS' ACADEMIC LIVES

Lexicology is a branch of linguistics. The object of lexicology is vocabulary. The study of linguistic meaning is called semantics. Semantics explores the meanings of words, and since meaning is a part of language, semantics is a branch of linguistics [2, p. 178]. Simile as one term of lexicology describes a direct comparison. Similes are a way to compare two different things using words like "like" or "as" and occasionally by the comparative degree with “than”. Simile illustrates the fact that words change in meaning through the process of comparison. Aristotle said that good similes give an “effect of brilliance” [2, 136].

Today students use a lot of similes concerning their academic lives at university. These similes capture the diverse aspects of a student's academic journey, reflecting their emotional states, activities, and typical experiences in an educational setting. They are categorized according to the spheres and themes they are used.1)Similes about teachers, teaching styles, and knowledge: “deep as the ocean”, “bright as a lighthouse”, “wise as an owl”, “patient as a saint”, “sharp as a hawk”, “mysterious as a riddle”; [3] 2) Similes on academic performance, exams, and lectures: “interesting as a detective novel”, “dull as dishwater", “clear as crystal”, “smooth as silk”; 3) Simile on students’ academic performances: “innovative as Edison”, “absorbent as a sponge”; 4)Similes on lack of knowledge: “shallow as a puddle”, “blank as an empty book”,; 5) Similes on financial hardship and living conditions of students: “struggle like a fish on land”, “as empty as a banker’s heart”. In conclusion, students use similes to vividly describe their university experiences, covering emotions, challenges, and daily activities. These comparisons help them express complex aspects of student life in a simple and relatable way.

References:

1. Ginsburg R.S., Khidekel S.S., Knyazeva G.Y., Sankin A.A. A Course in Modern English Lexicology, Moscow, 1979
2. Hajiyeva A. English Lexicology, Baku, p/h “Science and Education”, 20113.
3. https://www.masterclass.com/articles/what-is-simile

İsmayıllı Xədicə Xanlar qızı
fil.f.d., dosent Pirnəzərova Gülənbər Məhərrəm qızı
Azərbaycan Dillər Universiteti

ALMAN DİLİNİN MƏNİMSƏNİLMƏSİNDƏ FRAZEOLOGİZMLƏRİN ROLU

Məlumdur ki, dil tarixi, ictimai hadisədir. Dilin bu cəhəti onun başqa sahələri kimi, frazeologiyasına da aid edilir. Belə ki, hər bir dilin frazeoloji vahidləri də tədricən formalaşaraq sistem halına düşmüş və dilin lüğət tərkibinin zənginləşməsində mühüm rol oynayır.

Eyni zamanda frazeologizmlər xarici dilin öyrənilməsində də müəyyən rol oynayır. Belə ki, frazeologizmlər hər bir xalqın həyat və yaşayış tərzi, sənəti, peşəsi, mifik rəvayətləri, dini və mövhümi təsəvvürləri, adət-ənənəsi, dünyagörüşü ilə əlaqədar yaranmış və indi də yaranmaqdadır. Dili frazeoloji vahidlərdən təcrid olunmuş şəkildə təsəvvür etmək mümkün deyil. Biz xarici dil dərslərində dilini öyrəndiyimiz xalqın ölkəsini, bədii əsərlərini, mədəniyyətini və s. də öyrənirik. Bədii əsərlərdə, eləcə də həmin xalqın məişətində xeyli frazeoloji vahidlər işlənir ki, həmin frazeoloji vahidləri mənimsəməklə təkcə dilini öyrəndiyimiz xalqın həyat tərzini, mifik rəvayətlərini, dini təsəvvürlərini mənimsəmirik, eyni zamanda frazeoloji vahidlərin komponentlərini təşkil edən leksik vahidləri ayrı-ayrılıqda öyrənməklə xarici dildə mənimsədiyimiz söz ehtiyatımızı zənginləşdiririk [3, s.121]

Alman dilində işlənən frazeologizmləri öyrənərkən istər-istəməz ana dilimizə müraciət edirik, müqayisələr aparırıq, ana dilimizin daha yaxşı öyrənməyə nail oluruq. Belə ki, alman dilində işlənən frazeologizmləri daha yaxşı mənimsəmək üçün onları ana dilinə tərcümə etməyə çalışırıq. Tərcümə sayəsində məlum olur ki, alman dilində işlənən bir çox frazeoloji vahidlərin Azərbaycan dilində ekvivalenti yoxdur.

Alman dilində işlənən frazeologizmlərin dilimizdə dəqiq və mükəmməl formada tərcüməsi onların Azərbaycan dilinin frazeologizmləri arasındakı əlaqəsindən, uyğunluq dərəcəsindən asılıdır [1, s.136]

Buna görə də frazeologizmlərin tərcümə nöqteyi-nəzərindən iki qrupa bölünməsi təbiidir: ekvivalent frazeologizmlər və ekvivalentsiz frazeologizmlər.

Dilçilikdə tərcümə olunduğu dildə ekvivalenti olan frazeologizmlərə ekvivalent frazeologizmlər deyilir. Bu frazeologizmlərin iki növü var:

a) Tam frazeoloji ekvivalentli frazeologizmlərə məna, leksik tərkib, bədiilik, qrammatik quruluş və üslubi çalarlıq baxımından tərcümə olunduğu dilin frazeologizmləri ilə uyğun gələn və yaxud üst-üstə düşən, dildə hazır şəkildə olan frazeologizmlər aid edilir. b) Natamam frazeoloji ekvivalentlərin tərkibinə isə tərcümə olunduğu dilin frazeologizmləri ilə bədiilik və məna baxımından nisbətən uyğun gələn frazeologizmlər daxildir. Belə frazeologizmlər tərcümə edilərkən onun ifadəliliyi, emosionallığı da nəzərə alınmalıdır.

Dildə ekvivalentsiz frazeologizmlər sayca çoxluq təşkil edir. Belə frazeologizmlərin sırasına tərcümə olunduğu dildə ekvivalenti olmayan frazeologizmlər daxildir. Onların tərcüməsi frazeoloji deyil, leksik vahidlərin köməyi ilə verilir. Ekvivalentsiz frazeologizmlər heç zaman dəqiq tərcümə olunmurlar. Belə ki, frazeologizmlərin tərcüməsində çox vaxt bəzi çatışmamazlıqlara təsadüf edilir (bədiilik, ekspressivlik, məna çalarları və.s.).

Bir sözlə, frazeologizmlər bir dildən başqa bir dilə tərcümə edilərkən həm təmsil etdiyi milli düşüncələrindən, həm də bədii əsərin kontekstindən uzaqlaşdırılmamalı, tərcümə olunduğu dilin tələblərinə cavab verməli, başqa bir xalqın düşüncəsinə yol tapmalıdır.

Deyilənlərdən belə nəticəyə gəlinir ki, frazeoloji vahidlərin öyrənilməsi xarici dilin mənimsənilməsində yalnız təcrübi deyil, həm də nəzəri əhəmiyyət kəsb edir [4, s.156]

Ədəbiyyat siyahısı:

1. Erben, Johannes: Deutsche Grammatik, Ein Abriss, 11., völlig neubearbeitete Auflage, Max Hueber Verlag, München 1977
2. Fleischer W.Phrazeologie der deutschen Gegenwartssprache, Leipzig, 1982
3. Friederich W. Moderne deutsche Idiomatik. Max Hueber Verlag. München, 1966
4. Qurbanlı Ç. Alman paremlərinin Azərbaycan dilinə transformasiya problemləri. Elmi xəbərlər, Bakı, 2004

Təhsil-1 fakültəsi, Kərimova Elmira Faiq qızı
Elmi rəhbər: fil.f.d., dos. Zeynalova Sənubər Surxay qızı
Azərbaycan Dillər Universiteti

ALMAN DİLİNDƏ METAFORALAR VƏ ONLARIN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

Metaforalar insan ünsiyyətində mühüm rol oynayan güclü dil alətidir. Mürəkkəb anlayışları və mücərrəd fikirləri konkret obraz və təcrübələrlə əlaqələndirərək başa düşülən şəkildə çatdırmağa imkan verirlər. Metaforalar bir məfhumu digər anlayışla təsvir etməklə iki fərqli anlayış arasında dolayı əlaqə yaradan linqvistik konstruksiyadır. Məsələn, "Die Zeit vergeht wie im Flug" (zaman uçur) metaforasında mücərrəd zaman anlayışı konkret uçan obrazla müqayisə edilir. Lakoff və Johnson metaforaların təkcə dil hadisələri deyil, həm də düşüncə və qavrayışımıza təsir etdiyini iddia edirlər. Onlar bizim ideyalarımızı formalaşdırır və buna görə də mədəni və idrak əhəmiyyətinə malikdir. [3]

Metaforalar müxtəlif kontekstlərdə, istər ədəbiyyatda, istər gündəlik dildə, istər reklamda, istərsə də siyasətdə mürəkkəb fikirləri daha başa düşülən etmək və ya emosiyaları çatdırmaq üçün istifadə olunur. Onlar mücərrəd məfhumları konkret obrazlarla və ya təcrübələrlə əlaqələndirərək onları daha hiss etdirməyə xidmət edir. Ricoeur vurğulayır ki, metafora yalnız təsviri deyil, həm də müəyyən ideyaları və ya dəyərləri çatdırdığı üçün qiymətləndiricidir. [2] Alman dilində olan metaforaların azərbaycanca qarşılıqlarına nəzər salaq.

1. "Die Zeit vergeht wie im Flug"- "Zaman uçur."
2. Er ist das schwarze Schaf der Familie - "O, ailənin qara qoyunu."
3. “Das Leben ist ein Spiel”- "Həyat bir oyundur."

Metaforalar yalnız ünsiyyəti asanlaşdıran deyil, həm də düşüncə və qavrayışımızı formalaşdıran dilin vacib komponentləridir. Müxtəlif dillərdə metaforaların və onların ekvivalentlərinin araşdırılması mədəni fərqləri və dil nüanslarını daha dərindən anlamağa imkan verir. Məcazlara təkcə dilin dekorativ elementləri kimi baxmaq deyil, həm də onların koqnitiv və mədəni əhəmiyyətini qiymətləndirmək vacibdir. [1]

Metaforanın müxtəlif növləri var: Antropomorfik metafora, Evfemik metafora, Ölü metafora, Sinesteziya, Antropomorfik metafora

1.Antropomorfik metafora - insan keyfiyyətinin əşyaya və ya obyektə aid edilməsidir. Məsələn: Der Himmel weint, seitdem du mich verlassen hast.- Sən məni tərk edəndən bəri səma ağlayır.

2.Evfemistik metafora ifadəni parıldadır. Yəni daha müsbət mənada ifadə olunur ki, onun faktiki mənfi mənası aşkar olmasın. Məsələn: Er ist nicht gerade die hellste Kerze auf der Torte- O, tortun ən parlaq şamı deyil.

Yuxarıdakı misalda intellekti az olan bir insan "tortun üzərindəki ən parlaq şam deyil" kimi təsvir edilir. Bu, atributun daha az birbaşa və xoşagəlməz səslənməməsinə səbəb olur.

3. Ölü metafora gündəlik həyatda artıq belə qəbul edilməyən bir metaforadır. Məsələn: Buchrücken- onurğa

Bu misalda 'onurğa' əslində metaforadır, çünki söz hərfi mənada deyil, məcazi mənada başa düşülür. Amma biz bu sözü tez-tez işlətdiyimiz üçün məcaz fərqinə varmırıq, ona görə də leksikləşmiş və ya ölü metaforadır.

4.Sinesteziya bir metafora növü kimi hiss qavrayışlarının bir-biri ilə əlaqəli olması deməkdir. Məsələn: Ihre Stimme klingt so süß.- Onun səsi çox şirin gəlir. Bu nümunədə "eşitmə" ("səslər") və "dadmaq" ("şirin") iki duyğu qavrayışı birləşdirilir. Birlikdə sinesteziya əmələ gətirirlər.

Ədəbiyyat siyahısı

1. Aslanova U. Stilistik der deutschen Sprache.2022
2. Paul, Ricoeur. The rule of metaphor (La Métaphore vive).1975
3. 3. Mark, Johnson: George, Lakoff. Metaphors We Live By.198

Əliyeva Aygül Güloğlan qızı
Elmi rəhbər:f.f.d.,dos.Rəcəbova Sevil Mədət qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ KEÇMİŞ BİTMİŞ ZAMANIN İŞLƏNMƏSİ

Keçmiş Bitmiş (Past Perfect) zaman keçmişdə olub bitən və nəticəsi də keçmişdə qalmış hərəkətləri göstərmək üçün istifadə olunur. Keçmiş bitmiş zamanın təsdiq forması to have köməkçi feilinin keçmiş zaman forması olan had plus Past Participle ilə, yəni əsas feilin keçmiş zaman feili sifət forması ilə düzəldilir. Subject+had+P II Məsələn,

I had finished my translation by 5 o'clock yesterday. [4,səh 129]

Keçmiş Bitmiş zamanda sual vermək üçün 2 formadan istifadə oluna bilər: Had+Subject+Verb

Had Jermaine left before Bryan tapped the keg? [3] Question Word+Had+Subject+Verb

How had she applied the coat of primer before she started painting? [3]

Keçmiş Bitmiş zamanın inkar formasını düzəltmək üçün köməkçi feildən (had) sonra not inkar ədatından istifadə olunur. Məsələn,

She felt nervous, she had not played the piano for a long time. [2,səh 88]

Past Perfect Tense (Keçmiş Bitmiş Zaman) Azərbaycan dilində "mış" ın qarşılığı olaraq işlənir. Keçmişdə olan 2 və ya daha artıq hadisədən, daha əvvəl baş verəni ifadə edərkən bu zamandan istifadə olunur. Məsələn,

When I arrived, Ann had just left. [1,səh 127]

Birinci hərəkət – Ann had just left. İkinci hərəkət – I arrived. Yəni hərəkətlər ilk əvvəl Ann tərk etdi, sonra mən gəldim.

Oruc Musayev qeyd edir ki, [4,səh 130] Keçmiş Bitmiş zaman keçmişdə müəyyən bir andan başlamış, danışıq vaxtına qədər davam edən və həmin anda da davam etməkdə olan hərəkətləri bildirmək

üçün də işlədilə bilər və bu da Past Perfect İnclusive adlanır. Bu halda since, for sözönüləri işlədilir. Hərəkətin başlanğıcı since, davam etmə müddəti isə for vasitəsilə göstərilir. Məsələn,

They had not spoken to each other since that day.

The two friends had not spoken to each other for a year. [4, səh 130]

Keçmiş Bitmiş zaman by+2/3/..+o'clock/by the end of the year; by that time yesterday; hardly…when, scarcely…when, no sooner…than kimi zaman zərfləri və bağlayıcılarla işlənə bilər. Məsələn,

He had hardly closed the door when the wind opened it again. [2, səh 87]

By the time I arrived at the party, everyone had already left.

Ədəbiyyat siyahısı

1. A.J.Thomson., A.V. Martinet "A Practical English Grammar" səh.126-128.Oxford University Press,-1986.-332 səh.
2. Güllü Məmmədova "English Grammar Rules and Exercises" səh.87-88. Bakı, "Zərdabi-Nəşr"MMC.2020.440 səh. 3. https://www.grammarbook.com/blog/verbs/past-perfect-tense/
3. O.Musayev "A practical grammar and contemporary English" səh.128-130.Bakı-Qismət,-2017.-538 səh.

Həmidova Yaqut Kənan qızı
Elmi rəhbər: fil.f.d., dosent Gülənbər Pirnəzərova
Azərbaycan Dillər Universiteti

NİTQ MƏDƏNİYYƏTİNDƏ EVFEMİZMLƏRİN ROLU

Nitq mədəniyyəti ümumi mənəvi mədəniyyətin tərkib hissələrindən biridir. Azərbaycan dili sabit qrammatik quruluşa, zəngin söz və ifadə ehtiyatına, zərif səslənmə sisteminə malikdir. Nitqi cəlbedici, rəngarəngetmə vasitələrindən biri də evfemizmlərdir. Evfemizmlər bu və ya digər məzmunun yum-şaldılması, xoşagələn şəklə salınmasıdır. Evfemizmin mövcud olması və dildə işlədilməsi xoşagəlməz, pis təsiri müəyyən qədər azaltmaq, pis əhval-ruhiyyənin yaranmasının qarşısını almaq məsələsi ilə şərtlənir. Həyatın bütün sahələrində böyük əhəmiyyətə malik olan söz insanlara təsir edir və bunun nəticəsində müxtəlif əhval-ruhiyyə, bəzən sevinc, bəzən təmkinlik, bəzən də yüksək həyəcan əmələ gətirir [3, 50-54] . Evfemizm hər hansı bir sərt və ya kobud məna ifadə edən sözü yumşaltma, vulqarlıqdan çıxarma, qarşıdakını incitməmək, kobudluq etməmək, nəzakətli davranmaq üçün istifadə edilir. Bu sahədə ilk tədqiqatçılar Ceyms Freyzer və rus alimi D.K. Zelenindir.

Fiziki təsir çox zaman keçici olur, müəyyən müddətdən sonra öz təsirini itirir. Söz vasitəsilə edilən təsır isə bir növ mənəvi təsirdir. Fiziki təsir bədəni xaricdən zədələyirsə, mənəvi təsir insanın qəlbinə, beyninə təsir edir. Belə təsir həm qüvvətli olur, həm də uzun müddət davam edir [4, 31] . Xalq arasında işlədilən "Xəncər yarası sağalar, söz yarası sağalmaz" məsəlinin yaranması heç də təsadüfi deyil. Deməli, söz vasitəsilə edilən təsir, bu təsir vasitəsilə yaranan reaksiya, həyəcan daha qüvvətlidir. Belə hallarda həyəcanı, yaranan reaksiyanı kənar etmək və ya zəiflətmək üçün evfemizmlərdən istifadə olunur. Evfemistik sözlər vasitəsilə məna birbaşa deyil, dolayı yolla anlaşılır. Bu yolla verilən xəbərin, xoşagəlməz hadisənin təsiri zəifləyir. Tabu sözü əvəz edən söz, yəni evfemistik söz, həm formaca, həm də məzmunca bir- biri ilə əlaqədar deyildir. "Tabu əsasında yaranan evfemizmlərin bir qismi də müəyyən qorxu, təhlükə törədən əşyaların adını çəkmək xatirinə yaranır"[1,65]. Məsələn: məişətdə ilanın adını çəkmək guya müəyyən təhlükə törədir. Müstəqilliyimizin sonrakı illərində Respublika prezidenti H.Əliyev Azərbaycan dilinin Konstitusiya hüququnun həyata keçirilməsinə, onun inkişa fına, tətbiq dairəsinin genişləndirilməsinə xüsusi diqqət və qayğı göstərmişdir. "Bizim birinci nailiyyətimiz o olmalıdır ki, öz dilimizi Azərbaycanda hakim dil etməliyik. Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dillə səlis danışmalı və bu dili sevməlidir" (H.Əliyev).

Ədəbiyyat

1. İbrahimova S.R. Evfemizmlərin fonosemantik xüsusiyyətləri// Humanitar Elmlərin öyrənilməsinin aktual problemləri. Bakı, BSU.
2. Xəlilov B.Ə. Müasir Azərbaycan dilinin leksikologiyası. Bakı: Nurlan, 2008, 442 s.
3. Булаховский Л.А. Табу и эвфемизмы // Введение в языкознание. Ч.2. М: Учпедгиз, 1953.с.50-54
4. Величковский Б.М. Современная когнитивная психология. М.: МГУ, 1982, 336 с.

Hajiyeva Solmaz Mushfig
Supervisor: Senior Lecturer Eminova Vafa
The Azerbaijan University of Languages

LEXICO-SEMANTIC FEATURES OF ENGLISH TIME IDIOMS

Linguistics is the scientific study of language. Lexicology, as a branch of linguistics, deals with the vocabulary system of the language [1, 152]. One of the focuses of lexicology is phraseology, which studies set or fixed expressions, such as idioms, phrasal verbs, and other types of multi-word lexical units. An idiom is a group of words in a fixed order that has a particular meaning and is different from the meanings of each word on its own. Popular English idioms and phrases are categorized by themes [2, 72]. One of the most frequently-used idiom themes is time idioms. These idioms cover various aspects of time, such as duration, moments, aging, and the frequency and management of time in our lives. They can be categorized based on the aspects of time they emphasize: 1) The Importance of Time: "Time is money"; 2) Duration of Time: "Time flies"; 3) Time Management and Use: " Time out", "Kill time"; 4) Learning and Wisdom: "Time is a great teacher", "Time is a great healer"; 5) Advice About Doing Things: "Better late than never"; 6) Deadlines: "Beat the clock"; 7) Specific times: "At the crack of dawn"; 8) Frequency and Occurrence: "Once in a blue moon", "Time after time"; 9) How long, quick or often : "In the nick of time"; "Once in a lifetime"; 10) Historical and Future Time: "Time will tell", "Turn back the clock", and so on [3].

In the end, time idioms remind us to value every moment because time is our most precious commodity.

References:

1) Arnold I.V. The English Word, Moscow, 1986
2) Hajiyeva A. English Lexicology. Baku, "Science and Education",2011
3) www: http://timeidioms.com

Hüseynova Şəlalə Natiq,
Təhsil 1fakültəsi, qr. 208b
Elmi rəhbər: b/m Əliyeva E.M.
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ TƏYİN VƏ ONUN İFADƏ VASİTƏLƏRİ

Təyin subyektin əlamətini bildirən cümlənin ikinci dərəcəli üzvü olub, aşağıdakı sualları cavablandırır: what? "hansı", what kind of? "necə", whose? "kimin", which "hansı", how much?, how many? "necə, nə qədər".

Təyinin müxtəlif dilçilər tərəfindən linqvistik təhlili bir daha sübut etmidir ki, təyin predmetin və ya obyektin əlamətini bildirir. A.İ.Smirnitskinin təbirincə desək, "Təyin obyektin əlamətini bildirmək xüsusiyyətinə malik ikinci dərəcəli cümlə üzvüdür." L.İ. Zilberrman isə qeyd edir ki, təyin ingilis dili ilə yanaşı bir çox dillərdə rast gəlinən linqvistik dil universaliyasıdır.

Bir sıra müəlliflər təyinin söz birləşməsi səviyyəsində öyrənilməsi fikrinin tərəfdarıdırlar. Onların fikrincə, təyin təyin edilən söz (antisident) birlikdə işləndiyindən onların arasında tabelilik əlaqəsi mövcuddur. Belə ki, bu cür söz birləşmələrinin nüvəsi isim, say, əvəzlik, isimləşmiş sifət (substantivləşmiş sifət) ilə ifadə edilir və təyin kommunikativ planda antisident ilə ifadə edilmiş denotat haqqında əlavə informasiya daşıyır.

Təyinlər ya təyin etdikləri sözləri təsvir edirlər, ya da onların mənalarını məhdudlaşdırırlar. Birlikdə işləndikləri sözlərin mənasını təsvir edən təyinlər descriptive attributes "təsviredici təyinlər", onların mənasını məhdudlaşdıran təyinlər isə limiting attributes "məhdudlaşdırıcı təyinlər"adlanır, məsələn, a) There was something stealthy about her recital, like a steadyeyed cat with a twitchy tail.

"Onun konsertində gözlərini qırpmadan quyruğunu tərpədən pişik kimi gizli bir şey var idi." Bu cümlədə gətirilən nümunələrin hamısında təsviredici təyin işlənmişdir.

b) The envelope was thick and heavy, made of yellowish parchment, and the address was written in emerald-green ink. “Zərf qalın, ağır və saralmış perqamentdən idi, ünvan firuzəyi-yaşıl mürəkkəblə yazılmışdı.” Bu cümlədə isə nümunələrin hamısında məhdudlaşdırıcı təyin işlənmişdir.

İngilis dilində təyin əlamətini bildirdiyi sözün qarşısında (prepozitiv təyin) və ondan sonra (postpozitiv təyin) işlənə bilir. Təyin edilən sözün qarşısında işlənən təyin prepozitiv, ondan sonra işlənən isə postpozitiv təyin adlanır. Təyin müxtəlif nitq hissələri ilə (sifətlər, isimlər, əvəzliklər, saylar feillər və bəzi zərflər) ifadə oluna bilir.

Bəzi dilçilər semantik cəhətdən təyinləri üç qrupa bölürlər: subjective, objective və appositive təyinlər. Onların fikrincə, verbal xarakterli isimlər subyektiv və ya obyektiv xüsusiyyətlərə malik ola bilər. Subyektiv atributlar, əsasən yiyəlik əvəzlikləri və ya yiyəlik halda olan isimlərlə ifadə edilir. Məsələn, John confessed – John’s confession; He arrived –his arrival. Obyektiv atributlar, əsasən verbal xarakterli isimlərə əlavə edilmiş ön söz ifadələridir: depend on others – dependence on others; remind of the war – reminder of the war. Appositive təyinlər isə birlikdə işləndikləri sözlərin əlamətini bildirmir, onlaar haqqında əlavə məlumat verir. Məsələn, Aunt Mary, Sergeant Smith, Professor Brown [2, s.133].

Müasir ingilis dilində təyin və onun ifadə vasitələrini araşdırarkən bir daha belə qənaətə gəldik ki, bu ikinci dərəcəli cümlə üzvü istər ifadə vasitələrinə, istərsə də məna çalarlıqlarına görə ingilis dili sistemində özünəməxsus rol oynayır.

Ədəbiyyat siyahısı:

1. 1.MARTINED, A. A Functional View of Language. Oxford, 1992. 289 p.
2. FERNALD, J. Connectives of English Speech. London, 1998. 345 p.
3. STRANG, B. Modern English Structure. New York, 2006. 256 p

Zeynalova Əntiqə Qələndər qızı,
Təhsil 1 fakültəsi,
Elmi rəhbər:b/m E.M.Əliyeva
Azəybaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ KƏMİYYƏT BİLDİRƏN (QUANTİFİERS) SÖZLƏR VƏ ONLARIN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

‘Quantifiers’ və ya kəmiyyət bildirən sözlər isimlərin və yaxud ismi birləşmələrin qarşısında işlənərək isim təyinediciləridir. Törəmə qrammatikasında isimlərin qarşısında işlənərək onları təyin edən kəmiyyət bildirən sözləri (kvantifikatorları) tədqiq edən R. C. Mey every, some, many, few, any, a kimi sözləri kvantifikator hesab edir və qeyd edir ki, onların yerləri, əsasən isim və yaxud ismi birləşmələrin qarşısıdır. Cavad qeyd edir ki, kvantifikatorları cümlədə işlədərkən qrammatik qaydalara ciddi riayət edilməlidir və aşağıdakı faktorlara diqqət edilməlidir: 1) ismi birləşmənin aparıcı elementinə, yəni həmin ismin tək və ya cəm formada, sayılan və ya sayılmayan olmasına, habelə cümlənin formasına, yəni onun nəqli, sual, inkar, təsdiq və ya əmr şəklində olmasına. 2) isimlərin və ya ismi birləşmələrin mənalarına, yəni kvantifikatorun müəyyənlik və ya qeyri-müəyyənlik artiklın yerində işlənib- işlənməməsinə görə. 3) isim və ya ismi birləşmələrinin cümlədə yerinə görə [2].

Kvantifikatorlar ifadə etdikləri mənalara görə iki qrupa bölünürlər:inklüziv və qeyri-inklüziv. İnklüziv kvantifikatorlar qarşısında işləndikləri bütün ismi birləşməyə aid olurlar. Both “hər ikisi” iki obyektdən ibarət qrupu, few “bir neçə” bütöv qrupun bir neçə üzvünü, all “hamı, bütün” isə bütün qrupu bildirə bilər. Each və every qrupun hər bir üzvünü bildirir. Onların arasındakı əsas fərq mübtəda ilə xəbər arasındakı üzlamşmada özünü göstərir. Belə ki, both, all, few kvantifikatorları sayılan isimlərin qarşısında işləndikdə xəbər cəm formada, every və each kvantifikatorlarının işləndikləri cümlədə isə xəbər tək formada olur. Qeyri-inklüziv kvantifikatorlar isə qarşısında işləndikləri ismin kəmiyyət və ya ölçüsünü bildirirlər. Bura aiddir: many, much, little, few.

Bir əşyanın çoxluğunu ifadə etmək üçün a lot of , much, many, plenty of, a great deal of, a good deal of, a lot of, a great/large amount of kimi kvantifikatorlardan istifadə edərkən bir əşyadan biraz/ birneçə olduğunu və ya az olduğunu demək üçün için a little, a bit, a few, a couple of, a number of, some,

several sözlərindən istifadə edilir. Bir şeyin yoxluğundan və yaxud hər hansı mənasında any kvantifikatorundan istifadə edilir [1].

R.Kvirk kvantifikatorlardan bəhs edərkən a lot of, plenty of, a number of, lots of kimi kvantifikatorları "phrasal quantifiers" adlandırmışdır. Bir çox dilçilər, o cümlədən Aleksandr, Close, belə hesab edirlər ki, miqdar sayları kəmiyyət bildirən sifətlərdir və qeyd edirlər ki, miqdar sayları da öz növbəsində müəyyənlik bildirən kvantifikatorlardır, çünki bu sözlər obyektlərin dəqiq saylarını bildirir [2].

Yule once, twice, double, or three times kimi sözləri, onluq kəsrləri (one thirds), faizləri (twenty per cent of) də kvantifikatorlara aid edir və belə hesab edir ki, per cent of kvantifikatorundan sonra işlənən isim sayılan olduqda, cümlənin xəbəri cəm formada, sayılmayan isim olduqda isə xəbər tək formada olur [2].

Biber və başqaları qeyri-müəyyənlik bildirən kvantifikatorları dörd qrupa bölür: inklusiv, böyük ölçü və ya həcm, kiçik ölçü və ya həcm bildirənlər və neqativ məna ifadə edənlər.

Beləliklə, müasir ingilis dilində kvantifikatorların işlənmə xüsusiyyətlərini nəzərdən keçirərkən məlum oldu ki, onlar istər şifahi, istərsə də yazılı nitqdə işlənərək nitqə rəngarənglik, müəyyənlik, qeyri-müəyyənlik, dəqiqlik kimi xüsusiyyətlər əlavə edirlər.

Ədəbiyyat siyahısı:

1. Cəfərova B. C. English. Ali məktəblər üçün dərslik. Bakı. 2009.
2. https://www.researchgate.net/publication/336512516_Using_Quantifiers_in_English_University_Students_Problems_and_Strategies

Mamiyev Akbar Vuqar
Supervisor: Senior Lecturer Eminova Vafa
Azerbaijan University of Languages

LEXICO-SEMANTIC FEATURES OF ENGLISH JOB IDIOMS

Linguistics is the scientific study of language and its structure, including the study of morphology, syntax, phonetics, and semantics. Semantics, a branch of linguistics, focuses on the meaning of words, phrases, and sentences in a language [1, 39]. An idiom is a phrase or expression whose meaning cannot be directly deduced from the literal definitions of its individual words. Idioms can be classified according to their themes, including those related to jobs. Job idioms are employed in language to convey workplace situations, experiences, and emotions succinctly and vividly [2, 84]. In this scientific work, we have categorized job idioms according to their lexico-semantic features. They are: 1) Job Idioms on Hiring: "take on," "land a job," "fill someone's shoes" [4]; 2) Job Idioms on Firing: "shown the exit," "get the ax"; 3) Relationship Idioms: "see eye to eye," "on the same page," "cross swords" [4, 97]; 5) Work Policy Job Idioms: "a grey area," "bend the rules"; 5) Effort and Hard Work: "work all the hours that God sends," "work one's fingers to the bone"; 7) Success Job Idioms: "on a roll," "seal the deal"; 8) Failure Job Idioms: "miss the boat," "drop the ball"; 9) Teamwork and Cooperation: "build bridges," "two heads are better than one," "shoulder to shoulder "; 11) Leadership and Authority: "steer the ship," "wear the crown," "pave the way" [5] and so on.

Ultimately, job idioms make talking about work easier and more interesting. These phrases help us feel closer to our coworkers and remind us of important work lessons. Thus, these sayings are a key part of work life, making it more fun and meaningful.

References:

1. Smirnitsky A.I. Lexicology of the English Language. M.: Foreign Literature, 1956.
2. Kunin A.V. Phraseology Course of Modern English. 2nd ed. Revised. M., 1996.
3. The Cambridge International Dictionary of Idioms.
4. www:http://idioms.com
5. www:http://jobidioms.com

Zümrüd Əmirova Vüqar
Filologiya fakültəsi,qrup B22-245
Elmi rəhbər: Gülşən Bağırova
Azərbaycan Dillər Universiteti

FRANSUA RABLE YARADICILIĞINDA İNTİBAH MOTİVLƏRİ

Fransua Rable 1494-cü ildə Şinyon şəhərində anadan olmuşdur. O, fransız yazıçısıdır. Fransua Rable dünya mədəniyyəti tarixinə ilk növbədə "Qarqantüa və Pantaqrüel" romanının müəllifi kimi daxil olmuşdur. Bu əsərin yazılmasının ilk səbəbi kimi, 1532-ci ildə, o zaman Rablenin yaşadığı Lion şəhərində, "Nəhəng bədheybət Qarqantüa haqqında böyük və qiymətli olmayan xronikalar" adlı müəllifsiz bayağı bir roman çap olunmuşdur. Fransua Rable Qarqantüa obrazının, eləcə də, ümumiyyətlə bu mövzunun o dövr üçün müəyyən əhəmiyyət kəsb edə bilərək mətləbləri ifadə etmək üçün çox böyük ədəbi-bədii potensiala və imkanlara malik olduğunu hiss edir və bu qiymətli mövzunun korlanmasının qarşısını almaq məqsədilə tez-tələsik, guya bu əsərin davamı olan "Pantaqruel" hissəsini yazıb çap etdirir. Bu əsərin çox böyük uğur qazandığını görən yazıçı bundan sonra romanın qalan hissələrini də yazmağa başlayır və beləliklə, 1533-cü ildən yazmağa başladığı bu romanı ömrünün sonuna qədər davam etdirir. Lakin, Qeyd etmək lazımdır ki, bu roman da güclü intibah motivləri öz əksini tapmışdır. Rablenin yaradıcılığ dövrü intibah dövrünə təsadüf edir. İntibah dövrü İtaliyanın Florensiya bölgəsində 14-cü əsrdə başlamışdır. İntibah dövrünün uzun və qarışıq tarixşünaslığı özündə tarixin dövrləşdirilməsinə qarşı skeptisizm ehtiva edir. Rablenin yaşadığı dövr Avropanın tarixində ən ağır dövrlərdən biri idi. Bir tərəfdən geniş xalq kütlələrinin avamlığı, digər tərəfdən dövlət məmurlarının nadanlığı və ən nəhayət cəmiyyət üzərində tam hökümranlıq edən din xadimlərinin vəhşiliyi fərqli, azad fikir söyləməyə imkan vermirdi. Bu addımı atanlar buna cəsarət edənlər inkvizsiyanın ən ciddi hökmləri ilə üzləşir, ya tonqallarda yandırılır, ya ömürlük zindanlara atılır, ya da ki, muzdlu qatillər tərəfindən qətlə yetirilirdi. Rable isə nəinki fərqli fikirlər söyləyir, azadfikirlilik nümayiş etdirirdi, o, mövcud cəmiyyətin, ictimai-siyasi quruluşun, din ehkamlarının və hökümranlığının əsaslarını, ana sütunlarını dağıdırdı. Rablenin belə universal biliklərə sahib olması, heç şübhəsiz ki, İntibah dövrünün tələblərindən irəli gəlirdi. Avropa İntibahının bütün digər titanları (Dante, Petrarka, Roterdamlı Erazm, T.Mor, Şekspir və.s) kimi, Rable də bir sıra elmlərlə məşğul olmuş və məşğul olduğu bütün bu sahələrdə böyük uğurlar qazanmışdır. Məhşur yazıçı olduqdan sonra da Rable elmi araşdırmalardan uzaqlaşa bilməmiş, təbabətə və arxeologiyaya aid elmi əsərlər yazaraq, onları çap etdirmişdir. Hətta, böyük yazıçı, qələmə aldığı yeganə romanını formaca qeyri-ciddi üslübda (nağılvari) yazsa da, bu əsərdə çox ciddi məsələlərə toxunmuş, məşğul olduğu ən ciddi elmlərin nailiyyətlərini burada əks etdirmişdir.

Ədəbiyyat siyahısı:

1. Cəlil Nağıyev "Qərbi Avropa ədəbiyyatı"
2. https://az.wikipedia.org/wiki/Fransua_Rable

Əsgərli Fatimə Araz qızı
Təhsil II fakültəsi, qr. 123 B
Elmi rəhbər: b.m. Əliyeva Röya Yavər qızı
Azərbaycan dillər Universiteti

SİFƏTİN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Sifət əsas nitq hissələrindən biri olaraq, dilçilikdə hər zaman əsas tədqiqat mövzularından biri olmuşdur. Azərbaycan dilində olduğu kimi ingilis dilində də şəxs və əşyanın əlamətini, keyfiyyətini bildirir. İngilis dilində sifət What? What kind of? Which? suallarından birinə cavab verir.

Müasir ingilis dilində sifətlər məna baxımından üç qrupa bölünür.

1. əsli sifətlər, məsələn; nice, good, wonderful, ugly, happy, black, foolish, mad.
2. nisbi sifətlər, məsələn; Chinese, silken, Italian, weekly, golden, wooden, woolen.
3. Vəziyyət bildirən sifətlər, məsələn; afraid, ablaze, aloof, awake, alike, alone.

Əsli sifətlər əşyanın əqli və fiziki keyfiyyətini, rəngini, formasını və s. kimi xüsusiyyətlərini ifadə edir. Buna nümunə olaraq; üzüm rənginə dadına, rənginə, quruluşuna, həcminə görə bir-birindən fərqlənir. Başqa bir nümunə olaraq isə insanları göstərmək olar. Məsələn; insanlar ağlına, qabiliyyətinə, boyuna, çəkisinə, dərrakəsinə görə bir-birlərindən fərqlənirlər. Əsli sifətlər əşya və şəxslərə xas olan keyfiyyətləri deyil, həm də onlara aid olan əlamət və keyfiyyətlərin dərəcələrini ifadə etməlidir.

Nisbi sifətlər əşyaya xas olan əlamətləri birbaşa , bilavasitə deyil,bilavasitə dolayı yolla ifadə edir. Məsələn; wooden window, woolen socks dədikdə, ağacdan pəncərənin düzəldildiyini, corabın isə yundan toxunduğunu qeyd edirik. Yəni, həmin eşyalara xas olan əlamet başqa bir əşya (agac,yun) vasitəsilə ifadə edilir. Nisbi sifətlər əşyanın hansı materialdan düzəldildiyini bildirənlər, zaman anlayışı bildirənlər, milliyət və yer anlayışı bildirənlər, elmi fəaliyyət bildirənlər və ictimai quruluş bildirənlər olmaqla bir neçə məna qrupuna bölünür.

Veziyyet bildiren sifetler Şəxs ve əşyaların müvəqqəti vəziyyətini bildirir. Bu sifətlər a- prefiksinə malik olur. Vəziyyət bildirən sifətlər semantik baxımdan beş qrupa bölünür,bunlar; Şəxsin psixi vəziyyətini bildirən sifətlər, şəxs və əşyanın hərəkət və fəaliyyətini bildirən sifətlər, əşyanın fiziki vəziyyətini bildirən sifətlər, əşyanın vəziyyətini bildirən sifətlərdir.

Biz burada sifətin sem antik xüsusiyyətlərini araşdırdıq.

Ədəbiyyat siyahısı

1. Hüseynov A., "İngilis dilinin nəzəri qrammatıkası üzrə mühazirələr toplusu" Bakı, Mütərcim, 2015, 375 s.
2. Məmmədova G., "English Grammar rules and exercises". Bakı, 2018, 423 s.
3. Musayev O, İngilis dilinin qrammatikası. Baki, Qismet,2007, 587s.

Ağazadə Vüsalə Oqtay qızı
Təhsil 2 fakültəsi qr. B23-123B
Elmi rəhbər: b.m. Əliyeva Röya Yavər qızı
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNİN QRAMMATİK OMONİMLİK HAQQINDA (ZƏRF, BAĞLAYICI, SÖZÖNÜ)

Omonimlər yazılışı və tələffüzü eyni lakin leksik mənasına görə fərqlənən 2 və daha artıq mənada işlənən sözlərə deyilir.Onu da qeyd edək ki, araşdırma konkret olaraq 3 nitq hissəsi - zərf, bağlayıcı və sözönü arasında olan omonimliyə həsr olunmuşdur. İngilis dilində qrammatik omonimlik anlayışı vardır: A) müxtəlif nitq hissələrinə aiddir və onların leksik mənasında əlaqə var, məsələn: milk - to milk; practice - to practice; advice - to advice. B) bir və eyni sözün müxtəlif söz formalarına malikdir: brother's-brothers; (ps) - asked (pp). C) leksik - qrammatik omonimlərin leksik mənası arasında əlaqə yoxdur və müxtəlif nitq hissələrinə aiddir: tear (noun, cırmaq) - tear (verb, parçalamaq); bear (noun, ayı) - bare (adjective, çılpaq).

Qrammatik omonimlər - bir və yaxud eyni bir sözün müxtəlif formaları qrammatik omonimlər hesab edilir. Qrammatik omonimlərin xarakterik xüsusiyyəti odur ki, omonim söz formalarının yalnız qrammatik mənada fərqlənməsi hesab edilməsidir.

L.Xanbutayeva qeyd edir ki, "Söz bir nitq hissəsindən digərinə keçdikdə öz fonetik formasını ol-duğu kimi saxlasa da, leksik, yaxud qrammatik mənalarını ya saxlayır, ya da itirir." [2, s.10] Söz bir nitq hissəsindən digərinə həm müəyyən qrammatik əlamətlər vasitəsilə, həm də heç bir qrammatik göstərici olmadan keçə bilir. Formal göstəricisi olmayan sözün hansı nitq hissəsinə aid olmasını leksik və qrammatik mənalarına, eləcə də sintaktik funksiyalarına görə müəyyənləşdirmək olur .Qeyd etdiyimiz kimi omonimlər mənasına görə üç qrupa ayrılır: 1. Leksik omonimlər; 2. Leksik-qrammatik omonimlər; 3. Qrammatik omonimlər.

Qrammatik omonimlərin xüsusiyyətlərini aşağıda verilənlər şəklində qruplaşdırmaq olar: 1. eyni fonetik quruluşa malik olurlar; 2. eyni qrafik formaya malik olurlar; 3. müxtəlif nitq hissələrinə aid olurlar. Həmçinin qrammatik omonimlik zərf, bağlayıcı və sözönüdə də özünü göstərir.

Müasir ingilis dilində ən çox işlənən sözlərdən biri də since-dir. Yuxarıda qeyd olunan vahidlər kimi, bu da hər üç nitq hissəsi kimi çıxış edir. Since zərf, bağlayıcı və sözönü kimi, bəri mənasını daşıyır və bir qayda olaraq indiki və keçmiş, bitmiş zamanlarla birgə işlənir. [1, s.120-125]

I haven't seen her since last year. (sözönü)

She left home two days ago and we haven't heard from her since. (zərf)

Bundan başqa, since bağlayıcısı zaman budaq cümləsindən başqa səbəb budaq cümləsini də baş cümləyə bağlamağa xidmət edir.

He hasn't phoned since he went to Ankara. (bağlayıcı)

Nəticədə onu qeyd etmək istərdik ki, ingilis dilində zərf, bağlayıcı, sözönü arasında qrammatik omonimlik xüsusiyyəti mövcüddur.

Ədəbiyyat siyahısı

1. Əliyeva Ş. Filologiya məsələləri №9, AMEA, M.Füzuli adına Əlyazmalar İnstitutu, Bakı, 2014. s.120-125.
2. Xanbutayeva L. İngilis dilində qrammatik omonimlik və onlara aid çalışmalar toplusu. Bakı, 2007.
3. Musayev O. İngilis dilinin qammatikası. Bakı, Qismət, 2007. 4.http://82.194.16.162:8080/xmlui/bitstream/handle/123456789/972/T%C6%8FHM%C4%B0N%C6%8F%20NAD%C4%B0R%20q%C4%B1z%C4%B1%20N%C6%8FB%C4%B0YEVA.pdf?sequence=1

Həsənova Selcan Əbülfəz qızı
Təhsil 2 fakültəsi, qr. B23-123
Elmi rəhbər: b.m. Əliyeva Röya Yavər qızı
ADU

MUST TO BE TO HAVE TO MODAL FEİLLƏRİN İŞLƏNMƏ XÜSUSİYYƏTİ

Modallıq (lat. Modalis (modal)- üsul, vasitə) danışanın ifadə etdiyi fikrə münasibətini bildirən qrammatik semantik kateqoriyadır. Müasir ingilis dilində modallıq kateqoriyasının ən çox istifadə olunan qrammatik vasitələrdən biri də modal feilləridir. Bu feillər hərəkət bildirmir, danışanın hərəkətə münasibətini bildirir. Buna görə də modal feillərdən sonra hərəkət bildirən feil işlənməlidir. Modal feillər arzu olunan və ya arzu olunmayan, mümkünlük qeyri-mümkünlük, güman, şübhə, qınaq və s. bildirirlər. Modal feillər həmçinin təklif, tələb, icazə və ya bacarıq ifadə etmək üçün də istifadə olunur. Modal feilləri O.Musayev ingilis dilində işlənmə xüsusiyyətinə görə 2 yerə bölüb: 1. Əsl modal feillər (real-modals); 2.Yarım modal feillər (semi-modals). [4, 266-267]

Must modal feili "can" və "may" dən fərqli olaraq ancaq indiki zamanda işlənə bilir. She must be as merry as we can.

Digər zamanlarda isə must feilinin əvəzinə eyni məna daşıyan bir sıra ifadələr: to have to, to be to, to be obliged to işlədilir.

1) Keçmiş zaman formasında: Anne had to listen to the opinions of her brother and sister. 2) Gələcək zaman formasında: I will have to leave you.

"Can" və "may" də olduğu kimi "must" modalıda inkarı özünə not hissəciyi artırmaqla düzəlir. She must not appear at first.

Araşdırılan modal feillərdən əlavə Azərbaycan dilçisi F.Cahangirov müasir ingilis dilində daha iki modal feilin - to have to və to be to modal feillərinin işləndiyini də göstərir və onlar haqqında qısa məlumat verir. Məlumatın qısalığını nəzərə alaraq, onun hər iki feil haqqında dediklərini eynilə təqdim edirik. "To have to feili modal mənada bütün növ zaman formalarında, o cümlədən bitmiş və davamedici formalarda işlənir. [1, 198] Məsələn: I'll have to work alone. To have to modal feilinin işlənməsi: 1. To have to daha çox şəraitlə bağlı olan məcburilik, zərurət bildirir: Did you have to wait for long him? 2. İnkar cümlələrdə to have to lazımsızlıq, lüzümsuzluq modal mənasını ifadə edir. Məsələn: You don't have to go there. İngilis danışıq dilində zərurət, öhdəlik modal mənası have/has got to birləşməsi ilə verilə bilər. To have to feili kimi o da sadə məsdərlə (Simple Infinitive) birləşib bütün növ cümlələrdə işlənmək keyfiyyətinə malikdir. Məsələn: I He has got to go there.

To be to modal feil kimi iki formada işlənir: indiki və keçmiş zamanın qeyri-müəyyən formalarında. Məsələn: We are (were) to start off at dawn. To be to aşağıdakı modal mənaları ifadə edə bilir: 1. İrəlicədən olan sazişə (şərtlənməyə) əsaslanan bore (öhdəçilik, vəzifə) mənasını. "He is to arrive tomorrow. The information was that stewadessis were issued almost no change, sometimes non, and where a

stewardess could not make change, her instructions were to give the passenger his or her drinks free". Who is to arrange the meeting? 2. Əmretmə, sərəncamvermə (çox vaxt rəsmi şəkildə) mənasını." The students are to hand over their scifientic papers on April 5. 3. Qaçılmaz fakt mənasını. He knew at the time that he was never to see his son again. 4. Şəraitlə bağlı olan imkan mənasını. Where to look for him?

Güman, şübhə mənasında must modal feilini inkarda işlədə bilmirik. Əgər hərəkət indiki və ya keçmiş zamandadırsa, must modal feilinin əvəzinə "evidenly" modal sözü istifade olunur. Must güman, şübhə mənasında inkarda işlənə bilməsə də, bəzi inkarlıq bildiren sözlər (nobody, nothing, no ne), hissəciklər (inkarlıq bildirən şəkilçilər: un, in, mis, dis) və ya ifadələrlə cümləni inkar edə bilərik.

Nəticədə qeyd edə bilərik ki, bu tezisdə "must", "to have to", "to be to" modal feillərinin işlənmə xüsusiyyətləri, məna çalarları araşdırıldı.

Ədəbiyyat siyahısı

1. Cahangirov F. Azərbaycan və ingilis dillərində modallığın struktur-semantik təhlil. Bakı, "Elm", 2005.
2. Qaraşova Y.M. İngilis dilində modal feillər və onların Azərbaycan dilində ifadə vasitəsi, Avtoreferat, Bakı, 2016.
3. Süleymanova X.E. Müasir İngilis dilində modallıq kateqoriyası və onun ifadə vasitələri, Bakı
4. Musayev O. İngilis dilinin qrammatikası, Bakı-Qismət-2007.

Orucəliyeva Aytac Namiq qızı
Təhsil 2 fakültəsi, q.r. 123 B
Elmi rəhbər: b.m. Əliyeva Röya Yavər qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ İSMİN YİYƏLİK HALI HAQQINDA

Müasir inglis dilində ismə xas iki qrammatik kateqoriyası var. Bu kateqoriyalardan biri də hal kateqoriyasıdır. Azərbaycan dilindən fərqli olaraq, ingilis dilində ismin yalnız iki halı var: 1. Ümumi hal (the Comman Case); 2. Yiyəlik hal (the Possesive Case)

İngilis dilində ismin yiyəlik halı əsasən şəxs və əşya arasında mövcud olan yiyəlik, sahiblik əlaqəsi ifadə edir. Bu və ya digər əşyanın kimə mənsub olduğunu bildirir. Məsələn: The boy's dog, the worker’s salary, the doctor’s advice.

İsmin yiyəlik halı Possesive Case və yaxud Genetive Case adlanır. İngilis dilində isimlərin yiyəlik halı 2 yolla düzəlir: 1) Canlı isimlər s’ və ya təkcə’(apastrofla); 2) Cansız isimlər isim+of+isim düsturu ilə düzəlir

1. Canlı, təkdə olan isimlərin yiyəlik halı ‘s ilə düzəlir. Məsələn: a scientist’s thought, a doctor’s room

2. Canlı, cəmdə olan isimlərin yiyəlik halı 2 yolla (necə cəmlənməsindən asılı olaraq) düzəlir”.

a) Cəmi “s” ilə düzələn canlı isimlərin yiyəlik halı təkcə apastrofla (‘) düzəlir. Çünki,iki “s” yanaşı gələ bilməz (s+’s). Məsələn: scientists’s inventions (yanlış variantdır); doctors’s salaries (yanlış variantdır); scientists’ inventions (doğru variantdır); doctors’ salaries (doğru variantdır)

Sözün sonundakı “s” cəm şəkilçisi deyil də sözün tərkibində olarsa bu zaman yiyəlik halı ‘s ilə düzəlir (progress, adress, boss, class, dress, glass, actress, chess, poetess, access). Məsələn: waitress’s service, hostess’s hospitality, actress’s role. (sondaki “ss”cəmlik bildirmir).

b) Cəmi “s” ilə düzəlməyən (kökdən dəyişən) və kökündəki saiti dəyişən canlı isimlərin yiyəlik halı ‘s ilə düzəlir. Məsələn: children’s pens,men’s cars,women’s bags.

Təki və cəmi eyni olan isimlər yiyəlik halını’s ilə düzəldir (salmon, swine, trout, deer, grous, fish, deer, sheep). Məsələn:a deer’s track-deer’s track; a sheep’s wool-sheep’s wool.

Lakin “people” sözünün yiyəlik halı 2 yolla düzəlir: 1) Adamlar/camaat mənasında cəmlik bildirir və yiyəlik halı ‘s ilə düzəlir. Məsələn: those people’s character. 2) Xalq mənasında təklik bildirir və yiyəlik halı s’ ilə düzəlir. Məsələn: these peoples’independence.

“Of” gəm canlı, həm də cansız isimlərin yiyəlikhalını düzəldə bilir. Məsələn: my siter’s flat-the flat of my sister. Bu zaman birləşmə axırdan əvvələ oxunur.

Mürəkkəb isimlərin yiyəlik halı sonuncu komponentə ‘s əlavə etməklə düzəlir. Məsələn: brother-in-law’s shop

Eyni bir isim cümlədə iki və daha çox adama eyni zamanda məxsus olduqda (ortaq olanda) yiyəlik hal şəkilçisi sonuncuya artırılır. Bu zaman isim də,xəbər də təkdə olur. Məsələn: Rose and Jane car is in front of the building.

Əgər sözügedən isim adı çəkilənlərin hər birinə ayrı-ayrılıqda aiddirsə (ortaq deyilsə) yiyəlik hal şəkilçisi hər ismin sonuna ayrılıqda artırılır. Bu zaman isim də xəbər də cəmdə olur. Məsələn: Rose and Jane’s cars are front of the building.

Qeyd: bədən üzvləri ortaq ola bilməz; sayılmayan isimlər cəmlənə bilməz. Məsələn: Rose and Jane’s hair is black. Bəzi ifadələr var ki, onlar yiyəlik hal hesab olunmur: let’s, he’s, that’s, these’s, those’s, where’s, what’s, who’s, there’s və s.

İngilis dilində ad və soyadlar cəmlənmir. Adların yiyəlik halı ‘s ilə düzəlir. Məsələn: Mr. Brown’s pen. Soyadlar bütöv bir ailəni təmsil edərkən cəmlənir və bu zaman mütləq qarşısında the artiklı işlənməlidir. Yiyəlik halını təkcə apastrof(‘) ilə düzəldir. Məsələn: The Browns’ hause

Aşağıdakı sözlərdən sonra vaxtilə home/shop/office sözləri işlənib lakin indi işlənməsə də bu ifadələr yiyəlik hal hesab olunur. Yəni yiyəlik halda olan bu isimlərdən sonrakı sözlər əşyanın adını təkrar etməmək üçün,bir növ təkrarın qarşısını almaq üçün düşə bilər. Məsələn:at my uncle’s (home); at the baker’s (shop); at the dentist’s (office); at the grocer’s (shop).

Bəzən cansız varlıqların yiyəlik halı ‘s ilə də düzələ bilər. Bu aşağıdakı hallarda işlənir: 1. Zaman və məsafə bildirən sözlərlə. Məsələn: a week’s plan,a minute’s silence. 2. Fəsillərin, ayların, günlərin adını bildirən sözlərlə. Məsələn: Summer’s heat ; Sunday’s rest. 3. Ölkə və şəhər adları bildirən isimlərlə. Məsələn: Tbilisi’s beauty; Azerbaijan’s historical places; 4.The Sun, The Moon, The Earth, the world, river, water, ocean, wind, city, town, ship, boat, vessel və s. sözlərlə. Məsələn: The Sun’s ray, The world’s population.

Nəticədə onu qeyd etmək istərdik ki, müasir ingilis dilində ismin yiyəlik halı haqqında müxtəlif fikirlər mövcuddur. Yazmış olduğumuz tezisdə bu yanaşmaları aydınlaşdırdıq.

Ədəbiyyat siyahısı

1. Abdullayeva G.Müasir Azərbaycan dili. II hissə (morfologiya, sintaksis), AMİ-nin “Xarici dil (ingilis dili) müəllimliyi” ixtisası üçün dərs vəsaiti Bakı, APİ nəşr, 1998.
2. 2.Arif Hüseynov.İngilis dilinin nəzəri qrammatikası üzrə mühazirələr toplusu
3. Xəlilov B. Müasir Azərbaycan dilinin morfologiyası. II hissə, Bakı, 2013.
4. Oruc Türksevər (Musayev), İngilis dilinin qrammatikası, Bakı, Qismət, 2007.
5. Curme.O.A. Grammar of the English Language. New York, 1931.
6. Ilyish B. The structure of Modern English. M, 1974

Quliyeva Sevinc Ceyhun qızı
Təhsil 2 fakültəsi, qr. B23-123
Elmi rəhbər: b.m. Əliyeva Röya Yavər qızı
Azərbaycan dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ CERUNDA XAS XÜSUSİYYƏTLƏR

Müasir ingilis dilində feilin təsriflənməyən formalarından biri də cerunddur. Bildiyimiz kimi cerund felin şəxsiz forması olub hərəkət prosesini ifadə edərək həm ismin, həm də felin xüsusiyyətlərini daşıyır. Cerundun səciyyəvi xüsusiyyəti odur ki, özündən əvvəl ya sözünü, ya mənsubiyyət əvəzliyi, yaxud da mənsubiyyət və ümumi halda olan isim gəlsin. [3, 10]

İsmin xüsusiyyətlərinə malik olaraq cerund cümlədə mübtəda, predikativ, mürəkkəb feli xəbərin bir hissəsi tamamlıq, təyin və zərflik olur. Məsələn: Sezing and doing are different things. This is not playing the game.

Cerundun feli xüsusiyyətləri aşağıdakılardır. [2, s.143-144]

1. Cerundun tamamlıqla işlənməsi: I remember coming to this consert;
2. Cerundun zərflə işlənməsi: She likes singing out;

3. Cerund zaman və növ kateqoriyalarına malikdir: Indefinite (active, passive), Perfect (active, passive)

Cerund cümlə üzvü kimi aşağıdakı funksiyaları daşıyır:

v Mübtədə kimi- Traveling broadens the mind.

v Xəbərin ad hissəsi kimi- My favorite pastime is reading historical fiction. Bu cümlədə "oxumaq" predikativ element kimi fəaliyyət göstərən cerunddur (sonu -ing ilə bitən fel forması) "mənim sevimli məşğuliyyətim"in nə olduğunu təsvir edir.)

v Tamamlıq kimi-I adore spending time with my family. (“Vaxt keçirmək” “pərəstiş etmək” felinin obyekti kimi çıxış edir.)

v Təyin kimi- He had a chance of catching the bus.

v Zərflik kimi- Smiling broadly, she greeted her friends at the. (Gülümsəmək "salamladı" felini dəyişdirir və onların salamlaşma tərzini təsvir edir))

V.L.Kauşanskaya cerund feili isimdən yaranıb və zamanla ismi xüsusiyyətlərini saxlamaqla feilləşib. [1, s.11] M.A.Qanşina isə cerundun feili isim və feili sifətdən yarandığını qeyd edir. [1, s.11] Əvvəllər başqa isimlər kimi feili ismin qarşısında da artikl və ya "of" sözünüsü gəlirdi. Tədricən artikl eləcə də "of" sözönüsü atıldı, - ing forma özündən sonra gələn ismi vasitəsiz tamamlıq olaraq götürdü və beləliklə yeni formaya - cerunda keçirildi.

Nəticədə bunu qeyd edek ki, İngilis dilində cerund feilin təsriflənməyən formalarından biridir. Lakin Azərbaycan dilində cerund mövcud deyil. Cerundun özünə xas xüsusiyyətləri var və bütün cümlə üzvləri kimi işlənə bilir

Ədəbiyyat siyahısı

1. Həsənli. P. İngilis dilində gerund və infinitivin təhlili, magistr dissertasiyası /Azərbaycan Respublikası Təhsil Nazirliyi, Bakı, ADU, 2021.
2. Qədimova N. Cerund, Cerund birləşmələri və onların Azərbaycan dilinə tərcüməsi prosesi. Filologiya məsələləri №2, AMEA, M. Füzuli adına Əlyazmalar İnstitutu, 2012.
3. Nuriyeva S., Cerund. Bakı, 2011
4. Nuriyeva S., Exercises on English verbals. Bakı, Təhsil, 2016.

Şahbazova Günay Adil qızı
Elmi rəhbər-f.f.d., dos. Rəcəbova Sevil Mədət qızı
Azərbaycan Dillər Universiteti

THE USE OF THE DEFINITE AND INDEFINITE ARTICLE WITH NAMES AND SURNAMES IN MODERN ENGLISH

An article is a type of determiner that functions to specify if the noun is general or specific in its reference. Often the article chosen depends on if the writer and the reader understand the reference of the noun. There are two types of articles in Modern English: the indefinite article (a) and the definite article (the). The indefinite article has come from an (one) Old English word , and it has two forms: a və an

The indefinite article is usually used with countable singular nouns, the indefinite article is not used in front of a plural noun, e.g. : A spoon- spoons

The definite article is derived from the demonstrative pronoun se in Old English. It can be used with both singular and plural nouns:

The table-the tables, the boy- the boys

In Modern English, as a rule, proper nouns are used without articles, e.g.:

“No, she can't” replied Mr. Bumble.

According to O. Musayev, articles are used in the following cases with proper nouns denoting persons’ names :

1) When a proper noun expressing a person's name or surname represents an entire family, the definite article is used in front of it, e.g.: The Whites were an average family in the middle class

2) When a proper noun denoting a person’s name represents a member of the family, an indefinite article is used in front of it, e.g. : It is in the nature of a John to be ignorant that he is a John

According to some researchers, proper names don't take an article unless the person has taken on a figurative role, e.g.: He's a Judas. It can also be used to distinguish between two people with the same name, e.g.: Is that the William Smith you went to school with?

According to N.M. Vasilevskaya, the definite article is used in front of proper nouns that have an attribute indicating a temporary situation. In this case, the attribute is mainly expressed by past participles, e.g: The surprised Jane said nothing.

In some cases, nouns are not used with articles, e.g :

1) No article is used in front of proper nouns defined by aunt, uncle, cousin and similar nouns, e.g.

" It is only Cousin James!" . I adopted the tone used my Uncle Robert

2) No article is used in front of proper nouns (persons' names) defined by adjectives such as young, old, poor, little, dear, e.g.:

Young William could not help smiling

According to V.L. Kaushanskaya, nouns denoting military rank and title, such as academician, professor, doctor, do not accept the article , for instance : Doctor Brown

It can be concluded that the article is a topic and it is impossible to explain it only with certain theses. In English, proper nouns and surnames are usually used without articles, but there are certain exceptions and they can be used in the correct position by following the appropriate rules.

References:

1. English Grammar, M.A. Ganshina , N.M. Vasilevskaya , p.71
2. Oruc Türksevər (Musayev) , p. 293, 294, 295
3. В. Л. Каушанская, Р. Л. Ковнер, О. Н. Кожевникова, Е. В. Прокофева, Э. М. Райнес, С. Е. Сквирская, Ф. Я. Цырлина, p. 35
4. https: //ell.stackexchange.co

Mirzəli Ülkər Novruz q.
Təhsil 1 fakültəsi, 208B qr.
Elmi rəhbər. b/m Əliyeva Elmira M.q.
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ FEİLİN VASİTƏLİ ŞƏKLİ VƏ ONUN AZƏRBAYCAN DİLİNDƏ QARŞILIĞI

This thesis is dedicated to the investigation of the Oblique moods in Modern English and their interaction in Azerbaijani.

İngilis dilində feilin vasitəli şəkilləri "Oblique moods" adlanır və onlar, əsasən arzu, istək, şərt, güman və s. kimi mənalar ifadə edir.

Feilin vasitəli şəklinin tədqiqi dilçilikdə bir çox fikir ayrılıqlarına səbəb olmuşdur. A.İ.Smirnitski, İ.B.Xlebnikova, B.A.İlyiş ingilis dilində feilin vasitəli şəklini aşağıdakı kimi təsnif etmişdirlər: Subjunctive I (the Present Subjunctive –I suggest he go); Subjunctive II (If I were you, I shouldn't go there); The Suppositional (If you should see her...). H.Suit feilin vasitəli şəklini mübtəda ilə xəbər arasında olan müxtəlif münasibətlər kimi xarakterizə edir. Bununla əlaqədar olaraq, H.Suit feilin fact-mood və thought – mood kimi iki şəklinin olduğu fikri irəli sürmüşdür. O, daha sonra feilin Subjunctive, Conditional, Permissive, Compulsive kimi şəkillərinin olduğunu qeyd etmişdir.

Müasir ingilis dilində feilin vasitəli şəkli quruluşuna və ifadə etdiyi mənaya görə təsnif edilir. Quruluşuna görə feilin vasitəli şəkilləri sintetik və analitik olmaqla iki qrupa bölünür. Feilin sintetik üsulla (şəkilçi vasitəsilə) düzələn vasitəli şəkli, əsasən feil əsasına şəkilçi artırılması vasitəsilə düzəlir. İngilis dilində feilin sintetik üsulla düzələn vasitəli şəkillərinə Subjunctive I və Subjunctive II aid edilir. İfadə etdikləri mənaya görə isə, feilin vasitəli şəkilləri qeyri-real və problemli hərəkətlər bildirir.

1.Müasir ingilis dilində feilin Subjunctive I (the Present Subjunctive) şəklinin özünəməxsus morfoloji əlaməti yoxdur. Əmr şəklində olduğu kimi, felin Subjunctive I şəkli də məsdərdən "to" hissəciyini atmaqla düzəlir. Felin Subjunctive I forması həyat həqiqətlərinə zidd olmayan, qarşıya problem kimi qoyu-

lan indiki, yaxud gələcək zamana aid əmr, xahiş, arzu, istək, şərt və s. modal mənalar bildirmək üçün işlədilir. Subjunctive I, əsasən poeziyada, elmi üslubda və rəsmi sənədlərin dilində işlədilir. Müasir ingilis danışıq dilində felin Subjunctive I şəklinə çox nadir halda rast gəlmək olur. Subjunctive I bəzi hazır ifadələrdə, alqış və qarğışlarda, şüarlarda və s. işlədilir. Məsələn,

Be it so!; Qoy belə olsun! Success attend you!; Uğur sənə yar olsun!

Sabcanktiv I Azərbaycan türkcəsinə aşağıdakı vasitələrlə tərcümə edilir:

1) Feilin şərt şəkli: If the weather be cold tomorrow, we shall not go to the forest. "Sabah hava soyuq olsaç biz meşəyə getməyəcəyik."

2) Feilin əmr şəkli: I suggested that she remain at home. "Mən təklif etdim ki, o, evdə qalsın."

2.Subjunctive II müasir ingilis dilində yalnız bədii dildə deyil, eləcə də danışıq dilində geniş işlədilir. Felin bu şəkli həyat həqiqətlərinə zidd olan hərəkətləri ifadə edir. Belə hərəkətlər, adətən, danışanın arzusundan, diləyindən, istəyindən, şərtindən və s. asılı olur. Subjunctive II-nin iki zaman forması var: 1) The Past Subjunctive; I wrote; 2) The Past Perfect Subjunctive); I had written.

Sabcanktiv II Azərbaycan türkcəsinə ya feilin arzu şəkli (I wish, I saw her now. "Kaş onu indi görəydim."), ya da feilin şərt şəkli (If I were you, I should read this book. "Sənin yerinə olsaydım, bu kitabı oxuyardım.") vasitəsilə tərcümə edilir.

3. Felin şərt şəkli (The Conditional Mood) həqiqətin ziddinə olan qeyri-real hərəkətləri göstərir. Felin bu şəkli analitik formada olub Azərbaycan dilinə feilin müzareli keçmiş zaman şəkli kimi tərcümə edilir. Məsələn, If I had time, I should go to the party. "Vaxtım olsaydı, qonaqlığa gedərdim."

4. Suppositional mood ehtimal, əhval-ruhiyyəsi danışanın nöqteyi-nəzərindən arzu olunan, zəruri bir hərəkəti təsvir edir, Azərbaycan türkcəsinə ya feilin şərt şəkli, ya da əmr şəkli vasitəsilə tərcümə edilir.

İstifadə edilmiş ədəbiyyat

1. Babayeva, V. (2019), Filologiya məsələləri, №10, 98 s.
2. Musayev, O.İ. (2007), İngilis dilinin qrammatikası, Bakı.: Qismət, 58

Cəfərova Qəmər Zaur qızı,
Təhsil 1, qrup 208b
Elmi rəhbər: b / m E.M. Əliyeva, ingilis dilinin qrammatikası kafedrası
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ KAUZATİV FEİLLƏRİN FUNKSİONAL-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

Kauzativlik (latın dilində causa səbəb deməkdir) konstruksiyalar ən azı iki situasiyanın olmasını tələb edir: A və B situasiyaları. Bu zaman AB-nin real və yaxud qeyri-real dünyada müəyyən hərəkətlərin etməsinə səbəb olur və ya onu bu hərəkətləri etməyə təhrik edir. Kauzativlik dil universaliyası olub, əsasən kauzativ feillər və konstruksiyalar vasitəsilə ifadə edilir. Kauzativliyin ifadə vasitələri ifadə edildiyi dilin struktur-semantik quruluşundan asılı olaraq dəyişir.

Kauzativ feillər XX əsrin 60-cı illərindən başlayaraq semantik sintaksisin digər problemləri ilə yanaşı tədqiq edilməyə başlanılmış və morfoloji, leksik, analitik kauzativlər və ya sadəcə olaraq kauzativ konstruksiyalar qismində tədqiq edilmişdir [1].

Kauzativ feillərdən bəhs edərkən Pinker qeyd edirdi ki, kauzativ feillər ingilis dilinin quruluşunun bir hissəsi olub kiminsə nə üçünsə dolayısı və ya birbaşa məsuliyyət daşıdığını göstərir. Subyekt özü işi icra etmir, o, başqasını bu işi görməyə məcbur edir [2].

R.Kinq kauzativliyi aşağıdakı kimi tərif edir: əgər cümlədə ifadə edilən mühakimədən bəlli olursa ki, vasitəsiz tamamlıqla ifadə edilən obyekt təsirli feilin təsirindən dəyişikliyə uğrayıbsa, o zaman bu feil kauzativ feildir.

Dilçilər kauzativ feillərin, əsasən iki növünü fərqləndirirlər: birbaşa (direkt) kauzativ və dolayı kauzativ.

1.Direkt kauzativ: Bu cür feillər vasitəsilə ifadə edilən hərəkətlər, adətən ya bir şəxsin başqasını bir hərəkət etməsinə sövq etməsini və ya başqa bir şəxsi bir

hərəkəti etməyə məcbur etməsini bildirir. Məsələn, “make”, “force”, “get” kimi feillər direkt kauzativ feillərə misal olaraq göstərilə bilər. Məsələn, a) I made him clean the room. “Mən onu məcbur etdim ki, evi təmizləsin.”

2. Dolayı kauzativ: Bu cür feillər, bir şəxsin işi başqa birisinə icra etdirməsini bildirir. Kauzativ feillərin bu işlənməsinə müasir ingilis dilində tamamlıq feili sifət tərkiblərində rast gəlinir və bu tərkiblər Azərbaycan dilinə feilin icbar növünə uyğun tərcümə edilir. Məsələn, She had her house cleaned. “O, evini təmizlətdirdi.”

Kauzativ feillər dilin fərqli məqamlarında fərqli mənalar ifadə edə bilir. Müasir ingilis dilində kauzativ feillərin istifadəsi bir sıra funksional semantik xüsusiyyətlərə malikdir:

1. Məcbur etmə və arzunu ifadə etdirmə: kauzativ feillər insanı hərəkətə məcbur etmək və ya istək bildirmək üçün işlənir. Məsələn, to make “etmək” və ya “məcbur etmək” kimi feillər insanı hərəkətə məcbur edə bilər.

2. Yönləndirici və təlimat verən: kauzativlik ifadə edən feillər insanı hərəkət etməyə göstəriş vermək və ya istiqamətləndirmək üçün istifadə edilə bilər. Məsələn, to have “var” feli. Have your room aired. “Otağınızı havlandırın.”

3. İcazə və nəzarət: Səbəb feilləri kiməsə bir hərəkət etmək səlahiyyəti vermək və ya hərəkətlərinə nəzarət etmək üçün istifadə edilə bilər.

Bu xüsusiyyətlər kauzativ feillərin müxtəlif qrammatik və semantik kontekstlərdə işlənməsinə imkan verir və müxtəlif semantik çalarlığa malik olan kauzativ feillərin ünsiyyət prosesində fəal istifadə edilməsini şərtləndirir.

İstifadə edilmiş ədəbiyyat

1. Biber, D. et others, (1999), Longman Grammar of Spoken and Written English.
2. Huddleston, R., & Pullum, G. K. (2002). The Cambridge Grammar of the English Language. Cambridge University Press.

Rəsulova Fatimə Vüsal
Elmi rəhbər: Baş müəllim Əyyublu Sücəddin
Azərbaycan Dillər Universiteti

İMPARFAİT ZAMAN FORMASININ AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏSİ ZAMANI VARİATİVLİYƏ DAİR

Fransız dili zaman formaları nöqteyi -nəzərindən zəngin bir dildir. Belə ki, feilin ifadə etdiyi müxtəlif hərəkətlər zaman etibarilə dəqiq ifadə olunir. Bu zaman formaları içərisində hərəkətin keçmiş zamanda olub davam etdiyini, yəni bitmədiyini ifafə edən “İmparfait de l’indicatif “-in xüsusi yeri var. Bu zaman forması “passe simple” kimi keçmişdə olmuş hərəkəti ifadə edir. Belə halda, zaman göstəricisi, yəni müəyyən tarix, müəyyən gün işlədilir. Tərcümə zamanı belə cümlə bitməmiş hərəkət kimi deyil, əslində, “passe composé“-nin ifadə etdiyi bitmiş hərəkəti bildirir.

Dediyimiz kimi, “imparfait” keçmiş zamandır və müxtəlif situasiyalarda istifadə edilir. O cümlədən, keçmişdə hər hansı bir hadisənin təsviri zamanı keçmişdə olub bitməmiş vərdişlərin ifadəsi kimi bəzən şərtin ifadəsi kimi, müstəqil cümlələrdə məsləhət kimi işlənə bilir.

Qeyd etmək lazımdır ki, “imparfait” zamanı həm xəbər şəklində, həm də arzu şəklində işlədilir. Keçmişdə olub bitməmiş real hərəkəti bildirir. Əlbəttə, “imparfait” zaman formasının istifadə spektri çox genişdir. Bundan əlavə, bu zaman forması akademik yazışmalarda da istifadə olunur. Adından da göründüyü kimi davamedici zaman bildirir. Lakin hamının hesab etdiyi kimi nəyinsə mükəmməl olmadığı anlamında deyil, latın dilindəki “imperfectus” sözündən götürülərək bitməmiş, tamamlanmamış mənasını verir.

Dediklərimizi ümumiləşdirmək üçün Fransız ədəbiyyatı nümunələri Azərbaycan dilində orjinal tərcüməsini istinad olaraq götürmüşük və oradan “imparfait” zaman formasının müxtəlif situasiya və kontekstlərdə necə tərcümə olunmasını araşdırmışıq. Həmin nümunələrdən bir neçəsinə baxaq:

1. La père travaillait, rentrait tard du bureau et ne gagnait pas grand-chose. (Guy de Maupassant, contes et nouvelles choisis,Mon oncle Jules, s.462)

Azad Yaşarın tərcüməsində buradakı imparfait zaman forması indiki zaman məzmunlu feili sifət olaraq azərbaycan dilinə tərcümə olunur: "İdarədə axşamacan çalışan atamın maaşı qəpik-quruş sayılırdı."

2. Le bon aumônier était assis au pied de mon lit, et lisait des prières. (Victor Hugo, Le dernier jour d'un condamné, s.193)

Salam Salvarın tərcüməsində buradakı imparfait zaman forması kontekstə uyğun davamedici zaman məzmunludur: " Xeyirxah keşiş çarpayımın ayağında oturub dua oxuyurdu"

3. -Oui, certes, j'aurais voulu être là ! (Jules Verne, Les enfants du capitaine Grant, s.123)

Burada isə imparfait Cabbar Məcnunbəyovun tərcüməsində arzu şəklində tərcümə olunur: "Ah, kaş mən də onlarla bir yerdə olaydım!"

4. Oui, Monsieur, si j'étais assuré que cela ne vous fâchât point. (Moliere, L'avare, s.55)

Buradakı imparfait zaman forması Mehman Musabəyli tərəfindən Azərbaycan dilinə şərt şəklinin indiki zaman formasında tərcümə olunub: " Olar, cənab... əgər əmin olsam ki, siz hirslənməyəcəksiz."

5. Entre la fenêtre et le foyer, Emma cousait ; elle n'avait point de fichu, on voyait sur ses épaules nues de petites gouttes de sueur. (Gustave Flaubert, Madame Bovary, s.46)

Keçmişdə təsvir olunan hər hansı bir hərəkət İmparfait zaman forması ilə verilir və yuxarıdaki cümlə Azərbaycan dilinə İlqar Əlfioğlu tərəfindən bu cür tərcümə olunub: "Emma pəncərə ilə buxarı arasında oturmuşdu. O, tikişlə məşğul idi, başında dəsmalı yox idi, tər damlaları onun çılpaq kürəyindən axırdı."

Nəticə olaraq, imparfait zaman formasının Azərbaycan dilində variativliyinə şahid oluruq və Azərbaycan dili ilə müqayisədə xeyli tərcümə fərqlərinin olduğunu deyə bilərik.

Ədəbiyyat:

1. Gi de Mopasan seçilmiş əsərləri, "Şərq-Qərb" Bakı 2010
2. Guy de Maupassant "contes et nouvelles", Издательство <Прогресс> 1974
3. Gustave Flaubert Madame Bovary, Paris, Librairie de France, 1929
4. Qustav Flober, Madam Bovari, Bakı, Şərq-Qərb 2013
5. Moliere, L'avare, Paul FIEVRE, Septembre 2008
6. https://fatimekerimli.files.wordpress.com/2016/09/jan-batist-molyer-xesis-aze.doc
7. Victor Hugo, Le dernier jour d'un condamné, La Bibliothèque électronique du Québec
8. Viktor Hüqo, Ölüm məhbusunun son günü, Bakı, "Qanun" nəşriyyat 2018
9. Jules Verne, Les enfants du capitaine Grant , La Bibliothèque électronique du Québec
10. Jül Vern, Kapitan Qrantın uşaqları, "Öndər" nəşriyyat Bakı 2004

Zeynallı Məhluqə Afiq qızı
Baş müəllim Məmmədova Sevinc Razim qızı
Azərbaycan Dillər Universiteti

VAQİF YARADICILIĞI ÜMUMMİLLİ LİDERİN GÖZÜ İLƏ

Azərbaycanın görkəmli xalq şairi Molla Pənah Vaqif Azərbaycan ədəbiyyatının inkişafında mühüm yer tutur. Molla Pənah Vaqif ədəbiyyat tariximizdə mərhələ yaradan sənətkardır, realist şeirin ilk yaradıcılarındandır, sevgiyə və gözəlliyə, kədərə və əzaba yanaşması ilə fərqli müstəvidə qərarlaşan şairdir. Əlbəttəki ki, Vaqif öz dövrünün tanınmış ictimai-siyasi xadimi, diplomatı olub, Qarabağ xanlığında ən mühüm qərarların verilməsində öz ağlı və səriştəsi ilə iştirak edib. Amma hər şeydən əvvəl Vaqif şairdir, bu günə qədər sevilən bir çox misilsiz poetik örnəklərin müəllifidir[1, s.123].

Vaqifin əsərlərindəki məhəbbət orta əsrlərdə yaşayıb-yaratmış Azərbaycan şairlərinin böyük əksəriyyətinin şeirlərinə xas olan sufi-mistik rəmzlərdən tamamilə azaddır. Vaqif öz əsərlərində həyat eşqini, məşuqəsinin gözəlliyini, hicranın acısını və vüsalın şirinliyini inandırıcı bir tərzdə tərənnüm edir[3,s.171].

Azərbaycan ədəbi dilinin inkişafında Vaqifin xidmətləri böyükdür. O, heca vəznində yazdığı şeirlərdə xalq dilindən sənətkarlıqla istifadə edərək onu ədəbi-bədii dil səviyyəsinə qaldırmışdır[3,s.167].

Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqına sevgisi onun milli ədəbiyyatımıza böyük sevgisindən qidalanırdı. O vətənin inkişafı, xalqın mədəni-mənəvi, sosial-əxlaqi tərəqqisi naminə daim bu ideyalarla faydalanmaqla, onların gur işığında irəliləməklə yanaşı, ədəbiyyatımızın, mədəniyyətimizin, incəsə-

nətimizin həqiqi dəyərinin verilməsi və bütün dünyada tanıdılması üçün müstəsna işlər görmüş, sənətkarların layiqli qiymətini verməkdən ötrü əlindən gələni əsirgəməmişdir[2,s.12].

Heydər Əliyevin yaradıcılığına xüsusi diqqət yetirdiyi böyük şairlərdən biri də Molla Pənah Vaqif olub.

Ulu öndərin Molla Pənah Vaqifin yaradıcılığına xüsusi diqqət yetirməsinin, onu Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri kimi dəyərləndirməsinin bir neçə səbəbi mövcud olub ki, bunlardan da biri Vaqifin təmiz ana dilində qiymətli sənət əsərləri yaratmasıdır. Vaqifin Azərbaycan dilində yaratdığı gözəl poetik nümunələr qeyri-adi ədəbi inci olmaqla yanaşı, həm də ana dilinin təbliği, onun qüdrətinin təcəssümü idi. Bu şeirlər Azərbaycan dilinin təbliği, onun əzəmətinin nümayişi baxımından mühüm əhəmiyyət kəsb edirdi.

Vaqifin şeirlərinin aydın və sadə dildə yazılması həmin şeirlərin sürətlə yayılması ilə yanaşı, Azərbaycan dilinin təbliğinə də təkan verir, bu dilin fars, ərəb və digər dillərin qarışığından təmizlənməsinə kömək edirdi. Məhz bu faktor Heydər Əliyevin Vaqif yaradıcılığında yüksək qiymətləndirdiyi məqamlardan biri idi.

Molla Pənah Vaqif bir şair kimi hələ öz zamanında məşhurlaşsa da, onun ədəbi irsinin və şəxsiyyətinin geniş şəkildə araşdırılması Heydər Əliyevin adı ilə bağlıdır. 1967-cı ildə Şuşada olarkən Molla Pənah Vaqifin məzarını ziyarət etmək istəyən Heydər Əliyevə məlum olur ki, böyük şairin məzarının yeri məlum deyil. Bundan sonra Ulu Öndərin tapşırığı ilə Molla Pənah Vaqifin itmiş məzarının axtarışına başlanılır.Ümummilli liderin göstərişi ilə aparılan axtarış tədbirləri nəhayət ki, öz nəticəsini verir. Molla Pənah Vaqifin məzarı tapılır. Şairin yararsız vəziyyətdə olan məzarımı ziyarət edən Heydər Əliyev böyük şairin adına layiq abidənin inşasına qərar verir. Bəlli bir müddətdən sonra Molla Pənah Vaqifin məzarı üstündə abidə və türbənin tikintisinə başlanılır. 1982-ci il yanvarın 14-də Şuşada Heydər Əliyevin iştirakı ilə Molla Pənah Vaqifin türbəsinin, o cümlədən Poeziya Evinin açılışı baş tutur[4].

Molla Pənah Vaqif ömrünün son günlərini çox bədbin yaşamış, bu kədəri özünün "Görmədim" müxəmməsi ilə hərtərəfli ifadə etmişdir. Həyatının faciə ilə bitən sonluğu da şairimizin qoca vaxtında yazdığı şeirlərdə əks olunmuş estetik qüruba adekvat olaraq yekunlaşmışdır. Cavanşir Yusiflinin yazdığı kimi, "gözəlliyi hiss etdiyinə, bildiyinə faciələrə tuş gəlmişdi"cəzalanmışdı sanki. Ancaq bu gün sevinirik ki, böyük şairimizin ruhu şaddır. Otuz ilə yaxın işğal dönəmindən sonra o öz azadlığına, ruhsal bütövlüyünə qovuşub. Vaqifin türbəsi hər zaman Şuşada ziyarətgah olub. Şairin bizə heç zaman yadlaşmayan məqbərəsi artıq indiki və sabahkı nəslin daim ziyarət edəcəyi müqəddəs mehraba, qutsal məkana çevrilməkdədir [3.s.125].

Ədəbiyyat siyahısı

1. Bütün Yollar Şuşaya aparır… Bakı, "Nurlar" N/P Mərkəzi, 2021,272 s.
2. Gülbəniz Babaxanlı. Heydər Əliyev və Hüseyn Cavid. Bakı, Elm və Təhsil, 2020,160 s.
3. Tərlan Novruzov. Müstəqillik dövründə Azərbaycan ədəbiyyatina dövlət qayğısı. Bakı, "Elm və Təhsil" , 2015, 444 səh.
4. https://moderator.az/az/arasdirma/616193/heyder-eliyevden-molla-penah-vaqif-irsine-byuk-ehtiram/

Quliyev Şahnur Şikar oğlu
Dosent: f.f.d., dos. Sevil Rəcəbova Mədət qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ QEYRİ-MÜƏYYƏN ARTİKL

Müasir ingilis dilində artikl anlayışı isimlərin qarşısında gələrək onun danışana nəzərən müəyyən olub, olmamasını ifadə edən köməkçi nitq hissəsidir və ismin təyinedicilərindən biridir. İngilis dilində əsasən üç növ artikl mövcuddur: "a", "an" və "the".

Qeyri-müəyyən artikl kardinal say olan "one" (bir) -dan törəmişdir. Qeyri-müəyyən artiklın formaları olan "a" və "an" aid olduğu ismin danışana nəzərən məlum olmadığını, bilinmədiyini ifadə edir. İlk səsi sait olan sözlərdə artikl işlədən zaman "an", ilk səsi samit olan sözlərlə artikl işlədən zaman isə "a" artiklı işlədilir. Məsələn,

A book, a car, a house - "a"

An apple, an umbrella, an hour - "an"

Qeyri-müəyyən artiklın işlənməsi dilin mənasını aydınlaşdırır və nitqin ya da yazının ümumi təsvirini verir. İngilis dilində qeyri-müəyyən artikllar müəyyən bir obyektə və yaxud şəxsiyyətə istinad etmək əvəzinə ümumi bir anlayışı ön plana çıxarır. Məsələn, "I saw a cat in the garden." (Bağçada bir pişik gördüm.) cümləsində "a cat" ifadəsi müəyyən bir pişiyə deyil, ümumi bir pişiyə istinad edir. Bu qeyri-müəyyən artiklın "Classifying", yəni "Təsnifat" funksiyasıdır.

Qeyri-müəyyən artiklın bir digər funksiyası onun "Numerical", yəni "Ədədi" funksiyasıdır. Qeyri-müəyyən artikl "Numerical" funksiyasını yerinə yetirərkən kardinal say olan "one" (bir) - nın original mənasını daşıyır və birdən çox olmayan əşyanın və ya anlayışın sayını bildirir. ***Məsələn,***

The İndian summer returned for a day.

Qeyri-müəyyən artiklların funksiyalarından biri də onun "Generic" yəni "ümumi" funksiyasıdır. Bu zaman qeyri-müəyyən artikl bir qrup və yaxud kateqoriyanın hər hansı bir qeyri-müəyyən təmsilçisinə və ya üzvünə işarə edir. Məsələn, "A horse has four legs" (Burada müəyyən bir atdan yox istənilən bir atdan danışılır). Qeyri-müəyyən artiklın "Generic" funksiyasına bəzi atalar sözləri və hikmətli sözlərdə də rast gəlinir. Məsələn,

A friend in need is a friend indeed.

Sayıla bilən isim ilk dəfə qeyd olunursa bu zaman onun önündə qeyri-müəyyən artikl işlədilməlidir. Qeyri-müəyyən artiklən işlənə bilməsi üçün işlənəcəyi ismin qarşısında digər təyinedici söz, say və yaxud yiyəlik anlayışı olan söz işlədilməməlidir (məsələn, "our car" ifadəsində qeyri-müəyyən artikl işlətmirik, çünki yiyəlik bildirən sözlə işlənmişdir və artıq təyin edilmişdir). Çünki artikllar ismi təyin edən sifətlərin məzmun ekvalentidir.

Qeyri-müəyyən artikl bir sıra istisna hallarda xüsusi isimlərlə işlənə bilir.

1) Danışılan şəxs eyni soyada malik ailəyə mənsub olarsa.

Mrs.Tulliver had been a Miss Dodson…

2) Danışılan şəxsin adı xaricində heç bir məlumat yoxdursa.

There is a young American girl staying at the hotel. She is a Miss Render.

3) Original bir xüsusi isim ümumi bir isim olaraq işlədilərsə.

This man does not know a Rubens from a Rembrandt.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. N.Nəbiyeva mühazirələri 2022 səh. 2-8.
2. R.Murphy "English Grammar İn Use" Fifth Edition 2019 səh 144-145 (Cambridge University Press)
3. H.Boltwood "English Grammar And How To Teach It" 1869 səh.106-107
4. Kittredge, Arnold " The Mother Tongue" Book 2 1908 səh 187-189
5. https://www.languagecouncils.sg/goodenglish/-/media/sgem/document/additional-sgem-resources/pdf/grammar-rules-_-speak-good-english-movement.pdf
6. https://www.butte.edu/departments/cas/tipsheets/grammar/articles.html
7. https://www.adelaide.edu.au/writingcentre/ua/media/58/learningguide-articlesinenglishgrammar.pdf
8. https://www.uwyo.edu/writing-center/_files/handouts/22-using-articles-with-countable-and-uncountable-nouns-uwwc.pdf

Alıyeva Nigar Füzuli təhsil-2
Elmi rəhbər: Ph.Dr.Aliyeva Khayala Shahverdi
Azərbaycan Dillər Universiteti

THE ROLE OF SYNONYMS IN LEARNING ENGLISH

Words form the basis of all languages in the world. People's speech also depends on the use of these words. We should notice that, it depends on the richness of our vocabulary and the use of synonyms so that our speech is fluent and the words we speak are not repeated. A synonym is a word that implies something similar to the provided word. The synonym is derived from a Greek word meaning "one name".The role of synonyms in learning English is important. One of the first advantages of learning synonyms is that they will assist you to sound more natural and fluent in a very new language. If we use constant words over and another time, our speech and writing will become monotonous. Synonyms are used

to make your text easier to read. Some of the benefits of using synonyms are as follows: makes the text more captivating, improves communication between you and others, and helps readers in visualizing better.

For example, instead of using the word “beautiful” several times in your text, you could search for its synonyms and use “gorgeous” , “stunning” or “ravishing” to enhance your language. Using a word repeatedly may lose the attention of your audience simply out of boredom.

Furthermore, By employing an equivalent word, we will higher convey our supposed that means and avoid misunderstandings. for example, the word “sad” has synonyms like “unhappy,” “depressed,” and “gloomy,” every of which may convey a rather different shade of disappointment.

Let’s learn some synonyms that will additional effectively and academically communicate our emotions and thoughts. Interesting- alluring, amusing, attractive, compelling, impressive, unusual

Valuable- beneficial, important, profitable, worthwhile, costly, prized

Expression- definition, explanation, interpretation, phrase, statement

Intelligent- astute, brainy, creative rational, brilliant, knowledgeable

Goal- ambition, intention, objective, target, mission

In conclusion, increasing the weight of synonyms used when communicating in English and similar languages directly contributes to the stability of our speech and the high level of colouration. The study concluded that it is necessary to develop students’ vocabulary using synonyms. By learning the synonym, the students know not only one word but also other words with nearly the same meaning in the text.

List of references:

1. European Journal of Linguistics, Vol. 1, Issue No. 1, pp 26 - 36, 2022
2. https://unacademy.com/content/bank-exam/studymaterial/english/importance-of-synonyms-in-vocabulary/
3. The effects of synonymy on second-language vocabulary learning, Stuart Webb Koran Women’s Junior College Japan, October 2007, Volume 19, pp. 120–136 4. https://www.thesaurus.com/

Qurbanova Gülnaz
Filologiya,qrup 146
Elmi Rəhbər:Baş müəl.Əyyublu Sücəddi
Azərbaycan Dillər Universiteti

MÜASİR FRANSIZ DİLİNDƏ İNKAR CÜMLƏLƏRİNİN MÜXTƏLİF KONSTRUKSİYALARIN, AZƏRBAYCAN DİLİ İLƏ MÜQAYİSƏSİNƏ DAİR

Məlumdur ki, hər bir dilin leksik və qrammatik tərkibində onun ifadəliliyini təmin etmək üçün dilə xidmət edən və böyük rol daşıyan üzvlər vardır. Hər bir dilin qrammatik quruluşu fərqlidir və bu fərqlərdən bəhs etmək istəyirik.Azərbaycan dili olduqca zəngin və ifadəliliyi yüksək dildir.Onu bir dillə müqayisə etməli olsaydıq ən az onun qədər ifadəliliyi və tərkibi zəngin bir dildən istifadə edərdik.Fransız dili bu baxımdan çox əlverişlidir.İndi isə marağımızı xüsusilə çəkmiş bir mövzu barədə bu iki dili müqayisə etmək və əldə etdiyimiz nəticələri sizə təqdim etmək istəyirik.

Azərbaycan və Fransız dilində inkarlıq anlayışı.

Azərbaycan dilində inkar cümləsi düzəltmək üçün feilin kökünə “ma” şəkilçisi artırılır və ya “deyil” sözündən istifadə olunur.

Burada feilə artırılan şəkilçi hərəkətin icra olunmadığını bildirir.

Fransız dilində inkar cümləsi düzəltmək üçün heç bir şəkilçidən istifadə olunmur.Feilin əvvəlində “ne”, sonunda isə “pas” hissəciklərini istifadə etməklə,biz fransız dilində inkar cümləsi düzəldə bilərik.

Məsələn: Gi de Mopassanın [“Mon oncle Jules” əsərindən səh.164-də] verilən”Jules,qui ne valait pas,comme on dit,les quatre fers d’un chien”cümlədə bu strukturu görə bilərik.Bu cümləni A.Yaşar[Gil de Mopassanın “Seçilmiş əsərləri” kitabında səh.579-da] Azərbaycan dilinə belə tərcümə etmişdir: “Dünənə qədər qara qəpik qədər dəyəri olmayan Jül birdən birə xeyirxah ürək sahibinə,dürüst birisinə çevrilmişdi.”

Bu nümumələrdə də aradakı fərqi görə bilərik.Fransız dilində olan cümlədə inkar “ne” və “pas” hissəciklərinin köməyi ilə düzəlmişdir.Azərbaycan dilinə tərcümədə isə inkar ma şəkilçisi vasitəsilə düzəlmişdir və indiki zaman feili sifəti kimi strukturla tərcümə edilmişdir.

Hər iki nümunəni müqayisə etdikdə,ikisində də inkarlığın feilin üzərində baş verdiyini görə bilərik.Azərbaycan dilində inkar cümləsi düzəltmək üçün "deyil"sözündən istifadə olunduğu kimi,fransız dilində də

"rien","jamais,"nulle part","personne","ni..ni"," aucun,
aucune","plus","ne…point","sans"kimi sözlərdən istifadə olunur.İnkar
cümləsi bu sözlər ilə qurulduqda, feildən sonra " pas" hissəciyindən istifadə
olunmur."Sans" sözönüsü feilin məsdər forması ilə işlənir və inkarlıq ifadə edir.
Məsələn [Gil de Mopassanın "Mon oncle Jules" əsərində səh.164-də] verilən cümlədə
biz "sans" vasitəsilə düzələn cümləni görürük."Je serai peut-être plusieurs
années sans te donner de mes nouvelles." A.Yaşar [Gil de Mopassanın
"Seçilmiş əsərləri kitabında səh.579-da] Azərbaycan dilinə belə tərcümə etmişdir: Bəlkə də, qarşıdakı bir neçə il ərzində məndən hər hansı xəbər almayacaqsınız, əgər məktub almasan, heç narahtçılığa qapılma."Burada hər iki inkar cümləsi şəkilçi vasitəsilə düzəlmişdir və tərcümədə inkarlıq şərt şəklində ifadə edilmişdir.

[Gil de Mopassanın "Mon oncle Jules" əsərindən səh.169-da olan]"Je n'ai jamais revu le frère de mon père" bu cümlə usə "jamais" zərfinin köməyi ilə düzəlmişdir. A.Yaşar[Gil de Mopassanın "Seçilmiş əsərləri kitabında səh.584-də] Azərbaycan dilinə belə tərcümə etmişdir:" Həyatda bir daha əmimi görmək mənə qismət olmadı." Azərbaycan dilinə təcümədə də "jamais" sözü " heç vaxt kimi tərcümə olunur". Qeyd etdiyimiz cümlədə də

Azərbaycan dilinə eyni şəkildə tərcümə olunmuşdur. Hər iki cümlədə zərf işlənmişdir.

[Gil de Mopassanın "Mon oncle Jules"" əsərində səh.168-də]isə "rien" vasitəsilə düzələn inkar cümləsi vardır."İl faut prendre garde surtout que notre gendre ne se doute de rien."

A.Yaşar [Gil de Mopassanın "Seçilmiş əsərləri"kitabında səh.583-də]

Azərbaycan dilinə belə tərcümə etmişdir:" Son dərəcə ehtiyatlı olmalıyıq ki, kürəkən bundan duyuq düşməsin."

Bu qeyd olunanlar hər iki dilin inkar cümləsinin düzəldilməsi strukturu üçün oxşar cəhət kimi götürülə bilər. Tərcümə variantında vasitəli tamamlıqdan istifadə edilib. Fərqli cəhət olaraq isə, Azərbaycan dilində inkar cümləsi düzəltmək üçün feilin kökünə "ma" şəkilçi artılır, fransız dilində isə belə bir qayda yoxdur.

Müşahidə etdiklərimiz deməyə əsas verir ki,, fransız dili isə kəşfedilməyi gözləyən okean kimidir, onu ən gözəl şəkildə dərk etməyin yolu isə fikrimizcə öz ana dilimizlə əlaqəsini anlamağa çalışmaqdır. Tərcümə versiyalarında fərqli strukturlar işlənməkdədir.

Ədəbiyyat siyahısı:

1. Müasir Alman və Azərbaycan dillərində inkarlıq kateqoroyası "Maarif" Bakı 278 səh.
2. Gi de Mopassanın seçilmiş əsərləri
3. Guy de Maupassant contes et Nouvelles

Kərimova Laləzər Haqverdi qızı
Elmi rəhbər: fil.f.d., dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

SALMAN RÜŞDİNİN "FLORENSİYALI CADUGƏR" ƏSƏRİNDƏ QADIN OBRAZLARI

Ser Əhməd Salman Rüşdi Hindistan əsilli Britaniya-Amerika yazıçısıdır. O, sehrli realizmi tarixi fantastika ilə qarışdıraraq ilk növbədə Hindistanda qurulan Şərq və Qərb sivilizasiyaları arasında əlaqələr, pozulmalar və miqrasiyalardan bəhs edir. 2008-ci ildə Rüşdinin keçmişə yönəlmiş ən çətin əsərlərindən biri olan "Florensiyanın sehrbazı" nəşr olundu. Bu roman "The Guardian" jurnalında da dərc edilən bir araşdırmada "tarixin nağılla dəbdəbəli qarışığı" kimi qiymətləndirilmişdi. Əsərin hər bir hissəsi tarixin və tarixdə baş verən hekayələrin bir çalarını özündə ehtiva edən bir mozaika parçasıdır.

Özünü "Moghor del Amor" adlandıran avropalı səyyah Əkbər şahın sarayına bir hekayə danışmaq üçün gəlir. Həmin hekayə şəhərdə böyük təəccüb doğurur. Belə ki, qonaq iddia edir ki, o Əkbər şahın bacısı Qaragözün oğludur. Səyyah üç dostu II Makia, Ago Vespuççi və Şərqdə macəracı olan Nino Argo-

lionun uşaqlıqları vaxtına qayıdaraq hekayəni danışmağa davam edir. Lakin sonrakı hissələrdə hekayə yenidən Florensiyanın Mediçi evinin hay-küylü izdiham olan zamanına qayıdır. Hekayənin sonunda 8 səhifəlik biblioqrafiya var, bu da Rüşdinin bu hekayəni yazması üçün bir çox mənbələrdən təsirləndiyini nümayiş etdirir.

Florensiyalı cadugər, ilk növbədə Angelica adlı bir qadının qönçələnmə gücü haqqında yazmağa çalışan bir adam tərəfindən yazılmış bir kitabdır. O, həmçinin Qora Koz və ya Qara Gözlü Xanım kimi də tanınır. Hətta bu eyniadlı romanda baş qəhrəman da daxil olmaqla bütün qadın personajlar kişi perso-najları prizmasından təqdim edilir və müzakirə edilir. Bu, kişi yazıçının kişi eqosunu təmin etmək üçün yaratdığı dünyadır. Bu romanın əsas personajları kişilərdir və onların rolları macəra və şöhrətlə doludur. Və biz qadınları məhz bu kişilərin gözü ilə tanıyırıq. Bu kişi perspektivinin üzə çıxardığı şey, qadınların hamısının bir şey üçün yaxşı olmasıdır: fiziki həzz. "Florensiyalı cadugər" əsərində təhkiyəçi deyir: "İndi o, ola biləcək ən rahat çarpayı, daha yaxşısı bığsız bir qadın və nəhayət, bir qadının qollarında ancaq sərxoş vəziyyətdə, heç vaxt tapılmayan bir miqdar unutqanlıq, özündən qaçmaq istəyirdi". [s.14] Romanın lap əvvəlində təhkiyəçi qadınları spirtli içkilərlə müqayisə edir və öz qəribə hökmünü verir ki, qadınlar güclü içkilərlə müqayisədə çox az sərxoş olurlar. Qadınlar təhkiyəçi üçün həqiqətən mi sadəcə sərxoşluq məsələsidir? Görünür, təhkiyəçiyə görə hər bir qadın personaj fahişə, cariyə, nəzakətli qadın və ya kiminsə həddindən artıq vəfasız arvadıdır. Rüşdinin qadın qəhrəmanları çox gücsüz və əhəmiyyətsiz görünür: "Florensiyalı cadugər" əsərində Rüşdi yer üzündəki ən gözəl qadın Jodhanı yaradır, lakin təhkiyəçi onun əsl qadın deyil, sadəcə afantom (xəyal) olduğunu deyir: "Jodha bir xəyal idi və xəyal kimi ortalıqlardan itməli, bir aynanın ya da bir kölgənin içində gizlənməli idi" [1, s.39] Onun Jodha haqqında təsvirində oxucular yazıçının ümumiyyətlə qadınlar haqqında dəqiq nə düşündüyünü öyrənirlər. Təhkiyəçi deyir: "Xəyali kraliçanın hüdudsuz gözəlliyi bir yoldaşdan, onun hindu dini digərindən, saysız-hesabsız sərvət isə üçüncüdən gəlirdi. Onun xasiyyəti isə Əkbərin öz yaradıcılığı idi. Heç bir gerçək qadın heç vaxt belə mükəmməl, diqqətli, hədsiz tələbkar və sonsuz əlçatan olmamışdır. O, mümkünsüzlük bir növ də mükəmməllik fantaziyası idi. Onlar padşahın buna görə onu sevdiyini bilib Jodhadan qorxurdular. Kitabın eyniadlı qəhrəmanı müxtəlif adlarla Qara Göz və Anjelica kimi tanınan qadındır. Hətta bu kitabın adında lütf sayılan personaj, Qara Göz kimi tanınan Florensiyanın sehrbazına yalnız gözəlliyi və sehrinə görə güc verilir. O, güclüdür, çünki sehri ilə kişilərin ürəyini dərhal fəth edə bilir. Bunun əksinə olaraq, bu romandakı kişilərin hamısı aşiq olurlar – çünki qadınlar onlara ev, güvən və isti yeri verirlər - lakin bu sevgi səthidir. Onlar cadugərlərdir və onlar bir şeyə qadirdirlər - kişiləri hipnoz edib qadınların sehri altına salırlar. Və bu, Rüşdinin romanındakı qadın personajlara verdiyi gücdür. Onlar romanda, yazıçının tərtib etdiyi dünyada sadəcə ikinci dərəcəli varlıqlardır.

Ədəbiyyat siyahısı:

1. .https://www.proquest.com/docview/1034974219?pq-origsite=gscholar&fromopenview=true&sourcetype=Magazines
2. https://thedawnjournal.in/wp-content/uploads/2013/12/9-Dr.-B.J.-Geetha.pdf
3. https://sryahwapublications.com/article/abstract/2637-5869.0202001

Ağazadə Peyman Azər
Elmi rəhbər: fil.f.d., dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

RED BREDBERİNİN HEKAYƏLƏRİNDƏ GƏLƏCƏK QORXUSU MOTİVİ

Elmi-fantastika, qorxu, mistika və antiutopiya kimi müxtəlif janrlarda əsərlər yazmış Rey Bredberi XX əsr Amerika ədəbiyyatının görkəmli nümayəndələrindən sayılır. Red Bredberinin yaradıcılığında hekayələr də çoxluq təşkil edir və bu əsərlərdə yazıçı gələcəklə bağlı bir çox problemləri ortaya qoymuş, onların həll yollarını göstərməyə çalışmışdır.

Red Bredberi hekayələrində texnoloji dəyişikliklərlə yanaşı, insanın daxili dünyasındakı təlatümlərə, qəzəb və qorxulara toxunur və bunları ən incə cizgilərlə təsvir etməyə çalışırdı. Bu obrazlar daima düşünür, lakin situasiyadan çıxa bilmirlər, bəzən də depressiv hal alırlar. Məhz onun "Piyada" əsərində Leonard Mid

2053-cü ildə yaşayır. Bu dövr elə bir dövrdür ki, onlar bir-birindən uzaqlaşmış, hamı müəyyən bir qorxu altında yaşayır. Qorxu elə bir hal alıb ki, insanlar gecələr küçəyə belə çıxa bilmirlər. Yalnızlıq insanların həyatına o qədər siraət edib ki, yollar belə istifadəsiz qalıb. "On ildir ki, gecə-gündüz, mil-mil gəzir. Ancaq özündən başqa gəzən adamla qarşılaşmamışdı. Bu qədər vaxtda bir nəfər belə görməmişdi." [1]. Söhbət etməyə adam tapmayan Leonard ətrafındakı binalara, evlərə suallar verir və sanki onlarla danışır. Nəhayət bir dəfə polis maşını peyda olur və onun gecə təkbaşına niyə gəzdiyini soruşur və onu harasa aparır. Oxucu anlaya bilmir onu hara aparırlar. Bəlkə ölümə, bəlkə onun öz evinə, bəlkə də əbədi bir tənhalığa. "Mars Xronikaları" silsiləsinə daxil olan əsərlər bəşəriyyətin, insanın öz şəxsi eqosunun təsiri nəticəsində dünyanı necə məhv etməsi, bəzən bir ümid qığılcımının bir nəsilin qarşısında yeni üfüqlər açması təsvir olunur." [2]

Bredberini oxuyarkən, müəyyən bir dövrə aid olana çevik şəkildə müqavimət göstərən ruh görürük. "Bredberinin hekayələrində baş verənlərin çoxu qorxu və ya təəccübün normal reallıq hissini əvəz etdiyi alatoranlıqdadır" [3]. Yazıçı bu məsələlərə əbəs yerə toxunmurdu. O özü də yaxşı bilirdi ki, gec-tez bu dünya məhv olacaq və bütün həyat elə insanlığın öz əlilə məhv olacaq. Bu hekayələrdə bəşəriyyətin naməlumlarla qarşılaşmasını poetik və həyacanverici tərzdə çatdırmaqla Yer kürəsinin insanlarını necə bir sonluq gözlədiyini göstərməyə çalışmışdır. Təsadüfü deyil ki, onun "Onlar qarayanız və qızılgöz idilər" hekayəsində də bu məsələlər qabardılır. Yer kürəsində gələn bir qrup insanın Marsın ecazkar təbiəti və görünüşü qarşısında heyrətə gəlirlər, hətta Harri geri qayıtmağa belə çalışır. " – Bir də bilirsən, ata, bu şəhərlərdə, elə bil, nəsə gizlənir, kimsə gəzir. Bəlkə, bizim bura gəlməyimizdən marslıların xoşu gəlmir? Bəlkə, onlar bizdən intiqam almaq istəyirlər?" [4, 122] Həyat yoldaşı ona mane olmasaydı bəlkə də gedəcəkdi və bəşəriyyətin məlum sonuluğundan o da nəsibini alacaqdı. Bunlar olmadı, qalıb mübarizə aparmaq istəyi və arzusu onu Marsa bağladı. Bir müddət hər şey yolunda gedir, ta ki Yer kürəsində atom müharibəsi xəbəri gələnə qədər. Artıq Harrinin içindəki ümid qığılcımları yoxa çıxdı, o, özünü bu planetdə yalnız və çarəsiz hiss etdi, axı onun qayıdacağı bir ev yox idi. Ya başqa bir çıxış yolu tapmalı, ya da öz sonluğu ilə barışmalı idi. Dərhal iş başına keçir, hətta insanları öz ətrafına toplayır ki ona kömək etsinlər, amma hamı ona gülüşlə qarşılıq verir, çünki hamı öz həyatından məmnun idi. Yalnız və yalnız Harridən başqa. O hətta Marsda becərilən qidalardan belə uzaq dururdu, düşünürdü ki, bu qidalar zəhərlidi və onu öldürə bilər. Sonra Harri çıxış yolunun olmadığını gördü, o öz taleyilə barışmalı idi və belə də oldu. 5 il sonra Yer kürəsindən kosmik gəmi gəldi və burada araşdırmalar aparmağa başladılar. Lakin yeni gələnlər əvvəlkiləri tanımadılar. Əksinə düşündülər ki, bunlar yerli Mars xalqıdır. Bununla belə yeni gələnlər əvvəlkilər kimi dağlara, çaylara ad verib öz bildiklərini etməyə başladılar. Necə deyərlər insan oğlu dəyişmir, necədirsə elə də olacaq, dəyişən sadəcə zamandır.

Ədəbiyyat:

1. https://pervinfeziyeva.wordpress.com/2017/01/23/rey-bredberi-piyada/
2. https://www.reddit.com/r/themartianchronicles/comments/18gu20o/martian_chronicles_summary/?rdt=64256
3. https://www.peoplesworld.org/article/ray-bradbury-an-american-imagination/
4. Dünya elmi-fantastik ədəbiyyatı antologiyası. II cild. Bakı, Şərq-Qərb, 2013

İsmayılova Məkurə Məqsəd qızı, təhsil -2
Elmi rəhbər: Dos. A.Ə.Quliyeva
Azərbaycan Dillər Universiteti.

İNGİLİS DİLİNDƏ OMONİMLƏRİN YARANMA YOLLARI

Dilçilikdə, səs forması və yazılışı eyni olan, lakin mənaca fərqli olan sözlərə omonimlər deyilir. Məsələn: yoke (boyunduruq) - yolk (yumurta sarısı); Omonimlərin müxtəlif şəkildə təsnifi mövcuddur. İngilis dili omonimlərinin təsnifatında əsas fərqli cəhət isə, demək olar ki, əksər dilçilərin təsnifatlarında omofon və omoqrafların omonimlərin xüsusi növü kimi ayrıca qeyd edilməsidir. Məsələn, A.İ.Smirnitski tam-natamam, leksik, qrammatik və leksik-qrammatik, N.M.Rayevska tam omonimlər, omoqraf və ya heteronimlər, omofonlar, omoformlar, R.S.Ginzburg leksik, leksik-qrammatik, qrammatik olmaqla qruplaşdırmışlar. [5]

İ.V.Arnold və E.B.Muruqova omonimlərin ən geniş yayılmış təsnifatının üç əsas növü - tam omonimlər, omofonlar (homophones) və omoqraflar (homographs) əhatə etdyini yazırlar. [3,220]

Omonim termini iki fərqli mənaya istinad etmək üçün istifadə edilə bilər.

1) Eyni yazılışı paylaşan sözlər: lead (aparmaq, rəhbərlik etmək) - lead (metal - qurğuşun); tear (göz yaşı) - tear (cırmaq).

2) Eyni tələffüzü paylaşan sözlər: sea-see; hear-here; son-sun; read-red; know-no.

[1,167]

Omonimlərin 2 növü var.

1) Tam və ya mükəmməl omonimlər. Tam leksik omonimlər nitq hissələrinin eyni kateqoriyasını təmsil edən və eyni paradiqmaya malik olan sözlərdir. Məsələn: case- something that has happened, case - a box, a container

2) Qismən omonimlər üç qrupa bölünür. Onlar məna növünə görə leksik, leksik qrammatik və qrammatik omonimlərə bölünə bilər.

a) leksik omonimlər: Onlar ancaq leksik mənalarına görə fərqlənirlər. Məsələn: seal (möhür) - seal (suiti)

b) Leksik - qrammatik omonimlər: Həm leksik, həm dəməna baxımından qrammatik olaraq fərqlənirlər. Məsələn: blue (mavi) - blew ("blow" sözünün keçmiş zaman forması); found (bünövrə) - found ("find" sözünün keçmiş zaman forması).

c) Qrammatik omonimlər bir və eyni sözün müxtəlif söz formalarının omonimləridir. Məsələn: brothers (plural) - brother's (Posess. Case).

İngilis dilində omonimlərin yaranmasına səbəb olan müxtəlif mənbələr var. Belə dəyişikliklər nəticəsində formal olaraq fərqli tələffüz edilən iki və ya daha çox söz eyni səs formalarını inkişaf etdirərək omonimə çevrilə bilər. Məsələn: night - knight

Polisemantik- coxmənalılıq sözün fərqli məna inkişafı və iki və ya daha çox müxtəlif sözün ya-xınlaşan səs inkişafı da omonimlərin əsas mənbəyidir. Eyni sözün müxtəlif mənaları bir-birindən uzaqlaşaraq iki ayrı vahid kimi qəbul olunarsa, fərqli məna inkişaf prosesi müşahidə oluna bilər. Konvergent səs inkişafı omonimlərin yaranmasında ən güclü amildir. Omonimlərin böyük əksəriyyəti əvvəllər fonetik cəhətdən fərqlənən iki və ya daha çox sözün üstüstə düşməsinə səbəb olan səs inkişafının yaxınlaşması nəticəsində yaranır. Məsələn: I – eye

İngilis dili omonimlərinin fərqli cəhətlərindən biri də burada qısaltma və ixtisarlar nəticəsində yaranan çox sayda omonimlərin olmasıdır. Burada leksik vahidlərlə yanaşı, qrammatik qısaltmalar da omonimlik faktına geniş imkanlar yaradır: cab¹ (cabriolet) – cab² (kayuta) - cab³ (kələm (slenq); pop¹ - pop konsert - pop² (tullamaq;itələmək); prop¹ (təklif; teorem; məsələ) - prop² (mühərrik); I'll (I+shall və ya will; mən edəcəm) – isle (ada) - aisle (cərgələr arasında keçid) - hər üç söz fərqli yazılsa da, eyni [aıl] oxunuşa malikdir; I'd [aıd]) (I+had və ya would, should; mən etməli oldum; etməliydim, edəcəkdim) - eyed (to eye izləmək, müşahidə etmək feilinin keçmiş zaman və keçmiş zaman feili sifət forması) və s.[4,284]

Beləliklə, biz ingilis dilində omonimlərin yaranma yollarını müəyyən etdik və onların hər birinin spesifik xüsusiyyətlərini aydınlaşdırdıq.

Ədəbiyyat:

1. Aziza Hajiyeva. English Lexicology. Baku – 2011
2. Arnold, I.V. (1986). The English Word M. High School pp. 143 – 149
3. Arnold, I.V. (1959). Lexicology of Modern English. M. Higher School. pp. 212 – 224.
4. Canon, G. (1986). Historical Changes and English Word formation. New Vocabulary items. Nyuyork, p.284
5. Studfile.net

İsmayılova Gülbahar Asim qızı,təhsil-2
Elmi rəhbər: Dos.A.Ə.Quliyeva
Azərbaycan Dillər Universiteti

İNGİLİS ATALAR SÖZÜ VƏ ZƏRB MƏSƏLLƏRİNİN LEKSİK XÜSUSİYYƏTLƏRİ

Atalar sözləri, zərb-məsəllər həyatın müxtəlif sahələrinə aid ibrətamiz məzmunlu qısa kəlam, xalq düşüncəsinin qısa, dolğun və mənalı bir şəkildə ifadəsidir. Əsrlər boyu xalqın süzgəcindən keçmiş xalqın hikmətli sözlərinin daşıyıcısı olan atalar sözləri və zərb-məsəllər yığcam, obrazlı, dərin mənalı və tutarlı nitq məhsuludur. Hər dövr, hər nəsil üçün onların təlim-tərbiyəsində olduqca mühüm rol oynayan atalar sözləri və zərb-məsəllər və müdrik kəlamlar həm ingilis, həm də Azərbaycan dilində çox zəngindir. Atalar sözləri

aid olduğu dilin daşıyıcıları olan xalqın mentalitetini, düşüncə tərzini, həyat fəaliyyətini, keçdiyi tarixi yolu, məişətini, mədəniyyətini, adət-ənənələrini əks etdirən xalqın bir növ özüdür. Müəllifi və yaranma tarixi məlum olmayan belə qanadlı ifadələr aid olduğu xalqın dilinə, onun ədəbiyyatına, mədəniyyətinə xüsusi bir çalar, əsrarəngiz rəng verən, folklorunu zənginləşdirən dil və nitq vahidləridir. Belə ki, hər hansı bir xalqın dilini, ədəbiyyatını bilmək, həyat tərzindən hali olmaq üçün onun dilində yer tutan və həmin xalqın etnolinqvistik və entopsixoloji xüsusiyyətlərini özündə əks etdirən atalar sözlərini bilmək önəmlidir. Bəzi araşdırmaçıların fikrinə görə:"... yüzilliklərlə ölçülən mədəniyyət tarixində xalq müdrikliyinin inikası olan, dərin, kəsərli və tutarlı fikirləri ifadə etmək qüdrəti ilə səciyyələnən atalar sözləri xüsusi yer tutur"

İngilis dilinin frazeologiyasının böyük və mənalı bir qolunu təşkil edən atalar sözlərini təhlil edərkən onların strukturunun müqayisə əsasında formalaşdığını müşahidə etmək olar.Məsələn: A bad comprise is better than a good lawsuit. - Məhkəmədə bir işin tələb etdiyi vaxt, pul və səylə, sizin xeyrinizə olmasa da, güzəştə getməklə ondan qaçmaq daha yaxşıdır.

A bird in the hand is worth two in the bush. - Daha yaxşı bir şey əldə etməyə çalışaraq onu itirmək riskinə girməkdənsə, onsuz da var olan bir şeyə sahib olmaq daha yaxşıdır..

Do not rob Peter to pay Paul.- Bir şəxsdən və ya əşyadan digərinə vermək, xüsusən də bir borcun başqa bir borcun yaranması ilə aradan qaldırılması ilə nəticələndikdə

İngilis dilinin atalar sözlərində tez-tez ziddiyyət yaxud da oppozisiyaya rast gəlmək olur. Məsələn: A black hen lays a white egg.- Bir şeyin və ya kiminsə zahiri görünüşündən qəbul etdiyiniz şey, əslində olduğu kimi olmaya bilər.

A friend to everybody is a friend to nobody-Sadəcə olaraq yaxşı insan olmaqla çoxlarına dost olmaq olar; lakin bir çox insanlarla fəzilət və xarakterə əsaslanan eyni münasibət ola bilməz.

İngilis dilinin atalar sözləri arasında təkrarlardan istifadə edilənlər nəzərə çarpacaq bir yeri tutur. Öz dərin mənası ilə təzahür edən bu atalar sözlərində istifadə olunan təkrarlar onların daha da mənalı, ritmik, dilə yatımlı və yaddaqalan olmasına xidmət edir. Məsələn:

An ill wound is cured, not an ill name.- Kimsə pis adla damğalandıqda onu dəyişdirmək çox çətindir.

Don't trouble trouble until trouble troubles you.- Problem axtarmayın - onlar sizə gəlsin.

A friend in need is a friend indeed. -– Deyərdi ki, kömək lazım olanda kiməsə kömək edəcək dost əsl dostdur

Fight fire with fire. - Rəqibin istifadə etdiyi eyni üsul və ya silahlardan istifadə edərək rəqibə qarşı döyüşmək.

Diamond cuts diamond. - Böyük zəkaya və ya bacarıqlı bir insana yalnız bərabər və ya daha böyük zəka və ya bacarıq sahibi olan şəxs meydan oxuya və ya məğlub edə bilər.

A good dog deserves a good bone. - Sadiq işçi və ya yaxşı işçi mükafatına layiqdir. İngilis dilində tədqiqat prosesində nəzərdən keçirdiyimiz atalar sözlərinin komponentləri arasında ellipsis hadisəsinə tez-tez rast gəlinir. Belə ki, bu dildəki atalar sözlərinin təkrar olunan komponenti dildə lüzumsuz təkrara yol verməmək üçün, asanlıq və lakoniklik yaratmaq naminə düşür, yəni ellipsis hadisəsinə məruz qalır.

Məsələn:

A man can do no more than he can (do). - Bu, etmək üçün bir neçə şeyi seçmək və hər şeyi deyil, onları mənimsəməyə cəmləmək deməkdir, çünki bir neçəsi sizin limitinizdir. Bu, seçici hər şeyə qadirlik və tam qüdrət kimidir

A wise man changes his mind, a fool never will (change his mind)- Uyğunlaşma qabiliyyətinin, açıq fikirliliyin və yeni məlumat və ya sübut təqdim edildikdə öz fikirlərini və ya inanclarını yenidən nəzərdən keçirmək istəyinin vacibliyini vurğulayır.

One man (is) no man. - Tək adam çox şey edə bilməz, əməkdaşlıq lazımdır.

Ədəbiyyat:

1. Abasquliyev T. İngilis dilində atalar sözləri və onların Azərbaycan və rus dillərinə tərcüməsi. Bakı, Elm nəşriyyatı, 1981.
2. Abbasov A. Dictionary of English- Azerbaijan Proverbs and Sayings. Bakı, Turan evi, 2009.
3. Aziza Hajiyeva.Engish Lexicology. Baku-2011.
4. Əfəndiyeva G.X. Qanadlı ifadələrin tərcüməsində semantik transformasiya məsələsi, (V.Skottun əsərlərinin Azərbaycan dilinə tərcüməsi əsasında). Avtoreferat, Bakı, 2022.
5. Əhmədova X.S. Müxtəlif sistemli dillərdə atalar sözlərinin linqvistik təhlili və tərcüməməsələləri (Azərbaycan və alman dillərinin materialları əsasında). Avtoreferat. Bakı, 2011.

Minaxanova Fatimə Əlixan, 329a
Elmi rəhbər: b/m Kərimova Kəmalə Hüseynəli
Azərbaycan Dillər Universiteti

ANTUAN DÖ SƏNT EKZÜPERİNİN "LE PETİT PRİNCE" (BALACA ŞAHZADƏ) ƏSƏRİNDƏ BƏDİİ TƏSVİR VASİTƏLƏRİ

"Balaca şahzadə" (fran. "Le Petit Prince") - Antuan dö Sent Ekzüperinin ən məşhur əsəri, alleqorik hekayədir. Əsər ilk dəfə 6 aprel 1943-cü ildə Nyu-Yorkda çap olunub. "Balaca şahzadə" dünyada 250-dən çox dilə tərcümə edilmişdir. Peşəkar filoloqların fikrincə, bu əsər fransız dilini öyrənməyə başlayanlar üçün ən yaxşı vəsait hesab edilir. Əsərdə baş verən hadisələr təhkiyə yolu ilə təqdim edilir.Əsərin qəhrəmanı, Balaca şahzadənin gözü ilə böyüklərin,yetkin insanların həyatı izlənilir və onların düşüncələri, həyat fəlsəfələri, sevgi mövzularına toxunurlur. Kiçik şahzadə qarşılaşdığı personajlara uyğun olaraq, oxucularına dərin mənası olan fəlsəfi mesajlar verir. "Bütün böyüklər uşaq olublar, amma bunu hamısı xatırlamır", sözləri əbəs yerə kitabın proloquna çevrilməmişdir.Elə bu fikir oxucunu kiçik hesab etdiyi, lakin böyük dünyası və özünə xas fəlsəfəsi olan bir qəhrəmanla rastlaşmağa hazırlayır. Əsər kifayət qədər zəngin bədii təsvir vasitələrinə malikdir. Qəhrəmanımızın qarış-qarış gəzdiyi yerlər və obrazlar biz oxucuları təsviri mətnlə nəqli mətnin sintezinə aparır. Bədii ifadə vasitələrinə uyğun olaraq aşağıdakı nümunələri təqdim edirik:

La métaphore (Metaforaya dair nümunələr):

1. Elles (les grandes personnes) se voient importantes comme des baobabs. / Onlar (böyüklər) özlərini baobablar kimi vacib görürlər. (səh-50)

2. Mais je suis plus puissant que le doigt d'un roi, dit le serpent. / Amma mən padşahın barmağından güclüyəm, dedi ilan. (səh-52)

3. Il (le serpent) s'enroula autour de la cheville du petit prince, comme un bracelet d'or. / O (ilan) qızıl bilərzik kimi balaca şahzadənin topuğunun ətrafına dolandı.(səh-54)

La métonymie (metonimiyaya dair nümunələr):

1. J'ai été réveillé par une étrange petite voix. / Məni qəribə bir kiçik səs oyandırdı.

Bu cümlədə yazıçı "Balaca Şahzadə"yə qəribə kiçik səs sözləri ilə müraciət etməyə çalışıb. "Kiçik şahzadənin" əvəzinə "kiçik səslə" işlədilir. (səh9)

2. Alors vous imaginez ma surprise, au lever du jour, quand une drôle de petite voix m'a réveillé ». / Sübh açılanda, gülməli bir balaca səs məni oyadanda necə təəccübləndiyimi təsəvvür edə bilərsiniz". (səh-8)

Comparaison imagée (müqayisəyə dair nümunələr)

1) Quand le pilote s'écrase au Sahara, il dit: "J'étais plus isolé qu'un naufragé sur un radeau au milieu de l'océan "/ Pilot Saharada qəzaya uğrayanda deyir: "Okeanın ortasında salda batmış gəmidən daha çox təcrid olunmuşdum". Bu müqayisə oxuculara onun nə qədər tək olduğunu anlamağa imkan verir. O, okean sularının ortasında kiçik bir sal üzərində bir qəzaya uğrayan kimi, Sahara qumunun "dalğaları"nda təkdir. Onun təcrid olunması kiçik şahzadənin gəlişini bu qədər ehtiyatlı edir; bu həm də onları bağlayan şeydir, çünki şahzadə də tamamilə təkdir.(səh-8)

2) "J'ai fait remarquer au petit prince que les baobabs ne sont pas des buissons mais des arbres aussi grands que des églises". / Mən kiçik şahzadəyə işarə etdim ki, baobablar kol deyil, kilsələr qədər böyük ağaclardır". Bu müqayisə oxucuya baobabların nə qədər böyük və heyrətamiz olduğunu təsəvvür etməyə imkan verir.(səh-21)

İstifadə edilmiş ədəbiyyat:

1. Antoine de Saint-Exupéry LE PETIT PRINCE 1943
2. Antuan de Sent Ekzüperinin Balaca şahzadə əsəri, tərcümə edənlər- Əziz Gözəlov, Yaqut Qurbanova,Bakı, Kitab yurdu.
3. RACHİD DJABBAROV - Cours sommaire de stylistique Française(manuel didactique), Bakı, Elm və Təhsil,2016
4. Wikipedia.org

Abbasova Səma Rza qızı
Təhsil 2 fakültəsinin 124 B qrup tələbəsi
Elmi rəhbər:ffd/dos.Abdurahmanova Röya
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ İSMİN KƏMİYYƏT KATEQORİYASI

Kəmiyyət ismin qrammatik kateqoriyalarından biri olub, söhbətin bir və ya daha çox əşya yaxud şəxs haqqında getdiyini göstərir.Buna müvafiq olaraq da isim 2 formada -tək və cəm formada işlənir.Əgər söhbət bir isimdən gedirsə, tək forma (a man,a girl və s.), iki və ya daha artıq isim haqqında danışılırsa, cəm forma (girls,books və s.) işlənir [1.s.21].

Müasir ingilis dilində tək forma isimlər heç bir xüsusi şəkilçiyə malik olmur, məsələn: a table, a boy, a bench, a garden və s.

İsmin cəm formada düzəldilməsi [1.s.22]

Müasir ingilis dilində əksər isimlərin cəm forması -s(es) şəkilçisi vasitəsilə düzəldilir, məsələn: boys, gardens, foxes və s.

İsmin cəm formasını düzəltmək üçün işlənən -s(es) şəkilçisi Azərbaycan türkcəsində cəmlik ifadə edən -lar² şəkilçisinə uyğun gəlir, məsələn: books-kitablar, pens-qələmlər və s.

Cəm şəkilçisi -s(es) özündən əvvəl gələn səsdən asılı olaraq 3 cür oxunur:

1)Kar samitlərdən sonra [s]: parks, caps, cats, books və s.

2)Sait və cingiltili samitlərdən sonra [z]: pencils, boys, places və s.

3)Fışıltılı samitlərdən sonra [iz]: horses, noses, foxes və s.

Müasir ingilis dilində 7 isim vardır ki, onların cəm forması kökdən dəyişir. Bunlara aşağıdakılar daxildir:

A man-men, a woman-women, a foot-feet, a tooth-teeth, a goose-geese, a mouse-mice, a loose-lice

Müasir ingilis dilində bir ismin (ox-öküz) cəm şəkli -en şəkilçisi ilə düzəldilir: ox-oxen .Bir ismin (child-uşaq) cəm forması isə həm kökdəki saitin dəyişməsi, həm də -en şəkilçisi vasitəsilə ilə düzəldilir: child-children [1.s.23].

Mürəkkəb isimlərdə cəm şəkilçisi, adətən, əsas komponentə əlavə edilir. Editor-in-chief, brother-in-low sözlərindən birincidə əsas komponent editor, ikincidə brother sözüdür.Demək, həmin mürəkkəb isimlərin cəm formasını düzəltmək üçün -s şəkilçisi bu komponentlərə əlavə edilməlidir; editors-in-chief, brothers-in-law

Müasir ingilis dilində bəzi mürəkkəb isimlərin tərkibində -man və ya -woman morfemi olur. Bu qəbildən olan mürəkkəb isimlərin cəm formasını düzəldərkən -man (və ya da-woman) morfemi -men(və ya da -women) morfeminə çevrilir, məsələn: a postman-postmen, a saleswoman-saleswomen və s.

Qeyd: Tərkibində -man morfemi olan Norman, German, Roman kimi sözlər mürəkkəb isim hesab edilmir. Buna görə də bu qəbildən olan mürəkkəb isimlərin cəm forması adi qayda ilə, yəni onların sonuna -s şəkilçisi artırmaqla düzəlir.

İsimlərin cəm formasının yazı qaydaları [1.s.24]

Müasir ingilis dilində isimlərin cəm formasını düzəldərkən aşağıdakı yazı qaydalarına riayət etmək lazımdır.

1.Əgər isim -s, -ss, -x, -sh, -ch və ya -tch hərf, yaxud hərf birləşmələrindən biri ilə qurtararsa, onun cəm formasını düzəltmək üçün sonuna -es şəkilçisi artırmaq lazımdır, məsələn: a bus-buses, a glass-glasses, a fox-foxes

2.F və ya Fe ilə bitən əksər isimlərin cəm formasını düzəldərkən, f(fe) v hərfinə çevrilir və ismin sonuna -es şəkilçisi əlavə edilir, məsələn: a wife-wives, a knife-knives [1.s.25]

Qeyd: Sonu f(ff) ilə bitən bir qisim isimlər vardır ki, onların cəm forması ismin sonuna -s şəkilçisi artırmaqla düzəlir: a roof-roofs, a chief-chiefs, a handkerchief-handkerchiefs, a cliff-cliffs, a cuff-cuffs, a muff-muffs [1.s.25]

3.İsim o hərfi ilə bitərsə və ondan əvvəl samit gələrsə, həmin ismin cəm forması -es ilə düzəlir, məsələn: a potato-potatoes

O hərfindən əvvəl sait gələrsə, onun cəm forması -s ilə düzəlir, məsələn: a radio-radios

Ancaq tək formada işlənən isimlər [1.s.26]

Müasir ingilis dilində elə isimlər vardır ki, onlar ancaq tək formada işlədilir.Bunlar aşağıdakılardan ibarətdir:

1.Sayıla bilməyən isimlər. Bura maddi və mücərrəd isim daxildir, məsələn: sugar, better, cheese, iron, water və s.

2.İngilis dilində advice, money, work, progress, information, knowledge isimləri ancaq təkdə işlənir. Azərbaycan dilində isə bunların qarşılığı həm təkdə, həm də cəm də işlənir.

3.Fruit, money və hair isimləri də təkdə işlənir.

Qeyd: 1.Fruit ismi müxtəlif növ meyvə bildirdikdə cəm formada işlənən bilir.

2.Hair ismi tük mənasında işləndikdə cəm formada işlənir

Ancaq cəm formada işlənən isimlər[1.s.28]

Müasir ingilis dilində bir qisim isimlər vardır ki, onlar ancaq cəm formada işlənir.Bu isimləri 2 qrupa bölmək olar.

1.2 eyni hissədən ibarət olan isimlər, məsələn: tongs, scales və s.

2.Topluluq bildirən isimlər.Bunlar da 2 yarımqrupa bölünür:

a)konkret əşya bildirənlər, məsələn: goods, clothes və s.

b)mücərrəd məfhum bildirənlər, məsələn: wages, contents və s.

Cəm formada olub təkdə işlənən isimlər[1.s.30]

Müasir ingilis dilində elə isimlər vardır ki, onlar formaca cəm, məna cəhətdən tək olur.Məsələn news ismi formaca cəmdir, lakin həmişə təkdə işlənir.Elm adları bildirən bəzi isimlər phonetics, physics, optics, lexics və s. -s şəkilçisinə malik olduğu halda təkdə işlədilir.Lakin elm adları praktik bilik mənasında işlədilərkən cəmlik bildirir.

Təkdə və cəmdə eyni formada işlənən isimlər[1.s.31]

Müasir ingilis dilində elə isimlər vardır ki, onlar eyni morfoloji formada həm təklik, həm də cəmlik ifadə edir.Bunlardır: sheep, swine, deer

Ədəbiyyat siyahısı:

1. Oruc Türksevər(Musayev), İngilis Dilinin Qrammatikası, Bakı-Qismət-2007, 608s
2. Güllü Məmmədova, English Grammar Rules and Exercises, Bakı, "Zərdabi-Nəşr" MMC. 2018, 424s

MUSAYEVA RÜFANƏ MÜŞVİQ QIZI

Təhsil 2 fakültəsinin tələbəsi

Elmi rəhbər: f.f.d., dos. Abdurahmanova Röya

Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ ƏVƏZLİYİN MƏNACA NÖVLƏRİ

Azərbaycan türkcəsində olduğu kimi,ingilis dilində də şəxsləri,əşyaları və ya onlara xas olan əlamət və keyfiyyətləri adlandırmadan bildirən nitq hissəsinə əvəzlik deyilir.Digər nitq hissələrində olduğu kimi əvəzliyində mənaca növləri vardır.Bunlar aşağıdakılardır:

1.Şəxs əvəzlikləri (Personal pronouns)

2.Yiyəlik əvəzlikləri (Possessive pronouns)

3.Qayıdış əvəzlikləri (Reflexive pronouns)

4.Qarşılıq əvəzlikləri (Reciprocal pronouns)

5.İşarə əvəzlikləri (Demonstrative pronouns)

6.Sual əvəzlikləri (İnterrogative pronouns)

7.Nisbi əvəzliklər (Relative pronouns)

8.Bağlayıcı əvəzliklər (Conjunctive pronouns)

9.Təyin əvəzlikləri (Defining pronouns)

10.Qeyri-müəyyənlik əvəzlikləri (İndefinite pronouns)

11.İnkar əvəzlikləri (Negative pronouns)

Müasir ingilis dilində mövcud olan şəxs əvəzliklərini kontekst və situasiya baxımından üç qrupa bölmək olar:

1)konkret şəxs bildirən əvəzliklər: I,you,she,he,it,we,you,they

2)qeyri-müəyyən şəxs bildirən əvəzliklər: you,we,they,one

3)şəxs bildirməyən:it

Şəxs əvəzlikləri ismi əvəzliklərin kimi işlənərək cümlədə mübtəda(1),xəbər(2),tamamlıq(3) olur:

(1)I make a great difference between people

(2)''Who is it?"-''it is I''

(3)You'll meet him if you dine there.

Azərbaycan türkcəsində fərqli olaraq, müasir ingilis dilində ayrıca qrup təşkil edən yiyəlik əvəzlikləri vardır. Nitqdə işlənmə baxımından ingilis dili yiyəılik əvəzlikləri iki yarımqrupa bölünür:

1)Yiyəlik əvəzliklərinin isimlə işlənən formaları

2)Yiyəlik əvəzliklərinin müstəqil (isimsiz) işlənən formaları

Birinci qrupa aid olan əvəzliklər bunlardır:

My,your,his,her,its,our,your,their

E.g my book,his pen etc.

İkinci qrupa aid olan əvəzliklər bunlardır:mine,yours,his,hers,our,yours,theirs.

E.g This book is mine

Müasir Azərbaycan türkcəsində olduğu kimi, ingilis dilində də qayıdış əvəzliyi adlanan xüsusi əvəzlik var.Bu qrupa daxil olan əvəzliklırin hamısı düzəltmə əvızliklərdir:birinci və ikinci şəxs tək və cəm qayıdış əvəzlikləri müvafiq yoiyəlik əvəzliklərinin,üçüncü şəxs tək və cəm qayıdış əvəzlikləri isə obyekt halda şəxs

əvəzlikərinin sonuna –self,cəmdə isə -selves morfemi artırmaqla düzəldilir, məsələn: myself, yourself, himself, herself, itself, ourselves, themselves,yourselves

E.g I suggested it myself

Müasir ingilis dilində iki qarşılıq əvəzliyi var:each other,one another

Each other adətən iki(1),one another əvəzliyi isə ikidən çox(2) şəxs və əşya arasında olan hərəkət və münasibətləri bildirmək üçün işlədilir,məsələn:

(1)I think we called each other friends

(2) Seated in a row close to one another were three ladies

Müasir ingilis dilində mövcud olan işarə əvəzlikləri bunlardır: this,that,same,such

Bu əvəzliklərin ilk ikisinin cəm formaları var:this-these,that-those

This məkanca yaxın, that məkanca uzaq olan şəxs və əşyanı bildirir.

E.g This book is mine; That pen is yours

Same işarə əvəzliyi müəyyənlik artikılı ilə işlənir, məsələn:it is the same book

Same işarə əvəzliyi Azərbaycan türkcəsində həmin yaxud eyni mənasını verir. Such işarə əvəzliyi Azərbaycan türkcəsində belə yaxud elə mənasını verir,məsələn:I have never seen such a picture

Müasir ingilis dilində aşağıdakı sual əvəzlikləri var: who, whose, what, which

Who əvəzliyi həmişə ismi əvəzlik kimi işlənir və canlı varlıqlara aid olur, məsələn:who is that man?

Whose əvəzliyi mənsubiyyət və sahiblik bildirir. O həmişə sifəti əvəzlik kimi işlənir və aid olduğu ismin bilavasitə qarşısında durur.məsələn:whose book is it?

What əvəzliyi həm ismi həm də sifəti əvəzlik kimi işlənir. O həm nə (1) həm də hansı(2) kimi tərcümə edilir.

(1) what has happened?

(2) what book did you buy ?

Which əvəziliyi seşmə mənasına malikdir; mövcud olan iki və daha artıq şəxs,yaxud əşyadan hansının münasib ya da lazım olduğunu soruşarkən işlədilir,məsələn:which boy do you want to train ?

Ədəbiyyat siyahısı:

1. Grammar rules and exercises, Güllü Məmmədova, Bakı-2020, 440s
2. İngilis dilinin qrammatikası, Oruc Türksevər (Musayev),Bakı-Qismət-2007, 608

Nəcəfli Leyla Ramil qızı
Təhsil 2 fakültəsi 124 qrup tələbəsi
Elmi rəhbər: ffd/dos, Röya Abdurahmanova
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ FEİLİN QEYRİ-MÜƏYYƏN ZAMAN FORMALARI

Azərbaycan türkcəsində olduğu kimi, ingilis dilində də iş, hərəkət və ya hal – vəziyyət bildirən sözlərə feil deyilir, məsələn: to work, to take, to lie, to complete Müasir ingilis dilində də feil mürəkkəb xüsusiyyətlərə malik olan nitq hissəsidir. O, malik olduğu qrammatik mənalar və həmin mənalar zəmnində mövcud mövcud olan qrammatik kateqoriyalar, onların ifadə üsulu və vasitələri baxımından digər nitq hissələrindən xeyli fərqlənir.

Qeyri – müəyyən Zaman Formaları (İndefinite Tense Forms)

Müasir ingilis dilində feilin xəbər şəklinin dörd qeyri – müəyyən zaman forması vardır:

1. İndiki zamanın qeyri – müəyyən forması (the present İndefinite Tense Form)
2. Keçmiş zamanın qeyri – müəyyən forması (the past İndefinite Tense Form)
3. Gələcək zamanın qeyri – müəyyən forması (the future İndefinite Tense Form)
4. Keçmişə nəzərən gələcək zamanın qeyri- müəyyən forması (The Future İndefinite in the Past Tense Form)

İndiki zamanın qeyri-müəyyən forması (The Present İndefinite Tense Form)

İndiki zamanın qeyri-müəyyən forması məsdərdən" to " ədatının atılması yolu ilə düzəldilir. Ancaq üçüncü şəxs feil -s (-es) şəkilçisi qəbul edir. Qalan şəxslərdə feilə heç bir şəxs şəkilçisi artırılmır, I bütün şəxslərdə eyni formada işlənir.

You speak, he speaks , we speak, they speak[2.s,74]

Feil o,s,x,z hərflərindən və ya ss,ch,sh,tch, hərf birləşmələrindən biri ilə qurtarsa, üçüncü şəxs təkdə feilin sonuna – es şəkilçisi artırılır, məsələn: (he) watches . (he) teaches. He goes to school every day, we rest in the willage every summer

İsimlərin cəmində olduğu kimi, burda da -s (-es) şəkilçisi özündən əvvəl gələn səsdən asılı olaraq üç cür oxunur:

1) sait və cingiltili samitlərdən sonra [z], məsələn , to see- he seez[2.s,74]
2) kar samitlərdən sonra [s] , məslən , to work- works[2.s,74]
3) fışıltılı səslərdən sonda [iz], məsələn : it passes [pa:siz] [2.s,74]

İndiki zamanın qeyri-müəyyən formasında feilin sual forması to do köməkçi feili vasitəsilə düzəldilir: sual formasını düzəltmək üçün mübtədadan əvvələ to do felinin müvafiq şəxs forması əlavə edilir.

Do I read? Do we read? Do you read? Do you read? Does he, she , it read ? Do they read? [1.s,144]

Feilin indiki qeyri-müəyyən formasının inkar şəklini düzəltmək üçün mübtədadan sonra to do köməkçi feilin müvafiq şəxs forması (do, does), sonra ilə not inkar ədatı əlavəedilir.

İndiki zamanın qeyri-müəyyən forması aşağıda göstərilən hərəkətləri bildirmək üçün işlədilir :

1) adət halını almış, təkrarən icra olunan hərəkətləri bildirmək üçün. Bu halda every morning, every day, every week, every year, usually və s. Məsələn: I do my morning exercises every morning [1.s,145]

2) Təbiət və cəmiyyətdə ümumi həqiqət olaraq baş verən hərəkətləri bildirmək üçün, məsələn: the sun rises in the East [1.s,145]

3) Haqqında danışılan şəxsi səciyyələndirən hal və ya hərəkətləri bildirmək üçün, məsələn: he sleeps soundly [2.s,75]

4) zaman və ya şərt budaq cümlələrində till, when, until, before, after, as soon as, if, unless, provided bağlayıcılarından sonra gələcək zamanda baş verəcək hərəkəti bildirək üçün, məsələn: I shall go to the cinema if she comes in time[1.s,153]

5) Gələcəkdə hökmən icra olunacaq hərəkətləri bildirmək üçün, məsələn: The train leaves in five minutes [1.s,154]

6) davamedici zaman formasında işlədilməyən feillərin (to see, to hear, to want, to recognise, to understand və s.) icra etdiyi hal- hazırda baş verən hərəkətləri bildirmək üçün, məsələn: I see a man in the gard

Keçmiş zamanın qeyri-müəyyən formasını düzəltmək üçün vahid qayda yoxdur. Bu baxımdan ingilis dilidə feillər dörd qrupa bölünür:

1) qaydalı feillər (regular verbs)
2) qaydasız feillər (irregular verbs)
3) qarışıq feillər (mixed verbs)
4) amorf feillər (amorphous verbs)

Qaydalı feillərin keçmiş zaman qeyri-müəyyən forması -ed suffiksi vasitəsilə düzəldilir.

I moved, we moved, you moved he/she/ it moved

Qaydalı feillərin keçmiş zaman qeyri-müəyyən formasını düzəldərkən aşağıdakı yazı qaydalarına riayət etmək lazımdır:

1. Feil y hərfi ilə qurtararsa və y-dan əvvəl samit gələrsə, y hərfi i hərfinə çevrilir: carrycarried
2. Feil samitlə qurtararsa və samitdən əvvəl vurğulu qısa sait gələrsə, son samit qoşalaşır : to sob- sobbed
3. Feilin sonu r hərfi ilə bitərsə və ondan əvvəl vurğulu sait gələrsə r hərfi qoşalaşır: to prefer – preferred

Qaydasız feillərin keçmiş qeyri müəyyən zaman forması müəyyən bir qayda əsasında deyil, müxtəlif yollarla düzəldilir. Keçmiş zamanın qeyri-müəyyən formasının sualı to do köməkçi felinin keçmiş zaman forması did vasitəsilə düzəldilir.

Did I ask? Did we ask? Did you ask? Did (s) he ask? [1.s,149]

1) ümumiyyətlə keçmişdə baş vermiş hərəkətləri, məsələn: i saw them the other day [2.s,77]
2) keçmişdə ardıcıl olaraq baş verən hərəkətləri, məslən: he lighted his cigarette, said good night, and went on [1.s,150]
3) Keçmişdə təkrarən baş verən, icra edilən hərəkətləei bildirmək üçün, məsələn: when I lived in the village, I washed in the river every morning.[1.s,150]

Keçmiş zamanın qeyri-müəyyən forması, bir qayda olaraq, yesterday, two days/weeks/months/ years və s. Ago, once, once upon a time, the other day, two days later və s. Zərf və zərf birləşmələri ilə işlədilir.

Gələcək zamannın qeyri-müəyyən zaman forması shall, will köməkçi feillərin və məsdər (to ədatsız) vasitəsilə düzəldilir.

He will be back tomorrow [2.s,79]

Gələcək qeyri-müəyyən zaman formasının sualı köməkçi feili mübtədadan əvvələ keçirməklə düzəldilir: shall I work? Shall we work ?Will you work[1.s,152]

Gələcək qeyri-müəyyən zaman formasının inkarı shall, will, köməkçi feillərin sən sonar not inkar ədatını əlavə etməklə düzəldilir: [1.s,154]

Gələcək zamanın qeyri-müəyyən zaman forması gələcəkdə baş verəcək, icra ediləcək hərəkətləri bildirmək üçün işlədilir.

Məsələn: I shall read this book in summer. I'll love you till the day I die (Braine)

Ədəbiyyat siyahısı

1. Oruc Musayev- Ingilis dilinin qrammatikası, Bakı- Qismət-2007, s. 608
2. Güllü Məmmədova- English grammar rules and exercises, Bakı-2020, s., 440

Əliyeva Gülşən İsmixan qızı
Təhsil 2 fakültəsinin 124 b qrup tələbəsi
Elmi rəhbər:f.f./dos. Röya Abdurahmanova
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ İSMİN MORFOLOJİ QRULUŞUNA GÖRƏ TƏSNİFİ

Azərbaycan türkcəsində olduğu kimi, ingils dilində də isim morfoloji qruluşuna və mənasına görə müəyyən qrupa bölünürlər ki, bunada ismin təsnifi deyilir. Morfoloji qruluşuna görə ingilis dilində isimlər aşağıdakı qrupa bölünürlər.[1.s.14]

· 1.Sadə isimlər: Yalnız bir kökdən ibarət olan isimlərə sadə isimlər deyilir.
Məsələn:a gril, a city, a man, a brid, a chair , a pen və s.
2.Düzəltmə isimlər: kök və suffikisdən ibarət olan isimlərə düzəltmə isimlər deyilir.
nees: darkness, ilness, sadness, laziness
ship: friendship, citizenship, membership, leadership
hood: childhood, motherhood, neighbourhood
dom: wisdom, freedom, kingdom, martydom
ment: development, movement, agreement
ese: chinese, Japanese
age: marriage, carriage, package, postage
ing: building, meeting, feeling, meaning
Prefixes(ön şəkilçilər)
dis: disagreement, disappearance
mis:misfortune, misbehaviour
un: unhappiness, unemployment
3.Mürəkkəb isimlər. İki və daha artıq kökdən ibarət olan isimlərə mürəkkəb isimlər deyilir.[1.s.15]
Məsələn: an apple- tree, a bluebell, a pikpoket, a dancing- girl

Bu qisim mürəkkəb isimlərin düzəldilməsində sözönü də iştirak edə bilər. Bu halda sözönü iki əsas sözün arasında durur. Bu qrupa daxil olan isimlər, bir qayda olaraq, defislə yazılır.

Məsələn: father- in- low, sister- in- low, editor- in- chief, commander- in- chief.

Müasir ingilis dilində mürəkkəb isimlər əsasən bir vurğuya malik olur.

Məsələn: bedroom[‘bedrum], classropm[‘kla:sru:m], headman[‘hedmən], headword[‘ hedwə:d].

Mürəkkəb isimlərə xas olan spesifik xüsusiyyətlərdən biri də ondan ibarətdirki, əksər hallarda mürəkkəb isimlərin mənadı onları təşkil edən komponetlərin mənasının məcmuna uyğun gəlmir. Bluebell, picpoket mürəkkəb isimlərində olduğu kimi.

Blubell mürəkkəb isimi iki sözdən əmələ gəlmişdir. Blue, bell brinci komponentin mənası mavi, ikinci komponentin mənası zəng deməkdir. Lakin iki sözün birləşməsi nəticəsində yaranmış mürəkkəb isim (bluebell) çiçək adıdır.

Picpoket mürəkkəb isimi də iki komponentdən, pick, poket sözlərindən ibarətdir. Birinci komponentin mənası götürmək, yığmaq, seçmək, oğurlamaq ikinci komponentin mənası isə cib deməkdir. Bu iki sözün birləşməsindən əmələ gələn isim (picikpoket) isə cibgir , cibkəsən deməkdir.

İngilis dilində mürəkkəb isimlər Azərbaycan türkcəsinə bəzən sadə, bəzən düzəltmə, bəzən mürəkkəb isimlərlə, bəzən də sərbəst söz birləşməsi ilə tərcümə edilir.[1.s.16]

dancing- girl- rəqqasə
pivkppket- cibgir
sunflower- günəbaxan
apple- tree- alma ağacı

Ədəbiyyat siyasısı:

1. Oruc Türksevər (Musayev) , İngilis Dilinin Qrammatikası, Bakı -Qismət - 2007,608 s.
2. Güllü Məmmədova, English Grammar Rules and Exerecise Bakı- 2018,368s.

Dadaşzadə Fidan Elçin qızı
Təhsil 2 fakültəsinin124 b qrup tələbəsi:
Elmi rəhbər: ffd/dos. Röya Abdurahmanova
Azərbaycan Dillər Universitetini

İNGİLİS DİLİNDƏ SİFƏTİN DƏRƏCƏLƏRİ

Müasir ingilis dilində əsli sifətlərin üç dərəcəsi var.
1) Adi dərəcə (the Positive degree)
2) Müqayisə dərəcəsi (the comparative degree)
3) Üstünlük dərəcəsi (the superative degree) [1. s .52]

Müasir ingilis dilində əsli sifətlərə xas olan əlamət və keyfiyyətlərin dərəcələri iki yolla ifadə edilir:

1)Sinetik yolla, yəni sifətlərin sonuna şəkilçi əlavə etməklə.

2)Analitik yolla, yəni sifətlərin əvvəlinə köməkçi söz əlavə etməklə.

Müasir ingilis dilində sifət adi dərəcədə heç bir morfoloji formaya malik olmur.

Məsələn: long, short, narrow, wide, yellow, black, cold, hot və s.

Sifətlər adi dərəcədə as……as, not so…..as bağlayıcıları ilə işlənərkən müqayisə olunan şəxs və ya əşyaların eyni dərəcəli keyfiyyətə əlamətə malik olduğunu bildirir.

Birhecalı sifətlərin müqayisıə dərəcəsini düzəltmək üçün onların sonuna –er, üstünlük dərəcəsini düzəltmək üçün isə -est, şəkilçisi artırılır.

Long- adi dərəcə, longer- müqayisə, longest- üstünlük.

"Y" hərfi və ya –er,-ow, -le, -ise hərf birləşmələrindən biri ilə qurtaran ikihecalı, eləcədə vurğusu son hecaya düşən ikihecalı sifətlərin də dərəcə forması sintetik yolla, yəni onların sonuna müqayisə dəəcəsində -er üstünlük dərəcəsində isə -est

şəkilçisi artırılır.

Adi müqayisə üstünlük

Hayyp happier happiest

Clever cleverer cleverest

Norrow norrower narrowest [1. s.53]

İkihecalı sifətlərin əksəriyyəti və çoxhecalı sifətlərin hamısının müqyisə və üstünlük dərcəsi analitik yolla, yəni müqayisə dərəcəsində sifətdən əvvəl more,

üstünlük dərəcəsində isə most sözü artırmaqla düzəlir.

Famous- adi, more famous-müqayisə, most famous-üstünlük.

Sifətin müqayisə dərəcəsində hər hansı bir şəxs və ya əşyanın başqa bir şəxs yaxud əşyadan keyfiyyətcə artıq olduğunu bildirilir. Bu halda than bağlayıcısından istifadə edilir. Bu bağlayıcı dilimizə -dan,- dən, şəkilçisi ilə tərcümə edilir.

My room is larger than yours- Mənim otağım sizinkindən daha gednişdir.

Azərbaycan dilində olduğu kimi ingilis dilində də üstünlük dərəcəsi əşya və ya şəxsin onun daxil onun daxil olduğu sinifdə ən yüksək keyfyyətə malik olduğunu bildirir.

The USA is the most democratic country in the world- ABŞ dünyada ən demokratik ölkədir.

Müasir ingilis dilində bir neçə sifət vardirki onların dərəcə formaları suppletiv yolla düzəlir. Yəni hər formada (adi, müqayisə, üstünlük) müxtəlif kökdön olan sifət işlənir.

Adi Müqayisə Üstünlük

Good-yaxşı better- daha yaxşı best-ən yaxşı

Bad-pis worse- daha pis worst-ən pis

Little- balaca less- daha balaca least-ən balaca

Ədəbiyyat siyasısı:

1. Oruc Musayev, İngilis dilinin qramatikası,Bakı-Qismət-2007, 580s
2. Güllü Məmmədova, English Grammar Rules and Exercises, Bakı-2020, 435s

Bəylərli Əzizə Elxan qızı
Təhsil 2 Fakültəsinin 124B qrup tələbə
Elmi rəhbər: f.f.d.,dos. Abdurahmanova Röya
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ İSMİN YİYƏLİK HALI

İsim əsas nitq hissəsi olub əşyalıq bildirir. Müasir ingilis dilində ismə xas olan əsas qrammatik kateqoriyalardan biri də hal kateqoriyasıdır. Azərbaycan türkcəsindən fərqli olaraq, ingilis dilində ismin yalnız iki halı vardır:

1) ümumi hal (the Common Case);

2) yiyəlik hal (the Genitive Case).

• İsmin yiyəlik halı (The Genitive Case of the Noun)

İngilis dilində ismin yiyəlik halı əsasən şəxs və əşya arasında mövcud olan yiyəlik, sahiblik əlaqəsi ifadə edir. Bu və ya digər əşyanın kimə məxsus olduğunu bildirir, məsələn: the boy's name, the worker's tools, the doctor's advice və s.

Müasir Azərbaycan türkcəsindən fərqli olaraq, müasir ingilis dilində yiyəlik halın işlənmə miqyası xeyli dardır, ingilis dilində bir qayda olaraq canlı varlıqları bildirən isimlər yiyəlik halında işlənir, məsələn:

The girl's dress – qızın paltarı, the woman's hat – qadının şlyapası, the commander's order – komandirin əmri [1.17].

A chair was brought for him from Bosinney's tent. -Bosinenin çadırından ona br stul gətirdilər.

Cansız varlıqları bildirən isimlər, bir qayda olaraq, yiyəlik halında işlənmir. Bu qəbildən olan isimlərdə sahiblik, mənsubiyyət mənası of sözönü ilə ifadə olunur, məsələn:

The leg of the table – stolun ayağı, the centre of the city – şəhərin mərkəzi.

1) Zaman bildirən isimlərlə, məsələn:

A moment's silence – bir anlıq sükut, bir anın sükutu, two day's leave-ikigünlük məzuniyyət, iki günün məzuniyyəti, yesterday's event – dünənki hadisə, dünənin hadisəsi.

2) Fəsillərin, ayların və günlərin adını bildirən isimlərlə, məsələn:

Summer's day, December's frost, Sunday's rest.

3) Ölkə və şəhər adları bildirən isimlərlə, məsələn:

Azerbaijan's peace policy-Azərbaycanım sülh siyasəti

London's beauty- Londonun gözəlliyi [1.18]

4) (the) sun, (the) moon, (the) earth, river, water, ocean, world, wind, city, town, ship, boat, vessel və s. sözlərlə, məsələn:

The sun's ray – günəşin şüası

The moon's surface – ayın səthi

The river's bank – çayın sahili

The world's population – dünyanın əhalisi

The wind's rustle – küləyin vıyıltısı

The city's view – şəhərin görünüşü

5) Today, tomorrow və yesterday zaman zərfləri ilə, məsələn:

Today's newspaper – bugünkü (günün) qəzet(i)

Yesterday's news – dünənki (dünənin) xəbər(i)

Tomorrow's work – sabahkı (sabahın) iş(i)

Ədəbiyyat siyahısı:

1. Oruc Musayev, İngilis dilinin qramatikası,Bakı-Qismət-2007, 580s
2. Güllü Məmmədova, English Grammar Rules and Exercises, Bakı-2020, 435s

Məhərrəmova Rəvanə Elnur qızı
Təhsil 2 fakültəsinin 124 B qrup tələbəsi
Elmi rəhbər: f.f.d./dos. Röya Abdurahmanova
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ MÜƏYYƏNLİK ARTİKLI VƏ ONUN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Azərbaycan türkcəsindən fərqli olaraq, İngilis dilində artikl adlanan köməkçi nitq hissəsi mövcuddur. Müəyyənlik artikli işarətmə mənasını bildirir. Müəyyənlik artiklinin nitqdə başlıca vəzifəsi ismə xas olan müəyyənlik kateqoriyalarını ifadə etməkdən ibarətdir. Müəyyənlik artiklı iki cür oxunur. Bu artiklin necə oxunması ondan sonra gələn isim və ya təyin rolunda işlənən sifətin sait, yaxud samit səslə başlanmasından asılı olur.

Konkret isimlər aşağıdakı hallarda müəyyənlik artikli ilə işlədilir:

1) eyni sinfə daxil olan konkret isimlərdən biri və ya bir neçəsi haqqında danışarkən, Məsələn:

The doctor shuddered. (Stevenson). The letter was closely writ-ten in pencil. (Voynich). "I like the skaters", I said,... (Braine) [2, s.54] .

2) vahid əşya bildirən isimlərin qarşısında, məsələn: The Sun rises in the Eastt. The sky was cloudless; the sun shone out bright and warm... (Dickens). Outside the Sun was shining, pale but warm. (Braine). The Moon hung low in the sky like yel - low skull. (Wilde) [2,s.55] . Qeyd: Vahid hesab olunan isimlərin müəyyən bir vəziyyətindən, halından söhbət gedərkən onlar qeyri-müəyyənlik artikli ilə də işlənir, məsələn: Some minutes later a brilliant Moon rose behind the clouds. Beyond the closed window the moon rose up, a full and brilliant moon... Galsworthy) [1, s.62] .

3) konkret isim təkdə işlənərək aid olduğu bütün sinfi təmsil edərkən (Generic Singular), məsələn: The cow is a domestic animal. The tiger is a wild animal. The lion is called the king of the forest [2, s.64].

Mücərrəd isimlər məhdudlaşdırıcı təyinə malik olarkən onların qarşısında müəyyənlik artikli işlənə bilir, Məsələn: The faculty for myth is innate in human race. (Maugham). The process of getting into the dining-room was a nightmare to him. (London) [3, s.41] .

Adam adları bildirən xüsusi isimlərlə aşağıdakı hallarda artikl işlədilir:

1) adam adı (soyadı) bildirən xüsusi isim bütöv bir ailəni təmsil etdikdə onun qarşısında müəyyənlik artikli işlədilir, Məsələn:

The Stricklands were an average family in the middle class. (Maugham). Family dinners of the Forsytes observe certain tradi- tions. (Galsworthy). The Thompsons had gone to the theatre and wouldn't return till late. (Braine) [3, s.42] .

2) müvəqqəti hal-vəziyyət bildirən təyinə malik olan xüsusi isimlərin qarşısında müəyyənlik artikli işlədilir. Bu halda təyin əsasən keçmiş zaman feli sifəti ilə ifadə olunur, Məsələn:

The surprised Brown said nothing. The startled Jolyon set down his barley water...(Galsworthy) [2, s.57]

Coğrafi adları bildirərkən xüsusi isimlərlə aşağıdakı hallarda müəyyənlik artikli işlədilir:

1) okean, dəniz, göl, kanal, çay adları bildirən xüsusi isimlərin qarşısında: the Atlantic Ocean, the Black Sea, the Caspian Sea, the Thames, the English Channel, the Baikal və s., Məsələn: When at Moscow Zoo, one sometimes feels that he is on the shore of the Atlantic Ocean. (Moscow News). After a fortnight beside the Lake of Lucerne Arthur and Montanelli returned to Italy... (Voynich) [5, s.112].

2) sıra dağ adlarının qarşısında: the Caucasus, the Alps, the Balkans, the Urals və s., Məsələn: I shall try to get up into the Alps for a little change. (Voynich).

2) bəzi ölkə, səhra və şəhər adları bildirən xüsusi isimlərin qarşısında: the United States (USA), the Crimea, the Caucasus, the Congo, the Sahara, the Hague və s., Məsələn: The sight-seeing came to an end at last, and so did our boys visit to the Hague. (Dodge) [2, s.68].

References:

1. Səadət Tapdıq qızı Nuriyeva. Exercises on English Verbals. Bakı-2016, 271 s.
2. Oruc Türksevər (Musayev). İngilis Dilinin Qrammatikası. Bakı-Qismət-2007, 368 s.
3. Mahir Həşimov. İngilis Dilinin Qrammatikası. Easy Qrammar Bakı.2019, 56 s.
4. Gullu Mammadova. English Grammar Rules. Morphology. Bakı-2020, 435 s.
5. Raymond Murphy ENGLISH GRAMMAR IN USE Fifth Edition CAMBRIDGE CB2 8BS, United Kingdom, 394 s.

Süleymanlı Sevinc İxtiyar qızı
Təhsil 2 fakültəsinin 124B qrup tələbəsi
Elmi rəhbər: f.f.d./dos. Röya Abdurahmanova
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ QEYRİ-MÜƏYYƏNLİK ARTİKLI

Qeyri-müəyyənlik artikli qədim ingilis dilində mövcud olmuş an (bir) sayından əmələ gəlmişdir. Bu artiklə xas olan say mənası bu gün də bəzi hallarda aydınca hiss olunmaqdadır. Bu xüsusiyyət qeyri-müəyyənlik artiklinin bəzi hallarda dilimizə tərcüməsində də özünü göstərir, məsələn:

Not a word did he drop that evening - O axşam o, bir(cə) söz də deməd[2,s.294].

For a week the Gadfly lay in fearful state - Bir həftə Qədflay ağır vəziyyətdə yatdı.

Qeyri-müəyyənlik artiklinin iki forması vardır: “a” və “an”. Bu formalardan hansının nə zaman işlədilməsi təsadüfi olmayıb, ondan sonra gələn sözün, ismin, yaxud onun təyini rolunda işlənən sifətin,

sait və ya samitlə başlanması şərtləşir: isim, yaxud onun təyini rolunda işlənən sifət samit səslə başlanarsa, qeyri-müəyynlik artiklinin a, saitlə başlanarsa, an forması işlənir, məsələn:

a table, a book, a large map, a red apple

an apple, an egg, an hour, an awful driver

Qeyri-müəyyənlik artikli, bir qayda olaraq, sayıla bilən tək isimlərlə işlədilir; cəmdə ismin qarşısında qeyri-müəyyənlik artikli işlədilmir, məsələn:

a spoon – spoons a table – tables

a plate – plates a chair – chairs

a ree – trees a fork – forks

Qeyri-müəyyənlik artiklinin işlənmə yerləri:

1. Əşyanın növünü, insanın peşəsini bildirən isimlər qarşısında "a/an" işlənir.

An apple is a fruit.

He is a student[1,s.21].

2. Yüz, min, milyon kimi sayların qarşısında "a" işlənir.

a hundred – 100[1,s.22]

a thousand – 1000

a million – 1000000

3. Tərif bildirən isimlərin qarşısında "a/an" işlənir.

A pen is for writing.

*Amma isim cəmdə işlənərsə artikl işlənmir.

4. Əşyanın bir hissəsini bildirən isimlərin qarşısında işlənir.

a cup of coffee

a piece of cheese

5. Səhər yeməyi (breakfast), lanç (lunch), nahar (dinner), şam yeməyi (supper), səhər (morning), günorta (afternoon), axşam (evening), gecə (night) sözləri və ilin fəsilləri (winter, spring, summer, autumn) artiklsız işlənir, lakin bu sözlərin qarşısında təsviredici sifət gələrsə "a/an" işlənir.

a tasty breakfast

a cold spring[1,s.29]

on a frosty night

on a hot morning

a lovely summer

6. Aşağıdakı sabit birləşmələr "a/an" ilə işlənir.

İn a hurry

To speak in a low voice

At an early age

To tell a lie

What a pity

As a result

İn a whisper

İt is a pleasure

To have a good time

A great deal

To take a fancy

To fly into a passion[2,s.308]

Half an hour

Ədəbiyyat siyahısı:

1. Grammar rules and exercises, Güllü Məmmədova, Bakı-2020, 440 s.
2. İngilis dilinin qrammatikası, Oruc Türksevən (Musayev), Bakı-Qismət-2007, 608 s.

Abbaszadə Tahirə Qalib qızı
Elmi rəhbəe b.müəl.Səfiyyə Bərmuzi Yusıf
Azərbaycan Dillər Universiteti

MÜASİR AZƏRBAYCAN DİLİNDƏ CERUNDUN QARŞILIQLI TƏHLİLİ

Cerund feilin şəxssiz formalarından biridir. Cerund həm isim, həm də feilin xüsusiyyətlərinə sahibdir. Azərbaycan dilində ona uyğun feil forması yoxdur, ama mənasına görə feildən düzəlmiş bir çox isimlər cerunda yaxındır.

Cerund istənilən bir feilin sonuna –ing şəkilçisi əlavə etməklə düzəlir: to run-running

Cerundun inkar forması not ədatı ilə düzəlir.

Sleeping at midnight-not sleeping at midnight (Gecə yarısı yatmaq-Gecə yarısı yatmamaq)

Cerund (verb+ing) və onun inkar forması (not+verb+ing) feil və sözönüdən sonra işlənir. Cerun cümlədə sözönülü birləşmə ilə, zərflə və tamamlıqla işlənir[1]

We listened to his reading all night (Bütün gecəni onun mütaliəsinə qulaq asdıq)

Cerund cümlədə predikativ, mürəkkəb feili xəbərin ikinci komponenti, təyin, tamamlıq və zərflik funksiyasında işlənir.

Mübtəda funksiyasında: Listening is biggest politeness (Dinləmək ən böyük mədəniyyətdir)

Bu funksiyada mübtəda cümlənin sonundada gələ bilər, bu halda it formal mübtədasından istifadə olunur.

It's no use talking about it (Bu haqda danışmaqın faydası yoxdur)

Predikativ funksiyasında:

Bu funksiyada cerund be feili ilə for, against və s. Sözönülərlə işlənir.

His favorite hobby was reading (Onun sevimli hobisi oxumaq idi)

Mürəkkəb feili xəbərin ikinci komponenti funksiyasında:

Bu funksiyada cerund finish, give up, go on,continue, begin, start,stop və s. feilləri ilə feili xəbər yaradır.

I stopped listening her after sleeping (Yatandan sonra onu dinləməyi dayandırdım)

Tamamlıq funksiyasında:

Vasitəsiz tamamlıq funksiyasında cerund mention, remember, mind, suggest və s. feillərindən sonra işlənir. Ex: l dont mind staying (Qalmağımın əleyhinə deyiləm)

Təyin funksiyasında:

Bu funksiyada cerund həmişə sözönü ilə işlənir.

There are different ways of solving this problem (Bu problemi həll etməyin müxtəlif yolları var)

Zərflik funksiyasında:

Zərflik kimi cerund həmişə sözönü ilə zaman və tərzi-hərəkət zərfliyi funksiyasında işlənir.

Zaman zərfliyi funksiyasında cerund after, before, on,in sözönləri ilə işlənir.

Additionally, there are another 4 types of particles.They are grammatical, adverb, discourse, negative particles. */ She and her sister walked up to the parking a lot//* “Up”is used as a participle to turn “walked” into a commonly- used saying- */ He found out the secret//* The addition of the particle “out” takes it to a colloquial phrase equal to “learned”. /*He wanted to go to the school//* The “to” the infinitive marker of the verb, is there to show the purpose of the verb. / *Well, who thinks they should work?//* “Well” is not necessary parts of sentence, but rather standard induction words to a sentence. / *I am not going to the conference this year//* “Not” falls outside of the common parts of speech, it is considered a particle. [3]

As it seems, the learning of this functional part of speech is very important in the teaching process. It is also used to emphasize our speech.

References:
1. Musayev O. A Practical Grammar of Contemporary English. Bakı, 2009.[1,p. 279-281]
2. В. Каушанская, Р. .Ковнер, О.Н.Кожевникова, Е.В.Прокофева, Э. .Райнес, С.Е.Сквирская, Ф.Я.Цырлина. [2, p. 222]
3. https://study.com/academy/lesson/the-particle-in-english-grammar.html

Hüseynli Qəribə Vasif qızı
Elmi rəhbər: f.f.d.,dos.Sevil Rəcəbova Mədət qızı
Azərbaycan Dillər Universitet

CERUND VƏ CERUND TƏRKİBLƏRİ

Müasir ingilis dilində feillər təsriflənən və təsriflənməyən olmaqla iki hissəyə bölünür. Təsriflənməyən feillər qrupu ingilis dilində "verbals" adlanır və bu qrupa məsdər, cerund və feili sifət daxildir. Bu feillər şəxsə,kəmiyyətə,şəklə və zamana görə dəyişə bilmirlər və ikili xarakterə malik olub iki nitq hissəsinin xüsusiyyətlərini daşıyırlar. Bu qrupdan olan cerund feilin sonuna "ing" hissəciyinin artırılması ilə formalaşır. Məsələn, speaking [2,s.112]

Cerund özündə həm ismin, həm də feilin xüsusiyyətlərini birləşdirir,ancaq daha çox ismin xüsusiyyətlərinə malikdir.

O.Musayev qeyd edir ki, cerundun cümlədə mübtəda, tamamlıq, təyin və zərflik vəzifələrində işlənməsi onun ismə aid xüsusiyyətlərindəndir. [1,s.209] Məsələn,

Crossing the river was a hard task./ She likes sitting in the sun. [1,s.209]

Cerund digər isimlər kimi söz önü ilə birlikdə işlənə bilir. Məsələn,

At least we succeeded in getting tickets. [2,s.112]

O.Musayevin qeydlərinə əsasən cerundun feilə aid xüsusiyyətlərinə onun zərflə təyin oluna bilməsi, zaman xüsusiyyətlərinə malik olması və təsirli feillərdən yaranan cerundların növ xüsusiyyətinə malik olması aiddir. [1,s.207-208] Məsələn,

She burst out crying bitterly [2,s.112]

She denied outright having been there. / writing, being written [1,s.208]

Cerund zamana görə dəyişə bilməsə də zamana xas xüsusiyyətlərə malikdir, yəni cümlədə əsas feildən əvvəl və ya sonrakı zamana istinad edə bilir və ya iki hərəkət də eyni zamanda baş verir.

Cerund birləşmələrini yiyəlik hallı isim və ya yiyəlik əvəzliyi ilə birgə işlənən cerund əmələ gətirir. Məsələn,

They are interested in my winning the contest [3]

G.Məmmədova qeyd edir ki, cerund tərkibləri mübtəda,tamamlıq, predikativ

təyin və zərflik sintaktik funksiyaları var və hər bir halda cümlənin mürəkkəb üzvü şəklində çıxış edirlər. [2,s.117] Məsələn,

His further consideration of the point was prevented by Richard's coming back to us in an excited state. [4,s.210]

Cerund və cerund tərkibləri ingilis dilində olduqca yayğındır və hər zaman dilçilərin geniş şəkildə araşdırdığı mövzulardan biri olmuşdur.

İstifadə edilmiş ədəbiyyat siyahısı
1. O.Musayev "A practical grammar of contemporary English" səh.208-209 Bakı-Qismət 2014.- 552 səh.
2. G.Məmmədova "English grammar rules and exercises" səh.112-117 Zərdabi-Nəşr 2018.-423 səh. 3. https://www.scribd.com/document/220919678/Gerundial-Constructions
3. Kauşanskaya V.L., R.L.Kovner."English Grammar" səh.210. St.Petersburg, 1973, s.320.
4. Nuriyeva.S.T.Cerund.Bakı.Təhsil, 2011, 272 s.

Məmmədova Xədicə Fazil qızı
Elmi rəhbər: f.f.d., dos. Sevil Rəcəbova Mədət qızı
Azərbaycan Dillər Universieti

MÜASİR İNGİLİS DİLİNDƏ SUAL CÜMLƏLƏRİ

Müasir ingilis dilində sual cümlələri yeni məlumatın əldə edilməsi və ya əldə olunmuş informasiyanın düzgün olub-olmamasını təsdiq etmək məqsədi ilə istifadə edilən cümlənin məqsəd və intonasiyasına görə növlərindən biridir. Adətən, sual cümlələri "WH" sual sözləri (məsələn, who, what, which, where, when, why, whose, how, how many and how much) ilə və "do,have, be" kimi köməkçi feillərlə düzəlir. Məsələn,

What did you do in the garden yesterday?/ Can we cross the river in the darkness? [1, səh.346]

İngilis dilində əsasən general,special və tag sual cümlələrinə rast gəlmək mümkündür. Special, yəni xüsusi sual cümlələri xüsusi sual sözləri ilə düzəlir və düşən tonla tələffüz edilir. Bu sual cümlələrdən ciddilik, məsuliyyət, təcililik və s. anlayışlarını bildirərkən istifadə edilir.Məsələn,

Where does your family live?/When the delegation arrive? [1,səh.344]

General, yəni ümumi sual cümlələri köməkçi feil və ya modal feillə başlayır. Bu cümlələrin cavabı hə və ya yox olur.F.Zeynalov qeyd edir ki [2,səh. 280], ümumi sual cümlələri qalxan tonla tələffüz olunur və hər hansı məlumat haqqında böyük maraq olarkən istifadə edilir. Məsələn,

Does it follow that he really performed the journey? Do you think it's as easy as all that to get to Iceland?[3, səh.40,53]

Tag adlanan sual cümlələri isə verilən informasiya və ya fikrə əlavə edilən cümlələrdir. Məsələn,

We forget the milk,didn't we? You aren't from Manchester,are you? [4]

Bu cümlələrdə əgər birinci hissə təsdiq formadadırsa, ikinci hissə ona uyğun olaraq inkarda işlədilməlidir.Əgər birinci hissə inkardadırsa, o zaman ikinci hissə təsdiq formada olur.

Sual cümlələrində söz ardıcıllığı da vacib qeydlərdən biridir. Söz ardıcıllığı sual cümlələrinin növlərindən asılıdır.O.Musayevin qeydlərinə əsasən [1, səh.345], ümumi sual cümlələrində ardıcıllıq predicate+subject+secondary parts of sentence, xüsusi sual cümlələrində isə subject+predicate+secondary parts olur.

Sual cümlələri müasir ingilis dilində mühüm əhəmiyyətə malik mövzulardan biridir.Tədris prosesi zamanı və danışıq dilində sual cümlələrini düzgün istifadə etmək lazımdır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. O.Musayev "A practical grammar and contemporary English" səh.344-346 Bakı-Qismət 2014- 552 səh.
2. F.H.Zeynalov, "Intonation of questions" səh. 280-281/ "Practical English phonetics" Bakı:Mütərcim,– 2020- 312 səh.
3. Jules Verne "Journey to the centre of the Earth" 2015 səh. 40, 43
4. https://www.studysmarter.co.uk/explanations/english/english grammar/interrogatives/
5. Bloch, M.Y. A Course in Theoretical English Grammar / M.Y.Bloch. Moscow: Vyssaya Skola, - 1983. - 382 p.

Həzrətquliyeva Nigar Rövşən qızı
Elmi rəhbər: f.f.d., dos. Rəcəbova Sevil Mədət qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ YİYƏLİK ƏVƏZLİKLƏRİ

Müasir ingilis dilində yiyəlik əvəzlikləri (Possessive pronouns) sahiblik və ya mənsubluq bildirmək üçün işlədilir. Əvəzliyin bu növünün iki forması var: isimli və ya asılı forma (Dependent/ Conjoint form) və isimsiz və ya müstəqil forma (Independent/ Absolute form). İsimli forma isimlərlə işlənir və bu isimlərin hansı şəxsə mənsub olduğunu bildirir. Həmin əvəzliklər bunlardır: my, your, his, her, its, our, your, their. Məsələn,

"Dr. Samuel Ferguson, one of her most glorious sons, will not reflect discredit on his origin." [3,s.3]

Yiyəlik əvəzliklərinin digər forması, yəni müstəqil forma isə isimsiz işlənir: mine, yours, his, hers, its, ours, yours, theirs. Məsələn,

“Perhaps this incredible proposition of his is only intended to mystify us,” growled an apoplectic old admiral. [3,s.5]

Bu əvəzliklər cümlədə müxtəlif funksiyalarda işlənir. İsimli forma cümlədə təyin, isimsiz forma isə mübtəda, xəbər və ya tamamlıq olur. Məsələn,

I shall miss my train. [5,s.48]

The land is ours. [5,s.49]

İsimsiz forma cümlədə mübtəda olarkən xəbər həm təkdə, həm də cəm ola bilər.

Bu ikisi arasındakı seçim (xəbərin tək və ya cəm olması) sahibin tək və ya cəm olmasından (məs. “mine” və “ours”) asılı deyil, burada əvəz olunan ismə baxmaq lazımdır [1]. Məsələn,

Her favorite color is purple, but mine is green. [1]

I know you’re a bit scared of dogs, but I promise mine are really friendly. [1]

Birinci cümlədə “mine” əvəzliyi “color” sözünü, ikinci cümlədə isə “dogs” sözünü əvəz edir. Buna görə də xəbər müvafiq olaraq təkdə və cəmdə işlənmişdir.

Eyni zamanda Lonqman Aleksandr “double genitive” adlandırılan qrammatik hadisədən də bəhs etmişdir [4,s.60]. Məsələn,

He is a friend of yours. [4,s.60]

Bu cümlədə mənsubluq anlayışı yaradan 2 söz işlənmişdir: sözönü “of” və yiyəlik əvəzliyi “yours”. Buna görə də “double genitive” olaraq adlandırılmışdır.

Raymond Mörfi qeyd edir ki [6,s.166], isimli forma “own” sözü ilə birlikdə də işlənə bilər. Bu zaman isimlə ifadə olunan əşya və s.-nin yalnız həmin şəxsə aid olduğunu bildirir. Məsələn,

I want to clean only my own room.

“Double genitive” strukturu ilə müstəqil forma işlənə bildiyi kimi asılı forma da işlənə bilər, lakin bu zaman “own” sözü işlənməlidir. Burda həmin əşya yalnız bir şəxsə aid olur. Məsələn,

“I’d love a flat of my own.” [2,s.215]

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. https://www.scribbr.com/nouns-and-pronouns/possessive-pronouns/
2. John Eastwood “Oxford Guide to English Grammar” səh. 215
3. Jules Verne “Five weeks in a ballon” səh. 3, 5
4. L.G. Alexander “English Grammar Practice” səh. 60
5. Oruc Musayev “A Practical Grammar of Contemporary English” səh. 48, 49 Bakı-Qismət 2011
6. Raymond Murphy “English Grammar in Use” səh. 166 Cambridge University Press Fifth Edition 2019

Məmmədova Leyla Etibar qızı
Elmi rəhbər: f.f.d., dos. Sevil Rəcəbova Mədət qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ FEİLİN SABCANKTİV ŞƏKLİNİN KEÇMİŞ ZAMAN FORMASI

Sabcanktiv şəkli müasir ingilis dilində geniş istifadə olunur.Sabcanktiv şəkli də özü 2 yerə bölünür: İndiki və keçmiş zaman forması.

Sabcanktiv şəklinin keçmiş zaman forması feilin xəbər şəklinin qeyri müəyyən keçmiş forması ilə forma baxımından oxşardır, lakin aradakı forma fərqi də nəzərə alınmalıdır.Ən əsas fərq to be feilinin işlənməsində özünü göstərir. Feilin keçmiş sadə zamanında istifadə olunan to be feili was/were olduğu halda, Sabcanktiv şəklinin keçmiş formasında isə şəxsin təkdə və ya cəmdə olmasından asılı olmayaraq sadəcə were forması istifadə olunur.Həmçinin feilin keçmiş sabcanktiv şəkli feilin qeyri müəyyən formasından fərqli olaraq reallığa zidd olan hərəkətləri göstərmək üçün istifadə olunur.Bu forma əsasən danışanın arzu və istəklərini ifadə edir, indiki yaxud da gələcək zamana istinad edir.Yəni biz bu şəklin istifadəsində “bu gün”, “sabah” və ya “gələn həftə” kimi zərflərin də işlənməsinin şahidi ola bilərik.Hətta Güllü Məmmədova qeyd edirdi ki, zaman uzlaşmasına feilin keçmiş sabcanktiv şəkli ilə işlənən budaq cümlələrində əməl olunmur. [3, səh 10]

Feilin Sabcanktiv şəklinin keçmiş forması əsasən aşağıdakı budaq cümlələrdə cümlənin budaq hissəsində istifadə olunur:

1.Qeyri-real şərt budaq cümləsində (digər adı ilə İf budaq cümlələrində)

The world would be healthier if every chemist's shop in England were demolished [2, səh 142]

2.Tamamlıq budaq cümlələrində "to wish" feilindən sonra

I wish I knew how to use computer [1, səh 171]

3. "As if", "as though" ilə təqdim edilən müqayisə budaq cümlələrində

She speaks about him as if she knew him well [2, səh 148]

4. "As if", "as though" ilə təqdim edilən xəbər budaq cümlələrində bağlayıcı feillərdən sonra məs.(to be, to feel, to seem, to look, to sound və s)

I feel as if we were back seven years. Jon [2. səh 149]

5. "Even if", "even though" ilə təqdim olunan güzəşt budaq cümlələrində

Even though it were late, I should go to see him [3, səh 12]

6. Təyin budaq cümlələrində it is time, it is about time, it is high time ifadələrindən sonra.Bu ifadələrdən sonra yalnız keçmiş sabcanktiv şəkli istifadə olunur.

It is high time we went home [2, səh 152]

Həmçinin keçmiş sabcanktiv şəkli "if only", "oh if", "oh" ilə təqdim olunan sadə cümlələrdə də istifadə olunur:

If only he were free [2, səh 141]

Bir məqama da nəzər salaq, Oruc Musayev qeyd edirdi ki, müasir ingilis dilində hal-hazırda keçmiş sabcanktivin təkində were əvəzinə was formasından istifadə daha aktualdır. [1, səh 172]

Feilin keçmiş sabcanktiv şəklinin istifadəsi müasir ingilis dilində çox əhəmiyyətli və zəruri bir mövzudur.Təlim prosesində bu mövzuya xüsusi diqqət yetirilməlidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. O.Musayev "A practical grammar and contemporary Engish" səh 171-172 Bakı 2014 540 səh.
2. В.Л.Каушанская ,Р.Л.Ковнер, О.Н.Кожевникова "ГРАММАТИКА АНГЛИЙСКОГО ЯЗЫКА" səh 138-155 Сдано в набор 15.04.2004 səh 324
3. G.Mammadova " English Grammar Rules and Exercises-2" səh 10-13 Bakı 2017 262 səh
4. https://langeek.co/en/grammar/course/40/subjunctive
5. A.T.Iriskulov "Theoretical English Grammar" Tashkent 2006 səh 6

Allahverdiyeva Leyla Zöhrab qızı
Elmi rəhbər:f.f.d.,dos.Sevil Mədət qızı Rəcəbova
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ SOME VƏ ANY ƏVƏZLİKLƏRİNİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Əsas nitq hissələrindən biri olan əvəzlik cümlədəki ismi əvəz edərək onun xüsusiyyətlərini daşıyır. Lakin hansı nitq hissəsini əvəz etməsindən asılı olmayaraq, cümlədə morfoloji cəhətdən əvəzlik olaraq qalır. Əvəzliyin əsas cəhətlərindən biri odur ki,o,cümlənin monoton şəkildə ifadə olunmasının qarşısını alaraq, daha təsirli olmasına yardımçı olur. Məsələn; The boy was very clever. He was a friend of my brother's.[1,s.43]

Qeyri-müəyyən şəxsi və ya əşyanı bildirən əvəzliklərə qeyri-müəyyən əvəzliklər deyilir. Qeyri-müəyyən (indefinite), bölüşdürücü(distributive)və kəmiyyət (quantitative) olmaqla bu əvəzliklər 3 qrupda cəmlənir. Qeyri-müəyyən əvəzliklər qrupuna aid olan some və any əvəzliklərinin bir sıra oxşar və fərqli işlənmə məqamları vardır.

Some bir neçə,bir az,bir qədər mənalarında işləndiyi zaman sayılan cəm ,sayılmayan tək isimlərlə və əsasən təsdiq cümlələrdə işlənir. Məsələn; They gave us some nice pictures/They have got some information on the subject. [1,s.75]

Some özündən sonra gələn sayılan ismi təkdə də qəbul edə bilər.Belə ki,əgər some əvəzliyi naməlum şəxs və ya əşyanı bildirərsə,bu halda ondan sonra gələn sayılan isim təkdə olur.Məsələn;Some boy has written the new words on the board.[1,s.75]

Bundan əlavə,some cümlədə təzad əmələ gətirmək məqsədilə də istifadə olunur. Məsələn; Some of us agree with the statement,some disagree.[2,s.359] Qeyd etdiyimiz kimi, some əsasən təsdiq cümlələrdə işlənir, ancaq some cümlədə xahiş, təklif bildirərək ümumi və xüsusi sual cümlələrində də işlənə bilər. Məsələn: Do you want some water ? [3,s.68]

Some əvəzliyi cümlədə "təxminən" mənasında tərcümə olunaraq istifadə oluna bilər.Məsələn;It happened some twenty years ago.[2,s.359]

Any qeyri-müəyyən əvəzliyi heç bir, hər hansı, hər hansı bir mənalarında sual və inkar cümlələrində işlənərək özündən sonra sayılan cəm və sayılmayan tək isim tələb edir.Məsələn;Did you see any books on the table?/He never had any luck .[1,s.76] Any əvəzliyi "daha" mənasında tərcümə olunaraq cümlədə dərəcə zərfliyi kimi də işlənə bilər.Məsələn;In spite of your advice, she isn't any the wiser.[2,s.361]

Any sual və inkar cümlələri ilə yanaşı təsdiq cümlələrində də istifadə oluna bilər .Belə ki , əgər any cümlədə "istənilən bir" mənasında tərcümə olunarsa,məsələn; You may take any book you like.[1,s.76] .Digər halda isə any şərt budaq cümlələrində və "if "və ya "whether"ilə ifadə olunmuş tamamlıq budaq cümlələrində işlənərək şübhə və ya şərt bildirərsə,məsələn;İf you have any free time,ring me up|I wonder if you know any of these boys.[1,s.76]

Some və any əvəzliklərinin cümlədə a noun-pronoun(isim-əvəzlik) və an adjective-pronoun(sifət-əvəzlik) kimi istifadə olunmalarına da rast gəlinir.İsim-əvəzlik kimi bu əvəzliklər cümlədə mübtəda və tamamlıq vəzifəsində, sifət -əvəzlik kimi isə təyin vəzifəsində çıxış edirlər.Məsələn;Some were drinking coffee(mübtəda)/You may take some(tamamlıq)/Is there any chance of seeing him ? (Təyin)[1,s.76]

İngilis dilində some və any əvəzliklərinin düzgün şəkildə istifadəsi vacib məsələlərdən biridir .Bu baxımdan, bu əvəzliklərin fərqləndirilməsinə və istifadə qaydasına diqqət yetirilməlidir.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. O.Musayev "A practical grammar of contemporary English" səh 43, 74-76 ,Bakı-Qismət 2014-552 səh.
2. I.P. Krilova E.M. Gordon ‘’A Grammar of Present-day English Practical Course’’ 1999.səh 358-361.
3. V.L. Kauşanskaya ,’’A Grammar of the English Language” 2004 , səh 6

Filologiya fakültəsi, Allahyarova Səidə Ramin q.
Elmi rəhbər: Fil.f.d., dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

X.L.BORXESİN “ŞEKSPİRİN YADDAŞI” HEKAYƏSİNDƏ MAGİK REALİZM

“Borxes deyirdi ki, danışmaq üçün cəmi dörd hekayə var: iki nəfər arasındakı sevgi hekayəsi, üç nəfər arasındakı sevgi hekayəsi, hakimiyyət uğrunda mübarizə və səyahət. Biz, bütün yazıçılar bu eyni hekayələri sonsuza qədər yenidən yazırıq”. Paulo Coelho [2]

XX əsrin məşhur yazıçılarından olan Xorxe Luis Borxes postmodern hekayələrin müəllifi kimi tanınır. Belə ki, məşhur argentinalı yazıçı, şair, publisist, tərcüməçi, ədəbiyyat tənqidçisi və esseist misilsiz simvolizm və düşündürücü mövzularla zəngin olan valehedici hekayələri və şeirləri ilə magik realizmə öz töhfəsini vermişdir. İspan dili ilə bərabər, ingilis dilini də çox yaxşı bilən Borxes hələ uşaqlıqdan təkcə U.Şekspirin deyil, H.Uellsin, L.Karollun, C.Q.Bayronun əsərlərini oxumuşdur.

“Şekspirin yaddaşı” hekayəsinin əvvəlində biz alman alim German Zyergellə tanış oluruq. O özünün yaradıcılığını Şekspirə həsr etdiyini deyir: “Maraqlanan oxucu bir vaxtlar Şekspir mətnlərini oxumaq üçün zəruri vəsait sayılan, ispan dili də daxil olmaqla bir neçə dilə tərcümə edilən "Şekspir xronologiyası" kitabımı vərəqləyə bilər”.[1, s.185] O, indi Şekspir konfransında tanış olduğu adamla başına gələn qəribə hadisəni oxucuya nəql edir. Həmin konfransda tanış olduğu Daniel Torp söhbət əsnasında ona “ilk uşaqlıq illərindən başlayaraq 1616-cı il aprelin əvvələrinədək Şekspirin bütün yaddaşını” təklif edir. Və həyatını Şekspirin axtarışına həsr etmiş, ona heyran olan baş qəhrəman buna razı olur. Belə ki, o, ilk gecəni yata bilmir və özünün tezliklə Şekspir olacağını, onun oxuduğu əsərləri xatırlayacağını düşünür: “Yox, faciələr, dolaşıq sonetlər yazmayacağam, amma gözümə cinlərin - axı onlar sevgi ilahələridirlər - və başqasının, mənə dəqiq misralar bəxş eləyənlərin göründüyü həmin məqamları xatırlamağı bacaracağam”. [1, s.189]

Yazıçı eyni zamanda Şekspir yaddaşında da hər birimizdə olduğu kimi, qaranlıq sahələr, qəsdən unudulmuş geniş ərazilər olduğunu bildirir. Alim bir dəfə burada günah duysa da, onu müəyyənləşdirməyə çalışmır. Əksinə, bildirir ki, dahi Şekspir bunu birdəfəlik edib və günahın iyrəncliklə əlaqəsi yoxdur.

Borxesin digər əsərlərində olduğu kimi, bu hekayədə də tez-tez paralel kainatlar və fantastika ilə reallıq arasındakı bulanıq xətlər görünür. Belə ki, hadisələr qəhrəmanın gözlədiyi kimi davam etmir: O, gecələr səslər, tanış melodiyalar eşidir, yuxularında tanımadığı, lakin tanış olan simalar görür. Çünki o təkcə Şekspirin əsərlərinə, sonetlərinə deyil, hiss və düşüncələrinə də malik olmuşdu. Bir müddətdən sonra hətta o artıq öz alman dilini də anlaya bilmir. Beləcə, baş qəhrəman yenidən öz yaddaşına qayıtmaq istəyir və tanımadığı nömrəyə zəng edib Şekspirin yaddaşını həmin şəxsə ötürür: "Spinoza yazırdı, dünyada hər bir şey özü olaraq qalmaq istəyir. Daş daş kimi, pələng pələng kimi qalmağı arzulayır. Mən yenidən German Zyergel olmaq istədim..." [1, s.192-193]

Belə ki, biz əsərdə ənənəvi fantastik elementlər görməsək də, Şekspirin öz əsərlərində çox vaxt fövqəltəbii elementlər var, məsələn, "Makbet"dəki cadugərlər və ya "Yay gecəsi yuxusunda" pərilər. Borxesin Şekspir haqqında müzakirəsi istər-istəməz bu sehrli mövzuları əhatə edir, oxucuları Şekspir ədəbiyyatının mistik dünyasına cəlb edir. Bundan başqa, yaddaşın müəmmalı təbiəti, baş qəhrəmanın birdən-birə Şekspirin yaddaşına malik olması əsas magik element sayılır.

Bu əsərdə magik elementlər və metafantastika birləşdirilməklə bərabər, intertekstuallıq da nəzərə çarpır. Belə ki, Zyergelin hekayəsində biz həm də Şekspir və onun şəxsi həyatını görürük: "Mən Enn Xetueyi, çox-çox illər əvvəl ilk dəfə məni Lyubekin otaqlarının birində sevgiylə tanış eləyən artıq yaşlaşmış həmin qadın kimi xatırlayacağam. Onun sifətini xatırlamağa çalışıram, amma yalnız ..." [1, s.189]

Son olaraq vurğulamaq lazımdır ki, dünyanı öz yazıları və perspektivləri ilə ovsunlayan X.L.Borxes intellektual oxucunu mətnlə fəal şəkildə məşğul olmağa dəvət edir.

Ədəbiyyat siyahısı:

1. Xorxe Luis Borxes. Seçilmiş əsərləri, Bakı, "Şərq-Qərb", 2014, 360 səh.
2. https://quotation.io/quote/borges-said-four-stories-tell-love-stor

Seyidova Jasmin
Elmi rəhbər:b./müəllim: Agamalyeva Cəmilə
Təhsil-1 fakultəsi, qr.111B
Azərbaycan Dillər Universiteti

ГРАММАТИЧЕСКАЯ КОНСТРУКЦИЯ СТРАДАТЕЛЬНОГО ЗАЛОГА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

В английском языке два залога-активный залог и пассивный залог. Активный залог указывает на то, что в предложении известен исполнитель действия.Страдательный залог указывает на то,что в предложении действие выполнено со стороны неизвестного нам лица. Страдательный залог образуется при помощи вспомогательного глагола to be+ Participle II: The letter is written.

Страдательный залог образуется в следующих временных формах:

Present Simple-am/is/are+ V3-Paper is made from wood.

Past Simple-was/were+V3-The radio was invented many years ago.

Future Simple-will be+V3-This box will be sent tonight.

Present Continuous-am/is/are+being+V3-The wall is being refueled now.

Past Continuous-was/were+being+V3-The exam was being taken yesterday morning.

Present Perfect-have/has+been+V3-The flowers have already been watered.

Past Perfect-had+been+V3-The police had been called before they ran away.

Future Perfect-shall/will+have+been+V3-The article will have been rewritten by tomorrow morning.

Примечание:Времена группы Perfect Continuous, а также The Future Continuous в пассивном залоге не используются.[3,s.138]

Использование страдательного залога:

1) Если исполнитель действия неизвестен:The meeting will be held tomorrow-Встреча будет проведена завтра.

2) С упоминанием исполнителя действия. Существительное или местоимение, обозначающее исполнителя действия, вводится предлогом «by»: This role was played by an actor - Эта роль была сыграна актёром.

3) В английском языке существуют глаголы,требующие дополнение с предлогом [2,s.151].К этим глаголам относятся:to speak about (of/to), to look at,to depend on,to rely on и т.д: He was spoken about during the meeting - О нём говорили во время встречи.

4) В английском языке есть глаголы,принимающие два дополнения-прямое и косвенное:to ask, to deny, to give, to order, to tell и т.д. В таких случаях возможны два способа образования страдательного залога: We gave her a bag: 1.She was given a bag. 2.A bag was given to her.

5) Конструкция с It как подлежащее, содержит страдательные глаголы, обозначающие умственное и физическое восприятие, приказ, просьбу.

Например: It was announced that our plane would cross the border in a few

hours-Было объявлено что наш самолёт пересечёт границу через несколько часов.

6) Модальные глаголы могут употребляться в пассивном залоге [1, s.94]: modal verbs+be+ V3:The medicine has to be taken by Tom.

Список литературы:

1. Mammadova G. English Grammar rules and Exercises Baki-2020.
2. Musayev O.i. A Practical Grammar of Contemporary English-2017.
3. Каушанская В.Л. A Grammar of the English Language. Баку-2013

Cümşüdova Aygün Yaşar qızı
Elmi rəhbər: F.f.d. Əlibəyova Zülfiyyə Fəxrəddin qızı
Azərbaycan Dillər Universiteti

AYAD AXTAR YARADICILIĞININ PROBLEMATİKASI

Ayad Axtar Pulitzer mükafatlı, tanınmış amerikalı dramaturq, yazıçı və ssenaristdir. Onun yaradıcılığı tez-tez şəxsiyyət, din və mədəni assimilyasiya ilə bağlı mürəkkəb mövzuları araşdırır. Fərqli işi ilə Axtar cəmiyyət normalarına meydan oxuyur və insan təcrübəsinin mürəkkəbliyi ilə üzləşir. Axtar Amerikada anadan olub və Viskonsin ştatının Milvaukee şəhərində böyüyüb. Ədəbiyyata marağı orta məktəbdə yaranmışdı. O, Braun Universitetində oxumuş, burada teatr və din sahəsində ixtisaslaşmışdı. Eləcə də tələbələrinin aktyorluq oyunlarına rejissorluq etməyə başlamışdır. "İçimizdəki savaş" ("The War Within") filminin ssenaristidir. Yazıçının ilk romanı olan "Amerikan Dərviş" 20-dən çox dildə nəşr olunmuş və Kirkus Reviews tərəfindən 2012-ci ilin ən yaxşı romanı hesab edilmişdir.

Axtarın işindəki əsas mövzulardan biri, xüsusən də bir çox mədəni və ya dini mənşəyə malik olanlar üçün şəxsiyyətin tədqiqidir. Axtar "Bədsiz" pyesində qərəz və ayrı-seçkilik qarşısında öz şəxsiyyəti və irsi ilə mübarizə aparan müsəlman-amerikalı hüquqşünasın üzləşdiyi çətinlikləri araşdırır. Bu şəxsiyyət mövzusu onun "Amerikalı Dərviş" romanında daha çox araşdırılır, bu roman gənc Pakistan əsilli amerikalı oğlanın Amerikada müsəlman tərbiyəsi ilə bağlı gedişini izləyir.

Din Axtarın yaradıcılığında başqa bir görkəmli mövzudur, çünki o, tez-tez müasir kontekstdə iman və mənəviyyatın mürəkkəbliklərini araşdırır. "Kim və nə" ("The Who and The What") əsərində Axtar müsəlman-amerikan ailəsində qızın ənənəvi inanclara və təcrübələrə qarşı çıxdığı zaman yaranan gərginliyi araşdırır. Dinin bu tədqiqi onun Pakistanda oğurlanmış amerikalı bankir və onu əsir götürənlərin üzləşdiyi əxlaqi dilemmaları araşdıran "Görünməz əl" pyesində də müşahidə edilir.

Mədəni assimilyasiya Axtarın yaradıcılığında təkrarlanan mövzudur, çünki o, fərdlərin çoxsaylı mədəni kimlikləri idarə etməyə cəhd etdiyi zaman yaranan çətinlikləri və münaqişələri araşdırır. Axtar özünün "Zərər: borcun qızıl dövrü" pyesində yüksək maliyyə dünyasını və kapitalizmin cəmiyyətə təsirini araşdırır, ənənəvi dəyərlərlə müasirlik arasındakı toqquşmanı işıqlandırır. Mədəni assimilyasiyanın bu mövzusu onun personajların öz mədəni irsini Amerika kimlikləri ilə uzlaşdırmaq üçün mübarizə apardığı "Kim və Nə" pyesində də aydın görünür.

Bütövlükdə, Ayad Axtarın işi şəxsiyyət, din və mədəni assimilyasiya ilə bağlı mövzuların düşündürücü tədqiqi ilə xarakterizə olunur. Axtar pyesləri, romanları və ssenariləri ilə tamaşaçıları öz inancları və qərəzləri ilə üzləşməyə çağırır, eyni zamanda insan təcrübəsinin mürəkkəbliklərini sürətlə işıqlandırır.

Ədəbiyyat siyahısı:

1. Sokolove, Michael (September 6, 2017). "Plunging His Pen Into the Dark Heart of 1980s Wall Street" . The New York Times. ISSN 0362-4331. Retrieved October 20, 2019.
2. Alter, Alexandra (January 6, 2012). "'Dervish' Whirls Into Publishing World". Wall Street Journal. Retrieved May 2, 2016.

Zamanova Aytac Zaur qızı
f.f.d.dos. Əliyeva Ülviyyə Çingiz qızı
Azərbaycan Dillər Universiteti

ŞON O'KEYSİ DRAMATURGİYASININ XÜSUSİYYƏTLƏRİ

Aydındır ki, cəmiyyət dəyişdikcə onun mimetik təmsili də dəyişməlidir. 1960-cı illərdə İrlandiyada sosial və texnoloji inqilab baş verdi. Tabu mövzuları araşdırılmağa başladı, cinsi əlaqə mövzusu dramaturgiyaya yeni, açıq vurğu ilə daxil oldu. 1970-ci illərdə təzyiq altında olan iqtisadiyyat və yeni təzyiqlər yaradan inflyasiya ilə işsizlik və məyusluq dramda əks olunmağa başladı, təbii ki, Şimali İrlandiyadakı siyasi vəziyyət Behan və O'Keysidən bəri kənarda qalan bir mövzunu yenidən gündəmə gətirdi.

Demək olar ki, burada əsaslandırmaq üçün yer olmasa da, 1980-ci illərin pyesləri indiyə qədər qeyd olunan bu müxtəlif mövzuları araşdırmışdır. Onilliyin sonunda torpaq və torpağa ehtiras mövzusu JB Kinin "The Chastitute" (1980), digər sonunda isə Ken Burke-nin "Vəhşi məhsul" (1989) əsərində görünür. Eynilə Frielin tərcümələri (1980) ilə başlayan onillik və onun siyasi təzyiq mövzusu Frank Mak Qinnesin "Karfagenlilər" (1988) əsəri ilə başa çatır. Desmond Forristalın " Kolbe" (1983) dini pyesi ilə Sebastyan Barrinin "Şerkinin duaları" (1990) dini mövzulu pyesləri ziddiyyət təşkil edirdi.

Şon O'Keysinin dramı, xüsusilə İngiltərədə yaşadığı dövrdə yazdığı pyeslər dramaturqun teatra yeni nəfəs və yeni prinsiplər gətirəcəyini açıq aşkar göstərir. Sonuncu pyeslərini sadəcə eksperimental əsər kimi qiymətləndirən O'Keysi belə nəticəyə gəlir ki, eksperimentə meyl etməsi onu əsas problemdən yayındırıb.

Teatra yeni nəfəs gətirdiyi üçün O'Keysinin İrlandiya teatrında tutduğu mövqeyi ona məsuliyyət hiss etdirirdi. O'Keys teatra Abbey Teatrının aktyorlarının digər şirkətlərdən daha yaxşı təbii aktyorluq imkanlarını nümayiş etdirdiyi zaman daxil olmuşdu. Lakin Şon O'Keysinin pyeslərində, o cümlədən Dublin pyeslərində insan motivlərinin və hərəkətlərinin tədqiqi qeyri-müəyyən olaraq keçici və tez-tez çaşdırıcıdır.

O'Keysin teatrının canlılığı onun xalqının ekstravaqant bir bütövlükdə həyatı necə qəbul etdiyini göstərmək üçün folklordan aktiv obrazlar çıxarmaq təcrübəsindən irəli gəlir. Realist və ya naturalist dramaturgiyanın konstruktiv vasitələrini bir kənara qoyaraq, o, dramaturgiyasına mürəkkəb faktura verən zəngin şifahi mədəniyyətdən çox istifadə edə bilir. İcra cəsarətini teatrın cəmiyyətin davamlı olaraq özünü yeniləmək yollarını necə axtardığını göstərmək üçün istifadə oluna biləcəyi inamı gücləndirir. Özünü yeniləmə və azadlıq arzusu O'Keysinin teatrını əhatə edir.

Ədəbiyyat siyahısı

1. David Krause, James Joyce Quarterly, VIII (1970), səh. 6 burada o, Samuel Beckettin bu texnikanı "dramatik dehiscence" kimi təsvirindən sitat gətirir.
2. Katharine Worth, The Irish Drama of Europe from Yeats to Beckett (London: The Athlone Press, 1978) səh.221-240
3. Michael OhAodha, Theater in Ireland (London: Basil Blackwell, 1974) s.77.
4. Michael OhAodha, Theater in Ireland (London: Basil Blackwell, 1974), s.112.
5. Robert Huqan və Sven Erik Mölln, red., Dram: Əsas Janrlar, Giriş Tənqidi Antologiya (Nyu York: Dodd, Mead 1962), səh. 34

Nağızadə Zəhra Ramil
Filologiya fakültəsi,
Elmi rəhbər: fil.f.d., dos. Gilə Hüseynli
Azərbaycan Dillər Universiteti

SAMUEL BEKKETİN "SÖZ VƏ MUSİQİ" ƏSƏRİNDƏ İNCƏSƏNƏTİN TƏZAHÜRÜ

İncəsənət insan hisslərini təsvir edən vasitə, şəxsiyyətin fəaliyyət modeli, dünyanın inikasıdır. İncəsənət dərk etməkdir, tərbiyədir, zövq verərək öyrədir. Eyni zamanda incəsənət insan tənhalığının xilaskarıdır. Bəzən elə düşüncələrimiz olur, elə hisslər yaşayırıq ki, onu ifadə edə bilmirik və ya izah etməyə çalışdığımız insanlar tərəfindən etinasızlıqla qarşılaşırıq. Lakin sənət sahəsindəki yaradıcılıqlarda, müəllifin aşılamaq istədiyi mənaları gördükdə bir növ daxili aləmimizin inikasını tapırıq. İncəsənət sahələrinin birgə məqsədi insan həyatına bələdçilik etməkdir. Mərkəzdə insan, onun əqli və nəfsi cəhətdən təkamülü dayanır.

Söz sənəti, təsviri sənət, musiqi sənəti qədim dövrlərdə sinkretik vəhdət təşkil etmişlər. Qədim dövrdə, epos mərhələsində söz hələlik musiqi və mahnı ilə birləşmiş şəkildə çıxış edir. Orta əsr intibah dövründə artıq parçalanmalar baş verdi, təsviri sənət ədəbiyyatı arxada qoydu. Yeni dövrlərə gəldikcə musiqi ilə söz sənəti də bir-birlərindən ayrıldılar. Yeni dövrdə artıq ədəbiyyat digər sənətlər arasında aparıcı mövqe tutmağa başladı. Kantın estetik fikrinə görə insanda tarixən fitri düşünmək, duymaq, seyr etmək, əhvalatı yaşamaq qabiliyyəti olmuşdur. Düşünmək poeziyanı, seyr etmək plastik sənətləri, duymaq musiqini yaratmışdır.

Əslən irland olan, modernizmin son, postmodernizmin isə ilk nümayəndələrindən sayılan, həmçinin absurd teatr janrında ədəbiyyata töhfələr verən, "Nəsr və poeziya sahələrində müasir insan faciəsinin onun zəfərinə çevrilməsini novatorcasına əks etdirən əsərlərinə görə" Nobel mükafatına layiq görülmüş yazıçı və dramaturq Samuel Bekket özünün "Söz və musiqi" əsərində bu vəhdəti təcəssüm etdirir.

Əsərin vahid süjet xətti yoxdur. Söz və musiqi alleqorik obrazlar olaraq çıxış edir. Onlar birləşərək bir əsər ortaya çıxartmağa çalışırlar. Hər biri özünəməxsus üslubu ilə hadisəyə yanaşıb, onu təsvir edirlər, buna görə bəzən öz aralarında konfliktlər yaşanır. Bizi əhatə edən bir sıra məfhumlar söz alleqorik obrazı tərəfindən təhlil olunur, onun monoloqunda sevgiyə olduqca dəyərli yanaşma görürük: "sevgi bütün hisslərdən üstün hissdir və sözün həqiqi mənasında heç bir başqa hissi sevgi hissi ilə müqayisə etmək olmaz, bu zaman ağıl öz fəaliyyətinin çox hissəsini həqiqətən də dayandırır". [4, s.282]

Biz burada müəllifin hisslərin necə də mükəmməl şəkildə sözlərlə ifadə olunduğunu göstərdiyinin şahidi oluruq. Sözün müntəzəm seçimini və ona istinadən musiqinin melodiyasının qarşılıqlı əlaqəsini görürük. Onlar birlikdə yaşın nə olduğunu bir kişinin gəncliyindəki bütün həyat sevincinin əks edildiyi, məftunedici simasının zaman keçdikcə necə də ağ və bozumtul sifətə çevrildiyini təsvir etməklə izah edirlər. Əslində bu şeir çox çətinliklə ərsəyə gəlir, mübtəda və xəbərin yeri, obraza uyğun əlamət və keyfiyyətlər, sentimental melodiya incəliklə, məharətlə seçilir. Musiqi bədii obraz kimi mövzu və musiqinin ehtiyatla ifadəsinə nəzarət edir, sözü dəvət edərək əlindəki dirijor çubuğu vasitəsiylə kompozisiyanı idarə və müşayiət edir. Elan edilmiş mövzuya uyğun səlis bir musiqi ifa olunur. Mətndəki bu təsvirlər söz və musiqinin müntəzəm şəkildə əməkdaşlığını əks etdirir. Onlar əməkdaşlıq şəraitində şeiri tamamlamağa çalışırlar. Bununla əsərdə şeir sənəti və şeiriyyət məsələsinə də toxunulur. Şeirin ibrətamiz olmasından əlavə onun əsas prinsiplərindən biri də sözlər arasında ahəngin, məna bağlılığının olmasıdır. Əsərin sonuna doğru bu alleqorik obrazlar yenidən öz işlərini davam etdirirlər. Musiqi obrazı deyir: "ya əvvəlki kimi, ya da minimal variasiyalarla davam edirik". [4, s. 290]

Ədəbiyyatın materialı məhz sözdür. Söz öz missiyasını xüsusilə bədii əsərlərdə mükəmməl şəkildə yerinə yetirərək hadisə, obraz və personajları təsvir və tərənnüm edir. Ümumilikdə incəsənət gerçəkliyin bədii əksi kimi görmə obrazlarında, məsələn, təsviri incəsənət və memarlıqda; səs obrazlarında, yəni musiqidə; sözdə, yəni ədəbiyyatda; həmçinin incəsənətin müəyyən növlərində sintez ilə məsələn teatr və kinoda təzahür edir. Qədim yunanlar musiqini tanrıların töhfəsi kimi qiymətləndirir, ona insanın qəlbini fəth edən ecazkar qüvvə kimi yanaşırdılar. Musiqinin insana təsirini araşdıran alimlər klassik musiqinin insana möcüzəvi təsirini müəyyən etmişlər. Samuel Bekket də bu və ya başqa bir neçə əsərində musiqi bəstəkarlığı düşüncəsini əks etdirib. Bekket yaradıcılığında hər yeni mərhələ əsərlərinin həcm etibarilə kiçilməsi daha da mürəkkəbləşməsi, rəmzlərin, simvol və alleqoriyaların daha da artması, üslubunun minimalistliyi ilə seçilir. Müəllifin bir çox dram əsərlərində olduğu kimi "Söz və musiqi" əsərində də bəlli bir süjet, ekspozisiya və final hissələri yoxdur, bu əsər vasitəsiylə bizə incəsənətin vəhdətini nümayiş etdirir.

Ədəbiyyat:

1. Abbas Hacıyev. Ədəbiyyatşünaslığın əsasları – Bakı, ADPU, 2005
2. https://az.m.wikipedia.org/wiki/incesenet nedir/
3. https://classiques-garnier.com/samuel-beckett-et-la-culture-francaise-ecouter-la-musique-de-samuel-beckett.html
4. Samuel Bekket seçilmiş əsərləri, Bakı, «Qafqaz», 2015

Xasməmmədova Zəhra Rəşad qızı
Elmi rəhbər: Fil.f.d, dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

EXAMINATION OF THE HUMAN CONDITION IN THE BOOK "THE HUMAN STAIN" BY PHILIP ROTH

"Learn, he told himself, before you die, to live beyond the jurisdiction of their enraging, loathsome, stupid blame". [1, p. 51]

"The Human Stain" is a profound novel examining various aspects of human life- social, political, educational, race, war, relationships, sex, morality through the story of a Classics professor Coleman Silk. The stain, a filth indicating viciousness of humanity finds expression in conventions, morales, religion, racism, politics, or in other inexplicable phenomenons of our life.

Revolt against the labeling of individuals and search for self-identity are aspects of the humane life explored in the novel. People like to classify others and diminish their whole existence to a one word. Coleman's life is the prime example of that. The main reason he felt dissillusioned and impelled to built his life on a lie of being white, was that he was summarised to being a Negro and nothing else while staying in Washington for university. He was not seen for who he is as a human being with unique soul but either as someone worthy of intolerance or a part of "we"- one more black in the struggle against racism, treated according the each party's morals. Then, Silky Silk decided to renounce his race and family by joining the military as a Jewish man, thus living his life as a Jew, dying as a Jew, never revealing his secret even to his wife and kids. There was also certain kind of enjoyment for him; playing a game of secrecy, holding ultimate power over his life. He wanted to be free; free from what handed down at birth, free from dead father's dominance, free from society's shackles- cease to being Das Man- the "they" surrendering one's existence to formless entity doing what they do and to surrender to the facticities- to a given family of a given culture and at a given moment of human history as stated by existentialist philospher M. Heidegger. [2] But even this idea of freedom is not without failings. Silk is so taken away that he denounces his loving affectionate mother and tricks his children despite the danger of ruining their lives. Furthermore, he had failed to take into account, though it was improbable to do so, the progressive nature of society and ever-changing history- inescapability of the "we". At the age of 71, after years of major contributions to Athena College and town, he was accused of racism against black students, always absent in his class, just because of the insignicant word he used "spooks". The time has changed, after civil rights movements the blacks were not in a disadvantegous situation in America. Suddenly he was reduced to being a racist white man, all his remarkable acts forgotten and ostracized by the very people he had helped in the past. Feeling immense rage like of Achilles, he resigned from his job as professor and shunned the society. Just the label itself was enough to serve as evidence and motif for a ridiculous offence.

Concerned by the state American society was in towards the end of the century, Roth showed how when millions people were suffering the most atrocious evils, the primary concerns to the Americans were the sexual lives of either president Bill Clinton or Colman Silk. This Puritan morality, strict adherence to conventions and cliches, wanting of imagination in the face of normalcy which is not natural to human existence, strong resentment to anything not appropriate is what condemns individuals and shackles their freedom. Those self-righteous personages that takes up majority of society, commit most crude and cruel acts in the name of justice. They put blame to someone because it works better for them, they oppress people because they can, they stay silent because there is something to gain, they accuse because they are jealous and bored. This the reality of wretched human existence. There is this filth in every one of us, the filth that whether we want it or not, shows itself in one way or another, embedded in our body, suffocating us and others around.

References

1. Philip Roth. The Human Stain. Boston, Houghton Mifflin Co, 2001
2. https://eternalisedofficial.com/2021/03/01/existentialism-explained/
3. https://www.enotes.com/topics/human-stain/themes

Nuriyeva Səbinə Rasim
Filologiya fakültəsi
Elmi rəhbər: fil.d.dos, Gilə Hüseynli Mehdi
Azərbaycan Dillər Universiteti

L.N.TOLSTOYUN "ÜÇ ÖLÜM" ƏSƏRİNDƏ XARAKTERLƏRİN DAXİLİ DÜNYASI

Müasirlərinin yalnız böyük yazıçı deyil, həm də filosof, mütəfəkkir, hətta rus xalqının peyğəmbəri hesab etdiyi Lev Nikolayeviç Tolstoyun adı tarixdə 100 ən çox öyrənilmiş şəxsiyyətlər sırasına daxildir. Məşhur "Hərb və Sülh" və "Anna Karenina" romanları ona böyük şöhrət gətirmiş, adı dünya ədəbiyyatı tarixinə qızıl hərflərlə yazılmışdır.

Lev Nikolayeviç Tolstoy əsərlərində insanlığın, demək olar ki, bütün problemlərinə toxunur. Xalqının yaradılışını, yaşayışını böyük ustalıqla təsvir edir. Onun yaradıcılığında rus xalqının ruhunu iliklərimizə qədər hiss edirik. Tolstoy yaşadığı illər ərzində mənəvi kamilliyə çatmışdır desək yanılmarıq. Maddi dünyadan uzaqlaşmış, həyatını mənəviyyata həsr etmişdir. Məhz yaşamın müvəqqəti, ölümün əbədi bir məfhum olduğunu əsərlərində dönə-dönə vurğulayırdı. Yazıçının "Üç Ölüm" hekayəsi bu baxımdan diqqəti cəlb edir. Tolstoy ənənəsinə sadiq qalaraq burada da insanlığa dərin mesajlar vermişdir.

"Üç Ölüm" əsərində eyni sonu yaşayan iki xəstənin ölümü gözləyərkən yaşadıqları, düşüncələri ən incə detallarına qədər canlandırılmışdır və onların bərabərində insanın səbəb olduğu üçüncü ölümün təsviri verilmişdir.

Hekayədəki zəngin xanım surəti bizə xəstəliyin ağırlığını, yaxınlaşan ölümün bum-buz nəfəsini hiss etdirir. O özü isə bu ölümdən qurtulmaq üçün çırpınır, məlum sonluğu qəbul etmək istəmir. Qadın yaşamaq üçün hər çarəni düşünür, ərini günahlandırır, ətrafındaki insanların laqeydliyinə nifrətlə baxır. Qulluqçusu Matryoşanın sağlamlığını qısqanır, onun güclü bədəni, gəncliyi xanımında kin doğurur. Taleyə duyduğu acını ətrafındakı hər kəsə hiss etdirir. Yaşamaq istəyi o qədər güclüdür ki, acı həqiqəti yaxına buraxmır. Bu hiss analıq duyğusunun da önünə keçir, övladlarını görməyə zəif əsəbləri tab gətirmir. Amma bütün bunlarla yanaşı ümid edir, sağalacağına inanır.

Yazıçı digər tərəfdə taleyə boyun əyən, kasıb, xəstə, ümidsiz Fyodor dayı obrazını yaratmışdır. Fyodor dayı hələ həyatda olarkən bir cüt çəkməsini məzar daşına dəyişir. Bu, əsərin bəlkə də ən ağrılı, ən həssas hissəsidir. Fyodor xəstəlikdən, bitmək bilməyən ağrılardan, birilərinə yük olmaqdan yorulub. Taleyi ilə barışaraq ölümü gözləyir. Onun nəinki yaşamaq üçün mübarizə aparmağa, heç islaq dodaqlarını silməyə belə gücü yoxdur.

Ömrünün son günlərində çəkmələrini istəyən, onun bir daha ayağa qalxmayacağını zalımcasına üzünə vuran dostundan incimir. Bəlkə də sevinir – məzar daşını özü qazandığı üçün. Yatdığı küncü belə özünə layiq bilməyən, vicdan əzabı çəkən Fyodor bu narahatlıq üçün Nastasyadan üzr istəyir. Tezliklə bu yeri boşaldacağını söyləyir – həm ocağın üstündəki, həm də bu dünyadaki yerini.

Fyodor dayı ölümlə barışır. Zəngin xanım sağalacağına ümid edir. Görəsən hansıdır xoşbəxtlik? Hansı daha az əzab çəkir? Bu obrazları bir-birindən fərqləndirən təkcə zəngin və ya kasıb olmaları deyil, həm də həyat eşqidir.

Əsərdə xəstə xanımın əri və Seryoja obrazları da diqqəti cəlb edir. Xəstənin əri onun sonunu bilir, amma arvadına duyduğu sevgi, dostluq və mərhəmət hissi həqiqəti söyləməyə mane olur. Bəlkə arvadı qədər deyil, amma o da əzab çəkir. Sanki o, əlindən bir şey gəlməməsinin ağırlığını, yükünü daşıyır. " – Onu fikrindən daşındırmaq üçün bəhanə etmədiyim heç nə qalmadı: Pul, uşaqların tək qalması, işlərim... Eşitmək belə istəmir. Sağlam biri kimi xaricdə yaşamaq planları qurur. Amma ona hər şeyi olduğu kimi demək onu öldürmək deməkdir" [1. Səh. 82]

Seryoja dərin düşüncələrdən uzaq, günlük problemləriylə yaşayan cavan bir kəndlidir. Oxucu onu laqeydlikdə, daş ürəkli olmasında günahlandıra bilər. Amma bunun onun cahilliyinə verək. Onun üçün təzə çəkmə dərdi bütün problemlərin önündədir. Fyodorun ölümündən sonra ona verdiyi sözə də əməl etmir. Qoca onsuz da bu dünyada yoxdur, daşın olub-olmamasının nə əhəmiyyəti?

Tolstoy yaratdığı obrazlarla həyatın acı həqiqətlərini oxucuya böyük ustalıqla çatdırır. İnsanların son nəfəsində də, ölüm ayağında da sinfi bərabərsizlik özünü göstərir. Dəyişməyən, bərabər olan yalnız ölümdür.

Ədəbiyyat siyahısı:
1. L. Tolstoy, "Üç Ölüm", Türkiyə İş Bankası Kültür Yayınları 2013.
2. https://www.britannica.com/topic/Three-Deaths
3. https://parlakjurnal.com/uc-olum-kitap-incelemesi-l-n-tolstoy

Nuruyeva Xəyalə İbadət qızı
F.f.d.,dos. Rəcəbova Sevil Mədət qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ TAMAMLIQ MƏSDƏR TƏRKİBİ

Müasir ingilis dilində 3 məsdər tərkibi mövcuddur:mübtəda məsdər tərkibi,tamamlıq məsdər tərkibi və "for" sözönülü(for-to infinitive construction) məsdər tərkibi.Tamamlıq məsdər tərkibi ümumi halda isimdən (və ya obyekt halda əvəzlik) və məsdərdən təşkil olunmuş tərkib əmələ gətirir. Bu tərkibi Azərbaycan dilinə tamamlıq budaq cümləsi, həmçinin mürəkkəb tamamlıq kimi tərcümə edə bilərik: He's a wonderful teacher and I've never seen him lose his temper or get angry about anything (Wilson) [1, s.235] O gözəl müəllimdir və heç vaxt onun özünü itirdiyini və ya nəyəsə əsəbiləşdiyini görməmişəm-tamamlıq budaq cümləsi

I felt somebody stand behind me. [2, s.191] Kiminsə arxamda dayandığını hiss etdim-mürəkkəb tamamlıq

Tamamlıq məsdər tərkibi aşağıdakı hallarda istifadə edilir:

1)to see,to feel,to hear, to notice, to observe, to watch və.s kimi hiss qavrayış bildirən feillərdən sonra: The police observed the man enter the bank [2,s.191] I heard him lock the door [3,s.220]

2)to think,to expect,to know,to consider, to believe, to trust, to suppose və.s əqli,zehni fəaliyyət mənasını verən feilllərdən sonra: We consider it to be our duty.[4,s.112] Do you imagine him to be able to work out this plan? [6,s.108] Everybody expected her to marry Pete. (Caine) [1,s.236] She thought him to to come in time.

3) İcazə, xahiş, əmr bildirən feillər:to order,to make,to permit,to allow,to let,to command və.s. Məsələn: You will allow me to see you again...?(Dickens)[5,s.255] Her sister made the child sleep early. Tom order his brother to be at home.

4) to want,to desire,to wish,to mean,to intend və.s.arzu,istək bildirən feillərdən sonra,məsələn:I want you to give me some information(London) [5,s.255] She desires me to stay with her[2,s.192] I wish you to be happy.

5) to pronounce, to declare, to report kimi feillərdən sonra:The surgeon pronounced the wound to be a slight one. [1,s.237]

6) Emosiya, hiss mənasını ifadə edən feillərdən sonra:to like, to dislike, to hate, to love, cannot bear və.s. Məsələn,

You know I hate you talk about that [6, s.108]

Məsdərin hər iki dildə (Azərbaycan və ingilis dilində) özünəməxsus xüsusiyyətləri vardır. Eyni zamanda tamamlıq məsdər tərkibi fərqli yollarla dilimizə tərcümə olunur.

İstifadə edilmiş ədəbiyyat siyahısı
1. V. L. Kauşanskaya, R. L. Kovner, O. N. Kozhevnikova, E. V. Prokofyeva, Z. M. Raines, S. E. Skvirskaya, F.Tsirlina"A grammar of the English language"Moskva,Ayris,2008-384 s.
2. Turksevər (Musayev) O.İ,E.I Hajiyev,A.R.Huseynov"A practical grammar of contemporary English'' Bakı-Qismət 2017- 552 s.
3. A.J. Thomson A. V. Martinet"A Practical English Grammar",Oxford University Press,-1986-383 s.
4. Elaine Walker,Steve Elsworth "Grammar practice" for upper intermediate students,Longman-2000-204 s.
5. M. A. Ganshina, N. M.Vasilevskaya"English grammar",Higher School Publishing House,1964-548 s.
6. G.Mammadova, English Grammar Rules and Exercises -1,"Zərdabi LTD"MMC,2013-368 s.

Əfruz Əmirova Ərəstun,
Filologiya fakültəsi, B21-341B
Elmi rəhbər: Fil.f.d,dos.Gilə Hüseynli Mehdi
Azərbaycan Dillər Universiteti

MURİEL SPARKIN "QARA MADONNA" ƏSƏRİNDƏ İRQİ AYRI-SEÇKİLİ

İngilis ədəbiyyatının tanınmış nümayəndələrindən olan Muriel Spark əsasən yazdığı hekayə və romanlarda öz əksini tapan satirik ünsürlərlə məşhurlaşmışdır. Onun bu qəbildən olan əsərlərindən biri də "Qara Madonna" hekayəsidir. Əsər Uitney Kley qəsəbəsinin kilsəsinə köhnə bataqlıq palıdından hazırlanmış yeni Qara Madonna heykəlinin gəlişi ilə başlayır. Qəsəbə sakinlərinin çox hissəsini katoliklər təşkil etsə də, heykəl digərləri tərəfindən də maraqla qarşılanır. Hər kəs öz arzusunun gerçəkləşməsi üçün Madonna heykəlinin yanına gəlib ona dua edir.

Hekayənin əsas personajları da övlad sahibi olmaq üçün Qara Madonnaya yalvarmaq üçün gələn Reymond və Lu Parker adlı katolik cütlükdür. Cəmiyyət içərisində öz dindarlıqları ilə seçilən cütlük öz ətrafındakılardan bununla fərqlənir ki, onlar qaradərililərlə "dostluq" münasibətindədir. Lu Tina Farrell ilə olan söhbətində rəfiqəsinin qaradəriləri irqçi və alçaldıcı ad altında ümumiləşdirməsinə qarşı çıxır. Lakin onların yamaykalı Oksford və Henriyə qarşı qeyri-səmimi fikirləri, ikiüzlülüyü yazıçı tərəfindən Roma Katolik dininin elementlərindən istifadə vasitəsilə üzə çıxır. Reymond və Lu özlərini əsl xristian alicənablığına sahib olduqlarını vurğulamaq məqsədilə özlərindən "fərqli" olanları da heç bir ayrı-seçkilik olmadan öz aralarına almışdır. Başqa bir nümunə olaraq Lunun öz qızını qaradərili olduğu üçün qəbul etməməsini də göstərə bilərik. Müqəddəs Məryəmdən fərqli olaraq, Lu həyatı İsa Məsih kimi əzab və alçaqlıq gətirə bilən uşaq böyütmək istəmir. Lu müqəddəs olmayan, əzab çəkmək istəməyən, bütün qəlbi ilə Qara Madonnaya dua edib arzuladığı övladını fərqli irqdən olduğu üçün rədd edən anadır.

Reymondun da həm öz övladına, həm də digər qaradərililərə qarşı baxış bucağı Lununkundan fərqlənmir. Belə ki, onlar üçün qaradərililərlə süni bir şəkildə dostluq etmələri problem olmasa da, qaradərili birinin onların ailəsinin bir parçası olması onlar üçün qəbuledilməzdir. Ona öz övladının qara dərili olması fikri məntiqə uyğun gəlməmiş, beləcə də ilk olaraq uşaqların diqqətsizlik ucbatından dəyişik düşdüyünü sonra isə öz həyat yoldaşının Oksford St. Con ilə ona xəyanət etdiyini düşünmüşdür. Hekayənin sonlarına doğru düyün açılır. Aparılan testlər körpənin Oksforda aid olmadığını sübut edir. Daha sonra Lunun bacısı Elizabet öz bacısına yazdığı məktubda onun vəziyyətinə heyfslənərək qeyd edir ki, onların Meri və Tomi (bu adlar eyni zamanda cütlüyün doğulmadan öncə körpəyə vermək istədikləri adlardır) adlı qohumlarının da qaradərili genetik xüsusiyyətlərinə sahibdir. Lakin ailənin öz körpələrinə olan münasibəti dəyişmir.

"Raymond Luya - "Elizabetin dediklərindən anladığım qədəri ilə ailənizdə qaradərili insanlar da var. Əlbəttə, bunu biləcəyini gözləməzdin. Amma yenə də bu mövzu haqqında bir növ qeyd aparılması lazım olduğunu düşünürəm"- dedi.

"Axx, kəs səsini- dedi Lu- körpə qaradərilidir və heç nə onu ağdəriliyə çevirə bilməz" [1, s. 1810].

"Qara Madonna hekayəsində Spark, ağ, qara və italyan rəftarlarını təsirli şəkildə əks etdirir, həyatın insanlar üçün əlçatan olan müxtəlif aspektlərini ortaya qoyur. Bu hekayədə o, əsl emosiyaları və yaradıcılığı sıxışdıran ənənələrin və ictimai normaların sərt sərhədlərinə görə qara personajlarla deyil, ağ personajlara təəssüf edir" [2, s.411]. Əsərdə bir neçə məqamda personajların ikiüzlülüyünü daha da aşkar etmək məqsədilə irqçi ifadələr və düşüncələrə yer verilib. Hekayə Madonna və körpəyə paralel istinadlarla qurulub. Belə ki, Qara Madonna heykəli və insanların ona olan marağının təsviri ilə başlayan hekayə qaradərili körpənin tərk edilişi ilə bitir.

Ədəbiyyat siyahısı:

1. 1.https://www.google.com/urlsa=t&source=web&rct=j&opi=89978449&url=https://acikders.ankara.edu.tr/mod/resource/view.php3Fid3D11982&ved=2ahUKEwjhuIC0s6mFAxVWA9sEHbHUAucQmuEJegQIBRAD&usg=AOvVaw2_pzg2_eAZCWSwrRNLsvnr
2. Patricia Joan Ann Stubbs. "The Treatment of Moral Values in the Üork of Four Contemporary Novelists: Graham Greene; Muriel Spark; Iris Murdoch; Doris Lessing", University College London, 1977. Page number: 411.

Əminə Mustafazadə Aqil qızı
Təhsil 1 fakültəsi
Elmi rəhbər:Fil.f.d.dos.Ü.Ç.Əliyeva
Azərbaycan Dillər Universiteti

MARQARET ETVUDUN "DAMAZLIQ QIZIN ƏHVALATI" ƏSƏRİNDƏ TOTALİTAR CƏMİYYƏT

XX-ci əsrin sonlarında bir çox yazıçılar tərəfindən feminist despotiya ilə bağlı əsərlər yazılmışdır. Bunlardan biri də kanadalı yazıçı Marqaret Etvudun parlaq zəkasının məhsulu olan "Damazlıq qızın əhvalatı" əsərində əvvəllər azad ölkənin azad qadınlarından biri olan Of-Fredin dilindən dini-totalitar, avtoritar rejimli dövlətə çevrilmiş Gilead respublikasındakı faciəvi həyatı təsvir edilir.Əsərin başlanğıcından onu Of-Fred olaraq tanıyırıq.Çünki Gilead respublikasında qadınların adı,demək olar,yoxdur.Hər bir qadın (xüsusən,damazlıq qızlar) kiməsə məxsus olaraq təsvir edilir:Of-Fred,Of-Qlen və.s."Adı Of-Qlendir və onun haqda bundan artıq heç nə bilmirəm"[1,s.34] Vaxtilə azad şəkildə (Of-Fredin dilindən desək) "Qorunmadan" gəzilən "Azadlıqlar" ölkəsində indi heç yerə mühafizəçisiz getmək mümkün deyil.Əsərdə dinin köklü bir şəkildə həyat tərzlərinə "təsir" etdiyi də aşkar görünür."Tanrı meyvəyə xeyir-dua versin" [1,s.33]Bir-birlərinə salam vermək əvəzinə onlar bu cür İncildən misal gətirilən dualarla görüşürdülər.[2]

Əsərdə göstərilən cəmiyyət Corc Oruellin "1984" kitabındakı totalitar cəmiyyətlə oxşarlığı var. Bu iki əsərdə də müəyyən qorxu propaqandalarla cəmiyyətə təzyiq edilməsinə rast gəlirik.Həmçinin, hər iki əsərdə cəmiyyət izlənilir. "Böyük Qardaş sənə baxır!" [3] Gilead respublikasında isə onları izləyən Gözlər var. "Bəlkə bu bir imtahandır,nə edəcəyimi görmək üçün. Bəlkə, o Göz idi."[1,s.32] Əsərin axırlarına yaxın Of-Fred üçün vəziyyət daha da gərginləşir.O artıq təhlükədədir. "Hər təzyiq rejimində olduğu kimi qadağalara qarşı bir müqavimətə rast gəlinir" [2] Bu müqavimət də elə yol yoldaşı Of-Qlenlə olan söhbətləri idi.Lakin bir gün Of-Qlen getmişdi. Və növbə Of-Fredə gələcəkdi.Onun üçün də gəlirdilər,artıq qaçış yox idi.Lakin gəldiklərində onu qurtaracağını deyən Nikə (Göz) inanmaqda tərəddüd edirdi.Hətta onu apardıqlarında ölümə mı yoxsa həyata mı qovuşacağını anlamırdı."Bunun son,yoxsa yeni bir başlanğıc olduğunu hardan bilim; özümü yadların əlinə təslim etdim çünki başqa çıxış yolu yox idi.Və beləcə içəridəki qaranlığa doğru qalxıram;ya da aydınlığa doğru" [1,s.423]Marqaret Etvudun bu əsərdə göstərmək istədiyi bir anın içində hər şeyin tərsinə dönəbiləcəyi və insanların azadlıqların bir bəhanə ilə yavaş-yavaş əllərindən alına biləcəyi və həmçinin qadınlar bu cür despotiyalarda necə qurban olabiləcəyi idi.

Ədəbiyyat siyahısı:

1. 1.Marqaret Etvud, "Damazlıq qızın əhvalatı" əsəri, "Qanun" nəşriyyatı,2022,448 səh
2. https://www.youtube.com/watch?v=1zIvvF_u62U
3. 3.Corc Oruell,"1984" əsəri, "Qanun" nəşriyyatı,2022,424 səh

Nağıyeva Aynur Azər qızı
Fil.ü.f.d., dos. Mehriban Oqtay qızı Mövlamova
Azərbaycan Dillər Universiteti

B.VAHABZADƏNİN "İKİNCİ SƏS" PYESİNDƏ DAXİLİ MONOLOQ

Müstəqillik dövrü Azərbaycan dramaturgiyasında mövzu və problematika baxımından olduqca maraqlı nümunələr yaradılmışdır. XX əsrin əvvəllərində dramaturgiyada mövcud olan mövzu istiqamətləri (tarixi, məişət və s.) bir qədər də inkişaf etmiş və lirik-psixoloji üslub dramaturgiyada daha sıx işlənməyə başlamışdır.

Şəxsiyyət problemi ədəbiyyatın bütün dövrlərində aktual məsələ olduğu kimi, lirik-psixoloji üslubda da üstünlük təşkil edir. Şəxsiyyətin daxili konflikti bu üslubun əsas məğzi kimi çıxış edir. İnsan xarakterinin açılması, onun mənəvi aləminə dərin müdaxilə dramatik sənətin mahiyyətini təşkil etdiyi kimi B.Vahabzadənin də dramatik yaradıcılığını səciyyələndirir.

B.Vahabzadə lirik-psixoloji üslubun geniş imkanlarından faydalanaraq dram əsərlərində oxucunun diqqətini, əsasən, şəxsiyyətin daxili aləminə yönləndirməyə çalışmışdır. İnsan mənəviyyatının öyrənilməsi, onun hislərinə dərindən nüfuz edilməsi B.Vahabzadə yaradıcılığının əsas qayəsidir. "İkinci səs" pyesində də müəllif bu mövqeyindən yayınmamışdır və obrazların hisləriylə əməli arasındakı təzadı bizə daxili monoloqlar vasitəsilə çatdırmışdır.

"Arzu: -Əlbəttə, əzablıdır, amma həyatın gözəlliyi də bundadır. Bəs sakitliyin, rahatlığın nəyi gözəldir? Həyatda ki, bir şeyin əzabını çəkmədin, nəsə bir şeyin həsrətiylə yaxılıb-yanmadın, o nə həyatdır?" [1, s. 9]

Bu fikirləri Arzunu digər obrazlardan mahiyyətcə fərqləndirir. Arzu müəllifin mövqeyini əks etdirən, onun çatdırmaq istədiyi ideyanı oxucuya öz əməliylə göstərən obrazdır. Çünki Arzu təkcə həyəcan, çırpıntı arzularıyla yaşamır, onun həm də vicdanının səsi, cəmiyyət qarşısında dərk etdiyi borcu var. Arzu obrazı məhz bu ziddiyətin içərisində təsvir edilmişdir. Bir yandan arzuladığı insanın məhəbbəti, digər yandan məsum körpə qarşısındakı vicdan borcu Arzunu özünün ikinci səsini dinləməsinə vadar edir.

"İkinci Arzu:- İkinizin haqqı bir qalıba sığmaz. Sənsə.. bir yerdə yaşaması mümkün olmayan iki şeyi bir yerə sığışdırmaq istəyirsən. Bax budur sənin faciən!" [1, s. 31]

Şəxsiyyətin daxili konflikti Rəşad obrazında da əks olunmuşdur. İkinci Rəşadın da səsi oxucuya əslində onun düşüncəsiz, özünüdərkdən uzaq obraz olmadığını göstərir. Rəşad da Arzu kimi sevdiyini, haqlı olduğunu, özünü düşünməli olduğunu, lakin əlindən bir şey gəlmədiyini iddia edir. Rəşadın ikinci səsi onun ailəsinin, cəmiyyətin və ən önəmlisi vicdanının qarşısında borcu olduğunu xatırladır.

"İkinci Rəşad:- Sevən heç vaxt özünü düşünməz, sevdiyini düşünər. Sən bir qadının xoşbəxtliyindən oğurlayıb o birisinə verirsən. Nəticədə, ikisi də bədbəxt olur. Bunu bilirsənmi?" [1, s. 27]

Hər iki obrazın daxili monoloqları onların cəmiyyət qarşısında borcları olduqlarını vurğulayır. Rəşad və Arzu nə qədər özlərini məhəbbətlərinə görə haqlı hesab etsələr də, vicdan borcu onların məhəbbətinə kölgə salır. Məsələ burasındadır ki, Rəşad Arzu qədər qətiyyətli deyil. Əvvədən sona qədər bu obraz daim daxili mübarizə içərisindədir və nə etməli olduğunu anlamır. Onun sondakı addımı da qətiyyətindən irəli gəlmir. Hadisələrin gedişi, Arzunun qətiyyəti onu sevgilisindən ayırmağa sövq edir.

Yaradıcılığının digər nümunələrində olduğu kimi "İkinci səs"də də biz B.Vahabzadənin mənəvi-əxlaqi problemi önə çəkməsini və vicdan, düzgün əqidə, borc hislərinin ehtiras hissinə qalib gəldiyini müşahidə edirik. "Xeyirlə şərin, ləyaqətlə çirkin ehtirasların, pisliklə yaxşının əbədi mübarizəsi onun pyeslərinin əsas məzmununu, məğzini təşkil edir" [3, s. 15]

B.Vahabzadə dramaturgiyasının əsas xüsusiyyətlərindən olan lirik psixoloji yanaşma "İkinci səs" pyesində xüsusilə qabardılmışdır. Əsas obrazların daxili monoloqları pyesdə ikinci səs formasında verilmiş və obrazların psixi-emosional durumlarının açılmasında aparıcı rol oynayır.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Azərbaycan dramaturgiyasının antologiyası. Dörd cilddə. III cild. "Şərq-Qərb", Bakı, 2007, 544 səh.
2. Qafarlı R. Bəxtiyar Vahabzadə. Əsərləri. IX cild. Bakı, "Elm" nəşriyyatı, 2009. - 814 s.
3. Səfiyeva F. Bəxtiyar Vahabzadənin dramaturgiyası. Bakı, "Nurlan", 2006,-144 səh

Nurushova Sura Tayyar
Scientific supervisor – Phd, associate professor; Rajabova Sevil Medet
High School, city- AUL

CLASSIFICATION OF SENTENCES ACCORDING TO TYPES OF COMMUNICATION

The sentence is a unit of speech that expresses a more or less complete thought and has a definite grammatical structure. Sentences can be classified according to 2 principles: 1.according to types of communication 2.according to structure According to types of communication they are divided into declarative, interrogative, imperative and exclamatory sentences. The sentences which are used to learn what we don't have information about or to clarify what we know are called Interrogative sentences. They may have different types such as Yes/No interrogatives, Alternative interrogatives, Wh-questions and Tag questions. A question which refers to the sentence as a whole and requires the answer yes or no is

considered a General question. It always begins with an auxiliary, a modal and a link verb. “May I open the window? Yes, you can”. A question related to any member of the sentence is called “wh-question” such as who, what, when, where, how well and so on. The word order of Special questions: The question word + auxiliary verb + subject + predicate. The answer given to Special questions may be different. For ex:

The answer of questions with “how often” must be used with “for” and “since”, but not in questions with “when”, “what time”, “how long ago”. Perfect tense form can`t be used in sentences with these question words.

Disjunctive questions are used to clarify the speaker`s doubt. “Do you come with me, don`t you?”. If the first part of the sentence is in an affirmative form, the second part is in a negative form or on the contrary. There are some examples: Nobody let him play outside, did they? Let`s work together, shall we? Don’t make any mistake again, will you? When there are 2 possibilities and it is required to choose one of them, Alternative questions are used.

“Have you drunk tea or juice?” There are also other types of questions: 1. In oral speech, not the word order of the interrogative sentences, but the word order of the declarative sentences is used and they are considered Declarative questions. “You are coming tonight?” 2. Reply questions are utilized to show the listener`s attention during the conversation. “We had a great time – Did you?” 3. Rhetorical questions are sentences that don’t require an answer and are used to make a point or produce a dramatic effect. “What`s in a name?” – (Romeo and Juliet, Shakespeare,1597). Exclamatory sentences are defined as a sentence containing an exclamation or strong emphasis”. For example: “You did a great job!”, “Oh my God! This song is amazing”. An imperative sentence issues a request, gives a command or expresses a desire or wish. For instance: “Hurry!, “Please do me a favor”. Imperative verb forms can be homonymous with non-imperative forms in sentences such as “Turn off the phones”, “On the way home, they took a wrong turn, because it was so dark to notice anything”.

Our spoken and written language contain entirely sentences and their various forms. Although depending on our aim of communication, we utilize different types of sentences, all of them are equally important. So, it`s important to know fully about their rules and carry out them correctly.

References:

1. Bəhram Zeynalov; English ABC Grammar; Bakı; 2018,[p85]
2. https://www.scribd.com/document/224131297/Interrogatives
3. Mələk Məmmədova, Dünyamin Yunusov; İngilis dilinin qrammatikası; Bakı; 2011,[p329,335]
4. Oruc Musayev; A Practical Grammar of Contemporary English; Bakı; 2011,[p292-294]
5. Oruc Musayev; İngilis dilinin qrammatikası; Bakı; 1996,[p248,249]
6. Oruc Musayev; İngilis dilinin qrammatikası; Bakı; 2007,[p358].

Abdullazadə Nigar Azər
Təhsil 1 fakültəsi
Elmi rəhbər: b/m Əliyeva Rəna Telman qızı
İngilis dilinin leksikologiyası və üslubiyyatı kafedrası
Azərbaycan Dillər universiteti

LEARNING ENGLISH WITH AI

In our globalized world, the ability to communicate across linguistic and cultural boundaries has become an increasingly essential skill. Being a universal language, English connects individuals and creates numerous opportunities. Imagine a world in which acquiring English is not limited to textbooks and educational settings. The place where your English tutor is always on call and prepared to help you at any time, any place.

Despite their immense popularity, language learning applications such as “Duolingo”, “Barbel”, and “Boozoo” have restrictions on their free versions. Therefore, using Chat GPT to learn English is a superior method of doing so. ChatGPT is driven by artificial intelligence so that it can comprehend and generate human-like texts. Chat Gpt can prepare a word list with its definitions, explain grammar rules, set various exercises, and translate any text, phrase, or word for you. Also, Chat GPT can correct your mistakes and explain to you the reason for the correct answer. To perform all these operations, it is enough to give a command to Chat GPT by typing [1,].

If you are struggling with pronunciation, the ChatGPT mobile app allows voice and audio inputs and responses, which are completely free. With the aid of some awesome Chrome extensions that you can get for free on the internet, this is completely possible [2,].

Despite the opportunities of AI listed above, however, it still cannot fully replace real human teachers. Because there is a personalized and emotional connection between humans. Real teachers can also make up special methods of learning for you. So, AI can be used as a support in the future of teaching.

Reference:

1. https://medium.com/@linguatrip/how-to-use-artificial-intelligence-to-learn-english-4dc4dccbccb
2. 2.https://medium.com/@rick.wayne.2022/chatgpt-act-as-a-english-pronunciation-helper-b6be0888539e

Mustafayeva Aygun Igrar
Faculty of education,
Scientific adviser: Khanbabayeva Dilara Rashid
Azerbaijan University of Languages

THE ROLE OF EXAGGERATION IN LINGUISTICS

The word has origins in the mid-16th century: from Latin exaggerat- 'heaped up', from the verb exaggerare, from ex- 'thoroughly' + aggerare 'heap up' (from agger 'heap'). The word originally meant 'pile up, accumulate', later 'intensify praise or blame', giving rise to current senses. Exaggeration is a literary technique which involves over emphasising something to cause a more effective response in the reader. Exaggeration plays a significant role in linguistics, affecting various aspects of communication, from everyday conversations to literary works and persuasive speeches. It is a type of figurative language, as it is used to create more vivid images in the mind of the reader than literal comparisons. For instance: The moon was so bright I needed sunscreen to avoid a burn!

Here are some key points illustrating the role of exaggeration in linguistics:

Emphasis and Intensification: Exaggeration is often used to emphasize certain points or intensify the impact of a statement. By overstating something, speakers draw attention to its importance or significance. For example, saying "I'm starving" to indicate hunger is a common exaggeration used to emphasize one's level of hunger.

Figurative Language: Exaggeration is a fundamental element of many forms of figurative language, such as hyperbole and metaphor. Hyperbole involves exaggerating statements for dramatic effect or to make a point more vividly. Metaphors often rely on exaggeration to create imaginative comparisons between two seemingly unrelated concepts.

Rhetorical Devices: In rhetoric, exaggeration is used as a persuasive technique to sway opinions or reinforce arguments. This may involve overstating the benefits of a product or idea, amplifying the consequences of a certain action, or magnifying the qualities of a person or thing to evoke a desired response from the audience.

Cultural and Linguistic Variation: Exaggeration can vary significantly across cultures and languages. What may be considered a humorous exaggeration in one culture could be perceived as offensive or inappropriate in another. Similarly, linguistic communities may have different norms and conventions regarding the acceptable use of exaggeration in communication.

In summary, exaggeration is a versatile linguistic tool with applications ranging from everyday conversations to literature, rhetoric, and humor. Its role in communication extends beyond mere embellishment, influencing how we express ideas, convey emotions, and persuade others. Understanding the nuances of exaggeration can enhance both our understanding of language and our effectiveness as communicators.

References:

1. https://en.wikipedia.org/wiki/Exaggeration
2. "Rhetorical Style: The Uses of Language in Persuasion" by Jeanne Fahnestock
3. "Pragmatics and the Philosophy of Mind" by Alessandro Capone
4. https://study.com/academy/lesson/exaggeration-definition-examples.html

Balaşlı Elmir Nicat oğlu
Elmi rəhbər: Fil.f.d Z.F.Əlibəyova
Azərbaycan Dillər Universiteti

F.DOSTAYEVSKİNİN " CİNAYƏT VƏ CƏZA " ROMANINDA RASKOLNİKOV FƏLSƏFƏSİ

F.Dostoyevskinin "Cinayət və Cəza" romanında R.Raskolnikov obrazı ədəbiyyatda ən mürəkkəb və maraqlı obrazlarından biridir. Heç təsadüfi deyil ki, bu ad rus dilində olan "raskolnik" sözündən götürülmüşdür, mənası isə "şizmatik", "bölünmüş" deməkdir, çünki obrazın əsas xarakterik xüsusiyyəti cəmiyyətdən uzaq mövqe tutmasıdır. Əsərdə başlıca problem "Bir insanı qatil olmağa nə məcbur edə bilər?!" sualıdır. Raskolnikovun xarakterik xüsusiyyəti rasionallıq və əxlaq arasındakı gərginliyi təcəssüm etdirir. Raskolnikov cinayəti işlədikdən sonra dərin təlatümlər keçirir, məyus olur və vicdan əzabı çəkir. Bəs bunlar kirayəçi qadının ölümünə şahidlik edən bacısını öldürdüyü üçün idi mi?! Axı o məsum idi. Bu sualın cavabını tapmaq üçün Raskolnikovun universitetdə yazdığı məqaləyə baxaq. Yenə bu məktubda da O, Hegelin fəlsəfəsindən yola çıxaraq insanları 2 yerə bölür:

1.Adi insanlar

2.Qeyri-adi insanlar

Onun məqaləsinə əsasən adi insanlar boyun əyərək yaşayırlar, qanunları çeynəməyə haqları yoxdur, çünki onlar adi insanlardır, onların həyat amalı özləri kimi insanların çoxalmasına xidmət etməkdir. Qeyri-adi insanlar isə təbiətcə yıxıcı, qanunları çeynəyən insanlardır, onlar hətta məqsədləri uğruna cəsətlərdən qan gölü düzəltmək icazəsini özlərinə rahatlıqla verə bilərlər. Raskolnikov belə nəticəyə gəlir ki, cəmiyyətdən seçilən və onlara deyəcək bir sözünün olması üçün mütləq cinayət işləməlisən. Məhz bu cinayəti işləməkdə Raskolnikovun başlıca məqsədi insanlara qeyri-adi insan olduğun isbatlamaq idi. O bunu bacarmamışdı, çünki etdiyi cinayətdən vicdan əzabı çəkirdi, halbuki onun düşüncələrindəki insan bundan zövq almalıydı . [1]

Dostoyevski və Nitşe XIX əsrin ən böyük dahilərindən idi. Hər iki görkəmli şəxsiyyət XIX əsr insanını düşdüyü bu dərin boşluqdan qurtarmağın yolunu ancaq özlərinin yeni bir yaşama sıçramayla ortadan qaldıra biləcəklərinə inanırdılar. Onlar eyni başlanğıc nöqtəsindən başlayıb eyni məqsəd uğrunda bir-birinə zidd yollarla mübarizə aparırdılar. Nitşeyə görə insanlar dini, əxlaqi, siyasi, milli-mənəvi dəyərlərdən qopmalıdır. Dostoyevski isə ekzistensial sıçrayışı insanların müasir zamanlarda unutduğu dini dəyərlərə qayıtmasında görürdü. Dostoyevski Raskolnikov obrazı vasitəsilə bu ideyalarını qabarıq şəkildə təsvir edirdi. Raskolnikov qətildən əvvəl passiv nihilist düşüncələrlə yaşayırdı, onu aktiv nihilizmə keçirəcək hadisə isə kirayəçi qadını öldürməsi idi. Onu bu qərarı həyata keçirməkdə tərəddüd etdirən şey bu qətlin hüquqən cinayət, dini baxımdan günah, əxlaqi cəhətdən pis olub-olmaması deyildi, o bu qüdrətə sahib olub olmadığından əmin deyildi. Təbii ki bu əminsizlik onun qeyri-adi insanlardan olub-olmaması qayğısından doğurdu. Burada onun alacağı qərara əsasən ya yenidən doğulub başqa biri olacaq, ya da adi, sıradan biri olaraq cəmiyətə geri dönəcəkdi. [2]

Raskolnikovun cinayətdən sonrakı halı bizə şəxsiyyətilə bağlı gerçəkləri öyrənməyimizə kömək edir. Əvvəlcə cinayət qabağı özünə etdiyi motivasiyaların heç də güclü olmadığını görürük. Nə maadi, nə də əxlaqi motivasiyalar özünü bu cinayət baş verəndən sonra əzab çəkməsinin qarşısını ala bilməmişdir. Sonya kimi digər personajlarla qarşılıqlı əlaqəsi onun daxili təlatümünü daha da artırır, onun sarsılmaz inamı və mənəvi aydınlığı nihilist dünyagörüşünə meydan oxuyur. Nəhayət, Raskolnikovun etiraf etmək qərarı onun insan həyatına xas dəyərini etiraf etməsini və bir vaxtlar onu yeyən nihilist ideologiyanı rədd etməsini əks etdirir. [2]

Ədəbiyyat siyahısı:

1. Dostoyevski Fyodor Mixayloviç.Cinayət və Cəza.Bakı, "Öndər nəşriyyatı", 560 səh.
2. https://fraza.az/az/news/read/285

Şirəlizadə Pərvin Azər
Elmi rəhbər: Fil.f.d, dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

ALEKSEY SALNİKOVUN "PETROVLAR AİLƏSİ" ƏSƏRİNDƏ AİLƏ DƏYƏRLƏRİ PROBLEMİ

Rus şairi və nasiri olan Aleksey Borisoviç Salnikov 1978-ci ildə Tartuda anadan olmuşdur. Salnikov 2000-ci illərin əvvəlində regional Ural mətbuatında ilk şeirlər toplusunu nəşr etdirmişdir. Müasir rus ədəbiyyatının nümayəndəsi olan Salnikov əsərlərindəki aktual mövzulu sujet xətləriylə, yumoristik səhnələrlə, qəhrəmanların fantastik dünyalarıyla tez bir zamanda oxucular arasında populyarlaşmağı bacardı və sevimli bir simaya çevrildi. 2017-ci ildə yazdığı "Petrovlar ailəsi" romanı istər qəzet və jurnallarda, istər ədəbi tənqidçilər arasında böyük ədəbi uğur qazanmışdır. Romanda baş verən hadisələr dərin bədii elementlərlə zəngindir. Bəs yazıçının adını ədəbiyyatsevərlər arasında məşhurlaşdıran bu roman nədən bəhs edir?

Roman avtomobil ustası Petrov və ailəsinin həyatından bəhs edir. Petrov yeni il ərəfəsində ağır qripə yoluxur. Bu qripdən yoldaşı və oğlu da əziyyət çəkir. Əsrlər boyu davam edən ənənəvi ailə dəyərləri Petrovlar ailəsində mövcud deyildi. Ailə məsuliyyəti, ailə sevgisi, bir-birinə bağlılıq bu ailənin fərdləri üçün yad idi. Petrov və yoldaşı boşanmış olsalar da birlikdə yaşamağa davam edirdilər. Hansı boşanmış qadın boşandığı şəxslə yenidən birlikdə qalsın ki? Əslində bu vəziyyəti Petrovun özü belə anlaya bilmirdi. Amma ailəsinə qarşı soyuqqanlı olduğu üçün bunu soruşmağı heç düşünməmişdi.

Romanı oxuyarkən görürük ki, boşanmalarının əsas səbəbi Petrovanın özündə olan əsəb problemi ilə əlaqəli idi. Onun öhdəsindən gəlməkdə çətinlik çəkdiyi psixoloji problemləri vardı. Petrova yoldaşına zərər verməkdən qorxduğu və zərər vermək istəmədiyi üçün onu özündən uzaqlaşdırmışdı. Ailədə dəyərlərin düzgün formalaşmamasında həm Petrovun, həm də Petrovanın günahı var. Petrov uşaqlıq vaxtlarını xatırlayarkən onun heç də normal keçmədiyini görürük. Uşaq vaxtından ailənin nə olduğunu bilməyən bir kəsdən böyüyəndə öz ailəsinə qarşı nə qədər mükəmməl olmasını gözləyə bilərik? Həmçinin psixoloji problemləri olan Petrova öz ailəsinə nə qədər dəyər verə bilərdi ki?

Bu ailənin bir oğlu var. Valideynlərin ailə anlayışından bixəbər olması, təəssüflər olsun ki, övladlarıyla münasibətlərində də özünü göstərir. Uşaqlarına qarşı münasibətdə heç də bir valideynin uşağına göstərdiyi sevgi, qayğı, nəvaziş yox idi. Uşağa qarşı daim laqeyd münasibətdə idilər. Hətta Petrovun yoldaşına qarşı diqqəti uşağına qarşı olan diqqət və önəmindən qat-qat üstün idi. Uşağın həqiqətən xəstələnməsinə baxmayaraq ata-anası onun yalandan özünü xəstə kimi apardığına inanırdı. Uşağı öz uşaqları kimi görmür, ona yad biri kimi davranırdılar. Öz canları, öz istək və düşüncələri onlar üçün hər zaman uşaqlarından artıq idi. Uşaq qızdırma içində olarkən evdə istifadəsi keçmiş dərmanı vermələri belə uşaqlarına qarşı necə laqeyd olmalarını sübut edir. "Aspirindir, əlbəttə, amma çox köhnədir, bəlkə də, mənimlə yaşıd olar, az qala yetmişinci illərdən qalıb" [1, səh. 300].

Petrovanın qəlbinin dərinliklərində əslində oğluna qarşı sevgi var idi. Amma sevgisini göstərməyi lazımsız hesab etdiyi üçün bu sevgini sanki boğmağa çalışırdı. Uşaq televizora baxa-baxa anasını qucaqlayan zaman onda fərqli duyğular yaranmışdı. Petrovun uşağına qarşı vicdan əzab çəkməsini romanın sonlarına doğru görə bilirik. Uşağa dərman verdikdən sonra gecəyarısı Petrov uşağın nəfəs almadığını görür. Həmin an onun keçirdiyi hissləri özü belə sözlə ifadə edə bilmir. Uşağının özünü xəstə kimi aparmadığını, həqiqətən xəstə olduğunu anladığı andan etibarən vicdan əzabı çəkməyə başlayır.

Roman hal-hazırda öz aktuallığı ilə seçilir. Təəssüflər olsun ki, ailə dəyərlərinin önəmsiz olduğunu düşünən, ailəsi mehribanlıq, sevgi, qayğı olmadığı üçün dağılan bir çox ailə indiki dövrümüzdə də kifayət qədərdir.

Ailəmizi seçmək mümkün olmadığı üçün bəziləri üçün bu dəyərlər ənənə olaraq nəsildən-nəslə keçmir, şəxs bu dəyərləri heç də asan qazanılmayan həyat təcrübələri nəticəsində özü formalaşdırmalı olur. Əsas olan isə mümkün olduğu qədər bu dəyərləri önəmsəmək və mənimsəməkdir.

Ədəbiyyat

1. Salnikov A. Petrovlar ailəsi. Bakı: 2023, 384 səh.
2. https://www.sciencedirect.com/science/article/abs/pii/S0304347923000091
3. https://www.swr.de/swr2/literatur/alexei-salnikow-petrow-hat-fieber-100.html

Rzayeva Sevinc, 120B
Elmi rəhbər: B. m. Arzu Səlimova
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNİN SUAL CÜMLƏLƏRİNDƏ SÖZ SIRASI

Ünsiyyət vasitəsi olan nitqin əsas vahidi sözdür. Məlum olduğu kimi cümlə, bir və ya bir neçə sözdən ibarət olub bitmiş fikir bildirir. Cümlə bir neçə sözdən ibarət olanda onun tərkibindəki sözlər müəyyən qayda-qanun əsasında sıralanır. Buradan da söz sırası anlayşı meydana çıxır. Bu da hər hansı dildə, o cümlədən ingilis və Azərbaycan dillərində sözlərin cümlə yaradacaq formada düzülməsinə deyilir. Ünsiyyət yaratmaq üçün insanlar müxtəlif məqsədli fikirlər ifadə etməli olurlar, bu və ya digər həyat faktı haqqında məlumat verir, onun haqqında soruşur, yaxud da onu əhatə edən aləmdən aldığı təsirə cavab olaraq öz hiss-həyəcanlarını bildirirlər. Bütün bunlar ünsiyyət zamanı cümlələr vasitəsilə ifadə edilir. Cümlə müəyyən qrammatik quruluşa və intonasiyaya malik olmalıdır. Ünsiyyət prosesində işlədilən cümlələr fikri ifadə etmək məqsədinə və qrammatik quruluşuna görə qruplaşdırılır. Cümlə ünsiyyətin yaranmasına xidmət edir. Buna müvafiq olaraq da ünsiyyətdəki məqsədinə görə cümlənin dörd növü ayırd edilir:

1.Nəqli cümlə 3. Əmr cümləsi

2.Sual cümləsi 4. Nida cümləsi

Bu cümlələrin hər dildə müxtəlif formaları var. Hər birində olduğu kimi sual cümlələrinin də bir sıra özünəməxsus xüsusiyyətləri var. Sual cümləsi – Bir şeyi öyrənmək, dəqiqləşdirmək və ya yeni məlumat almaq məqsədilə işlədilən cümlələrə deyilir. Əgər nəqli cümlələr vasitəsilə danışan şəxs müsahibinə məlumat verir, bir məlumat ötürürsə, sual cümləsi dinləyənin fikrini bilmək, ondan məlumat almaq, onun köməyi ilə məlumatını dəqiqləşdirmək, zənginləşdirmək məqsədi daşıyır.

Ə.Abdullayev "Müasir Azərbaycan dili" dərsliyində yazır: Sual cümləsi sual məqsədi ilə işlədilən cümlələrə deyilir. [1,s.111-112].

Sual cümlələrinin özünəməxsus sual intonasiyası olur. Bu da onu digər cümlələrdən ayıran əsas xüsusiyyətidir. Sual cümləsi intonasiyanın, sual əvəzliklərinin və sual ədatlarının köməyi ilə qurulur. İntonasiya sual mənası yaradan ən universal vasitədir. Sual cümlələrinin bir qismi başqa heç bir vasitə olmadan, yalnız intonasiyanın köməyi ilə yaranır. Bu cür sual cümləsi öz strukturuna görə nəqli cümlələrə çox yaxındır. Yalnız xəbərin son hecasının bir qədər uzun tələffüzü ilə bu növ sual cümləsi nəqli cümlələrdən fərqlənir.

Beləliklə, cümlədə heç bir dəyişiklik etmədən, yalnız xəbərin son hecasını bir qədər uzun tələffüz etməklə nəqli cümləni sual cümləsinə çevirmək olur. Söz sırası olduğu kimi qalır və hətta məntiqi vurğunun öz yerini dəyişməsi də buna mane ola bilmir.

O. Musayevin "İngilis dilinin qrammatikası" dərsliyində yazır: Bilmədiklərimizi öyrənmək və ya təxmini bildiklərimizi dəqiqləşdirmək məqsədilə işlətdiyimiz cümlələrə sual cümləsi deyilir.[4,s.357]. Buna müvafiq olaraq müasir ingilis dilində suallar ünsiyyətdəku məqsədinə görə dörd qrupa bölünür:

1.Ümumi suallar (General Questions)

2.Xüsusi suallar (Special Questions)

3.Altelnativ suallar (Altelnative Questions)

4.Discanktiv suallar (Disjunctive Questions)

Bəzi dillərdə yalnız səsdəki intonasiyanı dəyişdirərək sual verə bilərik. İngilis dilində bu kifayət deyil. İngilis dilində sual cümlələrində xüsusi söz sırası var.

İngilis dilində sual cümləsi necə düzəlir? Digər cümlələrdən fərqli olaraq, sual cümlələrində köməkçi feil əvvəl gəlir, sonra mübtəda, ən son isə əsas feil olur. Kim və ya nə kimi sual sözü varsa, o, adətən köməkçi felin əvvəlində olur. Söz sırası hələ də əsas feildən sonra mübtəda gəlməsi ilə öz qaydasını saxlayıb. Yəni mübtəda və xəbər öz əvvəlki yerində qalıb. Amma sual cümlələrində xüsusi aspekti olur yəni köməkçi feili. Və bu köməkçi feil birinci gəlir. Sual cümlələrində köməkçi feil böyük rol oynayır. Köməkçi feil sualı kimə verdiyimizdən sual cümləsində subyektin kim olmasından asılıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Musayev O. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007
2. Abdullayev Ə. Müasir Azərbaycan dilində söz sırası. Bakı: Elm, 1985

3. İnternet resursları.
4. Musayev. O. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007
5. Buludxan Xəlilov. Müasir Azərbaycan dili. Bakı. 2007

Səlimova Nəzrin Kamal qızı
Elmi rəhbər: baş müəllim Bağırova Mülayim Abbas qızı
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ BİNOMİNAL SÖZLƏR VƏ ONLARIN XARAKTERİK XÜSUSİYYƏTLƏRİ

İngilis dilində binominal sözlər, həmçinin binominal cütlər və ya binominallar olaraq hesab olunur, tez-tez birlikdə istifadə olunan və bir bağlayıcı (adətən "and, or") və ya ön sözlə bağlanan iki sözdən ibarət ifadələrdir. Bu cütlər sabit bir nizama malikdir, ritmik və yaddaqalan təbiəti ilə xarakterizə olunur. Onlar adətən gündəlik dildə istifadə olunur və sinonimlər, antonimlər və ya dildə tez-tez istifadə olunan sözləri ehtiva edir.

Binomların ümumi nümunələri:

Bigger and better, bread and butter, dead or alive, dos and don'ts, high and low, on and off, knife and fork, life and death, rise and shine və s: “On and off” binomu “fasilələrlə” mənasını verir. Cümlədə istifadəsi: With so much worry, I only slept on and off last night.

Qeyd edək ki, həmçinin, “or” ilə birləşdirilmiş binom cütləri də var. Məsələn; more or less, sooner or later və s: “More or less” binomu “gec-tez” mənasını verir. Cümlədə istifadəsi: If you lie, people will find you out sooner or later.

İki növ binomlu sözlər var: tərs çevrilən və çevrilməyən (sabit) binomlar.

1. Tərs çevrilən binomlar iki söz tərsinə çevrildikdə qəribə səslənmir. Məsələn, "cold and snow" "snow and cold" ola bilər.

2. Cütlüyün sırası dəyişdirildikdə çevrilməyən (sabit) binomlar qəribə səslənir. Məsələn, "odds and ends" "ends and odds" çevrilsə çətin başa düşülə bilər.

Bundan əlavə, onların bir neçə xarakterik xüsusiyyətləri var:

1. Sinonim və əks-səda binomları: Sinonim binomlar oxşar mənaları olan söz cütləridir (məsələn, “friends and allies”). Binomlar ingilis dilinə rəng, ritm və tanışlıq qatır.

2. Sabit birlik: Binomlar adətən birləşən iki sözdən ibarətdir. Onların sırası adətən sabitdir və çox vaxt yan-yana görünürlər. Məsələn, "bread and butter" və ya "knife and fork".

3. Semantik Birlik: Binomlar semantik birlik nümayiş etdirir, yəni sözlərin birləşməsi hər bir sözün fərdi mənalarından kənara çıxan xüsusi bir məna yaradır. Məsələn, "high and low" səviyyələrdə və ya həddindən artıq dəyişiklikləri nəzərdə tutur.

4. İdiomatik ifadələr: Binomlar idiomatik ifadələrdir və onların mənalarını hər zaman ayrı-ayrı sözlərin mənalarından çıxarmaq olmur. “bread and butter” sözün əsl mənasında yeməyə aid deyil; bu, insanın dolanışığını və ya əsas gəlirini simvollaşdırır.

5. Mədəni və linqvistik variantları: Bəzi binominallar bölgəyə xasdır və ya dildən asılıdır. Fərqli mədəniyyətlərin özünəməxsus cütləri ola bilər. Məsələn, "odds and ends" (müxtəlif maddələr deməkdir) ingilis dilində geniş yayılmışdır, lakin digər dillərdə fərqli ifadələr istifadə edilə bilər.

Binomlar gündəlik dildə, ədəbiyyatda və hətta hüquqi sənədlərdə üstünlük təşkil edir. Bu söz cütləri sadəcə birləşmədən ibarət deyil. Onlar mədəni nüanslar, tarixi kontekst və dil zənginliyi daşıyır.

Ədəbiyyat siyahısı:

1. The English Binominal Noun Phrase, Cambridge University Press, June 2023 [s. 63-95]
2. Binominals in the History of English, Cambridge University Press, July 2017 [s. 25-122]

Yusibova Səkinə Əli qızı
Elmi rəhbər: Yusifova Püstəxanım Tahir qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ LEKSİK-QRAMMATİK İNKARLIĞIN İFADƏ FORMALARI

Hər bir dilin özünəməxsus terminləri, spesifikliyi və təsirediciliyi var. İngilis dili də elə bir dildir ki, onu öyrənərkən, dil haqqında araşdırma edərkən daim axtarışda olursan və maraqlı, əhatəli məsələlərlə qarşılaşırsan. Məhz bu tezisdə biz inkarlığı necə istifadə etməyi öyrənəcək, düzgün və praktik şəkildə qaydalarla tanış olacağıq. Bizim tezisin məğzi "inkar nə deməkdir", "necə başa düşülür" "növləri hansılardır" məqamlarıdır. Dilçilik tarixinin araşdırılması kimi, ingilis dilində də ən böyük və aktual məsələ məhz inkarlıqdır. İnkar sözü linqvistikada ən universal anlayış olub, insan şüurunun inkişaf etdiyi bir dövrdə təbii dillərin vacib hissəsinə çevrilir. İndi isə inkarlığın növlərinə diqqət yetirək:

1.İnkar hissəciyi əlavə etməklə:

Example: He lives in Baku - He does not live in Baku.[3]

2.İsmə və ya əvəzliyə inkar hissəciyi əlavə etməklə:

Example: Trees grow on the moon- No trees grow on the moon.[3]

Not a word was spoken in the parlour page22 [4]

3.Bir-birinə zidd olan iki ifadəni işlətməklə:

Example: They can't find the problem, nor can they explain why it happened.[3]

4. Sifətə inkarlıq prefiksi və ya suffiksi işlətməklə:

This girl is happy/This girl is unhappy~page37 [4]

Example: This is possible- This is impossible. [3]

5.Ayırıcı sual cümlələrində:

Example: You are coming , aren't you? [3]

Əksər hallarda inkarlıq yaradan hal və hissəcik "not" dur. Not bəzən n't olaraq da qısaldılır. Not şifahi strukturda adətən əsas, köməkçi və ya modal feili izləyir. Not və n't fərqi əsasən üslub və izlənmə yerindədir. Not adətən yazılı, n't isə şifahi nitqdə istifadə olunur.

Bir digər inkarlıq isim və əvəzlikdə özünü göstərir. Adətən bir cümlənin strukturunda iştirak edən obyekt və ya subyekt olan isim qrupuna inkar əvəzliyini artırmaqla düzəlir. Bəzən "one, thing, where " sözləri inkar hissəciyi ilə birləşərək inkarlıq bildirən qeyri-müəyyən əvəzlikləri yaradır (nobody, nothing, nowhere etc.).

Example: There is something in that box- There is nothing in that box

İnkarlığın bir digər növü , bir çox dialektlərdə (Amerikan, İngilis) 2 və daha çox inkar mənası verən sözlərin işlədilməsidir ki, biz buna "double negativ" deyirik.

Example: The pilot can't find no place to land.

Bir sözlə, inkarlıq haqqında öz fikirlərimizi bildirərək deyə bilərik ki, inkarlıq aktual məsələ olaraq qalacaq və insanların öz həyatına tətbiq etdiyi bütün üslublarda özünə yer tapacaq.

Ədəbiyyat siyahısı:

1. https://www.thoughtco.com/negation-in-grammar-1691424#:~:text=Other%20negative%20words%20include%20no,%2Dless%2C%20and%20mis%2D
2. http://ijeais.org/wp-content/uploads/2021/4/IJEAIS210445.pdf
3. https://linguapress.com/grammar/negatives.htm
4. Güllü Mammadova

Hüseynova Günel Eyvaz
Elmi rəhbər: Fil.f.d., dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

CULİAN BARNSIN "AQİBƏT DUYĞUSU" ƏSƏRİNDƏ YADDAŞ VƏ GERÇƏKLİK

"Aqibət duyğusu" son 35 ildə əsərləri dünyanın onlarla ölkəsində tərcümə və nəşr olunmuş Culian Barnsın Azərbaycanda ana dilimizdə işıq üzü görən ilk romanıdır. O bu romanın adını ədəbiyyatşünas

Frenk Kermoudun 1967-ci ildə nəşr olunmuş eyniadlı kitabından götürüb. Lakin bu əsər Frenkin əsərindən fərqli olaraq dünyanın yox, insanın daxili böhranını əks etdirir. Xatırlamanın və yanılmanın romanı "Aqibət duyğusu"nun baş qəhrəmanı və təhkiyəçisi Toni Uebsterdir. Hələ romanın əvvəlində "sonda xatırladığımız şeylər yaşadıqlarımızla hər zaman eyni olmur" [3, s.9] deyən Toni əslində romanın sonrakı gedişatına işarə edir. Əsərin sujet xəttini Toni obrazı və onun yaddaş və gerçəklik anlayışlarını yenidən dəyərləndirməsi təşkil edir. Qəhrəmanın xarirələrinin mərkəzində məktəb dostu olan və fəlsəfi fikirləri ilə hamıdan fərqlənən, intihar etmiş Adrian dayanır. Əbəs yerə deyil ki, 40 il sonra Toni öz qaranlıq keçmişinə boylanmalı olur.

Günlərin birində o bir məktub alır, bu məktubda ona məktəb sevgisi Veronikanın anasından miras və Adrianın gündəliyi qaldığı deyilir. Ömründə yalnız bir dəfə gördüyü qadının mirasını və intihar edən dostunun gündəliyini qanuni yolla əldə edə bilməyən Toni illər sonra Veronika ilə yenidən görüşməli olur. Bu andan etibarən bütün yaddaş dağılmağa başlayır. Bütün ömrü boyu Veronika və Adrian arasında sevgi münasibətlərinin olduğunu düşünən Toni, əslində Adrianın Veronika ilə yox onun anası Sara Fordla əlaqəsi olduğunu, hətta bu əlaqədən bir uşağın da olduğunu öyrənir. O yaşa dolmuş bu gənci Veronikanın oğlu zənn edir, amma sonda Veronikanın qardaşı olduğu gerçəyini öyrənir. Bunu öyrənən Toni onları günahlandırdığı üçün peşmanlıq hissi keçirir və illərdir doğru sandığı gerçəklərin böyük bir yanılmadan ibarət olduğunun fərqinə varır.

Culian Barns roman boyu tarixi və keçmişi şübhə altına alır. Adi bir insanın həyatının və keçmişinin ümumən tarix qədər xaotik olduğunu ifadə edən müəllif

incəliklə deyir ki, ömür boyu yığılan günah və səbəblər nəinki dərin təəsüf hissi yaradır, həm də bütün bunların dünyadakı xaosa çox və ya az təsiri olur.

Roman həmçinin zəngin postmodern elementlərə malikdir: gözlənilməz hadisələr (qəfil gələn miras məktubu), tarixin xətti-mütləq dərkinin inkarı, bunun yerinə alternativ, subyektiv tarix ideyası (Toninin bütün roman boyu keçmişlə hesablaşması) və intertekstuallıq (tarixə, filmlərə, pop mədəniyyət hadisələrinə açıq və üstüörtülü istinadlar)...

Kitab oxucunu "xatırladıqlarımızın nə qədəri gerçək, nə qədəri bizim uydurmamızdır?", "ömrün sonlarına doğru birdən məlum olsa ki, illərdir yaşadığınız həyat və xatırladığınız keçmiş əslində çox fərqlidir və nələrisə dəyişmək artıq mümkünsüzdür, təəssüflə son bir cəhd etməli, yoxsa nəticə ilə barışmalı?" [3, səh.8] kimi suallara cavab axtarmağa dəvət edir.

Ədəbiyyat:

1. 1.https://edebiyatburada.com/yunus-alici-yazdi-bellegin-yalancisi-tony-websterin-romani-bir-son-duygusu/
2. https://oggito.com/icerikler/julian-barnes-in-bir-son-duygusu-romani/40099
3. Culian Barns "Aqibət duyğusu" Bakı, TEAS Press Nəşriyyat evi, 201

Oruczadə Leyla Yavər qızı
Elmi rəhbər:f.f.d Mirzəzadə Türkan Nizami qızı
Azərbaycan Dillər Universiteti

OSAMU DAZAYIN "BATAN GÜNƏŞ" ROMANINDA YAPONİYANIN TƏSVİRİ

19 iyun 1909-cu ildə Tsuqaru yarımadasının mərkəzinə yaxın yerdə yerləşən kiçik Kanaqi qəsəbəsində doğulmuş Osamu Dazai XX əsrin ən qabaqcıl yapon yazarlarından biri hesab edilir. Əsl adı Şūci Tsuşima olan yazar varlı ailədə doğulmasına baxmayaraq, həyatının hər bir dövründə müxtəlif problemlərlə üzləşmişdir. Anasını 11 yaşında itirən Dazai, məktəb illərindən yazdığı yazılarla seçilmiş, məktəbin nəşriyyatında redaksiya işlərinə də kömək etmişdir. Həyatı isə ən çox sevdiyi yazar – Ryunosuke Akutaqavanın 1927-ci ildə intihar etməsi ilə dəyişməyə başlayan gənc yazıçının spirtli içkilərə meyli daha da artmış, 1929-cu ildə son imtahanından əvvəlki gecə intihara cəhd etsə də uğursuz olmuşdur. Tokio Universitetində Fransız ədəbiyyatı bölümünə yazılsa da Tsuşima sonra təhsilini təcili dayandırır, dəfələrlə intihara cəhd edir, Yaponiya Kommunist partiyası ilə əlaqələrinə görə həbs edilir. Ailəsi tərəfindən azadlığa qovuşduqdan sonra isə yazarlığa başlayır.

1933-cü ildə nəşr etirdiyi "Reşşa" (Qatar) adlı hekayəsində ilk dəfə Osamu Dazai təxəllüsündən istifadə edən yazıçı müharibədən sonra daha çox şöhrət qazanmışdır. 1947-ci ilin iyul ayında o illər üçün ən

məşhur əsəri “Batan Günəş, 1948-ci ildə isə Dazain öz həyatını əks etdirən avtobioqrafik kitabı sayılan “Ningen şikkaku” nəşr olunmuşdur. “Ningen şikkaku” (“İnsanlıqdan məhrum”) günümüzdə Yaponiya ədəbiyyatının klassiki sayılır və çoxlu sayda fərqli dillərə tərcümə olunmuşdur. 1948-ci ildə Dazai “Guddo bai” (“Əlvida”) adlı uzun metrajlı roman yazmağa başlamışdı ancaq o, 13 iyun 1948-ci ildə 39 yaşına 6 gün qalmış sevgilisi ilə birlikdə intihar edərək həyatlarına son verdiyindən bu roman yarımçıq qalmışdır.

Britaniya imperiyası “Üzərində heç vaxt günəş batmayan imperiya” ifadəsi ilə tanınırdısa, Yaponiya da II Dünya Müharibəsindən öncə öz xalqı tərəfindən imperatoru ilə simvollaşdırılan günəşə bir növ sahib olma hüququna malik ölkə kimi qəbul olunurdu. Bu mənada Batan Günəş kitabını həm Dazainin öz həyatına həm də II Dünya Müharibəsindən sonra təslim olan və sanki artıq günəşin sahibi deyilik deyən Yaponiyaya yazılmış bir mərsiyə kimi başa düşə bilərik. Kitabda hekayə müharibə sonrası imtiyazlarını itirən əsilzadə ailəsinin qızı Kazukonun təhkiyəsi ilə verilir. Atası vəfat etmiş, qardaşı Naoci hələ müharibədən dönməmiş, özü isə boşanıb evə qayıtmış Kazuko iqtisadi çöküşə və aldıqları travmalara baxmayaraq hələ də əsilzadə adət-ənənlərini daşıyan anası ilə birlikdə yaşayırdı. Atası ölən vaxtı evin ətrafını ilanlar bürüyür, anası bunu uğursuzluq kimi görsə də, Kazuko ilanların atasına dua etmək üçün gəldiyini düşünür. Buna baxmayaraq o sonra ilanın yumurtalarını yandırmağa çalışır və yanmadıqlarını görəndə isə onları basdırır. İlan Yapon mifologiyasında günəşin simvolu sayılır. Atanın ölümü və ilan yumurtalarının yandırılması batışın, tənəzzülün sanki ön izləri kimidir. Amma əslində günəşin batışı daha əvvəl – imperiyanın süqutu ilə başlamışdır.

Atasının öldüyü evdən çıxıb, kənddə yerləşən çin evinə köçəndə anasının xəstəliyi daha da ağırlaşır, Naocinin geri qayıtması da heçnəyi dəyişmir çünki müharibənin ağrıları Naocinin yenidən ailə və cəmiyyət içərisində normal həyat sürməsinə maneə olur.

Növbə digər günəşin-ananın batışına gəlib çıxır. Ömrünü anası və anasının dəyərlərinə bağlılıq ilə keçirən Kazuko, anasının ölümü ilə yaşama bağlanmağın başqa yollarını axtarır. Əvvəllər tanıdığı birisinə yazdığı eşq məktubları cavabsız qalan Kazuko isə Naocinin rəfindən Rosa, Lenin və Kautsky`nin kitablarını götürüb oxuyur, inqilabçı olmağa qərar verir. Bu məktublarda çöküşə təslim olmaqdansa etik bir qarşı duruşun yolunu axtaran obraz görürük, Kazuko həyata necə tutunacağının axtarışındadır.

Sonda Naoci məktub yazaraq intihar edir. Bu, kitabda batan son günəş idi. Osamu Dazai Yaponiyanın və yapon xalqının müharibədən sonrakı vəziyyətini həyatla bağını tamam itirmiş vəziyyətdə olan Naocinin intihar məktubunda aydın əks etdirir. Dazainin öz intiharı bu məktubu daha da təsirli edir. Məktub əsilzadə ruhuna lənət edib özünü xalqın dostu olmağa həsr edən bu qələmin ekzistensial böhranını sanki bir sənədli film kimi göz önündə canlandırır, sonda isə “Mən bir zadəganam” sözləri ilə bitir.

“İnsanların yaşam haqqı olduğu kimi ölüm haqları da olmalıdır. Gecəki sərxoşluğumdan tamamilə ayıldım, ayıq öləcəm, axı mən bir zadəganam.” [1, s. 125]

Ədəbiyyat siyahısı

1. Osamu Dazai-Batan Günəş romanı
2. https://yapon.az/osamu-dazai/

Rizvanov Hüseyn Mehman oğlu.
f.d.d. Mirzəzadə Türkan Nizami qızı
Azərbaycan Dillər Universiteti

HARUKİ MURAKAMİNİN “NORVEÇ MEŞƏSİ” ROMANINDA AVTOBİOQRAFİK XÜSUSİYYƏTLƏR

Haruki Murakami XX əsr çağdaş dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindəndir.1949-cu ildə Kyoto da dünyaya gələn Murakami məktəb təhsilini burada başa vurmuş, universitetdə dramaturgiya təhsili alarkən həyat yoldaşı Yoko ilə tanış olmuşdur. İlk romanı olan "Küləyin nəğməsini dinlə"ni yazmağı isə 1978-ci ildə bir beyzbol oyununu izlərkən qərara almışdır. Yazıçı bu haqda bir müsahibəsində "Səbəbini bilmirəm. Deyəsən oyunu izləyərkən bir aydınlanma yaşadım" deyərək bu xatirəsini danışmışdır. Yazıçını dünyada ən çox məşhurlaşdıran kitabları "Norveç meşəsi" və "Kafka sahildə”, ən uzun romanı isə "1Q84"-dür.

Murakaminin “Norveç meşəsi” əsəri postmodern ədəbiyyatın ən tanınmış əsərlərindəndir, 50-dən çox dilə tərcümə olunmuşdur. Murakaminin romanlarının əksəriyyətində olduğu kimi “Norveç meşəsi”ndə də hadisələr birinci şəxsin təhkiyəsi ilə verilir, lakin məktublar və dialoqlar vasitəsi ilə digər personajların da düşüncələrini öyrənə bilirik. "Norveç meşəsi" romanı avtobioqrafik xüsusiyyətlərə malik olan müəllifin “işılda böcək” adlı hekayəsi əsasında yazılıb [2]. Roman müəllifin həyatı ilə çox sayda oxşarlığa malikdir, əsərin əsas personajı olan Tarou Kobedən Tokyoya universitet oxumağa gəlir, Murakami də Kyotodan Tokyonun Vaseda universietini oxumağa gəlir, Tarou da ailənin tək uşağıdır və asosyaldır, universitetdə və yataqxanada dostu yox idi, eynən Murakamidə də belə idi, həmçinin ikisinində ən sevdiyi kitab “Möhtəşəm Qetsbi”dir. Hər ikisi Yaponiyada siyasi hərəkatların, tələbə çıxışlarının və dünyada Hippi cərəyanının zirvəsində olduğu dövürlərdə hadisələrə biganə yanaşmış və sadəcə uzaqdan izləmişdir. “Ölüm” konsepsiyası əsərdə qoyulmuş əsas problemlərdən biridir. “Ölüm həyatın əksi olaraq mövcud deyildir, həyatın bir parçasıdır” bir dəfə sözlərlə ifadə olunduğunda çox adi görünür ancaq o vaxt bu sözlər formasında deyildi bir boşluğ idi, ürəyimin ta dərinliklərində hiss etdiyim.” [1. S. 14] “Həyat bu tərəfdə, ölüm o tərəfdə idi. Amma Kizukinin öldüyü gecədən başlayaraq

mən artıq ölümü (və həyatı) belə sadə şəkildə düşünə bilmirdim. Ölüm artıq həyatın əksi deyildi. Ölüm lap əvvəldən həyatımın bir parçası idi, istəsəm də istəməsəm də heç vaxt göz ardı edə bilmədiyim bir həqiqətdi. Kizukini apardığı an, on yeddi yaşım olan may gecəsi ölüm məni də aparmışdı.” [1.s.14-15]

Tarou ölümün ömrünün sonuna qədər onunla olacağını bilirdi. Murakami ölümü dibsiz və sonsuz quyuya bənzədirdi, əsərdə Tarou və Naoko arasında keçən söhbətdə ucsuz-bucaqsız tarlalar içində yerləşən quyudan danışırlar, quyunun harada olduğu bilinmir, lakin ora insanlar düşürlər və yoxa çıxırlar. Naoko Kidzukinin ölümü nəticəsində bir dəfə yoldan ayrılır və geriyə qayıda bilmir və o, quyuya düşür. K.Yunqa görə “quyu” şüuraltının simvoludur, bu baxımdan “Quyu” burada həmçinin Naokonun daxili dünyasını ifadə edir [3.s7-8]. Sevgilisinin ölümü isə onun daxilində yaranan boşluğun əks olunması idi. Romanda həmçinin intihar mövzusu da diqqət çəkir, ilk öncə Kidzuki sonra onun yoxluğuna dayana bilməyən Naoko intihar edir. İntihar Yaponiyada Qərbin təsiri ilə sonradan gəlməmişdir onun kökləri keçmişdən gələn Yaponiyanın özünəməxsus yanaşma tərzi və dini-fəlsəfi dünyagörüşünə gedib çıxır. Burada “kamikadze” və “harakiri” anlayışları da yaponların intihara yanaşmasını anlamağa kömək edə bilər.

Ədəbiyyat siyahısı

1. Haruku Murakami “Norveç meşəsi”
2. 2.https://www.anl.az/down/meqale/525/2019/aprel/642817.htm
3. 3.https://www.academia.edu/30880158/Haruki_Murakaminin_Norwegian_Wood_Eseri_ve_Mitoloji_%C4%B0ncelemesi 4. https://www.kkoworld.com/2014/04/06/haruki-murakami-norvec-mesesi/

Muradova Aysun
Fil.f.d., dos. Mehriban Oqtay qızı Mövlamova
Odlar Yurdu Universitet

FÜZULİ LİRİKASINDA AŞİQ OBRAZININ TİPOLOGİYASI

Füzuli yaradıcılığındaki Füzuli obrazının psixoloji məqamlarının təsviri özünü daha çox lirikada büruzə verir. Füzuli lirikasında öz obrazını,ilk növbədə, aşiq şəklində yaratmışdır. Aşıqlik Füzuli yaradıcılığında sadəcə ruh halı deyil, yaşam tərzi kimi də qiymətləndirilir.

Məndən, Füzuli istəmə əşari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözüm aşiqnədir. (1,s.107)

Özünün etiraf etdiyi kimi, Füzuli eşqin mahiyyətini çox gözəl başa düşən bir aşiq-şairdir. Nəsib Cümşüdoğlunun sözü ilə desək: - “Eşqdən qeyri bir əməli xəta bilən, iman və vəhtəd məqamını eşqdə tapan, bu yolda bütün möhnət və bəlayə dözən, hətta öz canını belə fəda etməyə hazır olan Füzuli, heç bir təriqətə qoşulmadan özü üçün bir məqsəd, bir təriqət seçməmişdir. Bu yol bütün ariflərin keçdiyi eşq və mərifət yoludur.”

Aşiq obrazı Füzuli yaradıcılığında bir sıra fərqli keyfiyyətlərə malik olub əsasən iki formada yadda qalır:

1.Filosof və mütəfəkkir aşiq(Bu daha çox “Leyli və Məcnun”dakı Məcnunu bizə xatırladır).

2.Sıravi və sadə aşiq(Daha çox folklor qəhramanlarına bənzər).

Füzulinin aşiq obrazının bir sıra çalarları vardır

1.Bədbin və nakam aşiq:

Şəbi-hicran yanar canım, tökər qan çeşmi-giryanım

Oyadar xəlqi əfqanım, qara bəxtim oyanmazmı.(3,s.102)

Ayrılıq gecəsində yanıb əriyən canının qan-yaş tökmə-yini şair şam ilə qiyas edir. Şamın isə adı çəkilmir.

Degil bihudə kim yağsə fələkdən başimə daşlar,

Binasın tişeyi-ahimlə viran etdiyimdəndir.(1,s.68)

Dedikdə, biz burada ifadə olunan real və ya qeyri-real münasibəti axtarmırıq və axtarmamalıyıq. Söz bizi elə tutur, elə alır ki, şairin bütün bəlalara, müsibətlərə qarşı necə məğrur və əzəmətlə dayandığı fikrimizdə canlanır.

2.İztiraba meyililik:

Ya rəb bəlayi-eşqilə aşina məni!

Olduqca mən götürmə bəladən iradətim,

Mən istərəm bəlanı, çün istər bəla məni.(2, s.171)

Füzuli Rəbbinə dərd üçün yalvarırdı, çün bilirdi,Rəbbi yalnız sevdiklərini dərd ilə sınayırdı, göz yaşı, bəla, dua ehtiyacı aşiqi Eşqə yaxınlaşdırır...

Aləm oldu şad səndən, mən əsiri-ğəm hənuz,

Aləm etdi tərki-ğəm, məndə ğəmi-aləm hənuz. (3, s101)

Burada demək istəyir ki, sən aləmi sevindirərək, məni qəmə, qüssəyə əsir etdin. Aləm qəmi tərk etdi, mən aləmin qəminə mübtəla oldum.

3. Səbirli və dözümlü aşiq:

Ey Füzuli, yar əgər cövr etsə, ondan incimə,

Yar cövrü aşiqə hər dəm məhəbbət tazələr.(1,s.131)

Bu beytdən məlum olur ki, Füzuli yarının yolunda səbrli və dözümlüdür.Yarının ona cövr etməsiaşiqi usandırmır. O, bunu bir növ məhəbbət təzələnməsi kimi qiymətləndirir.

Bununla yanaşı, Füzuli özünü əsərlərinin 90% də bədbin və nakam aşiq şəklində təsvir edir.

Əhli-təmkinəm məni bənzətmə ey gül bülbülə,

Dərdə yox səbri onun, hər ləhzə min fəryadı var.(5, s123)

4.Füzulin yaradıcılığında qısqanc aşiq obrazı özünü iki şəkildə göstərir:

1)Aşiq adına olan qısqanclıq(özünü Məcnunla müqyisə edir).

2)Real planda çox qısqanc olması.

Daim özünü eşqin simvolu olan Məcnunla müqayisə edir.Özünü daim Məcnundan yuxarı qoymağa çalışır. Bir aşiq olaraq tərif edən, hətta ən məşhur, tarixi aşiqlərdən Məcnun, Fərhad, Vamiq, Sənan və s. üstün tutan misralar çoxdur.Ancaq özünü bir şair kimi başqa şairlərdən yüksək tutduğunu göstərən parçalar yoxdur.

Qıl təfaxür kim, sənin həm var mənim tək aşiqin,

Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var!(5,s123)

Şair eşq, sevda aləmində özünü Fərhaddan və Məcnundan yüksək tutur. Ona görə də sevgilisinə - “fəxr et, deyir, sənin mənim kimi aşiqin olduğu üçün Leylidən də, Şirindən də ucasan, məsudsan”.

Şair öz eşqini çox yüksək tutur, fəxr ilə öz eşq aləmini danışır, özünü ən məşhur aşiqlər ilə müqayisə edir:

Məndə Məcnundan füzun aşiqlik istedadı var,

Aşiqi-sadiq mənəm, Məcnunun ancaq adı var.(5, s123)

Fərhadın Şirinin şəklini Bisutun dağına çəkməsini işarə edən Füzuli, öz sevgilisini başqalarına göstərməyi, xalqagöstərməyi düzgün olduğunu hesab etmir. Bu hərəkətinə görə Fərhadı arsızlıqla günahlandırır:

Daşa çəkmiş xəlq üçün Fərhad, Şirin surətin ,

Ərz qılmış xəlqə məhbubin, əcəb biar imiş.(1,s.35)

Dərd əhlinin içərisində Vamiqin də, Fərhadın da, Məcnunun da adının lap yuxarısında Füzulinin adının yazıldığını gördü. O, özünü digər aşiqlərdən daha çox, daha möhkəm sevdiyini adlandırır:

Yazanda Vamiqü Fərhadi Məcnun vəsfinəhli-dərd
Füzuli adını, gördüm, səri-tumarə yazmışlar.(1,s.39)

Beləliklə, biz burada müxtəlif Füzuli obrazı ilə tanışıq olduq. İstər Səbrli və dözümlü Füzuli,istər qısqanc olan Füzuli ilə, istər bədbin olan, istərsə də iztiraba meyilli olan bir Füzuli obrazı ilə qarşılaşdıq. Eyni zamanda biz Füzulinin lirikasında bir fərqliliyi ilə də qarşılaşırıq ki, bir sıra qəzəllərində ən qüvvətli, şişirdilmiş mübaliğələri oxuculara həqiqi olduğuna inandırmış və təsirli mənzərə yaratmışdır.

Nəticə etibarı ilə bu qənaətə gəlirik ki, Füzuli lirikası hər nə qədər araşdırılsa da bitməyən bir xəzinə toplusudur.

Ədəbiyyat:

1. Füzuli M.S. Seçilmiş əsərləri. Altı cilddə, I cild. Tərtib edəni:Araslı H. Redaktor: Kərimli T.Bakı:Şərq-Qərb,2005
2. Füzuli sənətkarlığı. Monoqrafiyası, III nəşr.Tərtib edən:Mir Cəlal. Rektor:Firuz MustafavFəlsəfə elimləri doktoru. Bakı "Kaşqari" 2007.
3. Mənim tanıdığım Füzuli. Tərtib edən:Hacı Ələmdar Mahir. Rektor: Hacı Mustafa Mailoğlu Bakı, "Nurlan", 2009.
4. Mövlamova. M. Məhəmməd Füzulinin "Türk divan"ında aşiq obrazının psixoloji xarakteristikası// Əlyazmalar yanmır, Bakı-2018.
5. Məhəmməd Füzuli.Əsərləri.I cild.Tərtib edəni: Həmid Araslı. Rektor: Teymur Kərimli.Bakı,"Şərq-Qərb",2005.

Hüseynzadə Gülnaz Rövşən qızı
Elmi rəhbər: dos.fil.f.d.T.Ə.Cəlilova
Azərbaycan Dillər Universiteti

MÜASİR FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ NİDALAR

Hər hansı bir dildə, ünsiyyət prosesində nominativ vahidlərlə yanaşı emosional leksik vahidlər də aparıcı rol oynayır. Bunlardan biri də nidalardır. Dildə ən emosional leksik vahidlər nidalar hesab olunur.

Nidalar cümlədə xüsusi qrammatik vəzifə daşımayan hiss-həyəcan ifadə edən sözlərdir. Nidalar emosianallığa xidmət edən sırf emosianal vahidlərdir. Sematik cəhətdən insanın daxili hisslərini, emosiyalarını ifadə edən nidalar dildə geniş işlənmə yerinə malikdir. Onlar öz-özlüyündə hiss və həyəcan ifadə edən nitq vahididir. Hər hansı bir sözə, cümləyə birləşərək nidalar onun yüksək emosionallıqla deyilməsinə təsir göstərir. Semantik cəhətdən çox zəngin olan nidalar hər insanın daxili hisslərini, emosiyalarını ifadə edir, sevinc, şadlıq, təəccüb, nifrət, kədər, hiddət, istək, həsrət, qorxu, narahatlıq hissi və s. bildirir.

- Ah,nələr var imiş dünyada,nələr,
İçimdə kimsəsiz bir quzu mələr.
- Tfu!Sənin taxtına,ey çərxi-fələk
Daşdan yaranmamış,ətdəndir ürək. (S.Vurğun)
- Ah,necə kef çəkməli əyyam idi,
Onda ki, övladi-vətən xam idi. (M.Ə.Sabir)
- Düşdü bütün qəzetlər qiymətdən,ay can! Aycan.. (M.Ə.Sabir)
- Oh! C'est le plus fourbe et le plus faux des hommes!
- Oh!Je suis faloux par instants! (V.Hugo)

Müasir fransız və Azərbaycan dilində nidalar leksik cəhətdən iki qrupa bölünür:

1) Emosional nidalar
2) Əmr və müraciət bildirən nidalar

Emosional nidalar: Bu qrupa sırf hissi nidalar daxildir (sevinc, təəccüb, qorxu, ağrı, şadlıq, bildirən nidalar)

Məsələn, "Of,ürəyim partlayır. Ah,mən bu ayrılığa necə dözəcəyəm?"

Fransız dilində: "Ah!", "Oh!", "Eh", "Hein", "Hum!",

-Ah! je t'aime bien.

-Ouf! Madame Boulet vient de nettoyer sa cuisine.

-Ah!Quelle tranquílleté! Oh! quelle spectacle!

-Quel bon réveillon nous allons faire après la messe! (E.Zola)

Oh! Je suis faloux pour instants! (V.Hugo)

Misallardan da göründüyü kimi nidalarda intonasiya sıx mühüm rol oynayır.

Nida keyfiyyət kəsb edir. Beləliklə, nidalar öz-özlüyündə hiss və həyəcan ifadə edən nitq vahidi olub, cümlənin daha effektli ifadəsi üçün bir vasitə rolu oynayır.

Ədəbiyyat siyahısı:

1. Müasir Azərbaycan dili. II hissə. Bakı. "Elm nəşriyyatı", 1980.
2. Chigarevskaïa N. Traité de phonétique française. M., 1966

Əsgərova Elnarə Elçin qızı
Elmi rəhbər: Əliyeva Səyyarə Tahir qızı, fil f.d.
Azərbaycan Dillər Universiteti

ZADİ SMİT YARADICILIĞININ ÖZƏLLİKLƏRİ

Zadi Smit irqçilik, mədəni kimlik, müasir insan cəmiyyəti məsələlərində əsaslı araşdırmaları ilə tanınmış məşhur Britaniya yazıçısıdır. Smit gözəl yazıçı, həm də yaxşı müşahidəçidir. Ədib sanki onu əhatə edən dünyanın bütün səslərini, qoxularını duyur və təsvir edir, insan məğlubiyyətlərini və qələbələrini böyük anlayış və rəğbətlə qarşılayır. Müşahidə ettiklərini qeyri-adi ifadələrlə zəngin gözəl poetik dillə qələmə alaraq oxucunu güldürür, düşündürür, hadisələri xəyal etdirir. Bütün mümkün dialekt və şivələrdən istifadə edərək Smit, personajlarının orijinal səslənməsinə nail olur. Beləliklə, oxucu özünü təhkiyyənin bir parçası olaraq hiss edir, baş vermiş hadisələrə tənqidi gözlə baxa bilir. Müxtəlif səbəblərdən evini tərk edib, böyük ümidlə başqa yerlərə yaşamağa gedən insanlar üçün ənənələrin və köklərin hansı dərəcədə əhəmiyyətli olduğunu Zadi Smit çox yaxşı anlayır, çünki özü də bunu bir individum olaraq yaşayır, o da miqrantların nəslindəndir: o, ingilis atanın və yamaykalı ananın övladı olaraq Londonda dünyaya gəlmişdi.

Yazıçı yazdığı əsərlərin hər birində müxtəlif aspektlərdən və mövzulardan bəhs edir. Bu Smitin bilik və maraqlarının sərhədsiz olduğuna işarə edir. Onun biliyi fəlsəfə, tarix, incəsənətdən tutmuş siyasətə qədər insan həyatının bütün sahələrini əhatə edir. Zadi Smit "Ağ dişlər" ("White teeth"), "Gözəlliyə dair" ("On Beauty"), "İmza toplayan adam" ("The Autograph Man"), "Kamboca səfirliyi" ("The Embassy of Cambodia"), "N-W" kimi romanların və bir sıra hekayələrin müəllifidir.

2000-ci ildə nəşr olunan "Ağ dişlər" romanının böyük uğuru sayəsində, Zadi Smitin adı Salman Rüşdi və Hənif Kureyşi və s. dünyaca şöhrətli roman yazarları ilə bir arada hallanmağa əsərləri müqayisə olunmağa başladı.[1,s.12]

"Gözəlliyə dair" əsəri isə E.M. Forsterin "Howard End" əsəri ilə müqayisə edilir. Smit onun işindən ilham aldığını etiraf edir: "Deyə bilərəm ki, o mənim fantastika baxımından ilk sevgimdir. O çox humanist və maraqlı yazıçıdır. O, əsl İngilisdir. Əgər sən burada doğulmusansa, o(Forster) təbii olaraq sənin üçün daha çox şey kəsb edir".[2,s.8]

Nəticə etibarı ilə Zadi Smitin əsərlərində vurğuladığı mövzular etnik mənsubiyyət, multikulturalizm, təbəqələşmə və bununla bağlı irqçilik və ayrı-seçkilik kimi məsələlərdir. Oxucular Smitin personajlarının bir ailə daxilində də fərqli mədəniyyətlərin eyniləşdirildiyinin şahidi olur və multikulturalizmin ayrı-ayrı fərdlər üzərində təsirini təsvir etməklə cəmiyyətə təsirini müşahidə edirlər.

Ədəbiyyat siyahısı:

1. Adela Grenarova. Multicultural World in Zadie Smith's Recent Novels.2016
2. Martina Paulova. Zadie Smith: A New Talent of British Literature.200

Qədimova Nəsrin Nəsir
Filologiya fakültəsi, qrup B20-442
Elmi rəhbər: Teybə Cəlilova
Azərbaycan Dillər Universitet

MÜASİR FRANSIZ VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ TƏSİRLİ VƏ TƏSİRSİZ FEİLLƏRİN LEKSİK-SEMANTİK XÜSUSİYYƏTLƏRİ

İş hal və hərəkətin obyektlə münasibəti təsirlilik və təsirsizlik kateqoriyasının yaranmasına səbəb olub. Həmin formalaşma həm leksik, həm də qrammatik yolla olur. Ona görə də təsirlilik və təsirsizlik kateqoriyası leksik-qrammatik kateqoriya hesab edilir. Qrammatika kitablarında feilləri növlərə ayırarkən onların təsirlilik və təsirsizlik bildirməsi əsas götürülür. Feilin bu iki kateqoriyaları bir-birinə çox yaxındır. Bu yaxınlıq feilin subyekt və obyektlə olan münasibətindən irəli gəlir. [1, s.272]

Təsirli feillər obyekt üzərinə təsiri keçən hərəkəti bildirir. Bu feillər müstəqim obyekt tələb edir. Məsələn, yazmaq, almaq, görmək, eşitmək, bilmək, göndərmək, gətirmək, aparmaq, yemək, içmək, qaldırmaq, endirmək, qurmaq, tikmək və s.

Belə feillər müstəqim obyektlər ilə işlədilir.

Yazmaq- məktubu yazmaq

Almaq- meyvəni almaq

Bu cür feillərin lüğəvi mənasında obyektlə əlaqə çox güclüdür. Başqa sözlə desək, feildəki iş, hərəkət bilavasitə obyektə yönəlmiş olur. Təsirsiz feillərə gəlincə, bu feillərin ifadə etdiyi hərəkət əşya üzərinə keçmir. Bu feillər müstəqim obyekt tələb etmir. Məsələn, getmək, gəlmək, qaçmaq, yatmaq, oturmaq, durmaq, gülmək, ağlamaq, enmək, qalxmaq və s. [2, s.114-115]

Getmək – kinoya getmək

Hal-vəziyyət bildirən feillərin əksəriyyəti təsirsizlik bildirir. Çünki, hal-vəziyyət feillərin bir hissəsi əşyanın aldığı vəziyyəti, əlaməti, keyfiyyəti, kəmiyyəti, bir hissəsi isə insanın hiss-həyəcanını ifadə edir. Məsələn;

Yerləşmək, arıqlamaq, varlanmaq, qıcıqlanmaq,

sağalmaq, qocalmaq və s.

Demək, feil tamamlıq tələb tələb edərsə, təsirli, tamamlıq tələb etməzsə təsirsiz olur. Təsirli və təsirsiz feillər bir-birinə keçə bilər. Aşağıdakı nümunələrə diqqət edək;

1) Yazmaq-yazılmaq, görmək-görünmək, qurmaq-qurulmaq, vurmaq-vurulmaq, sevmək-sevilmək.

2) Enmək- endirmək , gülmək-güldürmək, qaçmaq-qaçırmaq, ağlamaq-ağlatmaq

Deyilənlərdən aydın olur ki, Azərbaycan dilində təsirsizlik mənası üç yolla düzəlir.

a) Məlum növ feil kökləri ilə

b) Məlum növdəki bir qrup düzəltmə təsirsiz feillərlə

c) Məchul, qayıdış və qarşılıq növlərlə

Təsirlilik mənası isə;

a) Məlum növdəki təsirli feil kökləri ilə

b) Məlum növdəki bir qrup düzəltmə təsirli feillərlə

c) Xüsusi qrammatik formalarla əmələ gəlir.

Ədəbiyyat siyahısı:

1. Müasir Azərbaycan dili. II cild. Morfologiya. Bakı, “Elm” nəşriyyatı, 1980.
2. Seyidov Yusif. Azərbaycan dili. Bakı, “Maarif” nəşriyyatı, 1978

İsmayılova Mədinə Elgiz
Fil.f.d dos. Əliyeva Xuraman İlqar
Azərbaycan Dillər Universiteti

KOLİN UİLSON YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

Ədəbiyyatda bir sıra aparıcı janrlar vardır. Bunlardan biri də fantastika janrıdır. Fantastika janrının öz növbəsində fentezi, magik realizm, elmi fantastika və qorxu kimi istiqamətləri vardır. Fentezi müasir dünyanın aparıcı janrıdır. Bu janra ilk dəfə ingilis yazıçısı Con Tolkinin yaradıcılığında rast gəlinir. Fen-

tezi real dünyada əks olunmayan sehrli və fövqəl təbii elementləri özündə əks etdirən ədəbi janrdır. Fentezi bir janr kimi ədəbiyyatda yenidir və öz sələflərindən çox fərqlidir. Fərqli olmasının əsas səbəbi əsərdə uydurmanın olduğunun müəllif və oxucular tərəfindən başa düşülməsidir. Fentezi ədəbi janrın bir növüdür ki, burada olan hadisələr real həyatda baş verə bilməz. Fantastik elementlər illər boyu bədii əsərlərin bir hissəsi olmuşdur. Fentezi janrının kökləri, mifologiyada, Yunan, Roma və başqa mədəniyyətlərin epik şerlərinə, orta əsrlərin hekayə və nağıllarına dayanır. Müasir janrlardan olan fentezi janrı on doqquzuncu əsrdə Avropa nağılları və romanlarında geniş şəkildə istifadə edilməyə başlandı. XİX əsrdə fantaziya Lyuis Kerrolun "Alisa möcüzələr ölkəsində" və Corc Makdonaldın "Şəhzadə və Qoblin" kimi əsərlərinin yazılması ilə müasir fentezi janrı formalaşdı. Fentezi janrının bir sıra əlamətləri vardır. Bunlara sehr, mifik varlıqlar, xeyir və şər, ikinci dərəcəli dünyanın mövcudluğu aiddir. Bu elementlər janrın müəyyənləşdirilməsinə yardımçı olan əsas xüsusiyyətlərdir. Fentezi janrının alt janrları vardır. Bu janrlardan bir sıra yazıçılar öz əsərlərində geniş şəkildə istifadə etmişdir. Alt janrlara: yüksək və ya epik fentezi, aşağı fentezi, sehrli realizm, sehrbazlıq və super qəhrəman fantastikası aiddir.[3] Nikki Gamble fentezi janrını 3 yerə bölmüşdür: 1.Real dünya ilə əlaqəsi olmayan. 2.İkinci dünya real dünyanın qapısından daxil olunur. 3.Real dünya içərisində onun bir hissəsi olan fərqli bir dünya. [1.s51]Fentezi janrında yazan yazarlardan biridə ingilis yazıçısı Kolin Uilson olmuşdur. Kolin Uilson müxtəlif mövzularda psixologiya, fantastika, fəlsəfə və paranormal hadisələri araşdırması ilə tanınmışdır. Kolin Uilson 60 illik yaradıcılığı boyunca yüzə yaxın kitab yazmışdır. Uilsonun bir sıra əsərlərində fantastik bir sıra elementlərə rast gəlinir. Onun əsərlərində olan fantastik xüsusiyyətlərə bunlar aiddir:

1.Paranormalın kəşfi: Uilson psixi hadisələr, telepatiya kimi mövzuları araşdırmışdır. 2.Ruhani və Mistik mövzular: Uilson müxtəlif dini ənənələrdən çıxış edərək yaradıcılığına mistik elementlər daxil etmişdir. 3.Transsendensiya axtarışı: Uilson əsərlərində gündəlik mövcudluğun hüdudlarından kənara çıxan qeyri-adi şüur hallarını araşdırır. 4.Gerçəkliyin və Fantaziyanın çulğalaşması:

Uilson əsərlərinə fantastik və fövqəltəbii elementlər daxil edərək reallıq və fantastika arasındakı sərhəd itir. 5.Möcüzə və heyrətə vurğu: Uilson əsərlərində sirlərə və möcüzələrə qarşı heyrət hissi doğurur. Uilson oxucularını öz şüurlarının dərinliklərini araşdırmağa təşviq edir. [5]

Onun bir sıra əsərlərləri vardır ki, biz onlarda fantastik elementlərlə rastlaşırıq. 1. "Ağıl parazitləri" (1967): Bu roman insan şüurundan qidalanan görünməz varlıqları araşdırır. Ağıl parazitləri konsepsiyası hekayəyə fantastik elementlər əlavə edir. 2. "Fəlsəfə daşı" (1969): Bu əsərdə Uilson kimyagərliyə, ölümsüzlük axtarışına və mistisizmə geniş yer verir. Sehrli xüsusiyyətləri olan əfsanəvi olan fəlsəfə daşı romanda təkrarlanan motivdir. Uilson tarixi və ekzotermik elementləri birləşdirərək fantastik elementləri olan povest yaradır. 3. The Atlantis Blueprint (2001): Uilsonun müəllifi olduğu bu bədii kitab Atlantidanın itirilmiş sivilizasiyanı əks etdirən sirr və mifologiyanı araşdırır. 4.Hörümçək dünyası (1987-1993): Bu romanlar silsiləsi nəhəng hörümçəklərin Yer kürəsini ələ keçirərək insanları əsarət altına almasından bəhs edir. Uilson bu əsərdə elmi fantastika, dəhşət və fantaziya elementlərini birləşdirmişdir.[4]

Ədəbiyyat siyahısı:

1. Abbasova Leyla Fentezi janrında əsərlərin nəşri və əhəmiyyəti//Xəzan-2019-№2/20- S51-59
2. https://az.wikipedia.org/wiki/Fentezi
3. https://www.masterclass.com/articles/ What is the Fantasy Genre? History of Fantasy and Subgenres and Types of Fantasy in Literature. 4. https://www.britannica.com/biography/Colin-Wilson
4. https://colinwilsononline.com/tag/colin-wilson/

Abbasova Səbinə Babək qızı
Filologiya fakültəsi
Elmi rəhbər: f.f.d. dosent Aslanova Ulduz Böyükkişi qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR ALMAN DİLİNİN DİALEKTAL VARİATİVLİYİ

Dialektizmlərə ərazi baxımından məhdud əhatə dairəsinə malik söz və ifadələr aiddir. Müasir alman lüğətini sosial və ərazi xüsusiyyətləri baxımından təhlil etsək, bu baxımdan onun müxtəlifliyi diqqəti çəkir. Alman dili lüğətində məlum lüğətdən əlavə, dialektik sözləri də fərqləndiririk. Dialekt əsasən

regionallığı ilə xarakterizə olunur və çox vaxt yalnız bu dil reyestrinə malik olan müəyyən sosial siniflərə bağlıdır. Ancaq sırf ləhcədə danışanlar bu gün çox nadirdir. Məsələn, Bavariyada təkcə Bavariya ləhcəsi yoxdur, Swabian, Franconian və Hessian ləhcəsində də danışılır.

Dialekt təkcə Bavariya ilə məhdudlaşmır: Avstriya və Cənubi Tirolda da var. Bu nümunə göstərir ki, dövlət sərhədləri həmişə dil sərhədləri deyil. Bir neçə rəsmi dilin (məsələn, İsveçrə) və bir neçə ölkədə mövcud olan dillərin (plurisentrik dillər, məsələn, alman və ya ingilis) olduğu ölkələr var. İstifadə olunan dil çox qeyri-müəyyəndir və buna görə də mübahisəsiz deyil. Bu, ilk növbədə gündəlik həyatda danışılan dillə bağlıdır. Danışıq dili müxtəlif dərəcədə standart dil və dialekt elementlərini ehtiva edir. Məsələn, Almaniyada yuxarı sinif şagirdləri standart alman dilində (Hochdeutsch), aşağı sinif şagirdləri isə dialektlə danışırlar (Plattdeutsch). "Dialektik dil standart dildən bir çox cəhətlərinə görə fərqlənir:

a) Tələffüzünə görə: sagen-sajen (Berlin), sogn (cənubi alman)

b) Müxtəlif lüğət vasitəsilə: Deern (şimali alman)- Dirndl (Bavariya, Avstriya)"[1]

Dialektizmlərin konnotasiyası ifadəlilik yaratmaq üçün istifadə olunur: məsələn, Haste nix, biste nix!- Heç nəyin yoxdursa, heç nəsən!

Alman milli dili ilə ərazi dialektləri arasındakı əlaqələr dilin inkişafının bütün dövrlərində çox mürəkkəb və müxtəlif olmuşdur. Alman milli dili ərazi dialektlərindən ayrı deyil, daha çox onlarla sıx əlaqədədir. Ərazi dialektləri xalqların qədim dillərinin uzun tarixi inkişafının məhsuludur, əslində bu dillərin qalıqlarıdır ki, bu dillər öz növbəsində sözügedən german tayfalarının dillərindən əmələ gəlib, onların adları da məhz buradan gəlir. – Bavariya, Şvab, Aleman və s. dialektlər. Milli dilin lüğət tərkibi dialektlərin leksikası ilə sıx əlaqədə inkişaf edir. Bu fenomen alman milli dilinin lüğətində dialektlərdən çoxlu sözlərin olmasının səbəbidir, baxmayaraq ki, yerli sözlərin istifadə sahəsi ümumiyyətlə ərazi baxımından məhduddur.

Ədəbiyyat siyahısı:

1. Deutsche Stilistik, Gennadij W. Pan, 2010, səhifə 122 2. https://www.studysmarter.de
2. Deutsche Dialekte: Definition, Merkmale, lernen & erkennen 3. https://dein-sprachcoach.de
3. Dialekte in Deutschland: Mundarten im Überblick – Dein Sprachcoach

Hüseynzadə Röya Hüseyn
Elmi rəhbər: Müəllim İsmayılova Mənsurə İttifaq
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN VƏ FRANSIZ DİLLƏRİNDƏ FEİLİN ARZU ŞƏKLİNİN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

Azərbaycan dilində feilin şəkilləri danışan şəxsin görülən işə münasibətini bildirir. Dilimizdə feilin aşağıdakı şəkilləri vardır:

1)əmr şəkli; 2)xəbər şəkli; 3)arzu şəkli; 4)lazım şəkli; 5)vacib şəkli; 6)şərt şəkli;

İşin gələcəkdə icrasının arzu edildiyini bildirən feil şəklinə arzu şəkli deyilir və feillərə -a,-ə(-ya,-yə) şəkilçisi artırmaqla düzəlir. Arzu şəklində feildən əvvəl çox vaxt gərək, kaş sözlərindən istifadə olunur.

Məsələn: Kaş hər şey istədiyim kimi olardı; Gərək dərslərini oxuyasan.

İnkarı -ma, -mə şəkilçisi vasitəsilə düzəlir. Məsələn: oxumaya,getməyə.

Tələffüzdə inkar şəkilçisindəki açıq sait qapalı saitə keçir. Məsələn:oxumuya,getmiyə

Arzu şəklinin mürəkkəb forması idi,imiş köməkçi feillərinin köməyi ilə düzəlir.İdi sözü ilə işlənən arzu şəkli feil formasının hekayəsini,imiş sözü ilə işlənən arzu şəkli isə feilin rəvayətini bildirir. Arzu şəkli idi köməkçi sözünü qəbul edərkən -a,-ə şəkilçisi ilə birlikdə -aydı, -əydi şəklinə düşür. Məsələn:

Bir gəzəydim dağ-dərələr uzunu,
Oxuyaydım:"Çoban qaytar quzunu". (M.Şəhriyar) (Həsənov.A, 2007, səh77)

Arzu şəkli bir çox üslubi xüsusiyyətlərə malikdir. Arzu şəkli əmr şəklinin sinonimi olur. Məsələn:

Xalqa həqiqətdən mətləb qandıra,
Şeytanı öldürə,nəfsin yandıra,
El içində pak otura,pak dura,
Dalısınca xoş sadələr gərəkdir. (A.Ə) (Seyidov.Y, 2007, səh77)

Arzu şəkli həmçinin şərt şəklinində sinonimi kimi işlənir. Məsələn:Sənin kimi bir qızım ola,çox sevinim.

Keçmiş və gələcək zamanın yerinə də işlənə bilər. Keçmiş zamanın yerində: Bir də nə görəm, külək uçurmuş damları. Gələcək zamanın yerində: Gələcəkdəki arzularım, bəlkə qəbul ola, bəlkə olmuya.

Arzu şəklinin şəkilçisi omonim səciyyə daşıyır:

1.İsmin yönlük hal şəkilçisi kimi: evə, kitaba

2.Feildən isim düzəldən şəkilçi kimi: yara

3.Feili bağlama şəkilçisi kimi: gülə-gülə

Fransız dilində arzu şəkli (mode subjonctif) danışanın real həqiqətə münasibətini bildirir və arzu, istək, qorxu, sevinc, kədər, təəssüf və.s ifadə edir. Subjonctif-in (arzu şəkli-nin) ikisi sadə, ikisi mürəkkəb olmaqla, dörd zaman forması var:

1.Present du subjonctif (arzu şəklinin indiki forması)

2.Passe du subjonctif (arzu şəklinin keçmiş forması)

3.İmparfait du subjonctif (arzu şəklinin davamedici keçmiş zaman forması)

4.Plus-que-parfait du subjonctif (arzu şəklinin uzaq keçmiş zaman forması)

Bu zaman formalarında ən çox işləniləni Present du subjonctif (arzu şəklinin indiki forması)dır. Arzu şəklinin indiki zamanını düzəltmək üçün feili indiki zamanda üçüncü şəxsxin cəmində götürüb -ent sonluğunu atmaq və feilin kökünə "-e,-es,-e,-ions,-iez,-ent" sonluqlarını əlavə etmək lazımdır. Məsələn:

que je parle
que tu parles
que il/elle parle
quenous parlioons
que vous parliez
que ils/elles parlent

Arzu şəkli istək,arzu,təəssüf,vaciblik və şübhə bildirən feillərdən sonra işlənir. Məsələn: Je voudrais que tu retrouves des informations sur le Net.

İstərdimki, internetdən məlumatlar tapasan.

J'ai peur qu'il soit en retard.

Qorxuram ki,o geciksin.

Nəticə olaraq deyə bilərik ki, Azərbaycan dilində feilin arzu şəkli yalnız gələcək zamanda arzu olunan bir hadisəni bildirirsə, fransız dilində isə hadisəni dörd zamanda bildirmək olar.

Ədəbiyyat:

1. Grammaire du français, classique et moderne. R.I.Wagner, J.Pinchon. Paris, 1967
2. Фпанцузский язык. И.Н.Попова, Ж.А.Казакова. Moskva, 2005
3. Fransız Dilinin Nəzəri Qrammatikası. Sədaqət Səlimova. Bakı, 2019
4. Abdullayev Ə., Seyidov Y., Həsənov A. Müasir Azərbaycan dili (IV cild). Bakı,2007

Əliyeva Qəmər Elçin qızı
Elmi rəhbər dos. Hacıyeva Aytən Kamal qızı
Azərbaycan Dillər Universiteti

ALLİTERASİYA, ASSONANS VƏ KONSONANS HADİSƏLƏRİ

Alliterasiya - nitqə melodik effekt vermək məqsədi daşıyan fonetik üslubi vasitədir. Bu üslubi vasitənin əsas mahiyyəti oxşar səslərin, xüsusən də samit səslərin təkrarlanmasındadır. [4, s. 126]

Alliterasiya ingilis poeziyasında qədimdən indiyə qədər əsas fonetik vasitələrdən biri hesab olunur. Bu üslubi vasitə adətən müəllifin fikrinə musiqi müşayiəti kimi göstərilir, onu hər hansı bir qeyri-müəyyən emosional ab-hava ilə dəstəkləyir, hər bir oxucu bunu özü üçün şərh edir. Bunun üçün aşağıdaki nümunəyə nəzər salaq:

Much Madness is divinest Sense –
To a discerning Eye -
Much Sense - the starkest Madness -

’Tis the Majority
In this, as all, prevail -
Assent - and you are sane -
Demur - you’re straightway dangerous -
And handled with a Chain -
Emily Dickinson

Müəllif verilən bu nümunədə "m" səsinin alliterasiyasından istifadə etməklə oxucuları dəli olmağın nə demək olduğunu düşünməyə təşviq etmişdir. Bundan əlavə, alliterasiya təkcə nəzmdə deyil, həmçinin emosional nəsrdə, kitab adlarında, qəzet başlıqlarında, atalar sözləri və məsəllərdə çox işlənir.

Türk dillərində alliterasiyanı tədqiq edən A.Axundov onun iki səviyyədə dil və üslub səviyyəsində olduğunu qeyd edir. Alim göstərir ki, dil səviyyəsində alliterasiya obyektiv olub qədim tarixə malikdir və frazeoloji birləşmələrin, atalar sözlərinin, məsəllərin, sabit söz birləşmələrinin, idiomatik ifadələrin tərkibində özünü göstərir. Üslub səviyyəli alliterasiya subyektiv səciyyəli olub, türk dilləri üzrə bir-birindən fərqlənir.[3, s.159] A.Axundov doğru olaraq qeyd edir ki, alliterasiyanın poeziyada əsas vəzifəsi ahəngdarlıq yaratmaq, ikincisi, səs təqlidi və ya predmetin poetik təsvirini yaratmaqdır. [3, s.163]

Azərbaycan dilində alliterasiyanı (uyuşma) söz daxilində yaxın və ya yanaşı gələn səslərin birinin digərinə təsir etməklə məxrəc və akustik cəhətdən uyğunlaşması adlandırmaq olar. Alliterasiya hadisəsi sözün əvvəlində, sonunda, bəzən isə ortasında müşahidə edilə bilər. Azərbaycan dilində uyuşma hadisəsinin müxtəlif təzahür formalarına rast gəlmək mümkündür: təsadüfi uyuşma, daimi uyuşma; tam uyuşma, natamam uyuşma; irəli uyuşma, geri uyuşma.

Assonans ardıcıl işlənən sözlər, ifadələr və ya cümlələr daxilində yerləşən, xüsusilə vurğulu hecalarda eyni sait səslərin təkrarıdır. Eyni¸ yaxud eynicinsli sait səslərin cümlədə və ya mətndə təkrarına əsaslanan assonans, saitlərin ahəngi güclü olan türk dilləri üçün olduqca səciyyəvidir. Bu hadisə türk dillərində üç formada təzahür edir: 1) qalınlıq-incəlik, 2) dodaq-damaq, 3) qapalı-açıq. Saitlər ahənginin möhkəmliliyi, davamlılığı məhz bu cür çoxpilləlik,çoxspektrliyə əsaslanır.[2, s.31]

Konsonans eyni samitin iki və ya daha çox dəfə qısa ardıcıllıqla təkrarlanması ilə xarakterizə olunan poetik üslubi vasitədir. Konsonansla alliterasiya arasındakı fərq ondan ibarətdir ki, alliterasiyada təkrar samit səslər hər sözün əvvəlində, lakin konsonansda əsasən ortada və ya sonda işlənir.

Ədəbiyyat siyahısı

1. Aytan Hajiyeva, English Stylistics (Lectures and Exercises) Baku, "Elm ve tehsil"2015, 172 pp..
2. Aliyeva D.R. Stylistictechnologies in Russian-language art of Turkic peoples, Baku State University news, N1, 2008. Humanities series. p.30-35.
3. Axundov A.AAzərbaycan sovet şeirində alliterasiya və assonans // "Azərbaycan" jurnalı, 1980 № 1, s. 159-164 208 s.
4. Galperin I.R, Stylistics. Moscow: High School, 1997, 331 p.

Məhərrəmova Nuray Aydın qızı
Təhsil – 1 fakültəsi, qr. 111B
Elmi rəhbər:b.müəllim: Ağamalıyeva Cəmilə
Azərbaycan Dillər Universiteti

ИСПОЛЬЗОВАНИЕ ПРИЛАГАТЕЛЬНОГО В РОЛИ ЭПИТЕТА В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Имя прилагательное – основная часть речи, которая обозначает признак предмета. Отвечает на вопросы what? what kind of? how? К примеру: A little boy closed the window. Прилагательные в английском языке могут быть: простые: hot, cold, производные, которые образуются с помощью определённых суффиксов: useless, charming и составные, состоящие из двух корней: cold-hearted, newly-repaired.[2, p.37]

У прилагательного в английском языке нет таких категорий как: падеж, род и число, однако единственной категорией прилагательного являются степени сравнения: положительная, сравни-

тельная и превосходная. 1.Положительная степень не выражает никакого сравнения и чаще всего употребляется с такими словами как: as…as, not so…as, not as…as, и больше всего с “as”. Примеры: This view is not as breathtaking as that one; Helen’s table is not as clean as yours.

2.Сравнительная степень прилагательного отображает большую или меньшую степень проявления контраста того или иного признака одного из прилагательных и может образовываться с помощью прибавления к прилагательному окончания “er” в односложных или двусложных словах, оканчивающихся на y, er, ow, le, some с ударением на последнем слоге: handsome-handsomer, easy-easier. Второй способ образования сравнительной степени заключается в использовании слова “more” с многосложными прилагательным: more beautiful or much more generous.

3.Превосходная степень указывает на то, что признак какого-либо предмета превалирует над другим. Образуется путем добавления –est к односложным прилагательным, оканчивающимся на er, y, ow, le и всегда употребляется с определенным артиклем “ the ’’: He was the shortest guy in our class. Вторым способом образования превосходной степени является использование слова “most” с многосложным прилагательным: It is the most interesting book I’ve ever read. [3, p 30–31.]. После полного определения прилагательного давайте теперь рассмотрим использование прилагательного в качестве эпитета.

Эпитет – это слово или целое выражение, которое приобретает новое переносное значение или смысловой оттенок, помогает слову обрести красочность, насыщенность. Употребляется как в поэзии, так и в прозе. Говоря упрощённо, эпитет – это прилагательное в переносном смысле: pearly beauty - «жемчужная красота».

Давайте рассмотрим употребление прилагательного в качестве эпитета на основе философского романа Оскара Уайльда “Портрет Дориана Грея”.

“She had blue eyes, bright smile and a tell-me-my-good-girl way speaking.” – У неё были голубые глаза, яркая улыбка и доверительная манера речи”. “It is the finest portrait of modern times”; “It is your best work, Basil, the best thing you have ever done.” Автор употребляет множество эпитетов для выражения любви Дориана Грея к искусству и красоте. Один из ярких примеров использования сразу трёх эпитетов: He loved the red gold of the sunstone, and the moonstone`s pearly whiteness, and the broken rainbow of the milky opal. (Он любил красное золото солнечного камня, и жемчужную белизну лунного камня, и ломаную радугу молочной опала).

Список использованной литературы:

1. Jamila Agamaliyeva English Adjectives and Adverbs Baki-2017
2. Mammadova G. English Grammar Rules and Exercises Baki-2020
3. Musayev O.I A Practical Grammar of Contemporary English Baki-2017
4. Prestij-S Английский язык Баку 2019
5. Гальперин И.Р. «Очерки по стилистике английского языка», М., 1958.
6. О.Уайльд, «Портрет Дориана Грея», пер. М.Абкина

Məmmədova Elmira Zaur qızı
Təhsil-1 fakultəsi,qr.111B
Elmi rəhbər:b./müəllim Ağamaliyeva Cəmilə
Azərbaycan Dillər Universiteti

ИНФИНИТИВ БЕЗ ЧАСТИЦЫ « ТО » В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ.

В современном английском языке существует такое понятие как «Verbals»(безличные формы глагола),включающее в себя The Infinitive (Инфинитив),The Gerund(Герундий),The Participle (Причастие) ([1,s.97]).Инфинитив-это безличная форма глагола,которая выражает дей-ствие в общем смысле и в основном используется с частицей «to» ([2,s.182]) В этом тезисе мы предоставим Вам информацию об употребле-нии Инфинитива без частицы «to».

Инфинитив без частицы «to» употребляется в следующих случаях:

- После вспомогательных глаголов: I didn’t understand the words you said to me. (Я не поняла слов, которые вы мне сказали.)

- После модальных глаголов(кроме ought to): You shouldn’t go there alone.(Вам не следует идти туда одной.)

- После глаголов,выражающих чувственное восприятие(to see,to hear,to watch,to notice etc.): She has never seen Elis look so well before. (Она никогда не видела чтобы Элис выглядела так хорошо.)

Примечание:Глагол « to be» после глагола «to feel» используется с части-цей «to» ([1,s.102]): She felt these words to be true.(Она чувствовала что эти слова были правдой.)

- После глагола «to let»:After everything that had happened to them, she couldn't let him leave.(После всего случившегося она не могла позволить ему уйти.)

- После глаголов «to make» и «to have» в значении «заставлять» :What made you think that I’m selfish?(Что заставило вас думать что я эгоистка?)

Примечание:Глагол «to have» в значении «допускать» используется по-сле модальных глаголов will и would в отрицательных предложениях:

I will not have you see me crying.(Я не позволю вам видеть меня плачущей.)

- После глагола «to bid»(умолять,просить): He left her thinking she would bid him stay.(Он ушел ,думая, что она будет умолять его остаться.)

- После выражений would rather ,had better,would sooner,cannot but,nothing but,cannot choose but:You had better leave this town and never come back.(Вам было бы лучше покинуть этот город и больше никогда не возвращаться.)

- После глагола «to know» в значении «to see», «to observe»:I’ve never known him be so sensitive.(Я никогда не видела его таким чувствительным.)

- В предложениях,начинающихся с «Why»,когда инфинитив имеет силу сказуемого: Why not go to the party?(Почему бы не пойти на вече-ринку?)

Примечание: Глаголы to see,to hear,to watch,to notice,to observe,to feel,to let,to make, to have требуют после себя инфинитив с частицей «to»,если употреблены в пассивном залоге(passive voice) ([3,s.228]):Elis was made to obey(Элис заставили подчиниться.)

Список литературы:

1. Mammadova G. English Grammar Rules and Exercises Baki-2020.
2. Musayev O.I. A Practical Grammar of Contemporary English Baki-2017.
3. Каушанская В.Л. A Grammar of the English Language Баку-2013.

Elnurə Nəsibova Elman
Təhsil-2 fakültəsi
Elmi rəhbər: b.m. Bərmuzi Səfiyyə Yusif
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ MƏSDƏR

Həm Azərbaycan, həm də İngilis dilində məsdər spesifik xüsusiyyətlərə malikdir. İki dildə də məsdər hərəkəti bildirir. Azərbaycan dilində məsdər feillərə - maq2 şəkilçisi artırmaqla düzəlir. İngilis dilində isə feilə “to” hissəciyi əlavə olunur. Hər iki dildə də məsdər ikili xarakter daşıyır. Cümlədə feilin və ismin xüsusiyyətlərini götürə bilir. Məsdər cümlədə mübtəda, tamamlıq, təyin, xəbər, zərflik, vasitəsiz tamamlıq kimi funksiyalarda işlənə bilir.

Məsələn: To spend time in the garden is relaxing for the mind and the body.

(Bağda vaxt keçirmək ruhu və bədəni rahatladır. - mübtəda)

Jane’s father wants her to go to Harvard.

(Ceynin atası onun Harvarda getməsini istəyir. - tamamlıq)

The aim of the soldiers was to fight again the enemies.

(Əsgərlərin məqsədi düşmənlərlə yenidən döyüşmək idi. - xəbər)

He is old enough to travel by himself.

(O təkbaşına səyahət edə biləcək yaşdadır - zərflik)

Azərbaycan dilində də bu belədir. Məsdər cümlədə mübtəda, tamamlıq,xəbər kimi vəzifələrdə işlənə bilir. Bununla yanaşı məsdər hər iki dildə məlum və məchul növdə ola bilir.

Məsələn: “to invite” feili

They want to invite him. (Onlar onu dəvət etmək istəyirlər. - məlum)

They want to be invited there. (Onlar ora dəvət olunmaq istəyirlər. -məchul)

Məsdərin digər bir növü bare infinitivedir. Bəzi feillər vardır ki, onlardan sonra “to” hissəciyi işlənmir. Bunlar köməkçi feillər, modal feillər, hiss qavrayış və s. bildirən feillərdir.

Məsələn: She heard him open the door and go out.

(Onun qapını açıb bayıra çıxdığını eşitdi. - hiss qavrayış)

She doesn’t want me to do it.

(O bunu etməyimi istəmir. - köməkçi feil)

Eyni zamanda “məcbur etmək” mənasında to have, to make feilləri, to let,

to bid feilindən sonra gələn məsdər “to” hissəciyi qəbul etmir.

Məsələn: Let me see the match. (İcazə verin matça baxım)

Bununla yanaşı ingilis dilində bəzi ifadələr vardır ki, onlardan sonra da “to” hissəciyi işlənmir. “Had better”, “would rather”, “would sooner”, “cannot but”, “nothing but”, “cannot choose but”.

Məsələn: He said he would sooner stay at home.

(O dedi ki, yaxşı olardı ki evdə qalsın)

İngilis dilində 3 məsdər tərkibi var:

1. The Subjective Infinitive Construction (mübtəda məsdər tərkibi)
2. The Objective – with – the - İnfinitive Construction (tamamlıq məsdər tərkibi)
3. The for - to - Infinitive Construction (for sözönülü məsdər tərkibi)

Mübtəda məsdər tərkibini yaratmaq üçün adlıq halda olan əvəzlik və isim

məsdərlə sintaktik əlaqəyə girərək mübtəda məsdər tərkibini yaradır.

Məsələn: They were seen to leave the house early.

(Onların evi erkən tərk etdikləri görüldü)

They were made to drink some hot milk.

(Ona bir az isti süd içirtdilər)

Tamamlıq məsdər tərkibi yaradan isim və məsdər cümlədə mübtəda və xəbər arasındakı əlaqəni xatırladır. Yəni, bu iki komponent bir-biri ilə sıx əlaqədə olub bir funksiya - tamamlıq funksiyası daşıyır.

Məsələn: I saw him was the street.

(Mən onu küçədən keçəndə gördüm)

They heard her speak in the next room.

(Onlar qonşu otaqdan onun danışığını eşitdilər)

For sözünü məsdər tərkibi məsdər və ümumi halda olan isimdən ibarət

olur, for sözünü isə onun qarşısında işlənir.

Məsələn: He waited for her to speak. (Onun danışmasını gözlədi)

Here are some books for you to read.

(Burada oxumağınız üçün bəzi kitablar var)

Ədəbiyyat siyahısı:

1. Gullu Mammadova: English Grammar Rules and Exercises
2. O.J.Turksever (Musayev), E.J.Hajıyev, A.R.Huseynov: A Practical Grammar Of Contemporary English

Vəliyeva Mərvə Maqsud qızı,120B
Elmi rəhbər:B.M.Arzu Səlimova
Azərbaycan Dillər Universiteti

MÜASİR AZƏRBAYCAN VƏ İNGİLİS DİLLƏRİNDƏ FEİLİN ƏMR ŞƏKLİNİN İŞLƏNMƏ XÜSUSİYYƏTLƏRİ

Feil-ümumqrammatik mənasına görə iş, hal və hərəkəti bildirib, zaman, şəxs və kəmiyyətcə təsriflənən əsas nitq hissəsidir.Feillər müxtəlif forma və zamanlarda işlədilərək "nə etmək?", "nə etdi?", "nə etmişdir?" "nə edir?", "nə edəcək?", "nə edər?" və s. suallarına cavab olur, şəxsə və kəmiyyətə görə

dəyişir, təsdiq və inkar, təsirli və təsirsiz olur.Həmçinin Azərbaycan dilində feillər şəxsə və kəmiyyətə görə dəyişib,dəyişməməsinə görə 2 qrupa bölünür ki,bunlara feilin təsriflənən və təsriflənməyən formaları deyilir. (2)

Feilin şəkilləri danışan (haqqında danışılan) şəxsin görülən işə, hərəkətə münasibətini bildirir.Feilin 6 sadə şəkli var:

1.Əmr şəkli
2.Xəbər şəkli
3.Arzu şəkli
4.Vacib şəkli
5.Lazım şəkli
6.Şərt şəkli

Q.Kazımov "Müasir Azərbaycan dili dərsliyində" yazır: "Subyektin gerçəkliyə münasibətini bildirmək üçün feillərin düşdüyü şəkillərə feilin şəkilləri deyilir.Feillərin şəkillər üzrə dəyişməsi onların zaman, şəkil və şəxs şəkilləri qəbul edərək dəyişməsi nəticəsində yaranır". (1,s.217)

Feilin əmr şəkli ədəbi dilimizin tarixi boyunca öz polisemantikliyi,formal (şəxs) əlamətlərinin rəngarəngliyi ilə seçilmişdir: "Əmr şəkli yalnız qrammatik məzmuna görə deyil,müasir ədəbi dil normasına düşənə qədər keçirdiyi təkmilləşmə xarakterinə görə də başqa şəkillərdən fərqlənir". (4,s.383)

XIX əsr ədəbi dili materiallarında feilin əmr şəkli sabitləşmiş şəkilçilər vasitəsilə düzəlir: feil,II şəxsin təkindən başqa bütün şəxslər üzrə müvafiq şəxs əlamətləri qəbul edir və müasir Azərbaycan ədəbi dilində olduğu kimi,bu dövr yazılarında da birinci şəxs əmrdən daha çox arzu,istək,xahiş,təklif mənalarını bildirir,əmr mənası isə əsasən,ikinci və üçüncü şəxslərdə öz təzahürünü tapır.

Qeyd etmək lazımdır ki,müəyyən dövrlərdə ədəbiyyatımızın müxtəlif şeir nümunələrində bu və ya digər sözün eyni şəkildə bir neçə dəfə təkrar edilməsi ekspressivlik,emosionallıq yaratmaq vasitələrindən biri kimi mövcud

olmuşdur.Bu mənada əmr şəklinin ikinci şəxsində işlənmiş feillərin iki dəfə təkrar edilərək xüsusi məna (hiss,həyəcan,alqış və s.) yaratması halına XIX əsr şairlərindən Seyid Əbülqasim Nəbatinin şeirlərində təsadüf edilir: (3,s.175)

Ey gözüm,yatma dəxi,gəl dəxi bidar ol ,ol,
Xabi-qəflətdən oyan,bir gecə bidar ol,ol,
Yola düş,baxma dalı,get yoli,rahvar ol,ol,
Oğlun ölsün,nə yatıbsan,dəxi bizar ol,ol.

Məlumdur ki,feilin şəxslərə görə təsriflənməyən şəkli ola bilməz;şəkil və şəxs kateqoriyaları həmişə qarşılıqlı əlaqədədir. Əmr şəklinin də morfoloji reallığını,formal əlamətlərinin fərqini və semantik xüsusiyyətlərini aydın dərk etmək üçün onu şəxslər üzrə nəzərdən keçirmək lazımdır.

Şəxs kateqoriyasına olan münasibətinə görə ingilis dili feilləri müasir Azərbaycan dilində olduğu kimi,2 qrupa bölür:

1.şəxsli feillər (finite verbs)
2.şəxssiz feillər (non-finite verbs)

Bu feillər bir-birindən malik olduqları qrammatik kateqoriyalar və sintaktik funksiya baxımından fərqlənirlər: şəxsli formada olan feillər şəxs, şəkil və kəmiyyət kateqoriyalarına malik olduğu halda, şəxssiz feillər bu kateqoriyalara malik deyil. Feillər şəxsli formada cümlədə müstəqil xəbər ola bildiyi halda, şəxssiz formada onlar ancaq xəbərin bir hissəsi ola bilir, təkbaşına xəbər ola bilmirlər. (5,s.93)

İngilis dilində feilin şəkilləri mürəkkəb quruluşa malikdir və onun haqqında bir çox fikirlər mövcuddur. Belə ki,ingilis dilində feilin 3 şəkli var: indicative mood,imperative mood, subjunctive mood. İmperative yəni əmr şəkli bir işin yerinə yetirilməsini tələb etmək üçün işlədilir. Adətən indiki zamanda və ikinci şəxsdə istifadə olunur. Onlar bəzən direktivlər adlanırlar, çünki onlar direktiv qüvvəni kodlayan xüsusiyyəti və reallaşdırılmamış şərh modallığını kodlayan başqa bir xüsusiyyəti ehtiva edirlər. İmperativlər ikinci şəxsin subyektini (sizi) nəzərdə tutur,ancaq digər dillərdə "gəlin(bir şey edək)" və ya "onlara icazə verin (bir şey etsin)" mənaları ilə birinci və üçüncü şəxslərdə də işlənə bilir. (6)

Ədəbiyyat siyahısı:

1. Q.Kazımov Müasir Azərbaycan dili.III hissə
2. İnternet resursu

3. Azərbaycan ədəbi dil tarixi.III cild
4. Azərbaycan ədəbi dil tarixi.I cild
5. Oruc Musayev.İngilis dilinin qrammatikası
6. İnternet resursu

Əliyeva Səma Aqil qızı
Elmi rəhbər: b/m Ə.Q.Məmmədova
Azərbaycan Dillər Universiteti

FRANSIZ DİLİNDƏ SOSİAL MEDİANIN LEKSİKASI

Elm və texnologiya sürətli şəkildə inkşaf edir. Elmin sürətlə inkşafı yeni-yeni texnoloji vasitələrin yaranmasına gətirib çıxarır. Sürətlə inkişaf edən sahələrdən biri də sosial mediadır.

Bu günün daim dəyişən rəqəmsal mənzərəsində sosial media ətrafımızdakı dünya ilə ünsiyyət qurmaq və qarşılıqlı əlaqələr yaratmaq üçün mərkəzi rol oynayır. Dünyada milyardlarla istifadəçini bir araya gətirən Facebook, Twitter, Instagram və TikTok kimi platformalar vasitəsilə bu onlayn məkanlara xas dili anlamaq və qiymətləndirmək vacib hala gəlir.

Sosial medianın dili dinamik və inkişaf edən təbiəti ilə seçilir. İstifadəçilər öz fikirlərini, duyğularını və təcrübələrini ifadə etmək üçün mütəmadi olaraq yeni abbreviaturalar, haştaqlar və ifadələr yaradırlar. Sosial media həmçinin indiyə qədər işlənmiş təsvirlərə və metodlara meydan oxuyan yeni janrları doğurur. Bu linqvistik yaradıcılıq, məlumatların sosial mediada yayılma sürəti ilə gücləndirilir və istifadəçiləri öz fikirlərini bölüşmək üçün qısa və təsirli yollar tapmağa ruhlandırır.

Global sosial media dili ilə yanaşı hər bir dilin özünəməxsus sosial media leksikası mövcuddur. Biz bu məqalədə sosial medianın fransız istifadəçilərinin sosial media leksikasnı araşdırmışıq. Bu leksikaya aşağıdakılar aiddir:

· Akronimlər və abbreviaturalar

Sosial media dilinin ən fərqləndirici xüsusiyyətlərindən biri də akronimlər və abbreviaturaların geniş yayılmasıdır. Fransız dilində « mdr»-mort de rire (gülməkdən ölmək), və « slt »- salut (salam) kimi terminlər adətən emosiyaları və ya sürətli reaksiyaları ifadə etmək üçün istifadə olunur. Bundan əlavə, şəxsi mesajları ifadə etmək üçün «mp» - message privé (özəl ismarıc) kimi platformaya xas abbreviaturalar da geniş istifadə olunur. «Tkt » t'inquiète – (Narahat olma), « Stp » - s'il te plaît Xahiş edirəm, zəhmət olmasa , « Jsp» - je ne sais pas (mən bilmirəm), « OMG »- Oh mon Dieu (Aman

Allahım) kimi qısaltmalar da sosial medianın fransız seqmentində ən çox istifadə olunan leksikadır.

• Hecanın əvəzinə hərfdən istifadə :

Məsələn: « Jui ENVR » - je suis énervé - (mən əsəbiyəm)

• Feillərin sadələşdirilməsi :

Məsələn: « Coucou! Comen ca va ? Ca fé lontps!» -Coucou ! Comment ça va? Ça fait longtemps ! (Salam! Necesən? Uzun zamandır görüşmürük)

• Inkar hissəciklərinin və apostrofların silinməsi :

Məsələn: « Chépas » – je ne sais pas (mən bilmirəm), kelkl - quelqu' un (kimsə)

• İngilis dilindən keçənlər:

Məsələn: «Chui ravie kon é pu se see» - je suis ravi qu' on est pu se voir (görüşə bildiyimiz üçün çox şadam)

Verlenizasiya - hecaları tərsinə çevirməklə çoxlu sayda neologizmlər yaratmağa imkan verir.

Məsələn: « Feumeu, meuf » – femme. Ya pa de feumeu-il n'y pas de femmes! (Qadın yoxdur).

· Hərflərin və durğu işarələrinin təkrarı- mənanı qüvvətləndirmək üçün istifadə edilir.

Məsələn: « BIZZ », « MDR!!! » – mort de rire (öldüm gülməkdən)

Nəticə olaraq, sosial media dili həm fransız, həm də digər dillərdə onlayn ünsiyyətin daim inkişaf edən aspektidir. Yeni platformaların və yeni tendensiyaların ortaya çıxması ilə sosial şəbəkələrdə linqvistik inkişafları izləmək vacibdir.

Ədəbiyyat:
1. ANIS, Jacques (1999): Internet communication et langue française, Paris, Hermès, 190 p.
2. Fransızca-Azərbaycanca lüğət (ikinci nəşr, R. C. Cabbarovun redaktorluğu ilə), Bakı, 2006. 459 səh. 3. https://fr.wiktionary.org/wiki/slt

Nargis Mehman Jafarova
Supervisor: Dr. of Philological Sciences,
Associate Prof. Malahat Akbar Valiyeva
Azerbaijan University of Languages

NAMES OF INTERNATIONAL ORGANIZATIONS IN GRAPHICAL ABBREVIATION

An abbreviation is a shortened form of a written word or phrase. Abbreviations may be used to save space and time, to avoid repetition of long words and phrases, or simply to conform to conventional usage. Abbreviation is a Latin word (brevis) which means "short". Let's give some examples for abbreviation: MR- Minister; A.M – Ante Meridiem; P.M – Post Meridiem; WEU- Western European Union; UNESCO – United Nation for Education, Science and Cultural Organisation; AU- African Union; VISA- Visitors International Stay Admission; CEO - Chief Executive Officer; DISC- Dominance, Influence, Steadiness, and Compliance; PDF - portable document format; RAM – Random Access Memory; BIOS – Basic Input Output System; CD – Compact Disk; DVD – Digital Versatile Disk; INFO – Information; SMS – Short Message Services; SBA - Small Business Administration; CSP - Commercial Sales Practices; WTO- World Trade Organisation; ATM- Automated Teller Machine; CPU- The Central Processing Unit; These abbreviations are widely used in international diplomacy, economics, and various fields of global governance:

United Nations (UN); World Bank (WB); International Monetary Fund (IMF) ; World Trade Organisation (WTO); International Labour Organisation (ILO); Organization of American States (OAS); Organization for Security and Co-operation in Europe (OSCE); International Atomic Energy Agency (IAEA) ; International Criminal Court (ICC); International Court of Justice (ICJ); United Nations High Commissioner for Refugees (UNHCR); International Committee of the Red Cross (ICRC); United Nations Security Council (UNSC); British Petroleum (BP); International Civil Aviation Organization (ICAO); Value Added Tax (VAT) ; Human Development Index (HDI); Purchasing Power Parity (PPP); Return on Invesment (ROI) ; Gross National Product (GNP); Federal Deposit Insurance Corporation (FDIC) ; European Union (EU); Water (H20); Ribonucleic Acid (RA); Polymerase Chain Reaction (PCR); Magnetic Resonance Imaging (MRI); Human Immunodeficiency Virus (HIV); Curriculum Vitae (CV); Prof. for Professor ; Dr. for Doctor; Co.for Company; Corp. for Corporation; Assoc. for Associate; Govt. for Government; Dept. for Department and so on.

In common, abbreviations are used to shorten lengthy words or phrases, making communication more efficient and concise. They are commonly used in various contexts such as texting, professional writing, scientific literature, and technical documentation. Abbreviations save time, space, and effort, allowing for clearer and faster communication. Here are most commonly used some of abbreviations: PhD – Doctor of Philosophy; FAQ – Frequently Asked Questions ; FBI – Federal Bureau of Investigation ; RSVP – Repondez s'il vous plait (please respond); NATO – North Atlantic Treaty Organization; AIDS- Acquired Immune Deficiency Syndrome; IQ – Intelligence Quotient ; DNA- Deoxyribonucleic Acid; CPU- Central Processing Unit; NASA – National Aeronautics and Space Administration; UNESCO – United Nations Educational, Scientific and Cultural Organization; UFO – Unidentified Flying Object; CIA – Central Intelligence Agency; SWAT- Special Weapons and Tactics; NFL – National Football League; HR- Human Resources etc.

In our fast-paced digital world, people often seek ways to communicate more efficiently, and abbreviations allow them to convey information quickly and concisely. With the rise of digital communication platforms such as texting, social media, and instant messaging, where character limits and speed are important, abbreviations have become a convenient way to streamline communication. In casual conversations, abbreviations are commonly used to mimic spoken language and convey informality. This trend has been accelerated by the prevalence of social media platforms, where brevity is encouraged. Overall, the widespread adoption of abbreviations reflects the evolving nature of communication in the digital age, where brevity, speed, and convenience are highly valued.

Resources:
1. Aziza Hajiyeva.English Lexicology (textbook) pg.69;
2. https://www.jagranjosh.com/general-knowledge/list-of-international-organisation-and-their-abbreviation-145974

Nigar Vugar Salimova
Supervisor: Dr. of Philological Sciences, Associate Prof. Malahat Akbar Valiyeva
Azerbaijan University of Languages

RHYME COMBINATIONS AS COMPOUND WORDS

Compound words are lexical units formed by combining two or more independent words. This combination results in a new word with its own distinct meaning. For instance, the words "sun" and "flower" combine to create the compound word "sunflower." Compound words are used in various contexts and serve to express a wide range of concepts. They are incredibly important because they allow us to express complex ideas using fewer words. Compounds words play a crucial role in enriching our vocabulary and expressing ourselves creatively.

Reduplication is one of the techniques we use in forming compound words. By repeating all or part of a word, we can create new compound words with unique meanings or emphasize certain aspects. Reduplicative compounds can be categorized into three main subgroups: reduplicative compounds proper, ablaut combinations, and rhyming combinations. Here are some examples for each subgroup of reduplicative compounds:

1. Reduplicative compounds proper: "bye-bye," "tick-tock," and "chit-chat," are created by repeating a word or part of a word to form a new word or phrase.

2. Ablaut combinations: "sing-song," "ding-dong," and "clip-clop" are examples of ablaut combinations. These combinations involve the repetition of a word with a vowel change, creating a rhythmic and melodic effect.

3. Rhyming combinations: Rhyming combinations are created by using words that have similar ending sounds to create a rhythmic and melodic effect. For example: "wishy-washy", "roly-poly", "boogie-woogie".

Compound words like wishy-washy or mumbo-jumbo, or any words that contain two separate rhyming words are called tautonyms (from the Greek tauto, meaning “the same” and -onym, meaning “name”). In many cases, the first word of a tautonym is a real word while the second part, often nonsensical, is invented to create a rhyme and to create emphasis. Rhyme is a linguistic term that refers to the similarity of sounds between words or the ending sounds of words. When two or more words have the same or similar ending sounds, they are said to rhyme. Rhyme is often used in poetry, songs, and other forms of creative writing to create a pleasing and rhythmic effect. Rhyme can also be used to create compound words. Compound words are formed by combining two or more words to create a new word with a different meaning. When these compound words have a rhyming pattern, it adds a playful and rhythmic element to the language. For example, "super-duper," "tick-tock," and "mumbo-jumbo" are all compound words that rhyme. They not only have a catchy sound, but they also convey a specific meaning or create a vivid image. One famous example of a rhyming compound word in literature is "super-duper" from the children's book "Green Eggs and Ham" by Dr. Seuss. In the book, the character Sam-I-Am uses this playful phrase to describe something that is really great or impressive.

Overall, rhyming combinations contribute to the richness and creativity of language. They bring joy, musicality, and impact to our words, making communication more engaging and enjoyable.

Resources:
1. Aziza Hajiyeva. English Lexicology (Textbook) [pg. 66].
2. Dr. Goodword's Essay on Rhyming Compounds
3. https://www.alphadictionary.com/articles/rhyming_compounds02.html

Əsədzadə Ziba Etibar qızı

Elmi rəhbər -Yusifova Püstəxanım Tahir qızı
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ " EHTİMAL" MƏNALI MODAL FEİLLƏR

Bir çox dillərdə olduğu kimi, ingilis dilində də modallıq kataqoriyası bir sıra vasitələrlə ifadə olunur ki, bunlardan birinə modal feilləri aid etmək olar.

Məsdərlə işlənərək modal feil hərəkətin mümkünlüyünü, qeyri-mümkünlüyünü, vacibliyini, gərəkliyini, lazımlılığını bildirir.

Gerçəkliyindən əmin olduğumuz faktları bildirərkən bu modal feillərdən istifadə edirik: Will, may, can, must, shall, ought to, would, should, could [1, s.152].

1. Must \ have to \ have got to [3]

Fəaliyyətin mütləq şəkildə baş verəcəyini bildirərkən istifadə edirik. Mənfi spekulasiya yaratmaq üçünsə can't ya da couldn't modal feillərindən istifadə edirik. Məsələn, I must perform tonight.

2. May \ might\ could [2]

Bu modal feillərdən fəaliyyətin gerçəkləşəcəyindən daha az şəkildə əmin olduğumuz zaman istifadə edirik .

May not və ya might not vasitəsi ilə isə ehtimal inkar olunur [1, s.156]. Məsələn, He might have been the one who performed on the stage.

Bu modal feillərdən sonra sadə və ya davamedici məsdər işlənşrsə hərəkət indiki zamana aid olur: He must be at home right now.

Must, may, could modal feillərindən sonra məsdərin perfect forması işlənərsə ehtimal keçmiş zamana yönəlir.

You should tell them the trust.

4. Can Can modal feili konkret hadisə ilə bağlı ehtimaldan danışmaq üçün istifadə edilmir: He can do it by himself.

COULDN'T digər modal feillərin inkar formasından fərqlidir [1, s.154]. Bu zaman "ola bilməz ki kimi" tərcümə olunur: He couldn't have seen you.

Ədəbiyyat siyahısı

1. Musayev, O. İngilis dilinin qrammatikası. Bakı: Qismət, 2007, s.587
2. https://learnenglish.britishcouncil.org/grammar/c1-grammar/modals-probability
3. https://studfile.net/preview/7327353/page:11/

Zeynalova Nigar İlqar
Fil.f.d.dos. Əliyeva Ülviyyə Çingiz
Azərbaycan Dillər Universiteti

ALAN SİLLİTOENIN YARADICILIĞININ XÜSUSİYYƏTLƏRİ

Alan Sillitoe müharibədən sonrakı dövrün ən mühüm britaniyalı yazıçılarından biridir. O, yoxsulluqdan qalxaraq ən yaxşı romançılardan biri və Nottingemin ən məşhur müasir yazıçısı oldu.Milli xidmətini Malayada başa vuran Sillitoe, daha sonra Nottingemə qayıtdı.[1] Vətənə qayıdan Alana, vərəm diaqnozu qoyulur. 16 ay xəstəxanada qalan Alan, bu dövürdə səmərəli istifadə edərək çox sayda kitab, bədii əsərlər oxumağa və eyni zamanda yazmağa başlayır. Onun personajları və hekayələri Nottingemdəki öz təcrübələrindən ilhamlanıb. Onu ədəbiyyatı daha dərindən öyrənilməsinə həvəsləndirən digər səbəblərdən biri də, Fransa İtaliya İspaniyaya səhəti ilə bağlı səfəri sirasında tanış olduğu Amerikalı şairə Ruz Feynlaytdır. 1959-cu ildə A.Sillitoe və R.Feynlayt ailə heyatı qurur.[2] Onun yaradıcılığının əsas istiqaməti ingilis işçilərinin taleyinə həsr olunmuş sosial-məişət motivli romanlardır. A.Silitoe,1950-ci illərdə ortaya çıxan və ölkələrinin qurulmuş ictimai siyasi nizamına hörmətsizlik və narazılıqlarını ifadə edən müxtəlif İngilis romançıları və dramaturqlardan ibarət olan "Qəzəbli Gənclər" hərəkatının liderlərindən hesab olunur. Onların səbirsizliyi və qəzəbi xüsusilə yuxarı və orta təbəqənin ikiüzlülüyü və riyakarlığına qarşı idi.

Bu yazıcıların siyahısına Britaniya ədəbiyyatında mühüm rol oynayan Alan Sillitoedə daxildir. Yazıçı SSRİ-yə dəfələrlə gəlsədə, onun 1968-ci ildə Sovet Yazıçılarının Qurultayındakı çıxışında Sovet İttifaqında insan hüquqlarının pozulmasından bəhs edən nitqi "persona non grata" -arzuolunmaz insan mövgeyinə salır. Onun karyerası çox məhsuldar olub. A.Sillitoenin böyüklər və uşaqlar üçün şeir, esse, səyahət yazısı, bədii ədəbiyyat da daxil olmaqla 50-dən çox kitabı, bir neçə pyesi və ssenarisi nəşr olunub. Lakin onun digər əsərləri, 1950-ci illərin sonlarında nəşr olunan ilk bədii əsərlərinin tanınmasını və ya təsirini heç vaxt təkrarlaya bilmədi və bu, tənqidçilərin onu Qəzəbli Gənclər silsiləsinə daxil olan, Kingsley Amis və dramaturq Con Osborne kimi İngilis cəmiyyətində sosial - sinif sisteminə qarşı üsyan edən personajları təsvir edən yazıçılardan biri kimi təsnif etmələrinə səbəb oldu. A.Sillitoenin ilk nəşr olunmuş romanı – "Şənbə Gecəsi və Bazar Səhəri", kobud və əxlaqsız bir gənc işçinin şənbə gecəsi içki və cinsi əlaqənin iş həyatının zülmündən yeganə qurtuluş yolu kimi görməsini izah edən hekayədir. Müəllif əsərdə "qəzəbli gənclər" nəslinin səsi ilə danışaraq, kobud və təhsilsiz həyat tərzinə sahib olan İngilis fəhlə sinfi gənclərinin, firavan həyata sahib olan yaşıdlarına nisbətən ətrafdakı dünyanın ədalətsizliyi və qəddarlığından daha dərindən və kəskin xəbərdardır. 2001-ci ildə Sillitoe "Şənbə Gecəsi və Bazar

Səhəri" romanının davamı olan "Ad günü" əsərini nəşr etdi. İkinci, ona ən çox şöhrət gətirən əsərlərdən biri də "Uzun məsafədə qaçışçının tənhalığı" adlı qısa hekayələr toplusudur. Sonrakı romanlar, məsələn," Uilyam Posterlərinin Ölümü və Dulun Oğlu "daha çox intellektual fəhlə personajlarından bəhs edir.[4]

A.Sillitoenin yaradacılığını ən mühüm xüsüsiyyətləri: Sillitoe tez-tez İngiltərənin fəhlə sinfi və əyalət şəhərlərindəki həyatın sərt reallığını təsvir ilə, eləcə də, ətraf mühitin sadə, insanların həyatının ifadəli və dəqiq realist təsviri ilə seçilir. Onun əsərləri sosial bərabərsizliklərin və ədalətsizliyin tənqidini nümayiş etdirir, bununla yanaşı, sinfi fərqlər, sənaye məhrumiyyəti və cəmiyyətdən uzaqlaşma mövzularına daim müraciət edirdi. Sillitoenin bir çox əsərlərində uyğunluq və cəmiyyətin stereotiplərinə qarşı müqavimət mövzusu var. Onun personajları sosial normaların və gözləntilərin təzyiqinə baxmayaraq, çox vaxt azadlıq və özünü ifadə etməyə çalışır. Sillitoenın əsərlərinin bir çoxunda, ətrafa və ya şəraitə baxmayaraq, taleyini dəyişməyə çalışan və ya hüquqları uğrunda mübarizə aparan güclü personajlar mövcuddur. Sillitoe sadə, lakin canlı və emosional üslubda yazır. Onun üslubu asan oxunur və oxucunun ruhuna nüfuz edir, onu dərin sosial və etik məsələlər haqqında düşünməyə vadar edir. O, personajlarının hiss və duyğularını ustalıqla çatdırır ki, bu da onun əsərlərini təsirli və yaddaqalan edir. Azadlıq və seçim Sillitoenin yaradıcılığında mühüm rol oynayır. O, personajların çətin vəziyyətlərdə necə qərar qəbul etdiyini və bu qərarların onların həyatında necə nəticələndiyini araşdırır. Sadalanan xüsusiyyətlər Alan Sillitoenin əsərlərini canlı və orijinal edir, oxucuların diqqətini mühüm sosial və insani məsələlərə cəlb edir.[5]

Ədəbiyyat siyahısı:

1. https://www.britannica.com/biography/Alan-Sillitoe
2. https://www.nytimes.com/2010/04/26/books/26sillitoe.html
3. https://www.britannica.com/topic/Angry-Young-Men 4. https://www.livelib.ru/author/231382-alan-sillitou 5. https://kids.britannica.com/students/article/Alan-Sillitoe/34171

Quliyeva Aytac Nadir
Fil.f.d Z.F.Əlibəyova
Azərbaycan Dillər Universiteti

Y.ZAMYATİNİN "BİZ" ANTİUTOPİK ROMANI

Hər dövrdə cəmiyyətin və dünyanın necə daha ədalətli və daha yaxşı ola biləcəyi ilə bağlı suallarla qarşılaşırıq. İdeal nizamın qurulması ilə bağlı ilk sistemli fikirləri irəli sürən Platondan bəri bir çox mütəfəkkirlər bu sorğular nəticəsində utopik sistemlər irəli sürmüşlər. Ancaq mükəmməlin təsviri ilə bağlı tənqidlər distopiyanın yaranmasına zəmin yaradıb. Utopiyadan qidalanan distopiya arzuolunmaz, zülmkar cəmiyyətlərin təsvirini təqdim edir. Bu araşdırmada Zamyatinin distopiya janrında olan "Biz" romanında qurduğu həyatı və zalım nizamı tənqid etməsindən, totalitar rejimləri tənqid etməsindən, həmçinin, totalitar quruluşun özünü necə yaratması, müşahidə üsullarından necə istifadə etməsindən danışacağıq.

Yevgeni Zamyatinin 1920-ci ildə yazdığı “Biz” romanı XX-ci əsr distopiyasının ilk nümunəsidir. Corc Oruell “1984”, Oldoks Haksli “Cəsur Yeni Dünya”, Rey Bredberi “451- Faranheyt” kimi antiutopik əsərlər “Biz”dən təsirlənərək yazılmışdır.

Əslində, roman D-503-ün inşa mərhələsində olduğu İnteqral adlı kosmik gəmi ilə başqa planetlərə aparılmaq üçün yazılmış gündəliyidir. Çünki Tək Dövlət öz ideologiyasını və nizamını başqa həyatlara köçürmək və yaymaq istəyir. Bu İnteqral vasitəsilə baş verəcək. D-503 Havadarın hakimiyyəti altında olan Vahid Dövlətin həyatını belə oxucuya çatdırır: “Biz milyonlarla insan hər səhər eyni vaxtda və eyni dəqiqədə bir bədən kimi oyanırıq. Tək milyon olaraq eyni saatda, tək milyon olaraq işə başlayırıq." İşi eyni anda bitiririk.

Milyonlarla əllə tək bədənə əriyib, gəzintiyə çıxıb gedirik. Burada hər kəs eyni geyinən bir nömrədir, onların adları yoxdur. Müəyyən ardıcıllıqla hərəkət edən nömrələr kütləvi istehsal edilmiş robotlara bənzəyir, onlar öz fərdiliyini itiriblər. Heç bir fərdi və hərəkəti qəbul etməyən, riyazi nizamın hökm sürdüyü bir həyatdır. Tək Dövlətin təklif etdiyi və davam etdirmək istədiyi: “Orijinal olmaq bərabərliyə etinasızlıq etməkdir”. Romanın adından belə başa düşmək olar ki, Vahid Dövlət hamını “biz”ə çevirmək istəyir. Vahid Dövlət öz ideologiyasını tətbiq etmək və standartlaşdırmaq üçün xüsusilə müşahidə üsullarından istifadə edir. Məqsədinə çatmaq üçün hər kəs hər zaman müşahidə edilməlidir. Belə bir nizama azadlıq, xoşbəxtlik, sevgi və təxəyyül düşmənçiliyi daxildir. Çünki azadlıq insanların istədikləri kimi geyinməsinə, istədikləri kimi davranmasına və istədikləri şəxslə əlaqə saxlamasına səbəb olacaq. Ola bilsin ki, Vahid Dövlətin hökmdarı olan Havadarın hökmranlığından kənar başqa belə bir həyat tərzi var və beləliklə, bütünün mükəmməl harmoniyasını pozacaq fərdiləşmə meydana gələcək. “Biz” romanının baş qəhrəmanı D-503 İnteqral adlı gəmini inşa edən mühəndis, riyaziyyatçıdır. Əslində, azadlığın paylanması adı altında həyata keçirilən strategiya zərərli azadlığın aradan qaldırılması strategiyasına çevrilir ki, bu da “Biz” romanında bədbəxtliyə bərabərdir. İnteqral, mahiyyət etibarilə, təyin edilmiş məqsədinə zidd olaraq istehsal edilmiş bir alətdir. Başlanğıcda Vahid Dövlətin zalım, nəzarətçi ideologiyasını öz kimliyinin bir parçası edən D-503 bu strategiyanı yerinə yetirməyi öhdəsinə götürdü. İnsanları müəyyən fəaliyyət rejimlərində saxlamaqla, onların həyat dövrlərini proqramlaşdırmaqla, cinsiyyətlərinə nəzarət etməklə, onları daim nəzarətdə saxlayır. Foucault’un dedikləri ilə paralel olaraq, Vahid Dövlət bu təcrübələr vasitəsilə özünün “təmiz, mükəmməl, normal” kimliyini tətbiq edir. Bunu D-503 ifadələrində görmək mümkündür: “Biz” Allahdan, 'mən' şeytandan gəldim."

Ədəbiyyat

1. https://www.themagger.com/biz-yevgeni-zamyatin-kitap/
2. Yevgeni Zamyatin “Biz” kitabı -1924

Ələkbərova Nilufər
Elmi rəhbər - müəllim Yusifova Püstəxanım Tahir qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ İSMİN YİYƏLİK HALI

Hal ismin cümlədəki digər sözlərlə əlaqəsini göstərən qrammatik kateqoriyadır. İngilis dilində isimlərin iki halı var: ümumi hal və yiyəlik hal. [1, s 17]

Yiyəlik hal təkdə olan ismə s' (apostrof s) və -s hərfi ilə bitən cəm formalarına isə yalnız ' (apostrof) əlavə etməklə əmələ gəlir.

Məsələn: Tək: A girl’s book Cəm: girls’ school [4, s 24]

Hal-hazırda ‘s hətta bəzi cansız varlıqları bildirən isimlərlə, zərflərlə işlənə bilir.

1. Zaman və məsafə bildirən isimlərlə: an, gün, saat və s.

Məsələn:Two days’ leave

2. Fəsil, ay, həftə adlarını bildirən isimlərlə.

Məsələn: Summer’s heat

3. Ölkə, şəhər adlarını bildirən isimlərlə.

Məsələn: London’s beauty

4. Aşağıdakı isimlərlə: günəş, ay, yer, çay, okean, su, dünya, külək, şəhər, gəmi, gəmi, qayıq, gəmi.

Məsələn: The sun's ray

5. Zamanı bildirən zərflərlə: bu gün, sabah, dünən.

Məsələn:Today's newspaper

6. Aşağıdakı ifadələrdə olduğu kimi bəzi cansız isimlərlə

Məsələn: to be at one's wits, for god's sake, etc. [3, s 22-23]

Yiyəlik çox vaxt of ifadəsi ilə eyni mənada istifadə edilə bilər. Məsələn: the earth's gravity-the gravity of the earth (daha uyğun)

Mübtəda xəbər əlaqəsi. Məsələn: his parent's consent-the consent of his parents (daha uyğun)

Xəbər-tamamlıq əlaqəsi. Məsələn: The prisoner's release-the release of the prisoner (daha uyğun)

Mübtəda-kompliment əlaqəsi. Məsələn: Everyone's happiness-happiness of everyone (daha uyğun) [1, s 43]

Bəzi hallarda müasir ingilis dilində yiyəlik halda isimdən sonra heç bir isim istifadə olunmur. Bu, yiyəlik halın mütləq forması adlanır. Bu hallarda baş verə bilər:

1. Yiyəlik halında isim yeri bildirdikdə bu halda 's azərbaycanca gilə,-gildə ilə üst-üstə düşür; I'll go to my uncle's.

2. Kontekstdən aydın olan, əvvəl qeyd olunan adı təkrarlamamaq üçün: And suddenly, with her other hand she caught John's.

3. Yiyəlik halda isimdən və ya "of" sözönünün əvvəlində olan yiyəlik əvəzliyindən əvvəl: a friend of my brother's or a friend of mine.

"of+yiyəlik hal" birləşməsi bölgünü ifadə edir. Bəzi hallarda yiyəlik hallı birləşmə bu hissi itirir və sadəcə emosiyanı ifadə edir məsələn: The foolish friend of mine-mənim bu sarsaq dostum. [3, s 24]

Ədəbiyyat siyahısı:

1. Leech, G., Svartvik, J. A communicative grammar of English. 3rd edition, Routledge, 2002, p. 304.
2. Mammadova, G. English grammar and rules. Zərdabi, 2020, səh. 424.
3. Musayev, O. Practical grammar of contemporary English. bakı: KM, 2014, s. 587.
4. Каушанская, В.Л., Ковнер, Р.Л., Кожевникова, О.Н. Grammar of the English language. Айрис пресс, 2008, s.381

Leman Omerova Kamran.
Ph.Dr. Aliyeva Khayala Shahverdi.
Azerbaijan University of Languages

ANIMAL IDIOMS

It is undeniable that English is a very significant language. It is one of the official languages of the European Union, numerous international organizations, and a great deal of countries. English is also the language of commerce and business and is increasingly used as a lingua franca in academic and professional contexts. For all of these reasons, learning English can be hugely beneficial. It can open up opportunities for travel and work, and help you to communicate with people from all over the world. [1]

The lexis of the English language is especially rich. Idioms unquestionably contribute significantly to the richness of the English language. Idioms serve to enhance people's comprehension and proficiency with the English language while also symbolizing distinct cultural and historical facts. Idioms are a tool used by native speakers to give their speech more vibrancy and life. [2]

As a language learner, you always seek ways to improve your vocabluary and make you sound more fluent. One fun aand effective way to do that is by incorporating animal idioms into your speech. Not only do they make your language more colourful, but they also convey a deeper meaning that simple words cannot. So let's dive in and learn some new expressions that will make you sound like a native speaker in no time! [3]

Butterflies in your stomach- to feel nervous or anxious, especially before a performance or event.

Example: Before her big speech, she had butterflies in her stomach.

Kill two birds with one stone- to accomplish two things at the same time with a single action.

Example: By meticulously examining every detail and considering all possibilities, Poirot effectively "kills two birds with one stone" by solving the primary murder mystery while also uncovering additional truths and resolving other subplots within the narrative. (In Agatha Christie's mystery novel "Murder on the Orient Express,")

Cat nap- a short sleep.

Example: He was in the middle of a cat nap, and he wasn't going to wake up for anything. (In J.K. Rowling's "Harry Potter and the Prisoner of Azkaban,")

Hold your horses- wait and be patient.

Example: Atticus walked to the corner of the lot, then stood watching us. 'If anything happens,' he said, 'you all yell. Atticus, hold your horses.' We were too scared to say anything. ("In Harper Lee's "To Kill a Mockingbird,")

A little bird told me - I heard something from someone.

Example: a little bird told me that you are thinking of quitting your job.

To bug someone - to be irritating or to ask a person a series of questions.

Example: Every time I think about it, it bugs me like a sore tooth you can't stop touching." – (Stephen King, "Under the Dome")

Elephant in the room- a very obvious problem. Everyone is aware of this problem, but no one wants to mention it because it is uncomfortable.

Example: "Every family has its problems, but ours was like an elephant in the room that everyone pretended not to notice." – (Jodi Picoult, "My Sister's Keeper")

Busy as abee- Describes someone who is very industrious, hardworking, or constantly active.

Example: Meg was as busy asa bee all morning, baking pies and cakes for the church bake sale. ("Little Women" by Louisa May Alcott)

The study indicates that learning English through its idioms might have additional benefits. There are numerous animal idioms in the language. Idioms about well-known animals are easier to pick up and remember, and they are also entertaining, which encourages faster learning. Idioms pertaining to animals are easier to acquire than those involving abstract or less-known phenomena since they are visually appealing, observable, useful in many languages and cultures, easy to remember, and difficult to forget. [4]

Literature review

1. https://www.researchgate.net/publication/334282978_THE_ROLE_OF_ENGLISH_AS_A_GLOBAL_LANGUAGE.
2. https://core.ac.uk/download/53082334.pdf .
3. https://zoundslike.com/44-animal-idioms-to-spruce-up-your-english-vocabulary.
4. https://www.researchgate.net/publication/344771015_Value_of_Animal_Idioms_in_Bringing_about_Native-Like_Proficiency_among_EFL_Learners.

Filologiya fakültəsi, 439B, Bəkirova Natəvan Fəxri qızı
Elmi rəhbər: Fil. f. d., dos. Hüseynli Gilə Mehdi qızı
Azərbaycan Dillər Universiteti

HERMANN HESSENİN "DEMİAN" ƏSƏRİNDƏ ŞƏXSİYYƏTİN PSİXOLOJİ İNKİŞAFI VƏ ÖZÜNÜDƏRK

Heç nə insanı onun özünə aparan yolla getmək qədər iyrəndirə bilməz (H.Hesse)

İnsanın özünüdərk yolunu, içimizdəki tırtılın kəpənəyə çevrilməsini Yunq "fərdiləşmə" (the individuation process) adlandırır. Yunq fərdiləşmə dedikdə yalnızlıq, azadlıq və ya müstəqilliyi nəzərdə tutmur. Yunqa görə, fərdiləşmə başlanğıcda ayrı olan fərqli mənlik parçalarının zamanla bir bütün olmasıdır. Bu da özünü tanıyıb, ruhunu yetkinləşdirməyi bacara bilən şəxsiyyətlərin çata biləcəyi bir vəziyyətdir. Yunq bizə göstərir ki, hər birimizin daxilində müəyyən bir potensial var və o potensialı kəşf etmək bizim ən

böyük məqsədimizdir. Başqa sözlə desək, Yunq hər bir insanın hədəfinin fərdiləşmə olduğunu iddia edir. Yunq öz əsərlərində bu prosesi uzun həyat yolu kimi təsvir edir. Fərdiləşmə prosesində arxetiplərin rolu danılmazdır. Arxetip "köhnə tip", "ilkin nümunə" mənalarını verir. İnsanın öz həqiqi şəxsiyyətini tam şəkildə anlaması, mənimsəməsi, özünü olduğu kimi qəbul etməsi üçün arxetiplər əhəmiyyətlidir. Bu məqama Hessenin digər əsərlərində də rast gəlirik: baş qəhrəmanın özünüdərk yolunda qarşılaşdığı hər bir qəhrəman müəyyən bir arxetipi təmsil edir və obrazın yolun sonuna çatmasında – yəni fərdiləşmə prosesini tamamlamasında önəmli rol oynayır. Arxetipləri anlamaq üçün Yunqun analitik nəzəriyyəsinə nəzər salmalıyıq. Yunq insan şəxsiyyətini 3 struktura bölür: eqo, şəxsi şüursuzluq və kollektiv şüursuzluq. Arxetiplər məhz kollektiv şüursuzluğun məhsuludur. Yunqun fərdiləşmə prosesində 4 əsas arxetip xarakterizə olunur: "Persona", "Kölgə", "Anima /Animus" və "Self" adlandırdlığımız "Mən" arxetipi. Gəlin Demian əsərinə Yunq arxetiplərinin gözündən nəzər salaq: Persona bizim ictimai üzümüzdür, sosial tələbatları yerinə yetirmək üçün oynadığımız roldur. İnsanlar cəmiyyət tərəfindən qəbul olunmaq üçün bu psixoloji texnikadan istifadə edirlər. Əsərin baş qəhrəmanı Emil Sinkler persona axetipini təmsil edir. Təhkiyə boyu Emil qəbul olunmaq, sosial cəmiyyətdə özünə yer tapmaq istəyi ilə alışıb-yanan bir personajdır. Sinkler ilk dəfə yalan danışmaq ehtiyacını hiss etdiyi an onun personası aktivləşir: Frans Kroker və onun dəstəsi tərəfindən qəbul olunmaq üçün yalana əl atır, hekayələr uydurur və özünə bir "maska" seçir. Kromer onu bu günə qədər tanımadığı və yaşadığı mühitin tam əksi olan qaranlıq bir aləmə aparır. Sonralar Sinkler keçmişini xatırlayanda sırf tək qalmamaq üçün bütün bunları etdiyini söyləyirdi. Belə etiraflara əsər boyu dəfələrlə rast gəlirik və görürük ki, hər etiraf bizi Personanın yoldaşı hesab edilən digər arxetipə - Kölgə ilə tanışlığa yaxınlaşdırır. Kölgə arxetipi insan həyatının qaranlıq tərəfi ilə eyniləşdirilir. Hər bir insanın öz kölgəsi var və onsuz mövcud ola bilməz. Kölgə bizim özümüzə belə etiraf etmədiyimiz qaranlıq tərəfimizdir. Kölgə vasitəsilə insan keçmişini, bəsit arzu və istəklərini, meyillərini nəzarətdə saxlayır. Zaman keçdikcə kölgə sıxışdırılır, insan özünün şüursuzluğunu, qaranlıq tərəfini görməkdən imtina edir. Amma kölgə yenə də öz inkişafindan qalmır. Günlərin bir günü sıxışdırılmış arzular, fikirlər ortaya çıxıb insana hakim kəsilir və süni işıqlı dünyanı darmadağın edir. Hesse Demian obrazı vasitəsilə bildirir ki, özündən qaçmaq günahdır. Əsərin əvvəlində özündən qaçan Sinkler kölgəyə məğlub olub özünü kəşf etmə yoluna başlayır. Bu arxetip əsərdə Frans Kromer obrazı vasitəsilə təmsil olunur. Yunqa görə, persona və kölgə bir-biri ilə sıx bağlı olub daim bir-birini əvəzləyir. Belə ki, personanın yaranmasına kölgə səbəb olur: Kromer tərəfindən qəbul olunmaq istəyi Sinkleri maskalanmağa sövq etdi. Əsərdə hamının qorxduğu, insanların ən pis tərəflərini üzə çıxaran Kromeri baş qəhrəmanımız "bəlanın təcəssümü" kimi təsvir edir. Fransın zorakılığına görə uzun müddət duyğuları basdırılmış Sinkler bu yolla fərdiləşmə prosesinin ilk mərhələlərini tamamlayır.

Anima (qəlb) kişidə qadın başlanğıcı, Animus (ruh) isə qadında kişi başlanğıcı obrazında çıxış edən şüursuz arxetiplərdir. Yunqa görə, elə bir kişi yoxdur ki, onda qadından nəsə olmasın, eyni zamanda da, əksinə. Əsərə gəldikdə, Sinklerin Beatriçe adlandırdığı qızla qarşılaşması ilə biz anima/us arxetipi ilə rastlaşırıq. Beatriçe onun real həyatda bir dəfə gördüyü, amma yuxularda görməyə davam etdiyi, hətta portretini çəkməyə çalışdığı qadındır. Beatriçe ilə qarşılaşdığı andan Sinklerin həyatında yeni mərhələ başlayır. Belə ki, o artıq Beatriçeni öz itaət/pərəstiş obyekti seçir. O dəfələrlə Beatriçenin portretini çəkir və hər portretlə görür ki, əslində bu Beatriçe deyil. Bir müddət onun Demian olduğunu düşünür, sonda belə qərara gəlir: "bu nə Beatriçe, nə də Demiandır. Bu mənim özüməm. Şəkildəki mənə oxşamırdı -o mənim həyatımı təşkil edəcək birisi idi, o mənim içimdi, mənim taleyimdi, ya da iblisimdi. Mənim dostum belə olacaqdı, əgər həyatda yenidən kiminləsə yaxınlaşa biləcəkdimsə. Sevgilim belə olacaqdı, əgər kimisə sevə biləcəkdimsə. Bu mənim həyatımdır, ölümümdür, taleyimin səsi və ritmidir" [1.s.90]. Anima/Animus arxetipi Demianın anası – Həvva xanım obrazı ilə bir daha öz təsdiqini tapır. Demianın özü isə dördüncü və ən önəmli arxetipi təmsil edir. Yunqa görə, "Mən"fərdin həqiqi və tam şəxsiyyətidir. O, şüuraltının bütün aspektlərini tarazlayır, hər zaman bütünləşməyə çalışır. "Mən" fərdiləşmənin, eyni zamanda şəxsiyyətin müxtəlif aspektlərinin inteqrasiyası nəticəsində yaranır. Bu prosesin əsas hərəkət-verici qüvvəsi Demiandır. Demian Sinkler üçün xilaskar, rəhbər, başçı, müəllim idi, onun şüursuzluğunun səsi idi. Sinklerə həsr olunmuş əsərin məhz Demian adlanması da təsadüfi deyil. Belə ki, Demian bəzən fiziki, bəzən də mənəvi olaraq bu ozünüdərk səyahətində Sinkleri müşayiət etdi. Demianın Sinklerə son sözləri belə olur: "nə vaxtsa mənə ehtiyacın olsa, ürəyinin səsinə qulaq as və daxilindəki məni gör" [2.s.182]. Göründüyü kimi Sinkler nəhayət fərdiləşmə prosesini başa vurur, özünü tam şəkildə dərk edir və olduğunu kimi qəbul edir.

Ədəbiyyat siyahısı:
1. Hermann Hesse. Demian. Bakı: Qanun nəşriyyatı, 2019,184 səh.
2. Freyd Z. Psixoanalizlə ilkin tanışlıq. Bakı : Qanun, 2022, 320 səh.
3. Karl Qustav Yunq. Analitik nəzəriyyə (kəşf olunmamış mənlik), Bakı: Kosmo, 125 səh.

Mehdiyeva Ayan İntiqam qızı
Elmi rəhbər:f.f.d., dos. Zeynallı Gülyaz Rza qızı
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri

MÜASİR İNGİLİS DİLİNDƏ SİFƏTİN MÜQAYİSƏ VƏ ÜSTÜNLÜK DƏRƏCƏLƏRİNDƏ SİNTETİK VƏ ANALİTİK FORMALARIN PARALEL İŞLƏNMƏSİNƏ DAİR

Azərbaycan dilinə olduğu kimi, ingilis dilində də ümumi qrammatik mənasına görə əşyanın əlamət və keyfiyyətini bildirən əsas nitq hissəsinə sifət (The Adjective) deyilir. Sifətin üç dərəcəsi vardır: adi (positive degree), müqayisə (comparative degree), üstünlük (superlative degree). [1, 60]

Müqayisə və üstünlük dərəcələrinin formalaşdırılmasının iki yolu vardır.

1) Sintetik yolla - yəni sifətin sonuna -er; -est şəkilçiləri əlavə etməklə düzələn sifətlər

a) Bütün birhecalı sifətlər. (tall, taller, tallest; slow slower slowest)

b) İki hecadan ibarət olub, sonu -er, -y, -le, -some, -ow şəkilçiləri ilə bitən sifətlər. (narrow, narrower, narrowest)

c) Son hecası vurğulu olan ikihecalı sifətlər. (concise, conciser, concisest)

2) Analitik yolla - yəni sifətin əvvəlinə more, most əlavə etməklə düzələn sifətlər.

Çoxhecalı sifətlər: generous, more generous, most generous; complicated, more complicated, most complicated

Sonu -ed, -ing, -less, -ful ilə bitən ikihecalılar worried, more worried, most worried; useless, more useless, most useless

Bəzi mürəkkəb sifətlərin dərəcələrini iki yolla düzəltmək mümkündür. Məsələn: good-looking, better-looking, the best-looking və ya good-looking, more good-looking, most good-looking

Bəzən sintetik yolla dərəcələnən sifətlərin postpozisiyada işlənməsi və ya ismi xəbər funksiyasında olması onun dərəcələrinin analitik yolla düzəlməsinə səbəb ola bilər . Məsələn: [3, 233]

He is a cleverer man. – He is a man more clever than you.

She chose the faster car for the race. – His progress became more fast as he gained experience.

He is the happiest man in his family. - His life in Paris was more happy than in London.

Bəzi hallarda sifətin dərəcələri sintetik yolla düzəlsə də, analitik formasının işlənməsi üstünlük təşkil edir. Məsələn, aşağıdakı dialoqa nəzər salaq:

- Did you say it was less hot in there? - No, I said it was more hot.

Bir çox hallarda dərəcələri sintetik yolla düzələn sifətlər qeyri rəsmi ingilis dilində analitik forma ilə işlədilir.

The man became more calm as the host was less calm.

İstifadə olunmuş ədəbiyyat
1. 1.Gordon E.M., Krylova 1.P.A Grammar of Present-day English. Moskow, 1986, 427 p.
2. Ilyish B. The Structure of Modern English. Leningrad, Prosveshcheniye, 1971, 363p.
3. Kaushanskaya B.L., Kovner R.L and others, A Grammar of the English Language, Leningrad, Isdatelstvo, 1973, 319p.
4. Kobrina E.A, Korneyeva E.A., Ossovskaya M.I., Guzeyeva K.A. An English Grammar, Morphology, 1958, 288p.
5. Quirk, Randolph, Sidney Greenbaum, Geoffrey Leech & Jan Svartvik. A comprehenive Grammar ot the English language, London & New.York: Longman, 1985

Həsənzadə Fatimə Kamran qızı
f.f.d., dos. Zeynallı Gülyaz Rza qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ İSİMLƏŞMİŞ SİFƏTLƏRƏ DAİR

Sifət ismi və ya ismi ifadəni təyin və ya təsvir edən nitq hissəsidir. Onlar paylaşdığınız məlumatlara təfərrüat və ya kontekst əlavə edirlər.

Flektiv dillərdə sifətin şəkilçisi onun tək və ya cəm, kişi, qadın və ya neytral cins olduğunu göstərir və bu zaman onlar sərbəst isimləşə və ya substantivləşə bilir. Qədim ingilis dilində də sifətlər tək və cəm mənaları ifadə edə bildikləri üçün sərbəst şəkildə isimləşirdilər.[1,87]

Müasir ingilis dilində isimləşmiş sifətlər tamam və qismən isimləşmiş olmaqla 2 qrupa bölünür:

1. Tamam isimləşmiş sifətlər isimlərin bütün xüsusiyyətlərini, cəm və yiyəlik hal şəkilçiləri qəbul edir və müəyyən və qeyri-müəyyən artikllarla işlənirlər. *(a relative, two relatives, the relative's cottage).*

Aşağıdakı milliyyət bildirən substantivləşmiş sifətlər də bu qrupa aiddir**:**

Məsələn: *a Russian, an American, a Belgian, a German, an Italian*

He spoke German, if not more fluently, with a better accent than he spoke French.

Tək və cəm halında eyni formada işlənən feili sifətlər də tamamilə isimləşir.

Məsələn: *Many of this city's unemployed are former factory workers.*

Rəng adları da tamam isimləşmiş sifətlərə aiddir. Ümumi mənada işləndikdə onlar sayılmayan kimi qəbul edildiyi halda, rənglərin çalarlarını ifadə etdikdə qeyri-müəyyən artiklla və ya cəmdə işlənə bilir.

Məsələn:

The grey of earth and sky had become deeper, more profound,

Scarce a sprinkle of yellow mingled with the hues of summer.

Bəzi tamam substantivləşmiş sifətlər (*məsələn: valuables, ancients, sweets, greens*) yalnız cəm formasına malikdir və onların tək forması mövcud deyildir. [3.54]

Her valuables were in the hotel safe.

2. Qismən isimləşmiş sifətlər yalnız müəyyən artikl qəbul edir. *(the useful,the future).*

Bəzi millət adları (*məsələn:The English, The French)* bildirən sifətlər cəmləndikdə şəkilçi deyil, müəyyən artikl qəbul edirlər. Məsələn:

The French like croissant for breakfast.

Bəzi feili sifətlər də qismən isimləşə bilər. Məsələn:

Geibel and his daughter were again among the invited.

Mücərrəd anlayışlar bildirən bir sıra sözlər də *(məsələn: the useful, the beautiful, the agreeable)* isimləşir.

Məsələn: *Mr.Allen was fast relapsing into the sentimental.*

Bəzi hallarda, sifətlərin frazeoloji birləşmə daxilində müqayisə və üstünlük dərəcələrində isimləşə hallarına da rast gəlinir. Məsələn:

Maybe, this is a change for the better.

İstifadə olunmuş ədəbiyyat

1. Ganshina M., Vasilevskaya N. English Grammar, Foreign Languages Publishing House, Moscow, 1951.
2. Gordon E.M., Krylova I.P. A Grammar of Present-day English. Moscow, 1986
3. Kaushanskaya B.I., Kovner R.L and others, A Grammar of the English Language, Leningrad, Isdatelstvo, 1973.
4. Leyla Jafarova, et.al. English Grambridge. "Science and Education", Baku, 2011
5. Oruc Musayev. İngilis dilinin qrammatikası. Qismət, Bakı, 2007

Məhərrəmova Nigar Nizami
Təhsil 2 fakültəsi,
Elmi rəhbər: Aytac Hüseynova Sərvər
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ MƏSDƏR VƏ CERUNDUN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

Müasir ingilis dilində feillər formasına görə 2 qrupa bölünür:
1. Təsriflənən feillər
2. Təsriflənməyən feillər
Təsriflənməyən feillərin 3 forması mövcuddur:
1. Məsdər (The İnfinitive)
2. Cerund (The Gerund)
3. Feili sifət (The Participle)
Biz bu tezisdə məsdər ve cerundun bəzi fərqli və oxşar cəhətlərini şərh edəcəyik.

Məsdər bir hərəkəti və ya vəziyyəti ümumi şəkildə ifadə edir. Məsdər öz mənşəyini feili isimdən götürmüşdür. Həm ismin, həm də feilin özünəməxsus xüsusiyyətlərini daşıyır. Ferdinand de Sössür, Roman Jakobsan kimi dilçilərin əsərlərindən istifadə edərək dilçilik nəzəriyyəsi daxilində məsdərlərin sintaktik və praqmatik aspektləri araşdırılır. Məsdər əsas feilin əvvəlinə "to" hissəciyinin artırılması ilə düzəlir. Bəzən məsdərlər "to" hissəciyi olmadan da işlənə bilər.

Məsələn; I expect to get my money back.
He made her leave the room.

Cerund müxtəlif mənbələrdə fərqli şəkildə izah olunur. Səadət T.Nuriyeva "Cerund" adlı dərs vəsaitində yazmışdır ki, "Cerund feilin şəxssiz formalarından biri olub ikili xüsusiyyət daşıyır. İkili xüsusiyyət dedikdə,onun həm isimə həm də feilə məxsus xüsusiyyətlərə malik olması nəzərdə tutulur [4. s10]. Cerund feilin sonuna "ing" hissəciyi artırmaqla düzəlir."

Məsələn; Sonia suggested going to the cinema.

Cerund və məsdərin məna fərqini aşağıda nümunələr üzərində izah edək.

1. a) Stop buying from the supermarket. Don't buy bread there anymore [5].
Hərəkət tamamilə dayandırılır.
b) I worked all day, didn't even stop to eat lunch [5]!
Bir hərəkəti dayandırıb başqa birinə keçirilir, yaxud müəyyən fasilə verilir.
2. a) I'll never forgot watching my first horror movie [5].
Keçmişdə baş vermiş bir hadisə haqqında danışılır.
b) Don't forget to watch this film today!
Hazırda baş verən bir şey haqqında xatırlatma edir.
3. a) Do you remember dancing with me [5]?
Əvvəl baş vermiş hadisəni xatırlayır.
b) Remember to take lots of pictures on your trip! [5].
Edilməsi lazım olan və planlanan işləri xatırlayır.
4. a) He regrets missing the show [4. s297].
Keçmişdə baş verən hadisənin məyusluğunu bildirir.
b) I regret to stay I am not coming [4. s297].
Qarşı tərəfə üzücü, pis xəbər verildiyi zaman işlənir.

Biz bu nəticəyə gələ bilərək ki, cerundlar real, tamamlanmış yaxud tamamlanmamış hərəkət haqqında cümlələrdə istifadə edilir. Məsdərlər isə qeyri-real, mücərrəd olan yaxud gələcəkdə baş verəcək hərəkəti hərəkət haqqında cümlələrdə istifadə edilir.

Ədəbiyyat siyahısı:

1. O.İ.Musayev, E.İ.Hacıyev, A.R.Hüseynov "A practical grammar of contemporary English". Bakı- "Qismət" - 2011.
2. Jeoffrey Leech, Jam Svartvik "A communicative grammar of English". Moscow -1983.
3. Səadət.T.Nuriyeva - Cerund. Ali məktəb tələbələri üçün dərs vəsaiti. Bakı, Təhsil, 2011, 272s
4. Mammadova G.T.English "Grammar, Rules and exercise". Bakı-2020.
5. https://www.youtube.com/watch?v=v2_Qic03XFI

Novruzova Aysun Əfsun
Baş müəllim, müəllim, Bayramova Nurlana
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ QEYRİ-MÜƏYYƏNLİK ARTİKLININ İŞLƏNMƏSİ

Artikl isimlərlə işlənən nitq hissəsidir. İngilis dilində artiklın 2 növü var: Qeyri müəyyənlik və müəyyənlik artiklı. Bu tezisdə xüsusilə "qeyri-müəyyənlik artiklı"na toxunulacaqdır. Qeyri-müəyyənlik artiklı adından da göründüyü kimi, xüsusi deyil, ümumi bir obyekti bildirir [2, s.25].

Qeyri-müəyyənlik artiklının a və an olmaqla 2 forması vardır. Əgər isim samitlə başlayarsa ondan əvvəl a [ə] istifadə olunur. Məsələn: a phone, a computer, a pen, və s.

Əgər isim samitlə başlayarsa, ondan əvvəl an [ən] istifadə olunur. Məsələn: an apple, an orange, an opera və s.

Qeyd: sözün əvvəlində h hərfinin tələffüz olunmadığı hallarda an forması istifadə olunur:

an hour [ən`ouə] an heir [ən`eə] [3, s.227]

Qeyri-müəyyənlik artiklının 3 funksiyası vardır:

1)Siniflәndirmə funksiyası obyekti eyni növdən olan obyektlərin sinfinə və ya qrupuna aid etməklə ifadə olunur. Məsələn:

2)Say funksiyasında qeyri-müəyyənlik artiklı original mənası-miqdar sayı olan 1-i saxlayır. Bu funksiya özünü:

a) vaxt, ölçü və çəki bildirən isimlərdə:

A week or two passed ; An hour later he returned.

b) hundred, million, thousand sayları və dozen, score, pair, couple isimlərində:

a hundred = one hundred ; My mother brought a pair of gloves for my sister yesterday.

c) inkar hissəciyi not ilə: not a word, not a thought, not a sound və s. göstərir.

3)Ümumiləşdirmə funksiyasında qeyri-müəyyənlik artiklı hər mənasını ifadə edir. Bu mənasında bir sinfin nümayəndəsi haqqında deyilənlər həmin sinfin bütün nümunələrinə aid edilir. Məsələn:

A drowning man catches at a straw ; A fox has a long tail.

Qeyri-müəyyənlik artiklı ilə işlənən bir sıra ifadələr vardır:

At a glance, in a hurry, as a result of, in a low (loud) voice, in a whisper, at a distance, to be at a loss, to have a mind to do something, to fly into a passion, a great many, a great deal, to have a lesson (a cold, a rest, a smoke), a lot of və s.

Qeyri-müəyyənlik artiklı həmçinin period, population, distance, salary, group və s. kimi sözlərlə işlənir:

a period of ten days, a group of soldiers, a distance of 5 miles [1, s.23].

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1.Güllü Məmmədova, "English Grammar Rules And Exercises", Bakı-2020.

2.Kauşanskaya, "Грамматика английского языка", Ленинград-1973.

3. O.İ.Türksevər (Musayev), E.İ.Hacıyev, A.R.Hüseynov "A Practical Grammar Of Contemporary English", Bakı-Qismət-2014.

Ələkbərov Murad Mayis
Baş müəllim Bayramova Nurlana Famil
Azərbaycan Dillər Universiteti

İNDİKİ ZAMANIN BİTMİŞ FORMASI

Bu zaman forması "to have" köməkçi felinin indiki zaman qeyri-müəyyən forması (have, has) və əsas felin keçmiş zaman feli sifəti (Participle II) vasitəsi ilə düzəldilir:

Məs:

I have seen - Mən görmüşəm

Bu zaman formasının sual şəklini düzəltmək üçün köməkçi feil cümlənin əvvəlinə keçir, inkar formasını düzəltmək üçün isə "to have" köməkçi feilindən sonra "not" inkar hissəciyini artırmaq lazımdır.

Məs:

Have I seen? I have not seen.

1. Yaxın və ya uzaq keçmiş zamanda icra olunmasından aslı olmayaraq icra edilib bitmiş və ya baş vermiş, lakin nəticəsi göz qabağında olan hərəkətləri bildirmək üçün istifadə olunur. Burada məqsəd icra olunmuş hərəkətinin nəticəsini nəzərə çatdırmaqdır. Məsələn:

They have built a new school in our village.

2. Təkrarən baş verib icra edilib bitmiş hərəkətləri bildirmək üçün. Bu zaman always - həmişə, often – tez-tez, twice – ikidəfə və s. kimi zaman zərfləri işlədilir, məs.:

She has always been very kind to me - O, mənə qarşı həmişə mehriban olub,

3. İcrası keçmişdə başlanmış müəyyən müddət davam etmiş və hal-hazırda da davam etməkdə olan hərəkətləri bildirmək üçün. Bu halda aşağıdakı sözlərdən istifadə olunur.

a) Hərəkətin davam etmə müddətini bildirmək üçün for sözönü işlədilir

b) hərəkətin başlanğıcını göstərmək üçün since sözü işlədilir.

4. Lately – son zamanlar, bu yaxınlarda və just –indicə zərfləri demək olar ki həmişə indiki zamanın bitmiş forması ilə işlədilir.

I have just written to him.

5. Bu zaman forması hələ bitməmiş vaxt müddətində icra olunmuş hərəkəti göstərmək üçün də işlədilir. Bitmiş vaxt today - bugün, this week (month, year) – bu həftə (ay, il) və s. zaman zərfləri və this morning (evening, afternoon) – bu səhər (axşam, günorta) kimi ifadələrlə göstərilir.

He has not received any letter from him this week.

6. Bu zaman forması adətən aşağıdakı zaman zərfləri ilə işlədilir: never - heç vaxt, ever – hər, yet – hələ, already – artıq, of late – son vaxtlar.

Bu zaman zərflərindən already təsdiq cümlələrdə never, yet inkar cümlələrdə, ever adətən sual cümlələrində işlədilir. Məsələn:

She has done a great deal of work of late.

Have you ever translated medical articles?

7. Bitmiş gələcək h

ərəkəti göstərmək üçün after, when, as soon as, if, till (until) və s. bağlayıcılarla başlayan zaman və şərt budaq cümlələrində gələcək zaman forması əvəzinə indiki bitmiş zaman forması işlədilir.

8. Where, how və why sual sözləri ilə başlayan cümlələrdə mənadan aslı olaraq ya indiki zamanın bitmiş forması ya da keçmiş zamanın qeyri - müəyyən forması işlədilə bilər.

Where has she gone? O hara gedib (İndi o burada deyil)

Where did you go? Sən hara getmişdin (Sən indi gayıtmısan)

9. When sual sözü ilə başlayan sual cümlələrində hərəkət keçmişə aiddirsə indiki zamanın bitmiş forması deyil, həmişə keçmiş qeyri-müəyyən zaman forması işlədilir.

I have seen her today - Mən onu bugün görmüşəm

When did you see her? – Sən onu nə vaxt görmüsən?

10. İndiki zamanın bitmiş forması danışıq zamanı hərəkətin davam etməsini də bildirə bilər ki, bu cür işlənmə inklusiv işlənmə adlanır. Məzmunca indiki zamanın davam edib bitmiş formasında işlədilməli olan cümlələrdə hərəkət davamedici zaman formalarında işlədilməyən fellərlə ifadə olunarsa, cümlə indiki zamanın

bitmiş formasında işlədilir. Məsələn:

I have known him for many years.

İndiki zamanın bitmiş forması sual şəklində işlənərkən hərəkətin icrasının bitib bitmədiyi soruşulur, məs.: Have you prepared your work?

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. Güllü Məmmədova, “English Grammar Rules And Exercises”, Bakı-2020.
2. Kauşanskaya, “Грамматика английского языка”, Ленинград-1973.
3. O.İ.Musayev, E.İ.Hacıyev, A.R.Hüseynov “A Practical Grammar Of Contemporary English”, Bakı-Qismət-2014.

Hüseynli Ləman Zaur
Elmi rəhbər: Mirzəyeva Xuraman Rahib
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ RƏNGLƏRLƏ BAĞLI İDİOMLARIN SEMANTİK XÜSUSİYYƏTİ

İdiomlar hər bir xalqın həyat tərzi, inancı, dünyagörüşü əsasında yaranmışdır. İdiomlar hazır ifadələrdir ki, həmin idiomlardan həmin dildə danışanlar istifadə edir. İdiomlar frazeoloji birləşmələrin tərkib hissəsinə daxildir. İdiomlardan istifadə olunması nitqin daha rəngarəng, poetik olmasına xidmət edir. Bədii ədəbiyyatda onlar daha çox istifadə olunur. İdiomlar və ya idiomatik ifadələr ilk dəfə oxuduqda mənası olmayan söz birləşmələridir. İngilis dili də idiomlarla zəngindir. İdiomlar hərfi mənada tərcümə edilmir. Ümumi bir fikri bildirir. [5,s.6] Məsələn: "l feel blue" bu idiom hərfi tərcümədə "mavi hiss etmək" mənasını verir, lakin idiom kimi "qəmgin hiss etmək, depressiyada olmaq" mənasında çıxış edir. Belə ki, idiomların tərkibindəki hər bir söz əvvəlki mənasını itirir, yeni birləşmə yaradaraq yeni məna çaları qazanır. [3,s.160] İngilis dilində idiomlarla bağlı lüğətlər də tərtib olunmuşdur. Müxtəlif məzmunlu idiomlar var və bu məzmunlardan biri rəng anlayışıdır. Bu idiomlar aşağıdakılardır:

Out of the blue-Hadisənin gözlənilmədən və ya xəbərdarlıq edilmədən baş verməsi.
Catch someone red-handed-Kimisə etməməli olduğu işi edərkən görmək.
Black and white-Hər hansı mövzunu asanlıqla başa düşmək.
To wave a white flag-Ağ bayraq dalğalandırmaq, müharibədə təslim olduğunu bildirir.
See red- Çox qəzəbli, əsəbi olmaq.
With flying colors-İmthanı uğurla və yüksək qiymətlə keçmək.
Rose-colored glasses-Hər hadisəyə müsbət tərəfdən baxmaq, yəni qeyri-real baxış.
Green with envy-Başqasının uğuruna paxıllıq etmək, qısqanclıq etmək.
Black sheep (of the family)-Ailədə uğursuzluğu ilə fərqlənən üzv.
True colors-Kiminsə əsl xarakteri və ya niyyəti.
As red as a cherry-Utandığından üzü həddindən artıq qızarmış biri.
İn the pink-Sağlam və xoşbəxt olmaq.
Blue blood-Varlı və soyköklü ailədən gəlmək.

Bütün bu idiomlar ranglərlə bağlıdır. Hər hansı hadisəyə və ya kiməsə münasibət bildirərkən bu idiomlardan istifadə etmək mümkündür. İdiomlar dilin rəngarəngliyinə xidmət etdiyi üçün rənglə bağlı olan idiomlar yuxarıdakı idiomlarla məhdudlaşmır. Müəyyən mətn,diskurs,əsərlərdə rənglə bağlı idiomlara rast gəlinir. Ümumiyyətlə, ingilis dilində rəng idiomları dilin üslubi gözəlliyinə xidmət edir.

Ədəbiyyat siyahısı:

1. 1.Adil Babayev "Dilçiliyə Giriş" Bakı-2012
2. 2.Afad Qurbanov "Ümumi Dilçilik" I cild. Bakı-2011
3. https://www.academia.edu/6526996/A_semantic_and_pragmatic_analysis_of_English_colour_idioms
4. https://www.englishclub.com/vocabulary/idioms-colour.php#google_vignette
4. https://is.muni.cz/th/z0q9v/diplomka_IS.pdf

Ayan İsmayılzadə İsmixan qızı
Elmi rəhbər: Xuraman Mirzəyeva Rahib qızı
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏ ALIŞ-VERİŞLƏ BAĞLI İDİOMLARIN SEMANTİK XÜSUSİYYƏTLƏRİ

İdiomlar gündəlik danışıq dilində istifadə edilən ifadələrdir. Müəyyən bir dilə məxsus idiomları öyrənməklə həmin dil daşıyıcılarının yaşayış tərzi, tarixi, mədəniyyəti ilə daha yaxından tanış olmaq olar. Onlar ünsiyyət zamani nitqi daha da zənginləşdirirlər. İdiomlara danışıq dilində, yazıda, həmçinin bədii ədəbiyyatda da rast gəlmək olar. Məsələn: "The world is my oyster" idiomuna Vilyam Şekspirin "The Merry Wives of Windsor" əsərində rast gəlmək olar. Bu idiom hər şeyin öz əlimizdə olduğunu bildirir.

İdiomların hərfi tərcüməsi mümkün deyildir. İdiomu təşkil edən sözlər onun tərkibində yeni məna yaradırlar. Belə birləşmələrin tərkibindəki kompenentlərin hər biri öz müstəqil mənasını itirir. [1, s.269]

İngilis dili idiomlarla zəngin bir dildir. Həmin dilin daşıyıcılarının nitqində idiomlara tez-tez rast gəlinir. Bu dilə nəzər salarkən müxtəlif mövzularda olan idiomlarla tanış olmaq olar. Bu mövzulardan biri də alış-verişlə bağlı olan idiomlardır:

"Spend money like water" - pulu su kimi xərcləmək
"It costs an arm and a leg" - çox baha olmaq
"Shop till you drop" - yorulana qədər alış-veriş etmək
"Burn a hole in your pocket" - pulu tez xərcləməyə çalışmaq
"Window shopping" - heç nə almadan alış-veriş mağazalarını gəzmək
"Hit the shops" - hər hansı bir geyimin, əşyanın və s. satışa ilk dəfə çıxarılması
"To get a good deal" - uyğun qiymətə almaq
"Shopping therapy" - alış-veriş edərək xoşbəxt olmaq düşüncəsi
"To buy a lemon" - dəyərsiz nə isə almaq
"To pay over the odds" - hər hansı bir əşya və ya geyim üçün çox pul xərcləmək
"Impulse buying" - düşünmədən almaq
"Haggling over" - hər iki tərəfin uyğun qiymətə razılığa gəlməsi

Bunlar alış-veriş edərkən tez-tez istifadə olunan idiomlardır. İdiomlar nitqi daha əyləncəli və maraqlı hala gətirir, dilə rəngarənglik verir.

Ədəbiyyat siyahısı:

1. Adil Babayev "Dilçiliyə giriş" Bakı-2012
2. Səlim Cəfərov "Müasir Azərbaycan dili" I cild. Bakı-2007
3. https://www.learn-english-today.com/idioms/idiom-categories/shopping/shopping.html
4. https://www.learnenglish.de/vocabulary/shoppingidioms.html
5. https://blog.lillypad.ai/idioms-for-shopping/

Yusifzadə Fatimə Elnur qızı
Elmi rəhbər:b./müəllim: Ağamalıyeva Cəmilə
Azərbaycan Dillər Universiteti

КОНСТРУКЦИЯ «СЛОЖНОЕ ДОПОЛНЕНИЕ» С ИНФИНИТИВОМ В СОВРЕМЕННОМ АНГЛИЙСКОМ ЯЗЫКЕ

Перед тем как начать тему «Сложное дополнение» с инфинитивом, обратим внимание на тему «инфинитив». В Английском языке существуют три неличные формы глагола: Инфинитив, герундий и причастие. Инфинитив - это неопределенная форма глагола, которая называет действие, но не указывает на число и лицо.

В современном Английском языке встречаются следующие инфинитивные конструкции:

1) «Сложное дополнение» с инфинитивом (Objective-with-the-Infinitive-Construction);
2) Субъектный инфинитивный оборот (Subjective Infinitive Construction);
3) Инфинитивный оборот с предлогом «for» (For-to-Infinitive Construction).

Конструкция «Сложное дополнение» с инфинитивом представляет собой сочетание существительного в общем падеже или местоимения в объектном падеже с инфинитивом, выступающее как единый член предложения- сложное дополнение. [2, s.234] Эта конструкция переводится на русский язык придаточным предложением. Сказуемое в данной конструкции употребляется в активном залоге: We expect him to do it in time - Мы надеемся, что он сделает это вовремя.

Конструкция «Сложное дополнение» с инфинитивом употребляется в следующих случаях:

· После глаголов чувственного восприятия: to see, to hear, to feel, to notice...; После этих глаголов инфинитив используется без частицы "to".

I did not notice the boss enter the room- Я не заметила, как начальник вошел в комнату.

· После глаголов, обозначающих умственную деятельность: to think,

to know, to expect, to suppose, to consider, to trust…

I expected him to drive his car carefully after this accident- Я ожидал, что после этого происшествия, он будет водить машину осторожно;

· После глаголов со значением заявления: to pronounce, to declare, to report...

Our opponents declared the meeting to be succsessful- Наши оппоненты заявили, что встреча была успешной.

· После глаголов, обозначающих чувства и эмоции: to love, to like, to hate, cannot bear...

I hate them to shout at their children- Терпеть не могу, что они кричат на своих детей.

· После глаголов, выражающих желание: to want, to wish, to intend…

My mom wants me to finish my studies successfully- Моя мама хочет, чтобы я успешно завершила обучение. [3, s.237]

· После глаголов, обозначающих приказ и разрешение: to order, to allow, to suffer, to have…После этих глаголов инфинитив употребляется в пассивном залоге. [1,s.108]

He ordered the enemy to be attacked-Он приказал напасть на врага.

На заметку! He ordered the soldiers to attack the enemy (В данном случае «the soldiers to attack» не является объектной инфинитивной конструкцией, так как инфинитив использован в активном залоге)

· После глаголов, обозначающих принуждение: to make, to have, to get..

I made him learn all the rules- Я заставила его выучить все правила.

Литература

1. Mammadova G.English Grammar Rules and Exercises Baki-2020
2. Каушанская О.İ A Practical Grammar of Contemporary English-2017
3. Качалова К.Н Практическая Грамматика Английского языка-2020 4. https://study-english.info/infinitive-constructions.php.

Savenko Anastasia Iqor
Academic supervisor: PhD Rana Rajabli Gazanfar
Minsk State Linguistic University, Minsk

REVITALISING TURKIC LANGUAGES: EXPLORING THE CONTEMPORARY SIGNIFICANCE AND CHALLENGES

Majority of natural human languages existing in the world, each of which is a reflection of the cultural, social, linguistic and cognitive creativity of the human mind and of the mankind, are at the verge of extinction due to the processes of globalization, neo-colonialism and repressive politics resulting in the domination of economically powerful languages over others. UNESCO studies show that a considerable number of languages spoken in the world can become extinct already by the end of the twenty first century. Many Turkic languages, especially those with limited numbers of speakers and few or no attempts to document and to preserve them are endangered or moribund [1].

Intensification of political-economic and cultural-humanitarian integrations of the countries of the world in the conditions of globalization influences the increase in interlingual contacts. There are about 200 million people in the world belonging to Turkic ethnic groups separated by large territories and various faiths [2]. The one common thing that they share is a language. However, they did not always have an opportunity for mutual renewal of relations and enrichment of languages at different stages of the complex history.

For the last 25 years, the diapason of lexical items of Turkic languages has been considerably extended. That is why the majority of lexical structure of Turkic languages is being changed. These changes are closely connected with political, social, technical and cultural spheres of Turkic states. In this regard, the vocabulary of the mentioned languages is filled with international words. Especially professional lexis and term systems are being intensively developed, political-social terminology is being formed, the meanings of many terms and loan words are being extended, and cultural, scientific, economical and other new words (neologisms) are appearing.

The most important reasons for penetration and use of the words and terms borrowed from English in modern Turkic languages have extra linguistic nature.

However, intra linguistic factors are not an exception. Owing to distinctions of graphic bases of the alphabets and pronunciation norms of Turkic languages, the level of phonetic, grammatical and semantic assimilation of loanwords and terms in these languages are not identical. Because of incomplete phonological and graphic adaptation of loanwords, it becomes clear that in the Turkic languages national coloring, phonetic and orthographic norms of these languages are partly changed. This problem can be resolved by the joint efforts of the scientists of Turkic countries. Specifically, it should be noted that the establishing a common electronic terminological fund of Turkic people and national corps of Turkic world and its constant updating will facilitate effectively in meeting the stated goals.

Reference list

1. Alishev, A. Turkic phenomenon. Karachay-Balkar world. 1993. Retrieved from http://www.elbrusoid.org/articles/poznat/387258/
2. Gulzhan, D. Problems of vitality of the Turkic languages in the age of globalization. New Trends and Issues Proceedings on Humanities and Social Sciences, 2019

Ağacanova Gülnar Zəfər qızı
Fil.ü.f.d., dos. Mehriban Oqtay qızı Mövlamova
Azərbaycan Dillər Universiteti

“MÜSTƏQİLLİK DÖVRÜ AZƏRBAYCAN POEZİYASINDA MİLLİ OYANIŞ VƏ ÖZÜNEDƏRKİN POETİK ŞƏRHİ”

Ədəbiyyat dedikdə ağlımıza şeirlər, poemalar, hekayalər və bu tipli ifadələr gəlir,ancaq xatırlamaq lazımdır ki, ədəbiyyat ağlımıza gələnlərin ötəsində dayanan bir elmdir. Ədəbiyyat sözlərlə, cümlərlə qurulmuş bir qalaya bənzəyir və bu "qala" öz "ordu"sunu qorumaq üçün mütləqdir ki, möhkəm olsun. Azərbaycan ədəbiyyatını da bu minvalda möhkəm bir qalaya bənzətmək,məncə,heç də yanlış olmaz. Hətta ona bu adı verməmək böyük səhv olar. Ədəbiyyatımıza dönüb baxdıqda biz görürük ki, xalqımızın ən çətin zamanlarında və daha aydın desək xalqımızın susmağa məcbur edildiydi hər bir dönəmdə şairlərimiz, yazarlarımız onların səsinə çevrilən əsərlər ərsəyə gətirmişdirlər. Bu əsərlər xalqımızın keçdiyi əzablı yollara işıq tutan bir çıraq rolunu oynayıblar. Əgər biz bu tipli əsərlərə diqqət yetirsək görərik ki, onların hər biri öz sıralarında gizlənmiş həqiqətlərin ortaya çıxmalarına kömək ediblər. Məsələn: Xəlil Rza Ulutürkün "Davam edir 37" əsərinə nəzər salaq. Adından da görürük ki 37-ci il repressiyasına işıq tutan bir əsər olmuşdur. SSRİ-nin o zamanki lideri İosif Stalinin dövründə bir növ "təmizləmə" rolu daşıyan repressiya xalqımızı susdurmaq üçün həyata keçirilən bir proses olmuşdur. Amma bunu bacarmadılar.

Xəyanətə qurban getdi tər bənövşə, bahar Müşfiq.
Hələ də bu cinayətə zirvələrdən baxar Müşfiq!
Xəyanətə qurban getdi neçə igid,
Pensneli, zər əsalı, nur heykəli ulu Cavid!
Qurban getdi dağ bülluru Yusif Vəzir!
Yalçın qaya- Əhməd Cavad!
Elə bilmə o dəhşətli yanğın bitdi, batdı, getdi.
Hələ durur, davam edir 37! [1]

Görürük ki, Ulutürk burada repressiya qurbanı olan şairlərimizin, yazarlarımızın- Mikayıl Müşfiqin, Əhməd Cavadın, Bəkir Çobanzadənin, Yusif Vəzir Çəmənzəminlinin və həmçinin 1922-1923-cü illərdə həbs olunmuş, 1934-cü ildə dünyasını dəyişmiş dramaturqumuz Cəfər Cabbarlının adlarını çəkməklə bu caniliyə qarşı dərin nifrətini və belə dəyərli insanları itirməyin verdiyi dərin kədəri bir vəhdət şəklində təqdim etmişdir. Bunun nəticəsi olaraq da belə, repressiya kimi "təmizləmə" adı verilən bir caniliyə məharətlə işıq tutan bir əsər ərsəyə gətirmişdir. Məmməd Arazın "Məndən ötdü qardaşıma dəydi" əsərində Azərbaycanda xanlıq dövründə yaşanılan hadisələrə və bir olmamağa, ölkəmizi çıxılmaz yollara aparan addımlara qarşı etiraz nidaları səslənir.

Məndən ötdü...
Bunu dedi Şəki xanı. Bunu dedi Bakı xanı,
Bunu dedi İbrahim xan, Fətəli xan, Kəlbəli xan...
Qəza ötsün məndən, - dedi, Ötən kimi “mən-mən” dedi:
“Mən-mən” dedi bir ölkədə, nə qədər xan.
Onlar mən mən deyən yerdə, Sən olmadın Azərbaycan [2].

Şair burda hər bir xanı "mən-mən" deməklə, ölkələrini düşünməməklə günahlandırır və onların "məndən ötdü" deyib şadlanmalarına qarşı öz nifrətini bildirir. Bununla da bir olmamağın, "mən-mən" demənin ölkəmizə necə fəlakətlər gətirdiyini göstərmişdir. Bəli, ədəbiyyatımız, şairlərimiz, yazarlarımız, onların yazdığı əsərlər daim xalqımızın səsi olmuşdur, qəflət yuxusundan olanları oyatmağa, düşmənə yerini göstərməyə və ədalətsizliklərə işıq tutmağa kömək etmişdir. İndi isə bu əsərlər bizə tariximizi bilməyimizdə, dostu düşməni seçməyimizdə və ölkəmizin dəyərini anlamağımızda əvəz olunmaz rol oynayır və oynayacaq.

İstifadə olunmuş ədəbiyyat:

1. Ulutürk X.R. Seçilmiş əsərləri. I cild. Bakı: 2005, 365 səh.
2. https://portal.azertag.az/az/node/17822

Yəhyayev Elmir, Müslüm
Fil.f.d. Hüseynli Gilə, Mehdi
Azərbaycan Dillər Universiteti

POLİTİCAL CORRECTNESS AND LİTERATURE

Political correctness has become an increasingly important and discussed concept in different segments of society. This concept affects the world of literature as well as many other fields. Since literary works are reflections of their authors' world of thought and social sensitivities, the effects of political correctness in this field are very important. First of all, the effect of political correctness on literature can be seen by determining the preferences in the treatment of certain subjects. When discussing sensitive and controversial issues, authors must take into account the sensitivities of the society. For example, when discussing issues such as gender, ethnicity, religion, and political opinion, the concept of political correctness plays a direct role in the reactions and effects of the work. While this may sometimes discourage writers, it may sometimes enable them to develop new and original perspectives. In addition, political correctness can also affect the language and style of literary works. The use of certain terms, the portrayal of characters, the plot, and the general narrative style are indicative of the effects of political correctness on writers. The search for conformity with the changing norms of society may lead writers to use careful language in their works and to be careful when dealing with sensitive topics. Political correctness brings about discussions on freedom of expression in the literary world. According to some critics, political correctness creates an oppressive atmosphere, limiting the originality and courage of writers. This situation may emerge more clearly, especially in societies where censorship and freedom struggles occur. On the other hand, some argue that political correctness creates a more inclusive and fair literary environment by increasing social sensitivity.

New generation writers can take political correctness into account in their works and use the language accordingly. What about ancient writers? Recently, we have been witnessing changes in the works of ancient writers. The biggest examples of this are the novels of Roald Dahl and Agatha Christie. For examlple, among the edits of Agatha Christie's works were those that described characters as Black, Jewish, or Gypsy. Derogatory descriptions of characters have been cut, along with racist language, including the O-word and the N-word. The term “natives” has been replaced with “local.” "Sensitivity editors" in the Western world announced that they were about to remove the sexist and anti-Semitic references. Considering the different views on this situation, I think that changing the style of the authors or censoring them will cause problems in terms of the reader's understanding of the period and getting to know the author.

As a result, political correctness is a factor that directly affects literature, and opinions on whether this effect is positive or negative are controversial. The important thing is to try to preserve the universal and deep meaning of literature by evaluating different perspectives on this subject.

References:

1. Brown, C. (2016). The Role of Political Correctness in Shaping Literary Narratives. Journal of Cultural Studies, 25(4), 78-94.
2. Davis, D. (2022). Exploring the Intersection of Political Correctness and Creativity in Literature. Journal of Literary Criticism, 30(1), 22-39.
3. https://www.rollingstone.com/culture/culture-news/agatha-christie-novels-edited-remove-racist-language-1234704199/amp/
4. Jones, A. (2020). The Impact of Political Correctness on Literature. Literary Studies Journal, 15(2), 45-62.
5. Smith, B. (2018). Political Correctness and Freedom of Expression in Contemporary Fiction. Critical Perspectives on Literature, 10(3), 112-129.

Zeydullayeva Zimara Muradovna
Elmi rəhbər: f. f. d. dosent Hüseynova Lalə Asif qızı
Azərbaycan Dillər Universiteti

THE PHRASEOLOGICAL COMBINATIONS IN MODERN ENGLISH LANGUAGE

Phraseology is a branch of linguistics that focuses on studying fixed expressions, such as idioms and phrasal verbs, whose meanings may not be immediately apparent from the individual words used. It is a scholarly approach to language which developed in the twentieth century.[1] It took its start when Charles Bally's[2] notion of locutions phraseologiques entered Russian lexicology. These expressions, known as phraseological units, have specific meanings that are not always predictable based on the meanings of their component parts. The study of phraseology has a long history, dating back to ancient times when scholars recognized the importance of fixed expressions in communication. The term "phraseology" originated from the Greek word "phrasis," meaning "way of speaking," and initially referred to "a phrase book." Throughout history, linguists and researchers have contributed to the understanding of phraseology, leading to the development of comprehensive theories and methodologies for studying fixed expressions and idiomatic language. The realm of contemporary English phraseology is vast and varied, and each aspect of its exploration certainly merits proper consideration. English phraseology is characterized by a plethora of functional and emotionally expressive synonyms. Phraseological units, which include idioms, proverbs, and other fixed expressions, play a crucial role in the richness and nuances of language. They contribute to the unique character of a language and are an essential area of study in linguistics.

Phraseological units are classified into various categories:

1. Idioms: These are expressions where the meaning cannot be deduced from the individual words used. For example, "a bull in a china shop" does not literally mean a bull in a store selling china, but rather refers to someone who is clumsy or awkward.

2. Phraseological combinations: These are expressions where one word is common and the other is specifically associated with it. For instance, "bosom friend" is a phrase where "friend" is a common word, but "bosom" is only used in conjunction with it.

3. Phraseological expressions: These are ready-made phrases that consist of words with general meanings and do not resemble idiomatic expressions. However, like other phraseological units, they are used precisely and without using synonyms. An example is "live and learn."

As additional examples, can be showed such phrases as:

1. Most people consider the Great Wall of China to be the eighth wonder of the world.
2. I do not know that person you showed me because he is seventh water on a jelly.
3. Periodontal disease is the ninth wave, but its progression can be halted with prompt treatment.
4. You must study Shakespeare because he is a poet of the first magnitude.
5. He is of the first water-a true gentleman.
6. At first blush, I thought the house was great, but the list of problems changed my opinion.

The English language is very rich in phrases and variable combinations, some of them are phraseological units. they decorate speech and influence its perception. Phraseological units are an essential part of everyday speech, providing emotional depth and precision to the English language. They are like a valuable treasure trove that we rely on from childhood onwards.

References:

1. Analysis in S.Maugham's novel "Theatre"2018 - Musayeva Elmira Aghasi
2. Portal.true.Ru
3. Scieldpress.com
4. Sercan SADQOVA-LINGUISTICS-PHRASEOLOGICAL COMBINATIONS WITH ORDINAL NUMBERS IN ENGLISH 2023

Heybətova Fidan Natiq qızı
Fil.f.d. Əlibəyova Zülfiyyə Fəxrəddin qızı
Azərbaycan Dillər Universiteti

ONJALİ RAUFUN "SİNİFİN ARXASINDAKI OĞLAN" ƏSƏRİNDƏ MİLLİ KİMLİK

Banqladeş əsilli Britaniya vətəndaşı və "Blue Peter Book", "Waterstones Children's Book Prize " kimi mükafatları qazandıran "Sinifin arxasındakı oğlan" əsərinin müəllifi olan Onjali Rauf, müasir Britaniya ədəbiyyatına öz əsərləri ilə silinməz izlər buraxmış, nəinki ədəbiyyat sahəsində, həmçinin Böyük Britaniyada qadın və qızların sui-istifadəsi və alveri ilə mübarizə aparan qadın hüquqları təşkilatının təsisçisi kimi də tanınır. Onun yazdığı əsərlər uşaq ədəbiyyatına aid edilsə də, əsərlərin mövzusu nəinki uşaqlara, həmçinin yetkin şəxslərə sanki bir mesaj olaraq yazılmış, onları düşünməyə vadar edən əsərlərdir. Yazara böyük uğur gətirən "Sinifin arxasındakı oğlan" əsərini təhlil etdiyimiz zaman, əsərin baş qəhramını olan Əhməd obrazında milli kimlik məsələsini aydın bir şəkildə görə bilərik. Milli kimlik anlayışı özündə dili, dini, mədəniyyəti, vətənpərvərlik ruhunu birləşdirən bir anlayışdır. Əhməd müharibənin ən acı tərəflərini görmüş, öz doğma yurdunu tərk etməyə məcbur qalan Suriya qaçqınıdır. O nəinki doğma yurdunu, eyni zamanda doğma yurdu qədər bərabər saydığı ailəsini, yaxınlarını tərk etmək məcburiyyətində qalan balaca bir oğlandır. Yeni bir məmləkətdə hər şeyə yenidən başlamaq təbii ki ona asan başa gəlmədi. Fərqli dili, dini, mədəniyyəti olan bir məmləkətdə sadəcə kürd dilini bilən bu oğlan bütün bu çətinliklərin öhdəsindən Xanım Hemsinin və dostlarının sayəsində gəlməyi bacardı. Əsəri bizə nəql edən xarakter sanki yazarın özüdür və Onjali Rauf sanki öz həyat təcrübəsində Əhməd kimi öz ana yurdunu tərk etmək məcburiyyəti qarşısında qalan insanlarla üzləşdiyindən, onu çox yaxşı anlayır və buna görə də əsər boyu əsəri bizə nəql edən xarakter vasitəsi ilə onu xoşbəxt etməyə çalışır. Bu xarakter Əhmədə öz məmləkətini, öz evini xatırladan bir meyvə verir və onu nə qədər xoşbəxt etdiyini kəlimələr belə izah edə bilməz. Əhmədin hədsiz sevinc duyğularını oxucu sadəcə kitabı oxuyan zaman gözləri önündə canlandıra və onu hiss edə bilər. Bu meyvə London kimi şəhərdə nadir satılan bir meyvə olsa da , Suriya kimi bir şərq ölkəsində adi bir meyvədir.

Onun dostuna verdiyi nar, Əhmədə öz ölkəsini, öz yurdunu xatırladır. Və təbii ki nar meyvəsini alan Əhmədin söylədiyi ilk kəlimələr bunlar olur: " ev" və "mənim evim var". Bu da onu göstərir ki, yaşadığı ölkə ilə vətəni arasında məsafələr nə qədər çox olsa da, Əhməd hələ də öz yurduna çox bağlıdır. Əhmədin öz millətinə mənsubluğuna görə qürur hissi keçirməsi və onun şəxsi taleyi ilə milli kimliyi arasında yaratdığı bərabərliyinin dərinliyi, onun vətənpərvərlik hissinin yüksək olmasının göstəricisidir . Düşünürəm ki, vətənpərvərlik hissi yüksək olan şəxs sadəcə bir meyvə ilə öz vətəninə olan sadiqliyini, sevgisini ətrafa bu şəkildə nümayiş etdirə bilərdi. Həqiqətən də bu dünyada Vətəndən əziz nə var?

Ədəbiyyat siyahısı

1. https://az.wikipedia.org/wiki/Milli_kimlik
2. https://www.stcypriansprimaryacademy.co.uk/wp-content/uploads/2020/12/The-Boy-at-the-Back-of-the-Class-Chapters-1-10.159105156.pdf

Гасымова Наима
Филологический факультет Группа 147
Научный руководитель: к.ф.н., доц. Ульфат Ибрагим

ОСОБЕННОСТИ НОСОВЫХ ГЛАСНЫХ В СОВРЕМЕННОМ ФРАНЦУЗСКОМ ЯЗЫКЕ

Во французском языке носовые звуки играют важную роль в фонологической системе и обладают своими характерными особенностями. Что касается носовых гласных звуков их количество достигает четырех. Эти звуки в транскрипции обозначаются следующим образом [ɑ̃], [ɛ̃], [œ̃], [ɔ̃]. Хотя в современном французском языке наблюдается сокращения их числа до трех [ɑ̃], [ɛ̃], [ɔ̃].

Носовые, или как их еще называют в русском языке назальные гласные во французском языке образуются путем прохождения воздуха через носовую полость. Эти гласные звуки представлены следующими буквосочетаниями "an", "en", "in", "on", "un", "am", "em", "im", "om". Носовые гласные встречаются в различных позициях в словах и могут меняться в зависимости от фонетического окружения.

Постановка назальных гласных действительно представляет определенные трудности, и их освоение лучше начинать только после уверенного владения ротовыми гласными. Это обусловлено не только физиологическими особенностями произношения, но и тем, что на этом этапе речевой аппарат уже достаточно тренирован и гибок [2, с. 45].

В процессе обучения назальным гласным могут возникнуть следующие типичные ошибки:

Чрезмерная назализация: одной из основных ошибок является exessive назализация, когда звук звучит слишком назально и потеряет свою красоту и звучность. Это может произойти, если студенты не могут правильно распределить поток воздуха между ротовым и носовым резонаторами.

Недостаточная стабильность и однородность произношения: вторая ошибка связана с тем, что учащиеся не могут удержать органы речи в неподвижном состоянии в течение всего времени звучания гласного звука. Это может привести к дифтонгизации гласного или появлению назального согласного при произнесении носового гласного.

Неумение быстро перемещать нёбную занавеску: третья ошибка связана с неумением быстро перемещать нёбную занавеску, особенно при произнесении долгих носовых гласных перед согласными [p - b | t - d], что может привести к звучанию соответствующего носового согласного.

Для преодоления этих трудностей важно проводить систематическую практику, начиная с постановки ротовых гласных и постепенно переходя к назальным [1, с. 16]. Правильная последовательность введения гласных и систематическое чередование упражнений на их произношение помогут уменьшить сложности и достичь более устойчивого произношения назальных гласных.

Литература:

1. Lucile Charliac, Jean-thierry Le bougnec, Bernard Loreil, Annie-Claude Motron Phonétique progressive du français ; FLE ; A1 ; débutant (2e édition) CLE International, Paris 2018
2. Marie-Laure Lions-Olivier, Eugénie Mottironi 100% FLE – Phonétique essentielle du français A1/A2 Édition Didier, Paris 2021

Rəna Ağazadə Vasif
Elmi rəhbər: Fil.f.d dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

CORC ORUELLİN “KEŞİŞ QIZI” ƏSƏRİNDƏ DİNİ ETİQAD PROBLEMİ

Corc Oruellin "Keşiş qızı" əsəri dini inancın mürəkkəbliyi və çətinlikləri ilə mübarizə aparan, iman, əxlaq və insan varlığının incəliklərini təqdim edən bir romandır. "Keşişin qızı" kitabı dini inanc, azadlıq və sosial təzyiqlər kimi dərin mövzulara toxunaraq oxuyucunu düşünməyə sövq edir. 1935-ci ildə nəşr olunan roman, uydurma Knayp Hill kəndindəki ruhani qızı Doroti Harenin dərin mənəvi böhran keçirməsi və özünü kəşf etmək üçün səyahətə çıxması ilə bağlıdır.

Romanın əvvəlində Dorotinin atası keşiş Çarlz Hare ölür. Lakin bu ölüm hadisəsi Dorotinin öz şəxsiyyətini unutmasına səbəb olan bədbəxt hadisədən əvvəl baş verir. Əsas hadisə atasının ölümündən sonra onun evində baş verən faciədir. Dorotinin xatırlaya bilmədiyi və zehnində aydınlaşdıra bilmədiyi bu hadisə ona təsir edərək, yaddaşını itirməsinə gətirib çıxarır. Bu yaddaş itkisinin nəticəsində o, həqiqətləri başa düşməkdə çətinlik çəkir. Dorotinin imanında yaşadığı ziddiyyətlər də məhz bundan sonra başlayır.

Romanın əsas mövzularından biri dini inanc məsələlərində həqiqilik axtarışında olan mübarizədir. Din xadiminin qızı olan baş qəhrəmandan Anqlikan kilsəsinin norma və dəyərlərinə riayət etməsi, itaətkarlıq gözlənilir. Ümumiyyətlə atası bir qadının vəzifəsinin ancaq itaətkarlıq olduğunu düşünür və Dorotidən bunu tələb edir, o isə məhz bunların sayəsində din adamlarının iç üzünü görə bilir. Atasının dostu olan cənab Varburtonun Dorotiyə qarşı hissləri qızın şəxsiyyətinin ləkələnməsinə, hətta yaddaşını itirməsinə səbəb olur. Beləliklə, o, sonda həyatı kəşf edəcəyi, dini inancın ziddiyyətləri ilə üzləşəcəyi səyahətinə başlayır.

Roman boyunca Oruell tez-tez dini müşayiət edə bilən ikiüzlülük və əxlaqi iflasa qarşı qızğın tənqidi təqdim edir. Din xadimi, Dorotinin atası, başçılıq etdiyi dini yığıncağın mənəvi ehtiyaclarına xidmət etməkdənsə, öz statusunu və nüfuzunu qorumaqla daha çox maraqlanan bir şəxs kimi təsvir edilmişdir. Əslində Doroti də bunların fərqində idi. Məhz buna görə dostuna atası haqqında "Onlar seçkiqabağı təşviqat aparır, bizi onlara səsverməyə inandırmağa çalışırlar" deyirdi. [1, s.49]

Müəllif Dorotini mürəkkəb və ziddiyyətli bir personaj kimi təsvir edir. Onun dini böhranı sadəcə olaraq teoloji fikir ayrılığı məsələsi deyil, həm də onun şəxsiyyətini sarsıdan dərin mübarizədir. Dini inancın qeyri-müəyyənlikləri və ziddiyyətləri ilə mübarizə apararkən Doroti insan varlığının əsas sualları ilə qarşılaşır: Mən kiməm? Həyatın məqsədi nədir? Bizim taleyimizə rəhbərlik edən daha yüksək bir güc varmı?

Məna və məqsəd axtarışında Doroti onu əyalət kəndinin hüdudlarından uzaqlaşdıran bir sıra macəralara başlayır. Dorotinin bu dövrdə yaşadığı təcrübələr onun üçün böyük bir dönüş nöqtəsi və dini inanclarını şübhə altına almağa başlamasında mühüm addım oldu. Doroti İngiltərə yollarında təcrübəsindən tutmuş, Londonun Şərqi-End bölgəsində məktəb müəllimi kimi çalışdığı qısa müddətə qədər insan mövcudluğu haqqında fikirlərini formalaşdıran müxtəlif insanlar və vəziyyətlərlə qarşılaşır. Doroti səyahəti zamanı Müqəvva, Adam və Aslan kimi personajlarla tanış olur. Bu personajlar ona cəsarət, zəka və sədaqət kimi dəyərləri öyrədir. Bu təcrübələr vasitəsilə Doroti öz inanclarını şübhə altına alır və özünü daha çox dindar hiss etməyə başlayır. Lakin, avaralarla yaşadıqdan sonra həbs olunan Doroti avaraların yaltaqlığını, polislərin ikiüzlüyünü görərək öz inamı haqqında bir daha paradoks yaşayır.

Nəhayət, Doroti özünün bir kişiylə qaçması barədə məlumat verilən qəzet tapır və bunun sayəsində ailəsinin yanına geri qayıda bilir. Keşiş qızı evinə qayıtdıqdan sonra öz puritan həyat tərzinə geri qayıdır və səyahətinin sonunda əsl dəyərlərin evdə olduğunun fərqinə varır. Doroti Hare obrazı vasitəsilə Oruell oxuyucunu dini təcrübənin mürəkkəbliyi və qeyri-müəyyənliyi haqqında düşünməyə dəvət edir, bizi dinin həyatımızda rolu ilə bağlı öz fərziyyələrimiz və ziddiyyətlərimizlə üzləşməyə çağırır. Bununla o, mənəvi həqiqətin axtarışında tənqidi düşüncənin və intellektual dürüstlüyün vacibliyini xatırladır.

Ədəbiyyat siyahısı:

1. Corc Oruell "Keşiş qızı" Bakı, QANUN nəşriyyatı, 2019, s.49
2. https://astrofella.wordpress.com/2017/08/06/a-clergymans-daughter-george-orwell/
3. https://readingbug2016.wordpress.com/2022/01/11/a-clergymans-daughter-by-george-orwell

Zülfüqarova Gülşən Rövşən
Elmi rəhbər: Fil.f.d, dos. Hüseynli Gilə Mehdi
Azərbaycan Dillər Universiteti

STİVEN KİNQ YARADICILIĞINDA HAQSIZLIQ VƏ ƏDALƏTİN TƏCƏSSÜMÜ

Müasir Amerika ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri sayılan Stiven Kinq detektiv, elmi fantastika, triller, qorxu janrlarında yazdığı əsərlər ilə "dəhşətlər kralı" ləqəbini qazanmışdır. Müəllifin "O", "Parıltı", "Kerri", "Qarşıdurma" əsərləri və "Qaranlıq Qala" silsiləsi ona dünya şöhrəti gətirmişdir. Daha çox qorxu ədəbiyyatına müraciət etməyinə baxmayaraq təhlilə cəlb etdiyimiz "Yaşıl Mil" və "Şauşenkdən qaçış" əsərləri həbsxana həyatı, haqsızlıq və ədalət mövzularını ehtiva edir.

“Biz hamımız ölməliyik, heç bir istisna olmamalıdır. Mən bunu başa düşürəm, amma, Aman Allah, bəzən Yaşıl Mil necə də uzun olur.” [1, səh. 432] “Yaşıl Mil” əsərinin baş qəhrəmanı Pol Eckum Kold Mauntin həbsxanasında, iki kiçik qızın cinayətinə görə ölüm cəzasına məhkum edilmiş Con Koffini edam etməlidir. Lakin Con adi məhbus deyil, Pol bunu ilk dəfə onu E blokunun qapısında görəndə anlayır. Con sanki bu dünyada deyil, o həmişə fikrə dalır, o baxanda, elə bil, insanın bütün fikirlərini oxuya bilir. Həmçinin Con qeyri-adi bir gücə sahibdir, o xəstələri sağalda bilir. Lakin o bunu bəxşiş deyil, lənət hesab edir, çünki o insanların əziyyətini həddən artıq hiss edir. Conun edamından əvvəl dərin iztirab keçirən surətlər Allahın möcüzəsi olan, günahsız bir insanı öldürəcəklərinə görə vicdan əzabı çəkirlər. Buna baxmayaraq ölüm Con üçün yeganə çıxış yoludur, o, yalnız bu yolla azadlığa qovuşa bilər: ” Mən eşitdiyim və hiss elədiyim ağrılardan çox yorulmuşam, boss. Heç kimlə yol yoldaşı olmamaqdan, haradan gəlib haraya getdiyimizi paylaşa biləcəyim bir dostumun olmamasından yorulmuşam. İnsanların bir-birinə qarşı düşmən kəsilməsindən yorulmuşam”. [2, səh. 448]

İnsan ruhunun dərinliklərinə təsir edən, insan təbiəti, ədalət, haqsızlıq kimi mövzulara toxunan müəllif əsərdə həyatın mənası haqqında suallar verir. Con Koffiyə olunan ədalətsizlik oxucunun qəlbini dərindən yaralayır, lakin onlar bunun qaçılmaz olduğunu qəbul edirlər. Oxucunu özünəməxsusluğu ilə ovsunlayan əsər onu hər şeyin mümkün olduğu bir dünyaya aparır. Bəzən dəmir barmaqlıqlar arxasında həyat azadlıqdan daha yaxşı olur, ölüm isə həyatın ağır yükündən xoş bir azadlığa aparan bir yola çevrilir.

Stiven Kinqin daha bir həbsxana həyatından bəhs edən əsəri “Rita Heyvort və Şauşenkdən qaçış” haqsızlıq və ədalət mövzusunu tamam fərqli nöqteyi-nəzərdən əks etdirir. Məhkəmənin ədalətsizliyinə məruz qalan Endi Dyufreyn Con Koffinin əksinə bununla razılaşa bilmir, azadlığa qovuşmaq üçün əlindən gələni edir və buna nail olur. Con və Endi surətlərinin eyni situasiyaya düşməsinə, haqsızlığa məruz qalmalarına baxmayaraq Endi nə bahasına olursa olsun həbsxanadan qurtulmağın yollarını axtarır. Con Koffinin qaçmaq üçün dəfələrlə imkanı olsa belə o bunu etmir, çünki onun iztirablarla dolu həyatı onsuz da həbsxanadan fərqlənmirdi.

Azadlığın dəyəri “Şauşenkdən qaçış” əsərinin əsas problemlərindəndir. Əsər insanın həyatda sahib olduğu ən dəyərli məfhumun onun azadlığı olduğuna vurğulayır. Povest hamımızın taleyə tabe olduğunu, bir gün başımıza böyük bir bədbəxtlik gələrək hər şeyi itirə biləcəyimizi bir daha xatırladır. Bu halda ümid insanın sahib olduğu yeganə sığınacaqdır və azadlıq onun daxilində gizlənir. Lakin hər kəs öz seçimini edir: bəziləri Endi kimi həyatı seçir, bəziləri isə Con kimi ölümlə barışır.

Ədəbiyyat

1. С. Кинг “Зелёная Миля” Издательство АСТ- Москва (2020)
2. С. Кинг “Четыре сезона” Издательство АСТ- Москва (2020)
3. Stiven Kinq “Yaşıl Mil” Qanun nəşriyyat- Ba

Abbasova Lalə, Elmir
fil.f.d.,dos.Əsədzadə Rasimə Fərhad qızı
Azərbaycan Dillər Universiteti

JORJ SAND YARADICILIĞINDA QADIN OBRAZININ ÖZÜNƏMƏXSUSLUĞU

XIX əsr dünya ədəbiyyatında özündən sonrakı yazıçılara örnək olan, dahi yaradıcı və fransız ədəbiyyatının nəhəng simalarından biri də Jorj Sand adı ilə ədəbiyyat dünyasına daxil olan əsl adı Amandina Avrora Lüsil Dyüpen olmuşdur. Avroranın Jorj Sand adı ilə ədəbiyyat dünyasında ərsəyə gətirdiyi ilk romanı “İndiana” idi. 1832-ci ildə yazdığı bi romanı Sanda çox böyük şöhrət qazandırmışdır. “İndiana” romanı əsl romantik romandır. Əsərin qəhrəmanı isə “müstəsna” və “müəmmalı” bir şəxsiyyətdir. Müəllif “İndiana”-da romantiklik çərçivəsini genişləndirərək müasir cəmiyyətdən götürdüyü hadisələrlə əsəri daha maraqlı bir şəklə salır. Jorj Sandın əsərində müasir cəmiyyət hadisələrindən istifadə etməsi dahi fransız yazçısı Onor Balzakın diqqətini cəlb etmişdir. Jorj Sand yaradıcılığının ilk tənqidçisi olan Balzak yazırdı:“ “İndiana” kitabı fantaziyaya qarşı çevrilmiş həqiqətin, bizim zamanın orta əsrə qarşı qoyulmasının təzahürüdür... . ...Mən belə sadə və incə bir üslubla yazılmış ikinci bir əsər görməmişəm”. [1,s.6]

İndiananın ailə dramı bütün əsərin ana xəttini təşkil edir. O, kobud və zalım polkovnik Delmara ərə getmişdi. Daha sonra isə İndiana yüngül təbiətli və eyni zamanda qeyri-ciddi bir kübar gənci olan Raymo-

na vurulur. Həm Delmarla evli olması, həm də Raymona vurulması onu məhv edə bilərdi. İndiananı bu bəladan xilas edəcək olan romanın digər qəhrəmanı onun əmisi oğlu Ralfdır. Ralf ilk baxışda adama qəribə təsir bağışlayır. Çünki o, çox ağır təbiətli, qəzəbli və özünə qapalı biridir. Lakin romanın gedişatında məlum olur ki, Ralf çox həssas təbiətli biridir və sözün əsl mənasında, İndiananı sevən yalnız odur. İndiana özünün bu qədər dərin və saf sevgiylə sevildiyini görəndə həyatla barışır. Onlar cəmiyyətdən uzaqlaşaraq təbiətin qoynuna çəkilirlər və tənhalıqda yaşamağa başlayırlar. Hər kəs onları ölmüş hesab edir.

Jorj Sand "İndiana"nı nəşr etdirəndə onun 28 yaşı vardı. Bu əsəri yazarkən o, qarşısına böyük məqsədlər qoymuşdu. Roman onun gözlədiyindən daha çox əks səda doğurmasına baxmayaraq, burjua tənqidçiləri Jorjun yaradıcılığında təkcə qadın məsələsini görürdülər. Əlbəttə ki, qadın məsələsi onun yaradıcılığında əsas yeri tuturdu. Lakin Jorj Sandın yaradıcılığı heç də yalnız qadın problemi ilə məhdudlaşmır. Jorj Sand "İndiana" əsərində göstərir ki, əgər ailə həyatı dözülməzdirsə, qadın bu həyatı poza və öz ürəyi istədiyi kimi hərəkət edə bilər. O, "İndiana" əsərinin müqəddiməsində yazmışdır: " Bu əsəri yazarkən kobud, heyvani köləliyə qarşı alovlu nifrət hissi mənim ruhuma hakim idi. "İndiana" ümumən zülmə qarşı baş qaldırmış bir etirazdır".

Ədəbiyyat:

1. Dünya edebiyatından seçmeler- George Sand "Consuelo La Comtesse de Rudolstadt
2. George Sand "Indiana" – La Bibliothèque électronique du Québec

Məmmədova Çinarə Əli qızı
Filologiya fakültəsi,
Elmi rəhbər:Fil.f.d.dos. Ü. Ç.Əliyeva
Azərbaycan Dillər Universiteti

JOSE MAURO DE VASCONCELOSUN "DƏLİSOV" ƏSƏRİNDƏ İNSANIN MÜBARİZƏ ƏZMİ

"Dəlisov" əsəri Braziliya yazıçısı Joze Mauro de Vaskoncelosun "Şəkər portağalı " və "Günəşi oyadaq" əsərlərinin davamıdır.Əsərdə qəhrəman Zezenin həyatından , onun yaşadığı travmadan, xoş günlərindən, arzularından danışılır.Bir tərəfi yerli hindu tayfalarından olan Zez maddi imkansızlıqla uşaqlıqdan üz-üzə qalır, ailəsi onu varlı bir ailəyə övladlığa verir. Zeze bir tərəfdən şanslı olduğunu da inkar etmir, digər tərəfdən qəlibə daxil olan bir övlada çevrilir:Onu piano ifa etməyə məcbur edirlər, hüquqşünas və tibb kimi iki ixtisas arasında seçimə məcbur edirlər.Buna rəğmən Zez öz mübarizəsinə başlaya bilir, oxumaqdan imtina edir və Natala qayıdır. Hər şey bundan sonra başlayır: İşsiz, gücsüz, peşəsiz bir insan. Həmin zaman həyatın ona "Dəlisovluq"kimi hədiyyəsi olur. Bəlkə də özünü sevmə səbəbimiz onun timsalında, simasında özümüzü tapmaq, özümüzü hiss etməkdir.

Atası ilə münasibətləri daha da həssas, mehriban olur ,onun atasını, atasının da onu sevdiyinin fərqində olur.5 yaşından 19 yaşınadək atasından görmək istədiyi, həsrət ilə gözlədiyi qayğını görür.[3]

"Ancaq məni həm də insan kimi görən ata istəyirəm.Elə bir ata ki mənə hədiyyə verəndə buna layiq olmadığını söyləməyən.Yerli qadının oğlu olduğumu unuda bilsin."[2,s.64] Bu vaxt da atasının vəziyyətinin ağır olduğunu,hətta əməliyyata daxil olsa belə, sağ qalmaq ehtimalının az olduğunu söyləyir. Sanki Zezenin həyatda istədikləri onları əldə edə bilməyəndə qarşısına çıxır. Həqiqətən, həyatda istədiklərimizi anında əldə edə bilməyəndə ya həvəssiz oluruq,ya da böyük çətinliklərlə üzləşib onun zövqünü yaşaya bilmirik.

Saatlar çox mənasız gəlirdi-əqrəblə yelqovan qəddarcasına saniyələri yıxıb keçir [1,s.76]. Atası əməliyyatdan salamat çıxır.Atası ondan Sivilya ilə münasibətlərə son qoymağı tələb edir.Zeze məcbur olub razılaşır, amma eşq acısı onu öldürür, məhv edir. Amma "Bir şeyə əmin olmalısan.Əgər istəmədiyini dedinsə, qurtardı [2,s.100] fikiri llə baxsaq, o öz sevdiyindən dönmür. Həmişə səyahət arzsunda olan Zeze Gəmidə iş tapıb, uzun müddət işlədikdən və pul yığdıqdan sonra Zeze Silviyanı da özü ilə götürərək geri qayıtmaq və uzaq yerlərə qaçmaq qərarına gəlir. Tale Zezeni uzaqlara atır.[4]

Əsərin əsas ideyasına görə deyə bilərik ki, insanın içindəki günəşi məhv etməyə haqqı yoxdur, əksinə onu oyatmalı, qorumalı və içindəki parlaq ideya, arzu və həvəs ilə mübarizə əzmi göstərməlidir. Ailəsinə oxuyub yardım etməli olan Zeze həyatın ən gözəl anını yaşasa belə, onun mübarizə əzmi hər zaman oldu: Özü, ətrafı ilə.Lap uşaq vaxtdan fəallıq edib, bir tərəfdən də həyatın acı duyğularını yaşayıb.

Uşaqlığı həyatda gördüyü ən uğursuz,ən aciz şey kimi qələmə verir [1,s.26] Amma hər yaşında çətin də olsa, mübarizə aparıb.

Ədəbiyyat siyahısı:

1. Jose Mauro de Vasconcelos,“Dəlisov” əsəri ,”Qanun” nəşriyyatı,2023,128səh
2. Jose Mauro de Vasconcelos “Günəşi oyadaq”, Qanun nəşriyyatı,2023,336səh
3. https://youtu.be/9II7BvGnd7Y?si=rRISa7htjFWbLkMe
4. https://kitap.yazarokur.com/amp/delifisek

Əzizli Nazilə Nicad qızı
Fil.ü.f.d., dos. Mehriban Oqtay qızı Mövlamova
Azərbaycan Dillər Universiteti

XX ƏSR AZƏRBAYCAN NƏSRİNDƏ TƏNHALAŞMA VƏ ÖZGƏLƏŞMƏ (ANARIN “OTEL OTAĞI” ƏSƏRİ ƏSASINDA)

Ekzistensializm cərəyanı XX əsrdə fəlsəfədə ziyalıların baxışlarına cavab verə biləcək yeni dünyagörüşü yaratmaq cəhdi kimi meydana gəlmiş irrasionalist cərəyanlardan biridir. Ekzistensializm fəlsəfi cərəyanı 1927-ci ildə alman mütəfəkkiri Haydegger tərəfindən yaranmış, fransız sənətkarı J.P.Sartr tərəfindən isə inkişaf etdirilimiş və ədəbiyyata gətirilimişdir. [3,s.288]

Dünya müharibəsindən sonra Avropada tüğyan edən ekzistensializm cərəyanı Azərbaycan ədəbiyyatına da təsir etmişdir. Bu cərəyan, əsasən, insanın mövcudluğu problemini araşdıran, subyektiv hiss, hərəkət təcrübəsinə əsaslanan fəlsəfi araşdırma formasıdır. Ekzistensializm əsas qəhrəman kimi emosional coşğunluqdan əzilən şəxsiyyəti irəli çəkir. Bədii ədəbiyyatda ekzistensial obraza dair xüsusiyyətlər Anar Rzayevin “Otel otağı” əsərinin baş qəhrəmanında müşahidə edilir. “Otel otağı” əsərində ekzistensial məqamlardan biri olan yaddaş problemi ön plandadır. Əsərin baş qəhrəmanı-alim və ali məktəb müəllimi Kərim Əsgəroğlu nə ailəsində, nə də işində özünə yer tapa bilmir, onun həm özünə, həm də cəmiyyətə yadlaşması ekzistensial məqam kimi diqqəti cəlb edir. Qəhrəmanın daxilindəki vətən dərdi, uşaqlıqda yediklərinin dadının və gördüklərinin xatirələri, onun milli duyğularının ancaq yaddaşda mövcudluğunun bədii əksidir. İstanbulda işləyəcəyi haqqında vədlərin yalan çıxması, ailə qayğıları, cəmiyyətdə ona qarşı olan mənfi emosiyalar, ölümün hər daim Kərimi izləməsinə səbəb olur. Ona görə də qəhrəman ölüm xofu ilə üzbəüzdür, həmçinin burada yaddaşla ölümün paralelliyi də ekzistensial məqamın təahürüdür. Qayğıların əhatəsində olan Kərim süjet xətti boyu kədərlidir, pessimist ruhludur, cəmiyyətə yadlaşdığı, özgələşdiyi üçün tənhadır.[2, s.3]

Bu tənhalığı onun sonda hotel otağında nisgilli, tək ölümündə də görürük. Baş qəhrəmanın Türkiyədə olarkən, avtobusda ona vətəninizi qoruya bilmədiniz, deyə edilən iradlara etiraz etməsi, Qarabağ faciəsinə görə sarsıntıları, vətən həsrəti çəkməsi onun milli kimliyinə bağlılığının, milli duyğularının mövcudluğunun göstəricisidir.

Müstəqillik dövrü Azərbaycan ədəbiyyatının əsas yaradıcılarından biri olan Xalq yazıısı Anar Rzayevin çoxcəhətli yaradıcıllıq fəaliyyətində “Qırmızı limuzin”, “Ağ liman”, “Vahimə” və s ekzistensialist əsərlərində olduğu kimi, “Otel otağı” əsərində də yadlaşma, özgələşmə, fərdin tənhalaşması, ölüm motivi məsələləri geniş əks olunmuşdur.[1/s/273]

Sənətkar əsərlərində təsvir etdiyi şəxsiyyəti plakat kimi yox, duyğuları, ağrıları, düşüncələri olan insan kimi göstərir. Nəsrdə müharibə mövzusunda yazan çox olsa da, reallıqdan kənar, şüur altında müharibənin ağrı-acılarını insan mənəviyyatına, onun həyat ritminə təsiri məhz Anar yaradıcıllığında ekzistensial nəsrdə özünü göstərmişdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Qorxmaz Quliyev. Ədəbi cərəyanlar və istiqamətlər
2. Anar Rzayev. Seçilmiş əsərlər
3. Ekzistesializm. Azərbaycan Milli Ensiklopediyası 4. https://yazarlar.a

Hüseynzadə Aysun Rövşən qızı
Fil.f.d., Mövlamova Mehriban Oqtay qızı
Azərbaycan Dillər Universiteti

CƏFƏR CABBARLI YARADICILIĞINDA OBRAZLARIN MƏNƏVİ-PSİXOLOJİ EROZİYASI

Azərbaycan ədəbiyyatı bir çox mövzu və ideyalarla zəngindir. XX əsr Azərbaycan ədəbiyyatında ailə-məişət, kəndli məişətinin təsviri, sosial-psixoloji münasibətlər mövzularına geniş yer verilmişdir. Obrazların kənddən şəhərə gəlməsi və düşdükləri yeni mühitlə əlaqədar olaraq mənəvi aşınma keçirmələri özünü büruzə verir. Şəhər mühiti bu obrazlarda mənfi məqamların aşkara çıxmasına şərait yaradır.

Sentimentalizm cərəyanında da obrazların mənəvi aşınma keçirmələrinə rast gəlirik. Bu obrazlar düşdükləri mühitdə dəyişirlər və xarekterlərindəki gizli məqamlar üzə çıxır.

Azərbaycanın görkəmli dramaturqu Cəfər Cabbarlı XX əsrin əvvəllərində Azərbaycan xalqının tarixi taleyində əsaslı rol oynayan dramatik hadisələrin, dəyişən dünyanın fonunda ədəbiyyatımıza böyük bir ədəbi irs qoymuşdur [1, s.93]. Cəfər Cabbarlının yaradıcılığında əsas mövzu istiqamətləri insanların ağır vəziyyəti, yoxsulların çəkdikləri çətinliklər, qadına münasibət məsələsi təşkil edir. Onun əsərlərində də mənəvi aşınma keçirən obrazları görürük.

Bu obrazlardan biri də "Aslan və Fərhad" hekayəsindəki Fərhad obrazıdır. Hekayənin əsas qəhrəmanı Aslan böyük qardaşdır, o yetim qalmış bacısı Züleyxa və qardaşı Fərhadın gələcəyi üçün çalışır. O müxtəlif çətinliklərlə qarşılaşsa da, bacı və qardaşını böyüdür. Fərhadın təhsili üçün əlindən gələni edir, düşünür ki, Fərhad mühəndis olacaq və işləyib onu saxlayacaqdır. Fərhad isə əvvəlcə yaxşı oxuyur, sonra isə dostları ilə bulvara gedir və oxumağın başını buraxır. Universitetə daxil olduqdan sonra da həyatı bu cür davam edir. Bağda qardaşına onun həyat yoldaşı ilə xəyanət edir, qardaşının kor olmasına səbəb olur, bacısı və qardaşını səfil həyata tərk edir.

Əsərin sonunda həm qardaşının, həm də bacısının qatilinə çevrilir. Fərhad obrazının dəbdəbəli həyatı gördükdən sonra onun daxilində gizlənən mənfi məqamların ortaya çıxması onun mənəvi çöküş yaşadığını göstərir.

Dramaturqun "Solğun Çiçəklər" pyesində də Bəhram obrazının mənəvi çöküş yaşadığına təsadüf edirik. Bu pyesdə iki qüvvə üz-üzə gəlir: tamah və məhəbbət. Bəhram Saranı sevirdi, amma tamah məhəbbətdən üstün gəlir və Bəhram acgöz, rəhmsiz, öz rahatlığını düşünən birinə çevrilir. Pul üçün Saradan uzaqlaşır, Pəri ilə yaxınlaşmağa başlayır. Əsərin sonunda Saranın ölümünə səbəb olduğu üçün peşman olur və Pərini günahlandıraraq öldürür.

Ədəbiyyat:

1. Bədirxan Əhmədov, Azərbaycan ədəbiyyatı tarixi. II cild, Bakı, 2010.

Student: Mamedova Maya
Faculty of Philology, group B22-243
Scientific Supervisor: PhD Ismayilova Aybeniz
Azerbaijan University of Languages

THE TRAGEDY OF WOMAN İN WİLLİAM FAULKNER'S SHORT STORY "A ROSE FOR EMİLY"

«A Rose for Emily» is a story by the American writer William Faulkner that was first published in the "Forum" issue of 30 April 1930. The story takes place in Jefferson City, Yoknapatoph County, that was fictionalized by Faulkner. This was the first Faulkner story published in a national magazine. The entire story is written in an elegant style. A flowery and romantic title of this story softens the darkness of events described in the story. According to Faulkner, "the title of the story is allegorical; it's a tragedy of woman, an irreparable tragedy with consequences that cannot be changed; but we feel sorry for this woman, and with title of the story, we kind of greet her, like paying respects with hand; in such cases, roses are presented to women, and for men, a cup of sake is raised"[1]. The small form and concentration

of actions and thoughts gives «A Rose for Emily» a special charm. There is an acute lack of detail about almost everything: about Emily's cousin, Colonel Sartoris and etc. Only by reading through and slightly analyzing «A Rose for Emily» we can understand that all these details are not needed at all!

The story in this book starts from the end - the funeral of the main character. [1]

We realize that Emily is gone, and we're immediately moving into her past, her childhood. We see her strong attachment to her father, who treated her very severely, but did not lose his influence on her even after his death; we learn that they had people in their family with mental disorders. [1]

Some important issues are covered in "A Rose of Emily". The relationship between Emily and her father in the way it is portrayed in the story is very impressive. Faulkner managed to demonstrate both how Emily's father raised his daughter and how it affected her entire life, with literally a couple of sentences.

«It seemed to us so for many years: in the open illuminated doors stands a formidable father with a whip in his hand, and behind him - Miss Emily, a thin figure in white»[1, p.37]. According to many psychotherapists, mental disorders often arise from two factors: genes and traumatic events. And often trauma occurs as a child. Emily's father forbade her to communicate with the opposite gender, and for Emily he became the whole world. And when he died, she denied his death for a few days and stopped talking to people around her.

In this work of William Faulkner, we can see some metaphors and symbolical meanings of dust |2]. It is believed that the dust that covers the objects and people in Emily's house is an attempt to cover up past events. It clearly shows that dust does not change or destroy the past, but simply hides it. The dust provides ambiguity that helps citizens not to know what is really going on at Emily's house. To support this assertion, we can point out that Homer Barron's body was covered with a «smooth layer of patient and dust». This quote illustrates how dust does hide parts of Emily's life from the townspeople.

"A Rose for Emily" is a great and talented story. Its small volume fits the love story, the appearance of the society of that time, loneliness, the confrontation between the new and the old, the consequences of a bad upbringing, a gloomy mystery and madness. And all this is short, concise and simple, without unnecessary retreats, but at the same time with a non-linear, beautiful narration.

References:

1.Faulkner William. Arose for Emily. -New York: Penguin books, 2010
2. https://dzen.ru/a/Xd78a8-SfnGOLhdc
3.http://elibrary.sgu.ru/VKR/2020/44-03-01_553.pdf

Hacızadə Vəfa Elmar q.
Elmi rəhbər: b\m. Əliyeva Vüsalə Fikrət q.
Azərbaycan Dillər Universiteti

MÜASİR FRANSIZ DİLİNİN ŞİMAL VƏ CƏNUB DİALEKTLƏRİ

"İnsanın mahiyyəti onun dilində cəmləşir.
Dilin təbiətini anlamaq üçün insan təbiətini və onun daxili aləmini anlamaq lazımdır"
(M.Xaydeqer).

Dil ünsiyyət və dünyanı dərk etmə vasitəsi olmaqla yanaşı, həm də millətin mədəni kodu kimi dəyərləndirilə bilər. Bu barədə L.Elmslevin yarım əsr bundan öncə söylədiyi fikri yada salmaq yerinə düşər: *"Dil - işarələr sistemi olaraq insan psixologiyasına daxil olmaq üçün bir açardır. Dil millətin xarakterini təcəssüm etdirir"* [56, s.132].

Hər bir dildə olduğu kimi, fransız dilinin də müxtəlif dialektləri vardır. Fransız dilinin şimal dialekti (langue d' oil) cənub dialektinə (langue d'oc) tamamilə ziddir. Müasir fransız dilinin məhz şimal dialektindən yarandığı əasalandırılır. XII əsr yazılarının, XIII əsr nəğmə və şeirlərinin dili söylənilənləri bir daha sübut edir. XIV-XV əsrə aid tarixi mənbələrdə də şimal variantının müasir fransız dilinə daha yaxın olduğu göstərilir.

Tənqidçilərin fikrinə görə Parislilərin tələffüzündə xüsusi "yağlı" vurğu açıq-aydın hiss olunur. Bu hər halda düzgün fransız dilinin vurğusu olmasa da, fransız mahnı və şeirlərinin səslənməsində də əsasən

eyni dil eşidilirdi. Eləcə də şəhərin epik freskasını izləyən Balzak, Hüqo, Flober, Zola kimi klassiklərin əsərlərində də Parislilərin dili qələmə alınmışdı. Təbii ki, Paris fransız ədəbiyyatında haqqında ən çox yazılan əsrarəngiz poetik bir şəhər idi. Paris realizm, surrealizm, romantizm, simbolizm kimi böyük cərəyanların yarandığı bir məkan idi. Nervalın Zəfər tağına həsr etdiyi bir şeir parçasında Parisin romantik mənzərəsinin, şəhər dilinin şirin təsvirini, bu ab-havanın aydın təcəssümünü görürük:

Quand le soleil du soir parcourt les Tuileries
Et verse l'incendie aux vitres du chateau
Je suis la Grande allée et ses deux pièces d'eau
Tout plongé dans mes réveries
Et de la, mes amis, c'est un coup d'oeile
Le coucher du soleil. , riché et mouvant tableau
Encadré dans l'Arc de l'Etoile

Dil - milli yaddaşın forması olaraq vahid bir sistem təşkil edir. Hər xalqın dilində müəyyən norma və qaydalar cəmləşir. Bu norma və qaydaları öyrənməklə biz dil ilə yanaşı, həmin xalqın xarakterini və mədəniyyətini də öyrənirik.

Ədəbiyyat

1. Kazımov, Q.Ş. Dildən xüsusi seminar. Yazıçı və dil / Q.Ş.Kazımov.– Bakı: APİ, 1975. -228 s.
2. Ельмслев, Л. Пролегомены к теории языка // Новое в лингвистике. – Москва: – 1960. – Вып.I. – с.131-256.
3. Хайдеггер, М. Время и бытие: ст. и выступления / М.Хайдеггер. – Москва: Республика, – 1993. – 447cRène
4. BOURGOİS "La France en géographie".https://law.wikireading.ru/25146

Ələkbərli Aytən Ağa, Təhsil 1, 209a
Elmi rəhbər: b/m E.M.Əliyev
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ MODALLIĞIN EKSPLİSİT VƏ İMPLİSİT İFADƏ VASİTƏLƏRİ

İngilis dilində modallıq fikirləri obyektiv şəkildə təqdim etmək üçün mühüm dil vasitəsidir. Modallıq hadisənin, düşüncənin, müşahidənin nə dərəcədə müəyyən, mümkün, ehtimal və s. olduğunu ortaya qoyur. Martin J. Endley təklif edir ki, modallığı izah etməyin ən sadə yolu onun danışanın nitqdə ifadə olunan bəzi vəziyyətə münasibətdə qəbul etdiyi mövqe ilə əlaqəli olduğunu söyləməkdir. Modallıq danışanın təsvir edilən vəziyyətə münasibətini əks etdirir [2]. Biz bəzən " İt's raining." kimi faktları bildiririk və bəzi hallarda şəxsi düşüncəmizi ifadə edirik. Məsələn, "I think, it will be a sunny day." Belə demək olar ki, biz bəyan etdiyimiz fikirlə, yanaşı cümlədə öz münasibətimizi də ifadə etmək üçün modallığa müraciət edirik. Bu sadəcə faktları çatdırmaqdan ibarət deyidil. Deborah Cameron bir misalla bunu belə izah edir: "Modallıq təkbuynuzlu atların heç vaxt mövcud olmadığı kimi faktiki bir iddia ilə təkbuynuzlu atların nə vaxtsa mövcud ola bilməsi ehtimalı arasında fərq yaradan nüansdır [1] Modallıq danışanın öz iddialarını irəli sürdüyü zaman istifadə etdiyi bir mənbədir. Modallığın nitqdəki rolunu nəzərə alıb qeyd etmək lazımdır ki, modallığın ifadə vasitələrindən yanlış istifadə anlaşılmazlığa yol verə bilər.[1] Modallığın əsasən, iki növü məlumdur: obyektiv (deontik), subyektv və törəmə modallıq.

Bu bölgüdən əlavə, digər bir mühüm məsələ xarici və daxili modallıq arasındadır.[2] xarici modallıq vəziyyət və hadisələrin mümkünlüyü, ehtimalı və zəruriliyi ilə bağlı qiymətləndirməyə aiddir: "İt can be hot there at night."

Daxili modallıq isə insanların situasiyalar, hadisələr üzərində nəzarəti və qiymətləndirilməsinə aiddir: "You can't park in the field."

Modallığı nitqdə vurğulamaq üçün müraciət olunan ifadə vasitələri də bir-birindən fərqlənir: eksplisit və implisit ifadə vasitələri. Eksplisit ifadə vasitələri hadisənin muəyyənlik və zərurət dərəcəsini birbaşa daşıyır və əsasən, modal feillərlə ifadə edilir, məsələn,: Can, may, should, ought to, must. Məsələn, "You should take care of yourself."

İmplisit ifadə vasitələri dolayı yolla danışanın nitqində fikri, hadisəni vurğulayır. İmplisit ifadə vasitələri kimi ton və konteksti birinci növbədə misal çəkmək olar. Bir cümlənin ətrafındakı ton, məzmun

modallığı anlamağa imkan verir: “Be careful !”, “Maybe you forget the last episode.” Modallıq bildirən başqa söz və ifadələr də,həmçinin, implisit ifadə vasitələrinə aiddir: Modal nouns (permission, demand, requirement, necessity, request), modal adjectives (advisible, crucial, likely, necessary, probable), modal adverbs (surely, possibly, maybe, perhaps, arguably, probably), modal-like constructions (be going to, be able to, have (got) to) [1] Bundan əlavə modal sözlər də bu məqsədlə istifadə olunur: Certainly, indeed, perhaps, happily, no doubt, unluckily, naturally, obviously, actually və s. [2]

Bu ifadə vasitələrilə yanaşı implisit ifadə vasitələrinə Subjunctive mood da daxildir. Subjunctive mood mümkün olmayan, əvvəlcədən baş vermiş hadisələri və ya arzuları ifadə etmək üçündür:

İstifadə edilmiş ədəbiyyat

1. https://www.onestopenglish.com/ask-the-experts/grammar-mood-and-modality-2/153932.article
2. https://dictionary.cambridge.org/grammar/british-grammar/modality-other-verbs

Təhsil 2 fakültəsi, Səfərova Pəri Müsaməddin
Elmi rəhbər: b/m Bərmuzi Səfiyyə Yusif
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS DİLİNDƏ FEİLİ SİFƏT TƏRKİBLƏRİ

Feili sifət feilin şəxssiz formalarından biridir. Feili sifətin iki forması vardır:

1) İndiki zaman feili sifət (Participle I)

2) Keçmiş zaman feili sifət (Participle II)

İndiki zaman feili sifət feilin sonuna “ing” artırmaqla düzəlir.

Example: to read – reading (oxuyan)

to write – writing (yazan)

İndiki zaman feili sifətinin cümlədə funksiyası:

1) Təyin kimi:

- The playing girl is my sister. – Oynayan qız mənim bacımdır.

2) Zərflik kimi:

Əvvəlcə teatr haqqında danışarkən bunu qeyd etmək istərdik ki, bir aktyorun düşündüyü və hiss etdiyi şeyin teatrın özündə heç vaxt əks etdirilmədiyini unutmamaq lazımdır. Əslində, S. Moeminin "Teatr" romanında da bu mövzuya dair maraqlı təsvirlər görürük.Yazıçı tamaşaların və səhnənin detallarına həmişə diqqət yetirmir. Müəllifin diqqəti daha çox romanın baş qəhrəmanı Culiya Lambertin gündəlik həyatına yönəldilir. Romanın adı Culiyanın adından deyil, müəllifin adından seçilmiş olsa da, həqiqətən müəllifin öz qəhrəmanına təsadüfi deyil, hər yerdə yaxından baxdığı hiss edilir. Oxucunun qarşısında "ikili" bir perspektif meydana gəlir. Bir tərəfdən, müəllif bizi Culiyanın həyatındakı xarici hadisələrə – onun davranışlarına, deyimlərinə diqqət çəkərək təsvir edir. Digər tərəfdən isə, bu hadisələrin daimi fonu kimi, Culiyanın ifadə etdiyi düşüncələri, ucadan deyil, həyatındakı hadisələrə həqiqi münasibətini daha dəqiq şəkildə təsvir edir. Yuxarıda qeyd etdiyimiz kimi bu iki mənzərə arasında bir "ikili" yaranır. Culiyanın reallıqda dedikləri və onun "söylədiyi" fikirlər arasında zaman-zaman müəyyən bir ziddiyyət və fərqlilik görürük. Bu, oxucuya qarşısında məlumatları müəyyən bir dərinlikdə və şüurlu bir şəkildə müəyyən etmək üçün maraqlı bir səciyyə verir.

Müəllif, Culiya'nın münasibətlərində, sevgi və ehtirasda təzadlarını təsvir edir. Culiya, Maykl və Çarlzla olan münasibətlərində öz fikirlərini ifadə edərkən, onun düşüncələri ilə sözləri arasında təzadlar yaranır. Bu, müəllifin ironik üslubu ilə göstərilir. Mətn, Culiya'nın fikirlərindəki üslubi ziddiyyəti, kobudluğu və kinayəsini, onun sözləri ilə davranışları arasındakı təzadları təsvir edir. Müəllif, Culiya'nın düşüncələrini və davranışlarını təsvir edərkən, onun üslubunda ironiya yaratmaq üçün müxtəlif üslub və tonları istifadə edir.

Beləliklə, romanda oyun mövzusu, iddia, daimi "boşluq" hissi, zahiri forma ilə məzmunun uyğunsuzluğu əsas üslub xüsusiyyətlərinə çevrilir. Culiyanın rol aldığı bu tamaşa təkcə teatrda deyil, həyatın bütün sahələrində, həyat yoldaşı, oğlu Tom, Çarlz və rəqibi Evis Kraytonla münasibətlərində görünür. Culiyanın hərəkətlərindəki bu uyğunsuzluq mütəmadi olaraq müəllifin öz qəhrəmanını ələ salması hissini yaradır. S.Moem bu vəziyyəti anlamaq üçün iki variant təklif edir: hər şeyin həqiqətən necə olduğu və Culiya bunu necə qəbul edir. Bu iki "situasiya" arasındakı fərq ironiyanın unikallığını ortaya qoyur.

Ədəbiyyat siyahısı

1. Aytan Hajiyeva, English Stylistics, Bakı Elm ve tehsil 43s.
2. Bayramov Q. Tərcümə sənəti, Bakı, OKA Ofset, 2008.
3. Moem S. Seçilmiş əsərləri, Bakı, Şərq-Qərb, 2010.
4. Лосев, А. Ф. История эстетических категорий / А. Ф. Лосев, В. П. Шестаков. – Москва : Искусство, 23с.
5. Третьякова, Е.Ю., Ирония в структуре художественного текста. Сборник Кубанского государственного университета, 2003. 349с
6. https://royallib.com/read/Maugham_William/Theatre.html#0

Səfərova Güldən Raqif qızı, 239A
Elmi rəhbər: filologiya elmləri doktoru, Abdullayeva Yeganə
Azərbaycan Dillər Universiteti

DANTENİN "İLAHİ KOMEDİYA" ƏSƏRİNDƏ HUMANİST İDEYALAR

İtalyan şairi Dante Aligyerinin "İlahi komediya"sı dünya mədəniyyəti tarixinə orta əsrlər sənətinin ən yüksək nailiyyəti və eyni zamanda da bəşəri böhranı əks etdirən əsər kimi daxil olmuşdur. Əsər həmçinin İntibah humanizminin ideyalarını da özündə birləşdirir.

Orta əsr sənətkarlarından heç biri Dante qədər dövrünü dolğun və canlı şəkildə əks etdirməmişdir. Bu əsərin humanist ideyalarında daha aydın şəkildə görünür [3, s.8]. Dante orta əsr ədəbiyyatında ilk dəfə olaraq insanı yer üzündəki həyatına görə dəyərləndirir. Şairin keçdiyi doqquz cəhənnəm dairəsi onun insan ehtiraslarına, nəfsinə və nadanlığına münasibətini əks etdirir. Birinci dairədə o, körpələrlə və məşhur bütpərəst sənətkarlarla görüşür; onlar əziyyət çəkmirlər, amma həsrət çəkirlər, çünki xristianlığa görə onlara cənnətdə yeri yoxdur. İkinci dairədə o, cəhənnəmdə belə ayrılmaq istəməyən sevgililəri görür. Şair onlara rəğbət bəsləyir və burada da onun humanist fikirlərini görmək olur, çünki orta əsr ədəbiyyatı günahkarlara rəğbət bəsləmir. Bu minvalla o, sonuncu, doqquzuncu dairədə tanıdığı qrafı görür. O, siyasi xadimdir, lakin həmfikirlərinə xəyanət edir və Danteyə görə cəhənnəmin dibində cəza çəkməlidir. Ancaq belə bir günahkar da şairdə mərhəmət hissi oyadır. Xəyanətə görə onu və uşaqlarını Pizan qülləsində həbs edirlər. Ata və oğulları orada aclıqdan dəhşətli şəkildə ölürlər. Dante satqın qrafı pisləyir, lakin ata kimi ona acıyır, onun halına yanır [1, s.8].

"İlahi komediya"nın bütün epizodları yüksək humanizmi və insan iztirablarına rəğbəti və mərhəməti ilə heyrət doğurur. Əsərdəki Paolo və Françeska ilə bağlı epizod da diqqətə layiqdir. Ata qanlı davaya son qoymaq üçün qızı Françeskanı düşmənin oğlu ilə evləndirir. Lakin o, həm çirkin, həm də axsaqdır, bu səbəbdən toy mərasimində kiçik qardaşı Paolo onu əvəz edir. Paolo və Françeska gözlənilmədən birbirlərinə aşiq olur, xəyanətdən xəbər tutan çirkin qardaş sevgililəri qətlə yetirir.

Sevginin ölümə və xəyanətə apardığını əsas gətirən şair hətta bu fikirlərində belə onları biri-birindən ayırmağa cürət etmir. Lakin, qəhrəmanları qınayır, onlara haqq qazandırmır, ağılın hisslərdən güclü olmasını dilə gətirir.

Göründüyü kimi, "İlahi komediya" humanist idealı təcəssüm edir. Şairin özü əsərdə bütün bəşəriyyət üçün ideala çevrilir. Şairin ruhu insanlığa şəfqətlə baxır, həyatı yaxşılığa doğru dəyişmək ümidi ilə qanlı düşmənçilikdən uzaq durmağı səsləyir. Şair də səhvlər edir, məyus olur, amma həqiqəti insanlara çatdırmağa çalışır. Bu fikir də şairin humanist düşüncələrinin göstəricisidir.

Dante əsərlərinin birində yazır ki, insan azaddır, lakin bu azadlıq, ilk növbədə, məsuliyyətdir və insanın davranışları onun Allaha münasibətini ifadə edir. İnsan başa düşməlidir ki, etdiyi hər bir hərəkətə görə cavab verməlidir. Dantenin humanizmi insan şəxsiyyətinə inamda, onun əməllərinə görə məsuliyyətində, vəzifə və azadlığında özünü göstərir. Bəlkə də buna görə Danteni bütün əsrlərin vətəndaşı adlandırmaq olar. Elə bu səbəbdən "İlahi komediya" insanın tək özü ilə deyil, bütün kainatla bir növ dialoqudur. İnsanın yenidən özünü dərk etməsini irəli sürən bir sənət əsəridir.

Ədəbiyyat:

1. Dante. İlahi komediya. Bakı, "Öndər nəşriyyatı, 2009, 592s.
2. Dünya tarixi ensiklopediyası. https://www.worldhistory.org/trans/tr/1-19216-dante-alighieri/
3. Borxes L.X. Dante haqqında doqquz esse. Tər. S.Ağabalayeva. Bakı, 2012. 35s.

Hüseynova Rəvanə Gündüz qızı, 239A
Elmi rəhbər: filologiya elmləri doktoru, Abdullayeva Yeganə
Azərbaycan Dillər Universiteti

DANİEL DEFONUN "ROBİNZON KRUZO" ROMANININ TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

Daniel Defonun 1719-cu ildə yazdığı "Robinzon Kruzo" romanında hər kəsə örnək ola biləcək bir insanın formalaşmasını görmək olur. Roman D.Defo dövrünün fəlsəfəsi olan "tabula rasa"- təmiz lövhə ideyasına əsaslanır. O ilk dəfə Con Lokk tərəfindən irəli sürülmüş və insanın "təmiz lövhə kimi" doğulmasını ifadə edir. Yəni insanın inkişafı dünyanın və şəxsi təcrübələrin təsiri altında baş verir. Müəllif bu ideyanı Robinzon Kruzo şəxsiyyətinin formalaşmasında başlıca amil kimi təsvir etmişdir.

Roman eyni zamanda da D.Defonun müdafiə etdiyi və bütün maarifçilər üçün ali məqama çevrilmiş idealları çatdırır [1, S.2]. Bu sırada bərabərlik, humanizm, qardaşlıq və ədalət prinsipləri yer alır. Bütün insanların bərabərliyinə inam, tərəqqiyə inam və rasional varlığa inam maarifçiliyin əsas ideyaları kimi "Robinzon Kruzo" romanının başlıca xüsusiyyətlərindəndir.

“Robinzon Kruzo” romanı bizə təhlükə və çətinliklərlə üzləşəndə necə davranmağın nümunəsini verir. Yazıçı əsər boyu ümidsiz olmayın, düşünün və çox çalışın ideyasını irəli sürür. Digər tərəfdən həyatda qazanılan təcrübənin əhəmiyyəti, insanın yeni bir şey sınamaqla əldə etdiyi biliyin dəyəri haqqında düşünməyə vadar edir [2].

Bütün həyatı boyu Robinzon Kruzo yeni zirvələrə can atır, adi ingilis burjuasının həyatından razı qalmır və bu səbəbdən riskə edir, yeni-yeni təcrübələr arxasınca gedir. Yazıçının fikrincə, əsl insan elə bu xüsusiyyətlərə malik olmalıdır. Başqa sözlə, daim yeniliyə can atmalı, yüksək zirvələri fəth etməli, çox çalışmalı, heç vaxt təslim olmamalı və dünyanı yaxşılığa doğru dəyişdirməlidir.

D.Defo fiziki əməyin əhəmiyyətindən bəhs edən ilk yazıçılardandır. Daima çalışmaqla Robinzon təcrübə qazanır, iradəsini gücləndirir və nəticədə bütün çətinlikləri dəf edərək uğur qazanır.

Robinzon və Cümə birlikdə ən çətin sınaqlardan keçən əsl dostluq nümunəsini göstərir. Robinson Cümə üçün, əslində, ona hörmətlə yanaşan ikinci ata olur, Cümə isə Kruzo üçün sadəcə bir xidmətçi deyil, həm də əsl yoldaşdır.

Robinzon Kruzo obrazı insanın daimi inkişafını təcəssüm edir. Macəra həvəsli sadə bir insan kimi adaya düşən Robinzon Kruzo romanın sonunda təcrübəli və varlı bir insana çevrilir. D.Defonun qəhrəmanı oxucuya əsl gücü nümayiş edir və bu da insanın ümidsizliyə qarşı durmaq, təslim olmamaq və mübarizəni davam etdirmək bacarığında özünü göstərir. Yazıçıya görə ağıldan və zəhmətdən məhrum olmayan istənilən insan uğur qazana bilər. Bu, “Robinzon Kruzo” romanının tərbiyəvi-əxlaqı ideyasıdır.

Ədəbiyyat:

1. Defo D. Robinzon Kruzo. Bakı, “Öndər nəşriyyatı”, 2004, 464s.
2. Yusifoğlu B. Qəhrəmanı özündən məşhur yazıçı // Ədalət. 2010. 5 oktyabr. s.5.
3. Realist romanlar banisi Daniel Defo. Metodik vəsait. F.Köçərli adına Respublika Uşaq Kitabxanası.Bakı, 2015. 25 s.

Faculty of Philology, Qurbanova Aysel Cavansir
PhD. Turan Arif Karimli
Azerbaijani University of Languages

SOCİAL CRİTİCİSM OF THE VİCTORİAN SOCİETY İN THE SHORT STORY "HAPPY PRİNCE"

Oscar Wilde - is a famous literary figure known for his literary wit and flamboyance. His accomplishments in writing date back to the late Victorian era. Nevertheless, he is still regarded as one of literature's greatest symbols today, inspiring people with his writings, quotations, and more. He attracted the attention of the public with his only novels, and with collection of children’s stories "The Happy Prince and Other Tales" published in May 1888. Among Oscar Wilde's various children's works, "The Happy Prince" occupies a special place. Due to its unique qualities and the deep thought, this heartwarming story emphasizes the value of empathy, compassion, and care. [2]

Once upon a time in a certain city there stood a magnificent statue of a prince known as the "Happy Prince", with sapphire eyes and a ruby hilt of a sword. However, the Happy Prince was not truly happy. The Happy Prince lived a luxurious life, unaware of the suffering and sorrow in the world around him. One day, a swallow, about to migrate to Egypt for the winter, rested on his shoulder. The Swallow noticed the prince’s tears ans asked him why he was sad and the Prince explained that he never experienced sadness because he lived in a castle his entire life. The Happy Prince asked the Swallow to remove the sapphire from his one eye and give it to a poor mother who needed money to buy food for her sick child. The Swallow did what the Prince requested and felt a wonderful flush of delight. The next day, the prince asked the swallow to pluck his sapphire from another eye and gave it to the playwright, who needed paper and ink. The Swallow obeyed once more and felt a great sense of delight.As winter approached, the Swallow was freezing, but refused to leave the Happy Prince’ side. He kissed the Happy Prince, and died. After noticing the dead swallow and the shabby statue of the Happy Prince, the townspeople made the decision to melt it. To everyone’s surprise, the broken leaden heart did not melt.

So they threw it away. At the end of the story, God asks his angels to find and bring him the two most precious things in the city. It is the lead heart and the dead bird that the angels bring when they return. God was pleased and welcomed both of them to his Garden of Paradise. [1,p.62]

Oscar Wilde wrote "The Happy Prince" as a children's tale with a moral lesson, but also as a commentary on the Victorian society of his time. Through this tale, Wilde critiques the lack of empathy and compassion in the upper class and the importance of selflessness and generosity towards those less fortunate. [3]

In this story, Oscar Wilde touched on many themes. The subject of sacrifice is first to emerge. Just as the prince gives away his golden stones, so the swallow gives up his life for the good of humanity. Wilde also uses the theme of appearance. Appearance might be misleading. When his finery disappears, the Happy Prince no longer seems as lovely as he once was. The mayor prioritizes the appearance of the Happy Prince over the idea of helping other city citizens. Genuine friendship is the final theme presented in the story. In the tale, the small swallow and the prince have a close friendship and respect for one another. [4]

Literature:

1. İsmayilova Aybaniz "History of English Literature'' Volume II, Baki, Mutarcim 2021, 288p
2. https://www.biography.com/authors-writers/oscar-wilde
3. https://www.studocu.com/in/document/christ-deemed-to-be-university/english/happy-prince-themes-and-other-poems/17909595
4. https://ikuelldotcom.wordpress.com/2015/06/20/criticism-of-capitalism-in-oscar-wildes-the-happy-prince/

Şükürlü Ləman Qənbər qızı,
Elmi rəhbər: fil. elml. dok., Abdullayeva Yeganə Atamoğlan qızı
Azərbaycan Dillər Universiteti

ŞEKSPİRİN "HAMLET" FACİƏSİNDƏ İNTİBAH REALİZMİNİN XÜSUSİYYƏTLƏRİ

İntibah realizminin zirvəsi olan Şekspir yaradıcılığı əsrlərdir ki, bəşəriyyəti düşündürən suallara cavab arayır və bir qayda olaraq da hər dövrün bu suallara öz cavabları olur.

Şekspirin "Hamlet" faciəsini təhlil edərkən aydın şəkildə İntibah realizminin xüsusiyyətlərini görmək olur. Bu ilk növbədə mövzunun aktuallığında, süjetin təkrarsızlığında, obrazların yaratdığı xarakterlərdə, ümumiyyətlə, faciədə qaldırılan problemlərin qoyuluşunda özünü göstərir. Eyni zamanda da Hamlet obrazının şəxsi və ictimai münasibətlərinin xarakterik xüsusiyyətlərində önə çıxır. Onu da qeyd edək ki, "Hamlet" faciəsi Şekspirin ən çox təhlil edilən əsərlərindəndir və onu siyasi pyes də adlandırırlar. Lakin qəhrəmanın öz ətrafı ilə münaqişəsi siyasi xarakter daşımır. İlk baxışdan Hamletin münaqişəsində sırf şəxsi vəzifə dayanır. O, taxt-tac oğrusu olan əmisindən atasının qisasını almalı, qanuni hüquqlarını bərpa etməlidir. Təsadüfi deyil ki, faciənin "taxt uğrunda mübarizə" şərhi faciənin mətnində müəyyən qədər vurğulanır. Rozenkransın Hamletin kədərinin səbəbləri ilə bağlı sualına o, belə cavab verir: "Mən yuxarılara qalxa bilmərəm"[3, s.165]. Onun hələ də sarayda varis olduğuna dair etirazına isə: "Ot böyüyəndə" deyərək istehza ilə cavab verir. Bu fikir təkcə Rozenkransa deyiləcək cavab deyil, həm də yeganə dostu, Danimarka şahzadəsi Horasiyə birmənalı şəkildə səsləndirdiyi: "Mənim ümidlərimlə taxt-taca seçilməyimin arasına kral çox ağıllı şəkildə soxuldu"[3, s.170].

Faciənin digər yerində isə oxuyuruq: "Vaxt tərsinə dönüb. Lənətə gəlsin, mən dünyaya onu düzəltmək üçün gəlmişəm"[3, s.173]. Göründüyü kimi Hamletin fikirləri realizmin tipik qəhrəmanı ilə səsləşir. Hamletin Ofeliya ilə münasibətlərində də dramaturqun realist üslubunu görmək olur. Özünün əbədi "günahını" etiraf edən Hamlet Ofeliyaya müraciət edərək: "Olum, ya ölüm, budur məsələ" [3, s.170] deyir. Artıq bu ifadə də onun "Kral olmaq və ya olmamaq" mənasını açıq şəkildə şərh edir. Bu və buna bənzər motivlər "Hamlet" faciəsinin "Danimarka şahzadəsi" və ya "taxt uğrunda mübarizə" ideyasına uyğun gəlmir. Başqa sözlə, şəxsi maraqlara sığmır. Hamlet obrazının fərdi xüsusiyyəti tarixi prinsipə çevrilir, şəxsi məsələ zamanın və cəmiyyətin məsələsinə dönür.

Şekspir qəhrəmanının psixologiyası və realizmin tipikləşdirilməsi, şəxsi məsələlərin sosial və universal məsələlərə qədər böyüməsi İntibah realizmi üçün son dərəcə xarakterikdir. İntibah realizmində ideallaşdırılan qəhrəman şəxsiyyətdir. Bu insan tipi tarıma "çəkilmiş" şəxsiyyəti təcəssüm edir. Hamlet də bütöv bir cəmiyyətə qarşı təkbaşına döyüşür, elə bu səbəbdən İntibah realizminin xarakterik xüsusiyyətini daşıyır.

Ədəbiyyat:

1. 1.Nağıyev C. Qərbi Avropa ədəbiyyatı, Bakı, 2019, 302s.
2. 2.Novruzov T. Orta əsrlər qərb ədəbiyyatı. Bakı, 2005, 430s.
3. 3.Şekspir. Seçilmiş əsərləri. İki cilddə. I Cild. "Öndər nəşriyyatı", Bakı, 2004, 736s.

Namazova Vafa Asif
Philology faculty, group B20-432B
Instructor: b/m. Abdulrahimova Nushaba Mirza
Azerbaijan University of Languages

OLD ENGLISH NOUN SYSTEM

Old English is an early form of the English language and dates from the mid-5th to late 11th century A.D. It was written and spoken by the Anglo-Saxons in modern-day England and the eastern and southern parts of Scotland. Old English is part of the West Germanic branch of the Germanic languages, a sub-group of the Indo-European language family.

Unlike Present Day English, Old English had a very rich morphological diversity. Old English was a highly inflected language which means that nouns, pronouns, adjectives and determiners were inflected to indicate case, gender and number. Hence, the Old English grammar is much more closely related to modern German than the English we currently speak. [1.P. 61]

Old English nouns can be classified into different clusters based on their grammatical features. They are often categorized into strong and weak nouns, with the strong nouns having a more distinct declension pattern. Strong nouns further fall into various classes, such as a-stems, o-stems, i-stems, u-stems, and consonant stems. Each class has its own set of declensions and forms.

The class of a-stem includes neuter and masculine nouns as: scip(ship, neuter), hwæte (wheat, masculine) etc.

ja-stem nouns are subdivision of a-stems;

õ-stem nouns consist exclusively of feminine ones as: sāwol(soul, feminine), caru(care, feminine);

i-stem nouns comprise all three genders as: siȝe(victory, masculine), sife(sieve, neuter), hȳd(hide, feminine);

u-stem nouns are made up of masculine and feminine ones as: sunu(son, masculine), flōr(floor, feminine)

Additionally, Old English nouns can be masculine, feminine, or neuter, influencing their declension patterns. The case system, including nominative, accusative, genitive, and dative cases, also plays a crucial role in understanding Old English nouns and their functions within sentences. Nouns also decline differently based on whether they are singular or plural. [1. P. 66]

Weak declension nouns have a little distinctive feature: a form ending in- an (the most common ending of this declension type) can be that of the genitive, dative and accusative singular, or nominative and accusative plural:

Nominative: heorte ("heart" feminine, singular)

Genitive: heortan

Dative: heortan

Accusative: heortan

The consonant declension comprises nouns with the stem originally ending in-n, -r, -s and some other consonants

In Strong Declension if the noun is in the gender of Neuter and Feminine, this noun must be short stem noun or long stem noun. [1. P. 65]

Short stem: short vowel + 1 consonant : scip, bæþ

Long stem: long vowel + 1 consonant : bān or

short vowel + more than 1 consonant : word, bedd, Land [2., 3.]

In Weak Declension nouns are distinguished with some qualities due to their genders:

Masculine: nom. sg. Ending in – “a”, e.g : cnapa, guma, oxa

Neuter: ēage, ēare, wange (Only these 3!)

Feminine: nom. sg. Ending in- “e” e.g : sunne, tunge [2., 3]

To sum up I want to emphasize that Old English represents an early stage of the English language, characterized by a rich morphological diversity and a highly inflected grammar system. Its classification of nouns into strong and weak declensions, along with various gender distinctions, reflects a linguistic complexity alike to modern German. Understanding the morphology and declension patterns of Old English nouns is crucial for comprehending its syntax and overall linguistic structure. Through its distinct declension classes and gender influences the evolution of the English language.

Sources:

1. http://web2.anl.az:81/read/page.php?bibid=527140&pno=34
2. https://oldenglish.info/wam5.html
3. https://www.docdroid.net/WHqH3PG/peterbakeroemagicsheet1stedn-pd

Samira Alirzayeva
Elmi rəhbər: f.f.d., dosent Hüseynova Lalə Asif qızı
Azərbaycan Dillər Universiteti

TYPES OF SLANG İN MODERN ENGLİSH LANGUAGE

Slang is a deviation from the established norm at the level of the vocabulary of the language. It can include neologisms, abbreviations, dialect words, and conversational expressions. Slang is used in casual communication, and it evolves continuously with societal and social changes. Languages also have such a feature as jargon. It is often used as a synonym for slang, but their main difference lies in the context of use and the target audience. Slang is informal language used in colloquial speech and subcultures, while jargon is specific vocabulary associated with a particular profession or social group. In modern English slang can be regional, public-house, age-related, professional, ethnic, cultural. It can also emerge online or from dissimilar subcultures. [1]

Regional slang is used in different regions and cities, which have their own unique slang words and phrases. For example, "bubbler" is a term used in Wisconsin for a water fountain, whereas in other parts of the English-speaking world, it might be called a "drinking fountain". [2]

Generational Slang can vary across different age groups. Younger generations often coin new words or repurpose existing ones to fit their cultural context, while older generations may use different slang terms that reflect their experiences and cultural influences. For instance, "Lit" is a slang term commonly used by younger generations to describe something exciting, excellent, or amazing.

Ethnic and Cultural Slang can be influenced by different ethnic groups. Words and phrases from specific cultural backgrounds may be integrated into the broader English lexicon, reflecting the diversity of the language. For instance, "Chutzpah" is a Yiddish slang term that has been adopted into English, meaning audacity or nerve. [5]

The digital age has given rise to a new form of slang, often specific to online communities and social media platforms. Terms like "LOL" and "troll" originated from online interactions and have become widely used in everyday communication. "Meme" is a term that originated in online communities and refers to humorous images, videos, or pieces of text that are rapidly shared and modified by internet users.

Different professions and industries often develop their own jargon and slang. In particular, "9 to 5" is a term originating from the workday schedule, while "bull market" and "bear market" are commonly

used in finance and investing. Or in the tech industry, "beta" is a term used to describe a product or software in a testing phase before its full release.

Counter-Culture Slang terms can emerge from various counter-culture movements, such as the hip-hop, punk, or skateboarding subcultures. These terms often carry specific meanings and are used to express solidarity with a particular social group or ideology. For instance, "Skater punk" subculture has its own slang, such as "shred" (skateboarding skillfully) and "gnarly" (awesome or impressive).

These are just a few examples of the diverse types of slang present in modern English. Slang continues to progress and adapt to new cultural, social, and technological influences, influencing the richness and vibrancy of the English language. It is ambiguous because, to use a figurative expression, it has become a Jack of all trades and master of none.[1]

Literature:

1. I. R. Galperin, “English Stylistics”
2. https://thewritingking.com/modern-slang
3. http://www.t-rn.ru/inostrannye-yazyki-i-yazykoznanie/stylistic-classification-of-the-english-vocabulary_22.html
4. https://www.usaonrace.com/sticky-wicket-questions/661/slang-ethnicity.html
5. https://otherreferats.allbest.ru/languages/00023473_0.html

Kerimova Meiransa
Faculty of Philology, group B22-243
Scientific advisor :Aybeniz Ismayilova
Azerbaijan University of Languages

BİBLİCAL ALLUSİONS İN THE STORY OF O.HENRY ’’ THE GİFT OF THE MAGİ’’

The American writer O.Henry(1862-1910) in his short story told a simple story about two people who were ready to give the most precious thing they had for their loved one. It's not for nothing that the writer compared them to the Magi. The novella teaches sincere love and generosity, the ability to appreciate the warmth of human communication, shows sincere participation and kindness. [1]

What are the “gifts of the Magi” themselves? This expression appeared thanks to the Bible, namely the chapter dedicated to the birth of Jesus Christ. According to the plot, the wise men were sent by the cunning and treacherous King Herod to Bethlehem to find out about the baby. The intentions of the Magi were pure, unlike their ruler, and therefore, having come to Bethlehem, they “rejoiced with very great joy” and brought gifts to the baby: gold, frankincense and myrrh. It was the Magi, who presented gifts to the Baby, who began the tradition of giving gifts at Christmas.

The name of the story has a deep meaning. When the author talks about gifts, he makes it clear that it is not material gifts that are important, but the most priceless gift is the love that spouses give to each other. They don’t even think about their own happiness, love is sacrificial, and they made such a sacrifice in order to please their loved one. Because of this, their gifts are wise. O. Henry draws a parallel with the Nativity of Christ, remembering the Magi. That is why the story about a poor family is called "The Gifts of the Magi."[2]

The story touches on many topics - beauty, family, love, sacrifice, and wisdom, among which the last two are the most important.

The narrator almost immediately draws our attention to the two most important details of the story: it takes place on Christmas Eve, and its two main characters live in a very modest apartment. Della wants to buy a gift for her husband, but $1.87 is all she has.

O.Henry tries to convey the image of poverty as vividly as possible: this is a cheap, sparsely furnished apartment, a broken mailbox and a broken doorbell. All of this adds to the drabness of the physical environment in which Jim and Della live. Everything outside the apartment is gray.

The characters are thoughtful and devoid of selfishness, love and care for each other is what guides the actions of these two characters. The hidden paradox in the story is that Della and Jim Young are both poor and rich–poor materially but rich spiritually. The irony is that both sacrifice the most important

things to buy each other a Christmas present, but soon realize that their gifts are useless. Because in fact, love has no price, it is a priceless gift.[3]

In this short story, O. Henry turns to the biblical story of the three wise men who brought lara to the baby Jesus for Christmas. The allusion to the three Muloians is fundamental to the plot and is manifested in the very name “Gifts of the Magi”. It is with the sages that lovers are compared who are ready to do anything for the sake of love: “They are the magic.” Another example of an allusion is the mention of King Solomon and the Queen of Sheba: “If the Queen of Sheba lived in the house opposite,,Della, after washing her hair, would certainly dry her loose hair by the window - especially in order to make all of Her Majesty’s outfits and jewelry fade.If King Solomon served as a doorman in the same house and kept all his wealth in the basement, Jim, every time he passed by, would take his watch out of his pocket - especially in order to see how he was tearing his beard out of envy." Such comparisons allow the reader to conclude that the spiritual wealth of the Dillingham family is no less valuable than than the treasure of the biblical kings.[4]

Literature:

1. https://americanenglish.state.gov/files/ae/resource_files/1-the_gift_of_the_magi_0.pdf
2. https://yandex.ru/q/question/pochemu_rasskaz_nazyvaetsia_dary_volkhvov_d2a4be99/#:~:text=Они%20даже%20не%20задумываются%20о,и%20называется%20%22%20Дары%20Волхвов.%22
3. Геккер М.Ю.Американская литература-М:Просвещение,2003
4. https://cyberleninka.ru/article/n/allyuziya-na-bibleyskiy-syuzhet-kak-proyavlenie-intertekstualnosti-v-novellah-o-genri/viewe

Əliyeva Neyjən Rabil
Elmi rəhbər: f.f.d.,dosent Hüseynova Lalə Asif qızı
Azərbaycan Dillər Universiteti

THE ROLE OF BORROWİNGS IN MODERN ENGLİSH LANGUAGE

Borrowed words are words taken from other languages and integrated into the vocabulary. These loanwords often reflect cultural exchange and globalization, showing the interconnectedness of different societies. The English language is known for its adaptability and versatility. One of the main roles of borrowings in modern English is the enrichment of its vocabulary. This process of borrowing allows us to express ideas and concepts that did not previously exist in the English language. The most massive flow of borrowings was medieval, after the Norman Conquest, in Old French; as a result, almost half of the English vocabulary consists of words in these languages. Currently, the language includes a large number of studied Latinisms and new borrowings from continental languages. As new words are borrowed, they adapt to English phonetics and grammar. The English dictionary contains many words borrowed from other languages; they make up more than 60% of the language's vocabulary. These include: Celtic borrowings; Latin borrowings; Scandinavian borrowings; French borrowings; Slavic borrowings; European borrowings of the twentieth century and borrowings from other languages. Borrowings from Celtic languages in English are few and far between and in most cases belong to dialectal vocabulary or the vocabulary of the lower strata of the population. These are words such as: bannock - unleavened pie; cross - cross; rear seat - saddle cushion; plaid - plaid. Some place names are also early Celtic borrowings into English, for example: Aberdeen, Ben Lomond, Dunbar, Kildare, Dunstable, Billigshurt. Words of Latin borrowing entered the English language as a result of trade contacts on the continent. Ancient tribes, the ancestors of the Anglo-Saxons, inhabited the northern part of Central Europe, they carried out trade exchanges with the Romans, fought with them and borrowed a number of words related to trade from the Romans. Latin borrowings are associated with Christianity, which was brought to Britain by Roman preachers. For example: pear (rege; lat. pirum 'pear'), rea (pise; lat. pisum 'pea'), pepper (pipor;

lat. piper 'pepper'), cheese (clese; lat. caseus 'si p'), plum (steel; lat. prunus 'plum'), oil (Butere; lat. Butyrum 'oil'), wine (victory; lat. vinum 'wine')'), teapot (cytel; lat. catillus 'teapot'). [3, p104] Scandinavian loanwords came into English from Danish as a result of the Scandinavian conquest. This group of borrowings is not very numerous, but includes very frequently occurring words. Here are some examples: they, their instead of hie, hem, scalp, skill, leather, skip, skull, tight, ugly, irregular, etc. Of the

80,000 most common words in the English language, approximately 22,500 are French loanwords. Borrowings especially clearly reflect the Norman influence in the field of administration, in military affairs, in the organization of the church and in city life: court, servant, guard, prince, vassal, government, serf, village, etc. Slavicisms were present in the Old English language, which is one of the reliable evidence of the presence of the Slavs in the Roman period. tsar, governor, peasant, pood, samovar, cart, verst, etc. The English dictionary has other borrowing languages, examples: Pizza - from Italian; Typhoon - from Chinese (Mandarin or Cantonese); Vodka - from Russian; Bazaar - from Persian; Algebra - from Arabic; Safari - from Arabic (originally from Swahili) Sudoku - from Japanese.In conclusion, loanwords play a multifaceted role in modern English, enriching its vocabulary, reflecting historical and cultural interactions, facilitating global communication, reflecting social trends and attitudes, and stimulating the evolution of the language. As the English language continues to evolve in response to globalization and cultural exchange, loanwords will continue to be an important factor in its richness and diversity.

Literature:

1. Borrowings-of-english-vocabulary-and-their-distinctive-features.pdf
2. https://ru.wikipedia.org/wiki/Заимствования_в_английском_языке#Заимствования
3. N.N.Amosova Etymological Fundamentals of the Vocabulary Composition of the Modern English Language
4. The-role-of-foreign-language-borrowings-in-english-language.pdf

Hacıyeva Aysun Azər qızı
Təhsil fakültəsi
Elmi rəhbər:f.f.d., dosent Qocayeva Mətanət Əlağa qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR İNGİLİS VƏ AZƏRBAYCAN DİLLƏRİNDƏ FEİLİN ARZU ŞƏKLİ

Azərbaycan və ingilis müxtəlifsistemli dillər olaraq fərqli tipoloji xüsusiyyətlərə malikdirlər. Belə ki, ingilis dili analitik, Azərbaycan dili isə şəkilçili aqqlutinativ dildir. Lakin hər iki dilin qrammatik sistemində feil aparıcı nitq hissəsi kimi mühüm rol oynayır, çünki feil ən çox qrammatik kateqoriyaya malik olan əsas nitq hissəsidir. Feilin qrammatik kateqoriyaları sistemində şəkil kateqoriyası mühüm yer tutur. Şəkil kateqoriyası danışan şəxsin icra olunan hərəkətə gerçəklik baxımından münasibətini ifadə edir. İngilis dilindən fərqli olaraq Azərbaycan dilində feil şəkillərinin sayı çoxdur. Bunlar xəbər, arzu, lazım, vacib, şərt və əmr şəkilləridir. İngilis dilində isə bunların sayı üçdür: xəbər, arzu və əmr şəkli. Mahiyyət etibarı ilə onlar eyni məzmunu ehtiva etsələr də, dillərin daxili qrammatik quruluşundan asılı olaraq şəkillərin dildə gerçəkləşməsi fərqli xarakter daşıyır. Azərbaycan dilində feilin şəkilləri müxtəlif şəkilçi morfemlərlə ifadə olunduğu halda, ingilis dili analitik dil olduğuna görə, qrammatik mənalar köməkçi söz morfemlərlə ifadə olunur.

İngilis dilinin qrammatik sistemində arzu şəklinin öz işlənmə yeri vardır. Məlumdur ki, feilin xəbər şəkli gerçək hərəkətləri, real faktları bildirdiyi halda, feilin arzu şəkli arzulanan, lakin gerçəkləşməsi həmin anda mümkün olmayan və ya heç mümkün olmayan hərəkətləri bildirir. İngilis dilində feilin arzu şəkli sintetik və analitik formalara malik olub qeyri-real arzu, istək, problemli hərəkətləri ifadə edir. Arzu şəkli ingilis dilində geniş işlənmə mövqeyinə malik deyildir. O, bir neçə budaq cümlələrdə və bəzi sadə cümlələrdə işlədilə bilir. Arzu şəklinin bütün formalarında hərəkət ya indiki, ya keçmiş, ya da gələcək zamana aid edilsə də, feil formaları keçmiş qeyri-müəyyən və keçmiş bitmiş zamanlara aid olmaqla hərəkətin sadəcə arzu edildiyini göstərir. Hərəkəti indiyə və gələcəyə aid edən arzu şəkli Subjunctive I termini ilə, hərəkətin arzu edilməsini bildirən, lakin onun reallaşmasının artıq gec olduğunu bildirən formalarda feilin keçmiş bitmiş zaman forması işlədilir və Subjunctive II [3,s.234] termini ilə adlandırılır. Burada fikri ifadə edən şəxsin arzulanan hərəkətin gerçəkləşməyəcəyini bildirən peşmançılıq hissi əks olunur. Məsələn,

If I found the article I should read it to you – Məqaləni tapsaydım, sənə oxuyardım.

If she had read the article she would have known everything – O, məqaləni oxumuş olsaydı, hər şeyi bilmiş olardı.

Qeyd olunduğu kimi, arzu şəkli hər iki dildə arzulanan, həyata keçməsi o anda mümkün olmayan və ya ümumiyyətlə gerçəkliyi inkar edən arzu və istəkləri ifadə edir, lakin hər bir dilin qrammatik quruluşuna müvafiq olaraq nitqdə formalaşır. Azərbaycan dilində arzu şəkli – a,-ə, -aydı, - əydi şəkilçiləri vasitəsilə düzəlir [1,s.251]. İngilis dilində isə müxtəlif analitik formalarla ifadə olunur. Məsələn, O, orda olsa, onunla məsləhətləşərəm.

Boş vaxtım olsaydı, onu qarşılamağa özüm gedərdim.

But for the rain we should have reached the destination long

ago – Yağışa görə olmasaydı, bis görüş yerinə çoxdan çatmış olardıq.

Nümunələrdən də göründüyü kimi, ingilis dilində arzu şəklinin düzəldilməsi və işlədilməsi Azərbaycan dilinə nisbətən daha mürəkkəbdir. Eyni zamanda, Azərbaycan dilində arzu şəklinin tətbiq sahəsi daha geniş olduğu halda, ingilis dilində arzu şəkli daha çox formal yazı dilində və mürəkkəb sintaktik konstruksiyalarda işlədilir. Bəzən Azərbaycan dilində arzu şəklində olan cümləni ingilis dilinə adekvat şəkildə tərcümə etmək çətinlik törədir və ya əksinə. Bu səbəbdən, bu məsələ daim müzakirə olunan aktual mövzulardan biri hesab olunur.

İstifadə olunmuş ədəbiyyat

1. Kazımov, Q.Ş. Müasir Azərbaycan dili. Morfologiya. Bakı, “Nurlan” 2010,400 s.
2. Blokh, M.Y. A Course in Theoretical English Grammar. M.: Высшая школа, 1983. 383 с.
3. Close, R.A. A Reference Grammar for Students of English. Moscow, Prosveshcheniye, 1979. 352 p.
4. Ganshina, M.A., Vasilevskaya, N.I. English Grammar. Moscow, - 1951, - 472 p.

Shirinova Nuray Seymur
Azerbaijan University of Languages
Faculty of Education-1
Scientific supervisor: senior teacher
Rajabova Sudaba Shamsaddin

THE GREAT LEADER’S VALUE TO HUSEYN JAVID’S POETRY

Among the luminary artists of the history of Azerbaijani literature, Huseyn Javid is one of the artistic wordsmiths who stand out for his personality and literary position. The name Javid H. Javid entered our literary annals and cultural history from the first years of his creativity. The playwright sympathized with the events of the Araz-Turk Republic established in Nakhichevan, worked as a member of the “Green Pen” association, the literary association of the Azerbaijan People’s Republic in Baku, and shone in the world of literature. The publication of the book of poems “Spring Dews” (1918), the writing of the dramas “Devil” (1918) and “Cliff” (1919) and especially the successful staging of the play “Devil” further increased Javid’s literary fame.

In October 1996, at the opening of Huseyn Javid’s mausoleum, Heydar Aliyev modestly summarized his efforts in this way: “For three and a half years, I have been doing everything in my power to strengthen the state independence of Azerbaijan, restore the territorial integrity of our country, and save our republic from the aggression of Armenia, and this I work, day and night on the road.” [1, s.44]. In one of his speeches, our national leader Heydar Aliyev expressed his high thoughts and opinions about literature as follows: “Our literature is one of our great national treasures. We should be proud of that. Personally, I have always thought so, I still think so today, and I will always think so. I believe that our literature, artistic word, writer’s word has a great impact on society, nation, and people.” [3, s.178].

Huseyn Javid and Heydar Aliyev were close to each other because both were creative personalities. Since the beginning of the eighties, our national leader paid regular attention to Huseyn Javid’s heritage. In the históric meeting with the intellectuals of the Azerbaijan National Academy of Sciences, he recalled the work he did regarding Huseyn Javid’s personality and creativity: “Our great philosopher-poet, dramatist Huseyn Javid was arrested, his works were banned for many years. But history put everything in its place. Huseyn Javid’s body was also brought from Siberia to his homeland, and his name was also raised. [1, s.22].

Now Huseyn Javid's works are necessary for the people like air and water In 1996, Heydar Aliyev described Nakhichevan with the highest words in his historic speech at the ceremonial opening of Huseyn Javid's mausoleum in Nakhichevan and said: "Nakhichevan is a beautiful corner of Azerbaijan. Nakhichevan is a land that has produced great personalities. Nakhichevan is a land that includes monuments reflecting the history of the Azerbaijani people. [3, s.365].

"No, everyone in Azerbaijan knows that I have always tried to help the national-cultural heritage, literature, and culture of Azerbaijan as much as possible and to keep them and show them to the present generations. As Huseyn Javid said: "Although living is a good deed, It's better to be immortalized." [1, s.38].

Following these words, we shall always try to keep them alive in our hearts and remember them with great pride!

References

1. Babaxanlı G. Heydər Əliyev və Hüseyn Cavid. Bakı, "Elm və Təhsil" -2020, - 160 s.
2. Həbibəyli İ. Hüseyn Cavid taleyi və sənəti. Məqalələr. Bakı, «Nurlan», 2007, - .75 s.
3. Əliyev H. Ədəbiyyatın yüksək borcu və amalı. Bakı, "Ozan" 1999,- 496 s
4. Vəliyeva S. Hüseyn Cavid və müasirləri. Bakı, "Zərdabi Nəşr" MMC, -2020,-192 s.

Aliyeva Gulay Eyvaz
Faculty of Education-1
Scientific supervisor: senior teacher
Rajabova Sudaba Shamsaddin
Azerbaijan University of Languages

A GENIUS LEADER'S ATTENTION TO OUR LITERARY HERITAGE

Literature played an important role in the life and work of the national leader of Azerbaijan, the world-famous politician Heydar Aliyev. Among the riches of Heydar Aliyev's legacy, his rich theoretical heritage occupies a special place. His legacy is our national treasure. An important part of this valuable heritage is determined by his theoretical concepts about different types and genres of culture, literature and art. [1, s.4] First of all, it should be noted that Heydar Aliyev was one of the rare statesmen in the world who had extensive and systematic knowledge in the field of literature. He had already boldly performed on stage next to professional actors at school age. He recognized the special role of fiction in his personal destiny. These words were reflected in Heydar Aliyev's speech: "I personally love literature very much, and I had loved literature since my youth, childhood when I was reading the first samples of literature at school…"

The outstanding statesman felt a special sympathy for the writers and poets, and there were artworks that he distinguished and preferred. During one of his speeches, he expressed deep thoughts about " The Dead" by Jalil Mammadguluzadeh, "Azerbaijan" by Samad Vurgun, "The Devil" by Huseyn Javid and other literary samples.

Heydar Aliyev considered writing a work on a historical subject at the highest artistic level as one of the most important duties of writers towards the Motherland and the people. The prominent statesman emphasized: "Literary works, where images of historical figures are created and very important periods of our history are chanted, must be written at the highest level".

The genius of Heydar Aliyev will always live in the memory of literary, artistic works along with our national history.

References

1. Əlişanoğlu T. Heydər Əliyevin tarixi obrazı və ədəbiyyat. "525-ci" qəzet, -2019,- 18 iyul, https://science.gov.az/az/news/open/10797
2. Həbibbəyli İ. Heydər Əliyevin dövlətçilik təlimində ədəbiyyat siyasəti və müasir dövr. Azərbaycan.- 2010,- 27 aprel,- 4 s
3. https://www.anl.az/down/meqale/azerbaycan/2010/aprel/116655.htm

4. Yusifoğlu Q. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. Xalq Qəzeti. -2023,-16iyunhttps://xalqqazeti.az/az/medeniyyet/130749-heyder-eliyev-ve-azerbaycan- Edebiyyati

Rzazadə Nigar Tərlan qızı
Magistratura, qrup 217
Ədəbiyyatşünaslıq (ingilis)
Elmi rəhbər:f.f.d.,dosent Nuriyeva Nuranə
Azərbaycan Dillər Universiteti

SOMERSET MOEM HEKAYƏLƏRİNİN İDEYA-MÖVZU XÜSUSİYYƏTLƏRİ

XIX əsrin sonu XX əsrin əvvəllərində ingilis ədəbiyyatında bədii personajların xarakterik xüsusiyyətlərinin, rəngarəng hisslərinin bütün palitrasının açılmasında, reallıq ilə əlaqə yaradılmasında sadə təqdimat forması kimi qısa psixoloji hekayə janrının seçilməsi əsas üstünlüyü ilə seçilirdi. Qısa hekayə janrı, lakonik formada, insanın zaman və özü haqqında əhval-ruhiyyəsinin və mühakimələrinin xarakterini daha qabarıq və emosional şəkildə təcəssüm etdirən əsas vasitəyə çevrilmişdi. Somerset Moem bir neçə dəfə hekayə janrı haqqında fikrini belə ifadə etmişdi: "Mən bu janra aşiq oldum... hekayənin həcmi – təxminən iyirmi min söz, qısalıq prinsipini pozmadan mövzunu kifayət qədər tam işləməyə imkan verir"[2]. Müəllifin hekayələri insanın psixoloji durumu, onun daxili aləminin təlatümləri haqda bədii fikirlərinin təkcə izahı ilə seçilməmiş, eyni zamanda hərəkətlərin, xarakter təzahürlərinin müfəssəl təsviri ilə də fərqlənmişdir.

Uilyam Somerset Moem 100-dən çox hekayənin müəllifidir. Onun hekayələri şərti olaraq üç qrupa bölünürlər. XX əsrin əvvəllərində nəşr olunan ilk hekayələr toplusu müstəmləkəçilik əleyhinə ("İmpeyadan uzaqlarda"), yaradıcı insanların prototiplərininin yaradılmasına həsr edilən kiçik novellaları ("Yağış", "İlham mənbəyi"), daha sonrakı mərhələdə isə kəşfiyyat xidmətinə həsr olunmuş küllüyatlardan ibarətdir. O, 1928-ci ildə "Aşenden və ya Britaniya agenti" adı ilə ayrıca toplu şəklində hekayələlər də nəşr etdirir. Bu kolleksiyaya daxil olan hekayələr "Əlahəzrətin məxfi xidməti" ilə bağlı maraqlı siyasi detektiv janrında yazılmış, Avropa kəşfiyyat xidmətləri arasında gizli, elan olunmamış qarşıdurmaların təsvirinə həsr olunmuş mövzuları ehtiva edir. Müəllif "əfsanəvi" kəşfiyyat xidməti barədə gəzən burjua mətbuatının yaratdığı mifləri də özünəməxsus şəkildə təkzib edir.

Yaradıcılığının sonrakı dövrlərində isə Moemin sosial mövzuları əhatə edən "Edvard Bernardın süqutu" adlı hekayələr toplusu işıq üzü gördü. Yazıçı bu dəfə burjua cəmiyyətində "pul kultu"nu, snobist xüsusiyyətləri və riyakarlığı, aristokrat cəmiyyətinin zövq və ədalarını kor-koranə təqlid etməyə çalışan və digər hər şeyə xor baxan insan tiplərini ciddi şəkildə tənqid edir, sosial etiraz, yüksək əxlaqi prinsiplərə sədaqəti, dərin humanizmi təbliğ edirdi. Moem, Tekkereyin ardınca snobizmi ifşa edir, yüksək mənsubiyyətə qarşı olan hərislik, sadəliyi saymazlıq halına gətirən insanları – bir növ yüksək təbəqəyə məxsus şəxsləri qınaq obyekinə çevirirdi. Insan təbiətinə xas bu xüsusiyyətlərin problematik təsviri verilən "Snoblar" kitabında müəllif, "şöhrətpərəst" tiplərin qalereyasını yaratmağa müvəffəq olmuşdur.

Uilyam Somerset Moemin psixoloji və sosial mövzuları əhatə edən hekayələri yazıçının məharətinin və peşəkarlığının təcəssümüdür. İnsan və cəmiyyət problemi, ziddiyyətli xarakterlər, ümumilikdə insanın sosial həyatının, düşüncə və istəklərinin panoramik mənzərəsini yaratmaq, yazıçının yaradıcılığının ana xəttini təşkil edir.

İstifadə edilmiş ədəbiyyat:

1. Aldington R.W. Somerset Maugham. An Appreciation by Richard Aldington. Sixty Five. By W. Somerset Maugham. - N.Y.: Doubleday, Doran and co., 1939.
2. Maugham W.S. Of Human Bondage. With the Digression on Art of Fiction. Washington: Government Printing Office, 1946.
3. Maugham W.S. The Best Short Stories of W. Somerset Maugham. Selected, and with an introd., by John Beecroft. N.Y.: The Modern Libr., 1957.

Qoçəliyeva Nailə Məcid qızı,

Tərcümə ingilis dili,
Elmi rəhbər: dos. Esmiralda Rəhimli Qulamhüseyn qızı
Azərbaycan Dillər Universiteti

C.Q.BAYRONUN "KORİNFİN MÜHASİRƏSİ" ƏSƏRİNDƏ ŞƏRQ MOTİVLƏRİNİN TƏRCÜMƏDƏ ƏKSİ

Yeni dövrdən başlayaraq bir sıra Avropa xalqları yalnız Qərb dəyərləri ilə inkişafın mümkünsüzlüyünü dərk edərək Şərq mədəniyyətinə maraq göstərirdilər. Şərq ədəbiyyatının Qərbə təsiri bir çox müəlliflərin əsərlərində aydın duyulurdu. Şərq poeziyasına aid ən dəyərli nümunələr, ifadə vasitələri ilk dəfə Corc Qordon Bayron tərəfindən ingilis ədəbiyyatına gətirilmişdir.

C.Q.Bayronun şərqə səyahəti ilə dünyagörüşünün formalaşması, Şərq xalqları haqqında əldə etdiyi məlumat, onların həyatı ilə yaxından tanışlığı, həmçinin balacalıqdan Şərq klassiklərindən tərcümələri oxuması onun bədii ustalıq dövründə olan əsərlərində öz əksini tapır. Şübhəsiz ki, əsərlərdə şərq motivlərinə yer verilməsi həmin dövrün bir sıra müəllifləri üçün səciyyəvi idi. Bayron isə bu mövzuya bir qədər fərqli yanaşır, Şərq adət-ənənələrini xüsusi şəkildə avropa xalqlarına təqdim edir. Həmin dövrdə digər müəlliflərin əsərlərində yer alan Şərq motivləri müəyyən qədər şişirdilmiş, həqiqəti əks etdirməyən səviyyədə idi. Onun əsərlərindəki Şərq motivləri real hadisələrə əsaslanırdı.

Məhz Şərq ölkələrinə səyahət etdikdən sonra, 1813-1815-ci illərdə sonralar ədəbiyyatda "Şərq Poemaları" adı altında tanınan bir neçə məşhur poema yazdı.

Bu poemaların arasında ən yaddaqalanlardan biri "Korinfin mühasirəsi" əsəri idi. Əsərdə Şərq təsiri açıq-aşkar hiss edilir. C.Q.Bayronun poemalarındakı obrazlar, Şərq ədəbiyyatından bizə tanış olduğu kimi, daim mübarizə aparan qəhrəmanlardır. "Korinfin mühasirəsi" əsəridə bu motivlər əsasında yazılmış, mövzunun sujet xəttini vətən müharibəsi, azadlıq uğrunda gedən ümumxalq mübarizəsi təşkil edir. Baş vəzirin əmri ilə türklər ölkənin ən güclü qalasına-Napoli-di Romaniyanı ələ keçirmək istəyirlər. İlk addım isə Korinf qalasına hücum etmək olur. Qalanın müdafiəsi zəif olduğundan şəhər valisi danışıqlara başlayır, lakin türk düşərgəsindəki partlayış nəticəsində vəziyyət daha da gərginləşir və razılıq baş tutmur. Yazıçı vətən həsrəti çəkən qəhrəmanların timsalında onların dinə münasibətini və məhəbbət motivlərini də göstərir.

Hərəmiz bir millətdən ,hərə bir dindən idik,
Ya kilsə, ya məsciddən, ya heç birindən idik.

Türk dövlətində xalqların lap qədim zamanlardan bəri dinindən, irqindən asılı olmadan sülh içində yaşadığına bir nümunə idi.

İncəbel, uzunsaç, sərvboylu bir qız
Divarın yanında oturub yalqız

"Kitabi-Dədə Qorqud" dastanından məlum olan gənc qızların gözəlliyinin təsviri dahi ingilis şairi tərəfindən poemada əks etdirilmişdir.

Bu poemada istifadə edilən sözlərin böyük qismi türk, ərəb, fars , əsasən türkləşmiş sözləri idi. Bu da səbəbsiz deyildi. Hər hansı bir xalqın mentalitet və mənəviyyatını göstərmək üçün sırf həmin xalqa məxsus leksikologiyadan istifadə edilməlidir.

Ucaldıb səsini, ağzında əli
Elə ki, üz tutub göyə müəzzin

Burada istifadə olunan "müəzzin" ərəb sözüdür, namaz vaxtını elan edən ruhani şəxs mənasında işlənir. Bir müddət sonra türkləşmiş, azan verən kimi şərh olunur. Etnik ruhu təsvir etmək üçün müəllif əsərlərində türkləşmiş ifadələrdən yerində istifadə edib. Eyni zamanda Şərq motivləri , lüğət tərkibi, onların etimoloji, frazoloji, onomastik xüsusiyyətləri düzgün işlənmişdir.

Qəzəb döndərərmiş ət qəlbi daşa.
Onlar nə bilsinlər gələndə məqam,
Hətta vətənini atan bir adam
Sonsuz ehtirasla, dərin qəzəblə
Coşub çığırarmış: "Qisas! İntiqam!"

Bu misralarda vətəndən ayrı qalan qəhrəmanın Şərq xalqlarəna məxsus qəzəb, intiqam hislərinə yer verilir. C.Q.Bayron bədii obrazların xarakterini onun mental əlamətləri ilə birlikdə verir. Əsərlərində

obrazların hərtərəfli təsvirini yaradır və onları mədh edirdi. Dahi ingilis şairinin yaratdığı bədii obrazlar özünəməxsus xüsusiyyətlərə baxmayaraq, bu əsərlərdə şərq motivləri inandırıcılığı ilə seçilir.

Ədəbiyyat siyahısı

1. C.Q.Bayron "Seçilmiş əsərləri" B.,Şərq-Qərb 2006 [3, s. 96]
2. Linqivistika problemləri [2, s.290]
3. Şərq ruhunun Qərb həyatı [1, s. 55]

Avirə Elnaz Etibar qızı,
Tərcümə ingilis dili, Qrup 121,
Elmi rəhbər:dos.Fəridə İsmayılova,
Azərbaycan Dillər Universiteti

VALTER SKOTTUN "AYVƏNHƏU" ƏSƏRİNDƏ METONİMİYALARIN TƏRCÜMƏ YOLLARI

Tərcümə, xüsusilə də bədii tərcümə tərcüməçidən yüksək peşəkarlıq, yaradıcı-intelektual bacarıq tələb edir. Bədii tərcümə digər tərcümələrdən öz estetikliyi, ekspressivliyi, emosionallığı ilə fərqlənir. Tərcüməçi isə bacardığı qədər tərcümə əsərində bu xüsusiyyətləri yaratmalıdır. Bunun üçün o, orijinalda verilmiş əsərin mənasını tam başa düşməli və əsas fikri tərcümə edəcəyi dilin ifadə vasitələrinə uyğunlaşdırmalıdır. Bədii tərcümə zamanı fərqli tərcümə yolları istifadə oluna bilər. Bunlara nümunə olaraq əsasən bədii əsərlərdə tez-tez qarşılaşdığımız obrazlı dilin (figurative language) növlərini göstərə bilərik. Bu növlərin tərcümə edilməsinin bir sıra yolları var. Obrazlı dilin bir növü də metonimiyalardır.

Metonimiya məcazın bir növü olub, yunan dilindən tərcümədə "addəyişmə" deməkdir. Bir növ, mətndə hər hansı əşya və ya hadisənin yerinə onunla bağlı başqa söz işlədilir. Məsələn: the kettle is boiling-çaydan qaynayır; Can I borrow your Shakespeare?-Sizin Şeksprinizi borc götürə bilərəm? Birinci tərcümədən başa düşürük ki, qaynama prosesi çaydanın içərisində olan suya aid edilir, ikinci tərcümədə isə Şeksprin kitablarından danışılır. Tərcüməçi mətni tərcümə edərkən bədiiliyi, ekspressivliyi yarada bilmək üçün belə ifadələrdən və məcazlardan istifadə etməyə ehtiyac duyur. Təbii ki metonimiyaların uğurlu tərcüməsi dil vahidi kimi aşağıdakı meyarlara cavab verməlidir:

1) orijinala sadiqlik; 2) bütövlük, tamlıq; 3) adekvatlıq

Tərcüməçi professor Qılıncxan Bayramov məşhur ingilis əsilli yazıçı Valter Skottun "Ayvənhəu" əsərinində əks olunmuş dil vahidlərini, mətnə bədiilik qatan nüansları, əsasən də orijinal mətnin məzmununu peşəkarlıqla Azərbaycan dilinə tərcümə etmişdir. Bu tarixi romanda orta əsrlərdə baş verən, anqlosaksonlar və normanlar arasındakı ədavət, iğtişaş və savaşlar əks olunmuşdur. Müəllif əsəri tərcümə edərkən, həmin dövrün tarixi şəraitini, əsas xüsusiyyətlərini nəzərə alaraq Azərbaycan dilinə çevirmişdir. Məlumdur ki, tərcümə edərkən konteksti də nəzərə almaq vacibdir. Dil vahidlərinin düzgün və yerində tərcüməsi uğurlu və mükəmməl tərcümənin açarıdır.

Təbii ki, dil vahidlərini tərcümə edərkən diqqət yetirilən vacib məqamlardan biri adekvatlığın qorunmasıdır. V.Skottun "Ayvənhəu" əsərində də orijinala rəng qatan metonimiyaları Azərbaycan dilinə tərcümə edərkən tərcüməçi mümkün qədər həmin ifadələrin orijinala tam uyğun və adekvat olmasına, mənaların üst-üstə düşməsinə, ifadənin bədii şəkildə izah edən tərcüməyə, yəni təsviri tərcüməyə və tranformasiyaya diqqət yetirmişdir. Burada tərcüməçinin peşəkarlığı orijinal əsərin müəllifinin istifadə etdiyi üslub və formaları diqqətə almasında öz əksini tapır.

Tərcüməçi təkcə metonimiyanın strukturunu deyil, eyni zamanda onun semantik mənasına və məzmununa da diqqət yetirməlidir.

-Ekvivalent tərcümə vasitəsilə leksik vahidin və onun semantik mənasının təsviri mükəmməl şəkildə ötürülməlidir

-Təsviri tərcümədən yerində istifadə etməklə orijinal sözün və ya ifadənin mənasını bədii şəkildə izah edən tərcümə yerinə yetirilməlidir.

Ədəbiyyat siyahısı:

1. Qılıncxan Bayramov ,Tərcümə sənəti, 2008

Heybətova Nelgün Xasay qızı,
Tərcümə, ingilis dili, Qrup: 121,
Elmi rəhbər: dos. Fəridə İsmayılova
Azərbaycan Dillər Universiteti

VALTER SKOTTUN "AYVƏNHƏU" ƏSƏRİNDƏ İŞLƏNMİŞ EPİTETLƏRİN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏ YOLLAR

Tərcümə Azərbaycan dilində "dil" və "çeviri" sözləri ilə ifadə olunur. Tərcümə, bir dilin ifadə və mətnini başqa bir dilə çevirmək deməkdir. Bu, yazılı və ya şifahi ola bilər və ümumiyyətlə iki fərqli dil arasında baş tutur. Tərcümə prosesi, dilin incəlikləri ilə birlikdə, mətnin məzmunu və mesajını doğru bir şəkildə əks etdirməyə cəhd edir. Bu, həm dil bilgisi, həm də məzmun və məzmunun ifadəsi ilə bağlıdır. Tərcüməçi, iki dil arasında səmərəli bir körpü kimi fəaliyyət göstərir və fərqli mədəniyyətlər arasında məlumat mübadiləsini təmin edir. Tərcümə prosesi geniş bir sahəni əhatə edir və dil mütəxəssisləri, mətn baş redaktorları, tərcüməçilər və digər fəaliyyət sahələri ilə əlaqəli şəxslərdən ibarət ola bilər. Tərcümə zamanı mətnin anlamının dəqiq bir şəkildə əks etdirilməsi, həm hədəf dilin, həm də mənbə dilin mədəni və ictimai kontekstini göz önündə saxlamağı tələb edir. Həmçinin, dilin fonetika, leksika və qrammatikası dəqiqliklə əks olunmalıdır. Tərcümənin ənənəvi formaları arasında yazılı tərcümə, sinxron tərcümə (canlı tərcümə) və ardıcıl tərcümə (və ya ard-arda tərcümə) sayıla bilir. Bu formalar fərqli məqsədlər və ictimai mühitlər üçün istifadə olunur.

Ədəbiyyatda tez-tez bədii təsvir və ifadə vasitələrindən istifadə edilir. Bədii ifadə və təsvir vasitələri, yazarların ədəbiyyat əsərlərində mənzərələri, obyektləri, vəziyyətləri və duyğuları təsvir etmək üçün istifadə olunur. Bu vasitələr müəlliflərə oxucuların zehnində canlı və maraqlı görüntülər yaratmaq, həssas duyğuları ifadə etmək üçün istifadə edilir. Bütün bu səbəblər, bədii ifadə və təsvir vasitələrinin ədəbiyyatda və ədəbi incəsənətdə əhəmiyyətini və rolunu təsdiqləyir. Belə təsvir vasitələrindən biri də epitetdir. Epitet bir obyektin, canlının və ya abstrakt bir konseptin xüsusiyyətlərini vurğulamaq, təsvir etmək və ya ifadə etmək üçün istifadə olunan bir ifadədir. Bu ifadə, obyektin maddi və ya mənəvi cəhətləri, gözəllikləri, xassələri və mənfi yönü kimi bir çox fərqli məqamları barədə məlumat verir. Epitetlər, əsasən ədəbi əsərlərdə, şeirlərdə, romanlarda, rəssamlıqda, musiqidə və digər incəsənət sahələrində geniş istifadə olunur. Epitetlər, obyektin səmimiyyətini, incə xüsusiyyətlərini və ya qeyri-adi gözəlliyini təsvir edə bilər. Məsələn, "qədim şəhər", "mavi gözlər", "dərin düşüncələr" kimi ifadələrlə obyektin müxtəlif cəhətləri vurğulanır. Ədəbiyyatda epitetlər, obyektin təsvirini dərinləşdirmək, oxucunun və ya dinləyicinin obyekti daha yaxşı təsəvvür etməsinə kömək etmək və əsəri daha zəngin və keyfiyyətli etmək üçün istifadə olunur. İncəsənət sahələrində epitetlər, bir obyektin və ya mövzunun atmosferini, hissini və təsirini gücləndirmək üçün də tətbiq olunur.

V.Skottun "Ayvənhəu" adlı əsəri, 19-cu əsr Şotlandiya bazarlarında baş tutan bir hadisədən bəhs edir. Bu hekayə, iki məşhur həkim və bir quldurunun macəralarını əhatə edir. Əsər, əsasən təbii bədbəxtlik, insanların dəyişikliklərdən qorunması və şəffaf olaraq iradə qüvvəsi kimi mövzulara toxunur. "Ayvənhəu", romantik bir şəkildə macəra, fantastika və mizah sahəsində dəyərli bir əsər hesab olunur. Bu roman, əsrlər boyu müxtəlif nəşrlərdə çap olunub və bir çox dilə tərcümə edilmişdir. Əsər Azərbaycan dilinə peşəkarlıqla təcüməçi Qılıncxan Bayramov tərəfindən tərcümə edilmişdir. Qılıncxan Bayramovun yüksək peşəkarlığı əsərdə hiss olunur. Əsərdəki bədii xüsusiyyətlər, həmin dövrün əsas xarakterik cəhətləri peşəkarlıqla tərcümə edilməklə, oxucu tərəfindən maraqla qarşılanmışdır. Əsərdə epitetlər, eləcə də digər bədii təsvir və ifadə vasitələri ustalıqla tərcümə edilib. "Ayvənhəu" əsərində işlənmiş bir neçə epitetə nəzər salaq:

1. "Mübahisəsiz dərin düşüncələr": Bu epitet, bir şəxsin düşünmələrinin dərinliyini və ciddiliyini vurğulayır.

2. "Şəfəq altında gizlənmiş mənim": Bu epitet, bir şəxsin mətni romantik və gözəl bir şəkildə təsvir edir və həyatın bənzərsiz gözəlliyini vurğulayır.

3. "Ağırbaşlı məscid": Bu epitet, məscidin sakin və ciddi havasını və möhtəşəmliyini ifadə edir.

Bu epitetlər, obyektin və ya şəxsın keyfiyyətlərini və gözəlliklərini vurğulayaraq oxucunun təsəvvürünü zənginləşdirmək üçün istifadə olunur.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. V.Skott. Ayvənhəu (roman) Bakı, " Şərq-Qərb" nəşriyyatı, 2013, 518 səh.
2. Qılıncxan Bayramov, Tərcümə sənəti, Bakı, 2008
3. https://az.englishlib.org/dictionary/az-tr/epitetl%C9%99r.html

Şixaliyeva Pərvuzə Anar qızı,
Tərcümə ingilis dili, Qrup 121,
Elmi rəhbər: Fil.f.d.,b/m. Əliquluyeva Mənsurə
Azərbaycan Dillər Universiteti

İNGİLİS DİLİNDƏN AZƏRBAYCAN DİLİNƏ TƏRCÜMƏDƏ MƏDƏNİYYƏTLƏRARASI FƏRQLƏRİN YARATDIĞI ÇƏTİNLİKLƏR BURAXILIŞ İŞİ ƏSASINDA TEZİS

Dil sadəcə ünsiyyət vasitəsi deyil, cəmiyyətin, mədəniyyətin və inancların təzahürüdür. Dünyada çoxlu sivilizasiyalar var və hər biri öz gündəlik mövcudluğunun təfərrüatlarını çatdırmaq üçün özünəməxsus dildən istifadə edir. Hər bir xalqın mədəniyyətinin bariz göstəricisi tərcümədir. İki və ya daha çox dilin vahidləri arasında semantik əlaqə tərcümə vasitəsilə aşkar edilir. Tərcümə mətnin orijinal mənasını və ünsiyyətini qoruyaraq onun başqa dildə yenidən ifadə olunmasıdır.. Tərcümə sivilizasiyalar arasında körpü rolunu oynayır və bu körpülərin qurulması təcrübəli tərcüməçilər tələb edir. Tərcüməçilər həm məxəz dili və mədəniyyəti, həm də hədəf dil və onun mədəniyyəti haqqında, demək olar ki, mükəmməl anlayışa malik insanlardır. Bir neçə söz əlavə etsələr, hətta bütöv bir paraqrafı yenidən ifadə etsələr belə, orijinal ideya hələ də olduğu kimi başa düşüləcək. Tərcüməçilər həm dil konvensiyaları, həm də hədəf auditoriyanın adətləri ilə tanış olmalıdırlar. Əks halda çaşqınlıq və stress hətta ən təcrübəli tərcüməçilərdən belə təsirsiz ötüşmür.

Tərcümə zamanı tərcüməçilərin qarşılaşdıqları çətinliklərdən bəzilərinə dilin strukturunun tərcüməsi, frazeoloji ifadələrin tərcüməsi, dilə xas olan adların tərcüməsi, kaustik ifadələrin tərcüməsi və s. aiddir. Bildiyimiz kimi, ingilis dilində sadə cümlə müvafiq olaraq mübtəda, xəbər və tamamlıqdan ibarətdir. Azərbaycan dilində isə söz sırası xeyli sərbəstdir. Gəlin belə bir nümunəyə nəzər salaq:

The buses stop here.

The bus stop is here.

Hər iki cümlədə şəkilcə eyni olan stop sözü birinci halda xəbərin yerində durduğu üçün fel, ikinci halda isə mübtədanın yerində durduğu üçün isimdir. Azərbaycan dilində isə söz sırasının dəyişməsi cümlənin mənasını hər zaman dəyişmir.

Azərbaycan və ingilis dillərində işlənən bəzi ifadələr vardır ki, onlar eyni mənanı kəsb etsələr də, tamamilə fərqli şəkildə ifadə olunurlar. Məsələn," when pigs fly" ifadəsinin dilimizdə qarşılığı "dəvənin quyruğu yerə dəyəndə" kimi ifadə olunur və hər ikisi "heç zaman, heç vaxt" mənasinda işlənərək mümkünsüzlüyü bildirir. Göründüyü kimi, onları hərfi tərcümə etməyə çalışsaq, tamamilə fərqli iki cümlə əldə etmiş olarıq. Əgər ingilis dilindən azərbaycan dilinə tərcümə mövzumuzdursa, biz sizə Azərbaycan və ingilislərin fərqli qaydalara necə əməl etdiyini izah etməliyik. Bildiyiniz kimi, ingiliscə zamanlar olduqca mürəkkəbdir. Azərbaycan dilində isə belə deyil. Məsələn, Azərbaycan dilində üç zaman və onun altbaşlıqları var, lakin ingilis dilində onların sayı on altıdır. Bu zaman formalarını Azərbaycan dilinə tərcümə edərkən biz qrammatik olanları deyil, ifadənin mənasına ən uyğun olanı seçməliyik.

Azərbaycan dilindən ingilis dilini öyrənmək hər hansı digər dil öyrənməkdən daha asandır. Çoxlu fərqlər olsa belə, bir neçə təlimata əməl etsək, dili öyrənmək düşündüyümüz qədər çətin olmayacaq. Nəticədə, tərcüməçi tərcümə etdiyi dilin bütün xüsusiyyətlərini nəzərə almalı, hədəf dilin bütün adət-ənənələrinə yaxından bələd olmalıdır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:
1. https://tr.linkedin.com/pulse/t%C9%99rc%C3%BCm%C9%99%C3%A7inin-probleml%C9%99ri-globaltranslationsllc
2. https://manera.az/index.php?newsid=2009
3. https://edebiyyatqazeti.az/news/edebi-tenqid/10558-bedii-tercume-problemleri
4. https://kaspi.az/az/bedii-tercume-problem-nededi

Nəsirli Ayla Xəyyad qızı,
Tərcümə ingilis dili, Qrup 121,
Elmi rəhbər: Fəridə İsmayılova,
Azərbaycan Dillər Universiteti

VALTER SKOTTUN "AYVƏNHƏU" ƏSƏRİNDƏ METAFORALARIN TƏRCÜMƏ YOLLARI

Tərcümə əsrlər boyu aktuallığını qoruyan və fərqli dillər var olduğu müddətcə var olacaq peşədir. Asiya dillərinə tərcümə olunan gilqameş dastanından başlayan uzun tərcümə tarixinə dini əsərlərin tərcüməsi, dövlət sənədlərinin, elm və texnologiyanın tərcüməsi ilə geniş miqyaslı tədqiqat sahəsinə çevrilmişdir. Bu müxtəlif tərcümə sahələri içində özünə məxsus mürəkkəbliyi ilə seçilən bədii əsərlərinin tərcüməsi mütərcimdən hər iki dili yüksək səviyyədə bilməyi və bu dillərdə iki və daha çox mənalı sözlər, təsvir və ifadə vasitələri, frazeoloji birləşmələr, realilərin tərcüməsi yollarına bələd olmağı tələb edir. Bədii təsvir vasitəsindən biri də metaforalardır.

Metafora qədim yunan sözü olub " köçürmə" mənasını verərək hər hansı əşya, varlıq və hadisənin sahib olduğu keyfiyyət və əlamətin digər bir əşya, varlıq və hadisə üzərinə köçürülməsi yolu ilə yaranır. Metaforaların tərcüməsi zamanı tərcüməçi təkcə struktura deyil, həm də mənasına diqqət yetirməli, hədəf dildə ona uyğun qarşılıq tapmalıdır. Metaforalar insanların, heyvanların və cansız varlıqların daxili və xarici keyfiyyətlərinə aid ola bilir. Məsələn: buludlar ağlayır, şkafın gözü, Metaforaların tərcüməsi zamanı tərcüməçi bir başa tərcümə, mənasını izah edərək yaxud oxşar və eyni mənalı ekvivalentlərin tapılması, kalka üsulu, ixtisarla tərcümə kimi üsullardan istifadə edərək orjinala sədaqəti qoruyub saxlamalıdır.

Bəzi metaforalar universal xarakter daşıyıb bütün dillərdə eyni mənanı ifadə etdiyi halda, müxtəlif dillərdə tamamilə başqa məna ifadə edən metaforaların tərcüməsi böyük diqqət tələb edir.

Dilimizə professor Qılıncxan Bayramov tərəfindən tərcümə edilən İngiltərə tarixinə həsr olunmuş, XIX əsr ingilis yazıçısı Valter Skottun məşhur "Ayvənhəu" romanında yazıçı saksonlarla normanlar arasındakı sonu gəlməyən müharibələrin təsvirini vermiş, hakimiyyət uğrunda mübarizədə Riçard obrazı ilə ideal, hakimiyyətdəki qarışıqlığa son qoyacaq kral obrazı yaratmışdır.

Bədii təsvir və ifadə vasitələri, dil vahidləri, frazeoloji birləşmələrlə, metaforalarla zəngin olan romanın tərcüməsində tərcüməçi hər iki dilin məna və məzmun uyğunluğuna, milli xüsusiyyətləri saxlamaqla ingilis ruhununun Azərbaycan dilində oxuculara hiss olunmasına, metaforaların uğurlu tərcüməsi zamanı adekvatlıq, tamlığın və orjinallığın qorunmasına əməl etmişdir.

Ədəbiyyat siyahısı
1. Qılıncxan Bayramov. Tərcümə sənəti Bakı 2008, «OKA Ofset» nəşriyyatı. 218 səh.

Musazadə Nərmin Qulam qızı,
Tərcümə ingilis dili, Qrup 121,
Elmi rəhbər: dos. Esmeralda Rəhimli Qulamhüseyn qızı
Azərbaycan Dillər Universiteti

C.Q. BAYRONUN "ABİDOS GƏLİNİ" POEMASINDA ŞƏRQ MOTİVLƏRİNİN TƏRCÜMƏDƏ ƏKSİ

Tərcümə hər bir xalqın keçmişini əks etdirən ən mühüm yollardan biridir. Tərcümə prosesdir. Tərcümənin köməyi ilə bir xalq başqa bir xalqın adət-ənənəsi, mədəniyyəti,məişəti,elmi inkişafı və s. ilə tanış ola bilir.Buradan məlum olur ki, tərcümənin bəşər tarixində rolu danılmaz dərəcədə əhəmiyyətlidir. Tər-

cümənin tarixi hər zaman maraqlı olan məsələlərdən biri olmuşdur.Bu proses şərq və qərb arasında əsas əlaqələrin yaranmasına zəmin yaratmışdır.Tərcümə hər bir ölkənin,eləcə də o ölkədə yaşayan hər bir vətəndaşın digər xalqlar ilə dostlaşması, bir-birinin inkişafından yaxşı mənada dərs götürmək və yaxınlaşması üçün ən önəmli aktdır. Hələ qədim zamanlardan insanlar bunu başa düşmüş, bunun üçün mühüm addımlar atmışdır. Əgər tərcümə sənəti olmasa idi biz nə Qərb, nə də Şərqin mədəniyyəti, inkişafı eləcə də digər xarakterik xüsusiyyətləri ilə tanış ola bilməzdik. Məhz buna görə də tərcümə daim inkişaf etdirilməlidir. Tərcümənin inkişafı hər bir xalqın, millətin inkişafıdır desək heç də yanılmarıq. Tərcümə millətlər arasında yalnız ünsiyyət vasitəsi deyil,eyni zamanda dünya miqyasında elm və biliyə çıxışı asanlaşdırmaq üçün böyük əhəmiyyəti olan vasitədir.

Şərq motivləri geniş bir sahəni əhatə edərək, şərq mədəniyyətinin mədəni və sənət əsərlərində görünən bəzək və ənənələri özündə əks etdirir. Bu motivlər ədəbiyyat, musiqi, incəsənət, mədəniyyət və digər sahələrdə təcəssüm edə bilir. Şərq motivlərinin bəzi dizaynlarda öz əksini tapması ən çox qarşılaşdığımız hallardandır. Bitki, heyvan forması ilə işlənmiş əl işləri, xalçalar üzərindəki işləmələr, geometrik fiqurlar-bunların ən geniş yayılmış formalarındandır. Şərq motivləri eyni zamanda adət-ənənələr, təbiətin gözəlliyi, dini mənsubiyyət ilə əlaqəli simvollar ilə də əlaqələnir. Bu motivlər dünya ədəbiyyatında, musiqisində də geniş əksini tapmışdır. Xüsusilə Ərəb və İran ədəbiyyatı, eyni zamanda Türk və Əfqan ədəbiyyatı bu baxımdan zəngin irsə malikdir. Nümunə olaraq, Ərəb ədəbiyyatında "Leyli Məcnun", "Fərhad və Şirin" əsərlərində bu motivlərdən geniş şəkildə istifadə edilmişdir.

C.Q. Bayronun "Abidos Gəlini" əsəri 1813-cü ildə qələmə alınmış romantik poemadır. Əsərdə əsas qəhrəmanlar Züleyxa və Səlim adlı iki sevgili olmuşdur. Əsər bir çox dillərə tərcümə edilib. Bu əsərin Azərbaycan dilinə tərcüməsi Bəxtiyar Vahabzadəyə məxsusdur. Bəxtiyar Vahabzadə bu tərcümədə, Corc Bayronun əsərdə əsas ideya olan sevgi,macəra və tragik qəhrəmanlıq məsələsini uğurlu şəkildə tərcümə edib. Bu tərcümə şeir dili və tərcümə bacarığı ilə fərqlənir."Abidos Gəlini" Azərbaycan dilində romantik ədəbiyyatın önəmli bir nümunəsidir. Əsərdə Şərq motivlərinin təsvirinə geniş yer verilmişdir. Romanın təsvir edildiyi Qədim Yunanistan zamanlarındakı Bizans və Osmanlı mədəniyyətləri, şərq və qərb bir-biri ilə qarşılaşdırılır. Şərq mədəniyyəti, xüsusilədə Osmanlı tarixi və əməəniyyətinə xas xüsusiyyətlər əsərə maraqlı rəng qatmış,əsərin daha maraqla oxunmasında təkan vermişdir. Əsərdəki şərq motivlərinin işləndiyini göstərən bir neçə nümunəyə nəzər salaq. İlk növbədə əsərdə hadisələr Abidos şəhərində cərəyan edir. Bu məkan isə Osmanlı tarixi və mədəniyyəti ilə zənginləşdirilmişdir. Eyni zamanda əsərdə olan xalçalar və dizaynlarda bizə əsərdə şərq motivlərinin öz əksini tapdığını göstərən faktlardandır. "The Bride of Abydos" əsərində işlənmiş bəzi davranışlar-torpaq mirası, qəhrəmanlıq və şərəf kimi nüanslar bunu daha da təsdiq edir. Romanın əsas qəhrəmanlarından biri olan Züleyxanın ailəsinin torpağının mühüm bir hissəsini nəzarət altında saxlamağı təbliğ edir.Bu isə şərq mədəniyyərində ailənin əhəmiyyətini və torpaq mirasını qəbul edilməsini göstərən bir davranışdır.

Ədəbiyyat siyahisi:

1. Corc Qordon Bayron, "Seçilmiş əsərləri" Bakı, Şərq-Qərb nəşriyyatı,2006,223 səh. Edinburgh Research Explorer
2. The Bride of Abydos: The Regime of Visibility and the Possibility of Resistance. http://anl.az/el/emb/b.vahabzade/tercumeleri.htm
3. https://aem.az/index.php?newsid=248

Hesenova Leman Azer
Associate-professor Shukurova Farida Shahlar
Azerbaijan University of Languages

THE ROLE OF ENGLISH IN THE LIFE OF MODERN YOUTH

In today's interconnected world, the English language plays a crucial role in the lives of modern youth. Its significance transcends geographical boundaries, shaping various aspects of their personal, academic, and professional lives.

Firstly, English serves as the lingua franca of the modern era, enabling youth to communicate effectively with people from diverse cultural backgrounds. As young people connect with peers from diverse backgrounds through social media, online forums, English provides common language for dialogue and collaboration. By engaging with English speakers from different countries and cultures,modern youth gain valuable insights into global perspectives, fostering empathy, tolerance, and intercultural competence. [2.p150]

Secondly, English is the predominant language of instruction in many educational institutions worldwide. Proficiency in English opens doors to access a vast array of academic resources,including research papers, journals,and online courses. This feature enhance the educational opportunities available to the youth. Also, English serves as a gateway to many of the world's top universites and academic institutions. English proficiency is demanded for standardized tests, such as the TOEFL or IELTS, which are required for admission to universities and institutions abroad. [4.par7]

Thirdly, in today's competitive job market, proficiency in English is necessary for career advancement. Many multinational corporations operate in English,and proficiency in the language enhances opportunities for global career growth for the youth. For young people seeking employment, fluency in English enhances their competitiveness and opens up a wide range of career prospects. [1.par3]

Moreover, English is the dominant language of the Internet and technology.The majority of online content, including websites,blogs,and academic resources is in English .Modern youth rely on English to access information, communicate online,and navigate digital platforms for learning and creativity.[3.par5]

Furthermore, English is widely used in the travel and tourism industry. Proficiency in English enables youth to navigate foreign countries, interact with locals,and fully immerse themselves in diverse cultural experiences while traveling. One reason is that the tourism and hospitality industries value English language proficency. Knowing to speak English will give the youth peace of mind when travelling because it will make communication easier. For example, when you arrive at the airport, if you do not speak the official language of country you are travelling to, eveything will most likely also appear in English.[3.par8]

In conclusion, English plays a vital role in the lives of modern youth, serving as a bridge that connects individuals across cultures, a key to unlocking educational opportunities, and a passport to success in the globalized world of work. As young people navigate the complexities of the 21 st century, proficiency in English empowers them to communicate effectively, pursue academic and career aspirations, and broaden their horizons in an interconnected world.Therefore, investing in English education and language proficiency is very important to equipping the youth with skills and tools they need to trive in the modern era.

References

1. https://www.researchgate.net/publication/355873478_The_Role_of_English_in_Our_Life
2. http://www.ijelr.in/4.3.17/148-151%20Dr.%20K.%20VIJAYA%20BHASKAR.pdf
3. https://scienceforum.ru/2019/article/2018012260
4. https://ijcm.academicjournal.io/index.php/ijcm/article/download/171/167

Pervin Elekberova Perviz
Associate-professor Shukurova Farida Shahlar
Azerbaijan University of Languages

STRATEGIES AND INNOVATIONS IN TEACHING ENGLISH

Teaching English as a second language (ESL) can be challenging, but also rewarding and fun. You can enhance your students' learning experience and outcomes by using some innovative strategies that are based on best practices. The word 'innovation' is used to describe a product that is 'new' or 'enhanced' in some way (1). Innovative teaching strategies don't always mean introducing the latest and greatest technology into the classroom. Instead, innovative teaching is the process od proactively introducing new teaching strategies and methods into the classroom. The purpose of introducing these new teaching strategies and methods is to improve academic outcomes.

Flipped classroom is one of the most used innovative strategies. In a flipped classroom students review lecture material at home and work on projects and assignment in the classroom. Students in the flipped classroom complete coursework typically sent home as homework in class. The flipped classroom provides a great space for peer-to-peer collaboration. Students can engage one another to complete group projects, debates and practice. Teachers are not the center of the flipped classroom. Instead, teachers are more flexible, addressing personalized help and direction for students a they complete their work.(2)

Jigsaw strategy is also quite useful. The jigsaw technique is a cooperative learning strategy where students work collaboratively to become experts on specific topics and then they share their knowledge with one another. This promotes teamwork, collaboration and communication(3). For example: Choose as fictional character in a particular field and ask your students to find more information about that one. For example: they can research Isaac Newton to unearth his basic information.

Another innovative strategy is design thinking. Design thinking is the process of finding meaningful ideas to solve a particular real-world problem that exists in a community. It is creative approach to teach problem-solving. When induces into education, it enables students to be innovative and create solutions for others. This strategy ha a lot of benefits. For example, it expands the students' knowledge on a wide range of topics, helps to foresee new problems and challenges (4)

One of the innovations that is used in education is the usage of online authentic materials. One of the biggest benefits of the internet for language learners is the availability of authentic resources. As David Deubelbeiss points out, this enables teachers to use "content with messages students want to hear". We can now access the daily news, watching trending videos on YouTube, read the latest tips… the possibilities are endless.(5)

In conlusion, innovative strategies are essential for creating an engaging and effective learning environment for students. They help teachers to develop creative approaches to instruction, as well as help students become independent learners. By providing a variety of different instructional strategies and materials, teachers can boost student engagement and achievement in the classroom(6).

References:

1. https://www.linkedin.com/advice/1/how-can-you-teach-english-second-language-using-innovative-mc2oe
2. https://corp.kaltura.com/blog/innovative-teaching-strategies/
3. https://piogroup.net/blog/20-innovative-teaching-methods-with-examples-how-to-implement-in-education-process
4. https://learningmatters.ai/blog/top-7-innovative-teaching-methods-any-school-can-incorporate
5. https://www.britishcouncil.org/voices-magazine/ten-innovations-have-changed-english-language-teaching
6. https://strobeleducation.com/blog/unlocking-the-benefits-of-innovative-teaching-strategies/

Nəzrin Kərimova Mahir q
Təhsil – 2 fakültəsi
Elmi rəhbər: fil.f.d., dos. Mahirə Hacıyeva Tahir q
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANÇILIQ

Heydər Əliyev Azərbaycan tarixində əvəzsiz şəxsiyyət idi. O gördüyü bütün işlərində xalqımızın taleyini düşünürdü. Ümumilli lider Heydər Əliyev yürütdüyü uzaqgörən siyasəti ilə tarixdə bir sıra uğurlar və nailiyyətlər qazanmışdır. Bu siyasətlərdən ən önəmlisi kimi Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyasını göstərmək olar.

"Milli dövlətə mənsubluq əsrlər boyu hər bir xalqın nəyə qadir olduğunu, şərəfli mübarizə yolunu, dünya dövlətləri sırasında layiqli yer tutmaq əzmini nümayiş etdirmişdir. Bu mənada, xalqların qarşıya qoyduğu konkret hədəflərə doğru irəliləməsi prosesində milli dövlətin mövcudluğu vacib şərtlərdən biridir. Yalnız özünü milli etnos kimi dərk edən xalqlar milli dövlət quraraq onun mövcudluğunu qoruyub saxlaya bilmişlər." [2, s.6]

"Ulu öndər daim vurğulayırdı ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli-mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli-mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. "Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq", - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur." [2, s.6]

Tarix də sübut edir ki, yalnız güclü siyasi lider yetişdirən xalq həyatın çətin oyunlarından güclənərək və üzüağ çıxır. Heydər Əliyev məhz belə bir şəxsiyyət idi və xalqın mənafeyi üçün hər şey etmişdi və azərbaycançılıq ideologiyası da xalqımızda milli təfəkkürün yaranmasında böyük rol oynadı.

"Ümummilli lider Heydər Əliyevin əsasını qoyduğu azərbaycançılıq ideologiyası dövlətçilik anlayışının milli təfəkkür tərzinə çevrilməsində, yeni dövrün tələblərinə uyğun, heç bir qüvvənin təsirindən asılı olmayan müstəqil dövlətin formalaşdırılmasında fövqəladə dərəcədə mühüm rol oynadı və bütün bunlar, əlbəttə ki, nəticə etibarilə Azərbaycanın ümumi strateji inkişafının parametrlərini özündə ehtiva edən tarixi nailiyyətlərdir. Bu gün milli həmrəylik Azərbaycan dövləti və xalqı üçün kifayət qədər vacib məsələdir. Çünki kimin necə qiymətləndirməsindən asılı olmayaraq, indinin özündə də Azərbaycan dövlətçiliyi üçün təhlükəli amillər mövcuddur. Məhz bu baxımdan azərbaycançılıq ideologiyasının həyata keçirilməsi zərurəti hamı tərəfindən tarixi reallıqların diktə etdiyi qanunauyğunluq kimi qəbul olunmalıdır. Bu gün hər bir azərbaycanlı əsası xalqımızın Ulu öndəri Heydər Əliyev tərəfindən qoyulmuş azərbaycançılıq ideologiyasına sadiq olmalı, müstəqil dövlətimizin inkişafı üçün əməyini əsirgəməyən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ətrafında sıx birləşməli və hər zaman Ümummilli liderimizin bu sözlərini əsas tutmalıdırlar: "Heç vaxt fikirləşməyin ki, Vətən sizə nə verib. Həmişə özünüzdən soruşun ki, siz Vətən üçün nə etmisiniz"." [1]

İstifadə olunmuş ədəbiyyat

1. Gülçöhrə Məmmədova " Heydər Əliyev və azərbaycançılıq ideologiyası ", Yeni Azərbaycan, 2013.
2. Rafael Cəbrayılov " Heydər Əliyev və azərbaycançılıq ideologiyası ", Azərbaycan. – 2011. – 17 may. – S. 6.
3. Elmi rəhbər : fil.f.d., dos. Mahirə Hacıyeva Tahir qızı.

Dadaşova Ayan Fuad qizi
Magistratura M23/111
Eimi rəhbər: f.f.d. Qocayeva Leyla Elşad qizi
Azərbaycan Dillər Universiteti

POEZİYA TƏDRİSİNİN AKTUAL PROBLEMLƏRİ

Poeziya tədrisi, ədəbiyyatın önəmli bir hissəsidir və geniş müzakirələrə məruz qalmış bir sahədir. Poeziya tədrisi ümumilikdə şərhlər, müzakirələr, təhlillər, əsərlərin oxunması və həmçinin öz orijinal poeziya əsərlərinin yaradılması ilə bağlı məktəblərdə, universitetlərdə və ədəbiyyat kurslarında aparılır. Ədəbiyyat tədrisində olduğu kimi, poeziya tədrisində də əsas məqsəd, tələbələrə poeziyanın anlaşılması, qiymətləndirilməsi və müzakirəsi üçün qabiliyyət və məsələlərə maraqlandırmağı öyrətməkdir. Bu, tələbələrin əsərlərin estetik və mənəvi dəyərlərini anlamağa və öz fikirlərini ifadə etməyə kömək edir. Poeziya tədrisində müzakirə olunan bir neçə məsələ vardır. Bunlara klassik məkanlar və formalar, modern və postmodern poetikalar kimi, əsas poeziya formalarının öyrənilməsini, tələbələrə müxtəlif şairlərin və əsərlərinin təhlili və qiymətləndirilməsini, metafor, simvolizm, ritmi, aliterasiya və digər texnika üslub elementlərinin öyrənilməsini, dərs materiallarının tərtib edilməsi, yaradıcı təlim metodu və öz orijinal poeziya əsərlərinin yaradılması ilə əlaqədar praktik təcrübələrin mənimsənilməsini aid etmək olar. [1, s.336].

Poeziya tədrisinin aktual problemləri müxtəlif mənbələrdən müzakirə olunur. Bəziləri müasir dövrdə poeziyanın əhəmiyyətini itirən və geriləyən bir sahə olduğunu iddia edirlər. Digərləri isə poeziyanın daimi və yaşayan bir sənət formu olduğunu və onun öz əhəmiyyətini qoruduğunu söyləyirlər. İstifadə edilən dil, tərəfdaş mədəniyyət trendləri, poetikanın dəyişən dəyərləri və texnika, poeziyanın tədrisində müzakirə olunan aktual məsələlərdir. Digər janrlara nisbətən poeziya xüsusi bir emotiv cəhd tələb etdiyi üçün onun tədrisini effektiv təmin etmək məqsədilə multimediya və səhnəcik tipli demonstrativ üsullardan istifadə mümkündür [2, s.255]. Qeyd etmək lazımdır ki, metodika sahəsində xeyli axtarışlar olunub lakin, Azərbaycan hələ də sovet dönəminin ideoloji çərçivələrindən uzaqlaşmayıb. Biz bu vəziyyəti təbii hal kimi qəbul edirik. Zaman keçdikcə, Azərbaycanın öz müstəqilliyini təsdiq etməsi nəticəsində ədəbiyyatda da gözləgörünən dərəcədə irəliləyişlər baş vermişdir. Ulu öndərimiz nəinki müasir Azərbaycanımızın, həm də müstəqil təhsil siyasətinin banisi oldu. Heydər Əliyevin siyasətini uğurla davam edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev təhsilin yenilənməsi, islahatların keçirilməsi, maddi-texniki dəstəyin yaradılmasında əhəmiyyətli addımlar atdı. Azərbaycanlı şairlərin əsərləri digər dillərə tərcümə edilmiş, ədəbi görüşlər keçirilmiş və poeziyanın çiçəklənməsinə gözəl bir şərait yaranmışdı. Yeni nəsil gənclərin də, təhsil sahəsində müəyyən islahatlar aparması bir faktdır.

Poeziyanın tədrisi mühüm məsələdir, və o həmçinin ədəbi təhsilin vacib hissəsidir. Mövcud problemlərin həlli, tələbələr üçün bu prosesi daha effektiv və maraqlı etməyə kömək edəcək.

İstifadə olunmuş ədəbiyyat

1. Гальскова, Н.Д. Теория обучения иностранным языкам. Лингводидактика и методика / М.: Академия, 2007. – 336 с.
2. Зиновьева, Т.И. Методика обучения русскому языку в начальной школе: учебник и практикум для академического бакалавриата / М.: Юрайт, 2018. – 255 с.

Bayramova Aisha Ramil
Associate-professor Shukurova Farida Shahlar
Azerbaijan University of Languages

THE IMPACT OF PODCASTS ON LISTENING AND SPEAKING SKILLS

Nowadays, more and more people tend to learn foreign languages to enhance memory, increase analytical abilities, build aptitudes in problem solving and widen outlook. For the purpose of acquiring any language well, there are some essential language skills that learners should consider. They are four language skills: listening, speaking, reading and writing. Among most learners, listening and speaking are

regarded as the most challenging ones. The reason for such deduction can be lack of materials for improving listening and ineffective practice. However, such problems can be solved thanks to podcasts.

First of all, a podcast is a digital audio program consisting of a series of audio episodes related to a specific theme and can be downloaded from the internet. It works very much like a radio show, but with one major difference. Anyone can subscribe to a podcast and listen to it anytime.

As aforesaid, podcasts have a great impact speaking skills. The results of the research conducted at Taiwanese university showed that after making podcasts, and from their first to final podcasts, the students had better speaking fluency and accuracy in which they demonstrated some significant changes, such as having fewer pauses and mispronounced words. [4.p.2845]

Additionally, podcasts will introduce English learners the various accents and dialects spoken around the globe.

Not only speaking skills, but also listening skills can be developed with the help of podcasts. In the world of social media addiction and mindless scrolling, it is hard to focus on language learning in which listening skills are required. Immersing themselves in podcasts, they try to comprehend it correctly. This helps them to increase attention span as they concentrate better.

Moreover, podcasts can improve listening comprehension, as many are designed to challenge listeners with complex vocabulary, idiomatic expressions and fast-paced dialogue.

Examples for podcasts can be Espresso English, All Ears English Podcast, Stories Podcast and The Daily.

To summarize, podcasts are an easy way to inject language skills practice into daily routine and enjoy learning at the same time.

References:

1. https://castos.com
2. https://www.cn.edu>
3. https://ielts.idp.com>
4. https://www.researchgate.net/publication/353528160_Effects_of_podcast-making_on_college_students'_English_speaking_skills_in_higher_education
5. https://www.tbsnews.net>..>
6. https://writtenbyshweta.com>

Ləman Nəbili Sübhi qızı təhsil-2
Elmi rəhbər: dosent Alıyev Ceyhun Qurbanalı oğlu
Azərbaycan Dillər Universiteti

TƏLİM-TƏRBİYƏ PROSESİNDƏ MÜKAFATLANDIRMANIN NEQATİV TƏRƏFLƏRİ

Mükafatlandırma – xarici motivasiya növü olub daxili motivasiya ilə müqayisədə zəif motivasiya qaynağıdır. Mükafat şərti olaraq verilən və verildiyi şəxs üçün cəlbedici olan obyekt və ya hadisədir. Bir obyekti mükafat edən onun "şərt kimi" verilməsidir. Şərt olaraq verilməyən bir obyekt mükafat ola bilməz. Mükafat, mahiyət etibarilə şagirdi təlimə cəlb edən, motivasiya xarakterli görünsə də özündə məsuliyyətsizliyi, qazanma hərisliyini, instinktiv olaraq rəqabət meylini də özündə gizlədir. Mükafat və cəzanın mahiyyəti nədir? Mükafat və cəza davranışı təşviq etmək və ya yatırtmaq üçün müsbət və mənfi stimulları özündə birləşdirən psixoloji təsir mexanizmidir. Məsələn, uşaq arzuolunmaz bir davranışı dayandırdıqda və ya gözlənilən davranışı yerinə yetirdikdə mükafatlandırıla bilər, lakin arzuolunmaz davranışa görə isə mükafatdan məhrum edilə yəni cəzalandırıla bilər. Uşağa mükafat verməklə onun motivasiyası artırıla bilərvə nəticədə uşağın təlim göstəriciləri yüksələr və uşaq ona olan bütün gözləntiləri qarşılaya bilər. Lakin mükafat kəsildiyi zaman göstəricilərin anidən düşməsi, davranış və rəftarda qüsurlar görüləcək. Uşağın yaşlıların şərti üzərinə müəyyən davranışları icra etməsi üçün ona davamlı mükafat verilməlidir. Təkrarlanan fəaliyyət nəticəsindəyaranan hedonik adaptasiya səbəbilə verilən mükafatlandırmanın təsiri dəyərdən düşür. Mükafata öyrəşən uşaq beyni dopamin ifrazını dayandırır və əvvəlki səviyyədə olan mükafatdan artıq həzz almır. Bilinənin əksinə sevdiyi fəaliyyəti qarşılığında mükafat alan uşaq özünü idarəedilmiş hiss edir və nəticədə fəaliyyətə olan marağı azalmış olur. İnkişaf – maraq, yenilik, çətinlik,

irəliləmə fürsəti, kompleks həll vəd etdiyi halda, mükafat– rahatlıq, ən asan yola cəhd, təxmin edilə bilənlik, bəsitlik tələb edir. “Mükafatlar mexaniki işlərdə performansı artırır, lakin mühakimə tələb edən işlərdə deyil.Uşağa mürəkkəb vəziyyətlərdə mükafat verilirsə, uşaq tapşırığa mexaniki kimi yanaşır.O, həmin tapşırığı yerinə yetirir, lakin bunu düşünmədən və özünü işə vermədən edir.Bu onun marağına, işin keyfiyyətinə və inkişafına xələl gətirir..” (1.s.81) Şərtə söykənən mükafat uşağı etik olmayan davranışlara, normadan kənaraçıxmalara, dəyərlərin itirilməsinə gətirib çıxaran xətalara sürükləyə bilər.Yəni mükafat dəyər qazandırmaq üçün seçilmiş ən uğurlu yol olduğu halda, mövcud dəyərləri itirmək üçün ən asan vasitəyə çevrilir. Mükafatlandırma müəyyən bir davranışı təşviq etmək üçün istifadə edilərsə, uşaqlar daim uğur gözləməli ola bilərlər. Bu gözləntinin altında yaşamaq uşaqlar üçün stresli bir təcrübə ola bilər və mükafat almadıqları zaman bunu cəza olaraq qəbul edə bilərlər. Mükafat uşaqlar arasında rəqabəti təşviq edə bilər və uğursuzluq digər uşaqlarla müqayisədə cəza kimi qəbul edilə bilər. Bu, xüsusilə mükafatlar uşağın başqalarına nisbətən dərk etdiyi dəyər və ya qabiliyyətinin ölçüsü kimi istifadə edildikdə baş verə bilər. “Mükafat və cəza əslində eyni şeydir. Hər ikisi nəzarət mexanizmidir.Uşaqlara nəzarət edən ailələr hər iki üsuldan tez-tez eyni şəkildə istifadə edirlər. Ailə uşağa mükafat vəd etdiyi an əslində gizli şəkildə cəzalandırır. Çünki uşaq mükafatı ala bilmirsə, özünü cəzalandırılmış hiss edir.” (1. s.71) Uşağın xarakteri onun harada və necə uğurlu ola biləcəyinə təsir göstərir. Onun mükafatlanması sadəcə olaraq müəyyən müddət davranışını dəyişdirir, uşağı uğurlu, bacarıqlı birinə çevirmir. Digər insanlardan təsdiq görmə arzusu uşağın azad şəxsiyyətini öldürür və uşaq uğurlu ola bilmədiyini və vəd edilən mükafatları da əldə edəbilmədiyi gerçəyini qəbul edərək zərərli vərdişlərə meyl edir və ya özünütəcrid edir.

İstifadə olunmuş ədəbiyyat:

1. Dr.Özgür Bolat “Beni ödülle cezalandırma” İstanbul, 2016, 239 s.
2. Doğan Cüceloğlu “Korku Kültürü” İstanbul, 2008
3. Alfie Kohn “ Punished by Rewards”
4. “The Drama of the Gifted Child : The Search for the True Self”

Baxışov Sübhan E. Qrup 1040
Azərbaycan Dövlət İqtisad Universiteti, Bakı
Elmi rəhbər: Baş müəllim Elvina Baxışova F.
Azərbaycan Dillər Universiteti

ENGLİSH İDİOMS İN FİNANCE

The field of finance is full of idiomatic expressions that are used to describe various financial situations and concepts. These idioms have been in use for many years and have become an essential part of the language of finance. Here are some of the most widely used English idioms that you might come across in the financial world, along with a detailed explanation of their meaning:

1. "Ballpark figure" is an expression that refers to an approximate or rough estimate of a financial value. This expression is often used when discussing budgeting or forecasting techniques in finance.

2. “Bulls and bears” are two animal metaphors that represent rising and falling markets, respectively. The term “bulls” refers to optimistic investors who believe that the market will rise, while “bears” are pessimistic investors who believe that the market will fall. These idioms are widely used to describe the market sentiments or trends. A bull market is when the market is rising, and a bear market is when the market is falling.

3. “Cash cow” is a term used to describe a business or investment that generates a steady and significant income. This expression is often used to describe a company or investment that is successful and profitable and has significant potential to generate revenue. A cash cow is a valuable asset that can generate a steady stream of income for an extended period.

4. “Cut your losses” is an expression that means selling a poorly performing investment to minimize losses. It is a tactic used to minimize the losses incurred in a poorly performing investment.

5. “In the red” is an expression that indicates being in debt or operating at a financial loss. This expression is often used to describe a company or individual who is experiencing financial difficulties. Being in the red is a challenging financial situation that requires immediate attention.

6. “Golden handshake” is a phrase used to describe a generous severance or retirement package. This expression is often used to describe a situation where an executive or employee is given a large sum of money upon leaving a company. It is typically associated with a high-level executive on the verge of retirement or being replaced. A golden handshake is a reward for years of service and loyalty to a company.

7. “Jump ship” is an expression that means leaving a failing investment or company before it collapses. This expression is often used to advise investors to sell their shares in a company that is not performing well in the market. It is used as a metaphorical warning to abandon a sinking ship before it’s too late. Jumping ship is a smart move to avoid further losses.

8. “Out of pocket” is a phrase used to describe being without funds or having incurred expenses. This expression is often used to describe a situation where an individual has spent more money than they have available. It is typically used to describe a situation where an individual or company is bearing an expense that hasn’t been reimbursed. Being out of pocket is a challenging financial situation that can cause significant difficulties.

9. “Rainy day fund” is an expression used to describe savings set aside for unexpected expenses or emergencies. This expression is often used to advise individuals or companies to set aside money for unexpected situations that may arise. It is typically a reserve fund or an emergency fund set aside for contingencies. A rainy day fund is essential to avoid financial difficulties during unforeseen emergencies.

While these are just a few examples of idioms used in finance, there are many more expressions that you might come across in the financial world. Understanding these idioms is crucial to communicate effectively in the financial world. These idioms are a part of the financial culture and are deeply ingrained in the language of finance.

List of used literature:

1. https://www.wordscoach.com/blog/150-idioms-about-money-and-finance/

Əzizli Mehri Tərlan qızı, Təhsil-2, qrup 222 B
Elmi rəhbər: müəllim, f.f.d. Qədimova Lailə Sahib q.
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ MİLLİ TEATR SƏNƏTİ

Heydər Əliyev ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşırdı. Azərbaycan dili, ədəbiyyatı, mədəni-mənəvi dəyərləri ümumilli liderin azərbaycançılıq fəlsəfəsinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas məxəzləri, bədii-fəlsəfi mənbələridir. Azərbaycan teatrı həmişə fəal mövqeyi ilə seçilərək ictimai fikrin ön sıralarında dayanmış, cəmiyyətin mədəni tərəqqisinə və milli şüurun inkişafına əhəmiyyətli təsir göstərmişdir. Ədəbi fikir tariximizin görkəmli nümayəndələri xalqa müraciət üçün teatr səhnəsindən yüksək xitabət kürsüsü kimi istifadə etmişlər.

Heydər Əliyev gənc yaşlarından teatra çox bağlı idi. Məktəb və tələbəlik illərində dram dərnəklərində səhnədə də çıxış edən Heydər Əliyev teatrı çox sevirdi və Azərbaycan milli teatrını xalqımızın milli sərvəti adlandırırdı. Ümummilli lider müntəzəm olaraq teatr tamaşalarına baxır, yaradıcı heyətlə görüşür, tövsiyələrini verirdi. Cəlil Məmmədquluzadənin “Ölülər” tragikomediyası Heydər Əliyevin ən çox sevdiyi səhnə əsərlərindəndir. Ulu öndər müsahibələrinin birində deyib: “Yuxarı siniflərdə oxuyarkən mən teatra böyük maraq göstərir, tez-tez yerli dram teatrının tamaşalarına gedib baxırdım... Beləliklə, teatrımız Mirzə Cəlilin “Ölülər” pyesini tamaşaya qoydu və mən də böyük məmnuniyyətlə bu tamaşaya bir neçə dəfə baxdım. “Ölülər” pyesi dərin fəlsəfi əsərdir. Öz fəlsəfi siqlətinə görə, o, Azərbaycan ədəbiyyatının dramatik əsərləri arasında ilk cərgədə durur. Eyni zamanda onu digər əsərlərdən fərqləndirən cəhət dərin milli ruhu, xəlqiliyidir... Mən Şekspirdən başlayaraq bütün dram əsərlərini bilirəm. Hesab edirəm ki, “Ölülər” kimi əsəri heç kim yarada bilməyib. Çünki bu cür mövzu tapmaq özü bir fəlsəfədir, dahilikdir...”.

Uzun və şərəfli tarixi yol keçmiş Azərbaycan teatrının inkişafında son illərdə yeni mərhələ başlayıb. Bu inkişaf özünü, ilk növbədə, teatrların maddi-texniki bazasının müasir dünya standartlarına uyğun möhkəmləndirilməsində, kollektivlərin yaradcılıq axtarışlarının bəhrəsi olaraq yeni maraqlı tamaşaların

hazırlanmasında, nüfuzlu Qərb, o cümlədən Avropa teatrları ilə təcrübə mübadiləsinin genişləndirilməsində və s. göstərir.

Şübhəsiz, teatrlarımızın yeni inkişaf yoluna çıxmasında ölkəmizə rəhbərliyinin bütün dövrlərində daim mədəniyyət və incəsınətin böyük hamısı kimi bu sahədə çalışanların sonsuz rəğbətini qazanmış Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xidmətləri misilsizdir. Qeyd etməliyik ki, bu il ölkəmizdə Ulu Öndərin 100 illik yubileyi münasibətilə "Heydər Əliyev İli" elan olunub. Azərbaycan xalqının Ümummilii Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində Heydər Əliyev Mərkəzində tamaşa təqdimatları davam edir. Ulu Öndər hər zaman teatra, yaradıcı insanlara çox böyük diqqət və qayğı ilə yanaşıb. Bu ənənə bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Azərbaycan peşəkar milli teatrının 150 illik yubileyinin qeyd olunması haqqında" Sərəncam buna bariz nümunədir. Beləliklə, ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar olaraq Heydər Əliyev Mərkəzi bir sıra layihə və tədbirlərin keçirilməsini planlaşdırdı. Mərkəzdə "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində silsilə tamaşaların nümayişi nəzərdə tutulurdu.

Ümummilli Lider Heydər Əliyev teatr haqqında belə söyləmişdir: "Teatr Azərbaycan mədəniyyətinin, xalqımızın milli ruhunun, milli dirçəlişinin inkişafında, ümümxalq mədəni səviyyəsinin yüksəlməsində böyük rol oynayır".

Ədəbiyyat siyahısı:

1. Haciyev İ. Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası. Bakı-2003 [164 səh]
2. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı-2007 [136 səh]
3. Vəliyev İ. Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı-2003 [89 səh] 4. www.wikipedia.org
4. www.kayzen

PervinFərəcova Xedice İnqilab
Associate-Professor Shukurova Farida ShahlaR
Azerbaijan University of Languages

THE IMPACT OF NETFLIX MOVIES IN LANGUAGE ACQUISITION AND WAYS OF USING IT DURING TEACHING

Netflix is a streaming application that is very popular to young generation, Netflix allows users to access local and international movies and films with a very diverse selection. Most of you probably have classes that absolutely love videos. Watching screens is a big part of most children's lives nowadays, and with the growth of platforms such as Netflix, this is the case more than ever. [2.par.4]

With so much educational content available through video and platforms like Netflix, using this to help students to understand different topics is such a great way for you to tap into their interests. Video turns learning into an engaging moving picture so the benefits of using it in the classroom truly start with the shows and films themselves. [1.par.5]

Is It Possible to Binge-Watch Your Way to fluency?

Yes, but only if you do it right. Before you waste your time and get frustrated with the results, here are some strategies to drive home the benefits of learning a new language while watching Netflix. To learn any language, you need to expose yourself to a range of materials close to what you can understand. The material should be challenging enough that it pushes you outside of your comfort zone, but not too easy that you find it boring. Netflix makes this incredibly easy for you. If you're a beginner starting out, you can watch shows geared towards younger children. They may not be the most exciting, but your focus is on the language, not entertainment. [4.par.6]

Let's look at some of the merits of using films to pick up a new language. The benefits of watching films are plenty. Most importantly, it is entertaining. You enjoy watching films, especially if they are of your choice. This not only makes your experience of language learning more enjoyable, but also helps you remain motivated and engaged throughout the learning process. Another advantage of watching films is that they provide a visual input to language learning. The visual context helps you interpret the

language you hear and offers a better understanding. Moreover, films are a great source of authentic contexts in which language is used naturally. You gain exposure to real-life situations and conversations which gives you an immersive experience. You no longer need to pack a bag and move to a new country to learn a language; you can get the same experience in your living room. [4.par.3]

To get the most out of using Netflix to learn a foreign language, you need a targeted approach. In short, you need strategies. Here are a few techniques you can use:

Break the movie up: Watching a two-hour flick in your target language may seem like fun at first, it that's a long time. And if you're doing it right, it should feel exhausting. So, take frequent breaks to reflect on the language. Rewatch the movie: Like most strategies with language learning, repetition is necessary. Your brain needs repeat access to your target language to learn it. You don't even need to wait for the movie to end. Repeat scenes over and over again until you're fully confident you comprehend the dialogue. Get involved: While it may seem weird, talking with the characters is a great way to practice speaking and pronunciation . You can pause and repeat scenes over and over to help ensure accuracy. [3.par.5]

To sum up, Netflix is a convenient and affordable way to upgrade your language abilities. It indeed looks promising in the quest for language studying. Just make sure you maintain consistency and practice all that you learn a language with Netflix.

References:

1. https://www.languagenext.com/blog/learn-a-language-with-netflix/
2. https://www.twinkl.com/blog/netflix-in-the-classroom-a-101-on-making-entertainment-educational
3. https://www.optilingo.com/blog/general/can-netflix-help-you-learn-a-foreign-language
4. https://www.britishcouncil.in/blog/Netflix-and-films-language-acquisition

Rahmatova Laman
Education -2 Group: 221A
Scientific advisor: Eyyubova Aygul
Azerbaijan University of Language

THE ROLE OF THE INTERNET IN LEARNING ENGLISH

In modern times, everything is developing day by day. Internet and foreign language are the leading places of the era. Nowadays, the main foreign language is English. We observe the importance of their unity every day. In today's world, the Internet, which is the closest friend of people,[1] has an impact on people,[2]as well as on education, culture, learning a foreign language, etc. also shows its effect . So, many classes in the world, including in Azerbaijan, in universities, schools and other educational institutions, especially language classes, are already managed by computer [3]. The Internet is used as the first tool in this field. There are great opportunities for those with access to the Internet. Those who have access to the Internet have the opportunity to chat with students and teachers from many countries of the world and use various tools to learn a foreign language.

The development of the Internet also affects people.[2] People try to get to know each other and socialize through social networks. This also creates an opportunity for English language learners. They pave the way for developing language skills with native speakers and foreign friends on social networks. [1]In this way, they can learn the language in a more fun way. There are even different websites and programs to find foreign friends. This allows you to easily learn the language whenever you want. Even technology has developed so much that you can text and video chat through artificial intelligence, which helps to improve your English language skills.

As everyone knows, watching movies and following social networks is one of the most preeminent topics in modern times.[3] This can affect learning English. People watch a lot of foreign movies and videos to improve their English language, discuss them, note the words there, learn by listening, discover new words, try to stay more motivated while learning the language, and learn while having fun. This also develops his language skills. At the same time, there are people who can improve their skills by following their favourite characters and bloggers on social networks.

At the same time, the development of the Internet leads to the creation of new and interesting programs. Those programs facilitate the work of people and help to solve problems quickly. At the same time, it is possible to reach a perfect and desired level by using various programs while learning English. These programs ensure the improvement of all skills while learning English.Also, through some programs, you can take lessons from native speakers and get certificates from different countries and higher education centers. Some certificates are even recognized worldwide. Through some programs, people can find and read the book they want without leaving home. This is considered as saving both their time and money.

In this period, the process of learning English through the Internet is very widespread. Because people understand the value of their time, they use the Internet and modern technologies to do all their work quickly, accurately and easily. Mainly the process of learning English. At this time, they use different methods. Through these methods, people can improve their English skills easily and quickly.

Reference lists:

1. https://ebooks.inflibnet.ac.in/ae01/chapter/role-of-technology-in-education-2/
2. https://edmonger.com/2021/07/28/roles-of-technology-in-education/
3. https://files.eric.ed.gov/fulltext/ED520220.pdf

Ağayeva Aysu Ceyhun
Elmi rəhbər: Müəllim Nəcəfova Təranə Atamalı
Azərbaycan dillər Universiteti

İNGİLİS DİLİNİN NETFLİX FİLMLƏRİ VASİTƏSİLƏ ÖYRƏNİLMƏSİ

Netflix"i dünyada yüz milyonlarla insan izləyir. Bu, ən yaxşı televiziya şoularının və filmlərin toplusudur. Onları yəqin ki, ana dilinizdə izləmisiniz, bəzi filmlərə hətta ingilis dilində də baxmış olarsınız. Yəqin ki, onların bəzilərini altyazı ilə, bəzilərini isə özünüzü çətinə salıb altyazısız izləmisiniz.

Burada sizə ingilis dilini sinifdən kənarda öyrənmək üçün "Netflix" dən necə istifadə etməyin yollarından bəhs edilir.

Bir çox insan üçün film izləmək əyləncə növüdür. Biz filmlərə əylənmək üçün baxırıq və düşünə bilərsiniz ki, ingilis dilində filmə baxmaq "ingilis dilini öyrənmə fəaliyyətiniz" hesab ediləcək. Buna görə də kitab oxumaq, podkastlara qulaq asmaq əvəzinə "Tiger King"i ("Kral Pələng") izləyirsiniz.

Bu, ingilis dilini öyrənərkən insanların ən çox etdiyi səhvlərdən biridir. "Netflix" və TV mükəmməl ola bilər, amma bunlar çox passiv dil öyrənmə fəaliyyətləridir. Harvard universitetinin apardığı araşdırma göstərmişdir ki, yuxuda olduğunuz zaman beyniniz televizora baxdığınız vaxtdan daha aktiv ola bilər. Buna görə də bütün bu fəaliyyətlərin bərabər olduğunu düşünürsünüzsə, yanılırsınız. "Netflix" i izləmək əyləncəli ola bilər, amma bu, etdiyiniz daha "aktiv" öyrənmə fəaliyyətlərini (məsələn, podkastlar dinləmə) əvəz etməməlidir.

"Netflix" dən necə effektiv istifadə etmək olar?

Əvvəla, bu, əyləncəli və zövqvericidir. Daha çox baxmaq öyrənməni daha da asanlaşdırmaq deməkdir. İngilis dili öyrənmək yaxın məsafəyə qaçmaq deyil və "intensiv" fəaliyyətləri (məsələn, podkast dinləmə) daha az güc tələb edən fəaliyyətlərlə (məsələn, "Netflix"i izləmə) qarışdırmaq ingilis dili ilə tam əhatə olunmağın mükəmməl yoludur, amma çox yüklənməməyə çalışın. Biz hər şeyi heç vaxt 100 % öyrənə bilmirik (bu fəlsəfəni bəyənirsinizsə, "Laid Back Languages"in qurucusu Patı izləyin). Dil öyrənmə xoş səyahət kimi olmalıdır.

Aşağıda sizə "Netflix" lə işə başlamağınıza kömək edəcək bir neçə ipucu verilir:

1. *İngilis dilli altyazılardan istifadə edin.*

Podkastlardan fərqli olaraq burada başa düşməyinizə kömək edən video var. Hətta dil öyrənməyə yeni başlayan biri ("beginner") olsanız belə, ana dilinizdə altyazıdan istifadə etməyi bəhanə gətirməyin. Əvvəlcə çətin gələcək, amma məzmundan çox şey başa düşə biləcəksiniz. İtalyan dilini öyrənərkən 18 yaşım vardı. İtaliyanın Peruca şəhərində nə ingilis, nə də italyan dilində danışa bilən bir alman oğlanla yaşayırdım. Mən də alman dilini bilmirdim. Hər zaman alman dilində "Unter Uns" serialına baxırdıq. Yeni başlayanda bir kəlmə də başa düşməsəm də sonradan sözləri daha tez tutdum. Əgər orta və ya yuxarı

səviyyədə danışırsınızsa və hələ də altyazıların köməyinə ehtiyac duyursunuzsa, onda onlara baxmamağa çalışın. Fikrinizi cəlb edə bilər, amma ekranın yuxarısına baxmağa çalışın və yalnız başa düşmədiyiniz bir şey varsa, onda altyazılara baxın. Həmişə yalnız altyazıları oxuyursunuzsa, bu zaman əslində beyninizi dinləməyə məcbur etmirsiniz və nə qədər yavaş irəlilədiyinizi görüb məyus olacaqsınız.

2. *İngiliscə altyazıları söndürün.*

Baxdığınız filmdə və ya serialda baş verənlərin 80 %-ini başa düşə biləcəyinizi düşünürsünüzsə, altyazıları söndürün. Bu, bir az daha əyləncəli ola bilər, amma öyrənmə baxımından daha sürətli inkişaf edəcəksiniz. Özünüzü danışılanların mənasını anlamağa məcbur edəcəksiniz və altyazıları oxumaq istəməyəcəksiniz.

Qeyd edək ki, yeni başlayanlar üçün eyni zamanda iki dildə – ingilis və ana dilinizdə altyazı təqdim edən Chrome "extension" u var. İlk baxışdan cəlbedici görünür. İstifadə etsəniz, razı qalacaqsınız. Əgər həqiqətən də ingilis dilinizi inkişaf etdirmək istəyirsinizsə və altyazıya ehtiyacınız varsa, sizə özünüzü sırf ingilis dilinə kökləməyi tövsiyə edərdim. Başlamaq üçün özünüzü narahat hiss edə bilərsiniz, amma bu, 10 qat daha sürətlə irəliləməyinizə kömək edəcəkdir.

Fətullayeva Ülkər, Əli
Filologiya fakültəsi, qrup 438
Elmi rəhbər: fil.f.d, dos. Mövlamova Mehriban, Oqtay
Azərbaycan Dillər Universiteti

EKZİSTENSİALİST DÜŞÜNCƏDƏ YADLAŞMA VƏ ÖZGƏLƏŞMƏ (ALBERT KAMÜ – YAD VƏ ANAR – QIRMIZI LİMUZİN)

Ekzistensializm (latın dilindəki "exsistensia" – "mövcudluq" sözündəndir) insanın mövcudluğu, onun dünyada yeri və rolu haqqında insanın Allaha münasibəti ilə bağlı fəlsəfi konsepsiyadır. Ekzistensializmin mahiyyəti mövcudluğun mahiyyətdən əvvəl gəlməsi ilə izah olunur. Bu ədəbi cərəyan ən əvvəl 1927-ci ildə Alman mütəfəkkiri Martin Haydegger tərəfindən ortaya çıxmışdır.

Ekzistensialist ovqatın bədii təcəssümü olan ədəbi-estetik cərəyan isə bir qədər sonra Fransada formalaşmış, 50-60-cı illərdə J.P.Sartrın, A.Kamünün, Q.Marselin yüksək bədii keyfiyyətlərə malik əsərləri ilə daha da inkişaf etmişdir.

Ekzistensializmin ən bariz nümunəsi olaraq Albert Kamünün "Yad" romanını nümunə göstərmək olar. Baş qəhrəman Merso həyata qarşı laqeyd yanaşması, anası dünyasını dəyişdikdən sonra Mari ilə tanış olub onunla vaxt keçirməsi və komediya filminə getməsini əsərdə görmək mümkündür. Merso "həyatın mənasız olduğunu anlayan, öz seçimini edən və öz sahibliyini başa düşən və xoşbəxtliyi yalnız bunda görən bir insandır" [2,s.101]. Həmçinin müdirin narazı olduğunu bildirdi: "Onsuz da fərqi yoxdur, necə hərləyirsən hərlə, həmişə nədə isə günahkar olacaqsan" [1,s.23]. İnsanın azad olmamasının olduğunu Merso hiss etdirirdi. Ərəbi qətlə yetirdikdən sonra cinayət işinin məhz onun insanlardan yadlaşmasının müzakirəsi oldu. Məhkəmə məsələsinin onun iştirakı olmadan həll edilməsi, yəni burada yazıçının göndərdiyi mesaj insanlardan uzaqlaşmaq insanı məhvə aparır. Məhkəmə qərarının əsas məqsədi cəmiyyət içində özgələşən insanı edam etmək idi. Əsərin sonunda Mersonun birdəfəlik yox olmaqdan qorxduğunu duyaraq edam zamanı meydanın adamlarla aşıb-daşmağını və nifrət sədaları ilə onu yola salmalarını arzulayırdı.

Dünya müharibəsindən sonra Avropada tüğyan edən ekzistensializm cərəyanı Azərbaycan ədəbiyyatına da təsir etmişdir. Anarın yaradıcılığında ekzistensialist obraza rast gəlmək mümkündür.

Anarın "Qırmızı limuzin" əsərində baş qəhrəmanın adı olmasa da, O. kimi təqdim olunur. O.-nun təkcə yuxusunda deyil, qırmızı limuzin onu real həyatda da hər addımbaşı izləməsi, limuzinin içində adamın olmaması və məhəllənin tanınmaz hala gəlməsi, yəni yadlaşması görünür. Hətta katibənin onu soyuq qarşılaması da buna misal ola bilər. O.-nun "real həyatla təması olsa da, şəxssizlik özünü göstərsə də, bu mövcudluq deyil. Vəziyyətdən çıxsa da, yaxınının (katibənin) başqa ölkəyə köçməsi onu yuxudan oyadır, ancaq yenə də hər şeyə laqeyd yanaşır" [2,s.101]. Əsərin sonunda limuzinin qırmızı rəngdə olması öz əksini tapdı. Bu baş qəhrəmanın ölümü ilə izah olunur.

Hər iki əsərdə olan qəhrəmanlar tənhadırlar, "fəlsəfədə onlar öz şəxsi mövcudluğunda, öz həyat yollarını seçərək başqa insanlardan kömək gözləməyən və vicdan səsləri ilə hərəkət etməyi üstün tutan-

dırlar" [2,s.102]. Bu səbəbdən də qəhrəmanlar daim azaddırlar və öz mövcudluğu üçün məsuliyyət daşıyırlar. Azadlığı seçərək mənəvi olaraq azadlığa, yəni ölümə qovuşdular.

İstifadə olunmuş ədəbiyyat:

1. Albert Kamü. Yad. Bakı, "Qanun", 2022, 128 səhifə
2. Hacıyev Zeynəddin. Fəlsəfə. Bakı, "Turan evi", 2012, 488 səhifə
3. http://www.anl.az/down/meqale/edebiyyat/2018/fevral/578301.htm
4. https://senet.az/bloq/ekzistensializm-hec-bir-guc-insandan-ustun-deyil-133
5. https://yazarlar.az/2022/12/23/ekzistensializm-c%C9%99r%C9%99yani/

Vəliyeva Nəzrin Elşən qızı
Elmi rəhbər: b/m. Həsənova Mətanət Fariz q.
Azərbaycan Dillər Universiteti

İLK GƏNCLİK YAŞI DÖVRÜNDƏ YOLDAŞLIQ VƏ DOSTLUQ

İnsan ömrünün gənclik çağı fiziki cəhətdən yetkinliyinin başa çatması, onun özünüdərketməsinin, intellektinin sürətli inkişafı, özünəməxsus yüksək keyfiyyətlərinin və dünyagörüşünün formalaşması, peşə seçmək və yaşlılıq həyatına başlamaq dövrüdür. [3, s.341] Gənclik yaşı öz inkişafında adətən iki mərhələdən keçir: birinci mərhələ erkən gənclik (15-18 yaş), ikinci mərhələ isə yetkin gənclik (18-25yaş) dövrü adlanır. Gənclərin formalaşması həm bioloji, həm psixoloji, həm psixoseksual, həm də sosial amillərin təsiri altında baş verir.

Erkən gənclik yaşında gənclər bir-birinə qarşılıqlı təsir edir, bir-birini qavrayır, dərk edir, eyni zamanda ünsiyyət dairəsi daha da genişlənir, ailə, valideyn asılılığından müstəqilliyə, özünü idarəyə keçirlər. Bunlar gənclərdə sosial keyfiyyətlərin formalaşmasını sürətləndirir. [1, s.189]

Azər Mustafayev və Mirələm Vəliyev yazmış olduqları "İnkişaf və yaş psixologiyası" kitabında bunu belə şərh etmişdilər ki, gənc cəmiyyətdə öz rolunu tutmağa çalışır, müstəqil və məsuliyyətli fəaliyyətə keçir, onun şəxsiyyətinin fərdi-psixoloji xüsusiyyətləri ictimai münasibətlərin təsiri altında olur. Şəxsi-intim münasibətlər yaranır, simpatiya hissi yaranır. [1, s.184]

Ələddin Qədirov "Yaş psixologiyası" kitabında bildirir ki, şəxsi intim münasibət gənclərin öz tələbatını, maraqlarını ödəməyə yönəldilmiş daxili psixoloji halı olub, beyindən, ürəkdən, qəlbdən gələrək məzmunca müxtəlif formada təzahür edir. Şəxsi intim münasibətlərə daxildir: 1)Yoldaşlıq; 2) Dostluq; 3)Məhəbbət;

4) Düşmənçilik; 5) Tənhalıq. [3, s.351]

Gənclərin ünsiyyət fəaliyyətinin inkişafında yoldaşlıq münasibəti mühüm rol oynayır. Gənclər arzu edirlər ki, yoldaşları, sinif nümayəndələri, əməksevər, ağıllı, təmkinli, təşkilatçı, nüfuzlu, təşəbbüskar və xeyirxah olsunlar. [3, s.351]

Rəna Nağıyeva müəllifi olduğu "Gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri" məqaləsində qeyd edir ki, gənclik dövründə yoldaşlıq hissi ilə yanaşı dostluq hissi də inkişaf edir, mürəkkəbləşir və öz davamlılığı ilə fərqlənir.

Bu dövrdə yaranan dostluq uzun ömürlü olur. İlk gənclik dövründə dostluq hissi yeni motivlərə malik olur. Dostlar bir-birinə yüksək tələblər verməyə başlayırlar. Ələddin Qədirov "Yaş psixologiyası" kitabında bunu belə izah etmişdir ki, gənclərin fikrincə, əvvəla, dost səliqəli, sadiq, prinsipial olmalı çətin vəziyyətdə dostunun köməyinə çatmalıdır; ikincisi, dostluq onların maraq və fəaliyyətinin çox geniş sahələrini əhatə etməli, məzmunca dar bir sahə ilə məhdudlaşmamalıdır; üçüncüsü, onların dostluğu daha çox emosional olmalıdır; dost öz dostunun sevinc və kədərini onunla bölüşməlidir. [3, s.352]

Rəna Nağıyeva "Gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri" məqaləsində bildirir ki, ilk gənclik dövründə oğlanlarla qızlar arasındakı qarşılıqlı münasibətlərdə də əsaslı dəyişiklik baş verir. Yoldaşlıq münasibətlərinin sahəsi genişlənir. Xüsusilə qızlarda qarışıq dostluğa tələbat güclənir. İlk gənclik yaşının əvvəllərindən başlayaraq məktəblilərdə məhəbbət hissi yaranır. Ona görə də cinslərarası qarşılıqlı münasibətlər tərbiyə işinin əsas problemlərindən birinə çevrilir.

İlk gənclik yaşı dövründə yaranan yoldaşlıq və dostluq münasibətləri gəncin gələcək həyatının qurulmasında böyük rol oynayır. Düzgün tərbiyə edilmiş, özünüdərkedən və özünüinkişafa yönəlmiş

gənclərimiz öz məqsədlərinə, maraqlarına uyğun dostlar seçərək sağlam gələcəyə doğru irəliləyirlər. Lakin ailə problemləri olan, sevgi əskikliyi hiss edən, öz şəxsi keyfiyyətlərini inkişaf etdirə bilməyən gənclərimiz isə "xarici" normaların təsiri altına düşür. Nəticədə erkən nikah, narkomaniya, intihar və bu kimi ciddi həyati problemlərə məruz qalır, rəngarəng gənclik illərini qaranlıq gələcəyə düçar edirlər.

Sağlam gələcəyimizi sağlam gənclərimiz qurur. Buna görə də gənc nəslin fiziki və mənəvi inkişafı istiqaməti üzrə əsaslı tədbirlər görülməlidir.

Ədəbiyyat:

1. Azər X. Mustafayev, Mirələm V. Vəliyev - İnkişaf və yaş psixologiyası. Bakı: Elm, 2015, 296 s.
2. Ələddin Ə. Qədirov - Yaş psixologiyası. Bakı: Maarif, 2008, 386 s.
3. Rəna V. Nağıyeva - Gənclik yaşı dövrünün psixoloji xüsusiyyətləri [Mətn].

Şahiyeva Lalə Şücaət qızı
Baş Müəllim Abdullayeva Gülnar Mirzəağa qızı
Azərbaycan Dillər Universiteti

TƏHSİLDƏ SOSİAL KONSTRUKTİVİZM NƏZƏRİYYƏSİ

Sosial konstruktivizmin pedaqoji fəlsəfəsinin əsasını təhsilalanlara hazır biliklərin verilməsi deyil, idrak fəaliyyəti nəticəsində əldə edilən biliklərin bütövlüyü təşkil edir. Ona görə də təlim prosesində öyrənənlərin biliklərinin layihələndirilməsini və özünü inkişaf etdirməsini təmin edən pedaqoji mühit yaradılmalıdır. Eyni zamanda, ümumi yanaşmalar baxımından sosial konstruktivizm hər birimizin həyatı boyu ətraf aləmin öz dərki ilə qurulması kimi başa düşülməlidir. Bu nöqteyi-nəzərdən hər bir öyrənənin dünyagörüşü, əqidəsi əsasında ətraf mühit haqqında anlayışı özünəməxsusdur.

Sosial konstruktivizm rus pedaqoqu L.Vıqotski tərəfindən irəli sürülmüş öyrənmə nəzəriyyəsidir. Vıqotskinin fikrincə, dil və mədəniyyət insanların intellektual inkişafına və ətraf mühiti qavramasına təsir göstərir. L.Vıqotski iddia edir ki, insan əvvəlcədən əldə etdiyi əsas bilikləri və ya nəzəri bilikləri sınaqdan keçirməklə yeni biliklər əldə edir və onu özünəməxsus şəkildə qəbul edir [3, s.21-32].

L.Vıqotski sosial konstruktivizm nəzəriyyəsindən bəhs edərkən bildirir ki, uşaqların birgə fəaliyyətə əsaslanaraq müəllim və qrup üzvləri ilə fəal sosial əməkdaşlıq şəraitində yeni biliklərə yiyələnməsi çox vacibdir. Sosial konstruktivizm təlim mühitinin səmərəliliyinin təşkili üçün 5 əsas model təklif edir. Bunlar aşağıdakılardır [1, s.468 - 472]:

1. ***Fəaliyyətə cəlb etmə*** - burada müəllim tapşırığı izah edir, situasiyanı təqdim edir və şagirdlərə məsələni həll etməyi tapşırır. Problemin həllinə, düzgün araşdırma aparılmasına dair tövsiyələr verir, şagirdlərin sərbəst işləməsinə şərait yaradır.

2. ***Tədqiqat*** - burada şagirdlər yeni mövzu ilə bağlı müxtəlif ideya və konsepsiyaları tədqiq etməklə yeni biliklər əldə edirlər. Bu şagirdlərin tədqiqat bacarıqlarının inkişafı baxımdan çox əhəmiyyətlidir.

3. ***Təqdimat*** - burada şagirdlər araşdırma nəticəsində əldə etdikləri yeni bilikləri, konsepsiyaları, anlayışların müəllimin köməyi ilə izah edirlər. Bunun əhəmiyyəti şagirdlərdə konstruktiv, məlumatlandırıcı təqdimat bacarıqlarını inkişaf etdirməkdən ibarətdir.

4. ***Təcrübə*** - tədqiqat nəticəsində əldə edilən yeni bilik və nəzəriyyələr praktikada sınaqdan keçirilir və bununla da beyində sabitləşir.

5. ***Qiymətləndirmə*** - müəllim şagirdləri müxtəlif meyarlar əsasında (biliklərin mənimsənilməsi səviyyəsi, dərsdə fəallıq, qrupla əməkdaşlıq və s.) qiymətləndirir və ya qrupların özlərini qiymətləndirməsi üçün şərait yaradır.

Təlim prosesi sosial konstruktivizm əsasında təşkil olunan siniflərdə 4 əsas amilə xüsusilə diqqət yetirilir:

- *Müəllim və öyrənənlər arasında bilik mübadiləsi;*
- *Müəllim və öyrənənlərin öhdəlikləri və fəal əməkdaşlığın şərtləri;*
- *Müəllimin fasilitator rolunda olması və öyrənənlərə düzgün istiqamət verə bilməsi;*
- *Dərs zamanı qruplardakı şagird sayının çox olmaması* [3, səh.21-32].

Yuxarıda qeyd edildiyi kimi, sosial konstruktiv təlim dərsləri iki istiqamətdə, yəni təfəkkür və sosial istiqamət üzrə bilik və bacarıqların qarşılıqlı əlaqəsi şəraitində qurulur. Bu konstruksiya hər bir öyrənənin fərdi xüsusiyyətini nəzərə almaqla həyata keçirilir. Bütün bunları nəzərə alaraq qeyd etmək istərdim ki, sosial konstruktiv təlimin tətbiqi genişləndirilməli və təlim-tədris prosesinin səmərəli qurulması, keyfiyyət göstəricilərinin yüksəldilməsi, təhsil müəssisələrinin transformasiyası üçün Azərbaycanın təhsil sistemində aparıcı mövqe tutmalıdır.

İstifadə olunmuş ədəbiyyat

1. Abdullayeva G. "Layihə əsaslı təlim yanaşmasının fəlsəfi əsasları", konfrans materialı, Bakı 2022, səh. 468-472
2. Haney, J. J., & McArthur, J. (2002). Four case studies of prospective science teachers' beliefs concerning constructivist teaching practices. Science Education, 86(6), pp. 783-802.
3. Holt-Reynolds, D. (2000). What does the teacher do?: Constructivist pedagogies and prospective teachers'beliefs about the role of a teacher. Teaching and Teacher Education, 16(1), pp.21-32.
4. Əhmədov H., Zeynalova N., «Pedaqogika», «Elm və təhsil» Bakı, 2021, səh. 276-279
5. https://www.researchgate.net/publication/358439655_Social_Constructivism_A_New_Paradigm_in_Teaching_and_Learning_Environment
6. https://www.eajournals.org/wp-content/uploads/Social-Constructivism.pdf
7. https://www.elibrary.ru/item.asp?id=44060758

Qayıbova Şəfəq Asəf qızı
Baş müəllim Abdullayeva Gülnar Mirzəağa qızı
Azərbaycan Dillər Universiteti

KİÇİK MOTORİKANIN İNKİŞAFINDA DİDAKTİK OYUNLARIN ROLU

Kiçik motor bacarıqları beynin inkişafı və uşaqların düşüncə tərzinə təsir göstərir. Kiçik motor bacarıqlar uşağın ümumi inkişafının vacib komponentidir. Kiçik motor bacarıqları inkişaf etdirməklə bütün psixi proseslər – qavrama, təfəkkür, yaddaş, diqqət, nitq və s. inkişafı stimullaşdırılır, lakin kiçik motor bacarıqları yalnız böyük motor bacarıqları inkişaf etdikdə yaxşı inkişaf edir. Uşaqlıq dövründə motor bacarıqların yaxşı inkişaf etməsi böyük yaş dövrləri üçün açar rolu oynayır. Motor bacarıqlarının inkişafına dair bir çıx tədqiqatçılar müxtəlif ideyalar irəli sürmüşlər [2, səh.252-259]:

- Alman mütəfəkkir İ.Kant qeyd etmişdir ki, "Əl ortaya çıxan insan beynidir".
- V.A.Suxomlinski isə belə qeyd etmişdir ki, "Uşağın ağlı onun barmaqlarının ucundadır. Uşağın əlində nə qədər bacarıq olarsa, uşaq bir o qədər ağıllı olar".

Kiçik motor bacarıqları əzələ, skelet və sinir sistemlərinin birgə fəaliyyətlərinin məcmusudur. Vizual sistemlə birlikdə əl ayaq barmaqlarının dəqiq hərəkətlərini yerinə yetirir. Motor bacarıqları sonrakı illərdə akademik öyrənmənin əsasını təşkil edir. Uşaqlarda kiçik motor bacarıqlarının inkişafı öz-özünə baş vermir. Bu məsələdə böyüklərin rolu vacibdir. Onlar öz nümunələri ilə uşağı müxtəlif fəaliyyətlərə cəlb edir və məqsədyönlü şəkildə inkişaf etdirirlər. Əl-göz koordinasiyası ilə birlikdə bu, kiçik motor inkişafı üçün yeni imkanlar açır. Əllərdə yerləşən sinir ucları oyun vasitəsilə uşağın beyninə təsir edir və aktivləşdirir. Didaktik oyunlar kiçik motorikanın inkişafında əvəzolunmaz rola malikdir. Barmaq oyunları kiçik motorikanı inkişaf etdirmək üçün effektiv üsullardan hesab olunur. Barmaq oyunları zamanı uşaqlar böyüklərin hərəkətlərini təkrarlayaraq kiçik motor bacarıqlarını inkişaf etdirirlər.

Kiçik motor bacarıqlarının inkişafında tətbiq olunan didaktik oyunlar [1, səh.102-109]:

1. İp və ya süngərlə təşkil olunmuş oyunlar;
2. Gil və ya plastilindən müxtəlif əşyalar hazırlamaqla təşkil olunmuş oyunlar;
3. Mozaika və xırda konstruktorlarla oyunlar;
4. Müxtəlif ölçülü plastik qablarla təşkil olunmuş oyunlar;
5. Kağız, salfet, kartonlardan fiqurlar hazırlamaqla və s.

Didaktik oyunlar ətraf mühitin yaxşı dərk olunmasında və maneələrin aradan qaldırılmasında əvəzsiz rol oynayır. Kiçik motor bacarıqlarının inkişafı üçün oyunlar xüsusilə vacibdir. Oyun zamanı uşağın bütün şəxsiyyəti inkişaf edir. Buraya onun idrak prosesləri, hissləri, duyğuları, bacarıqları daxildir. Oyun uşaqlar üçün maraqlı, əyləncəli bir fəaliyyətdir. Oyun uşaqlara ətraf mühitə və başqalarına uyğunlaşmaq imkanı verir, onların motor inkişafına, düşüncə və problem həll etmə qabiliyyətlərinə müsbət təsir göstərir.

İstifadə olunmuş ədəbiyyat
1. Abdullayeva G. "İbtidai siniflərdə xarici dil dərslərində oyun texnologiyalarından istifadə", ADU-nun Elmi xəbərləri, Bakı-2018, səh. 102-109
2. Barnett L.M., et al. / Journal of Adolescent Health 44 (2009), pp. 252–259
3. Əhmədov H., Zeynalova N., «Pedaqogika», «Elm və təhsil» Bakı, 2021, səh. 276-279
4. https://www.elibrary.ru/item.asp?id=45726536&pff=1
5. https://busybusylearning.com/fine-motor-skills-development-through-toys-and-activities/
6. https://edu-time.ru/pub/133129
7. https://www.elibrary.ru/item.asp?id=44060758
8. https://www.shichida.com.au/blog/enhancing-gross-motor-skills-through-play/

Yusifova Aybəniz Zaur qızı
Baş müəl. Xaspoladova Sevda Aydın qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR DÖVRDƏ İNKLÜZİV TƏHSİLİN ROLU

İnklüziv təhsil müxtəlif bacarıqlara malik olan, əqli və fiziki imkanları məhdud tələbə və şagirdlərin təhsil və təlimə cəlb olunmasıdır. İnklüziv təhsil milli təhsil sistemi üçün çox əhəmiyyətlidir. İnklüzivlik cəmiyyətin bütün üzvlərinin maraqlarını, bütün fəaliyyət növlərində hüquq bərabərliyini təmin etməlidir. İnklüzivlik fiziki sağlamlığından asılı olmayaraq, layiqli həyat sürmək hüququna söykənən hümanizm ideyalarıdır. Çünki cəmiyyətdə bütün insanlar üçün bərabər imkanların yaradılması daim diqqət mərkəzində olmuşdur. Digər ölkələrin qanunvericiliyində bu prinsiplərin öz əksini tapdığı kimi, Azərbaycan Respublikası da müstəqillik əldə etdiyi gündən bu günə kimi bu məsələyə ciddi diqqət yetirmişdir.Bu siyasətin əsası Ulu Öndərimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. İndi isə ölkə prezidenti, möhtərəm İlham Əliyev bu siyasəti uğurla davam etdirir. Həmçinin Respublikamızda bu sahədə bəzi fərman və qanunlar qəbul edilmişdir.

"1948-ci ildə "İnsan Hüquqları haqqında" Ümumi Bəyannamə qəbul edilmişdir. Bu bəyannaməyə əsasən, hər bir şəxs irqindən, rəngindən, cinsindən, dinindən, siyasi əqidəsindən, əmlak, sosial mövqeyindən asılı olmayaraq, bərabər hüquq və azadlıqlara malikdir" [1, s.25].

"19 iyun 2009-cu ildə "Təhsil haqqında" qanun qəbul olunmuşdur. Bu qanunun 6.7-ci maddəsinə əsasən, sağlamlıq imkanları məhdud şəxslərin təhsili üçün xüsusi dövlət standartları müəyyən edilir" [1, s.28-29]. İnklüziv təhsildə diqqət yetirməli məsələlərdən biri də müəllimlərin bu təlimə peşəkar hazırlığıdır. Aparılmış tədqiqatlar sübut edir ki, bu məsələ qabardılmalıdır. Avstraliyanın Viktoriya ştatında orta məktəblərin birində bu barədə tədqiqat aparılmışdır. Bu tədqiqat 1992-ci ildə Qrbiç və Saykes tərəfindən aparılıb. Müəllimlərin verdiyi məlumata görə, müxtəlif əqli və fiziki bacarıqlı uşaqlar üçün tədris proqramına ehtiyac duyulduğunu və bu sahədə müəllimlərin peşəkar hazırlığına ciddi ehtiyac duyulduğunu bildirmişdir. Müəllimlərin müxtəlif əqli və fiziki bacarıqlı uşaqlarla davranışına dair təlimlər keçirilməlidir. Bəlli olur ki, müəllimlərin peşəkar hazırlığı bu problemlərin həlli ola bilər.

Təhsildə inklüziyanın tətbiq olunmasında əsas məqsəd əqli və fiziki imkanları məhdud şagirdlərin digər sağlam şagirdlərlə eyni sinifdə təhsil almaqdır. Makqreqor və Vogelsberqin bu sahədə əldə etdiyi nəticələr bunlardan ibarətdir. Əlilliyi olan uşaqlar inklüziv quruluşda həmyaşıdları ilə yüksək səviyyədə sosial münasibətlər yaradırlar. İnklüziv quruluşda əlilliyi olan və olmayan uşaqlar arasında dostluq adi hala çevrilir. Bu dostluq bağlarının yaradılmasında və möhkəmləndirilməsində müəllimlərin də önəmli rol oynadıqları aşkar edilmişdir.

Nəticə olaraq, inklüzivlik müasir təhsildə əsasdır. Əqli və fiziki imkanları məhdud şagirdlərin təhsilə cəlb olunması və digər şagirdlərlə eyni sinifdə təhsil alması müasir dövrdə əldə olunmuş nailiyyətlərdəndir. Tədris-təlim prosesində inklüziv təhsilin əsas məqsəd və məramı bu qəbildən olan uşaqlar üçün yeni pedaqoji təfəkkür, yeni ideya birliyi tələb edir. Odur ki, yenilənən cəmiyyətdə olduğu kimi, inklüzivləşmə prosesində, xüsusən, təhsil paradiqmalarının zənginləşməsində həmin amillərin nəzərə alınmasının əhəmiyyəti və müasirliyi daima davam etdirilməlidir.

Ədəbiyyat siyahısı
1. Nigar Zeynalova. İnklüziv təhsilin pedaqogikası. Bakı, Elm və Təhsil. 2021, 352 s.

Bayramova Həcər Mübariz qızı
fil.f.d., dosent Xuraman Əsgərova Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEVİN MİLLİ TƏHSİL QURUCULUĞUNDA ROLU

"Təhsil millətin gələcəyidir"
Heydər Əliyev

Heydər Əliyev hələ Azərbaycana birinci rəhbərliyi dövründə təhsilin inkişafına böyük önəm verirdi. Ötən əsrin 70-80-ci illərində onun rəhbərliyi altında təhsil müəssisələrinin geniş şəbəkəsinin yaradılması və həmin şəbəkənin zəngin maddi-texniki bazasının formalaşdırılması, respublika hüdudlarından kənardakı ali məktəblərə gənclərin göndərilməsi, hərbi kadrların yetişdirilməsi, respublika elmlər akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunması gələcəkdə milli müstəqillik üçün zəruri intellektual zəmin yaratmışdır. Həmin illərdə respublikada məktəblərin, ali və orta ixtisas müəssisələri üçün yeni binaların tikintisi geniş vüsət almış, təhsil infrastrukturu tamamilə yeniləşdirilmiş, ixtisaslı kadrlar hazırlayan ali və orta ixtisas məktəbləri açılmışdır. Respublikanın müxtəlif bölgələrində 800-ə yaxın məktəb tikilərək istifadəyə verilmiş, ölkəmizdə fəaliyyət göstərən ali məktəblərin ümumi sayı 12-dən 17-yə, tələbələrin sayı 70 mindən 100 minə qədər artmışdır.

O dönəmdə Azərbaycanın əldə etldiyi mühüm tarixi nailiyyətlərdən biri də xalqın uzaq gələcəyini nəzərdə tutan milli kadr potensialının, o cümlədən nadir ixtisaslar üzrə mütəxəssis kontingentinin yaradılmasıdır. Bu məqsədi uğurla həyata keçirmək üçün Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün böyük qruplarla keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsinin əsasını qoymuşdur. O dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağına 15 minə yaxın azərbaycanlı göndərilmiş, hər il xaricə 800 tələbə yola salınmışdır

1998-ci ilin martında «Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə dövlət komissiyasının yaradılması haqqında» sərəncamı imzalaması isə bu sahədə təkmil qanunverici bazanın formalaşdırılması, təhsil konsepsiyasının hüquqi əsaslarının yaradılması məqsədindən irəli gəlmişdi. Çox qısa müddətdə komissiyanın hazırladığı «Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı» geniş müzakirələrdən sonra 1999-cu ilin iyununda imzalanaraq qüvvəyə minmişdi. Həmin proqram ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi.

Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri yeni - latın qrafikalı əlifbaya keçilməsi idi.

Heydər Əliyev azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsbitlənməsi, ötən əsrin 70-ci illərində nəşr olunmuş 3 cildlik «Müasir Azərbaycan dili» dərsliyinə dövlət mükafatı verməsi Heydər Əliyevin bu sahədə gördüyü mühüm addımlardan biridir.

1997-ci il yanvarın 31-də Heydər Əliyevin Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupu ilə görüşündən sonra, Milli Elmlər Akademiyasının Rəyasət Heyəti ulu öndərin tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılması, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul etmiş və tədbirlər həyata keçirmişdi. Eyni zamanda, «Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar» konsepsiyası hazırlanmışdı.

Demokratik, hüquqi dövlət quruculuğu yoluna qədəm qoymuş müstəqil Azərbaycan dövləti üçün insan hüquqları və azadlıqları problemlərinə dair elmi tədqiqat işlərinin aparılması məqsədilə Heydər Əliyevin sərəncamı ilə 1999-cu ilin sentyabrında AMEA İctimai Elmlər Bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradılmışdır.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Heydər Əliyev 100. Sitatlar və kəlamlar. Bakı, 2023

2. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/t%C9%99rcumeyi-

Rüstəmova Elnarə Çingiz qızı
Elmi rəhbər: fil.f.d., dosent Əsgərova Xuraman Səlim qızı
Azərbaycan Dillər Universiteti

QORXU NƏDİR? QORXU İLƏ MÜBARİZƏ APARMAĞIN YOLLARI

Qorxu hər insanda vahimə yaradan hissdir. Bu hissi çox vaxt özümüz zehnimizdə meydana gətiririk. Demək olar ki, qorxusuz həyat mümkün deyil. Bəzən isə qorxu həyatımıza xoşagəlməz təsirlər göstərir.

Qorxuları bir neçə qrupa bölmək olar və hər bir qrup üzrə yaşanan qorxunun təbii halı və ya onun klinik forması mümkündür.

Təbiət ilə əlaqədar qorxular. Təbii fəlakətlər, fərqli heyvanlar, həşəratlar insanda qorxu hissi yaradır. Bu qorxu fobiya və ya çaxnaşmaya çevrilə bilər, təhlükə realdırsa vəziyyətdə qorxu adekvat reaksiya hesab olunur. Bir neçə vəziyyəti nümunə olaraq qiymətləndirək:

Daxili qorxular. Adətən, uşaqlıqda hər birimizi qorxudublar. "Gecə güzgüyə baxsan ömründən qısalar", "gecə dırnaq tutsan öz və ya yaxınlarının həyatını qısaltmış olursan", "yorğanın altından ayağını çıxartsan naməlum güclər səni dartıb aparacaq" və s. ifadələr, hətta xoxan belə uşaqlıqdan bizdə naməlum təbiətə malik və mübarizədə ən çətin hesab olunan qorxular yaradıb.

Sosial qorxular. Fərqli sosial hadisələr, insanlarla münasibətlər və ünsiyyət zamanı şəxsiyyətə zərər gətirə biləcək vəziyyətlərə psixikanın reaksiyasıdır.

Həyəcan, qorxu, stress, gərginlik kimi anlayışlar insan həyatında həmişə problem yaradır.

Müasir dövrümüzdə bu anlayışlar sürətlə inkişaf etməkdədir. Bu inkişafın insan üçün müəyyən fiziki və psixoloji fəsadlar yaratması danılmazdır. Araşdırmalara görə, məlum anlayışlar insanda panik atakın yaranmasına yol açır.

Görəsən, panik atak nədir və qurtuluş yolu nədən keçir?

Fobiyalarla mübarizənin bir çox üsulları var.

Ən sadə üsul qorxulara fikir verməmək, onların artmaması üçün öz-özünü qızışdırmamaqdır. Yəni qorxunun yaxınlaşdığını hiss etdikdə, onu şişirtmək deyil, yatırtmaq lazımdır.

Özünə qayğı göstər. Fiziki və ruhi sağlamlığı qorumaq hər zaman faydalıdır. Sağlam həyat tərzi sürməklə, sən özünü daha yaxşı hiss edirsən, işgüzarlığın artır və xəstələnmək riski azalır. Sağlam qidalanma və səmərəli idman hərəkətləri də öz müsbət təsirini göstərir.

Zövqlü məşğuliyyətlər. Neqativ düşüncələrdən uzaqlaş, dostlarına zəng et, onlayn kompüter oyunlarını oyna, maraqlı kitab oxu. Hər zaman zövqlü məşğuliyyət tapmaq mümkündür.

Art-terapiya. Art-terapiya qorxu hissi ilə mübarizə etməyə kömək edir.

Qorxunun insanı fəaliyyətdən saxladığı, kiminləsə ünsiyyət qurmadığı, özünə qapandığı, ətrafa olan münasibətinin pis olduğu mərhələdə onlara peşakar dəstək göstərmək lazımdır. Psixoloq qorxunun patoloji səviyyəyə gələn məqamı ilə iş aparır. Yəni fərd özünə və ətrafında olan insalara ziyan verir.

Ümumi olaraq bu qorxunun təməlini tapmaq üçün xüsusi analizlər aparmaq lazımdır. İnsan beynində o qorxunu həll edəndən sonra normal cəmiyyətə, həyata qayıdır. Amma bütün qorxulara qarşı tədbirlərin görülməsi qeyri-mümkündür. Müəyyən qədər qorxunun olması çox yaxşı bir şeydir. Bu, həm fərdin özünü, həm də cəmiyyətə olan münasibətini tənzimləyir.

Qorxu hissi heç olmayan insan yoxdur. Əgər varsa, onun psixiatrik problemləri var. Çünki hər bir insanın qorxacağı və çəkinəcəyi bir yer olmalıdır. Bu hisslərin heç biri olmayan insan təhlükəlidir. Məsələn, bir çox insanlar yalnız Allahdan qorxduğunu deyir. Bu qorxunun da olması önəmlidir. Çünki qorxu bəzən insanlara yol göstərir, bəzən isə yolundan edir".

İstifadə olunan ədəbiyyat siyahısı:

1. https://e-psixoloq.az/qorxu-nedir
2. https://redaktor.az/news/health/66604-heyecan-qorxu-gerginlik
3. Rövşən Abdullahoğlu "Qorxular"kitabı. Bakı 2021

Sara Zamanzadə Zaur qızı
Baş müəllim Sevda Xaspoladova Aydın qızı

Azərbaycan Dillər Universiteti

DİFERENSİAL YANAŞMA TƏLƏB EDƏN ŞAGİRDLƏRLƏ TƏLİMİN TƏŞKİLİ

Təlimin diferensiallaşdırılması şagirdlərin fərdi öyrənmə ehtiyaclarına, öyrənmə tərzləri və maraqlarına uyğun olaraq təlimin sürəti, səviyyəsi və ya növünün dəyişdirilməsidir. Məktəbə gələn şagirdlər müxtəlif maraqlara, şəxsiyyət tipinə, öyrənmə tərzlərinə və akademik biliklərə malik olurlar. Eyni təlim metodları bütün şagirdlərə tətbiq olunduqda səmərəli nəticə verməyə bilər. Diferensial təlim imkan verir ki, müəllim təlim prosesini şagirdlərin güclü və zəif tərəfləri, seçim və maraqlarına əsasən qura bilsin. "Əslində diferensiasiya şagirdlərin sinifdə lazımi təlim təcrübəsi qazanması üçün öyrətmə və öyrənmə haqqında düşünmək tərzidir" – deyə diferensiasiya eksperti Karol Tomlinson yazır.

Diferensial təlimin ən önəmli elementləri seçim, çeviklik, davamlı formativ qiymətləndirmə və yaradıcılıqdır. Şagird haqqında əldə olunan bütün informasiyalardan diqqətli istifadə edərək 4 istiqamətdə diferensiallaşmanı tətbiq etmək mümkündür .

1.Məzmunun diferensiallaşdırılması-Məzmun dedikdə şagirdlərin öyrənməsini istədiyimiz bilik və ya bacarıqlar, bu bacarıqlara yiyələnmələri üçün istifadə etdiyimiz resurs və ya mexanizmlər nəzərdə tutulur. Məsələn: dərsliklər, əlavə oxu materialları, videolar, kompüter proqramları, ekskursiyalar, mühazirələr və s. Şagirdlərin mövcud biliklərinə əsasən müvafiq fəaliyyətin təşkil edilməsi, daha dərindən öyrənmək üçün mövzu seçiminin onlara verilməsi, sadə və ya mürəkkəb tapşırıqların verilməsi məzmunun diferensiallaşmasına aiddir.

2.Prosesin diferensiallaşdırılması – Proses dedikdə şagirdlərin öyrəndikləri bilikləri mənalandırmaqları məqsədilə əsas bacarıqları tətbiq etmələri üçün təşkil olunan fəaliyyətlər nəzərdə tutulur. Burada yenə diqqətdə saxlamalı olduğumuz əsas məqam var: dərsin məqsədi nədir və bu məqsədə çatmaq üçün hansı yollar var? Fəaliyyətin diferensiallaşdırılması fərdi işlər verməklə, audial, vizual və kinestetik öyrənmə tərzlərinə malik şagirdlər üçün öyrənmə mərkəzlərinin qurulması, möhkəmləndirmə məqsədli ev tapşırıqlarının verilməsi vasitəsilə də aparıla bilər."Diferensiallaşdırılmış tapşırıqların hazırlanması üçün müəllim şagirdlərini hərtərəfli tanımalıdır.Tapşırıqlar çətin,lakin həll edilməsi mümkün olmalıdır." [3,s316] 3.Nəticənin diferensiallaşdırılması-Öyrənmənin yekun nəticələri şagirdlərin öyrəndiklərini və əldə etdikləri bacarıqları tətbiq edərək hazırladıqları yekun materiallardır. Qiymətləndirmə materialları və ya nəticənin diferensiallaşdırılması zamanı şagirdlərə imkan verilir ki, öyrəndiklərini müxtəlif formalarda nümayiş etdirsinlər. 4.Öyrənmə (təlim) mühitinin diferensiallaşdırılması-Öyrənmə mühiti sinif otağının ümumi "iqlimidir". Sinif otağındakı fəaliyyətlər və sinifin tonu bura daxildir, məsələn: sinifdaxili qaydalar, prosedurlar, mebellərin yerləşməsi, işıqlandırma və.s.Diferensiallaşdırılmış mühitdə şagird avtonomiyası dəstəklənir, şagirdlər özünüidarəni öyrənir. Şagirdlərə məzmun, proses və qiymətləndirmə materiallarının seçilməsində seçim haqqı verilir, eyni zamanda, şagirdlərin qərar verməyi, plan qurmağı və problem həlletməyi onların müstəqillik və avtonomiyasını təmin edir. Müsbət və təhlükəsiz öyrənmə mühitinin yaradılması və şagirdlərin fərdi fəaliyyət seçimlərinin nəzərə alınması diferensiallaşmanı təmin edir.

Diferensiasiyanın 2 növü qeyd edilir: 1) Xarici diferensiasiya-Xüsusi məktə blərin,siniflərin və məktəbdaxili idraki və bədii dərnəklərin yaradılması nəzərdə tutulur. 2) Daxili diferensiasiya- sinifdaxili işin təşkili nəzərdə tutulur.

Beləliklə, hər bir uşağın öz səviyyəsinə görə inkişaf etmək imkanı əldə etməsi üçün mütləq şəkildə differensiallaşdırma metodu tətbiq olunmalıdır. Bunun üçün məktəblərdə müəllimlərə xüsusi təlim keçirilməli, differensiallaşma metodu müəyyən müddətə tətbiq olunmalı,dünya praktikasından yararlanmalı və mütəxəssislər cəlb edilməlidir.

Ədəbiyyat siyahısı

1. Diferensial təlim haqqında- http://www.tipii.edu.az/az/article/554
2. Dərsdə diferensial yanaşmanın tətbiqi- https://arti.edu.az/2023/07/24
3. Hümeyir Əhmədov,Nigar Zeynalova.Pedaqogika.Bakı,"Elm və Təhsil".2021

Şirəliyeva Nərmin Yaşar
Elmi rəhbər: Müəllim Abbasova Gülnur Oqtay qızı

Azərbaycan Dillər Universiteti

VALİDEYNLİK ÜSLUBLARININ UŞAĞIN DAVRANIŞI VƏ İNKŞAFINA TƏSİRİ

Uşağın şəxsiyyət və xarakteri ilk öncə ailədə, sonra məktəb və digər sosial qruplarda formalaşır. Təbii ki, 5-6 yaşa qədər əsas təməli ailədə qoyulur. Bu səbəbdən də uşağın inkişafı istər əqli, istərsə də şəxsiyyətinin formalaşmasında ailədə ata və ananın çox böyük rolu vardır. Ata və ananın uşağa qarşı olan davranış və münasibətləri uşağın formalaşmasına təsir edir, çünki uşaqlar valideynlərini təqlid edərək inkşaf edirlər.

Valideynlik üslubları valideynlərin uşaqları böyütərkən istifadə etdikləri müxtəlif strategiyaları təsvir etmək üçün istifadə edilən konstruksiyalardır. Bu üslublar valideynlərin davranış və rəftarlarını və uşaqlarını böyütdükləri emosional mühiti əhatə edir.

Valideynlərin uşaqlara qarşı olan münasibətinin dörd forması mövcuddur. Bu münasibətə əsasən uşaqların mənliyi formalaşır. Dörd forma aşağıdakı kimidir:

1. Demokratik
2. Avtoritar
3. Qoruyucu
4. Laqeyd

1.Demokratik – bu tip münasibətdə valideynlər uşaqlara sevildiyini, dəyər verildiyini hiss etdirirlər, hər hansısa bir problem ilə qarşılaşan zaman onu danışaraq həll edirlər, uşaqlarını daim dəstəkləyirlər, bəzən istisnalar olsa da(bu uşağın xeyrinədir) istəklərini yerinə yetirilər. Uşaqlara məsuliyyətlərini öyrədirlər.

2.Avtoritar – bu münasibət isə valideynlər uşaqları davamlı nəzarət altında saxlayırlar, konkret qayda-qanunları olur ki, onlara əməl etmələri üçün məcbur edirlər. Əgər bu qanunlara əməl etməzlərsə, cəza tətbiq edilir. Bu tip ailədə böyüyən uşaqlarda ünsiyyət problemi, meydana çıxa bilər, həmçinin özlərinə qarşı dəyər və münasibətləri formalaşmaz.

3.Həddindən artıq qoruyucu – bu tip ailədə böyüyən uşaqlar özgüvənləri olmur, daim kimdənsə asılı olan şəxsiyyətlər formalaşır. Valideynlər həddindən artıq qoruyucu olduqları üçün uşağın qərar verməsinə, hər hansısa bir işini özləri görməsinə şərait yaratmadıqları üçün özləri görürlər.

4.Vecsiz – uşaqların maddi və mənəvi ehtiyaclarına qarşı məsuliyyətsiz olurlar. Uşaqlar öz başlarına böyüyürlər. Sevgidən məhrumdurlar. Valideynlərin uşaqlarla münasibəti, bağlılıqları olmur, özünəqapanıq, davakar, güvənsiz və mənfi mənlik formalaşar.

Tədqiqatlar göstərir ki, valideynlik üslubları uşaqlara bir sıra təsirlər göstərə bilər: mental sağlamlıq, özünə hörmət, sosial münasibətlər.

Bir araşdırma, çətin davranış nümayiş etdirən uşaqların valideynlərinin zamanla daha az valideyn nəzarəti nümayiş etdirməyə başladığını göstərdi. Bu cür nəticələr göstərir ki, uşaqlar valideynlərinin həddən artıq laqeyd olması səbəbindən deyil, çətin və ya aqressiv uşaqların valideynləri uşaqlarını idarə etmək cəhdindən vaz keçdikləri üçün daha az nəzarət nümayiş etdirə bilərlər.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://www.verywellmind.com/parenting-styles-2795072
2. https://liseyim.az/bloq/valideyn-uslublarinin-usaqlarin-formalasmasina-tesiri-11.html
   https://files.eric.ed.gov/fulltext/EJ1161470.pdf

Qasımzadə Nərmin Kamaləddin
Müəllim Nəcəfova Təranə Atamalı
Azərbaycan Dillər Universiteti

ORTA MƏKTƏBDƏ İNGİLİS DİLİNİN ÖYRƏNİLMƏSİNDƏ VİDEO MATERİALIN ROLU

Günümüzdə xarici dillərin öyrənilməsi əsas mövzuya çevrilmişdir. Öyrənənlərin çoxu ingilis dilini üstün tutur. Çünki bu dil dünyanın hər yerində istifadə olunur və bu bununla da kifayətlənməyərək ingilis dili elm və texnologiyanın, biznes, təhsil sisteminin beynəlxalq dilinə çevrilib.

İngilis dilinin tədrisi ibtidai sinifdən başlayır və orta məktəbdə ətraflı şəkildə tədris olunur. Lakin ingilis dilinin mənimsənilməsi hər bir şagird üçün eyni dərəcədə asan olmur. Əgər bir şagird orta məktəb-

də ingilis dilində normal səviyyədə danışmağı bacarırsa, bu onun üçün qarşıda böyük uğurların olması deməkdir. Bu səbəbdən də kiçikyaşlıların ingilis dilini öyrənməyə böyük ehtiyacları vardır. Buna görə də onların dili mənimsəməsində əlavə köməkçi vasitələrdən istifadə etmək lazımdır.

Hazırda günümüzdə bu haqda bir çox resurslar, yeni metodlar vardır. Bu metodlardan biri də video materiallardan istifadədir. İngilis dilinin tədrisi prosesində öyrənilən dilin dərk edilməsi baxımından video materiallardan geniş istifadə edilməlidir. Bu baxımdan video materialların başlıca məqsədi şagirdlərin dinləmə qabiliyyətini və anlamasını inkişaf etdirməkdir.Şagirdin səviyyəsinə uyğun video materiallardan istifadə edilməlidir və müəlim tərəfindən müşahidə edilərək videoların səviyyəsini artırmaq məqsədə uyğundur. Hətta həftə ərzində 1 dəfə dərsi bu şəkildə tədris etmək,bunu ənənəyə çevirmək olduqca səmərəli təlim prosesi yaradacaq. Bu metod bir çox təcrübələrdən keçmişdir və məlum olmuşdur ki,bu üsul vasitəsilə şagirdlərin həm dərsə olan maraqlarını artıracaq həm də asanlıqla özlərini inkişaf etdirəcəklər. Həmçinin bu metod onlara vaxtlarını necə səmərəli keçiriləcəyini öyrədəcək.

Lakin qeyd etmək lazımdır ki, bu metoddan dərslərdə helə çox istifadə olunmur.Şagirdlərin ingilis dilini yaxşı mənimsəməsi üçün müəllimlər tərəfindən dərs prosesi zamanı bu metodun istifadə edilməsi arzuolunandır.

Ədəbiyyat:

1. https://muallim.edu.az › new

İsmayılova Gülzar
Elmi rəhbər: m.Nəcəfova Təranə Atamalı
Azərbaycan Dillər Universiteti

MOTİVASİYASIZ ŞAGİRDLƏRİ MOTİVASİYA ETMƏYİN YOLLARI

İlk olaraq "motivasiya nədir?" sualına cavab verək: Motivasiya – özünü və başqalarını özünün şəxsi və ya ictimai məqsədlərə nail olması üçün fəaliyyətə vadar etmək prosesidir. Bu insan fəaliyyətini təşkil edir. Bu fəaliyyət üsulları şagirddən şagirdə dəyişir. Çünki hər şagirdin motivasiya üçün fərqli metodlara ehtiyacı olur. Bəzən onları hədəflərə yönəldərək, dəstəkləyərək motivasiya edə bilərik. Başqa bir zaman isə onlara əyləncəli və maraqlı təcrübələr təklif edərək motivasiya artırmaq olar. Düşünürəm ki, motivasiya insanı bir işə sövq etməyə təkandır. Əgər insanın içində bu işi etməyə dair azca da olsa maraq, istək varsa ona kiçik bir motivasiya verərək həvəsləndirə bilərik. Yox əgər bir insan qəti olaraq öz beynində bu işi etmədiyini bildirsə və bacarmayacağını qəti olaraq düşünsə ona heç bir motivasiya da kömək ola bilməz. Amma bu insandan insana görə də dəyişə bilər.

Motivasiyanın əsas məğzi kiməsə bir şeyi edəcəyinə dair inam vermək və onu həmin şeyə təşviq etməkdir. Bu zaman müəllim diqqətli olmağa çalışmalıdır. Əgər şagirdin motivasiyası yoxdursa bu o deməkdir ki, onun özünə güvəni və öz potensialına inamı da yoxdur. Bunu səbəbi valideynlər tərəfindən başqaları ilə daim aparılan müqasiyə, valideynlər tərəfindən uşağın məcburi şəkildə hər hansı sahəyə yönləndirilməsi və bunun nəticəsində yaranan özünə inamsızlıq ola bilər. Nə də olsa uşaq "ağ kağız"dır və onu şəkilləndirmək və ya əksinə olaraq məhv etmək ilk gündən bəri valideynin əlindədir. Müəllim hər şeydən qabaq ailə ilə əlaqəyə keçib səbəbi tapmalı və o sahədən nüfz edərək problemi həll etməyə çalışmalıdır. Müəllim şagirdlərə motivasiya vermək üçün onları başa düşməyə, potensiallarını diqqətə almağa çalışmalıdır. Bəzən elə hallar olur ki, motivasiya ilə balıqdan uçmağı tələb edirlər və balıq bütün ömrü boyu uçmaq kimi hərdəmxəyal bir şeyin arxasıyca olur. Və əsla öz real potensialını görmür. Düzgün olmayan belə motivasiya, motivasiyadan daha çox ümidsizliyə və sonsuz paradoksa səbəb olur. Buna görə də müəllim motivasiya verərkən diqqətli olmalıdır. O balığa suda yaşadığını və orada üzməyi öyrətərək öz yolunu tapmasına kömək etməli, onu dəstəkləməli və bu yolda hər daim balıq olaraq balıq kimi yaşamaq üçün motivasiya verməlidir.

Ədəbiyyat siyahısı
1. https://az.m.wikipedia.org/wiki/Motivasiya
2. https://www.yeniazerbaycan.com/xeberlenti_e83313_az.html
3. https://muallim.edu.az/news.php?id=3026

Məmmədova Röya Ramil
Elmi rəhbər: Baş müəllim Abbasova Gülnur Oqtay
Azərbaycan Dillər Universiteti

MƏKTƏB ZORAKILIĞININ SƏBƏBLƏRİ VƏ MÜBARİZƏNİN ƏN TƏSİRLİ YOLLARI

Məktəb zorakılığı günümüzün ən aktual mövzularından biridir. Demək olar ki, hər bir ölkədə 10 şagirddən biri bu zorakılığın qurbanı və yaxud şahidi olmuşdur . Eləcə də Azərbaycanda da bu hadisələrə rast gəlmək mümkündür.

Məktəb zorakılığı bir şagirdin hər hansı fərqliliyinə və yaxud məhdud bacarığına görə digər bir şagird və yaxud bir qrup şagird tərəfindən alçaldılması, daha fərqli desək xor görülməsidir . Bu zorakılıqları psixoloji və fiziki olmaqla 2 qrupa bölmək olar. Psixoloji zorakılıqlara daha çox təhqiramiz sözləri, sosial təcrid olmaları, təhdidləri, manipulasiyaları aid etmək olar. Fiziki zorakılığa isə fiziki zərər vurmaq aiddir, burada zərər çəkən müxtəlif fiziki xəsarət alır.

İngilis dilində məktəb zorakılığına "bullying" deyilir və beləliklə bizim dil lüğətimizə də yeni termin olaraq bullinq daxil olmuşdur. Məktəb zorakılığının, digər adı ilə desək bullinqin səbəbləri müxtəlif ola bilər. Məktəb zorakılığının ən böyük və ən əsas səbəbi kimi ailə mühitini, ailə münasibətlərini götürə bilərik. Bildiyimiz kimi ailə hər bir şəxsiyyətin doğulan andan gördüyü ilk cəmiyyətdir. Ailə ən kiçik cəmiyyət olub orada böyüyən fərdin gələciyinə böyük təsiri edir. Ailədə şiddət və zorakılıqlara şahidlik edən hər bir körpə böyüdükdən sonra cəmiyyətdə sağlam bir fərd kimi yer tuta bilmir. O, gözünü ilk açdığı andan zorakılıqlara və şiddətlərə məruz qaldığı üçün cəmiyyətdə ona edilən haqsızlıqlara göz yumacaqdır, və yaxud digər halda gördüklərini digər fərdlər üçün də tətbiq etmək istəyəcəkdir. Bu o deməkdir ki, bu tipli fərdlər cəmiyyətə bir şəxsiyyət kimi qazandırıla bilmir, onlar ya zorakılığı törədən ya da zorakılığın qurbanına çevrilirlər.

Digər səbəb olaraq cəmiyyətdə baş verən haqsızlıqlara müşahidəçi kimi qalmağı göstərmək olar. Bu zaman şagirdlər bu kimi hallarda böyüklərin sakin reaksiyasını nəzərə alaraq sanki hər şey elə belə olmalıymış kimi qənaətinə gəlirlər. Və onlar düşünürlər ki, onların etdiyi zorbalığa digərləri də sakin reaksiya göstərməlidir. Əslində bu psixologiyada bystandart effekti, yəni şahid effekti adlanr. Şahid effektinin açıqlaması o deməkdir ki, şahidlərin sayı nə qədər çox olarsa işin məsuliyyəti o qədər şahid arasında paylanır və heç kim özündə tam məsuliyyət görərək hərəkətə keçmir. Həmin şahidlərin hamısı "mütləq ki bir nəfər kömək edən olacaq" düşüncəsi ilə hər şeyə göz yumurlar. Ancaq bunun əksinə böyüklər bu kimi məsələlərdə məsulliyyət daşıyaraq düzgün reaksiyanı göstərməklə böyüməkdə olan fərdlər üçün zorbalığın nə qədər səhv bir hərəkət olduğunu nümayiş etdirməldirlər.

Şagirdlər arasında yayılmış zorakılığın digər səbəbi də sosial şəbəkələr, izlənən filmlər aiddir. Burada zorakılıqları görən fərd aqressivləşir və münasibətlərdə düzgün mövqe tuta bilməyərək aqressivlik nümayiş etdirir.

Şagirdlər arasında bu cür təzyiqlər və zoraklıqla mübaizə aparmalıyıq. Bunun üçün ilk iş ailədən başlayır, ailədə düzgün təməl qoyulmalı və mənəvi cəhətdən düzgün şərait yaradılmalıdır. Onlara kiçik yaşlarından şəxsiyyət kimi münasibət bəsləmək lazımdır. Onlara kiçik yaşdan hiss etdirilməlidir ki, valideynlər onları başa düşür və dinləyir, beləliklə onlar başa düşülmək üçün hər hansı zor tətbiqinə ehtiyac duymayacaqlar.

Həmçinin xüsusilə zorakılığa meyilli uşaqların çevrələrinə diqqət yetirilməli, onların düzgün dostluq münasibətlərində olduqlarını müəyyən etmək lazımdır. Bunun üçün müəllim və valideyinlər birlikdə uşaqlar üzərində anlayışlı nəzarət qurmalıdırlar. onların düzün dostluq münasibətində olması onları daha doğru yola yönəldəcəkdir . Bunun üçün müəllim koperativ təlim üsullarından istifadə edərək əmin şagirdlərə əməkdaşlığı öyrədə bilər və həmçinin onlar üçün düzgün emosional şərait yarada bilərlər. Onların emosional intelekti inkişaf etdirilməklə onlara özlərini digər yollarla ifadə edə biləcəklərini göstərmək olar.

Bundan başqa hər məktəbin yetəri sayda psixoloqunun olması və onların daim fəaliyyətdə olması vacibdir. Onlar hər bir şagirdi yarımillikdə və illikdə psixoloji vəziyyəti yoxlamalı, qiymətləndirməlidirlər. Hətta lazım olduqda həmin şagirdlərin valideynləri ilə də görüş təşkil edilməli və onlara müxtəlif tövsiyyələr verilməlidir.

Bu yollarla zorakılığa meyilli şagirdlər üzərində qismən də olsa nəzarəti ələ almaq mümkündür. Bir müddətdən sonra isə artıq onlara tam şəkildə təsir göstərmək mümkündür.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://alinino.az/product/dostlari-nece-qazanmali-ve-insanlara-tesir-etmeli
   https://www.tipii.edu.az/noduploa d/editor/files/Zorak%C4%B1l%C4%B1q%20%20Kompasito(1).pdf
   https://sociologiademoda.net/az/psixoloji-zorakiliq-nedir-neticeler-novler-tecavuzkar-ve-daha-cox
2. https://sputnik.az/20240224/mekteb-zorakiligi-bunu-kim-ve-niye-edir--462828947.html
   https://medium.com/@nutgreen08/bullying-4fd98e82e45f

Quliyeva Zenfira Aqşin
Elmi rəhbər: Müəllim Abbasova Gülnur Oqtay qızı
Azərbaycan Dillər Universiteti

UŞAQLIQ TRAVMALARININ PSİXOLOJİ TƏRƏFLƏRİ

Uşaqlıq travmalarına "Uşaq tərəfindən emosional olaraq ağrılı və ya sıxıntılı olan, çox vaxt qalıcı psixi və fiziki təsirlərlə nəticələnən bir hadisənin yaşanması" kimi şərh verilir.

Çətin vəziyyətləri yaşamaq və onların öhdəsindən gəlməyi öyrənmək uşaqlıqda inkişaf və böyümənin normal bir hissəsidir. Bununla belə, uşağı öz təhlükəsizliyi üçün qorxuya salan hadisə və ya təkrarlanan hadisələr uşaqlıq travması ilə nəticələnə bilər.

Uşaqlıq travmalarına bir sıra hadisələr səbəb ola bilir:

Emosional istismar və ya laqeydlik

-Cinsi istismar

-Fiziki istismar

-Məişət zorakılığı, ruhi xəstəliyi olan valideyn və ya maddə asılılığı kimi evdə disfunksiya

-Valideyndən və ya qəyyumdan ayrılma

-Zorakılıq, müharibə və ya terrorizm

-Qəzalar

-Zorbalıq/kiber zorakılıq

-Sevilən birinin ölümü

Uşaqlar həyatı anlamaqda belə çətinlik çəkərkən travmalarının yaranması necə mümkün ola bilər?

Uşağın anlamadığı şeylərdən təsirlənməyəcəyi fikri düzgün deyil. Uşaq baş verənlərin məntiqini dərk etməsə belə, təhlükə və ixtilafı anlaya bilər və travmaya səbəb olan da budur. Araşdırmalar göstərir ki, hətta körpələr də ətrafdakı travmalardan, məsələn, baxıcılarının əziyyətindən təsirlənirlər. Əslində, uşaq böyüklərdən daha çox travmadan təsirlənə bilər, çünki onlar təhlükəni hiss edə bilirlər, lakin bunu böyüklər kimi özlərinə "izah etmirlər", yəni özlərini daha qorxulu və həssas hiss edirlər.

Uşaqlıq travmasının müalicəsi ambulator və ya stasionar travma müalicəsi mərkəzində aparıla bilər. Travmatik uşaqlıq xatirələri üzərində işləmək narahatlıq yarada bilər, belə ki, stasionar travma müalicəsi mərkəzində müalicə almaq, sağ qalan böyüklərin gecə-gündüz peşəkar dəstəyinə malik olması deməkdir. Travma müalicəsinin məqsədi ağrılı xatirələri silmək deyil, bu xatirələrin daşıdığı emosional yükü əhəmiyyətli dərəcədə azaltmaq və ya aradan qaldırmaqdır. Bu da öz növbəsində travma əlamətlərini xeyli azaldır və ya aradan qaldırır.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://cctasi.northwestern.edu/child-trauma/
2. https://www.nctsn.org/what-is-child-trauma/trauma-types/complex-trauma/effects
3. https://stm.az/news/392/usaqliq-travmalari-sexsiyyete-nece-tesir-edir-ekspert-rey

Raziyya Guluzadeh
Faculty of Education 2, Group: 221A
Scientific advisor: Eyyubova Aygul
Azerbaijan University of Languages

DİSCİPLİNE PROBLEMS AND WAYS OUT DURİNG TEACHİNG

What would Newton think if he knew his laws of motion is related to education system? According to Newton's first law of motion -every object will remain at rest or in uniform motion unless compelled to change its state by the action of an external force [1] To say it in a language so that everybody who hasn't been interested in physics can understand- if an object is in motion it will continue to move, if it's motionless it'll stay in the same state in the case of no force against the object. We can create a bond between Newton's first law and discipline. Force causes motion. Now we get the definition of discipline- control the way that you work, behave especially to achieve a goal. By digging deeper we will find further similarities between these two conceptions and also solve the current problems of discipline with a little help of physics.

Push the ball- create a motion by pushing objects in physics equals to motivating students in education. In order to create that action we need to get rid of particular qualities: lack of self confidence and negativity or being perfectionist. Doing assignments, working on a project students confront obstacles. They often want to break the chain of discipline and do not ever do it again. They often come to the result of not having an ability. It generally happens just because they are afraid of judgement or not accomplishing tasks properly. This is the process that involves an external Influence- teacher. In learning environment – teacher should accept any kind of ideas and results no matter what. After getting results, teachers can plan their lessons out to work on students' weaknesses without judging or intimidating. I love how Leonard Cohen sings "there is a crack in everything. That's how the light gets in" in his song called Anthem. No matter how many frictions are there on the surface, we need to push the ball.

Discipline is either an action or inaction. It's inertia. We need to change our attitude toward discipline. It's not a character, it's a mindset. Once you take off, you are going to fly- the problem holding most of us back is -not knowing the directions. Since standing still or moving both are in the first rule of motion- we can apply the same rule to discipline. So discipline is either action or inaction both creates a frequent process: the process of inaction, the process of action. In many cases after pushing the ball, it stops somewhere. This is the place we are going to separate our ways with Newton's first rule, since students have ability to start the motion themselves. That is the quality to be taught to students. (As a teacher)Little mistake on being too forceful or authoritative can turn subjects(students) to objects. In the new education networks, students are given chances to create their own system, get to know their special techniques. Unfortunately not many education centers use this. By solving the problem ourselves or hiring suitable teachers for positions can make a great change .After getting the taste of freedom: nobody to force or push you, students tend to move themselves: from creating schedules to journaling their days- they absorb discipline themselves. [2]

Just by looking at the problems, confronting the current reality we can now start the motion. Changing our opinions on discipline leads us to solution. This process not only evolves teachers but also students. To start a movement, at first we need a push, but after knowing ourselves better, there is nobody to do that for us, we need to act. The opportunity to make a change is in our hands, don't wait for an apple to fall, shake the tree, get it !

Reference list:

1. https://www1.grc.nasa.gov/beginners-guide-to-aeronautics/newtons-laws-of-motion/
2. Homo Deus -Yuval Noah Harari

Ağakişiyeva Aydan Niyaməddin
Təhsil-2 Qrup 221 A
Elmi rəhbər: müəl.Eyyubova Aygül
Azərbaycan Dillər Universiteti

İBTİDAİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN İNGİLİS DİLİ DƏRSİNİ MARAQLI ETMƏNİN YOLLARI

Müəllim bu gün tədris materiallarının müasir tələblər səviyyəsində mənimsənilməsi üçün yeni metodlardan səmərəli istifadə etməlidir. Qloballaşan dünyada ingilis dili ən aparıcı üstün dillərdən biridir və bu dili tədris etmək üçün müəllimin əlində istənilən qədər vəsait vardır. Azərbaycan məktəblərində ingilis dilinin aşağı siniflərdə tədris olunması vacibdir. Bu gələcəkdə şagirdlərin ingilis dilində sərbəst şəkildə danışmaları üçün yaxşı imkandır. İbtidai sinif şagirdlərə ingilis dilini tədris etmək göründüyü kimi asan deyil. İbtidai sinifdə vacib məsələ şagirdin xarici dili öyrənməyə marağının və həvəsinin oyadılmasıdır. Buna görə müəllimin üzərinə böyük məsuliyyət düşür. O, bir sıra metodlardan istifadə etməlidir. [2]

Şagirdlərə rəqəmləri, hərfləri və sözləri öyrətmək üçün oyun formasında təlimlər keçə bilərik. Məsələn, ingilis dilində ən çox istifadə olunan sözləri və ifadələri təşkil edən kartlardan istifadə edərək, şagirdlərin öyrənməyə təşviq edə bilərik. Bu öyrənməni daha maraqlı və əyləncəli hala gətirəcək. Oyunlar vasitəsilə ingilis dilini daha maraqlı hala gətirə bilərik [1]. Bunlardan biri "Simon says" və ya " teacher says" kimi oyunlardan istifadə edə bilərik. Bu oyunlar vasitəsilə şagirdlərə müəyyən əmrləri həll etmələrini tələb edərək ingilis dilində ifadələri praktik etmələrinə təmin edə bilərik. Məsələn, "Simon says touch your nose" və ya " teacher says stand up" deyərək şagirdlərə fərqli əmrləri yerinə yetirməyə təşviq edə bilərik. Başqa bir oyun isə " who am I" – dur. Bu oyun zamanı, hər bir şagirdə bir məşhur, şəxs, personaj və ya heyvanın adı yazılı kartlar verilir. Şagirdlərdən biri karta baxmadan üzünə tutaraq, digər şagirdlər kartın üstündəkini sözü ingilis dilində başa salmağa başlayır.

Müxtəlif məzmun və texnologiyalardan istifadə edərək dərsləri daha interaktiv və maraqlı hala gətirə bilərik. Misal üçün, edukativ videolardan və oyunlardan istifadə edərək öyrənmə prosesini daha maraqlı hala gətirə bilərik.

Uşaqlar üçün mahnılar və rəqslərin istifadə edərək, şagirdləri əyləncəli bir şəkildə dili öyrətməyə təşviq edə bilərik. Mahnıları dinləyib onların sözlərinin mənasını öyrənməklə və ya rəqsləri izləyərək ingilis dilindəki əsas ifadələri və sözləri öyrənməklə dili maraqlı edə bilərik.

Ədəbiyyat siyahısı:

1. Əhmədov H,Zeynalova N. Pedaqogika. Bakı, "Elm və Təhsil", 2021.
2. https://muallim.edu.az/news.php?id=1863

Samadova Leyla
Faculty of Education-2
Group: 221 A
Scientific advisor: Eyyubova Aygul
Azerbaijan University of Languages

THE ROLE OF THE TEACHER IN INTERACTIVE EDUCATION

These methods encompass the strategies and practices that teachers employ to present information, aid in understanding and assimilation, and facilitate learning. Teaching methods can be categorized into two main types: passive and active. In passive teaching, the teacher takes on the primary role and serves as the source of knowledge that students are expected to learn from.

In active teaching, an interactive teacher engages with students, listens to them, assists in independent problem-solving, and encourages mutual exchange of ideas through their own actions and behaviors.[1]

According to William Glasser, moving away from compulsion and the teacher-centered approach is necessary to achieve high-quality education that meets the needs of modern schools [Glasser, W., 1994, p.

25]. In his view, an interactive teacher who enables all students to become active participants in the learning process is essential.[2]

In interactive teaching, the role of the teacher involves performing the following functions to support student learning experiences:

1.Understanding students' interests and finding suitable teaching methods: The

teacher establishes communication with students to understand their interests and motivations. This primarily involves asking students questions to grasp their interests and determine the most suitable teaching methods for them.

2. Organizing the content of the lessons effectively and motivating students: The teacher organizes the content of the lessons in an engaging and interesting way for students. This includes selecting various teaching materials, structuring them effectively.Additionally, the teacher motivates students by making the lessons enjoyable and presenting them with different incentives and goals.

3. Participating in the evaluation and assessment of students' participation in the lessons: The teacher actively participates in evaluating and assessing students' participation in the lessons. This involves assessing students' engagement levels, providing them with feedback, and reviewing their performance.

4. Fostering students' self-development and self-confidence: The teacher supports students in developing their independence and self-confidence. The teacher provides students with positive and encouraging messages about their abilities, skills, and potential.

5. Developing teamwork and collaboration skills in lessons: The teacher

organizes activities that promote teamwork and collaboration skills in lessons. This includes group work, trainings, interactive games,and.The teacher teaches students how to exchange ideas, solve problems together, and work collaboratively.

6. Assisting students in managing their own learning process: The teacher helps students in managing their own learning process. This includes teaching students how to set learning goals, create study plans, organize their learning materials, and evaluate their own progress. The teacher provides guidance on effective learning methods, resources, and offers recommendations through lessons and advice. Teachers play a vital role in education, motivating students, adapting tasks, and ensuring effective supervision to improve the quality of education. They serve as role models, instilling values like patriotism, and have a significant impact on shaping the future of our youth. As Heydar Aliyev said, "I don't know of a higher title in the world than that of teacher."[3]

Reference lists:

1. https://skillbox.ru/media/education/chto-takoe-interaktivnoe-obuchenie-i-v-chyem-ego osobennosti/
2. https://www.researchgate.net/publication/304452803_The_role_of_the_teacher_in_interactive_teaching
3. https://avrasiya.net/sosial/72210-thsild-mullimin-rolu.html

Xəlilova Dilbər
Təhsil-2, Qrup: 221A
Elmi rəhbər: müəl. Eyyubova Aygül
Azərbaycan Dillər Universiteti

KURİKULUMUN ÖLKƏMİZDƏ TƏTBİQİNİN SƏMƏRƏLİLİYİ

Kurikulum latın mənşəli sözdür. Azərbaycan dilində tərcüməsi “ qaçış və ya qaçış yolu” deməkdir. Kurikulumun mənası tədris planıdır. İlk dəfə Kurikulum termini və anlayışı ABŞ ərazisində istifadə edilmişdir. Kurikulum ənəvi təhsil və tədris sisteminin daha təkmilləşdirilmiş və formalaşdırılmış formasıdır. [1]

Kurikulum Azərbaycanda 2008-ci ildən tətbiq olunmağa başlayıb. Ölkəmizin inkişafı, ictimaiyyətdə yeni faktorların yaranması və son zamanlar Azərbaycanda bəzi tədbirlərin keçirilməsi (İslam oyunları, Evrevision) Kurikulumun Azərbaycanda keçirilməsini vacib etmişdir. Təhsil sistemində bəzi yeniliklər və müasir tələblərin genişlənməsi nəticəsi ilə müasir Kurikuluma keçid edildi.

Hər bir fənnin özünəməxsus Kurikulumu vardır. Bu isə fənn kurikulumu adlanır. Fənn Kurikulumu ayrıca bir bölgüdür və ayrı qrupa aid edilir. Ən geniş məzmunlu “Milli Kurikulumdur”. Milli Kurikulum-

da təlim nəticələri, fənnlər, məşğələ saatları və şagirdlərin uğurları qeyd edilmişdir. Milli Kurikulumda tədrisin miqdarı çox vacibdir [2]

Ənənəvi təhsil proqramı və müasir kurikulum arasında böyük bir uçurum vardır. Azərbaycan təhsil sistemində istifadə edilən "Müasir Kurikulum" sərbəst fikir və düşüncə əsasında formalaşır. Təlimin birbaşa olaraq nəticələrinə köklənmişdir. Şagirdə bir şəxsiyyət olaraq önəm verir. Şagirdlərin tələb və istəkləri ön planda yer alır. Kurikulumun əsaslandığı amillərdən biridə təfəkkürdür. Çünki, müasiryönümlü təhsil sisteminin əsas vəzifəsi əvvəlcə şagirdin düşüncə və yaradıcılıq tərzini dəyişməkdir. Bütün bu amillər Kurikulumun ölkəmizdə tətbiqinin səmərəliyinə yol açır. Çünki, arzuolunan təhsil sistemi əsasən şagirdgyönümlüdür,yaradıcı təlimə əsaslanır və diqqət mərkəzi tədqiqatdır.

Ədəbiyyat siyahısı:

1. Turanə İsmayılova, Kurikulum, Yeni təlim texnologiyaları.
2. Əhmədov H,Zeynalova N. Pedaqogika. Bakı, "Elm və Təhsil", 2021.

Salmanlı Aytac Hüseynqulu q.
M23/115
Elmi rəhbər: dos. Qəribova Mehbarə Niftulla q.
Azərbaycan Dillər Universiteti

SÜNİ İNTELLEKTİN MÜASİR TƏHSİLƏ TƏTBİQİ

Azərbaycan digər avropa ölkələrinə inteqrasiyası dillərin öyrənilməsində müasir təlim texnalogiyaların tətbiqini tələb edir. Bu gün yalnız dil biliklərini mənimsəmə yox həm də dil bacarıqlarının mənimsənilməsi, formalaşdırılması təhsil sistemində tələb olunur. Sosial cəmiyyətdə dilin öyrənilməsi müasir dövrün ən aktual mövzusuna çevrilmişdir. Çünki dünya globallaşır, ölkələr bir-biri ilə inteqrasiya edir və bu səbəbdən nəinki dili biz dərsliklərdən, həmçinin müəllimlərdən və digər texnalogiya vasitələrdən öyrənilməsi zəruridir. Dilin öyrənilməsində internetin və bir sıra programların rolu böyük olmasına baxmayaraq son illər süni intellektin istifadəsinə üstünlük verilir. Süni intellekt nədir? Süni intellekt insanların və ya heyvanların intellektindən fərqli olaraq maşın və ya proqram təminatının intellekti kimi nəzərdə tutulur. Süni intellekt tətbiqlərinə qabaqcıl veb axtarış mühərrikləri(Google axtarış sistemi), tövsiyə sistemləri ("YouTube", "Amazon", "Netflix"), insan dilinin anlayışı ("Siri", "Alexa"), özügedən avtomobillər ("Waymo"), generativ və ya yaradıcı alətlər ("ChatGPT"), strateji oyunlar da daxildir.

Süni intellekt 1956-cı ildə akademik fənn kimi təsis edilmişdir. Bu sahə optimizm dövrlərindən keçmiş, sonradan məyusluq və maliyyə itkisi yaşamış, lakin 2012-ci ildən sonra dərin öyrənmə bütün əvvəlki süni intellekt üsullarını üstələmiş, beləliklə bu sahədə maliyyələşmə və maraqda böyük artım müşahidə edilmişdir.

Süni intellekt tədqiqatının ənənəvi məqsədlərinə əsaslandırma, biliyin təqdim edilməsi, planlaşdırma, öyrənmə, təbii dilin emalı, qavrayış və robototexnikaya dəstək aiddir. Süni intellektdən psixologiya, linqvistika, fəlsəfə, nevrologiya və bir çox başqa sahələrdə də istifadə edilir.

Təhsil sistemində süni intellektin tətbiqinə ilk töhfə verənlər arasında Sidney Presseyin fikrinə görə, bu mexanizmlər nəinki tələbələrin test nəticələrini dərhal göstərirdi, eyni zamanda onların lazımi biliklərlə təmin olunmasına da şərait yaradırdı. Pressey süni intellektin təhsildə tətbiq olunmasına şərait yaradan mexanizmin yalnız tələbələr üçün yox, eyni zamanda müəllimlər üçün də əlverişli olduğunu bildirmişdir.

Bəzi müəlliflərin fikrincə, süni intellekt sahəsindəki inkişaflar öyrənməni daha da fərdiləşdirəcək, tələbələrə öz istedadlarını kəşf etməyə, yaradıcılıqlarını təkmilləşdirməyə, həmçinin müəllimlərin iş yükünü azaltmağa yardımcı olacaq. Onlar həmçinin süni intellekt tətbiqinin cəmiyyətdən təcrid olunmuş və məktəbə getməyən insanlar, əlillər, qaçqınlar üçün də əlverişli olacağını düşünürlər. Lakin bunun əksini düşünən araşdırmaçılar da var. Belə ki, onlar müəllimin rolunun kompüterə ötürülməsini gələcək üçün risk olaraq qiymətləndirirlər.

Texnologiyanın təhsilə gətirdiyi çoxsaylı üstünlüklərə baxmayaraq, onun ali təhsil müəssisələrinə təsiri ilə bağlı narahatlıqlar da var. Onlayn təhsilin yüksəlişi və internetdə təhsil resurslarının artan əlçatanlığı ilə bir çox ənənəvi universitetlər və kolleclər öz institutlarının gələcəyindən narahatdırlar.

Nəticədə, bir çox ali təhsil müəssisələri sürətli texnoloji dəyişikliklərlə ayaqlaşmaq üçün köməyə ehtiyac duyurlar və rəqəmsal əsrə uyğunlaşmaq və aktual qalmaq yollarını axtarırlar.

Hazırda süni intellekt təhsildə müxtəlif yollarla, 24/7 tələbə dəstəyini təmin edən chatbotlardan tutmuş, hər bir tələbənin ehtiyaclarına uyğunlaşan fərdiləşdirilmiş öyrənmə alqoritmlərinə qədər istifadə olunur. Təhsildə süni intellektdən istifadənin bir çox faydaları olsa da, məhdudiyyətlər və problemlər həll edilməlidir. Ən böyük problemlərdən biri süni intellektlə işləyən alətlərin və platformaların sosial-iqtisadi statusundan və ya yerindən asılı olmayaraq bütün tələbələr üçün əlçatan olmasını təmin etməkdir. Bundan əlavə, bir çox pedaqoqlar süni intellektlə işləyən vasitələrin insanların qarşılıqlı əlaqəsini əvəz edə və sinifdə tədrisin keyfiyyətinə təsir edə biləcəyindən narahatdırlar. Süni intellekt pedaqoqu əvəz edən deyil, əksinə onu formalaşdıran, tamamlayan və istifadə olunmasını təmin edən mühüm bir vasitədir. Qeyd edək ki, internet vasitəsilə təhsil və resurslarının əlçatanlığı, sosial-iqtisadi vəziyyətdən və ya yerləşdiyi yerdən asılı olmayaraq, bütün tələbələrin bu resurslara çıxışını təmin etmək müasir təhsilin əsas məqsədidir.

İstifadə olunmuş ədəbiyyat

1. AHMAD, S. F., RAHMAT, K., MUBARİK, M. S., ALAM, M. M., HYDER, S. I. (2021). "Artificial Intelligence And Its Role In Education", Sustainability, Vol: XIII (No: XXII).
2. ARNETT, T. (2016). "Teaching In The Machine Age: How Innovation Can Make Bad Teachers Good and Good Teachers Better", Christensen Institute.
3. ARSLAN, K. (2020). "Eğitimde Yapay Zeka ve Uygulamaları". Batı Anadolu Eğitim Bilimleri Dergisi, Vol: XI (No: I), ss. 71-88.
4. BREAZEAL, C. (2002). Designing Sociable Robots. Cambridge: MIT Press.
5. COPELAND, J. (2004). The Essential Turing . New York: Oxford Universit

Şixəliyeva Məryəm Valeh qızı
Filologiya fakültəsi, 439B,
Elmi rəhbər: m. Qəhrəmanova Zəhra Abbas qızı
Azərbaycan Dillər Universiteti

AŞAĞI SİNİFLƏRDƏ DİNLƏMƏ VƏRDİŞLƏRİNİN YARANMASI

On bir illik məktəb təhsilinin ilkin pilləsi, rəsmi təhsil həyatının başlanğıcı ibtidai sinifdən başlayır. Aşağı sinifdə təhsil alan şagird hesablamağı, cümlə qurmağı öyrənməzdən öncə gördüklərini adlandırmağı öyrənir. Ətraf mühiti müəyyən qədər dərk etdikdən sonra tənqidi təfəkkür inkişaf etməyə başlayır. Təfəkkürün inkişafında daha effektiv nəticələr əldə etmək üçün şagirdlərə öyrəndikləri hər məlumatın niyə və nə üçün sualları izah olunur. Effektiv dərs təşkil etmək üçün, öncəliklə şagird öyrənəcəyi məlumatı nə üçün öyrənməli olduğunu başa düşməlidir. Çünki məqsədi olmayan bir dərs öyrənənlər üçün uyğun effektiv nəticəni vermir.

Dərs izahından sonra aşağı sinif şagirdlərinin öyrənmə mühitində dinləməyə davam etməsi müəyyən qədər çətindir. Öncəliklə danışarkən bir başa göz kontaktı qurmaq şagirdlərdə dərsə qarşı diqqət yaradır və həmçinin onlar dərs prosesinə aktiv cəlb olunurlar. Wanna Play'in aşağı siniflərdə dinləmə vərdişləri ilə bağlı fikirlərinə əsasən: "Şagird sizi dinləyərkən jestlərdən istifadə edin. Əgər dərs prosesi zamanı şagird göz təmasını itirirsə, yenidən göz təması qurana qədər danışmağı dayandırın." ([2.s.49])

Göründüyü kimi göz kontaktının qurulması vacibdir. Bəzi şagirdlərlə uzun müddət göz kontaktı qurmaq mümkün olmur. Buna səbəb şagirdlərin həssaslığı ola bilər. Lakin danışarkən dinləyənin gözlərinə baxmaq, şagirdə onun dinləməyinin qarşısındakı üçün vacib olduğu mesajını verir. Bu hiss isə xüsusən aşağı sinif şagirdləri üçün əsas və həvəsləndirici faktordur.

Uyğun öyrənmə mühiti yaradıldıqdan sonra interaktiv dərs metodlarından istifadə oluna bilər. İnteraktiv dərs metodları tədris prosesini daha da canlı edir. Müasir dövrdə dərs mühiti müəllimyönümlü, ənənəvi tədris metodundan tamam uzaqlaşır. İnteraktiv metodlar və digər vasitələrlə şagirdyönümlü təhsil üzərində bir sıra işlər görülür. Dinləmə və ya digər əsas bacarıqlarla əlaqəli bir sıra interaktiv metodlar vardır.

Dinləmə prosesi mətn materialı üzərində aparılırsa, müəllim digər səhifədə hansı hadisələrin baş verə biləcəyini şagirdlərdən təxmin etmələrini istəyə bilər. Təxəyyülərinin vasitəsilə söylədiyi fikirlərinə diqqət verilməsi xüsusən ibtidai sinif şagirdlərində həvəs yaradır və onları maraqla dinləməyə sövq edir.

Başqa bir interaktiv metod hekayə zəncirinin yaradılmasıdır. Şagirdlər bir-birinin fikirlərini dinləyərək, hekayəyə ardıcıl hadisələr əlavə edə bilərlər. Bu zaman digər addımı öyrənmək üçün yoldaşlarını dinləməli və öz hekayə gedişatına uyğun mətnin davamını gətirə bilərlər. Dinləmə prosesini daha da effektiv etmək üçün yaddaş kartlarından, şəkillərdən, asan başa düşülən cədvəllərdən istifadə oluna bilər. Vizual öyrənmə tədris prosesində şagirdlərdə gördüklərini aydın təsvir etmə bacarıqlarının yaranmasına köməklik edəcəkdir. Eyni şəkil haqqında bir neçə şagirdə müraciət edərkən, onlar müxtəlif fikirlər səsləndirmək üçün yoldaşlarını da dinləməli olacaqlar.

Başqa bir üsul dinləmə audio materiallar istifadədir. Ümumi sinifin maraq dairəsi nəzərə alınaraq diqqətlərini çəkmək üçün video halında dinləmə materiallarından istifadə oluna bilər. Videoda altyazılar olarsa dinlədiklərini aydın görə və göz yaddaşı ilə müəyyən sözləri anlayıb yadda saxlaya bilərlər. Dinlədikləri materialları bir yerdə səhnəcik şəklində canlandırmaq da mümkündür. Səhnələri canlandırmaq üçün isə şagirdlər dəfələrlə eyni materiala qulaq asmalı, uyğun dildə sözlərə, vurğulara diqqət yetirməlidirlər. Şagirdlər bu kiçik səhnəciklər vasitəsilə sadə qəlib söz və ifadələri öyrənə bilərlər.

Bundan başqa birlikdə uyğun dildə mahnılar səsləndimək mümkündür. Mahnıları dinləyərkən oxuyanın musiqi ritmi ilə sözləri istifadə etməsinə daha çox diqqət olunacaqdır.

Lakin xatırlayaq ki, aşağı sinifdə olan şagirdlərin dərsə diqqətini vermə müddəti xeyli azdır. Buna görə də öyrənmə, dinləmə prosesinin əyləncəli və fərqli olmasına diqqət yetirilməlidir. Hansı dildə olursa olsun xüsusən aşağı sinif şagirdlərində dinləmə vərdişi yaratmaq üçün öncəliklə şagirdlərin maraqları nəzərə alınmalıdır, daha sonra isə müxtəlif interaktiv üsullardan istifadə və davamlılıq hər bir şagird üçün dinləməni faydalı bir vərdişə çevirəcəkdir.

Ədəbiyyat siyahısı:

1. 8 Listening Activities for Kids (məqalə)
2. Wanna Play “Friendship skills for Preschools and Elementary grades”, 2006, 49 səh.
3. Research Gate(məqalə), 2019, 21 səh.

Qasımova Jalə Xaləddin qızı
Elmi rəhbər müəllim: Abdinova Fidan İlqar qızı
Azərbaycan Dillər Universiteti

YETKİNLİK VƏ QOCALIQ YAŞI DÖVRÜNDƏ BÖHRAN ƏLAMƏTLƏRİ

“Orta yaş böhranı” təxminən 40-60 yaş arasında baş verir. Həyatın bu mərhələsi ilə bağlı ümumi inanclardan biri budur ki, şəxsiyyətiniz, həyat seçimləriniz və ölümlə bağlı daxili qarışıqlıqlarla qarşılaşacağınızı gözləməlisiniz. Psixoanalitik Elliot Jak “orta yaş böhranı” terminini 1960-cı illərdə işlətmişdir. Jak qeyd etdi ki, 30-cu yaşların ortalarında və sonlarında olan xəstələr öz ölümləri ideyası ilə üzləşdikcə depressiv dövr və qəfil həyat tərzi dəyişiklikləri keçirmiş kimi görünürlər. Bu böhranının bioloji əminlik olması fikri yayıldı. İndiki vaxtda bu, adətən orta yaşlı kişilərin cavanlıq hissini bərpa etmək üçün dəbdəbəli avtomobillər alması və ya evliliklərini bitirməsi stereotipləri ilə əlaqələndirilir. Düzdür, bəzi tədqiqatlar insanlar orta yaşa çatdıqca həyatdan məmnunluq və xoşbəxtlikdə azalma olduğunu göstərir. Və bəzi tədqiqatlarda insanların həyatdan məmnunluqlarının yetkinlik yaşa daxil olduqları zaman yüksəldiyi, sonrakı illərinə daxil olduqda isə azaldığı görünür. Beləliklə, bir çox insanlar üçün "böhran" onların yetkin yaş təcrübəsini təsvir etmək üçün uyğun termin deyil. Tədqiqatlarda böyüklərin yalnız 10-20 faizi bu böhranı yaşadığını iddia edir. Yetkinlik böhranının qaçılmaz bir reallıq olması ideyası o qədər də əhəmiyyət kəsb etməsə də, bəzilərimiz bu illərə girərkən yeni stresslərlə üzləşirik. Karyera yolunuzdan peşman olmağa və maliyyə qərarlarınızla tələyə düşməyə başlaya bilərsiniz, fiziki qabiliyyətlərinizin azalmasından narahat ola bilərsiniz və ya əldən verdiyiniz məqsədlərə görə narahat ola bilərsiniz. Bəzi insanlar orta yaşa çatdıqca məsuliyyətlərdə dəyişiklik və ya artım görürlər. Siz qocalmış valideynə qulluq etməyə başlaya bilərsiniz və ya məsələn, uşaqlarınızın daha müstəqil olduğunu qəbul etməli ola bilərsiniz. Şəraitinizdən və dünyagörüşünüzdən asılı olaraq, bu, stresli və çaşqın bir vaxt ola bilər. Ancaq orta yaş həm də böyümə, sabitlik və sevinc dövrü ola bilər. Böhranının əlamətlərini və səbəblərini öyrənmək, həyatınızın bu vaxtı ilə gələn ümumi stressorlarla mübarizə yollarını müəyyənləşdirməyə və irəliləmək və inkişaf etmək yollarını tapmağa kömək edə bilər. [4, s.70-86]

Qocalıq böhranının əlamətləri:

Dərin kədər və təəssüf. Ola bilsin ki, siz münasibətlərdə və ya məşğulluqda əldən verilmiş imkanlar barədə fikirləşirsiniz. Bu, indiki vaxtdan dərin bir bədbəxtliyə və həyatınızın yaxşı tərəflərini görməməzlikdən gəlməyə səbəb olur.

Qıcıqlanma. Keçmiş qərarlarınızın sizi darmadağın etdiyini və ya potensialınızı məhdudlaşdırdığını hiss etmək qəfil qəzəb hücumlarına səbəb ola bilər.

Nostalji. İndiki zamanın müsbət cəhətlərinə diqqət yetirməkdənsə, keçmiş həyat tərzinizi ideallaşdırmağa başlayırsınız. Bəlkə siz əvvəllər nə qədər atletik olduğunuzu və ya kollecdə sosial dairənizin nə qədər geniş olduğunu xatırlayırsınız. [1, s.96-98]

Orta yaş böhranının əlamətlərinə aşağıdakılar daxildir:

- Əldə olunmamış məqsədlərə görə peşmançılıq hissi
- Davranışda dramatik dəyişikliklər, məsələn, işi tərk etmək və ya həyat tərzində kəskin dəyişikliklər etmək. [1,s.99-105]

Yetkinlik və qocalıqda böhranin təzahürlərindəki fərqlər: 1) orta yaş böhranı subyektin bütün psixi dolğunluğu mərhələsində yaşanır; qocalma böhranı – fiziki və psixoloji imkanların tükənməsi dalğasında; 2) 30 yaş böhranının mərkəzi fərdiləşmə prosesidir; qocalma böhranının mərkəzi insanın öz həyatını mümkün və yalnız mümkün kimi qəbul etməsidir; 3) hər iki böhranın ortaq xüsusiyyəti identifikasiya təcrübəsidir, lakin yetkinlik böhranında gələcəyin modelləşdirilməsi üçün istifadə olunur "Mən-əks halda", qocalma böhranında isə "Məni olduğu kimi" qəbul etmək üçün.;

4) yetkinlik böhranının bütün çevrilmələri potensial gələcəyə, kənara yönəldilir; qocalma böhranının çevrilmələri mövzunu keçmişə və öz daxili dünyasına çevirir. [4, s.455]

İstinadlar:

1. Dollinger, S. J. "Unikallığa ehtiyac, idrak ehtiyacı və yaradıcılıq. Yaradıcı davranış jurnalı" (2003), s.37, [99-116]
2. Erikson, E. "Childhood and society" (2000), s.280
3. Caspi, A., Roberts, B. W., Shiner, R. L. "Şəxsiyyətin inkişafı: Sabitlik və Dəyişiklik" (2005), s.56, [453-484]
4. Kosyakova, O. O. " Age crises." (2007), s.150
5. Styuart-Hamilton, I. "Yaşlanma Psixologiyası" (2010), s.87

Kəlbəliyeva Adilə Fuad qızı
Elmi rəhbər:baş müəllimi Ələkbərova Məhbubə
Azərbaycan Dillər Universiteti

PEŞƏ SEÇİMİNƏ TƏSİR EDƏN AMİLLƏR

İnsan həyatını ən çətin və ən vacib qərarlarından biri peşə seçimidir. Əsasəndə bizim coğrafiyada peşələr gələcəyin zəmanəti əllimizdəki "qızıl bilərzik" kimi səciyyələndirilir. Seçim nə qədər önəm daşıyarsa, ətraf təsirlər yəni digər şəxslərin fikri də bu mövzu ilə bağlı bir o qədər çox olar. Buna görədir ki, bu gün peşə seçimi valideynlərin öz övladları qədər maraqlı olduğu mövzulardandır.

[2] Günümüz cəmiyyətində ən vacib problemlərdən biri sosial status və iqtisadi durum məsələsi. Valideynin sosial mədəni vəziyyəti uşağın öz bacarıqlarını aşkara çıxardıb inkişaf etdirməsinə və bu sahə üzrə təhsil almasına mane olur. Düşünsək ki, ölkəmizdə hər bir vətəndaşın azad təhsil haqqı var amma maliyyə cəhətdən çətinlik çəkən tələbələrin istədiyi belə desək "yaxşı ixtisaslar" üçün ya müəyyən bal həddini keçməli ya da valideynləri yüksək təhsil haqlarını ödəməlidirlər. Bununla yanaşı imtahan hazırlıq müddətinində müəyyən büdcəsiz keçinə bilməyəcəyini bilirik. Bununla bərabər bu çətin vəziyyətlə bərabər cins faktoru, cəmiyyət gözləntiləri vardır. Yəni bir qızın cinsi faktorlara görə peşə seçimində bir çox ixtisasın çıxarıldığını, yaxud valideynlərin tərəfdən heç adları belə çəkilmədiyini demək o qədər də təəccüblü deyil. Nə qədər təəssüf yaradan məsələ olsada cəmiyyətimizdə " qadın sənəti" deyilən bir məhfum vardır. [5]Cəmiyyətimizdə oğlan övladıları peşə seçimində qız övladlarından 10 addım öndədirlər. Bunu daha çox keçmişin bizə buraxdığı oğlun soy davamçısı və ata, ailə tərəfindən ötürülən haqlara sahib kimi baxılır. Ölkəmizdə qızlarımızın təhsil haqlarının təəssüflər olsun ki, valideynləri tərifindən alındığı və yenə çox təəssüflər olsun ki, hələ uşaqikən evləndirilməyə layiq görüldüyü cəmiyyətdə yaşayırıq. Yəni

bu halda niyə bir qızın əlla təhsil keçmişinə rəğmən hüquqşünas və ya müstəntiq olmayıb ibtidai sinif müəlliməsi olduğunu müzakirə eləmək yersiz olardı.[1] Hazırda ölkəmizdə peşə təhsilində Sinqapur təcrübəsi öyrənilir. Hazırda Sinqapur təhsili dünya üzrə ən ön sıralarda yerləşən təhsil sistemlərindən biridir. Sinqapur təhsil sistemi uğurunu İngiltərə kurikulumuna borcludur. Sistemin əsası bu kurikulum sistemindən götürülüb. Təhsil 12 illikdir və ilk başdan siniflər dərk etmə, bacarıq səviyyələrinə görə 3 qrupa bölünür. Yuxarı siniflər isə A səviyyəli şagirdlər və normal şagirdlər olmaqla 2 yerə bölünürlər. A səviyyəlilər Universitetlərə hazırlaşır, normal sinif şagirdləri isə peşə öyrənməyə fokuslanırlar. Əsas üç imtahan sistemi vardır. İmtahanlar dərs yükü getdikcə çətinləşir. Buna görə yaxın illərdə Siqapur hökuməti dərs yükünü azaltmışdır. Bunu rəğmən Sinqapurda valideynlər dərsdən sonra əlavə hazırlıq kurslarına övladlarını göndərirlər. Bunun səbəbi olaraq onlar düşünürlər ki " məktəb kifayət qədər təhsil verir, amma mükəmməl təhsil üçün, həmçinin gələcək seçimlərinə təsir edəcək imtaha nəticələri üçün yeniliklərə ehtiyyac vardır". Bu fikrin arxasında həmçinin asiya xalqlarına mənsub olan "mənim övladım daha yaxşı nəticələrə sahib olmalıdır" düşüncəsi, güclü rəqabət dayanır.

Həmçinin Sinqapur hökuməti müəllim peşəsinə çox diqqət edir. Hər bir Pedaqogika fakultəsini bitirən şəxs 2 illik müəllim bacarıqlarını inkişaf etdirən kurs keçməli və sertifikat almalıdır. Əgər müəllim imtahanı uğurla bitirə bilərsə təhsil haqqını dövlət özü ödəməli olur

Bununla biz deyə bilərik ki, Sinqapur təhsili əzbəri təhsilə deyil, bacarıqları inkişaf etdirən, nəticəyə əsaslanan təhsilə önəm verir. Hətta belə bir şüar vardır-" Düşünən məktəblər, öyrənən millət". Biz də bu təcrübəyə əsaslanıb bacarıqların inkişaf etdirən və sosial-iqtisadi, cinsi bölgüləri aşan təhsil mühiti yaratdıqda bütün bu faktorlar aradan qalxacaq.

İstinadlar

1. Azərbaycan müəllimi- "Sinqapur təhsili – daha çox öyrət, daha çox öyrən" məqaləsi.
2. Narınc psixologiyası mərkəzi- " Şagirdlərin peşə seçimində valideynlərin təsiri" məqaləsi
3. Kaspi qəzeti- " Sizdə həkim və ya müəllim olun" məqaləsi
4. "Ümumi təhsil müəssisələrində peşəyönümü xidmətin təşkili" vəsaiti
5. 525-ci qəzet-" Gənclərin peşə seçimində valideyn təsiri aktuallaşıb" məqaləsi

Manaflı Ləman Anar qızı
Filologiya fakültəsi, qr. 343
Elmi rəhbər: p.f.d., dos. Vidadi Bəşirov
Azərbaycan Dillər Universiteti

MÜASİR MÜƏLLİMİN STATUSU

Mən Azərbaycanın sadə vətəndaşıyam. Bu addan yüksək ad yoxdur.
Ancaq bundan da yüksək ad müəllimlikdir.
Heydər Əliyev

Müəllimliyin şərəfli peşə olmağı Ulu öndərin müdrik kəlamlarında öz əsasını təşkil etmişdir. O, müəllimi milli sərvət hesab edirdi. Ona görə də, mən epiqraf olaraq Ulu Öndərimizin kəlamından istifadə etməyi özümə mənəvi borc bildim. "Mənə hərf öyrədənin köləsi olaram". Bu cümlə Həzrəti Əliyə məxsusdur. Bu cümlənin içində çox hisslər, duyğular yatır. Həzrəti Əli də müəllimlik sənətini çox yüksək qiymətləndirmişdir. Müəllimlik peşəsini bu cümləsi ilə o, çox yüksəklərə qaldırmışdır. Bunu anlamaq üçün biz ilk öncə bilməliyik ki, dünyada nəcib peşələr çoxdur. Lakin burda bir həqiqət vardır ki, hər bir peşə sahibi öz peşəsi ilə bağlı dərinlikləri, incəlikləri müəllimdən öyrənir. Hər kəsə müəllim demək olmaz. Xaricən müəllim yox, daxilən də müəllim olmağı bacarmalıdır əsl müəllim. Deyirlər ki, hər bir insanın taleyində müəllimə yer vardır. Ona ilk "ana" yazmağı öyrədən, əlindən tutub hərfləri yazdıran, ona vətənə sevgini öyrədən şəxsi kim unudar? Heç kim. Bizim hər bir uğurumuzun arxasında müəllim durur. Elə buna görə də cəmiyyətdə müəllimlik çox şərəfli, müqəddəs peşədir. Çünki müəllim vətən üçün övlad, cəmiyyət üçün şəxsiyyət yetişdirir. Bunun məsuliyyəti müəllimin öhdəsindədir. Valideynlə bərabər müəllimlər uşağın dərdinə, sevincinə şərik olub, uşağın hər cür şıltaqlığına, əziyyətinə dözürlər. Hər bir müəl-

lim öz xoş hərəkətləri, xoş münasibəti, təmiz əxlaqı, nümunəvi davranışı və savadı ilə həyata yeni qədəmlərini qoymuş 6 yaşlı uşağın valideynlərindən sonra ilk nümunə götürəcəyi şəxsdir. Müəllim uşağa tək bilik yox, həyatı da başa salır. Onu cəmiyyətə hazırlayır, onun bir şəxsiyyət kimi formalaşması üçün əlindən gələni edir. Buna görə də müəllimlik ən şərəfli, ən müqəddəs, ən çətin və bir o qədər də gözəl peşədir. Bu gün müəllimin statusunu və peşə biliyini zənginləşdirmək həyatın tələbidir.

Hər bir tələbə öz məram və məqsədini bu şərəfli və müqəddəs peşə ilə bağlamaqda böyük missiyanı öz üzərinə götürür. Xüsusən, indiki şəraitdə xarici dillərin tədrisi ilə məşğul olmağı öz həyatının mənası bilən bu günün tələbəsi sabahın peşəkar müəllimi olacağına tam əminliklə yanaşmalıdır. Ümummilli liderimiz, ulu öndər Heydər Əliyev çox haqlı olaraq deyirdi ki, "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir". Odur ki, "müəllim seçdiyi peşəyə dəyər verməli, daim üzərində çalışmalı, ən yüksək səviyyəyə çatdırmalıdır. Şagirdlərin (tələbələrin) həyatda layiqli yer tutması, şəxsiyyət kimi formalaşması, vətəninə, dövlətinə, millətinə layiq vətəndaş olması üçün onlara daim həssaslıqla yanaşmalıdır" [2, s. 59].

Bunu isə bizdən həyat və zaman tələb edir.

Ədəbiyyat:

1. http://www.anl.az/down/meqale/az muellimi/2010/dekabr/145271.htm
2. Əhmədov H.H., Zeynalova N.E. Pedaqogika. Bakı, "Elm və təhsil", 2021

Qənbərli Məhin Əli qızı
Elmi rəhbər : b.m Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN MƏKTƏBLƏRİNDƏ SOSİAL-MƏDƏNİ ÇATIŞMAZLIQLAR

Sosial-mədəni mühit insanı əhatə edən, onun formalaşmasının sosial, maddi və mənəvi şərtləridir. Mədəni mühitin müsbət inkişafı təhsildən asılıdır. Yəni təhsilin keyfiyyətli olması mədəni-mühitə müsbət əsir edir. Təbii ki, bu təsir Azərbaycan məktəbləri üçün də keçərlidir. Mədəni mühiti xarakterizə edən əsas amil mədəni səviyyədir.

Sosiomədəni mühit şagirdin mədəni normalara uyğun tərbiyəsinə, təhsilinə və inkişafına pedaqoji dəstək təmin edən mədəni, maddi-mənəvi şərait və təsirlərin məcmusudur. Azərbaycan məktəblərinə nəzər salsaq ilk olaraq "təhsildə sosial-psixoloji xidmət"in keyfiyyətini misal göstərmək olar. Belə ki, təhsildə şagirdlərin şəxsiyyət kimi formalaşmasında əsas amil kimi götürülən psixoloji xidmətin düzgün təşkil olunmaması öz fəsadlarını göstərir. Məktəblərdə psixoloqların şagirdlərlə psixoloji söhbətlərin, psixoloji testlərin, davranış analizinin aparılmaması sosial-mədəni mühitə mənfi təsir göstərir.

Sosial mədəni mühitə mənfi təsir edən amillədən biri də, asudə və dərsdənkənar vaxtın düzgün təşkil olunmamasıdır. Cəmiyyətimiz üçün sağlam əqidənin formalaşması, şagirdlərin müsbət əxlaqi dəyərlərə malik olması vacib məsələdir. Bunun təməli isə məktəblərdə qoyulmalıdır. Məktəb sadəcə bilik və bacarıqlara yiyələnmək üçün yox, həm də, bununla yanaşı şagirdlərin şəxsiyyət kimi formalaşması üçün olan sosial institutdur. Şagirdlərin maraqları nəzərə alınmalı, onların yaradıcı qabiliyyətlərinin üzə çıxarılması üçün asudə vaxtın və dərsdənkənar vaxtın səmərəli təşkil olunması cəmiyyətimiz üçün sosial-mədəni mühitin inkişafına gətirib çıxaracaqdır. Buna misal olaraq şagirdlərin dərnəklərə, idmana, musiqiyə yönləndirilməsini göstərmək olar.

Sosial-mədəni mühitin təşkilində məktəb-valideyn, valideyn-müəllim əlaqələrinin möhkəmləndirilməsi şagirdin düzgün istiqamətləndirilməsi üçün vacib amildir. Bunun üçün isə məktəblərdə sosial müəllimlər öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidirlər. Çünki sosial müəllimin vəzifələrinə şagirdləri müşahidə etmək, əgər problem varsa problemin yaranma səbəblərini və problemin həll yollarını tapmaqdır. Bunun üçün isə sosial müəllim valideynlərlə, müəllimlərlə, məktəb psixoloqu hətta məktəb rəhbərliyi ilə sıx əlaqədə olmalıdır.

Məktəbdaxili mühitdə sağlamlığın önəm daşıması,təhlükəsizliyin yüksək keyfiyyətlə təmin olunması bütün sadaladıqlarımıza əlavə oluna bilər. Çünki şagird özünü nə qədər güvəndə hiss edərsə o qədər də xoşbəxt və rahat hiss edər. Məktəblərdə şagirdlərin pis vərdişlərə yiyələnməsinin, şagird cinayətlərinin,

intaharların qarşısının alınması məqsədi ilə məktəblərdə mühafizənin düzgün təşkil olunması sosial-mədəni mühitə təsir edən vacib məsələlərdəndir.

Ədəbiyyat

1. Hüseynova Ş. Yeniyetmə və gənclərin asudə vaxtının təşkili.
2. Müasir mədəni mühit və bədii təhsilin inkişafı.22 aprel 2011.Camal Rzayev.
3. Nəzakət İmamverdiyeva.Bakı Dövlət Universitetinin Pedaqogika kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru

Magistr Hacıyeva Ülkər Malik qızı,
Təhsil fakültəsi, qrup 143
Elmi rəhbər: b/m Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

ƏMƏKDAŞLIĞA ƏSASLANAN TƏHSİL PROQRAMLARININ MƏKTƏBDAXİLİ ZORAKILIĞIN AZALDILMASINDA ROLU

Zorakılıq nədir? Zorakılıq anlayışına Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) aşağıdakı kimi tərif verir: zorakılıq - özünə, digər şəxsə, bir qrup insana, icmaya qarşı yönələn və nəticədə cismani zədələr, ölüm, psixoloji travma, inkişafın pozulması və ya digər formada zərər vuran (yaxud böyük ehtimalla güman olunan) həqiqi və ya hədə şəklində qəsdən edilən fiziki qüvvə və ya səlahiyyətin tətbiq edilməsidir [4,s.5].

Zorakılıq bütün dünyada mövcud olan qlobal bir problemdir. Hazırda cəmiyyətdə istənilən sahədə zorakılıqla qarşılaşmaq mümkündür. Lakin məktəbdaxili zorakılıq xüsusi əhəmiyyət kəsb edir. Təəssüf ki, son illərdə yeniyetmələr arasında məktəbdaxili zorakılıqlar artmaqdadır. Bu problemin həlli üçün ilk olaraq diaqnoz aparılmalı və onun səbəbləri araşdırılmalıdır. Çünki yalnız səbəbləri aşkarlandıqdan sonra zorakılıq problemi öz həllini tapa bilər.

Gün keçdikcə artan bu problemin həllini tapmaq üçün tədqiqatlar aparılır, müxtəlif proqramlar tərtib olunur. Bunlardan biri də əməkdaşlığa əsaslanan təhsil proqramlarıdır. Əməkdaşlığa əsaslanan təhsil proqramlarına həmyaşıdların vasitəçilik proqramları (Peer Mediation Programs), əməkdaşlığa əsaslanan öyrənmə proqramları (Cooperative Learning Programs), əməkdaşlığa əsaslanan problemlərin həlli proqramları (Collaborative Problem-Solving Programs), komanda əsaslı öyrənmə proqramları (Team-Based Learning Programs) kimi proqramları aid etmək olar. Bu proqramlar yeniyetmələrin bir-birini dəstəkləməsinə, yaranan konfliktləri sülh yolu ilə həll etməyə imkan yaradır. Onlarda sosial və əməkdaşlıq bacarıqlarını inkişaf etdirir. Məhz əməkdaşlığa əsaslanan təhsil proqramları sayəsində yeniyetmələrdə empatiya, bir-birini anlama kimi keyfiyyətlər formalaşdırılır və bununla da gələcəkdə yarana biləcək problemlərin sülh yolu ilə həlli təmin edilir və zorakılığın qarşısı alınır.

Uşaqlarda və yeniyetmələrdə zorakılığın qarşısını almaq üçün başqa bir yanaşma uşaq və gənclərin sağlam və uğurlu yetkin ola bilmək qabiliyyətini artırmaq və onlarda müxtəlif bacarıqları inkişaf etdirməkdir. Bu mövzuda psixiatriya, psixologiya və sosiologiya sahələrində aparılan tədqiqatlarda tez-tez istifadə olunan "özünü bərpa gücü" anlayışı uşaqların, yeniyetmələrin və böyüklərin mənfi həyat şəraitində necə güclü ola biləcəyinə dair yeni və fərqli bir perspektiv təklif edir [3,s.74].

Ədəbiyyat

1. Eisenbraun, K.D. (2007). Violence in schools: Prevalence, prediction and prevention. Aggression & Violent Behavior, 12(4), 459-469.
2. Gökler R. (2009). Okullarda akran zorbalığı. Uluslararası İnsan Bilimleri Dergisi, 6(2), 511-537.
3. Terzi, Ş. (2007). Okullarda yaşanan şiddeti önleyici bir yaklaşım: Kendini toparlama gücü. Aile ve Toplum Eğitim Kültür ve Araştırma Dergisi, 3(12), 73-82.
4. Uşaq və yeniyetmələrə yönəlmiş zorakılıq hallarının qarşısının alınması üzrə metodik vəsait. Bakı, 2017. – 60 səh. Tiraj 3000.

Mikayılova Nərmin Ramiz qızı
Elmi rəhbər: b/m Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

CƏMİYYƏTDƏ GENDER BƏRABƏRLİYİ ANLAYIŞI

Cinsi bərabərlik cəmiyyətdə əhəmiyyət kəsb edən bir rola malikdir. Cəmiyyətimizdə cinsi fərqliliyin qarşısının alınması cəmiyyətin daha sürətli inkişaf etməsinə imkan yaradır. Cəmiyyət təhsilin hesabına inkişaf edir. Təhsildə baş verən dəyişikliklər cəmiyyətdə də öz əksini tapır. Təhsilin inkişafında önəm daşıyan məsələlərdən biri də gender bərabərliyidir. Təhsilin hamı üçün əlçatan və bərabər olması, yaşadığımız cəmiyyətin bütün üzvlərinə bərabər imkanlar yaradır.

Gender bərabərliyinin təmin edilməsi istiqamətində atılan addımlar təhsil sisteminin təməlindən tutmuş, cəmiyyətin bütün təbəqələrinə yayılmalıdır. Cinsindən asılı olmayaraq, təhsil sahəsi hər kəsə ictimai həyatın müxtəlif sahələrində iştirak etmək imkanı yaradır. Buna görə də cinsindən asılı olmayaraq hər kəs təhsil almaq hüququna malikdir. Azərbaycanda təhsil sistemini tənzimləyən sənədlərə 2006-cı ildə Gender qanunu da əlavə edildi. Dövlət mülkiyyət növündən asılı olmayaraq, bütün təhsil müəssisələrinə qəbulda, tələbələrin təqaüdlə təmin edilməsində, tədris planının seçilməsində, və biliyin qiymətləndirilməsində kişi və qadınlar üçün bərabər imkanlar yaradılmasını təmin edir. (1, maddə 13.3).

Müasir dövrdə təhsilin əsas vəzifəsi məktəblərdə, universitetlərdə gələcək üçün savadlı kadrların hazırlanmasıdır. Buna görə də ilk olaraq şagirdlərə, tələbələrə gender tərbiyəsini aşılamaq lazımdır. Gender tərbiyəsi uzun davam edən prosesdir. Bunun üçün də bu proses məktəb dövründən başlayıb, ali məktəbdə davam etdirilməlidir.

Bir çox hallarda gender balansının pozulması halları ilə qarşılaşırıq. Belə hallar isə peşə seçimlərində özünü göstərir. Çünki əksər oğlanlar texniki, qızlar isə humanitar və pedaqoji ixtisas seçməyə üstünlük verirlər. Beləliklə, bu hal qadın rolunun güclənməsinə, gender balansının pozulmasına gətirib çıxarır. Pedaqoji sahəni "qadın sahəsi" hesab edən oğlanlar cəmiyyətdə mövcud olan stereotiplər və bu sahədə iqtisadi çətinliklərin olması səbəbi ilə bu peşə üzrə təhsil almağa tərəddüd edirlər. Bu isə oğlanların şüurunda sosial rolların bölgüsünə dair gender stereotipinin mövcudluğundan xəbər verir. (2, səh.84)

Gender bərabərliyi dedikdə, əksər insanlar bunu yanlış fikir olaraq qəbul edir. Bu anlayış qadın və kişinin birinin digərindən üstün və ya aşağı olması fikrindən ibarət deyil. Bunda əsas məqsəd hər iki cinsin qarşılıqlı hörməti, əxlaqi dəyərlərə önəm verməsidir. Gender bərabərliyi hər kəs tərəfindən bu cür qarşılansa, cəmiyyət köhnə stereotiplərdən azad olar.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Gender (kişi və qadınlar) bərabərliyinin təminatları haqqında Azərbayan Respublikasının Qanunu. Bakı, 2006
2. Gender problemi və müasir Azərbaycan 2-ci respublika elmi konfransının materialları. 23 noyabr 2018
3. Mollayev E. Gender tərbiyəsi, tarixi, nəzəriyyəsi və müasir problemləri. "Elm və təhsil". Bakı, 2013

Fərzəlizadə Fəxriyyə Fərrux
Elmi rəhbər: Baş müəllim Sadıxova Lalə Sabir
Azərbaycan Dillər Universiteti

PSİXOLOJİ MÜDAFİƏ MEXANİZMLƏRİ

Müdafiə mexanizmi anlayışı ilk dəfə elmə Ziqmund Freyd tərəfindən öz Psixoanalitik nəzəriyyəsi ilə gətirilmişdir. Bu mexanizmlər insan narahatverici, mənfi duyğularla qarşılaşdığı zaman və həmin duyğularla mübarizə apara bilmədiyi zaman işə saldığı şüur prosesidir. Lakin, həddindən artıq tez-tez istifadə edildikdə psixoloji peoblemlərin yaranmasına gətirib çıxara bilər. Freyddən sonra müdafiə mexanizmləri onun qızı Anna Freyd tərəfindən inkişaf etdirilmişdir. Müdafiə mexanizmləri say etibarilə çox olsa da aşağıda əsas olanlardan qeyd olunmuşdur.

1) ***İnkar (və ya Denial)***

İnsan qarşılaşdığı real faktları qəbul etmək üçün inkar müdafiə mexanizmini işə salır. Bu zaman o onu narahat edən hisslər və hadisələrdən qaçır. Məsələn, tələbə imtahana hazırlıqsızlığını qəbul etməkdən imtina edə bilər.

2) ***Basdırma***

İncidən və ya təhlükəli düşüncələrin şüura daxil olmasına mane olmaqla basdırma mexanizmi ortaya çıxır. Məsələn, şəxs özünə travma verən birini tamamilə unuda bilər.

3) **Sublimasiya**

Bu mexanizmə əks etdirmə də deyilir. Şəxs qəbul etmədiyi xüsusiyyətləri, başqasının üzərində üzərində təsvir edir. Məsələn, uşaq özündə bəyənmədiyi xüsusiyyətləri, sinifyoldaşı üzərində təsvir edir.

4***) Reqressiya***

İnsan özünü təhlükədə və ya narahat hiss etdikdə şüursuz olaraq inkişafın əvvəlki mərhələsinə "qaça" bilərlər. Travma və ya itki ilə qarşılaşsalar, birdən yenidən körpə olduqları kimi davrana bilərlər. Bu zaman uşaq hətta yatağı islatmağa və ya baş barmağını əmməyə başlaya bilər.

5***) Saplantı***

Kiməsə qeyri-irrasional və ya şişirdilmiş şəkildə bağlanma. Orta yaşlı evlənməyən kişi, öz ehtiyacları *üçün anasına bağlanır.*

6) ***Reaksiya vermə***

Şəxsin öz davranışlarını gizlətmək üçün əksinə davranması. Homoseksual şəxs, homobarların bağlanması üçün propaqandaya başlayır.

7) ***Repressiya***

Repressiya xoşagəlməz fikirlər, ağrılı xatirələr üz-üzə gəlmək əvəzinə, şüursuz şəkildə onları tamamilə unutmaq ümidi ilə gizlətməyi seçməkdir.

Məsələn, təhlükə yaradan vəziyyəti, şəxsi və ya hadisəni xatırlaya bilməmək.

Ədəbiyyat nəzəriyyəsi

1. https://youtu.be/1RS5MeyLA3s?si=BjNgWVbCBAxNKQQ
2. https://youtu.be/YDw8RtGjUZo?si=FMa-2DbZQbGaqFxl
3. https://humel.az/mudafie-mexanizmler

Muradlı Səbinə Mansur
Elmi rəhbər:Baş müəllim Dəmirova Ceyhunə Ceyhun
Azərbaycan Dillər Universiteti

TƏLƏBƏLƏRİN TƏLİM FƏALİYYƏTİNDƏ MƏMNUNLUQ HİSSİ

Müasir psixologiyanın ən aktual problemlərindən biri məmnunluq hissidir. "Məmnunluq" insanın istəklərinin yerinə yetirildiyini dərk etmə dərəcəsidir. "Məmnunluq" terminini tez tez "xoşbəxtlik" sözü ilə sinonim kimi işlədilir [3,s.1]. Lakin məmnunluq, xoşbəxtliyə verilən emosional bir reaksiyadır, yəni yerinə yetirilən bir arzuya və ya hədəfə verilən bir reaksiyadır. Məmnunluq hissi insanın uğurunun birbaşa təcrübəsi, reallığın öhdəsindən gəlmək üçün göstərdiyi səy və dəyər verdiyi şeylərə nail olmağın əlamətləridir. Əslində bu "Varlığıma hakiməm" deyə bilməyin əlamətidir. [5,s.10]

Əgər insana həyatın və özünün dəyərli olduğunu hiss etməyə icazə verilsə, məmnunluq varlığın emosional yanacağı kimi fəaliyyət göstərəcək. İnsanlar üçün məmnunluq lüks deyil, psixoloji ehtiyacdır. [5,s.10]

Tədqiqatlar göstərir ki, həyatdan məmnunluq həm də müsbət təhsil nəticələri ilə bağlıdır. Uşaqlıq, yeniyetməlik və gənclik dönəmində təhsil əsas fəaliyyətdir və məmnunluğun əldə edilməsində böyük rol oynayır. [4,s.6] Məsələn, tələbələrin həmyaşıdları və müəllimləri ilə sosial münasibətləri, dərsdənkənar tədbirlərdə iştirakı, onların məktəbin sosial mühiti haqqında təsəvvürləri məktəbə münasibətinə də təsir göstərir. [2, s.995] Birləşmiş Krallıq daxilində Gilman və Heybnerin apardığı tədqiqatlar göstərir ki, akademik test nəticələrinə həddindən artıq diqqət yetirən gənclərin həyat məmnunluğuna mənfi təsir göstərir. Eynilə, onların tədqiqatından belə bir nəticəyə də gəlinir ki, son dərəcə yüksək həyat məmnunluğu təhsilə, müəllimlərə müsbət münasibətlə bağlıdır. Həyatdan məmnunluq daha çox müsbət akademik göstəricilər, hədəflərə doğru gedən irəliləyiş, daha az akademik stress ilə əlaqələndirilir. [4, s.7]

Tələbələrin məmnuniyyətinin sərmayə nəzəriyyəsi. Kryter və Fitzgerald sərmayə nöqteyi-nəzərindən tələbələrin akademik performansdan məmnunluqlarının davranışını təsvir etdilər. Nəzəriyyəyə görə, tələbə vaxtını, enerjisini, zəhmətini sərmayə olaraq qəbul edir və ondan geri dönüş formasını axtarır. Müvafiq olaraq, tələbələr etdikləri sərmayə ilə bağlı mükafatlandırılsalar, razı qalacaqlar.

Aparılan araşdırmalara görə tələbələr ali təhsil həyatından fakültə xidmətlərinə, akademik təcrübəyə, tələbə dəstəyinə, kampus həyatına və sosial inteqrasiyanı əhatə edən sosial faktorlara əsasən daha məmnundurlar.

Digər bir modelə görə isə, çətinlik az olduqda tələbə məmnunluğu yüksəlir, çətinlik yüksək olduqda isə məmnunluq azalır. [1, s.35] Wiliams və Batten məktəb həyatının keyfiyyətlərini 5 alt ölçüdə araşdırır:

1. Müəllim-tələbə münasibəti
2. Sosial bütünləşmə
3. Fürsət
4. Uğur
5. Macəra [2, s.3]

Beləliklə, tələbələrin məmnunluq səviyyəsində bu xüsusiyyətlərin rolunun böyük olduğunu deyə bilərik.

Ədəbiyyat:

1. American Journal of Educational Research ,2017, Vol.5, No.5, 533-539
2. Atatürk Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi Hairan 2018 22(2): 989-1006
3. Encyclopedia of Quality of Life and Well-Being Research. New York. 2019. 60 s.
4. Life Satisfaction, Carmel Proctor P.Alex Linley and John Maltby Positive Psychology Research Centre, St Petre. Colorado.2018. 10 s.
5. Memnuniyetin psikolojisi, E.Enüstün. Türkiye. 2016. 20s

Mirzəli Qaragöz Novruz qızı
Elmi rəhbər:Baş müəllim Dəmirova Ceyhunə Ceyhun qızı
Azərbaycan Dillər Universiteti

MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ MÜASİR PSİXOLOGİYADA

Azərbaycan güzəran psixologiyasında Molla Nəsrəddin özünəməxsus psixoloji obrazı ilə seçilən şəxsiyyətdir.

Molla Nəsrəddin Azərbaycanda ən çox sevilən lətifə qəhrəmanıdır. Xalq içərisində gəzən ən gözəl lətifələr, ən məzəli, duzlu məzhəkələr, ən kəskin, tutarlı cavablar həmişə onun adı ilə bağlıdır [2, s.430].

Molla Nəsrəddin çox vaxt qəbul olunmuş normalara qarşı çıxan bir şəxs olmuşdur. Belə ki, müasir psixologiyada da özünü tanıma və müstəqil düşünmə, öz dəyərlərinə sahib çıxmağın və öz mənliyini formalaşdırmağın əhəmiyyətli olduğu vurğulanır. O, hekayələrində qərarlarını və davranışlarını dəyişdirərək problemlərə fərqli perspektivdən yanaşır. Bu, psixoloji ədəbiyyatlarda alternativ baxışın və problem həll etmə üsullarında çeşidliliyinin əhəmiyyətini vurğulayır.

Molla Nəsrəddin lətifələri günümüzdə də tənqid, ironiya və yumorun bir növü kimi qiymətləndirilir. Günümüz mühitində, insanların fərqli fikirləri anlamağına və cəmiyyəti təhlil etməyinə nail olmağa kömək edə bilən bu lətifələr, hələ də aktual və maraqlıdır.

Molla Nəsrəddin lətifələrindən nümunələr ilə fikrimizi daha aydın ifadə edə bilərik:

Teymurləngə xəbər verirlər ki, Molla Nəsrəddin bir məclisdə onun zülmkarlığından danışırmış. Teymur hirslənib Mollanı hüzuruna çağırır ki:

-Bu nədir? Yoxsa başın bədəninə ağırlıq eləyir? Deyirlər məclislərdə mənim zülmkarlığımdan danışırsan.

-Qibleyi aləm sağ olsun! Sən özün bilirsən ki, mən həmişə elə söz deyirəm ki, qəribə olsun, təzə olsun, heç kəsin eşitmədiyi, bilmədiyi, danışmadığı olsun. Xoruz səsi eşitməmiş olsun. Sənin zülmkarlığın hamının bildiyi, danışdığı köhnə şeydir. Burada nə qəribəlik var ki, mən də danışam? Sənə yalan deyiblər [3, s.23].

Bu lətifədə Molla Nəsrəddin şahı manipulyasiya edərək, öz dediklərinə inandırır. Manipulyasiya-idarə edən insanın mənafeyinə uyğun şəkildə digər bir insanın davranışının və ya düşüncəsinin gizli idarə olunması prosesidir.

Bir gün bir məclisdə Molladan soruşurlar ki, "Molla, adamlığın nişanəsi nədir?"

Molla deyir: "Adamlığın əsas iki nişanəsi var: birincisi odu ki, bilənlər danışanda yaxşı-yaxşı qulaq assın. İkincisi odur ki, özü danışanda öz sözlərini eşidə bilsin."

Qeyd etdiyim lətifədə mənlik şüurundan, insanın özünüdərkindən, öz mənliyinin və fəaliyyətinin fərqində olmasından danışılır. Mənlik şüuru insanın özünü şəxsiyyət kimi dərk etməsi prosesidir. Bu zaman insanın özünün tələbat və qabiliyyətlərinə, fikir və hisslərinə, davranış və fəaliyyət motivlərinə şüurlu münasibəti nəzərdə tutulur [1, s.217].

Günlərin birində Molla evə gəlib baxır ki, içəridə oğru var. Oğru molladan qorxur, Molla oğrudan. Molla oğrunun üstünə atılır və ayaqlarını bağlayır, uzadır evin ortasına. Özü də gedir hakimə xəbər versin ki, gəlib oğrunu tutsunlar. Molla əhvalatı hakimə danışandan sonra, hakim soruşur:

-Bəs indi oğrunun yanında kim var?

-Heç kim.

-Yaxşı, indi sən deyirsən ki onun ayaqlarını bağlamısan, yanında da heç kəs yoxdur. O, indi ayaqlarını açıb qaçar ki...

Molla bir qədər düşünür və görür ki, hakim haqlıdır. Lakin belə cavab verir:

-Hakim ağa, sən tam haqlısan. Ancaq bu ki mənim ağlıma gəlməyib, heç onun da ağlına gəlməz. O da bizim yerlidir.

Doğrudan da gedib görürlər ki, ayaqlarını açıb qaçmaq oğrunun ağlına gəlməyib [3, s.54].

Bu lətifədə insanın inkişafı zamanı sosial mühitin, məskunlaşdığı ərazinin və etnik kimliyin onun psixologiyasına, düşüncə və davranışına təsirini aydın görürük.

Bu nümunələrə əsasən yekun kimi qeyd etmək olar ki, Molla Nəsrəddin lətifələrində insanların bəzən çətin vəziyyətləri yumoristik şəkildə idarə etməklə psixoloji üstünlük hissi yaratmaq meylləri əks etdirilir. Bu lətifələrdə hadisələrə müsbət nöqteyi-nəzərdən baxmaq və çevik düşünmək bacarığına psixoloji vurğular öz əksini tapır.

Digər tədqiqatçıların da Molla Nəsrəddin lətifələrini oxuyan zaman bu problemlərdən əlavə, digər problemləri də seçib tədqiq edəcəyinə, bu işin onlara motivasiya olacağına inanırıq.

İstifadə olunmuş ədəbiyyat

1. Bayramov Ə.S, Əlizadə Ə.Ə. Psixologiya. Ali məktəblər üçün dərslik. Bakı. "ÇİNAR-ÇAP", 2002. 620 s.
2. Məmmədhüseyn Təhmasib. Seçilmiş əsərləri. I cild. Bakı. Mütərcim, 2010. 488 s.
3. Molla Nəsrəddin lətifələri. Bakı. Öndər nəşriyyat, 2004. 304 s

Magistrant: Məmmədova Səadət Yolçu qızı
Elmi rəhbər: p.f.d.b/m.Tahirova Şəfiqə
Azərbaycan Dillər Universiteti

KİÇİK YAŞLI UŞAQLARIN MƏKTƏ BƏHAZIRLIQ MƏRHƏLƏSİNDƏ OYUNLARIN ƏHƏMİYYƏTİ

Məktəbəqədər yaşlı uşaqlarda şəxsi keyfiyyətlər hər yaş dövründə, inkişaf edərək formalaşır. Oyun məktəbəqədər yaşlı uşaqlarda əsas fəaliyyət növüdür. Uşaqların həm fiziki, həm də intellektual inkişafında oyunun əhəmiyyəti çox böyükdür.

Oyunlar vasitəsi ilə uşaqların şəxsi keyfiyyətləri inkişaf edir, xarakterləri formalaşır, problemlərin həlli yollarını tapmağa, ən yaxşı strategiyaları işləyib hazırlamağa, uşaqlarda inam və bacarıqların oyunların formalaşdırılmasında geniş imkanlara malikdir. Uşaqlar oyun prosesində işküzarlıq nümayiş etdirərək valideynlərini təqlid edir, lakin zaman keçdikcə uşaqlar müxtəlif peşə fəaliyyəti ilə məşğul olan insanlara maraq göstərərək, maraq obyektlərini dəyişirlər. Oyun prosesində onlardan bəzisi həkim, bəzisi müəllim, bəzisi isə hərbiçi olmaq xəyalları qurarlar.

Uşaqlar oyunlarda dramaturq və aktyor kimi də çıxış edə bilirlər. Onlar hər zaman improvaziyasiyada olur və öz arzu və istəklərini obrazlarında əks etdirirlər.

Oyunlar uşaqlarda həmyaşıdları ilə daha yaxşı ünsiyyət qurmağa və əməkdaşlıq etməyə kömək edir. Yaradıcı kollektiv oyunlar, məktəbəqədər yaşlı uşağın hisslərini tərbiyə etmək üçün bir məktəbdir.

Oyun vasitəsi ilə uşağın zehini fəaliyyəti və idraki qabiliyyətləri (hafizəsi, təfəkkürü, təxəyyülü, məntiqi, iradəsi, diqqəti,xarakteri) daha yaxşı inkişaf edir. Onlar stolüstü oyunlar oynayaraq, nağıllardan müxtəlif obrazları canlandıraraq, hekayənin sonluğunu necə davam etdirməyi idraki qabiliyyətlərini inkişaf etdirirlər.[1]

Uşaq oyunları rəngarəngliyinə, məzmununa, təşkilinə, xarakterinə və bir çox cəhətlərinə görə müxtəlif növlərə bölünür.

Bunlar yaradıcı və didaktik olmaqla iki qrupa bölünür.

Xarakterinə görə didaktik oyunlar üç qrupa bölünür:

1. Oyuncaqlarla oyunlar;
2. Stolüstü çap oyunları;
3. Sözlü oyunlar.

Uşaqlar oyunda inkişafın bütün sahələrini - sosial, emosional, koqnitiv, fiziki fəaliyyətlərini inkişaf etdirirlər. Tez-tez açıq havada olan oyunun, 4-6 yaşlı uşaqların inkişafına təsiri, müxtəlif oyunlar oynaması, onların gələcəkdə fiziki inkişafına daha yaxşı təsir göstərir, onların sağlam böyümələrinə zəmin yaradır. Qeyd olunanlar isə bu gün uşaqlarımızda ən böyük problem olan piylənmənin də qarşısının alınmasında əhəmiyyətli rol oynayır.

Uşaqların qum və su ilə oyunlar oynamaları narahatlıq və qorxularının öhdəsindən gəlməyə imkan verən təbii stresdən azad etmələrinə kömək edir.

Məktəbəqədər yaşlı uşaqların inkişafında, kəşflər edərək, öyrədilən yeni ideyalar, təcrübələr və sınaqlar vasitəsi ilə həyata keçirilən oyunların rolu çox böyükdür.

Təbii ki, hər kəs uşağının assosiativ və kooperativ oyun istiqamətində hərəkət etməsini istəyir, lakin bu uzun bir vaxt tələb edir.

Məktəbəqədər yaşlı uşaqlarda bildiyimiz kimi, oyunların üstünlükləri çoxdur.

M.Qorki qeyd edir ki: “Oyun uşaqların yaşadıqları və dəyişməli olduqları aləmi dərketmə yoludur.” (3)

Psixiatr Stüart Braun deyir: “Oyun öz şəxsi xatirinə edilən bir şeydir”. O yazır: “Orada iştirak könüllüdür, zövq və iştirak hissi verir, uşaqları zamandan uzaqlaşdırır. Çünki, fəaliyyət nəticədən daha vacibdir”.(2)

Bu fikri nəzərə alaraq, oyunun potensial faydalarını anlamaq asandır.Burada aşağıdakı amilləri nəzərə almaq zəruridir:

1. Uşaq özü və həmyaşıdları ilə münasibətləri inkişaf etdirir;
2. Uşaqlarda stressi aradan qaldıraraq onları daha çox xoşbəxt edir;
3. Yaradıcılıq, empatiya, və əməkdaşlıq hiss və davranışlarını inkişaf etdirir;
4. Onlarda mən obrazının formalaşmasına, fərd olaraq güc və möhkəmliklərinin dəstəkləyir.

Uşaqların oynamaq imkanları təmin olunmazsa, onların inkişafı ləng gedər və əhəmiyyətli dərəcədə pozula bilər.

İstifadə edilmiş ədəbiyyat:

1. 1.Abbasov Ə.(2017). Məktəbəqər təhsil müəssələrində inteqrativ və inkişafetdirici təlim məsələləri.
2. https://www.eudi.az/meqale/etrafli/515
3. https://as-journal.edu.az/oyun-usagin-əsas-huququdur

Nəhmətova Sara Yaşar qızı
Elmi rəhbər: müəllim Abdinova Fidan İlqar qızı
Azərbaycan Dillər Universiteti

PSYCHOLOGY OF THE CRISIS IN EARLY CHILHOOD

“Life crisis” is a term describing a person’s psychological response to major life changes or events. The psychology of crisis is concerned with attitudes, responses, and actions related to extreme events and conditions [4, p.23]. Facing a crisis poses a number of challenges to the person in terms of preparation, making sense of the situation, taking opinions, and managing with stress. Although the term crisis is

frequently used as a general conception, the reality of critical events can vary extensively, each posing particular challenges to those affected.

In the first three years of life, there are four main crises that the child goes through: birth crisis, weaning crisis, objectivation crisis, and self-affirmation crisis. The birth extremity is the separation from the mother. In order to stay alive, after being detached from the mama 's body with the slice of the umbilical cord, the child must demonstrate that several organs can serve on their own. The second important developmental crisis is that of weaning, which underlines a physical change associated with the capability to eat and digest food other than milk or formula. It also includes a cerebral change in the mortal being conforming of a advanced degree of mindfulness of himself and of the external world. The weaning process starts between 4 and 6 months. Next the child goes through what we relate to as the objectivation crisis. This refers to the state where the child realizes that he's the subject amusement on an object and has an influence in the world. [3, p.5] Physically at this age the child is suitable to creep and crawl. The fourth developmental crisis is the self-affirmation crisis, also known as the crisis of opposition. It's given that name because this is the time when the child says ' NO ' to putatively everything. This extremity can start as beforehand as 18 months and is generally completed by 2 ½ or 3 times old [1, p.50-61].

The crisis in early childhood can have long-lasting effects on a child's mental health, impacting their ability to form secure attachments, develop coping skills, and regulate their emotions. Parents and caregivers play a crucial role in helping children navigate through crises in early childhood. By providing a safe and nurturing environment, offering emotional support, and helping children develop healthy coping strategies, parents can help their children build resilience and overcome the challenges they face. If children do not experience a crisis, they may not develop important coping skills and resilience that are crucial for dealing with future challenges. Experiencing a crisis can help children develop empathy, compassion, and the ability to navigate complex emotions. Empathy in early childhood is the ability to understand and share the feelings of others, leading to more positive social interactions and relationships and compassion in early childhood is the foundation for building empathy, and understanding towards others [2, p.11-21].

Overall, while it is important to protect children from harm, having some exposure to challenges and crises can ultimately help them build important life skills. By experiencing and navigating difficult situations, children can learn valuable life skills such as problem-solving, decision-making, and emotional regulation. These experiences can help them grow into resilient and capable adults who are better equipped to handle adversity in the future. Therefore, striking a balance between protecting children and allowing them to face and overcome challenges is essential for their overall development and well-being.

References:

1. Ann Enander "Psychology of Crisis and Trauma" 2021., p.300
2. "Crisis Counseling Guide to Children and Families in Disasters" 2000., p.112 [11; 21]
3. Ella Jones "Developmental Crises in the First Three Years of Life" 2015., p.165
4. Maggie Wooll "Identifying different life crisis stages and how to cope" 2022., p.7

Quliyeva Mələkxanım Namiq qızı
Təhsil 2, qrup-220B
Elmi rəhbər:müəl.Seyidova Günay
Azərbaycan dillər universiteti

PEDAQOJI ETİKANIN MÜƏLLİM FƏALİYYƏTİNDƏ ROLU

Aydındır ki, insan fəaliyyətinin bütün növləri arasında ən mühümlərindən biri toplanmış mənəvi və əməli təcrübənin nəsildən-nəslə ötürülməsini təmin edən pedaqoji fəaliyyətdir. Dövrlər, ictimai formasiyalar, dünyagörüşləri dəyişir, köhnələr dağıdılır, yeni dəyər sistemləri formalaşır, peşələr ölüb doğulur, amma insanlıq olduğu kimi, müəllim əməyi də tələb olunacaq. Onilliklər ərzində pedaqoji etika təhsildə özünəməxsus rola malikdir.

Pedaqoji etika peşə etikasının ən inkişaf etmiş sahələrindən biridir. Bəzi ekspertlərin fikrincə, onun elementləri "pedaqoji fəaliyyətin xüsusi sosial funksiya kimi meydana çıxması ilə birlikdə meydana çıxmışdır". Sivilizasiyanın mövcud olduğu dövrdə pedaqoji əxlaq əhəmiyyətli dərəcədə inkişaf etmiş və bu gün o, pedaqoji fəaliyyətin əxlaqi xarakterini və onun yaratdığı münasibətləri təmin edən müəllim davranışının norma və qaydalarının məcmusu kimi şərh olunur. Başqa sözlə, əgər əvvəllər müəllimin etikası onun şagirdlərlə münasibətdə davranışının arzuolunan modeli hesab olunurdusa, bu gün əsas tendensiya təkcə müəllimin peşənin əxlaqi əsaslarını dərk etməsi deyil, həm də onun tələblərə cavab vermə qabiliyyətidir.

Pedaqoji etikanın müəllim fəaliyyətindəki rolu ilə bağlı bəzi məsələlər qeyd etmək olar:

Məsuliyyət və ədalətli davranış: Pedaqoji etika, müəllimlərin şagirdlərlə münasibətlərində məsuliyyətli və ədalətli olmalarını təmin edir. Müəllimlər, bütün şagirdlərə eyni davranmalı və onlara eyni imkanlar verməlidirlər.

Hörmət və dəyərlərin təbliği: Pedaqoji etika, müəllimlərin şagirdlərlə arasında hörmət və dəyərlərin təbliğini təmin edir.

Profesionalizm: Pedaqoji etika, müəllimlərin işlərini ən yüksək standartlarda yerinə yetirmələrini təmin edir.

Tərbiyə və rəhbərlik: Pedaqoji etika, müəllimlərin şagirdlərə doğru məsələləri öyrətmə və rəhbərlik etmələrini təmin edir. Müəllimlər, şagirdlərə ictimai və mədəni dəyərləri öyrənmələrinə və inkişaf etmələrinə kömək edir.

Nəticə olaraq, pedaqoji etika, müəllimlərin şagirdlərlə olan münasibətlərində, təhsil prosesində və təhsil mühitində etik prinsiplərə əməl etmələrini təmin edir. Bu, tələbələrin sosial, psixoloji və akademik inkişafına pozitiv təsir göstərir və təhsil prosesinin effektivliyini artırır.

Ədəbiyat siyahısı:

1. 1.Müəllimlərin etik davraniş qaydaları. "Azərbaycan Respublikası Təhsil Nazirliyinin 16 may 2014-cü il tarixli, 60 nömrəli əmri".
2. Müəllimin peşə etikası. Bakı, Maarif 1992
3. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı 2009

Abdinova Mənsurə İlqar
Elmi rəhbər Seyidova Günay
Azərbaycan Dillər Universiteti

TƏLİM MÜHİTİNİN TƏHSİLİN KEYFİYYƏTİNƏ TƏSİR FORMALARI

Təlim mühitinin təhsilin keyfiyyətiylə düz mütənasiblik təşkil etdiyi danılmazdır. Təlim mühiti düzgün qurularsa, o zaman təhsilin keyfiyyəti də yüksək olar. Düzgün təşkil edilməmiş təhsil mühiti təhsilin keyfiyyətinə neqativ təsir göstərə bilər. Məşhur filosof və yazıçı J.J.Russo demişdir ki, səmərəli təlim üçün xüsusi təlim mühiti yaratmaq lazımdır. Hansı ki, burada şagirdlərin ehtiyac və imkanları balansda olsun. Bəs xüsusi təlim mühiti dedikdə nə nəzərdə tutulur? Bu zaman əşyəvi mühit,informasiya və sosial-psixoloji mühit anlayışı yada düşür.

· Əşyəvi mühit-təlimin bütün maddi-texniki təminatını özündə cəmləşdirən vəsaitlər, lövhələr, laboratoriyalar, məktəb ləvazimatı və s. aiddir. Düşünün əşyəvi mühit qurulmamış olsa, təlim keyfiyyəti necə yüksək formada ola bilər? Öyrənmə prosesində oxumaq, oxuduqlarımızı tətbiq edib, üzərində çalışmalar etmək ən önəmli nüanslardandır.

· İnformasiya mühiti-şagirdin təlim ehtiyacları, yəni dərsliklər, ensiklopediyalar, bir sözlə məlumat mənbələri və məlumat ötürmə vasitələri aiddir.

· Sosial-psixoloji mühit-şagirdin qarşılıqlı əlaqəsi aiddir. Bu qarşılıqlı əlaqə həm başqa insanlarla, həm də öz mənəvi aləmiylə ola bilər. Təlim prosesində ilk öncə sağlam sosial-psixoloji mühit qurulmalıdır. Müəllim şagirdə fiziki və psixoloji şiddət göstərə bilməz. Şagirdin təlim prosesində səhvləri düzgün dillə izah olunmalıdır, şiddət, təhqir qəbul olunmazdır. Şagirdlərin bir-birləriylə sosiallaşması önəmli nüansdır. Şagirdlər arasında sosial mühit müəllimin dəstəyiylə də yaradıla bilər. (qrup işləri, həmçinin

tənəffüslərdə şagirdlərə kiçik bir oyun qurmaq və s.) İçinə qapanıq, psixoloji problemi olan şagirdlər isə psixoloq nəzarətinə götürülməlidir.

Bu sadaladıqlarımız öyrədici mühitə aiddir. Bundan əlavə təlimdə inkişafetdirici və dəstəkləyici mühit də var. Bəs bu 2 mühit nədir və səciyyəvi xüsusiyətləri nələrdir?

Dəstəkləyici mühit özündə maddi-texniki baza, sinifdə əşyavi mühitlə psixoloji dəstəkləyici mühitin birlikdə təmin edilməsini ehtiva edir. Sinifdə əşyaların yerləşdirilməsi, tədris vəsaitlərinin istifadəsinin təmin edilməsi ilə dəstəkləyici mühit yaradılır. Belə mühitdə təlim keyfiyyətinin yüksəldilməsi üçün təhlükəsiz mühit yaradılır. (2,səh 40)

İnkişafetdirici mühit təhsilləndirici mühitin bir hissəsidir, xüsusi təşkil olunmuş məkanla təmsil olunur. Təhsilləndirici mühitin səciyyəvi xüsusiyyətlərinə uşaqların emosional rifahını təmin etmək, müəllimlərin peşəkar inkişafı, uşaqların fiziki və psixi sağlamlığının qorunması və möhkəmləndirilməsi və s. aiddir. İnkişafetdirici mühitdə tərbiyəçi şagirdlərin irəli sürdükləri fikirlə hörmətlə yanaşır, onların özgüvənini qıracaq hərəkət və sözlərdən qacınır.

Burada təşəbbüskar, yəni fəal uşaqlar dəstəklənir və fəallıqları təqdir olunur, qeyri-təşəbbüskar, yəni passiv olan şagirdlər isə təşəbbüs göstərməyə təşviq olunur.

Öyrədici, inkişafetdirici, dəstəkləyici mühitin yaradılmasının ən ali bir məqsədi var: təhsilin keyfiyyətini artırmaq. Düzgün təlim mühiti yaratmaq, təhsilin keyfiyyətini artırmaq müəllimin pedaqoji bilik və bacarıqlarına əsaslanır. Müəllimin ən əsas rolu müxtəlif inkişaf səviyyəsinə məxsus və fərdi xüsusiyətlərə malik şagirdləri təlim prosesinə cəlb edərək təlimdə əlverişli mühit yaratmaqdır. (1,səh 478)

İstifadə olunmuş ədəbiyyat siyahısı

1. Hümeyir Əhmədov Nigar Zeynalova "Pedaqogika" dərslik
2. Ümumtəhsil müəssisələrində öyrənmə mühitinin təşkili və idarə olunması(metodik tövsiyə). Bakı "CN POLİQRAFİYA", 2023, 108 səh

Şahmuradlı Selcan Aqşin qızı
Təhsil 2 Qrup:220b,
Elmi rəhbər: b/m. Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

ŞƏXSİYYƏTİN SOSİALLAŞMASINDA MƏKTƏBİN ROLU

Məktəb uşaqların şəxsiyyətinin formalaşmasında əhəmiyyətli bir rol oynayır. Şəxsiyyət inkişafı erkən yaşlardan başlayaraq bir ömür davam edən daimi bir prosesdir. Uşaqlar öz həyatlarının ən böyük qisməsini məktəbdə keçirirlər və bura onların sosial, emosional, kognitiv və davranışsal bacarıqlarını inkişaf etdirdikləri yerdir. Məktəblər yalnız təhsil verməklə qalmır, həm də şəxsi inkişafı dəstəkləyən, özəl inkişafı təşviq edən və şəxsiyyəti formalaşdıran bir mühit yaradırlar.

Məktəblərin şəxsiyyət inkişafında əsas rolundan biri də təyin olunmuş bir öyrənmə mühitinin təmin olunmasıdır. Yaxşı təşkil olunmuş bir öyrənmə mühiti, şagirdə psixoloji və emosional sağlamlıq üçün əhəmiyyətli olan təhlükəsizlik və nəzarət edilə bilən bir mühiti təmin edir. Məktəb gününün təşkil edilmiş rutini, uşaqların özünü nizamlaya biləcəkləri, zaman idarəetmə bacarıqlarını inkişaf etdirdikləri və məsuliyyət hissi qazandıqları üçün önəmlidir. Bu əhəmiyyətli keyfiyyətlər həm şəxsi həyatda həm də profesionallaşma sahəsində uğur üçün vacibdir.

Məktəblər həmçinin şəxsiyyət inkişafında əhəmiyyətli olan sosiallaşma imkanları təmin edir. Məktəbdə, uşaqlar yaşıdları, müəllimləri və digər məktəb üzvləri ilə əlaqə qurmağı öyrənirlər. Onlar kommunikasiya qurur, danışır və fikir mübadiləsi aparırlar. Həmçinin emosional intellektin inkişafına kömək edir, ki, bu da şəxsiyyət inkişafının əsas aspektidir.

Məktəblərin şəxsiyyət inkişafındakı bir başqa əhəmiyyətli rolu da əlavə dərsdənkənar fəaliyyətin təmin etməsidir. İdman, musiqi, dram və digər klublar kimi əlavə təhsil fəaliyyətləri uşaqlara öz maraqlarını inkişaf etdirmək imkanı verir. Bu fəaliyyətlər həmçinin komanda işini, liderlik bacarıqlarının və özünə inamı inkişaf etdir.

Məsələnin mərkəzində şagirdlərin öyrənmə mühiti olsa da, məktəb onlara müxtəlif sosial dəyərləri, normaları və münasibətləri öyrədir. Bu, onların sosial və beynəlxalq əlaqələrinin qurulması və inkişafı

üçün əsaslı zəmin yaradır. Məktəb təhsili zamanı şagirdlərdə əlaqələr qurmaq, dostluq etmək, problemləri həll etmək və mövqe tutmaq kimi bir sıra intellektual, sosial bacarıqlar inkişaf etdirilir.

Məktəbin sosiallaşma prosesində rolu şagirdlərin cəmiyyətə inteqrasiyasının təmin edilməsindən tutmuş onların sosial bacarıqlarının inkişafına qədər geniş spektrdə yer alır. Bu mühitin təminatı şəxsiyyətin sosial və sivilizasiyaya uyğun formalaşmasına, cəmiyyətin faydalı üzvü kimi formalaşmasına kömək edir.

İstifadə olunmuş ədəbiyyat

1. Azərbaycan Respublikasının ümumi orta təhsil sistemində qiymətləndirmə Konsepsiyası. 2009, s.34
2. Bəylərov E. "Şagird nailiyyətlərinin qiymətlədirilməsində yeni yanaşmalar". 2011, s.56
3. Əhmədov H. "Azərbaycan təhsilinin inkişaf strategiyası". Bakı, 2010, s.2

Şərifova Samirə İlham qızı
Elmi rəhbər: Baş müəllim Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

MƏKTƏBLƏRDƏ SOSİAL PEDAQOQLARIN VƏZİFƏ ÖHDƏLİKLƏRİ VƏ FƏALİYYƏTİ

Müasir dövrdə məktəblərdə sosial pedaqoqlara ehtiyacın artması ilə bağlı müxtəlif fikirlər eşidirik. Bəs sosial pedaqoq kimdir? Onlar məktəbdə nə ilə məşğul olur? Fənn müəllimlərindən fərqli olaraq sosial pedaqoqlar, masa arxasında oturmur, məktəbin klubunda, müxtəlif yaş səviyyəsində olan dəstələrdə uşaqların köməyə ehtiyacı olduğu yerlərdə olur. O, uşaqları ilə sərt rəftar edən, uşaqlarına biganə qalan ailələri, əqli və fiziki cəhətdən geri qalan uşaqları, himayəsiz uşaqları aşkara çıxarır. Uşağa və ya ailəyə kömək etmək üçün o, hüquqşünas, həkim, polisi də bu işə cəlb edə bilir. Sosial pedaqoq psixoloqlardan uşağın xəstəliyi haqqında məlumat alır, onların çətinliklərini müəyyənləşdirir, yarana biləcək böyük problemlərin qarşısını almağa çalışır. [1]

Təlimə maraq göstərməyən, dərslərə gəlməyən uşaqların çoxu pis mühitin təsiri altına düşür. Onları vaxtında aşkara çıxarmaq vacibdir. Onların hər biri fərdi qayğı tələb edir. Sosial pedaqoq ailə, məktəb və ictimaiyyətlə birlikdə hər bir uşağın normal həyata qovuşması üçün xüsusi iş aparmalıdır. Şagirdlərin asudə vaxtının səmərəli təşkili, şagirdlərin klub, dərnəklərə cəlb olunması bu baxımdan əhəmiyyət kəsb edir.[2]

Sosial pedaqoqun məktəbdən kənarlaşdırılmış uşaqlarla xüsusi iş aparması da tələb olunur. Bu proses həmin uşaqlara başqa məktəblərə qəbul olunmaqda, yeni kollektivə alışmaqda kömək edir. Sosial pedaqoq dərsdən yayınan, işləyən uşaqları da aşkara çıxarır, uşaq əməyinin hüquq normalarının yerinə yetirib yetirməməsini yoxlayır. Sosial pedaqoqun məktəbə və şagirdə göstərdiyi bu dəstək təhsilin keyfiyyətinə də öz töhfəsini verir.

Ədəbiyyat siyahısı

1. Ə.Ə.Ağayev, Y.T.Rzayeva, T.M.Hüseynova, T.Ə.Vahabova. Sosial Pedaqogika. 2005
2. M.İsmixanov, S.Vəliyeva. Sosial pedaqogika. Bakı-201

Əsədli Fidan Nizami qızı
Təhsil,qrup M23-143
Elmi rəhbər: b/m T. B.Bağırova
Azərbaycan Dillər Universiteti

NARKOMANİYA VƏ ONUN AİLƏLƏRƏ TƏSİRİ

Ailə cəmiyyətin təməlidir. Cəmiyyətin mənəviyyatının uğurlu olması uğurlu ailələrdən asılıdır. Uğurlu ailələr sosial cəhətdən təcrid olunmur və cəmiyyətlə möhkəm əlaqələr yaradır. Uğurlu ailə müsbət ailə və fərdi şəxsiyyət hissini inkişaf etdirir, bütün üzvlər arasında məmnunluq doğuran qarşılıqlı əlaqələri təşviq edir və ailədə daha çox möhkəmlik, birlik əldə etməyə imkan verən yollarla bütün çətinliklərin öhdəsindən gəlir.

Əgər nikahlar uğurlu, ailənin təməli sağlam, uşaqlar düzgün tərbiyə almış olsalar, cəmiyyətin təməli də sağlam olar. Amma təəssüf ki, hazırki dövrümüzdə uğursuz ailələrin statistikası artmaqda, risk qrupu altında olan ailələr çoxalmaqdadır. Bunun bir çox səbəbləri vardır. Bu səbəblərdən biri də, ailədə valideynlərdən hər ikisində və ya birində narkotik asılılığının olmasıdır. "Ailə ilə bağlı risk faktorları çərçivəsində narkotik vasitələrdən istifadə və asılılıq, ailədə mehribanlığın olmamasına, düşmənçiliyə, birbirinə yad münasibətlərə, valideynlərin övladlarına qarşı laqeydliyinə, həddən artıq icazəverici, rəddedici və laqeyd münasibət göstərmələrinə gətirib çıxarır"[3, s.212]. Araşdırmalar göstərir ki, bu cür ailə mühitinə sahib olan yeniyetmələrin gələcəkdə sevgi dolu və sağlam ailə mühitində böyüyən yeniyetmələrə nisbətən narkotik maddələrdən istifadəyə meyilli olmaları ehtimalı daha çoxdur. Nəticə etibarı ilə, uşaqlar düzgün tərbiyədən, qayğıdan məhrum olur və bir çox hallarda fiziki, psixoloji istismara məruz qalırlar. Bu isə uşağın təhsildən yayınmasına, onun akademik uğurlarının azalmasına gətirib çıxarır.

Valideynlərindən hər ikisində və ya birində narkotik asılılığın olması uşaqların sevgisiz böyümələrinə gətirib çıxarmaqla onların sosial, fiziki və emosional inkişafına mənfi təsir göstərir. "Hər bir uşağın valideynlərindən hiss etdiyi və eləcə də valideynin uşaqlarına göstərdiyi münasibət fərqlidir. Müsbət münasibətə sevgi, qayğı, şəfqət, dəstək, maraq kimi müsbət emosiyalar və davranışlar daxildir. Mənfi münasibətdə isə bu müsbət emosiyalar və davranışlar yoxdur, uşağı fiziki və ya psixoloji cəhətdən incidən hiss və davranışların uşaqdan gizlədilməsi və "rəddetmə" var. Uşaqlıqda rədd edilmə, laqeydlik və fiziki istismar isə gələcəkdə xarici davranış pozuntuları ilə nəticələnə bilir" [3, s.215]. Valideynlərin bu kimi davranışları isə uşaqlarda bir çox problemlər yaradır:

-narahatlıq və qorxu hissi. Bu hiss valideynlərin öləcəyi, onların evə zərər verə biləcəyi, atanın anaya zorakılıq göstərməyinin daha yüksək həddə çata biləcəyi düşüncəsindən yaranır.

-kədər hissi. Öz həmyaşıdları tərəfindən qınanmaqdan və valideynlərinin göz önündə özlərini "məhv etməsi"ndən, eləcə də ailə sevgisindən məhrum olmaqdan yaranır. Valideynlərində narkotik asılılığı olduğu üçün uşaq da gələcəkdə valideynləri kimi olacağını düşünür, eyni zamanda həm həmyaşıdları tərəfindən rədd edilmək, həm də ailədə olan yadlaşma hissi uşaqlarda nifrət, unudulmaq, təcrid oluna, məyusluq, tənhalıq, ümidsizlik hissi yaradır.

Bütün bunlara səbəb olmamaq üçün "bir dəfədən bir şey olmaz" deməyin, narkotik vasitələrdən uzaq durun, həyatınızın idarəsini narkotikə verməyin. Valideynləri həyatda olmayan uşaqların onlardan heç bir gözləntiləri olmur. Çünki, bilirlər ki, valideynləri bu dünyada yoxdur. Amma valideynləri sağ ikən "ölü" olan uşaqlar hər zaman qəlblərinin dərinliklərində o sevgini, diqqəti, qayğını gözləyirlər. Burdan anlayırıq ki, məhrumiyyət yoxluqla deyil, varlıqla da olur. Çarls Dikensin təbirincə desək, "dünyada heç bir yetim, yaşayan bir valideynin sevgisindən məhrum olan bir uşaq qədər tərk edilmiş ola bilməz".

İstifadə edilmiş ədəbiyyat:

1. Hüseynova H. "Ailə milli-mənəvi dəyərlərin daşıyıcıdır". Məqalə http://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_may2009/78970
2. Vəlibəyov R. "Ailə sağlam cəmiyyətin və güclü dövlətin təməlidir". Yeni Azərbaycan qəzeti, 23 aprel, 2011, s.10.
3. Serkan Bircan, Gülsen Erden. Madde bağımlılığı: Aile ile ilgili olası risk faktörleri, algılanan ebeveyn kabul-reddi ve çocuk yetiştirme stilleri. Çocuk ve Gençlik Ruh Sağlığı Dergisi: 18 (3) 2011.

Rəhimova Özləm Rəhim qızı
Elmi rəhbər: B/m Tahirə Bağırova Bəkir qızı
Azərbaycan Dillər universiteti

ÇƏTİN UŞAQLAR VƏ ONLARLA APARILAN TƏLİM-TƏRBİYƏ İŞİ

Bugün cəmiyyətdəki əsas problemlərdən biri yetkinlik yaşına çatmayan uşaqlarda olan davranış pozuntusudur. Uşaqlardakı bu davranış pozuntusunun səbəbləri olduqca müxtəlifdir və buna bir neçə amil təsir göstərir. Məsələn, uşağın gec danışmağa başlaması, yaşadığı mühit amilləri, temperament tipi, pis dost seçimi, zorakılığa məruz qalma, genetik faktorlar, travma, diqqət çatışmazlığı, hiperaktivlik kimi hallar çətin tərbiyə olunan uşaqları formalaşdıra bilər. Ona görə də, belə uşaqların fiziki sağlamlığı ilə yanaşı psixi sağlamlığı da daim diqqət mərkəzində saxlanılmalıdır.

M.Bayramovun fikrinə görə, "çox vaxt çətin uşaqların meydana gəlməsi ailə tərbiyəsindəki nöqsanlarla bağlı olur"[1, s.133]. Ailə dəyərlərin, normaların formalaşdığı əsas mühitdir. Məsələn, ailədaxili çəkişmələr, uşağa qarşı zorakılıq, laqeydlik, stresli ailə mühiti, qeyri-sağlam qurulmuş valideyn-övlad münasibətləri, ailədə nizam-intizamın olmaması uşağın inkşafına pis təsir göstərərək onların psixi sağlamlığına zərər vura bilər. Bu məsələyə digər bir tədqiqatçı A.Məmmədova belə münasibət bildirir: "Ana-ata-övlad arasındakı münasibət həm də uşağın gələcək sosial münasibətlərinin əsasını təşkil edir. Sağlam ailə quruluşu cəmiyyətin möhkəm təməllərə söykəndiyini göstərir. Valideyn münasibətlərinin nəzarət və emosional əlaqə ölçüləri ən qabarıq şəxsiyyət xüsusiyyətləridir"[3, s.199].

Əlbətdə, heç şübhəsiz sağlam ailə dinamikası uşağın ictimai həyatda özünə yer tapmasına kömək etməklə ona sağlam zəmin təmin edir. Eləcə də, valideynlər arasındakı keyfiyyətli ünsiyyət uşağın sosial bacarıqlarının formalaşmasında mühüm rol oynayır. Valideynlərin uşaqlara düzgün nəzarəti və onlarla emosional əlaqələri onların cəmiyyətə inteqrasiyasına kömək edir. Bununla biz deyə bilərik ki, ata-ana-övlad münasibəti uşaqların sosial inkşafında əsas faktorlardan biridir.

Ailə mühitindən sonra uşağın formalaşmasına təsir edən digər mühüm mühit məktəbdir. Məktəb şagirdin akedemik inkşafı ilə yanaşı sosial, emosional və psixi inkşafına da olduqca böyük təsir göstərir. Müsbət öyrənmə mühiti uşaqlarda müsbət xüsusiyyətlər formalaşdırdığı halda, mənfi məktəb mühiti uşaqlarda özünəinamsızlıq, qorxu, stress, aqressiya kimi bir çox xoşagəlməz xüsusiyyətlər formalaşdırır. Pis şəkildə təşkil olunmuş müəllim-şagird münasibəti, şagirdlər arasındakı ayrı-seçkilik, zorakılıq, təyziq uşaqlarda davranış pozuntusuna gətirib çıxara bilir.

Uşaqlarda davranış pozuntusuna səbəb olan sosial fobiya(qorxu) da ailədə başlayıb məktəbdə daha da inkşaf edir. Biz bunu H.Xəlilovun araşdırmasında da görə bilərik. Valideynlərin uşaqlara qarşı həddindən artıq tənqidi və qoruyucu yanaşma tərzi uşağın özünə güvənini aşağı sala və sosial münasibətlərdən uzaqlaşmasına səbəb olur.

Çətin uşaqların təlim-tərbiyəsi olduqca həssas məsələdir. Çünki bu qrupa aid olan uşaqların hər birinin özünəməxsus spesifik xüsusiyyətləri olduğu üçün bəzi hallarda ənənəvi təlim metodları kifayət etmir, fərdi təlim planlarına ehtiyac duyulur. Onlarla təlim-tərbiyə prosesində olduqca səbirli və təmkinli olmaq lazımdır. Çətin tərbiyə olunan uşaqlarla yaxın əlaqələr qurmaq və onları daim nəzarətdə saxlamaqla problemlərinə uyğun dəstək xidməti həyata keçirmək olar. Bundan əlavə çətin tərbiyə olunan uşaqları etdikləri səhvlərə görə cəzalanadırmaq əvəzinə rəğbətləndirmə, mükafatlandırma yolu ilə onlarda müsbət davranışları inkşaf etdirmək lazımdır.

Çətin uşaqların təlim-tərbiyəsi zamanı müəllim-valideyn, eləcə də sosial pedaqoq hətta ehtiyac olarsa, psixoloq birlikdə fəaliyyət göstərməli və əməkdaşlıq etməlidirlər. Bütün bu dəstək tədbirləri ilə "çətin uşaqlar" öz potensiallarını reallaşdıra və özlərini ən yaxşı formada inkşaf etdirib uğur qazana bilərlər.

Ədəbiyyat siyahısı

1. Bayramov. M. "Müasir məktəbin "çətin" uşaqlar problemi və onlarla aparılan işin psixoloji və pedaqoji xüsusiyyətləri". Respublika Elmi Konfransının Materialları (tezis və məqalələr).Əbdül Əlizadə : "Azərbaycan psixologiyasının tarix və inkşaf perspektivkəri." Bakı , 2023.
2. Xəlilov H. "Uşaq və yeniyetmələrin inkşafının sosial-psixoloji məsələləri". Qafqaz Univeristeti Nəşri. Bakı, 2010, № 45.
3. Məmmədova A. "Valideynlərin şəxsiyyət xüsusiyyətlərinin və situativ faəliyyətinin yeniyetmələrin qeyri-adi davranışında rolunun qiymətləndirilməsi" (tezis). Sosial və humanitar elmlərin müasir problemləri. Bakı, 2021, №27.

Abdullayeva Sara Aslan qızı
Elmi rəhbər:b/m Bağırova Tahirə Bəkir qızı
Azərbaycan Dillər Universiteti

TƏLİM TƏRBİYƏ PROSESİNDƏ ŞAGİRD ŞƏXSİYYƏTİNİN İNKİŞAFI

Müəyyən ictimai vəzifəni yerinə yetirən, ətraf aləmə təsir göstərən, fərdi xassələri olan, cəmiyyətin özəyini təşkil edən insana şəxsiyyət deyilir. Hər bir insanın şəxsiyyət olaraq yetişməsinə bir sıra amillər təsir göstərir: irsiyyət, mühit, tərbiyə, fərdi təcrübə. İnsanın ilkin tərbiyəsi ailədən başlanır. Daha sonra əsaslı inkişaf məktəbəqədər təhsil müəssiəsi və məktəbdə həyata keçirilir. Burada əsas məqsəd şagird şəxsiyyətini düzgün şəkildə formalaşdırmaq və gənc nəslin mənəvi aləmini zənginləşdirməkdir.

Müasir təhsil sistemi müəllimlərdən hər bir məktəbliyə fərdi yanaşmağı, şagirdin öyrənmə motivasiyasını artırmağı, obyektiv və ədalətli qiymətləndirməni bacarmağı tələb edir. Bunun üçün pedaqoji proses subyekt-subyekt əməkdaşlığı üzərində qurulmalıdır. Əsas məqsəd uşaqların dərsə yaradıcı və maraqla yanaşmasını, yeni məlumatları araşdırmağa həvəsli olmasını, öz fikirlərini asanlıqla ifadə etməsini təmin etməkdir.

Təlimin öyrədici, tərbiyəedici və inkişafetdirici kimi vəzifələri vəhdət təşkil edir. Öyrədici vəzifə məktəblini hərtərəfli biliklə təmin etməyə xidmət edir.Təhsilverən şagird qarşısında ətraf aləmi dərk etmək üçün suallar qoyur və hadisələrin səbəbləri haqqında fikirləşməyə yönəldir, fənlərarası inteqrasiya yaratmaqla şagirdlərdə kəşf etmək, yeni informasiya əldə etmək həvəsi oyadır. İnkişafetdirici vəzifə məktəblinin inkişafını surətləndirməyə yönəlir. Təlimin tərbiyəedici vəzifəsi müəllimin iştirakı ilə məktəblinin dünyagörüşünün formalaşmasına, yüksək ideyaları və mədəni dəyərləri özündə birləşdirən şəxsiyyət olaraq yetişməsinə xidmət edir.

Təlimin səmərəliliyi şagirdlərin tutduğu mövqedən, müəllim şagird ünsiyyətindən və bu ünsiyyətin keyfiyyətindən, akademik göstərici və nailiyyətlərdən asılıdır. Təcrübəli müəllimlər klaster, keyslər, işgüzar oyunlar, müzakirə, debat, sual-cavab, layihə və s. kimi pedaqoji texnikalardan istifadə edirlər. "Orta ümumi təhsil məktəblərində təlim prosesi müəllimin rəhbərliyi altında şagirdlərin həyata hazırlanmasını surətləndirmək məqsədilə onların təhsil, tərbiyə və inkişaflarını daha səmərəli təmin etməyə istiqamətləndirilən elə pedaqoji prosesdir ki, burada şagirdlərin imkanlarına uyğun inkişaf dərəcəsində əqli və əməli fəaliyyətə cəlb olunma qanunauyğun şəkildə biri digərini əvəz edir" (2, səh 27).

Uşaqların vətənpərvərlik, dünyəvilik, milli mənəvi və bəşəri dəyərlərə hörmət ruhunda böyüdülməsində tərbiyə amili xüsusi rol oynayır.Tərbiyə prosesində əsas yeri müəllimin fəaliyyəti tutur ki, buna daxildir: şagirdin fərdi keyfiyyətlərinin, tələbat və maraqlarının öyrənilməsi, şagirdlərlə fərdi iş formalarının təşkili. İkinci məqsəd tərbiyəedici mühitin yaradılması ilə bağlıdır. Bunun üçün məktəbli ilə xoş, səmimi və emosional mühitin təşkili, uşaqda özünə inam və idarənin inkişafı, kollektivdə birgə işin təşkili təmin olunmalıdır. Üçüncü məqsədə isə informasiya və kommunikasiya vasitələrinin tətbiqi, digər tədris müəssisələri ilə əlaqə daxildir.

Tərbiyə yaşlı nəslin uğurlu təcrübəsinin gənc nəslə ötürülməsi və tətbiqi ilə həyata keçirilir. Hər bir pedaqoqun strateji məqsədi uşağın sosiallaşmasını təmin etməkdir. Bu da insanın özünü realladırmasına, cəmiyyət tərəfindən mədəniləşdirilən ideala çatmasına imkan yaradır. Sinifdənxaric işlər zamanı şagirdlərin tərbiyəsinin mükəmmələşdirilməsi üçün muzeylər, uşaq kitabxanaları, uşaq və gənclər idman məktəbləri, müxtəlif dərnəklər, uşaq teatrları və başqa qurumlarla əlaqə yaradılmalıdır. Çünki belə məktəbdənkənar təbiyə müəssisələri uşaqların hərtərəfli inkişafına, həmçinin məktəb kollektivinin işinə kömək edir.

Göründüyü kimi, hər bir məktəblinin gələcəkdə cəmiyyətə yararlı şəxsiyyət kimi yetişməsində uğurlu təlim-tərbiyənin rolu var. Bunun reallaşması üçün ümumtəhsil müəssisələrində daim əlverişli maddi və mənəvi-psixoloji mühitin olması hər zaman diqqət mərkəzində saxlanılmalıdır.

İstifadə edilmiş ədəbiyyat:

1. Əliyev P. "Ümumitəhsil müəssisələrində tərbiyə işinin təşkilinin nəzəriyyəsi və metodikası". Monoqrafiya. B., 2023.
2. İbrahimov F., Hüseynzadə R. Pedaqogika. Dərslik. I cild. B., 2012.
3. Talıbov Y., Ağayev Ə. və b. Pedaqogika. Dərs vəsaiti. B.,2003.

Fidan Abbasova Etibar qızı.
Elmi rəhbər: Günay Seyidova Akif qızı.
Azərbaycan Dillər Universiteti

GÖRMƏ MƏHDUDİYYƏTLİ ŞAGİRDLƏRLƏ TƏLİM PROSESİNDƏ İSTİFADƏ OLUNAN KÖMƏKÇİ TEXNOLOGİYALARIN TƏSNİFATI

Müasir dövrümüzdə görmə məhdudiyyətli şagirdlər həm gündəlik həyatda, həm də təhsildə bir sıra çətinliklərlə üzləşirlər. Texnologiya sayəsində tələbələrə gündəlik tapşırıqları yerinə yetirməkdə kömək etmək üçün müxtəlif alətlər, cihazlar və strategiyalar hazırlamaq imkanı var. Bu cür yanaşma onlara adətən başqalarının köməyini tələb edən və ya çətinliklə həll oluna biləcək sualları həll etməyə imkan verir.

Nəzər yetirsək ki, 5-20 yaş arası gözdən əlillərin sayı 600 mindən çoxdur. Bu yaş həddi ibtidai məktəb, orta məktəb və eləcə də universitetin ilk illərini əhatə etdiyi üçün xüsusilə vacibdir. Təhsil prosesinin ən gərgin olduğu illərdə müxtəlif növ əlilliklərdən yaranan problemlər ciddi nəticələrə gətirib çıxara bilər. Burada psixoloji amillər də önəmlidir. Əlilliyi olan tələbələr öyrənmə çətinlikləri səbəbindən mənfi emosional vəziyyətlər yaşaya bilərlər. Belə bir vəziyyət potensial olaraq aşağı özünə hörmətə, zəif sosial bacarıqlara, həmyaşıdlarla qarşılıqlı əlaqədə çətinliklərə və digər uzunmüddətli nəticələrə səbəb ola bilər.

Müxtəlif təcrübələrlə müəllimlər görmə qabiliyyəti zəif olan şagirdlərə yüksək səviyyədə müstəqilliklə kurrikulumda iştirak etməyə imkan verən vasitələrdən istifadə etməyə kömək edə bilər. Bu cür yanaşma tələbələrə müstəqil yaşamaq və ali təhsil almaq üçün lazım olan bacarıqları əldə etməyə imkan verəcək.Hər bir tələbə fərqli xüsusiyyətə sahib olduğundan, köməkçi texnologiya müxtəlif formalarda ola bilər. Xüsusi vəziyyətdən asılı olaraq, texnoloji olduqc sadə və ya mürəkkəb ola bilər. Əl böyüdücüləri, təzələnən brayl displeyləri və ya ixtisaslaşdırılmış e-təhsil xidmətləri köməkçi texnologiya tətbiqi nümunələri hesab edilə bilər. Müəyyən bir texnologiyanın görmə qabiliyyəti zəif olan bir şagirdin təhsil prosesini necə sadələşdirə biləcəyini daha yaxşı başa düşmək üçün bəzi nümunələri nəzərdən keçirək.

Oxumaq və yazmaq üçün köməkçi texnologiya-köməkçi texnologiyanın ən sadə nümunələrindən biri sayıla bilən əl böyüdücülər, daşınıla bilən balaca texnologiyalı alətlər tələbələrə mətn, şəkillər və digər vizual məlumatlara daxil olmaqda kömək edir. LCD ekranları və tənzimlənən böyüdücüləri olan rəqəmsal əl böyüdücüləri də var.

Səsli kitablar texnologiyanın görmə qabiliyyəti zəif olan tələbələr üçün məlumatları daha əlçatan etdiyini göstərən tipik nümunədir. Bu cür kitablar insan səsi ilə yazılır və tələbə xüsusi qurğular və ya proqram təminatı vasitəsilə bu kitablara daxil ola bilir. Genişlənmiş mətnlər və səsli kitab kolleksiyası olan xüsusi hazırlanmış web-saytlar tələbələrə heç bir xüsusi avadanlıqa ehtiyac olmadan xüsusi fənləri öyrənməyə imkan verir.

WAI-ARIA əlilliyi olan şəxslərə web məzmuna daxil olmaq imkanı vermək yollarını təsvir edən spesifikasiyadır. WAI-ARIA istifadəçini web səhifənin cari vəziyyəti haqqında məlumatlandırmağa imkan verən xüsusi əmrlərdən və metaməlumatlardan istifadə edir.

Tələbələr mətn prosessoru ilə birlikdə təzələnən Brayl ekranlardan istifadə edə bilərlər. Belə yanaşma mətnə toxunma ilə baxmağa imkan verir ki, bu da tələbələrə mətni yenidən oxumağa və redaktə etməyə kömək edir.

Bu gün texnologiyanın mövcud səviyyəsi ilə görmə qabiliyyəti zəif olan şagirdlər üçün təhsilin əlçatanlığını artırmaq imkanı var. Bəzi hallarda, bu cür tələbələr başqaları ilə eyni dərəcədə öyrənmədə iştirak edə bilərlər. Köməkçi texnologiya tətbiqlərinin geniş çeşidi müəyyən bir tələbə üçün daha yaxşı uyğun olan həlli seçməyə imkan verir. Seçim göz xəstəliyinin növü, dəyəri və digər amillərdən asılıdır.

Ədəbiyyat siyahısı:

1. Best A.B. Teaching Children with Visual Impa-irments, Milton Keynes: Open University Press, 1992.
2. Birsh J.R. Multisensory Teaching of Basic Language Skills, Baltimore, MD: Brookes, 1999.
3. Hoon A.H. 'Visual impairments in children'. In A.J.Capute and P.J.Accardo (eds) Developmental Disabilities in Infancy and Childhood, v. 2, Baltimore, MD: Brookes, 1996.
4. İnklüziv təhsil pedaqogikası.

Hüseynova Oksana Yaşar qızı

Təhsil 2, Qrup:220b,
Elmi rəhbər: b/m.Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

ÇƏTİN UŞAQLARDA TƏRBİYƏ İŞİNİN XÜSUSİYYƏTLƏR

Uşaqların nəsihətdən çox yaxşı nümunəyə ehtiyacı var.
Jozef Jubert

Tərbiyə insan həyatında əhəmiyyətli və müstəsna bir rol oynayır. İnsan həyatının müxtəlif mərhələlərində tərbiyənin müsbət təsiri və əhəmiyyəti hiss olunur:

Çətin uşaqlar, müxtəlif səbəblərə görə diqqət mərkəzində olan və müasir tərbiyə prosesində ən çox çətinlik çəkən qrupu təşkil edirlər. Bu kateqoriyaya aid olan uşaqlar adətən sosial və psixoloji problemləri olan uşaqlar olur. Bura daxildir: Ailə içi problemlər (zorakılıq, ayrılıq, soyuqluq, maddi sıxıntılar, mülki mübahisələr), yaxınlarının ölümü, ictimai problemlər, şiddətə məruz qalma və s. kimi məsələlər səbəbindən psixoloji və sosial problemlər yaşayan uşaqlar. Bu uşaqlara dəstək olmaq və onların potensiallarını müəyyən etmək üçün maarifləndirmə işləri təşkil edilməlidir. Məktəbdə sinif rəhbərləri, sosial pedaqoqlar və psixoloqlar bu qrupa aid uşaqları daim nəzarətdə saxlamalı olarla müəyyən işlər aparmalıdırlar. Eyni zamanda valideynlərdə daim uşaqları ilə maraqlanmalı gərəkdiyi anlarda mütəxəssis dəstəyi almalıdır. Çətin tərbiyə olunan uşaqlara yanaşmaq üçün bir neçə əsas prinsip və taktikanı izləmək faydalı ola bilər:

Empatya qurmaq: Uşaqların problemlərinə və davranışlarına doğru anlayış və qarşılıq göstərmək əsaslıdır. Onların nəyə üz tutduğunu və hansı məsələlərdə dəstəyə ehtiyacı olduğunu başa düşmək, onları anladığınızı hiss etdirmək önəmlidir.

Məsələləri həll etmək üçün birlikdə işləmək: Uşaqla məsələləri həll etmək və problemləri müzakirə etmək üçün bir araya gəlmək, onların fikirlərini və duyğularını eşitmək və həll yolları axtarmaq əlverişli ola bilər.

Səbirlə yanaşmaq: Çətin tərbiyə olunan uşaqların davranışları zamanı səbrli olmaq faydalı ola bilər.

Pozitiv olmaq: Uşaqları müvəqqəti nailiyyətlər üçün təşviq etmək, onların özünə inamını artırmaq və müsbət davranışları qeyd etmək önəmlidir.

Əlaqəni gücləndirmək: Uşaqların nəzarət mərhələlərində əlaqəni gücləndirmək, onlara dəstək olmaq.

Tərbiyə planı hazırlamaq: Uşaqların davranışlarını yönəltmək üçün bir tərbiyə planı hazırlamaq, məsələləri müəyyənləşdirmək və həll etmək üçün bir çərçivə təşkil edə bilmək.

Ümumiyyətlə çətin uşaqlarla ünsiyyət zamanı cəza, təhdid, aşağılama, qışqırmaq, bədən dili ilə reaksiya verməkkimi mənfi hallardan çəkinmək lazımdır. Çünki, uşaqlar sözlərdən istifadə etməklə deyil, böyükləri modelləşdirməklə öyrənirlər. Ən əsası odur ki, əməllərimiz ağzımızdan çıxana uyğun olsun. Əks halda sözlərimiz heç bir məna kəsb etməyəcək.

İstifadə olunmuş ədəbiyyat

1. Zeynalova N.E.İnklüziv təhsilin pedaqogikasi .Bakı:Elm və təhsil,2021
2. Zeynalova N.E.Pedaqogikada yeni yanaşmalar və kurikulum.Bakı : Elm və təhsil,2021

Şamilzadə Zəkiyyə Ceyhun qızı
Elmi rəhbər: dosent Quliyev Akif Əlihüseyn oğlu
Azərbaycan Dillər Universiteti

MÜƏLLİMİN RƏHBƏRLİK ÜSLUBUNUN ŞAGİRDLƏRDƏ TƏFƏKKÜRÜN FORMALAŞMASINA TƏSİRİ

"Öyrətmənin evi kitabxana, dövləti kiçik öyrəncilər, sazı, nəğməsi onların sədası, qazancı isə millətin məhəbbət və ehtiramıdır" Tanınmış Azərbaycan pedaqoqu Sultan Məcid Qənizadə.

Müasir dövrdə şagirdlərin maraq dairəsi, eləcə də öyrənmək istədikləri sahələr artır və inkişaf edir. Orta əsrlər dövrünün ən böyük təbiblərindən biri və maarifçisi İbn Sina müəllimdə aşağıdakı keyfiyyətlərin olmasını zəruri hesab edirdi: Dərs dediyi fənni mükəmməl bilməlidir, hərəkətləri biliyinə uyğun

olmalıdır, şagirdlərə öz övladı kimi rəftar etməlidir, tədris planını şagirdlərin əqli qabiliyyətinə uyğun olaraq ardıcıllıqla tətbiq etməlidir.

Təlim prosesinin başlıca məqsədlərindən biri şagirdlərin təfəkkürünün inkişafını təmin etməkdir. Ənənəvi təlimdə biliklər hazır şəkildə şagirdlərə ötürülürdü. Dərs zamanı onların müstəqil düşünməyi üçün şərait yaranmırdı. Bu da şagirdlərin əqli keyfiyyətlərinin zəif inkişafına, hətta şagirdlərin kütləşməsinə səbəb olurdu. Müəllim şagirdlərə bilikləri mənimsətməklə yanaşı, müstəqil şəkildə əldə etmək bacarıqları da formalaşdırılmalıdır. Şagirdləri fəallaşdırmaq, onlarda tənqidi münasibət formalaşdırmaq üçün ilk öncə müstəqilliyi təmin etmək lazımdır. Bununla yanaşı ,müstəqil işləmək, məsələlərə yaradıcı yanaşmaq bacarıqları şagirdin əsas keyfiyyətlərindən olmalıdır. Şagird problemli situasiya ilə qarşılaşdıqda bu bacarıqları əldə edə bilər. O öz gücünə biliklər əldə etdikdə, sonrakı fəaliyyətlər üçün motivasiya formalaşır.

Bütün bunlar sağlam pedaqoji mühitdə əldə edilə bilər. Şagird gərginliyin hökm sürdüyü sinifdə, sadəcə ondan təıəb ediləni yerinə yetirməyə çalışır. Demokratik ortamda isə tamamilə əksinədir. Demokratik mühitdə şagirdlərə şəxsiyyət kimi yanaşılır, onların düşüncələri, fərdi xüsusiyyətləri dərs prosesində nəzərə alınır. Belə olduqda şagirdlərin əqli keyfiyyətləri inkişaf edir, inkişafa can atır, cəmiyyətə faydalı vətəndaş kimi formalaşır

Pedaqoji ünsiyyət və rəhbərlik üslubuna görə müəllimləri dörd qrupa bölmək olar: avtoritar, avtokratik, demokratik, liberal.

Yuxarıda qeyd olunan hər bir ünsiyyət və rəhbərlik üslubunun özünəməxsus xüssusiyyətləri var. Lakin, birmənalı şəkildə demək olmur ki, hansı metod yaxşıdır. Şagirdlər fərqli maraq, meyil, tələbatlara malik olurlar və dərs prosesi zamanı müəllim bu fərqlilikləri nəzərə almalıdır. Təbii ki, şəraitdən asılı olaraq ünsiyyət və rəhbərlik üslubunda dəyişiklik etmək vacibdir, amma demokratik üslub daima fonda olmalıdır. Ünsiyyət və rəhbərlik üslublarının xüsusiyyətləri ilə tanış olaq:

1. Avtoritar – Burada müəllim təlim-tərbiyə prosesinin yeganə subyekti kimi çıxış edir, şagird isə yalnız obyekt, yəni kiçik bir mexanizm rolunu oynayır. Belə müəllimlər həmişə hökmran olmağa çalışırlar.

2. Avtokratik – bu ünsiyyət və rəhbərlik üslubu əksər xüsusiyyətlərinə görə avtoritara bənəzyir, lakin avtokratikdən fərqli olaraq, avtoritar müəllim nisbətən həlim rəftar edir, nəticə etibarı ilə qərarı özü qəbul etsə də, tələbələrin rəyini öyrənir, hər hansı bir məsələni onlarla birlikdə müzakirə edir.

3. Liberal – Liberal müəllimlərin dərsi maraqsız və emosional cəhətdən sönük olduğu üçün tələbələrdə aktivlik aşağı düşür. Liberal müəllim şagirdlərin fəaliyyətinə, çalışmalarına çox məhdud nəzarət edir. Şagirdlərin mövzu ilə bağlı sərbəst fikirlərinə, əlavə məlumatlarına etinasız yanaşır. [2, s. 68-71]

4. Demokratik- Demokratik müəllim şagirdlərin fəaliyyətinə ümumi nəzarəti həyata keçirir, dərsin gedişatında şagirdlərin fəallığının təmin edilməsi üçün şərait yatradır. [2, s. 78-81]

45 dəqiqə ərzində müəllim sinifdə həm öyrədəndir, həm də idarəedəndir. Vaxtdan səmərəli istifadə etmək, şagirdlərdə motivasiya yaratmaq, müəllimin ən başlıca vəzifəsidirsə, üslubu, formanı seçmək isə onun hüququdur.

Ədəbiyyat siyahısı:

1. Psixologiya. Prof. S. İ. Seyidov , prof M.Ə Həmzəyevin redaktorluğu ilə Bakı, "Nurlan" , 2007
2. H.Əhmədov, Nigar Zeynalova, Pedoqogika (ali məktəblilər üçün vəsait)

Mustafayeva Qəndab Sacəddin qızı
Elmi rəhbər: Dosent Quliyev Akif Əlihüseyn oğlu
Azərbaycan Dillər Universiteti

TƏLƏBƏ GƏNCLƏRİN ÖZÜNÜQİYMƏTLƏNDİRMƏSİ VƏ ÖZÜNÜTƏRBİYƏSİNİN PSİXOLOGİYASI

İnsanın özü haqqında təsəvvürlərin formalaşması bilavasitə özünüqiymətləndirmə ilə bağlıdır. İnsan özü özündə mühüm olan hər şeyi qiymətləndirir. Bununla yanaşı müəyyən həyati situasiyalarda, xüsusilə ailədə və kollektivdə insan öz üzərinə məsuliyyət götürüb mühüm bir addım atdıqda, özünüqiymətləndirmə xüsusilə mühüm əhəmiyyət kəsb edir. Özünüqiymətləndirmə özünümüşahidə və özünütəhsil yolu ilə formalaşır. Özünüqiymətləndirmə özünüsevmə, özünəhörmət, öz ləyaqətini saxlamaq və s. kimi emo-

sional qiymətlərə əsaslanır. Psixoloji tədqiqatlar özünüqiymətəndirmənin üç səviyyəsini müəyyənləşdirməyə imkan verir:

1. Adekvat özünüqiymətlədirmə - şagird özünün ayrı-ayrı keyfiyyətlərini əsasən düzgün qiymətləndirir.

2. Qeyri-adekvat aşağı özünüqiymətləndirmə - şagird özünün ayrı-ayrı keyfiyyətlərini layiq olduğundan aşağı qiymətləndirir.

3. Qeyri-adekvat yuxarı özünüqiymətləndirmə - şagird özünün ayrı-ayrı keyfiyyətlərini layiq olduğundan yuxarı qiymətləndirir.

Əgər şagird özünə adekvat qiymət verirsə, onu daha da möhkəmləndirmək lazımdır. Şagird özünə qeyri-adekvat qiymət verməsini şərtləndirən amilləri müəyyənləşdirmək və aradan qalıdrmaq lazımdır. Ailənin tipi, ailə münasibətlərinin xarakteri, tərbiyə üsulu, şagirdin sinifdəki mövqeyi- bunların hamısı özünüqiymətləndirməyə mühü təsir göstərir və onun adekvatlıq dərəcəsini müəyyən edir. [2, s.31]

Özünüqiymətləndirmənin böyük əhəmiyyəti vardır. O insanın davranışının tənzim olunmasında mühüm rol oynayır. İnsanın başqa adamlarla qarşılıqlı münasibətləri, onun öz uğurlarına və uğursuzluqlarına münasibəti, ayrı-ayrı həyati situasiyalarda davranış və rəftarı özünüqiymətləndirmədən asılıdır. Başqa sözlə özünüqiymətləndirmə insanın fəaliyyətinin səmərəliliyinə və onun bir şəxsiyyət kimi inkişafına mühüm təsir göstərir. [1, s.230]

Özünütərbiyə insanın şüurlu olaraq qarşısına qoyduğu məqsədə, ideal və inamlarına müvafiq şəkildə öz şəxsiyyətində dəyişiklər etməyə yönəlmiş fəaliyyətlərindən ibarətdir. Özünütərbiyənin həyata keçməsi üçün şəxsiyyətin və onun özünü dərk etməsinin müəyyən inkişaf səviyyəsinin, özünün hərəkətlərini başqalarının hərəkətləri ilə müqayisə zamanı təhlildən istifadə edə bilmək qabiliyyətinin, eləcə də daim özünütəkmilləşdirmək ustanovkasının olması tələb edilir.

Şəxsiyyətin özünütəkmilləşdirməsi onun cəmiyyətdəki həyati tələbatları və fəaliyyəti ilə, inkişafı ilə şərtlənir. İnsanın yaşadığı ictimai şərait, aldığı təlim və tərbiyə onun özünütərbiyəsində həlledici rol oynayır.

İctimai həyatı, eləcə də onu əhatə edən mühitin tələblərini, öz qüvvə və imkanlarını aydın dərk etmək əsasında insanın öz həyatını daha münasib əsaslar üzrə qurmaq üçün arzu etdiyi keyfiyyətləri özündə inkişaf etdirməsi və ya malik olduğu şəxsi keyfiyyətləri dəyişdirməkdən ötrü özünə şüurlu, planlı, məqsədəuyğun və müntəzəm surətdə təsir etməsi, rəftar və davranışını təkmilləşdirmək qayğısına qalması özünütərbiyə adlanır.

Həyati faktlar özünütərbiyənin geniş imkanlara malik olduğunu bir daha təsdiq edir. Bir çox görkəmli adamlar uşaqlıqdan pis təlim-tərbiyə almalarına, onların şəxsiyyətində bir sıra qüsurların olmasına baxmayaraq gənclik və sonrakı dövrdə özünütərbiyənin köməyi ilə öz şəxsiyyətlərinin yüksək inkişaf mərhələsinə yüksələ bilmiş, davranış və fəaliyyətlərindəki qüsurları aradan qaldıra bilmişlər. Məsələn, görkəmli rus yazıçısı L.N.Tolstoyun özünün etirafına görə o, uşaqlıq və ilk gənclik dövründə öz xarakterində, davranışında olan qüsurları, o cümlədən tənbəllik, lovğalıq şöhrətpərəstlik və s. kimi mənfi cəhətləri aydın şəkildə görə bilmiş və həmin qüsurlara qarşı ciddi döyüş elan etmişdir. Bütün həyatı boyu özündə əməksevərlik, humanizm, düzgünlük, cəsarətlilik keyfiyyətləri tərbiyə etmişdir. [3, s.508-509]

Ədəbiyyat:

1. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə Psixologiya.- Bakı, 2009
2. Q. Əzizov Psixologiya.- Bakı, 2013
3. S.İ. Seyidov, M.Ə. Həmzəyev Psixologiya.- Bakı, 2007

Bayramlı Ləman Azər qızı
Elmi rəhbər: Dosent Quliyev Akif Əlihüseyn oğlu
Azərbaycan Dillər Universiteti

GƏNCLİK DÖVRÜNDƏ BAŞ VERƏN SOSİAL-PSİXOLOJİ ZİDDİYYƏTLƏR VƏ ÇƏTİNLİKLƏRİN XÜSUSİYYƏTLƏRİ

Hərkəsə məlum olduğu kimi, uşaqların inkişaf prosesi bəzi alimlərə görə fasiləsiz, bəzilərinə görə isə qeyri-bərabər xarakter daşıyır. Hər bir inkişaf dövründə isə aparıcı amillər mövcuddur. Bütün uşaqların fərdi xüsusiyyətlərindən asılı olmayaraq, onlar inkişafın hər bir mərhələsini ardıcıl şəkildə keçirlər. D.

B.Elkoninə görə uşaq anadan olandan 17 yaşa qədər olan dövrdə ardıcıl olaraq 6 yaş dövrünü keçir: körpəlik dövrü, erkən uşaqlıq dövrü, bağça yaşı dövrü, kiçik məktəb yaşı dövrü, yeniyetməlik dövrü, ilk gənclik dövrü. Bu gün gənclik yaşı dövründə baş verən sosial-psixoloji ziddiyyətlərdən danışacağıq. Gənclik insanın həyatında uşaqlıq dövrünün başa çatması, insanın fiziki cəhətdən yetkinləşməsi psixoloji cəhətdən özünəməxsus yüksək keyfiyyətlərin formalaşması dövrüdür. İnsanın yaşlılıq həyatı məhz bu dövrdən,18 yaşdan etibarən başlanır. Bu dövr mənlik şüuru və dünyagörüşünün, məsul qərarların qəbulu, dostluğun, məhəbbətin formalaşması mərhələsi kimi də xarakterizə edilə bilər. Bu dövrdə gənclərdə intellektual keyfiyyətlərin inkişafı özünü yüksək səviyyədə göstərir. Nəzəri və məntiqi təfəkkür inkişaf edir, təfəkkür əməliyyatları-təhlil, tərkib,müqayisə, ümumiləşdirmə,sistemləşdirmə, konkretləşdirmə,ağlın tənqidiliyi, çevikliyi qabarıq şəkildə təzahür edir. Bu dövrdə tələbələrin maraq dairəsi genişlənir:onların maraqları yalnız təlimlə məhdudlaşmır,digər fəaliyyət sahələrini də (idman, rəsm,incəsənət,şəxsi həyatın təşkili və.s) əhatə edir. Bu dövrdə gənclərin formalaşması həm bioloji, həm sosial, həm də psixoloji amillərin təsiri ilə baş verir. Bu da öz növbəsində bəzi ziddiyyətləri ortaya çıxmasına səbəb olur. Həmin sosial-psixoloji ziddiyuətlərə nəzər salaq: [1, s. 439-446]

1.Günümüzün ən mühüm problemlərindən biri: gənclərin arzuları və onların həyata keçirmək imkanları arasında olan ziddiyyət

2.Maddi və mənəvi tələbləri təmin etmək üçün iqtisadi imkanlar arasında olan ziddiyyət.

3.Böyük həcmli materialları dərk etmək imkanları və vasitələri arasında ziddiyyət

4.Ali məktəb həyatının ciddi norma və qaydaları ilə tələbənin müstəqilliyi arasında olan ziddiyyət və.s.

Gənclik dövrü həm tələbələr,həm də onların valideyinləri üçün çətin olan bir dövrdür. Əvvəl qeyd etdiyim kimi, bu dövr ilk saf hisslərin, mənlik şüurun formalaşdığı bir dövrdür. Burda valideynlərlə övladlar arasında ziddiyyətlər baş verə bilər. Əgər valideyin övladının davranışında nəyisə bəyənmirsə, vaxtında buraxılmış səhvlərin nədən ibarət olduğunu düzgün təyin etməli və bu problemi aradan qaldıracaq yolları təhlil etməlidir. Çünki bu dövrdə edilən tərbiyəvi təsirlər konflikitlərə səbəb ola bilər. Əgər hər hansısa bir dövr tərbiyədə avtoritar mövqeyi dəstəkləyirdisə, hal-hazırda zorakı tərbiyə üsulları qəbul edilmir. Çünki, həmin üsullar gənclərin psxoloji problemlərini həll etmir, əksinə onların həyata qarşı daha aqressiv olmasına səbəb olur. Bunun üçün gənclərin çətinliklərini dinləmək, onları anlamaq lazımdır. Sonda əlavə etmək istərdim ki, əgər gələcək üçün sağlam düşüncəli, həyati təcrübəsi olan bir gənc yetişdirmək istəyiriksə, ilk olaraq onlara səhv etməyə icazə verməliyik. Unutmayaq ki, hər səhv yeni bir təcrübədir. Öz mənini dərk edən şəxs həmin səhvləri təhlil edərək, öz xarakterini tam şəkildə dərk edir, məqsədlərini müəyyənləşdirir və həyatda daha sağlam düşüncəli qərarlar qəbul etmə bacarığına yiyələnir.

Ədəbiyyat siyahısı:

1. S.İ Seyidov , M.Ə Həmzəyev, Psixologiya- Bakı, 2007

Əhlimanova Xəyalə Rövşən qızı
Elmi rəhbər:baş müəllim Məhbubə Ələkbərova
Azərbaycan Dillər Universiteti

GÖRMƏ ƏNGƏLLİ UŞAQLARDA NİTQ POZUNTULARI

Dil – insanlar arasında ünsiyyət vasitələri və fikirlərin ifadə üsulları sistemidir. Nitq – insanın başqa insanlarla ünsiyyət qurmaq üçün praktiki mənimsəmə prosesidir. Qarşılıqlı ünsiyyətdə insanlar fikir və hisslərini nitqin və dilin köməyi ilə ifadə edirlər.

Ünsiyyət prosesində insanın nitqi və dili şüurun, təfəkkürün və bütün zehni fəaliyyətin inkişafı üçün böyük əhəmiyyət kəsb edir.

Görmə məhdudiyyətli və zəif görən insanlar da, əslində, normal görən insanlar kimi dil və nitq vasitəsilə ünsiyyət qura bilirlər. Lakin görmə məhdudiyyətli uşaqlar görən uşaqlara nisbətən daha çox problemlə qarşılaşırlar. Normal görən insanlar ətraf mühiti gözləri ilə kəşf edir. Görmə əngəllilər isə digər analizatorların köməyi ilə ətraf mühiti anlamağa çalışırlar.

Bütün uşaqlar kimi, görmə məhdudiyyətli və ya zəif görən uşaqlarda da nitq qüsurları yarana bilir, hətta eşitmə analizatorunun fəaliyyəti də pozulur. Daun sindromu və ya görmə məhduduyyəti ilə əlaqədar yaranan digər problemlər də müşahidə olunur.

Görmə əngəllilər göz ilə məlumatları qəbul edə bilmir və buna görə də digər vasitələrə, məsələn, müvafiq analizatorlara və nitqə ehtiyac duyur. Ətrafda baş verən hadisələri uşaqlara nitq ilə izah edirlər. Bu görmə əngəllilər üçün daha önəmlidir. Çünki onlar üz ifadələrini görə bilmirlər.

Görmə patalogiyası olan uşaqlarda nitqin inkişafının özəlliyi nitq bacarıqlarının formalaşmasında, dil vasitələrinin və ifadəli hərəkətlərin yığılmasında geriləmədə özünü göstərə bilər. Dərin görmə məhdudiyyəti olan uşaqlarda ünsiyyət sferasının daralmasının səbəbləri ola bilər:

1. təqlid fəaliyyəti üçün məhdud imkanlar;
2. idrak prosesinin daralması;
3. motor sferasının inkişafı imkanlarının azalması;
4. təhsil və ünsiyyətin ekoloji şəraiti.

Görmə qabiliyyəti zəif olan uşaqların linqvistlik və qeyri-linqvistlik ünsiyyət vasitələrinə vizual nəzarəti məhduddur. Görmə məhdudiyyəti olan şagirdlərdə dildə nitq formasında nitq pozuntuları normal görən uşaqlara nisbətən iki dəfə tez-tez baş verir. Dilə bağlı dilin aşağıdakı formalarına daha çox rast gəlinir:

1. siqmatizm – fit və fısıltı səslərinin səhv tələffüzü (s, z, c, ş, j, ç);
2. lambdacism – l səsinin səhv tələffüzü(əvəz edilməsi). p və ya c ilə;
3. rotasizm – p səsinin tələffüzündə problem, eləcə də gigər pozuntular[1.233].

Görmə əngəlli və ya zəif görən uşaqlarda nitqin öyrədilməsinə kiçik yaşlarda başlanılmalıdır. Məsələn, 3 yaşdan balaca uşaqlara "sağ" və "sol", hərəkət bildirən sözlərin öyrədilməsi uşaqların nitqinin düzgün inkişaf etməsinə kömək edir.

Əgər görmə əngəlli uşaqlarda eşitmə analizatoru yaxşı və normal inkişaf edibsə, nitq daha yaxşı mənimsəniləcək. Səslərin eşidilməsi və tələffüz edilməsi eşitmə analizatorunun inkişaf səviyyəsindən asılıdır. Görmə əngəlli uşaqların nitq inkişafı ilə bağlı iki yanaşma vardır. Bunlardan birincisi, onları normal inkişaf etmiş uşaqlarla müqayisə etməkdir. Bu, düzgün yanaşma üsulu deyil. Digər yanaşma üsulu isə "fərqlilik" modelidir. Bu üsul hər bir uşağa fərdi yanaşmağı nəzərdə tutur.

Uşaqlar fiziki, əqli qüsurlu, əlilliyi olub-olmamasından asılı olmayaraq, ilk növbədə uşaqdırlar. Bu cür uşaqlara fizik, psixoloji təzyiq göstərmək isə son dərəcə yanlışdır. Belə fərdlərlə pedoqoji – psixoloji təlim işi aparmaq hər kəsin müqəddəs amalına çevrilməlidir.

Ədəbiyyat siyahısı:

1. Yermakov V.P., Yakunin G.A. Tiflopedaqogikanın əsasları: Görmə məhdudiyyətli uşaqların inkişafı, təlimi və tərbiyəsi (ali təhsil müəssisələrinin tələbələri üçün dərs vəsaiti). Moskva: Humanitar nəşr mərkəzi VLADOS, 2000, - 240 s.
2. https://www.speechie.net/speech-therapy-and-blindness

İsmayılzadə Validə Valeh qızı
Elmi rəhbər: m. Bəşirli Ülviyyə Kamil qızı
Azərbaycan Dillər Universiteti

EŞİTMƏ MƏHDUDİYYƏTLİ İNSANLARIN KARYERA İMKANLARI

Statistikaya görə, bugün təxminən 650 milyon insan, yəni dünyada hər doqquz nəfərdən biri eşitmə qüsurundan əziyyət çəkir. Onların yarısından çoxu məhdudiyyətli şəxslərdir. Eşitmə məhdudiyyəti anadangəlmə qüsur, yaralanma və ya keçirilmiş hər hansı bir ağır xəstəlik nəticəsində yarana bilər. Bu gün Rusiyada eşitmə qabiliyyətini itirmiş 13 milyondan çox insan yaşayır, onların 1 milyonundan çoxu uşaqlardır. Biz peşə seçərkən çoxumuz şəxsi üstünlüklərə, təbii istedadlara (yaxın inkişaf zonasına) önəm veririk. Bəzilərimiz isə valideynlərimizin yolunu davam etdirməyi seçirik. Bu gün sağlam insanlar belə bəzən iş tapmaqda çətinlik çəkirlər, bəs insanın ən vacib hiss orqanlarının (analizatorların) birindən məhrum qalan insanların təhsili və karyerası nə yerdədir?

Bir konfransda Latviya Karlar İttifaqının prezidenti Sandra Gerenovska Baltikyanı ölkələrin təcrübəsini bölüşən zaman bildirib ki, Latviyada karlar adi insanlarla bərabər hüquqlara malikdirlər. Onların da orta və ali təhsil almaq imkanı, kifayət qədər geniş peşə seçimləri var. Bundan əlavə, dövlət eşitmə qüsuru olan bütün insanlara pulsuz planşetlər təqdim edir və bunların köməyi ilə operator-tərcüməçilər ilə video vasitəsilə əlaqə saxlaya bilərlər ki, bu da onlara müəyyən bir problemin həllinə kömək edir. Beləliklə yeni işçi kadrların yaranmasına təkan yaradır.

Latviya Karlar İttifaqı eşitmə qüsuru olan insanların həyatında mühüm rol oynayır: burada eşitmə məhdudiyyətli insanlar psixoloji məsləhət, sosial dəstək ala, kompüter İKT kursları keçə bilərlər.

Bu gün eşitmə qüsurlu insanlar üçün bir çox peşə mövcuddur. Onların əsas xüsusiyyəti işçi ilə müştəri arasında əlaqənin olmamasıdır (qurula bilməməsidir). Bunlara daxildir:

-Aşpaz, şirniyyatçı;Dərzi;Avtomexanik;Mimika və jest teatrları;Sosial Media Mene-ceri;Jest dili tərcüməçisi;Tədbir təşkilatçısı;Veb Dizayner;Yazıçı;Audioloq;Labarato-riya işçisi;Mühasib.[1]

Ümumiyyətlə, xüsusi eşitmə cihazı və koxlear implant istifadəsi ilə eşitmə itkisi diaqnozu qoyulmuş şəxs demək olar ki,iş karyerasında mövqe tuta bilər. Müntəzəm və ardıcıl istifadə olunan eşitmə cihazları və koxlear implant səslərin normal qavranılma-sına zəmanət verir ki, bu da məhdudiyyətli insanın sağlam eşitmə qabiliyyəti olan in-sanlardan heç nə ilə fərqlənməməsinə böyük imkan verir. Bu vəziyyətdə həmkarlarla, müştərilərlə və ya işin özü ilə heç bir problem yaranmır.

Ədəbiyyat siyahısı:

1. https://mydisabilityjobs.com/career-tips/jobs-for-deaf-people/
2. https://rabota-journal.ru/professii/kakie-professii-dlya-gluhih-mozhno-rabotat.html
3. МИР24 | Путин: Участники нападения на «Крокус» должны понести справедливое наказание (mir24.tv)

Əliyeva Leyla Valeh qızı
Elmi rəhbər: m. Bəşirli Ülviyyə Kamil qızı
Azərbaycan Dillər Universiteti

EŞİTMƏ MƏHDUDİYYƏTLİ ŞƏXSLƏRİN CƏMİYYƏTƏ İNTEQRASİYASI

Müasir dövrdə görmə, eşitmə və əqli məhdudiyyətli şəxslərin təhsili, cəmiyyətə inteqrasiyası və eyni zamanda müəyyən peşələrə yiyələnməsi aktual problemlərdəndir. Eşitmə məhdudiyyəti anadangəlmə və ya sonradan qazanılmış ola bilər. Səbəbindən aslı olmayaraq isə həmin şəxslərin cəmiyyətdə müəyyən mövqe tutması olduqca vacibdir. Bununla bağlı inkşaf etmiş ölkələrdə cəmiyyətlər, fondlar yaradılır. 2050-ci ilə qədər təxminən 2,5 milyard insanın müəyyən dərəcədə eşitmə itkisi olacağı və ən azı 700 milyon insanın eşitmə reabilitasiyası tələb olunacağı proqnozlaşdırılır.[3]

Təhlükəsiz dinləmə praktikalarına görə 1 milyarddan çox gənc daimi, qarşısı alına bilən eşitmə itkisi riski altındadır. Dünya əhalisinin 5%-dən çoxu və ya 430 milyon insan eşitmə qabiliyyətinin itirilməsini aradan qaldırmaq üçün reabilitasiyaya ehtiyac duyur (o cümlədən 34 milyon uşaq). Eşitmə itkisinin aradan qaldırılması daha yaxşı eşitmə qulağında 35 desibeldən (dB) çox eşitmə itkisinə aiddir. Eşitmə qüsuru olan insanların təxminən 80%-i aşağı və orta gəlirli ölkələrdə yaşayır.[3] Qeyd edək ki, Azərbaycan əhalisinin demək olar ki, 5 faizini eşitmə və danışma məhdudiyyətli şəxslər təşkil edir. Hər 3 ailədən ən azı biri bu problem ilə qarşılaşır. Azərbaycanda isə eşitmə məhdudiyyətli şəxslərin cəmiyyətə inteqrasiyası üçün müəyyən tədbirlər görülür. 2023- cü il iyunun 4-də Ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş Eşitmə Məhdudiyyətli Şəxslərin I Mədəniyyət Festivalı keçirilib.Azərbaycan Respublikası Mədəniyyət və Təhsil Nazirliyinin dəstəyi il baş tutan festival Beynəlxalq Muğam Mərkəzində gerçəkləşib.[1] Bu layihə onların daşıdıqları "jest dili"nin düzgün tətbiqinə, təbliğinə, eşitmə məhdudiyyətli hər bir şəxsin cəmiyyətə inteqrasiyasına təkan verecək.İnklüziv cəmiyyətə tövhə olan festivalda ölkəmizdə ilk dəfə "Arşın mal alan" operettasından bir parça və "Tıq-tıq xanım" eşitmə məhdudiyyətli şəxslər və tanınmış aktyorlar tərəfindən jest dilində səhnələşdirilib. Festivalda eşitmə məhdudiyyətli şəxslərin rəsmləri, müxtəlif əl işləri, aktyorluq, rəqs bacarıqları ilə yanaşı model məharətləri də sərgilənib. Eşitmə məhdudiyyətli modellər modelyer Anara Zakirlinin "Zərəfşan" kolleksiyasını tanınmış şəxslərlə birgə təqdim edib-

lər. Bu şəxslərin cəmiyyətə inteqrasiyasının yollarından biri də onların düzgün ünsiyyət prosesini təmin etməkdir. Eşitmə zəifliyi olan şəxslər üçün müəyyən cihazlar, koxlear implantlar vardır. Ağır və ya dərin eşitmə itkisi olan insanlara koxlear implantlar cərrahi yolla implantasiya edilir. Bu cihazlar qəbulediciyə səsin dəyişdirilmiş qavrayışını təmin edir; Bu o deməkdir ki, koxlear implantları olan insanlar özlərini rahat hiss etmək üçün eşitmə təliminə ehtiyac duyurlar. Təəssüf ki, hələ də eşitmə cihazları ilə bağlı bir çox ziddiyyət var. Bir çox insanlar məhdudiyyetə sahib olmaqdan utanırlar. Karlıq və digər ünsiyyət pozulması üzrə Milli İnstitutun (NIDCD) məlumatına görə, 70 və daha yuxarı yaşlıların üçdə biri bu cihazlardan istifadə edir. Yaşı 20-dən 60-a qədər olan böyüklər üçün isə bu nisbət daha da aşağıdır.Eşitmə cihazları ətraf mühitin səslərini istifadəçilərinə eşitdirsə də, eşitmə qabiliyyətini itirmiş insanlar başqalarının onlar haqqında nə düşünəcəyindən qorxurlar. Buna görə də ilk olaraq bir cəmiyyət kimi həmin şəxslərin də yaşamaq, ünsiyyət qurmaq, hər hansısa peşəyə yiyələnmək hüquqlarının olduğunu unutmamalıyıq. Onların özlərini cəmiyyətin yararlı üzvü kimi hiss etmələrini təmin etməliyik. Belə insanların əksəriyyəti ferqli bacarıqlara sahib olurlar. Yaxşı rəsm qabiliyyəti, yazı bacarığı kimi yaradıcı sahələrdə olduqca yaxşı olurlar. Bu bacarıqlar sayəsində isə onların cəmiyyətə inteqrasiyası mümkündür.

Ədəbiyyat:

1. 1.https://news24.az/108862-eshitme-mehdudiyyetli-shexslerin-i-medeniyyet-festivali-kecirildi.html
2. 2.https://www.handsandvoices.org/needs/socialization.htm
3. 3.https://www.who.int/news-room/fact-sheets/detail/deafness-and-hearing-loss

Məmmədova Türkan Elnur qızı
Baş Müəllim Abdullayeva Gülnar Mirzəağa qızı
Azərbaycan Dillər universiteti

İSTEDADLI UŞAQLARIN YARADICILIQ BACARIQLARININ İNKİŞAFININ PEDAQOJİ MƏSƏLƏLƏRİ

İstedadlı şagirdlərin kəşfini və inkişafını, onların potensialının müəyyənləşdirilməsini təmin edən şəraitin təşkili müasir cəmiyyətin əsas vəzifələrindən biridir. Təlim-tərbiyənin bütün mərhələlərində istedadlı şagirdlərin yaradıcılıq bacarıqlarının üzə çıxarılması məqsədilə optimal sistemin yaradılması və onlarla səmərəli işin təşkili daim gündəmdə olan məsələlərdəndir. İstedadlı uşaqlar üçün xüsusi inkişaf proqramlarının hazırlanması məsələsi Azərbaycan Respublikasının Prezidenti, cənab İlham Əliyevin 2013-cü il 24 oktyabr tarixli nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda öz əksini tapmışdır. Ümumiyyətlə, xüsusi istedada malik şagirdlərlə səmərəli işin həyata keçirilməsi mexanizmi çox vacibdir. Bu tip proqramlar ümumtəhsil məktəblərində istedad və bacarığı ilə seçilən şagirdlərin səmərəli təhsil almasına, şəxsiyyət kimi formalaşmasına, düzgün peşə seçməsinə şərait yaradır. Xüsusi istedadlı şagirdlərlə iş mexanizmini hazırlayan zaman bəzi məsələlər nəzərə alınmalıdır [1, s.123-124]:

- Müəllimlər tərəfindən müsabiqələr, olimpiadalar təşkil edərək istedadlı şagirdlərin yaradıcılıq bacarıqlarının üzə çıxarılması;

- Sinifdənkənar fəaliyyətlərdə bacarıqların formalaşdırılması;

- İstedadlı şagirdlərin hərtərəfli inkişafı üçün şəraitin yaradılması;

- İstedadlı şagirdlərin ehtiyaclarının təmin edilməsi;

- İstedadlı şagirdlərin xüsusi maraqları və meyllərinin nəzərə alınması və s.

Pedaqoqlar "istedad" anlayışını daha çox təbii qabiliyyətlər toplusu kimi qəbul edirlər. İstedadın elmi tədqiqinə ilk dəfə 19-cu əsrin ortalarında ingilis mütəfəkkiri F.Qalton başlamışdır. İstedadın müəyyənləşdirilməsi isə C.M.Ketelin adı ilə bağlıdır [2, s.41-50]. İstedadın təşəkkülü təbii imkanlarla yanaşı daha çox əlverişli ictimai mühit və təlim-tərbiyə şəraitindən asılıdır. Əlverişli şərait, düzgün təşkil edilmiş mühit istedadlar yetişdirməsə də, yaradıcılıq bacarıqlarının yüksək inkişafını təmin edir. İstedadlı şagirdlərlə işin məqsədi intellektual və yaradıcı fəaliyyətin müxtəlif sahələrində onların potensialını aşkar etmək, inkişaf etdirmək və dəstəkləmək üçün məktəb sisteminin yaradılması üçün əlverişli şərait yaratmaqdır.

Ədəbiyyat

1. Abdullayeva G., "Təxəyyülyönümlü təlim üsullarının nəzəri əsasları", Xarici dillərin tədrisinin aktual problemləri, Bakı-2022, s.123-124
2. Zeynalova N., "Ali məktəb tələbələrində kreativliyin inkişaf etdirilməsi üçün təlim metodları", Azərbaycan məktəbi №2, Bakı-2018, s.41-50
3. "Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)". Təhsil qanunvericiliyinə dair normativ-hüquqi sənədlər toplusu. I cild, Bakı: Şərq-Qərb, 2012, s.168-175
4. https://president.az/az/articles/view/9779
5. https://yeniazerbaycan.com/Siyaset_e8479_az.html
6. https://www.researchgate.net/publication/260002057_Enhancing_creativity_for_gifted_and_talented_students_A_visual_arts_classroom_perspective
7. https://files.eric.ed.gov/fulltext/EJ1381362.pdf

Əliyeva Müjgan Elçin qızı
Baş Müəllim Abdullayeva Gülnar Mirzəağa qızı
Azərbaycan Dillər Universiteti

EMOSİONAL İNTELEKT ANLAYIŞININ PEDAQOJİ MAHİYYƏTİ

Son illər peşəkar fəaliyyətdə müvəffəqiyyət və yüksək nailiyyətin əldə olunması inkişaf etmiş emosional intellektlə əlaqələndirilir. Emosional intellekt ünsiyyət prosesində özünün və başqalarının hisslərini başa düşmək və dərk etmək, şəxsi motivasiyanı inkişaf etdirmək və emosiyaları idarə etmək bacarığı kimi dəyərləndirilir. Emosional intellekt anlayışı fərdin emosional səriştəsini müəyyən etməyə xidmət edən, insandan insana dəyişən bir xüsusiyyətdir. Daha çox fərdin öz düşüncələrini, hərəkətlərini istiqamətləndirmək və əks etdirmək üçün istifadə etmək qabiliyyətini özündə birləşdirən sosial intellektin alt komponenti kimi müəyyən edilir.

20-ci əsrin əvvəllərindən başlayaraq, inqilabi ideyalar fonunda insanın şəxsi intellekti ilə duyğuları arasında impulsiv əlaqəni dərk etməsi sonrakı illərdə "emosional intellekt" terminin yaranmasının əsasını qoydu. Belə ki, "emosiya" yunanca "motere" sözündən götürülüb, hərəkət etmək mənasını ifadə edir. "Emosional zəka" isə "zəka ilə düşünülərək edilən fəaliyyət" deməkdir [1]. Günümüzdə emosional zəka yalnız psixoloji deyil, eyni zamanda pedaqoji paradiqmalardan, çağdaş dövr elmi tədqiqat əsərlərindən araşdaşdırılaraq tədris prosesinə inteqrasiya edilir. Bunuda demək labüddür ki, futurist Azərbaycan gəncliyi üçün ictimai şüur və özünüdərk tərbiyəsi artıq milli kurikulumun əsas prioritetlərindən birinə çevrilib.

"Emosional intellekt" nəzəriyyəsinin tarixinə nəzər saldıqda, ilk dəfə Con Dyuinun əsərlərində "sosial intelekt" başlığı altında bu məsələyə toxunduğunu görə bilərik. Daha sonra emosional intelektin İQ-dan daha vacib olduğu fikrini irəli sürərək P.Salovey və C.Mayer ilk EQ testini yaratmışlar. Harvard Universitetinin professoru H.Qarnerin "Çoxşaxəli intellekt nəzəriyyəsi" 1990-cı ildə Daniel Qolemanın "Emosional intellekt nəzəriyyəsi" üçün əsas olmuşdur [2].

Şagirdlərin emosional intellektinə dair iddiaların doğruluğunu yoxlamaq məqsədilə "Başdan başla" ("Head start") və "Ürəkdən başla" ("Heart start") proqramları çərçivəsində məktəbəqədər yaşlı uşaqlarla təlimlər təşkil olunmuşdur. Tədqiqatın nəticəsinə görə, uşaqların məktəbə hazırlığı emosional intellektlə əlaqəli aşağıda sadaladığımız 7 əsas elementə əsaslanır [5]:

1. Əmin olmaq (inanmaq) **–** kiçikyaşlı şagirdlərin öz bədən, davranışlarına nəzarət etdiklərinə əmin olmaq, uşağın uğur qazanacağına və böyüklərin bu prosesdə ona dəstək olacağına inanmaq;

2. Maraq göstərmək **–** bilik qazanmağın müsbət və xoş hiss olduğunu dərk etmək və buna yönəlmiş daxili motivasiyaya sahib olmaq;

3. Özünü nəzarət **–** yaş səviyyəsinə uyğun hərəkətlər etmək, reflekslərı idarə etmək və tənzimləmək, yüksək-eqonun formalaşması fonunda müsbət davranışlara yönəlmək;

4. Qətiyyətli olmaq **–** nüfuz qazanmaq istəyinə müvafiq olaraq bu qabiliyyəti formalaşdırmaq və əzmlə həyata keçirmək üçün müsbət ustanovkaya sahib olmaq;

5. Ünsiyyət bacarığı **–** başqaları ilə hisslərini bölüşmək, fikir mübadiləsi aparmaq bacarığına malik olmaq;

6. Münasibətləri idarə etmək bacarığı – başqalarının emosinal vəziyyətini anlayıb, ona uyğun davranmaq, öz hiss və duyğularını uyğun yollarla çatdırmaq.

7. Əməkdaşlıq – qrup fəaliyyəti zamanı öz ehtiyac və maraqlarını, başqalarının ehtiyac və maraqları ilə eyni səviyyədə saxlamaq [6].

Yuxarıda qeyd etdiyim elemetlər sosial qarşılıqlı əlaqədə digər insanların duyğularını anlamaq qabiliyyətini əhatə edir. Əslində, başqalarının dinləməyi bacaran insanlar yüksək emosional zəkaya sahib insanlardır. Bu insanlar öz duyğularını anlamaq qabiliyyətinə görə başqalarına böyük təsir göstərə bilirlər. Təbii ki, emosional zəkanı

təkmilləşdirmək və daha yaxşı idarə edə bilmək üçün ilk növbədə şəxsi emosiyalarımızdan daha çox xəbərdar olmalıyıq.

İstifadə olunmuş ədəbiyyat

1. Goleman, D.(1995). Emotional intelligence: İssues in paradigm building. The emotionally İntelligent work place: how to select for, improve and measure for emotional intelligence, s. 34-76
2. Əhmədov H., Zeynalova N., «Pedaqogika», «Elm və təhsil» Bakı, 202, s.276-279
3. Salovey P., Mayer J. (1990). Emotional intelligence// İmagination, Cognition, and Personality, s. 56-65
4. Etty- Leal, J. (2020) A head- heart start for life: Creative mindful discoveries for young children, s. 112-124
5. https://www.elibrary.ru/item.asp?id=48753233
6. https://childcare.gov/consumer-education/head-start-and-early-head-start
7. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC4085815
8. Salovey, P., Mayer, J. D., Goldman, S. L., Turvey, C., & Palfai, T. P. (1995). Emotional
9. attention, clarity, and repair: Exploring emotional intelligence using the Trait Meta-Mood
10. Scale. In J. W. Pennebaker (Ed.), Emotion, disclosure, and health (pp. 125-154).
11. Washington, DC: American Psychological Association.

Mehdiyeva Həcər Amin qızı
Elmi rəhbər: baş/m.Həsənova Mətanət Fariz q.
Azərbaycan Dillər Universiteti

DAUN SİNDROMLU UŞAQLARLA APARILAN PSİXO-PEDAQOJİ İŞİN XÜSUSİYYƏTLƏRİ

Statistikaya görə günümüzdə 6 milyon insan bu sindromla yaşayır. Düşünürəm ki, buna xəstəlik, əlillik yox, sindrom, dəyişiklik demək daha məqsədə uyğun olar. Bir çox psixoloqların, mütəxəssislərin araşdırmalarına görə daun sindromlu uşaqlarla, fiziki cəhətdən sağlam uşaqların psixologiyalarında da fərq olur. Məhz buna görə də, bu cür uşaqların inkişafı və cəmiyyətə adaptasiyası üçün ilk öncə bizlər onları qəbul edib, onların potensiallarını üzə çıxarılmasında başda valideynlər olmaqla, mütəxəssislər, pedaqoqlar, psixoloqlar və cəmiyyət olaraq onlara yardımçı olmalıyıq. Onlara cəmiyyətin hər hansı bir fərdi kimi yanaşılmalı, hər dəqiqə onların xarici görünüşlərindəki fərqliliklərə görə onları öz reaksiyalarımızla və nəzərlərimizlə ictimaiyyətdən çəkindirməməliyik.

Daun sindromlu uşaqlar öz xarici görünüşləri ilə seçilirlər. Onların yastı burunları, gözlərinin daxili bucaqlarında çuxurları olan və adətən çəp baxan gözləri olur. [3, s.40] Dilləri normaldan böyük,əl barmaqları gödək ,əllərinin içi yastı,geniş olur. Bir çoxlarında ürək qüsuru olur və deyilənə görə çoxu sadəcə 30 yaşlarına qədər yaşaya bilirlər. Valideynlər mütləq mütəmadi olaraq uşağı həkim müayinəsindən keçirməlidir, çünki onların xəstəliklərə qarşı dayanıqlılığı çox az olur. Valideynlər uşağın motorikasında hansı yaşda hansı dəyişikliklər olduğunu bilməlidir. Onların cəmiyyətə inteqrasiyası üçün erkən uşaqlıq yaş dövrlərindən artıq onlar üzərində təlimlərə başlanılmalıdır. Daun sindromlu uşaqlar bağçalara, məktəblərə, xüsusi təlimlərə yönəldilməlidirlər. Onları digər uşaqlardan təcrid etmək onların sonu ola bilər. Daun sindromlu uşaqlara bir və ya digər vərdişin mənimsədilməsi üçün çoxlu sayda təkrarların edilməsi vacibdir. [1, s.13] Hər gün körpəyə yeni nəyisə mənimsətmək,qavratmaq çox böyük əmək tələb edir. Həm mənəvi, həm maddi, həm də psixoloji aspektdən. Bu zaman ailə mütləq yaxşı mütəxəssislərlə iş birliyində olmalı, yaxşı psixoloqlar, pedaqoqlar seçməlidir. Təbii ki, onlarla inkişaf etdirici oyunlar oynamalı, onlara xüsusi oyun zonası yaradılmalıdır. İlkin olaraq hansı sensor təlim metodu ilə daha yaxşı öyrənə bilirlərsə,

onu müəyyən etmək şərtdir. Adətən, bir çoxunun iti göz yaddaşları olur. Məhdudiyyəti olan uşaqların ümumi təhsil prosesinə daxil edilməsinin yeganə düzgün yolu yoxdur. [2, s.24]

Martın 21 i hər il Daun sindromu Fərqindəlik günü kimi qeyd ounur. Bu cür uşaqlar 47 xromosoma malikdir. Normalda isə 46 olmalıdır. Buna görədə onların heç bir əksikliklərinin olmadıqlarını, əksinə, bizdə olmayanın onlarda var olduğunu, birinci dərk etməli, sonra dərk etdirməli və onların nə qədər dəyərli olduqlarını onlara hər gün hiss etdirməliyik.

Ədəbiyyat:

1. E.Pole - Daun sindrom faktlar. "Daumsayd Ap" Xeyriyyə Fondu. Bakı: İndigo, 2010, s.13.
2. J.Deppeler, D.Harvey, T.Loreman - İnkluziv təhsil: Sinifdə müxtəlifliyin dəstəklənməsi üçün təcrübi təlimatlar. Bakı: Allem Unwin, 2020, s.24.
3. Ü.Mikayılova və L.İmanova - Uşaq inkişafı metodikası /Açıq Cəmiyyət İnstitutu Yardım Fondu. Bakı:Qanun, 2011, s.40.

Rzazadə Leyla Elçin qızı
Təhsil-2,Qrup 220B
Elmi rəhbər:baş müəllim.Seyidova Günay Akif qızı
Azərbaycan Dillər Universiteti

ŞAGİRDİN ŞƏXSİYYƏT KİMİ FORMALAŞMASINDA İNTERAKTİV TƏLİM METODLARININ ROLU

Şəxsiyyət bir çox amillərin təsiri və qarşılıqlı fəaliyyətinin nəticəsi kimi formalaşır və inkişaf edir. Bu prosesdə bioloji və sosial amillərin rolu vardır.

İnkişafın baş verməsi üçün mühit və tərbiyə amilləri mühüm rol oynayır. Sosial mühiti xüsusi ilə vurğulamaq lazımdır, çünki o həm müsbət, həm də mənfi təsirə malikdir. Mühit 2 cür təsnif olunur: makromühit və mikromühit. Mikromühit insanı əhatə edən mühitdir: ailə, məktəb və s.[3]

Şagird günün çox hissəsini məktəbdə keçirdiyi üçün, məktəb mühiti düzgün formalaşdırılmalıdır. Müasir təhsil sistemində məktəbin rolu şagirdə yalnız bilik vermək deyil, həmçinin şagird şəxsiyyətinin formalaşdırılması və inkişafıdır. Şəxsiyyət inkişafı üçün tədris mühiti zamanı düzgün təlim metodu seçilməlidir.

Günümüzün təhsil tələblərinə cavab verən ən effektiv yol interaktiv təlim və metodlarıdır. İnteraktiv təlim metodlarının beyin həmləsi, keys(konkret vəziyyət), təqdimat, buzqıranlar və s. kimi növləri mövcuddur.

Təqdimat interaktiv təlim ilə aparılan dərsdə məhsuldar seçimdir. Ərsəyə gələn təqdimat şagirdin tədqiqat fəaliyyətinin göstəricisi sayılır. Təqdimata hazırlaşan şagird qrup halında işləyərkən ünsiyyət mədəniyyətinə, fikri aydın ifadəetmə bacarığına yiyələnir. Ünsiyyət faktoru şəxsiyyət inkişafını birbaşa təmin edir. İnteraktiv təlimdə ünsiyyət həm müəllimlə şagirdlər, həm də şagirdlərin öz aralarında baş verir.

"Ünsiyyət insanlar arasında təmasın yaranması və inkişafı prosesi kimi meydana çıxır"[1,s10]. O nəticəyə gəlmək olar ki, ünsiyyətin təmin oluması üçün qrup işindən istifadə zəruridir.

Keys və ya problemli vəziyyət metodunda isə dərs müəyyən sahə üzrə problemli vəziyyət əsasında qurulur. Şagirdlərin qarşısında duran əsas məqsəd bu problemi həll

etmək olur. Bu metod şəxsiyyətdə məqsədyönümlülük xüsusiyyətini, problem həlletmə bacarığını formalaşdırır.[2,s166]

Şagird nailiyyətinin qiymətləndirilməsi təlim fəaliyyətinin ayrılmaz tərkib hissəsidir. İnteraktiv təlimdə qiymətləndirmə şagirddə müsbət emosiya yaratmalıdır, müəllim nailiyyətləri vurğulamalı, cəzadan çox dəstək verməlidir. Bu davranış şagirddə özünəinam, özgüvən yaranmasına kömək olur. Şəxsiyyət kimi gələcək peşə seçimində, həmçinin qərarvermə prosesində özünəinam vacib rol oynayır.

İnteraktiv təlimdə diaqnostik, formativ(cari), summativ(yekun) qiymətləndirmə aparılır.[4,s32] Dərs zamanı qiymətləndirmə müəllim tərəfindən müxtəlif metodlar əsasında həyata keçirilə bilər, lakin qiymətləndirmə şagird üçün özünüqiymətləndirmə rolunu da oynamalıdır.

Şagird dərs müddəti ərzində öz davranışlarını analiz edib, qiymətləndirməlidir. Bu da şagirdin özünütəhlilini zəruri edir. Yəni, şagird həm də öz şəxsiyyətini,öz "mən"ini dəyərləndirməyi və bir fərd kimi özündəki səhvləri görməyi bacarır.

Nəticə olaraq, interaktiv təlim metodları şagirdin şəxsiyyət kimi inkişafını təmin edən ən məqsədyönlü metodlardır. Çünki bu metodlar əsasında təşkil olunan dərsdə şagird ünsiyyət prosesində iştirak edir, müşahidə, təhlil və qərarqəbuletmə kimi bacarıqlara yiyələnir.

Ədəbiyyat siyahısı

1. Əhmədov H. Zeynalova N. Pedaqogika: Dərslik. Bakı: Elm və Təhsil, 2021
2. Həmzəyev M.Ə. Əmiraslanova S.F. Ünsiyyətin psixologiyası. Bakı: Nurlan, 2007
3. Veysova Z. İnteraktiv fəal təlim. Bakı: Pedaqigika, 2007
4. https://www.scribd.com/document/665424723/

Quliyeva Ləman Siyavuş qızı
Təhsil-2, Qrup 220B
Elmi rəhbər: Baş müəllim.Seyidova Günay Aki qızı
Azərbaycan Dillər Universiteti

AİLƏDƏ NEQATİV TƏRBİYƏ TƏSİRLƏRİ VƏ PROBLEMLƏRİ

Yetişən gənc nəslin ailədə düzgün tərbiyə olunması mühüm pedaqoji problem olmaqla bərabər, həm də cəmiyyətin, dövlətin mühüm məsələlərindən biridir. Çünki cəmiyyətin inkişafı, onun uğurlu gələcəyi yetişən nəslin tərbiyəsindən asılıdır. Ailədə uşaqların ilk tərbiyyəçisi, ilk təhsili, həyata ilk addım atdığı məkan, eyni zamanda qorunduğu, himayə edildiyi, həyata hazırlandığı mühit uşağın gələcək inkişafında böyük rol oynayır. [1, s145]

Neqativ tərbiyə uşaqlarda depressiya və anksiyetə kimi psixoloji problemlərə səbəb ola bilər. Bu problemlər əsasən aqressivlik, qəzəb problemləri şəklində özünü göstərə bilər. Eyni zamanda uşağın inkişafı və elmi mövzulara olan maraqlarını itirərək, davranış problemləri yaşamağı ehtimalını artır. Zorakılığın və tənqidkarlığın təsiri ilə uşaqlarda mənfi davranış tərzləri formalaşır. Ağır tərbiyə formaları uşaqlarda stress və xəstəliklərin artmasına səbəb ola bilir. Neqativ tərbiyə zamanı aldıqları psixoloji travmalar yeniyetməlik dövrlərinə də öz təsirini göstərir. Uzunmüddətli təsirlər uşaqların gələcək həyatına da təsir edir. Sağlam valideyn tərbiyəsi uşağın emosional, fiziki və sosial ehtiyaclarını ödəməkdən başlayır və uşağa sosial dəyərləri öyrənməyə kömək edir. Neqativ tərbiyə valideynlə uşaq arasında ünsiyyət zəifliyi, düzgün əlaqənin qurula bilməməsi kimi çətinliklər yaradır. Bu valideynin öz uşaqlarına soyuq davranmaları, araya müəyyən məsafə qoymaqdan irəli gəlir. Tərbiyə prosesində uşaqları çox sıxmaq pedaqoqlar tərəfindən neqativ hal kimi qiymətləndirilir. Çünki bir zaman sonra artıq uşaq bunun fərqinə varır və bundan qurtulmaq üçün yollar axtarır. Digər bir məsələ isə erkən yaşlarda verilən ağır cəzalardır. Bu uşağın gələcək həyatına böyük təsir edir, beləki uşaq zorakılığa meyilli olur. Ata, ana arasındakı ünsiyyət, davranış da uşağa təsir edir. Beləki onları daim xoşbəxt ailə tablosunda saxlamalıyıq, uşaqların qarşısında ata və ana mübahisə etməməli, pis ifadələr işlətməməlidir.

Valideynlər ailədə belə münasibətin, tərbiyənin yarandığını gördükdə müəyyən addımlar atmalıdırlar. **Məsələn:**

- Psixoloq və ya pedaqoqa müraciət
- Müxtəlif müəlliflərin tərbiyə ilə bağlı ədəbiyyatlarına müraciət etmək
- Tərbiyə ilə bağlı özünü təhsil proqramlarından bəhrələnmək

Həmçinin valideynlərin uşaqlarına hörmət və ehtiram göstərməsi, onların hisslərinə qulaq asmağı və məsuliyyət sahibi olmağıda çox vacibdir.

Görkəmli əxlaq nəzəriyyəçisi Nəsrəddin Tusi " Əxlaqi-Nasiri'' əsərində yazırdı: "Tərbiyənin birinci şərti budur ki, uşağı onun təbiətini korlaya biləcək adamlarla və şeylərlə oturub-durmağa və oynamağa qoymayın, çünki uşaq nəfsi sadə olar, ətrafdakıların xasiyyətini tez götürər'' [2, s157] . Yəni bir valideyn olaraq daim uşağın ətraf mühitinə, dost-tanışlarına diqqət, nəzarət etməliyik.

Ədəbiyyat siyahısı:
1. Azərbaycan Dövlət Pedaqoji Univeristeti Musiqi elmi, mədəniyyəti və təhsilinin aktual problemləri No 1, 2019
2. Nəsrəddin Tusi. ‘‘Əxlaqi-Nasiri”. Bakı: Elmi nəşriyyatı, 1980.

Nəzərli Nigar Kamran qızı
Təhsil 2 Qrup:220b,
Elmi rəhbər: Seyidova Günay
Azərbaycan Dillər Universiteti

MƏKTƏBDƏ MOBBİNQLƏR: FƏSADLARI VƏ PROFİLAKTİKASI

Mobbinq – bir və ya bir qrup insanın başqasına və ya başqa bir qrupa qarşı sosial zorakılığıdır. Lakin biz hər bir münaqişəni, fikir ayrılığını bu qrupa aid edə bilmərik. Bir münaqişəyə psixolojik şiddət olaraq baxmağımız üçün davranışlar daim təkrarlanmalı və uzun müddət davam etməlidir. Zorakılığın bu növünü təhsil müəssilərində müşahidə edə bilərik. Hədəf mərkəzində olan şəxs həmişə təndiq edildiyinə görə qarşı tərəfdə duran biri tərəfindən problemli şəxs kimi qələmə verilir və belə bir vəziyyətdə həmin şəxs görməzdən gəlinib sosial təcridə alınır. Sorğunun nəticələrinə görə, kişilər ən çox öz həmcinslərini, qadınlar isə öz həmcinslərini təhqir edirlər. Mobbinqin müxtəlif üsulları var. Bunlara aşağıdakıları aid etmək olar.

· davamlı tənqid
· fakt olmadan günahlandırmaq
· yalan
· ayrı-seçkilik davranışları
· təqib
· qışqırmaq
· israrla göz ardı edilmək
· təcrid etmək
· kiminsə işinə çətinliklər və maneələr əlavə etmək.
· danışarkən sözünün kəsilməsi. [1]

Həmçinin mobbinqin müxtəlif növləri vardır.

· fiziki
· sözlə
· sosial

Mobbinqə məruz qalanların mənəviyyatları sarsılır. Mobbinq hadisələrini həll etmək üçün heç nə etmədikdə və bu davranışın davam etməsinə, böyüməsinə icazə verdikdə təsir daha da güclənir. Bu etinasızlıq nəticəsində şagirdlərdə müxtəlif dəyişikliklər müşahidə edə bilərik.

· məktəbə getməkdən boyun qaçırır
· dərslərini oxuyarkən diqqətlərini cəmləyə bilmirlər
· sinif yoldaşlarına qarşı inamsızlıq özünü göstərir
· hər keçən gün narahatlıqları daha da artır [2]

Müəllimlər, sinif rəhbərləri, sosial pedaqoqlar və psixoloqların məktəb daxilində birgə fəaliyyəti müəssisə daxilində baş verə biləcək mobbinqlərin və bullinqlərin qarşısını ala bilər. Elə bu səbəbdən tədris prosesi zamanı hər bir şagirdə fərdi yanaşmaq mütləqdir.

İstifadə olunmuş ədəbiyyat siyahısı
1. https://psychcentral.com/blog/bullying-at-work-workplace-mobbing-is-on-the-rise/
2. https://www.sozcu.com.tr/2018/ekonomi/mobbing-nedir-mobbing-nasil-ispatlanir-mobbing-turleri-ve-mobbing-cezasi-2367669

Süleymanlı Fatimə Araz qızı
Elmi rəhbər: B/m Bağırova Tahirə Bəkir qızı
Azərbaycan Dillər Universiteti

EMOSİONAL BACARIQLAR VƏ ONLARIN ƏHƏMİYYƏTİ

Emosional intellektin əhəmiyyəti və inkişaf etdirilməsi ilə bağlı düşüncələr 1960-cı illərdən müzakirə mövzusu olmasına baxmayaraq, həmin illərdə yalnız intellektual zəkaya diqqət yetirilmiş, təhsil zamanı dərslərin nəzəri hissəsinin öyrənilməsi daha üstün tutulmuşdur. Bunun nəticəsidir ki, günümüzdə şəxslərin həyatda xoşbəxt və uğurlu olmaları üçün kifayət qədər emosional bacarıqlarının olmadığını görürük. Çox hallarda intellektual inkişafın üstün tutulduğu təhsilin şəxslərin həyatda mübariz ola bilməmə, problemlərin həllində çətinlik, depressiya, qayğı çarəsiz qalma və.s kimi çətinliklər yaşadıqları müşahidə edilir. Yalnız akademik uğurun intensiv şəkildə dəstəkləndiyi, empatiyadan uzaq yetişən nəslin təcrübəsin göstərir ki, məktəb mühiti uşağın tək başına həyatını mənalı və rəngarəng şəkildə keçirməsi üçün kifayət deyildir.

Emosional intellektin vacibliyi 1990-cı illərdə bir çox pedaqoq və psixoloq tərəfindən qeyd edilmişdir. Daniel Qoulman ilk dəfə olaraq 1995-ci ildə "Emosional intellekt:niyə o IQ-dən daha böyük əhəmiyyətə malik ola bilər?" [2,s.879) kitabında EQ-nün sosial həyatda, təlim prosesində zəruriliyinə aydınlıq gətirdi. Həmçinin Yale Univeritetinin professorları Con Mayer və Peter Salovey emosional intellekt bacarıqlarını inkişaf etdirən modeli tanıtmış, Karol Dvek isə sabit və çevik intellektin formalaşmasında emosional intellektin rolunu tədqiq etmişdir. Bu alimlər emosional intellektin həyata və təhsil sisteminə effektini, emosional intellektin inkişafının təlim prosesində müəllim-şagird, şagird-şagird münasibətləri daxilində qarşılıqlı olaraq aparılmasını təsdiqləmişlər.

Emosional intellektin inkişaf dinamikasını 10 xülasə ilə göstərmək mümkündür:

1.Öz mahiyyətinə varma: şəxsin özünəməxsus potensial bacarıqlarını və zəifliklərini bilmə bacarığı.

2.Mənlik şüuru: özünü və başqalarını sağlam şəkildə qəbul etmə, sağlam şəxsiyyət kimi yetişməyə istiqamətlənmə bacarığı.

3.Şəxsi məsuliyyət: hadisələr qarşısında veriləcək reaksiyanın səbəbini və məsuliyyətini dərk etmə, qərarlar və seçimlər üçün məsuliyyət daşıma bacarığı.

4.Duyğuları nizamlamaq: duyğu və düşüncə arasındaki əlaqəni bilmə və emosiaları idarə edə bilmə bacarığı.

5.Qərar verə bilmək: qərar verən zaman hədəf üçün müəyyən yol təyin edə bilmə bacarığı.

6.Empatiya bacarıqları: özünün və digərlərinin duyğularını anlama, hadisələrə qarşı tərəfin də gözündən baxa bilmə qabiliyyəti.

7.Stressə davamlılıq: stressin əsas mənbəyini görə bilmə və stressi aradan qaldırmaq üçün psixoloji texnikalardan istifadə etmə bacarığı.

8.Mübahisələri həll edə bilmək: mübahisəni anlama və həllində qarşılıqlı anlaşma, əlaqə qurma və doğru strategiyalardan istifadə etmə bacarığı.

9.Qruplarla işləmə bacarığı: qruplarla iş zamanı özünü ifadə edə bilmə bacarığı, qrup nümayəndələri ilə münasibətin tarazılığı və özünü qrupa aid hiss etmə bacarığı.

10.Ünsiyyət bacarıqları: ünsiyyət zamanı özünüifadə və qarşısındakini dinləmə bacarıqlarına diqqət etmə, bədən dilindən yerində istifafə, etika və nəzakət qaydalarına riayət etmə. [3,s.270]

Nəticə etibarilə, insan sosial varlıqdır və sosiallaşdığı zaman bir çox problemlərlə üzləşir. Məhz bu zaman onun intellekt qabiliyyətləri üzə çıxır. İntellekt, zəka insanın problemləri həll edə bilmə bacarığıdır. Bu proses daxilində insan, digər intellekt növləri ilə yanaşı olaraq emosional intellektini də istifadə etməyi bacarmalıdır.

Ədəbiyyat siyahısı:

1. Əhmədov. H., Zeynalova N. Pedaqogika. (Dərslik). Bakı, 2021.
2. Daniel Goleman: "Duygusal Zeka-EQ IQ'dan neden önemlidir?" Varlık yayınları, 2010.
3. Demet Somuncuoğlu. "Duygusal zekâ yeterliliklerinin kuramsal çerçevesi ve eğitimdeki rolü". Atatürk Üniversitesi Kazım Karabekir Eğitim Fakültesi dergisi, 2005.

Məmmədova Səbinə Asif
Baş müəllim Seyidova Günay Arif qızı
Azərbaycan Dillər Universiteti

ŞAGİRDİN HƏYATINDA MÜƏLLİMİN ROLU

Uşaqlar günün çox hissəsini məktəbdə keçirirlər. Bu o deməkdir ki, onlar ailə üzvləri ilə müqayisədə müəllimləri ilə daha çox vaxt keçirirlər. Bu səbəbdən də şagird-müəllim münasibəti uşaqlarda çoxşaxəli inkişaf və dəyişikliyə səbəb olur. Müəllimlərin şagird nəaliyyətlərində əhəmiyyətli bir rolu var. Onların təsiri və rəhbərliyi, şagirdlərin sosial, akademik və şəxsi inkişafını dəstəkləyir. Müəllimlərin şagird nəaliyyətlərindəki rolu ilə əlaqədar bəzi vacib məsələlər vardır:

Motivasiya və təşviq: Müəllimlər, şagirdləri öyrənməyə, iştirak etməyə və həyatlarında müvəffəqiyyət əldə etməyə təşviq edir. Onların səmərəli qayğıları və dəstəyi, şagirdlərin öz potensiallarını görərək özümlərini həyata keçirmələri üçün əlavə motivasiya yaradır.

Mentorluq və rəhbərlik: Müəllimlər, şagirdlərə akademik, karyera, və ictimai məsələlərdə mentorluq və rehberlik edir. Onların təcrübə və məsləhətləri, şagirdlərin öz hədəflərinə nail olmalarına kömək edir.

Öyrətmə və dəstək: Müəllimlər, şagirdlərə təlim və məsləhət verir. Onların məzmunlu dərsləri, şagirdlərin müxtəlif mövzular barədə məlumat əldə etmələrini təmin edir və onları təlimdə uğurlu olmağa yönəldir.

Məsləhət və məruzə: Müəllimlər, şagirdlərə problemləri həll etmək və məqsədlərini müəyyənləşdirmək üçün məsləhət və məruzə verir. Onların dəstəyi və məsləhətləri, şagirdlərin mübahisələri aradan qaldırmaq, məqsədlərinə nail olmaq və öz potensiallarını həyata keçirmək üçün lazımi dəstəyi əldə etmələrində kömək edir.

Təhlil və qiymətləndirmə: Müəllimlər, şagirdlərin performansını təhlil edir və qiymətləndirir. Onların geribildirimləri, şagirdlərin güclü və zəif tərəflərini müəyyən etməyə və onların daha yaxşı öyrənməyə yönəlmələrində kömək edir.

Nəticə olaraq, müəllimlərin şagird nəaliyyətlərindəki rolu son dərəcə əhəmiyyətlidir. Onların təsiri, rəhbərliyi və dəstəyi, şagirdlərin müvəffəqiyyətlərini təmin edir və onların sosial, akademik və şəxsi inkişafını dəstəkləyir. Bütün bu səbəblərdən dolayı, müəllimin cəmiyyətdə çox yönlü və əhəmiyyətli bir rolu var. Onların təlimatı və tərbiyə işləri, cəmiyyətin mədəniyyətini, inkişafını və perspektivlərini formalaşdırır.

Ədəbiyyat siyahısı:

1. https://www.muallim.edu.az/www.old/arxiv/2012/41/39.htm
2. https://muallim.edu.az/news.php?id=18817

Hüseynova Nərmin Mehdi qızı
P.F.D., Tahirova Şəfiqə Şiralı qızı
Azərbaycan Dillər Universiteti

İBTİDAİ MƏKTƏBDƏ İNKLÜZİV TƏHSİL PROSESİNİN TƏŞKİLİ XÜSUSİYYƏTLƏRİ

"İnklüziv təhsil" dedikdə xüsusi təhsilə ehtiyacı olan uşaqların kütləvi ümumtəhsil məktəblərində normal inkişaf edən həmyaşıdları ilə eyni sinifdə onların imkanlarına uyğun proqramlar üzrə tədris edildiyi təhsil prosesinin təşkili forması başa düşülür [1, s.5]. İbtidai məktəbdə inklüziv təhsil prosesinin məqsədi fiziki sağlamlıq imkanları məhdud uşaqların sosiallaşması və onların cəmiyyətə daha da inteqrasiyasıdır.

İnklüziv təhsil prosesinin təşkilinin xüsusiyyətləri təhsil prosesinin inklüziv təşkilinin qurulmasının əsas prinsiplərinə uyğunluğundan asılıdır [3, s. 54]:

1. İnklüziv mühitə erkən daxil olma. Bu, reabilitasiya imkanını, yəni sosial qarşılıqlı əlaqə üçün qabiliyyətlərin ilkin formalaşmasını təmin edir.

2. İslahedici dəstək. İnkişaf pozğunluğu olan bir uşaq kompensasiya qabiliyyətlərinə malikdir, təhsil prosesinin qurulmasında onları "işə salmaq" və onlara etibar etmək vacibdir. Uşaq, bir qayda olaraq, sosial mühitə tez adaptasiya olur, amma o, dəstəkləyici məkanın və xüsusi dəstəyin təşkilinə ehtiyac duyur (bu, həm də onun xüsusi ehtiyaclarını nəzərə alan şərtlər kimi çıxış edir).

3. Təhsilin individual yönümlü olması. Əlilliyi olan uşaq hamı üçün ümumi olan təhsil proqramını mənimsəyə bilər ki, bu da onun uşaq kollektivinin həyatına daxil olması üçün vacib şərtdir. Lazım gələrsə, uşağın xüsusiyyətlərindən, qüsurunun dərinliyindən və imkanlarından asılı olaraq individual təhsil marşrutu hazırlanır.

Müasir dövrdə Yapon imperiya institutunun vəziyyəti sabit deyil, dinamik və çevikdir və Yaponiyanın tarixini və mədəniyyətini əks etdirir. [3, s.304]. Keçmişin müxtəlif dəyişikliklərinə və böhranlarına tab gətirən və uyğunlaşan imperiya institutu inkişaf etməyə və Yaponiyanın və dünyanın bu gününə və gələcəyinə cavab verməkdə davam edir. Yaponiyanın ənənə və kimliyindən qaynaqlanan imperiya institutu həm də Yaponiyanın və dünyanın müasirliyini və müxtəlifliyini əhatə edir. Müasir Yaponiyada İmperatorun siyasi təsiri olmasa da, onun mənəvi və simvolik təsiri güclü olaraq qalır. Xalq, İmperatoru sülh və mərhəmət dəyərlərinin təcəssümü kimi qəbul edir. Bu qavrayış imperator Hirohitonun II Dünya Müharibəsindən sonra öz ilahi statusundan imtina etməsinin xatirəsində dərin kök salmışdır, bu da imperatorun rolunu siyasi olaraq azaltmışdır.

Ədəbiyyat siyahısı

1. Demir A., "Japon İmparatorluğunun Kökeni: Tarih Boyunca Oluşum ve Gelişim Süreçleri", İstanbul, "YKY Yayınları", 2019, 276 s.
2. Suzuki H., "The Japanese Empire: Evolution and Expansion through History", Japan, "Osaka University Press", 2018, 220 p.
3. Yılmaz A., "Kuge'nin Etkisi: Japon İmparatorunun Sarayındaki Düşünce ve Kültürün Kökenleri", Osaka, "Osaka Üniversitesi Yayınları", 2018, 324 s.

Seyidli Nigar Cəfər qızı
Elmi rəhbər: fil.f.d., dosent Xuraman Əsgərova Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ DİLİ

"Dil - millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa, xalq da yoxdur!"

Ulu öndərin dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib.[1]

Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

İkincisi, Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib.[2]

Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.[3]

Dördüncüsü, Azərbaycan dilinin tarixi o zamana qədər görünməmiş bir ardıcıllıqla araşdırılıb, çoxcildlik "Müasir Azərbaycan dili" kitabları yaradılıb, həmin çoxcildliklərdən biri - ali məktəblər üçün "Müasir Azərbaycan dili" dərsliyi Azərbaycan Dövlət mükafatına layiq görülüb, ana dilini araşdıran alimlərin əməyi yüksək qiymətləndirilməklə, əslində, ana dilinin nüfuzu bir daha təsdiq edilib.[4]

Beşincisi, həm rəsmi, həm də qeyri-rəsmi yığıncaqlarda, məclislərdə Azərbaycan dilində danışmaqdan çəkinməyən respublika rəhbəri praktik olaraq ana dilinin ictimai-siyasi mövqeyinin yüksəlməsinə bilavasitə təsir göstərib, başqalarına nümunə olub və s.

Bütün bunlar onu göstərir ki, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin hazırlayıb həyata keçirdiyi dil siyasəti Onun dövlət quruculuğu siyasətinin tərkib hissəsi olub. Ali məktəblər üçün yazılmış "Müasir Azərbaycan dili" dərsliklərinin Respublika Dövlət mükafatına layiq görülməsi, anadilli ədəbiyyatın inkişafı üçün hər cür şəraitin yaradılması, Azərbaycan ədəbiyyatı klassiklərinin təbliği məhz bunun nəticəsi idi.[5]

Ədəbiyyat siyahısı;

1. 1.Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin Prezident kitabxanası
2. 2.Xalq qəzeti
3. 3.Salatın Əhmədova ,Heydər Əliyevin dil siyasəti.Azərbaycan.Ata M.2008
4. 4.A.Axundov ,M.Məmmədov,M.Mahmudov.Heydər Əliyev dil haqqında və Heydər Əliyevin dili.Bakı Elmi . 1988

İsgəndərli Lalə Şahbaz qızı
Elmi rəhbər: fil.f.d.,dosent Zeynalova Sənubər Surxay qızı
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN ƏDƏBİYYATINDA HEYDƏR ƏLİYEVİN ROLU

Tarix uzaqlaşdıqca biz Heydər Əliyev dühasının əzəmətini, onun şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. Əslində bu qeyri-adi şəxsiyyət hər zaman bizim əhatəmizdədir. Bu misilsiz şəxsiyyətin xalqımız üçün etdiyi işlərin möhtəşəmliyini, tarixi dəyər və miqyaslarını əhatə etmək olduqca çətindir. Heydər Əliyevin miras qoyduğu sərvətlər içərisində onun zəngin nəzəri irsi xüsusi yer tutur. Onun irsi bizim milli sərvətimizdir. Bu qiymətli irsin mühüm bir hissəsini onun mədəniyyət, ədəbiyyat və incəsənətin müxtəlif növ və janrları haqqında nəzəri konsepsiyaları müəyyənləşdirir.

Heydər Əliyev ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşırdı.Heydər Əliyev Azərbaycan xalqının misilsiz sərvəti olan klassik irsə, ümumən bədii ədəbiyyata xüsusi önəm verirdi [4,s.210]. Heydər Əliyev demişdir: "Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xaıqımıza birinci növbədə ədəbiyyatdan keçir." [5,s.35] Bu fikir olduqca doğrudur, Azərbaycan ədəbiyyatının tarixdəki ideya-bədii rolunu son dərəcə böyük dəqiqlik və obyektivliklə əks etdirir.

Məhz Heydər Əliyevin böyük nüfuzu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə – Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı – Sosialist Əməyi Qəhrəmanı adları verildi. Ədəbiyyatımız və mədəniyyətimiz dünyanın ən qabaqcıl mədəniyyətləri sırasına yüksəldi. Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, türkləri birləşdirmək üçün onları ortaq məxrəcə gətirən ideyanı ortaya qoymaq lazımdır. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. 2 noyabr 1994-cü ildə 80-dən artıq millətin nümayəndəsi iştirak edən Türkiyə Böyük Millət Məclisindəki çıxışında H.Əliyev demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət–ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır." Böyük romantik şair və filosof H.Cavidin nəşinin uzaq Sibirdən gətirib doğma Naxçıvanda torpağa qovuşdurması, Cavidlər məqbərəsinin tikilməsi, Bakıda böyük hürufi şair İmadəddin Nəsimiyə, romantik şair Hüseyn Cavidə, Nəriman Nərimanova, Cəfər Cabbarlıya möhtəşəm heykəllər qoydurması Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına qayğısının böyük təzahürü idi.

Heydər Əliyev ensiklopedik təfəkkürlü, müdrik şəxsiyyət idi. Azərbaycanın milli-mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşdirilməsində onun misilsiz xidmətləri olmuşdur. Heydər Əliyev xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim izləmiş, ona ən ümdə vəzifəsi kimi baxmışdır. O, deyirdi: "Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər." [1,s.126]

Ədəbiyyat

1. Nəbiyev B. Heydər Əliyev haqqında etüdlər. Bakı – 2007, 136səh.
2. Salatın Əhmədova Heydər Əliyev və ədəbi-tarixi proses Bakı, Elm,2013,156 səh.
3. Vəliyev İ. Muxtarov K. Heydər Əliyev və türk dünyası. Bakı - 2003, 89 səh.
4. Xudiyev N.M. Uğurlu yolun layiqli davamçısı. Bakı – 2007, 608səh.
5. "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir". 1-ci cild. Bakı – 2013, 632səH.

Hüsniyyə Sadıqova Samiq qızı
BM, qrup 192B
Elmi rəhbər: müəl. R.Məmmədzadə

İNGİLİS DİLİNİN HƏYATIMIZDAKI ROLU

Ümummilli lider Heydır Əliyev bildirmişdir: "Dil - millətin mənəviyyat bayrağı, milli mənlik və qürurudur. Dil yoxdursa xalq da yoxdur!" Dil nəsilləri bir-birinə bağlayan tel, maddi-mənəvi irsin yaşadılması və ötürülməsi vasitəsi, millətin dünəni, bu günü və sabahıdır. Məşhur dilşunas alim Humboltun sözü ilə desək : "Dil xalqın ruhudur." Dünyada bir neçə əsas dillər var ki, onları öyrənmək bizlər üçün olduqca vacibdir. Onlardan biri və ən əsası ingilis dilidir. İngilis dili doğma dil kimi 410 milyon insan daşıyıcısıdır. İkinci dil kimi 1 milyard insan bu dildə danışır. İngilis dili BMT-nin altı rəsmi və işçi dilindən biridir. Demək olar ki, bütün ölkələrdə (dövlət dili ingilis dili olan ölkələr istisna olmaqla) ingilis dilinin tədrisi ilə məşğuldurlar. İngilis dili həyatımızın əsas obrazına çevrilmişdir. Çünki hər kəs bu dili öyrən-

məyə can atır.Müasir dünyamızda dil öyrənməyin müxtəlif səbəbləri vardır. Bu səbəblərin isə ən başlıcası və öndə duranı ondan ibarətdir ki, bu dil vasitəsilə dünyaya hərtərəfli baxmaq imkanı əldə edirik. [İnsanın xarici dillərə mükəmməl yiyələnməsi halı olmadan, ünsiyyətin həmin dildə informasiya mübadiləsi kommunikativ fuksiyasını həyata keçirmək mümkün deyil.]

İngilis dilini öyrənməyin bir neçə digər mühim səbəbləri də vardır:Birincisi, ingilis dili "beynəlxalq ortaq dil" statusunu qazanmış ilk dildir, yəni başqa dillərdə danışan insanlar arasında ortaq ünsiyyət vasitəsidir. İngilis dili müasir dünyada ən çox danışılan dillərdən biridir. Yer kürəsinin ən güclü dövləti ABŞ başda olmaqla, Avstraliya, Böyük Britaniya, CAR, Yeni Zelandiya, İrlandiya və Sinqapur kimi inkişaf etmiş ölkələrin dövlət dilidir.

İkincisi,İngilis dili hal-hazırda dünyada diplomatiya, kommersiya, dənizçilik, elmi-texniki və kütləvi informasiya dili rolunu oynayır.

Üçüncüsü, iki, üç və daha çox dil bilmək dünyagörüşünün formalaşmasına müsbət mənada təsir edir, hadisələrə daha geniş prizmadan baxmağa kömək edir. Volterin sözü ilə desək, çox dil bilmək bir qalanın bir neçə qapısının açarına sahib olmaqdır. Bir fərd nə qədər savadlı olsa da, əcnəbi dil bilmədən biliyini dar çərçivədən çıxarıb daha da təkmilləşdirməsi, dünya təcrübəsindən faydalanması, elmi mübadilə aparması mümkün deyildir.

Dördüncüsü, İngilis dilini bilmək iş tapmaqda başlıca rol oynayır. Belə ki, bu gün yerli və xarici şirkətlər ingilis dilini səlis bilən mütəxəssislərə üstünlük verirlər.

Beşincisi, İngilis dilini bilmək vaxta və xərclərə qənaət etmək deməkdir. Tərcüməçiyə müraciət etmədən informasiyanı qəbul edir, analiz edir, ötürür, bir sözlə, öz işimizi özümüz görürük.

Altıncısı, bu gün nəşr olunan və son iki əsrdə nəşr olunmuş ədəbiyyatın və kütləvi mətbuatın böyük qismi internet resurslarının 80%-ni ingilis dili təşkil edir. Yəni istər elmi biliklərin öyrənilməsində, istər diplomatik münasibətlərin, istər ticari, iqtisadi əlaqələrin qurulmasında, istər xarici ölkələrə səfərlərdə dünyanın hansı ucqar nöqtəsi olursa-olsun, ingilis dili əvəzedilməz funksiyaya malikdir.

Ədəbiyyat:

1. Azərbaycan Dillər Universiteti. Kəmalə Cəfərova. Elmi xəbərlər. Bakı. 2016

Quliyeva Arzu Anar qızı
Elmi rəhbər: Dosent Emil Qasımov
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEVİN NİZAMİ GƏNCƏVİ YARADICILIĞINA BÖYÜK EHTİRAM İFADƏSİ

"Nizami gəncəlidir!". Ulu öndərin bu müdrik sözləri hər bir gəncəlinin qəlbində yuva salıb. Əsl qürur, iftixar mənbəyidir! Gəncənin adı çəkiləndə Nizami göz önünə gəlir. Bu şöhrətin, bu qüdrətin qol-qanad açmasında ümummilli lider Heydər Əliyevin xidmətləri əvəzsizdir. Ulu öndər Nizami Gəncəvinin ölməz sənətinə, dünyanı bürüyən əbədi şöhrətinə çox yüksək qiymət verir, dahi söz ustasının irsinin geniş təbliğini, onun yubileylərinin müntəzəm surətdə keçirilməsini tövsiyə edirdi. [2]

Görkəmli dövlət xadimi Heydər Əliyevin «Azərbaycan böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında»kı qərarı ilk növbədə böyük sənətkarın Azərbaycan xalqına məxsus olmasının dövlət səviyyəsində bəyan edilməsi ilə Nizamiyə sahib çıxmaq arzusunda olanlara əsaslı bir cavab olmuşdur [1]

Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimidir. Ulu öndərin siyasi dünyagörüşünün formalaşmasında da ədəbiyyat faktoru mühüm yer tutmuşdur.«Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm.… Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur».[1]

Heydər Əliyev Azərbaycan ədəbiyyatına həyat, müdriklik və mübarizə məktəbi kimi baxmış ədəbiyyat və incəsənət əsərlərimizdə xalq həyatının bütün dərinliklərinə və genişliyinə qədər əks olunmasına xüsusi diqqət yetirməyi zəruri saymışdır. Dahi şəxsiyyət bu fikirdə idi ki, «Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini əbədiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır». [3]

Belə ki, Azərbaycan Respublikasına birinci rəhbərliyi dövründə (1969-1982) respublika rəhbərinin 6 yanvar 1979-cu il tarixdə «Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında» dövlət səviyyəsində xüsusi bir qərarı imzalaması dahi sənətkarın zəngin yaradıcılığının ölkədə və dünyada tanıdılmasında və irsinin sistemli şəkildə tədqiq edilməsində mühüm rol oynamışdır. Bundan başqa, 1981-ci ildə Nizami Gəncəvinin anadan olmasının 840 illik yubileyinin geniş miqyasda və yüksək səviyyədə təntənə ilə qeyd olunması keçmiş Sovetlər İttifaqına görkəmli ədəbi şəxsiyyətlərin yubileylərinin keçirilməsi üçün müəyyən edilmiş qaydaların sədlərini aşmış, ədəbiyyatın inkişafında Nizami Gəncəvi kimi böyük xidmətləri olmuş dahi sənətkarlara fərqli yanaşma ənənəsinin əsasını qoymuşdur. «Nizami Gəncəvinin 840 illiyini böyük bir yubiley kimi qeyd edəndə bizə çox yerdə irad tutdular ki, 840 il yuvarlaq tarix deyil. Ancaq bir sübut etdik ki, Nizami Gəncəvi edə bir şəxsiyyətdir ki, tarixdə, dünya mədəniyyətində elə bir iz qoyub getmişdir ki, onun yubileyi hər il keçirilə bilər».[1]

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə 22 sentyabr 1975-ci və 4 yanvar 1978-ci illərdə "Nizami məqbərəsinin qorunması", 1 yanvar 1979-cu ildə Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında, 28 iyul 1981-ci ildə isə dahi mütəfəkkirin 840 illik yubileyi münasibətilə verilən qərar və göstərişlər böyük şair haqqında möhtəşəm tədbirlər görülməsinə, genişmiqyaslı tədqiqatlar aparılmasına səbəb olmuşdur.[4]

"Nizami" filminin çəkilməsi, "Xəmsə" kompleks abidələrinin ucaldılması, Nizami məqbərəsinin təmiri və qorunması, "Xəmsə"nin yeni tərcümə və nəfis tərtibdə nəşr edilməsi, dünyanın bir çox şəhərlərində Nizami heykəllərinin ucaldılması, Bakı Metropoliteninin stansiyalarından birinə "Nizami" adının verilməsi və digər tədbirlər Heydər Əliyevin dahi Azərbaycan şairinə olan diqqət və qayğısının bariz nümunəsidir.[5]

Ədəbiyyat siyahısı:

1. http://www.anl.az/down/meqale/ses/2021/may/743941.htm
2. https://azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ve-azerbaycan-nizamisunasligi-1639254847
3. https://ikisahil.az/post/399493-nizami-irsinin-oyrenilmesi-ve-tebliginde-heyder-eliyevin-evezsiz-rolu
4. https://525.az/news/231181-nizami-gencevi-irsine-heyder-eliyev-qaygisi
5. https://sesqazeti.az/news/politics/859632.html
6. https://literature.az/raAdmin/uploads/files/2021/10/26/22/151cd80d1d12add125da11e497d2e2b1.pdf
7. https://xalqqazeti.az/az/sosial-heyat/heyder-eliyev-ve-nizami-gencevi
8. https://azertag.az/xeber/azerbaycan_nizamisunasliginin_heyder_eliyev_erasinin_baslangici____meqale-2711227

Uzunalova Lamiyə Elşən qızı
Elmi rəhbər: B/m Əbdürrəhimova Şəfa Rasim qızı
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCANDA VƏ FRANSADA GENDER VƏ SƏHİYYƏNİN MÜQAYİSƏLİ TƏHLİLİ

Günümüzdə ümumi sağlamlıq vəziyyətindən zövq alan və rifah halını yaxşı yaşayan qadınlar azdır. Hamiləlik və ya doğuşla bağlı ağırlaşmalardan hər dəqiqə bir qadın ölür. Bu ölümlərin əksəriyyətinin qarşısı alına bilər. Bu bədbəxt hadisələr qadınların səhiyyə xidmətlərindən bərabər şəkildə yararlana bilməməsi ilə əlaqədardır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamalarına görə dünyada hər il 600 000 qadın ölümü halı qeydə alınır və hamiləlik nəticəsində əlil olan qadınlar 8 milyon nəfər təşkil edir.

Hazırda ölkəmizdə 33 minədək həkim, 54 minə qədər tibb işçisi əhalinin sağlamlığı keşiyində dayanır. 2023-cü ilin məlumatlarına görə, Azərbaycanda səhiyyə sektorunda çalışanların 78%-i qadınlardır. Bu göstərici Avropa İttifaqının orta göstəricisindən yüksəkdir (73%) [7].

Azərbaycanda ənənəvi olaraq səhiyyə sektoru qadınların işləməsi üçün daha əlverişli sahə hesab olunur. Bəzi kişilər aşağı maaş, uzun iş saatları və stresli iş şəraiti kimi səbəblərə görə səhiyyə sektorunda karyeranı cəlbedici hesab etməyə bilərlər [2].

Azərbaycanda tibb təhsili alan oğlan və qızların nisbəti son illər tədricən bərabərləşir. 2023-cü ilə qədər tibb fakültələrində təhsil alan qız tələbələrin nisbəti 51% təşkil edib. Bu nisbət oğlanlarla müqayisə-

də (49%) yüksəkdir. 2023-cü ilə qədər tibb fakültələrinə müraciətlərin 53%-i qız tələbələr tərəfindən olub. Bu nisbət də oğlanlarla müqayisədə (47%) yüksəkdir [6].

Qızların tibb bacısı və fizioterapevt kimi daha çox işləmələrinin səbəbi məhz bu sahələrin ənənəvi olaraq qadınlarla əlaqəli olması ilə bağlıdır. Bu sahələrdə çalışan qadınların xəstələrə şəfqətli və diqqətli yanaşması gözlənilir. Oğlanların stomatologiya və baytarlıq kimi sahələrdə daha çox işləməsinin səbəbi bu sahələrin ənənəvi olaraq kişilərlə əlaqəli olmasıdır. Bu sahələrdə çalışan kişilərin güclü və qətiyyətli liderlik nümayiş etdirmələri gözlənilir.

Fransa və Azərbaycanda tibdə gender stereotipləri hər iki ölkədə oxşar olsa da, bəzi mühüm fərqlər var. Hər iki ölkədə tibbə kişilərin üstünlük təşkil etdiyi sahə kimi baxılır. Fransada tibb fakültələrində qadınların faiz göstəricisi təxminən 40% təşkil edir, baxmayaraq ki, bu göstərici cərrahiyyə və digər qeyri-cərrahi ixtisaslar arasında dəyişir. Cərrahiyyədə qadınların faiz göstəricisi 25%-dən azdır. Azərbaycanda tibb fakültələrində qadınların xüsusi çəkisi daha yüksəkdir (təxminən 60%). Lakin bu göstərici tibbi ixtisaslara görə dəyişir. Cərrahiyyədə qadınların fazi nisbəti 35%-dir [1].

Fransa və Azərbaycanda tibb sahəsində gender stereotipləri qadınların həkim kimi, ümumiyyətlə, kişilərə nisbətən daha az bacarıqlı olması və kişilərin qadınlardan daha yaxşı cərrah olması inamını əks etdirir. Bu stereotiplər qadınların tibb sahəsində irəliləməsinə mane ola bilər. Fransada tibb sahəsində gender stereotipləri daha az güclü və qətiyyətli görünən qadınlara qarşı qərəzlərə əsaslana bilər. Bu qərəzli yanaşmalar qadınların tibb sahəsində liderlik rolları üçün diqqətdən kənarda qalmasına səbəb ola bilər [2; 9].

Fransada 2022-ci ildə tibb fakültələrinə qəbul edilən tələbələrin 59%-ni qadınlar, 41%-ni isə kişilər təşkil edib. Bununla belə, bu nisbət tibbi ixtisaslar arasında dəyişir. Məsələn, ümumi praktikada qadınların nisbəti 70%-dən çox olduğu halda, cərrahiyədə bu nisbət 20%-dən aşağıdır [8].

İstifadə olunan ədəbiyyat siyahısı

1. Azerbaycan'da Sağlık. URL: https://www.who.int/countries/aze/en/
2. Azərbaycan Respublikası Dövlət Statistika Mərkəzi. URL:https://www.stat.gov.az/source/gender/
3. Dünya Sağlık Örgütü:(DSÖ)Azerbaycan. URL: https://www.who.int/countries/aze/en/
4. Eryılmaz S. Toplumsal Cinsiyyetin rolü ve Kadın Sağlığı, 2020. URL: https://dergipark.org.tr/tr/pub/ahievransaglik/issue/65355/1006893
5. Fransa Ulusal İstatistik Enstitüsü. URL: https://www.insee.fr/en/
6. Fransa'da Sağlık. URL: https://www.who.int/countries/fra/en/
7. Qurbanova N. /Həftə içi. 2011. URL: http://anl.az/down/meqale/hafta_ichi/2011/mart/162016.htm
8. Number of nurses in France: Aug. 25, 2021. URL:https://www.statista.com/statistics/757881/number-of-nurses-france/
9. Trading Economics: France Medical Doctors.URL:https://tradingeconomics.com/france/medical-doctors

Gulammirzayeva Maryam Musa
BM faklültəsi
Ph.D., Ibadli Vasila Alif
Azərbaycan Dillər Universiteti

HEYDAR ALİYEV AND THE PROMOTİON OF AZERBAİJANİ CİNEMA: STRATEGİES, ACHİEVEMENTS, AND CHALLENGES

Preliminary Information about Azerbaijani Cinema. Azerbaijani cinematography commenced in 1898, just two and a half years after the inception of world cinema. Initially, akin to other regions, Azerbaijani cinema featured silent films in black and white, subsequently transitioning to color and sound. In 1898, the production of chronicle-type films such as “People’s Walk in the City Garden,” “Fire in Bibiheybat Oil Well,” and “Morning in the Market Street” began. Until 1935, silent films were produced in both documentary and fiction genres. In 1916, the first full-length film in Azerbaijan, based on the melodramatic story “Oil and Millions Sultanate” by writer Ibrahim bey Musabayov, marked the advent of fiction film production. The year 1935 witnessed the release of “On the Shore of the Blue Sea,” our first sound film. The introduction of dubbing in Azerbaijani cinema occurred in 1936, when the renowned writer Y.V.Chemenzeminli dubbed the Soviet film “Chapaev” into Azerbaijani [1].

Azerbaijani Cinema during H. Aliyev's Era. Even during his tenure as the head of the State Security Committee of Azerbaijan SSR, Heydar Aliyev demonstrated care and support for Azerbaijani cinema. Several instances illustrate this:

In 1969, the film "In a Southern City" faced severe criticism from "Qoskino" due to its portrayal of outdated ideas and feudal mindset, resulting in a ban on public screenings. One of Heydar Aliyev's initial actions upon learning about the film was to authorize its return to the audience. In 1979, despite obstacles from Moscow, the filming of "Babek" was successfully completed, largely owing to Heydar Aliyev's support. During the same year, "Investigation" was hailed as one of the boldest films of its time due to its subject matter. Despite Soviet censorship and resistance from leading figures in the Azerbaijani film industry, Heydar Aliyev's endorsement of the film resolved the issue [3].

Heydar Aliyev prioritized national cinema during the years of independence. The cinema sector, a cherished component of Azerbaijani art, faced the threat of extinction in the 1990s. However, effective measures implemented by Heydar Aliyev upon assuming power in 1993 transformed this threat into opportunities for development. On July 3, 1998, the Law of the Republic of Azerbaijan on "Cinematography" was enacted, providing the legal framework for state cinematography. In 1996, the Azerbaijan State Film Fund was established to safeguard films. Additionally, Azerbaijani Cinema Day was designated as August 2 through a decree signed on December 18, 2000, thereby becoming a professional holiday for cinema workers [2].

References:

1.https://kaspi.az/az/byuk-tarixi-olan-azerbaycan-kinematoqrafiyasi

2. https://nuhcixan.az/news/medeniyyet-turizm/74317-heyder-eliyev-ve-azerbaycan-medeniyyeti

3.https://aki.az/milli-kinomuzun-inkisafinda-heyd%C9%99r-%C9%99liyevin-xidm%C9%99tl%C9%99ri/

Mustafayeva Lalə Zahid qızı
Elmi rəhbər: baş müəllim Hüseynova Nailə İsmixan qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ ƏDƏBİYYAT

Ulu Öndərimizin işi, əməlləri həyatımızda böyük rol oynayır. Tariximiz uzaqlaşdıqca, biz Heydər Əliyevin dahiliyini və böyüklüyünü başa düşürük. (https://haydaraliyevcenter.wordpress.com) Böyük tarixi şəxsiyyət olan Heydər Əliyev bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu 1997-ci ildə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındaki nitqində belə etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm..Mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, unutmamışam. (http://www.anl.az) Gəlin, Heydər Əliyevin sevdiyi əsərlərə nəzər salaq: Səməd Vurğunun "Azərbaycan" şeiri, Heydər Əliyevin ən çox sevdiyi pyes isə Cəlil Məmmədquluzadənin "Ölülər" pyesi idi.

Heydər Əliyevin ən sevdiyi şairlərdən biri Bəxtiyar Vahabzadə idi. Heydər Əliyevin ən böyük xidmətlərindən biri görkəmli şair Bəxtiyar Vahabzadəni sovet rejiminin qorxunc repressiya maşınından qoruması olub. Bəxtiyar Vahabzadəyə qarşı ilk repressiv addımlara 1962cı ildə start verilir. O, millətçilik ideyalarını təbliğində günahlandırılaraq dərs dediyi Bakı Dövlət Universitetindən uzaqlaşdırılır. Heydər Əliyev sovet rəhbərliyini inandıra bilir ki, Bəxtiyar Vahabzadənin millətçi kimi damğalanmasına heç bir əsas yoxdur və onun yaradıcılığında sovet rejimi üçün heç bir təhlükə yoxdur. Məhz Ulu öndərin səyi nəticəsində Bəxtiyar Vahabzadə 1964cü ildə yenidən Bakı Dövlət Universitetindəki işinə bərpa olunur. (https://moderator.az)

Heydər Əliyevin böyük nüfusu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə - Suleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı- Sosialist Əməyi Qəhramanı adı verildi. Ulu öndər hakimiyyətə gəldiyi ilk dönəmlərdə- 12 avqust 1969-cu ildə

Qazaxda Molla Pənah Vaqifin ev muzeyinin yaradilması qərarının verilməsi öz dövrü üçün boyük ədəbi və milli hadisə idi. 1978-ci ildə isə Şamaxıda Ədəbiyyat Muzeyi yaratmaq haqqda qərar qəbul edilməsi həmin bölgənin tarixi şöhrətini daha da artırdı.(https://haydaraliyevcenter.wordpress.com)Heydər Əliyevin hakimiyyəti dövründə keçirilən yubileylərə nəzər salaq: 1974-cü ildə 90 illiyi keçirilən Hüseyn Cavid repressiya qurbanı olmusdur, 12 iyul 1982-ci ildə xanım Mirvarid Dilbazinin 70 illiyi dövlət sayəsində keçirilmişdir.(https://kayzen.az)

Bundan başqa, millətin və ölkənin bütövlüyü düşüncəsinin cəmiyyətdə formalaşdırılmasında da Heydər Əliyev ədəbiyyat faktorundan məqsədyönlü faydalanmışdır.

Heydər Əliyev ədəbiyyatın, eyni zamanda hər bir insanın, ayrıca fərdin həyatında misilsiz rolunu vurğulayırdı: "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat nümunələri qədər güclü təsir edən,yəni insanların mənəviyyatına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir şey yoxdur" (https://edebiyyatqazeti.az)

Heydər Əliyevin ədəbiyyatdakı rolu əvəzsizdir. Heydər Əliyev indiki dövürdə bizim ən böyük nümunəmizdir"

Ədədbiyyat siyahısı:

1. "Azərbaycan" qəzeti https://www.azerbaijan-news.az
2. Azərbaycan Milli Kitabxanası https://www.anl.az
3. "Xalq" qəzeti https://xalqqazeti.az
4. "Ədəbiyyat" qəzeti https://edebiyyatqazeti.az
5. Ağcabədi rayon Heydər Əliyev https://haydaraliyevcenter.wordpress.com
6. H.Əliyev 100. Sitatlar və kəlamlar 2023

Təhsil-2 fakültəsi, Atakişiyeva Ellada Nəzər q.
Müəllim, f.f.d. Qədimova Laila Sahib q.
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN DİLİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Ulu öndərimiz bütün sahələrdə olduğu kimi dilimizin inkişafında da müstəsna xidmətlər göstərib.

Hər bir xalqın milli mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Dil hər bir xalqın varlığının ən əsas təminatçısıdır. Azərbaycan xalqının da ana dili onun milli varlığını müəyyən edən başlıca amillərdəndir.

Azərbaycan dilinin ölkənin dövlət dili elan edilməsində xalqımızın ümummilli lideri Heydər Əliyevin çox böyük xidmətləri olmuşdur. Azərbaycan ədəbi və xalq danışıq dilini dərindən bilən, bu dilin zəngin lüğət tərkibinə yaxşı bələd olan və qrammatik imkanlarından fitri istedadı sahəsində səmərəli istifadə etməyi bacaran ulu öndər Heydər Əliyev yüksək səviyyəli yığıncaqlarda, məsələn, BDU-nun 50 illiyinə həsr olunmuş yubiley toplantısında, yüksək dövlət səviyyəsində aparılan başqa müşavirələrdə ana dilində parlaq çıxışlar edərək, özünə böyük hörmət və məhəbbət qazanmışdır. O çox yaxşı bilirdi ki, onun qazandığı bu böyük hörmət və məhəbbət, eyni zamanda, onun istifadə etdiyi, danışdığı dilə - Azərbaycan dilinə çox böyük hörmət və məhəbbət yaradır.

Ulu öndər Heydər Əliyev Azərbaycan dövlətinin rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub. Tarix üçün o qədər də böyük olmayan, təxminən onillik bir müddətdə görkəmli dövlət xadimi həqiqətən böyük tarixi olan aşağıdakı işləri həyata keçirib:

Birincisi, Azərbaycan dili dövlət dili olaraq Azərbaycan SSR-in müvafiq qanunlarında (xüsusilə Konstitusiyada) öz əksini tapıb, Moskvanın etirazlarına baxmayaraq, respublikada rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib.

İkincisi, Azərbaycandilli məktəbin, maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər Sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib.

Üçüncüsü, Azərbaycan dilində mətbuatın, elmin tərəqqisi üçün dövlət rəhbərliyi əlindən gələni edib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları - "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və incəsənət" qəzeti Azərbaycan dilində nəşr edilib.

Ümummilli lider Heydər Əliyev Azərbaycan dilinin inkişafı və zənginləşməsi istiqamətində müxtəlif vasitələrdən istifadə edirdi. Azərbaycanda dilçi alimlərə yüksək diqqət və qayğı göstərilməsi, milli dildə nəşr edilən kitabların tirajlarının artırılması və digər tədbirlər ana dilinin daha da inkişaf etdirilməsi məqsədi daşıyırdı.

Xalqın təkidli tələbi və xahişi ilə 1993-cü ildə yenidən siyasi hakimiyyətə gələn ulu öndər Heydər Əliyev digər sahələrdə olduğu kimi, milli mənəvi dəyərlərimizin qorunması, adət-ənənələrimizin, milliliyimizin inkişafı məsələsini diqqətdə saxlamışdır. Azərbaycan dilinin işlənməsi və inkişaf etdirilməsi məsələsinə xüsusi önəm yetirən ümummilli lider ana dilimizin - Azərbaycan dilinin adını özümüzə qaytarmışdır.

30 sentyabr 2002-ci ildə isə ulu öndər Heydər Əliyev tərəfindən "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanun təsdiq olundu. Bu sənəddə göstərilir ki, Azərbaycan Respublikası Azərbaycan dilinin dövlət dili olaraq işlədilməsini öz müstəqil dövlətçiliyinin başlıca əlamətlərindən biri sayır, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi qayğısına qalır, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünüifadə ehtiyaclarının ödənilməsi üçün zəmin yaradır. Bu qanun ölkə Konstitusiyasına uyğun olaraq, Azərbaycan Respublikasında Azərbaycan dilinin dövlət dili kimi hüquqi statusunu nizamlayır. Ulu öndərin ana dilinin taleyi barədə təməl düşüncələrini şərtləndirən dil quruculuğundakı ideya istiqaməti bu gün də müasir siyasi baxışlara uyğun səviyyədə aparılmaqdadır.

Beləliklə, minilliklər boyu formalaşan və bu günümüzə gəlib çatan Azərbaycan dili xalqımızın qədimliyinin simvolu, qürur mənbəyidir. Bu gün fəxr edirəm ki, ana dilinə önəm verən bir xalqın nümayəndəsiyəm. Məhz Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dil siyasəti bu sahədə əldə etdiyimizi uğurların əsasını təşkil edir.

İstifadə olunmuş ədəbiyyat:

1. https://www.yeniazerbaycan.com/Arxiv_e84140_az.html
2. http://www.anl.az/down/meqale/yeni_az/2013/mart/297038.htm
3. https://science.gov.az/az/news/open/24037

Məmməd Aişə Vüqar qızı
Elmi rəhbər: Baş müəllim Məmmədova Sevinc Razim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi dövrlərdə həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət- ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, ulu öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi. Bu baxımdan ulu öndər gənclərimizin milli-mənəvi dəyərlər əsasında tərbiyələndirilməsindən bəhs edərək demişdir: "...Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".[1]

Heydər Əliyevin elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata verdiyi dəyər Azərbaycançılıq ideyaları uğrunda aparılan siyasət idi. O, "Kitabi-Dədə Qorqud" kimi xalqın qəhrəmanlıq dastanının dəyərləndirilməsi və gələcək nəslə ötürülməsində olduqca böyük xidmət göstərdi. Belə ki, dastanın 1300 illik yaşının keçirilməsi Ulu Öndərin milli ruha, qədim etnik düşüncəyə, ulu söykökə bağlılığını və bu kökə sədaqətinin açıq etiraf etdi. Və bu barədə, yəni dastanın 1300 illlik yaşının keçirilməsi haqqında saysız-hesabsız məqalələr yazıldı, fikirlər söylənildi. Bu, insanlarımızın xalqımızın ulu soykökünə olan dəyərdən aldığı sevinc və minnətdarlıq dolu fikirləri idi. Milli dəyərləri dövlət siyasətinin əsaslarında qoruyub saxlayan Ulu Öndər çox gözəl bilirdi və bütün dünyaya da çatdırırdı ki, Azərbaycan mədəniyyətinin kökü qədimdir.

Mədəniyyətimiz milli köklər üzərində yaranıb və formalaşıb. Bunları mövcud zamanda da yaşatmaq mütləqdir ki, gələcək nəsil öz kökünə şüurlu şəkildə sahib çıxa bilsin. Odur ki, milli dövlətçiliyimizin formalaşması və yaşamasında şifahi ənənəmizin çox böyük rolu və əhəmiyyəti olduğundan Ulu Öndər bu sahədəki görülən işləri təqdir edir, qarşıda duran problemlərin həll olunmasında mütəxəssislərə əsl rəhbər qayğısı göstərirdi.[4]

Ümummilli lider Heydər Əliyevin böyüklüyü rəhbər vəzifəyə gəldiyi gündən bu dəyərləri düzgün qiymətləndirməsində, daim diqqət mərkəzində saxlamasında idi. Ümummilli liderin milli ideologiyanın ən mühüm istiqamətlərindən və komponentlərindən biri kimi qiymətləndirdiyi milli mənəvi dəyərlər özü də mürəkkəb daxili struktura malikdir. Burada Heydər Əliyev milli mənəvi dəyərlərin üç tərkib hissəsini xüsusi qeyd edirdi: dil, din, adət-ənənə.[2]

Heydər Əliyev milli mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub-saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. Bildirirdi ki, bunlarsız millət yoxdur. Bunları qoruyub-saxlamaq gələcək nəsilə də ötürmək lazımdır. -Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz Azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaratmalıyıq – deyən Heydər Əliyev Azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür, mədəniyyətimizi, mənəvi dəyərləri təkcə milli varlığımızın yox, həm də siyasi varlığımızın – dövlət quruculuğu prosesinin mühüm atributu kimi dəyərləndirirdi.[3]

Yekun nəticə olaraq qeyd edək ki, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin müqəddəs missiyanı gerçəkliyə çevirdi, milliliklə dövlətçiliyi bir-birinə qovuşdurdu, onların sarsılmaz vəhdətini təmin etdi.[5]

Ədəbiyyat siyahısı

1. Xalq qəzeti-2009.-9 dekabr
2. İsmayılov N. Heydər Əliyev və milli mənəvi dəyərlərimiz. Bakı: Səda, 2003.
3. Mənəvi Dəyərlərin Təbliği Fondunun Nizamnaməsi./Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 10oktyabr tarixli Fərmanı ilə təsdiq edilmişdir/ – https://azertag.az/xeber/
4. 4.https://serqqapisi.gov.az/xeberler/ulu-onder-heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz
5. 5.https://www.muallim.edu.az/news.php?id=24451

Məmmədova Qənirə Sadiq
Elmi rəhbər: Məmmədova Nuranə Rövşən
Azərbaycan Dillər Universiteti

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİNİN MƏDƏNİYYƏTLƏRARASI MÜNASİBƏTLƏRİN İNKİŞAFINDA ROLU

Multikulturalizm sözün hərfi mənasında "çoxmədəniyyətlilik" anlamına gəlir. Multikulturalizm siyasəti dedikdə isə bir dövlətin sərhədləri çərçivəsində müxtəlif mədəniyyətlərin qorunması, inkişafı və təbliğinə yönəlmiş humanist və demokratik dövlət siyasəti nəzərdə tutulur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev öz çıxışlarında daima vurğulayır ki, multikulturalizm Azərbaycanda həyat tərzidir, dövlət siyasətidir və alternativi yoxdur.Azərbaycan dövləti yürütdüyü məqsədyönlü siyasət sayəsində öz etnomədəni xüsusiyyətlərini, inanclarını, yaşam tərzlərini və adət-ənənələrini qoruyub saxlamış, hətta qarşılıqlı mədəniyyət mübadiləsi nəticəsində ümumazərbaycan mədəniyyətinə öz töhvəsini vermişdir.

Multikulturalizmin yaşam tərzi kimi beynəlxalq əhəmiyyəti müasir dünyamızda son dərəcə həyati əhəmiyyət kəsb etməkdədir. Bu gün artıq daha çox ölkələr, xalqlar, müxtəlif beynəlxalq qurumlar, dini təsisatlar, insanlar dərk edirlər ki, kütləvi qırğın silahlarının durmadan artdığı, dövri olaraq baş verən iqtisadi, maliyyə böhranı şəraitində mövcud olmaq, inkişaf etmək, sosial rifahı təmin etmək üçün yeganə yol əməkdaşlıqdır, mədəniyyətlərarası dialoqdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi Azərbaycan Respublikasının Prezidentinin 15 may 2014-cü il Fərmanı əsasında yaradılmışdır. Bu mərkəzin yaranma məqsədi "Azərbaycan multikulturalizm" anlayışını dünya ictimaiyyətinə çatdırmaqdır. Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyi, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə məxsus fəlsəfi, sosial, siyasi və digər formaların Azərbaycan gerçəkliyində təhlilinin vacibliyini nəzərə alaraq Bakı Beynəlxalq Multikulturalizm mərkəzi yaradıldı. [2, s.419]

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində yaxın gələcəkdə həm xaricdə, həm də ölkəmizdəki ali təhsil ocaqlarında "Multikulturalizmə giriş", "Azərbaycan multikulturalizmi fənlərinin tədrisi daha da genişlənəcək.

Azərbaycan bütün zamanlara örnək ola biləcək əsl tolerantlıq nümunəsidir. Bu, təkcə, ölkədə yaşayan milli və etnik azlıq nümayəndələrinin deyil, həm də beynəlxalq aləmin səmimi etiraflarıdır. Bu mərkəzin qarşısında bir sıra vəzifələr dayanmışdır:

1.Azərbaycançılıq məfkurəsinə uyğun olaraq tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin etmək, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və mövcud multikultural modelləri tədqiq və təşviq etmək Mərkəzin əsas məqsədidir.

2. Müxtəlif bölgələrin mədəni irslərini öyrənmək və tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanması prosesinə dəstək.

3.Fərqli ölkələrin mədəniyyət dərəcələrinin bir-birinə təmas dərəcəsini öyrənmək

4. Fərqli dinlərə sahib olan din xadimlərinin dünyəvi biliklərinin artırılması üçün tədbirlər keçirmək.

Bugün multikulturalizmin Azərbaycan modeli dünya xalqları arasında münasibətlərin dərinləşməsinə istiqamətlənmiş mühüm və müsbət dəyər kimi geniş şəkildə təşviq edilir. Hətta Azərbaycan Respublikası Prezidentinin 11 yanvar 2016-cı il tarixli Sərəncamı ilə 2016-cı il "Multikulturalizm ili" elan edilmişdir. [2, s.133]

Sonda isə multikulturalizm haqqında fikrimi Prezidentimiz İlham Əliyevin fikri ilə tamamlamaq istərdim: "Vətən müharibəsində Azərbaycanda yaşayan bütün xalqların böyük payı vardır. Vətən müharibəsi bir daha onu göstərdi ki, Azərbaycanda bütün xalqlar dostluq, qardaşlıq, həmrəylik şəraitində yaşayır və bu 44 günlük müharibə bir daha onu göstərdi ki, ölkəmizdə milli birlik, milli həmrəylik vardır".

Ədəbiyyat:

1. Azərbaycan milli kitabxanası
2. "Multikulturalizmə giriş" Ali məktəblər üçün dərslik

Qafarova Röya İdrak
Elmi rəhbər: Məmmədova Nuranə Rövşən
Azərbaycan Dillər Universiteti

ÜMUMULLİ LİDER HEYDƏR ƏLİYEVİN AZƏRBAYCANDA DİNİ DƏYƏRLƏRİN QORUNMASIYLA BAĞLI GÖRDÜYÜ TƏDBİRLƏR

"Mənəvi sərvətlərinin hamısından dinin fərqi ondadır ki, o, dini mənsubiyyətindən asılı olmayaraq həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir."
Ümummilli lider Heydər Əlirza oğlu Əliyev

Ümumilli lider Heydər Əliyev ölkəmizin inkişafında göstərdiyi müstəsna xidmətlər o cümlədən dini dəyərlərimizin qorunması ilə bağlı gördüyü tədbirlər ölkəmizi bügünkü inkişaf səviyyəsinə gətirib çıxarmışdır. 70 illik sovet rejimi dövründə insanların zehnindən dini sıxışdırıb çıxarmaq məqsədilə xeyli iş görülmüşdü. Təsadüfi deyil ki Sovet dövründə yaşayıb-böyümüş insan bu vaxta qədər alışmış olduğu ictimai yönümünü itirdi – çaşıb qaldı, nəyə inanacağını bilmirdi.

1992-ci ildə tələsik, bölgədə dinin yayıldığı tarixi şəraiti tam nəzarətə almadan hazırlanmış "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi də dini durumda dövlət nəzarətini təmin edib, köklü dəyişiklik yarada bilmədi. Əksinə, əcnəbilər, vətəndaşlığı olmayan şəxslər, müxtəlif missioner təşkilatları qanundan və xüsusilə orada olan boşluqlardan istifadə edərək dövlətimizə zidd, yad fikirlər, inanclarını yaymağa başladılar. [2, s.218]

Ümummilli lider Heydər Əliyev respublikada yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə baxışı mürəkkəb və ziddiyyətli idi. Və nəzərə almaq lazımdır ki bu asan və tezliklə həyata keçirilməsi mümkün olan iş deyildi. 1-2 oktyabr 1998-ci ildə Bakıda keçirilən "Müasirlik və dini-mənəvi dəyərlər" adlı beynəlxalq konfransda Heydər Əliyev dünyəvi dövlətdə etiqad azadlığı prinsipini daha geniş açıqlayaraq demişdir ki: "Dövlətimiz insanlara bütün azadlıqları vermiş və vicdan azadlığını, din azadlığını öz siyasətinin əsas hissəsi hesab etmişdir. Azərbaycan Respublikasının Konstitusiyası (18,48-ci maddələr) din və vicdan azadlığını təsbit etmiş, biz isə bir dövlət kimi bunun təmin olunmasının qarantıyıq. Bəli, ona görə də bizim dövlətimiz dünyəvi dövlətdir. Ancaq biz dindən ayrı deyilik". [2, s.219]

Heydər Əliyev 5 sentyabr 1993-cü ildə Təzəpir məscidində Mühəmməd peyğəmbərin mövludu münasibətilə keçirilən mərasimdə çıxış edərək demişdir: "Biz bir dövlət kimi... Azərbaycan Respublikasında, müstəqil Azərbaycanda hər bir insanın sərbəst olaraq öz dini adət-ənənələrinə xidməti və onlardan istifadə etməsinə bütün imkanları yaradacağıq". Daha sonra 8 aprel 1998-ci ildə Qurban bayramı münasibətilə Mir Möhsün ağanın ziyarətgahında keçirilən bir görüşdə qeyd etmişdir ki: "İslam dini bizim doğma dinimizdir. Xalqımızın milli-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim sərvətimizdir... Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır". Bakının ən böyük məscidi olan Təzəpir məscidinin, qədim tarixə malik Bibi Heybət məscidinin, Mir Möhsün ağanın ziyarətgahının bərpası bilavasitə onun himayəsi altında həyata keçirilmişdir. Ümumilli lider gördüyü bu tədbirlər öz bəhrəsini vermişdi.

Aprel ayında Azərbaycanda qonaq olan Rum patriarxı I Varfolomey də ölkəmizdə tolerantlığın canlı şahidi olduğunu bildirmişdir. Təkcə onu qeyd etmək kifayətdir ki, son aylarda Bakıda iki yəhudi sinaqoqu və Jen Mironosets Kafedral kilsəsi bərpa edilərək dindarların istifadəsinə verilmişdir. Avropanın göbəyində yerləşən bəzi ölkələr dini dözümsüzlükdən əziyyət çəkdikləri halda biz Azərbaycanda yəhudilər, xristianlar və müsəlmanlar arasında qarşılıqlı hörmət və sıx əməkdaşlığın olması çox şeyi izah edir. Bu mühüm sahədə görülən bütün tədbirlər qanunvericilik aktlarına əsaslanır. Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi də Prezident Heydər Əliyevin 21 iyun 2001-ci il tarixli fərmanı ilə Azərbaycan Respublikası Konstitusiyasının 48-ci maddəsinin həyata keçirilməsi üçün müvafiq şəraitin formalaşdırılması və dini etiqad azadlığı ilə bağlı qanunvericilik aktlarının tələblərinə riayət olunmasını təmin etmək məqsədilə yaradılmışdır. [2, s.220]

Ulu Öndər Heydər Əliyev 1997-ci il avqustun 4-də Çikaqoda Amerikadakı Azərbaycan Mədəniyyət Cəmiyyətinin nümayəndələri ilə görüşündə söylədiyi nitqdə bu məsələni belə açıqlamışdır: "Ölkədə demokratik, dünyəvi cəmiyyət yaradırıq. Biz islam dininə mənsubuq. Amma dinin ölkəmizdə hakim olmasına yol verə bilmərik". Qeyd olunan bu nitqlə Azərbaycanın dini yox dünyəvi lakin İslam dininə də sondərəcə sadiq ölkə olduğunu bariz şəkildə göstərmişdir. [1, s.2]

Konstitusiyaya əsasən, Azərbaycanda dövlət dindən ayrıdır. Lakin milli ideya ilə dini ideya olaraq üst-üstə düşür, çarpazlaşırlar. Bunu ölkənin çoxəsrlik adət-ənənələrində müşahidə etmək mümkündür.

Ədəbiyyat

1. Rafiq Əliyev "Dini-mənəvi dəyərlərə Heydər Əliyev münasibəti"
2. "Multikulturalizmə giriş" Ali məktəblər üçün dərslik

İsmayılov Aykhan Fariz
Elmi rəhbər: Ph.D., Ibadli Vasila Alif
Azərbaycan Dillər Universiteti

THE ROLE OF HAYDAR ALİYEV İN SHAPİNG AZERBAİJAN'S NATİONAL CULTURAL IDENTİTY

Every nation has leaders who play an indispensable role in shaping its historical identity. For the people of Azerbaijan, this figure is none other than Heydar Aliyev. Chosen to lead even during the Soviet era, Heydar Aliyev consistently demonstrated foresight and leadership, standing alongside the people.

Heydar Aliyev's influence on the national cultural identity of Azerbaijan is profound. He championed the preservation of the Azerbaijani language, heritage, and traditions, engaged in cultural diplomacy, and supported the development of art and literature celebrating Azerbaijani culture. His successful policies led to the recognition of Azerbaijan's cultural achievements not only domestically but also internationally. Aliyev emphasized Azerbaijani national identity and culture as a unifying force for the country [4].

Aliyev believed that the Philosophy of Azerbaijanism held the key to addressing internal and external challenges faced by Azerbaijan. This philosophy provided a roadmap for future actions and contributed to building a strong, prosperous nation. Internally, Azerbaijanism promoted social harmony and political stability. Externally, it asserted Azerbaijan's autonomy and independence in the face of external pressures. Aliyev viewed culture as the nation's greatest asset and the cornerstone of its national identity.[1]

His policy aimed to bolster Azerbaijan's identity amidst various cultural influences and historical challenges. Aliyev laid the foundations that positioned Azerbaijan for success in the 21st century geopolitical landscape. His legacy as a symbol of Azerbaijani ideology and statehood remains enduring. Aliyev valued multiculturalism and integrated it into state policy, uniting diverse populations under a single ideology.[2]

Overall, Heydar Aliyev's philosophy of Azerbaijanism prioritized national unity, economic development, and a strong, independent Azerbaijan. His legacy continues to shape Azerbaijani politics and society today. Regardless of historical fluctuations, Heydar Aliyev will forever be remembered by the Azerbaijani people for his invaluable contributions to their history and future.[1] [4]

References:

1. 1.https://azertag.az/en/xeber/heydar_aliyev_a_man_who_must_be_remembered_in_human_history-2563871
2. https://sesqazeti.az/news/analytics/948490.html
3. 3.https://www.researchgate.net/publication/373639119_THE_ROLE_OF_HEYDAR_ALIYEV_IN_SCIENCE_EDUCATION_AND_CULTURE_OF_AZERBAIJAN
4. https://www.aa.com.tr/en/life/national-leader-of-azerbaijan-heydar-aliyev/207472

Yusibli Taleh Əhliyət oğlu
Elmi rəhbər: dos. Emil Qasımov
Azərbaycan Dillər Universiteti, Bakı

HEYDƏR ƏLİYEVİN MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINA BÖYÜK EHTİRAMIN İFADƏSİ

Məhəmməd Füzuli Azərbaycan ədəbi-bədii fikrinin inkişafında müstəsna yer tutan, Yaxın və Orta Şərq ölkələri ədəbiyyatına mühüm təsir göstərən dahi sənətkardır. Hərtərəfli biliyə malik mütəfəkkir kimi onun həyata, insana dərin məhəbbət aşılayan və daim gözəllik duyğusu ilə, ülvi ideallarla yaşamağa çağıran çoxcəhətli bədii-fəlsəfi irsi Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə bəxş etdiyi misilsiz mənəvi sərvətlərdəndir. M.Füzuli anadilli poeziyanın mükəmməl nümunələrini yaratmış, Azərbaycan bədii dilini daha da zənginləşdirərək yeni zirvəyə yüksəltmişdir. Onun parlaq dühasının təcəssümü olan və bu gün də sevilə-sevilə oxunan əsərləri yarandığı ilk vaxtlardan geniş coğrafiyada yayılmış və müəllifinə böyük şöhrət qazandırmışdır [1].

M.Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Öz müasirlərindən başlayaraq, sonrakı dövrlərdə Füzuli ənənələrinin davamçısı olmuş bütün görkəmli sənətkarlar bu nəhəng söz ustasının adını hər zaman ehtiramla yad etmişlər[1].

M.Füzulinin yubileyinin UNESCO tərəfindən qəbul olunmuş qərarla beynəlxalq səviyyədə layiqli şəkildə qeyd edilməsi milli mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Ölməz şairin 500 illiyi müstəqil Azərbaycan Respublikasında keçirilən ilk dünya miqyaslı möhtəşəm mədəniyyət və sənət bayramı olmuşdur [1].

Azərbaycan klassik bədii ədəbiyyatı hər zaman ümummilli lider H.Əliyevin diqqət mərkəzində olub. O, ən çətin dövlət vəzifələrini icra edəndə də, ağır diplomatik missiyaları yerinə yetirəndə də həmişə klassiklərlə maraqlanmış, onların ədəbi-tarixi əhəmiyyətini ön plana çəkib. Elə buna görə də "Klassik irsimizə, klassik ədəbiyyatımıza və onun nümayəndələrinə böyük diqqət və qayğı göstərən, bu ədəbiyyatın ictimai inkişafda, yeni insan tərbiyəsində oynadığı rolu yüksək qiymətləndirən və buna görə də onların sənətinin ölməzliyinin qarantı kimi çıxış edən H.Əliyevin özü də klassiklərin cərgəsinə daxil olmuş, onlar kimi ölməzlik qazanmışdır" [2].

Humanitar Böhranların Qarşısının Alınması: Beynəlxalq hüquq həmçinin dövlətlər daxilində təcavüz aktları və ya daxili münaqişələr nəticəsində yarana biləcək humanitar böhranların qarşısının alınmasında mühüm rol oynayır. Təhlükəsizlik Şurası tərəfindən icazə verilən sülhməramlı əməliyyatlar kimi mexanizmlər vasitəsilə beynəlxalq hüquq zorakılığı azaltmağa və həssas əhalini zərərdən qorumağa çalışır.

Diplomatiyanın və münaqişələrin həllinin təşviqi: Mübahisələrin həlli və danışıqlar üçün hüquqi baza yaratmaqla beynəlxalq hüquq dövlətlər arasında münaqişələrin sülh yolu ilə həllini təşviq edir. Diplomatiya və dialoq şikayətlərin həlli və təcavüz aktlarına çevrilməsinin qarşısının alınması üçün əsas vasitələr kimi vurğulanır.

Ədəbiyyat siyahısı:

1. United Nations Charter - Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi: Dövlət davranışını və güc tətbiqini tənzimləyən beynəlxalq hüquqi prinsip - https://www.un.org/en/about-us/un-charter#:~:text=United%20Nations%20Charter&text=As%20such%2C%20the%20UN%20Charter,of%20force%20in%20international%20relations.

2. Customary International Law - Beynəlxalq adət hüququ: özünümüdafiə və təcavüz aktları - https://corteidh.or.cr/tablas/r30421.pdf
3. https://repository.law.umich.edu/cgi/viewcontent.cgi?article=2865&context=articles
4. L.H.Hüseynov – Beynəlxalq hüquq 2012

Yusifov Taleh Qanun oğlu
Elmi rəhbər: Dosent Şahmuradov Aqil Şövkət oğlu
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN–İSRAİL MÜNASİBƏTLƏRİNİN QURULMASİNDA ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN ROLU

Azərbaycan öz müstəqilliyini əldə etdikdən cəmi iki ay sonra, İsrail yeni dövləti rəsmən tanıyan ilk dövlətlərdən biri olmuşdur. Belə ki, İsrail dövləti 1992-ci il aprelin 7-də Azərbaycanın müstəqilliyini tanıyıb. Bu illər ərzində Azərbaycan və İsrail dövlətlərinin siyasi, iqtisadi, mədəni və hərbi sahələrdə sıx əlaqələri yaranıb. 1993-cü ildə İsrailin Azərbaycanda səfirliyi açılıb və 2023-cü ilin mart ayında isə İsrailin Tel-Əviv şəhərində Azerbaycan səfirliyinin açılış mərasimi baş tutub. Azərbaycanın İsrail dövləti ilə münasibətlərinin qurulması və əlaqələrinin inkişaf etdirilməsi Umummilli lider Heydər Əliyevin adı ilə bağlıdır [2].28 yanvar 1995-ci ildə Prezident Heydər Əliyev İsveçrədə keçirilən Dünya İqtisadiyyat Forumunda İsrailin Xarici İşlər Naziri Şimon Pereslə, elə həmin il 22 oktyabrda BMT Baş Məclisinin iclasında İsrailin Baş naziri İshaq Rabinlə, 11 yanvar 1996-cı ildə Fransanın keçmiş prezidenti Fransua Mitteranın dəfn mərasimində İsrailin artıq Baş Naziri olan Şimon Pereslə, 2 dekabr1996-cı ildə isə ATƏT-in dövlət başçılarının Lissabonda toplantısı çərçivəsində İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşüb, qarşılıqlı maraq doğuran məsələləri müzakirə edib. 29 avqust 1997-ci ildə İsrailin Baş naziri Benyamin Netanyahu Azərbaycana qısamüddətli səfər edib və Prezident Heydər Əliyevlə görüşüb [1]. Heydər Əliyev ATƏT-in Lissabon zirvə toplantısında Netanyahu ilə görüş və danışıqlarından, həmçinin onun İsrail hökuməti adından Azərbaycanın qarşılaşdığı problemlərin aradan qaldırılmasında lazımı köməklik göstərməyə hazır olduğu barədə bəyanatından məmnun qaldığını bildirib. Dağlıq Qarabağ münaqişəsinə toxunan Prezident Heydər Əliyev münaqişənin Lissabonda irəli sürülən prinsiplər əsasında həll olunmasına tərəfdar olduğunu vurğulayıb. Görüşdə iki ölkə arasında əməkdaşlığın inkişaf etdirilməsi üçün işçi qrupunun yaradılması qərara alınıb. Azərbaycanın sülhsevər və çoxmillətli ölkə olduğunu qeyd edən Heydər Əliyev yəhudilərin əsrlər boyu burada azərbaycanlılarla dost və mehribancasına yaşadığını bildirib: Prezident Heydər Əliyev 18 noyabr 1999-cu il tarixində Türkiyədə ATƏT-in İstanbul sammitində İsrailin Baş naziri Ehud Barakla görüşüb. İki ölkə arasında yaranmış münasibətlərdən bəhs edən Azərbaycan Prezidenti bildirib: "Xaricdə yaşayan yəhudilərin nümayəndələri tez-tez ölkəmizə ziyarət edirlər. Ölkələrimiz arasında əlaqələrin daim inkişaf etməsi üçün geniş imkanlar vardır. Bu münasibətlərin daha da genişləndirilməsi olduqca zəruridir".

2000-ci ilin 6 sentyabrında Prezident Heydər Əliyev ABŞ-da İsrailin Baş naziri Ehud Barakla yenidən görüşüb. İsrail Təhlükəsizlik Akademiyasının Azərbaycan Respublikasındakı Nümayəndəliyinin yaydığı məlumatda qeyd olunub. Müasir müstəqil Azərbaycan Respublikasının memarı və qurucusu Heydər Əliyev yəhudilərin və İsrailin böyük dostu adlandırılır. Heydər Əliyev tərəfindən müasir müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu məsələlərində tolerantlıq siyasəti əsas meyar olaraq seçilib. Məhz Heydər Əliyevin əsasını qoyduğu tolerantlıq ənənəsinə görə yəhudilər Azərbaycanda son dərəcə dostluq və qardaşlıq şəraitində yaşayaraq buranı ana vətən hesab edirlər. Azərbaycanda yaşayan bütün qeyri-millətlər, qeyri-dinlər və inancların nümayəndələri kimi, yəhudilərə də göstərilən hörmət və ehtiram ənənəsi məhz Heydər Əliyevin parlaq və təqdirəlayiq tolerantlıq siyasətinin nəticəsidir.

İstifade olunmuş ədəbiyyat siyahısı:

1. Azərbaycan-İsrail münasibətləri https://lib.aliyevheritage.org/az/8269149.html
2. İsrail Təhlukəsizlik Akademiyası: Heydər Əliyev İsrailin və yahudilərin böyük dostu olub https://azerbaijan-news.az/az/posts/detail/israil-tehlukesizlik-akademiyasi-heyder-eliyev-israilin-ve-yehudilerin-boyuk-dostu-olub-1664783335

Əhmədzadə Jalə Anar

Elmi rəhbər: müəllim Məmmədova Səbinə İlqar
Azərbaycan Dillər Universiteti

TERRORİZMİN QLOBAL TƏHLÜKƏSİZLİYƏ TƏSİRİ VƏ ƏKS TERROR CƏHDLƏRİ

BMT-nin Qlobal Terrorla Mübarizə Strategiyasını həyata keçirmək və terrorizmin qarşısını almaq və onunla mübarizə aparmaq üçün praktiki addımlar atmaq üçün Üzv Dövlətlərin səylərinə dəstək olaraq liderlik, əlaqələndirmə və potensialın yaradılması təmin edilir. Terrorçular sərhəd infrastrukturunun ən zəif bəndlərini hədəfə alırlar. Beynəlxalq standartların və sağlam, müasir inteqrasiya olunmuş və birgə sərhəd idarəçiliyinin yaxşı təcrübələrinin tətbiqi terrorçu və qeyri-qanuni insan alveri axınının dayandırılmasına kömək edir. Heç bir ölkənin xarici terrorçu döyüşçülərin və himayədarlarının geri qaytarılması və köçürülməsi ilə bağlı yaranan transsərhəd çağırışlara bütün cavabları yoxdur. Beynəlxalq əməkdaşlıq və yaxşı təcrübə mübadiləsi prinsipial təqib, reabilitasiya və reinteqrasiya üçün əsasdır. Terrorizmə şərait yaradan zorakı ekstremizmin qarşısının alınması təhlükənin hərtərəfli həlli üçün mühüm komponentdir. PVE Üzv Dövlətlər, vətəndaş cəmiyyəti və beynəlxalq və regional təşkilatlar arasında çoxölçülü əməkdaşlığı tələb edir. [1] UNOCT bütün dünyada terror qurbanları ilə həmrəylik nümayiş etdirir və onların hüquqlarını qorumaq və terrorizmin qarşısının alınmasında və daha güclü cəmiyyətlərin qurulmasında oynaya biləcəkləri mühüm rolu tanımaq üçün birliyə çağırır. Qurbanların dözümlülüyü hamımız üçün nümunədir. Terrorçular, eləcə də onların ruhlandırdıqları şəxslər böyük transmilli təhlükədir. Bu şəxslərin və qrupların və digər yüksək riskli cinayətkarların aşkarlanması və səyahətlərinin pozulması BMT daxil olmaqla, beynəlxalq ictimaiyyət üçün prioritet məsələdir. Terrorizmlə mübarizə işində gender mülahizələrinin tətbiqi qabaqlayıcı və həssas səyləri daha effektiv edir, radikallaşmanın səbəblərini daha yaxşı anlamağa kömək edir və qadınların təhlükənin aradan qaldırılmasında oynadığı mühüm rolu dərk edir. Terrorizmin maliyyələşdirilməsinin dinamik xarakteri qabaqlayıcı səylər üçün həlledici çağırışdır. İnsan hüquqlarının müdafiəsi və çoxölçülü tərəfdaşlıqların qurulması ilə yanaşı, bu inkişaf edən təhlükəni hərtərəfli həll etmək qlobal proqramımızın prioritetləridir. Terror qrupları gəncləri hədəf alır. Onlar real və ya qəbul edilən şikayətlərdən istifadə edir və sərhədlər və mədəniyyətlər arasında əlaqəni artırmaq üçün yeni texnologiyalar da daxil olmaqla, manipulyasiya xarakterli mesajlardan istifadə edirlər. Əgər profilaktika bizim məqsədimizdirsə, biz gənclərlə məşğul olmalı və onlara sərmayə qoymalıyıq. [2] Terrorizm NATO ölkələrinin vətəndaşlarının təhlükəsizliyinə, beynəlxalq sabitlik və rifah üçün ən birbaşa asimmetrik təhdiddir. Sərhədi, milliyyəti və dini tanımayan davamlı qlobal problem, terrorizm beynəlxalq ictimaiyyətin birlikdə həll etməli olduğu problemdir. NATO bu təhlükə ilə qətiyyətlə və tam həmrəyliklə mübarizə aparmağa davam edəcək. NATO-nun terrorla mübarizə üzrə işi təhdid barədə məlumatlılığın artırılmasına, hazırlaşmaq və cavab vermək üçün bacarıqların inkişafına, tərəfdaş ölkələr və digər beynəlxalq aktorlarla əlaqənin gücləndirilməsinə yönəlib.

•NATO ABŞ-a qarşı 11 sentyabr 2001-ci il terror hücumlarına cavab olaraq ilk və yeganə olaraq kollektiv müdafiə müddəasını (5-ci maddə) tətbiq etdi.

•NATO-nun Terrorla Mübarizə Siyasəti Təlimatları Alyansın səylərini üç əsas sahəyə yönəldir: məlumatlılıq, imkanlar və qarşılıqlı əlaqə.

•NATO Baş Katibinin Terrorla Mübarizə üzrə Xüsusi Koordinatoru NATO-nun terrorla mübarizə üzrə bütün işləri üçün yüksək səviyyəli mərkəz rolunu oynayır və NATO-nun terrorizmə cavabının güclü, effektiv və ardıcıl qalmasını təmin edir.

•NATO İraq missiyası vasitəsilə İraqın təhlükəsizlik qüvvələrinə və qurumlarına məsləhət və köməklik göstərir və İŞİD-ə qalib gəlmək üçün Qlobal Koalisiyanın üzvüdür. [3]

Ədəbiyyat siyahısı:

1. https://www.un.org/counterterrorism/
2. https://www.nato.int/cps/en/natohq/topics_77646.htm
3. https://home-affairs.ec.europa.eu/policies/internal-security/counter-terrorism-and-radicalisation/protection_en

Овчиева Таджизер Фикрет

Научный руководитель: Климов Сергей Леонидович
Азербайджанский университет языков

РОЛЬ АЗЕРБАЙДЖАНА В ПРОЕКТЕ ТРАСЕКА

Азербайджан, имеющий благоприятное географическое положение и ресурсы всегда приковывал взгляды сильных мира сего. Как раз таки местоположения Азербайджана позволило ему стать связующей нитью между двумя частями Евразийского материка.

Рассматриваемая в качестве основного торгового коридора возрождаемого древнего Шелкового пути, ТРАСЕКА призвана способствовать стабильности и экономическому росту в регионе, а также выходу стран Центральной Азии и Кавказа на международный рынок.

Главная цель программы заключается в облегчении доступа участвующих в ней государств к международной сети автодорожного, воздушного и железнодорожного транспорта, коммерческой морской навигации, а также в увеличении объемов международных пассажиро- и грузоперевозок. Страны-партнеры выразили также желание обеспечить безопасность грузовых перевозок и защиту окружающей среды. Еще одна цель ТРАСЕКА - гармонизация транспортной и торговой политики государств-участниц, включая и правовые взаимоотношения [2].

Проведение по инициативе Общенационального лидера Гейдара Алиева в городе Баку 7-8 сентября 1998 года международной конференции, посвященной восстановлению исторического Шелкового пути, с участием глав государств 9 стран (Азербайджана, Турции, Грузии, Украины, Молдовы, Румынии, Болгарии, Узбекистана, Кыргызстана), 13 международных организаций и делегаций 32 государств, является олицетворением особого значения и внимания, придаваемого нашей страной Программе ТРАСЕКА. По итогам этой конференции на основе Программы ТРАСЕКА Европейского Союза было подписано "Основное многостороннее соглашение о международном транспорте по развитию

коридора Европа-Кавказ-Азия". Кроме того, 21 февраля 2001 года в городе Баку с участием Общенационального лидера Гейдара Алиева состоялось открытие Постоянного секретариата Межправительственной комиссии ТРАСЕКА [1].

Азербайджанская Республика, уделяющая большое внимание сотрудничеству в транспортной сфере, расценивает деятельность Программы в предстоящий период как начало нового этапа с точки зрения развития транспортных секторов наших стран [3].

Азербайджан, активно участвует в проекте, используя его возможности и преимущества для укрепления своей позиции на региональном и международном уровнях.

Список использованной литературы

1. Ильхам Алиев: ТРАСЕКА внесла значительный вклад в расширение сотрудничества в области развития торгово-экономических и транспортных связей // https://report.az/ru/infrastruktura/traseka-vnesla-znachitelniy-vklad-v-rasshirenie-sotrudnichestva/
2. Транспортный коридор, возрождающий древний Шелковый путь // https://turkmenistan.gov.tm/ru/post/76270/torgovyj-koridor-vozrozhdayushchij-drevnij-shelkovyj-put
3. Участникам юбилейной конференции, посвященной 20-летней деятельности Международного транспортного коридора Европа-Кавказ-Азия (ТРАСЕКА) // https://president.az/ru/articles/view/35129

Алибекова Рагима Ильгар
Научный руководитель: Климов Сергей Леонидович
Азербайджанский университет языков

ПЕРСПЕКТИВЫ РАЗВИТИЯ АЗЕРБАЙДЖАНО-КИТАЙСКИХ ОТНОШЕНИЙ: ОТ ГЕЙДАРА АЛИЕВА ДО СОВРЕМЕННОСТИ

В настоящем и обозримом будущем Китай является одним из ведущих центров силы. В подобных условиях построение крепких отношений с Китаем может благотворно повлиять на Азербайджан. Отношения между Китаем и Азербайджаном имеют давнюю историю. С появлением Ве-

ликого шёлкового пути между странами начали развиваться торговые связи. Однако современный этап китайско-азербайджанской истории начался лишь с 1992 года. 2 апреля 1992 года между Китаем и Азербайджаном были установлены дипломатические отношения.

1. Несмотря на это фактически отношения между двумя странами начали планомерно развиваться только с 1994 года. 7–10 марта 1994 года Гейдар Алиев совершил официальный визит в Китай. В ходе визита был подписан ряд межгосударственных соглашений. Среди указанных соглашений особое место занимает «Совместная декларация об основе дружественных отношений между Китаем и Азербайджаном», которая создала базис двусторонних отношений [2, с. 142].

2. Необходимо отметить, что Гейдар Алиев уделял важное значение построению отношений между Китаем и Азербайджаном. В интервью корреспонденту «Китайской молодёжной газеты» 2002 года Г.Алиев заявил: «У меня всегда были близкие отношения с Китаем. Когда я работал в Москве, я начал обращать внимание на Китай. В то время китайско-советские отношения были не очень хорошими, но я все равно часто ходил в посольство Китая в Советском Союзе, чтобы принять участие в мероприятиях. После того, как я стал президентом Азербайджана, Китай также был одной из первых стран, которые я посетил» [3].

3. Ильхам Алиев также уделял важное значение развитию отношений с Китаем. В частности Президент И.Алиев посетил Китай в 2004, 2008, 2014 и 2015 годах [2, с. 142].

4. За прошедшее время также получили развитие двусторонние экономические отношения. В 1992 году торговый оборот между странами составлял всего 394 млн долл. [2, с. 143]. По состоянию на 2023 год Китай вошёл в пятёрку крупнейших торговых партнёров Азербайджана. Сумма двусторонней торговли по итогам 2023 года составила 1,62 млрд долл. [1].

5. При этом надо отметить, что развитиедвусторонних отношений имеет ряд ограничений. Во-первых, на данном этапе Китай больше заинтересован в укреплении своего влияния в регионах, с которым он непосредственно граничит. Неслучайно, за всю историю Генеральный секретарь КНР ни разу не посетил Азербайджан. Во-вторых, основу двусторонней торговли составляет импорт Китая в Азербайджан. Основу экспорта Азербайджана составляют нефть и газ. Азербайджану более выгодно продавать указанные товары на премиальный европейский рынок, особенно на фоне конфликта в Украине.

Вывод. Таким образом, отношения между Китаем и Азербайджаном прошли достаточно успешный путь. Однако для дальнейшего их развития необходимо принять ряд значительных шагов.

Список использованной литературы

1. Айюбова Ш. Ма Чи: Китай готов делиться с Азербайджаном опытом в сфере цифровой экономики. [Электронный ресурс] //https://report.az/ru/amp/vneshnyaya-politika/ma-chi-kitaj-gotov-delitsya-opytom-s-azerbajdzhanom-v-sfere-cifrovoj-ekonomiki/
2. Ван Люин. Торгово-экономическая и финансовая политика Китая в Азербайджане. // Международные отношения: Москва, № 1, 2019, с. 140–148.
3. 阿塞拜疆：举国悼念老总统. [Электронный ресурс]// http://zqb.cyol.com/content/2003-12/15/content_788849.htm

Allahverdiyeva Şəbnəm Fariz
Elmi rəhbər: müəllim Məmmədova Səbinə İlqar
Azərbaycan Dillər Universiteti

BEYNƏLXALQ MİQRASİYANIN MƏNFİ TƏSİRLƏRİ

Miqrasiya insanların bir yerdən başqa yerə müvəqqəti və ya daimi köçməsidir.Geniş mənada miqrasiya dedikdə müddətindən və məqsədindən asılı olmayaraq əhalinin müəyyən ərazinin hüdudlarından kənara hər hansı yerdəyişməsi başa düşülür. Lakin elmi ədəbiyyatda çox zaman miqrasiyanın dar anlayışı-daimi yaşayış yerini dəyişdirmə məqsədilə yerdəyişmə işlədilir. İnsanların yerdəyişməsi müxtəlif səbəblərdən, əksər hallarda isə bir neçə səbəbdən baş verir. Miqrasiyanın könüllü və məcburi, daxili və xarici, emiqrasiya və immiqrasiya, qanuni və qeyri-qanuni, daimi və müvəqqəti (mövsümi) növləri vardır. Daxili

miqrasiya ölkə daxilində, xarici miqrasiya isə ölkələr arasında baş verir. Emiqrantlar ölkəni tərk edənləri, immiqrantlar isə ölkəyə gələnləri ifadə edir. [1]

Bu gün müasir dünya dövlətləri tərəfindən miqrasiya axınının yaratdığı müsbət cəhətlərə əsaslanaraq, miqrasiya idarəçiliyində milli, regional və beynəlxalq səviyyədə səmərəli və effektiv fəaliyyət həyata keçirilir. Azərbaycan Respublikası da dünya əhəmiyyətli nəqliyyat yollarının kəsişdiyi coğrafi məkanda yerləşdiyi üçün ölkəmizin ərazisindən çoxsaylı tranzit miqrantların gediş-gəlişi qaçılmazdır. Azərbaycan Respublikasında miqrasiya sahəsində həyata keçirilən vahid dövlət siyasəti və hüquqi mexanizmlərin tətbiq edilməsi nəticəsində əldə edilən nailiyyətlər və inkişaf perspektivləri, həmçinin beynəlxalq təcrübə nəzərə alınaraq təkmilləşdirilən yerli qanunvericilik miqrantlara müasir, çevik və innovativ xidmətlərin göstərilməsi ilə nəticələnmişdir və bu da öz növbəsində ölkəmizi miqrantlar üçün daha münasib məkana çevirmişdir. [2]

Mövcud miqrasiya siyasəti miqrant axınının doğurduğu daxili prosesləri nəzarət altında saxlamağa heç də həmişə imkan vermir. Qanunsuz miqrasiya xüsusilə böyük problemlər doğurur. Beynəlxalq ekstremist və terrorçu təşkilatların fəallaşması ilə əlaqədar qanunsuz miqrasiya getdikcə böyük aktuallıq kəsb edir. [3]

Qanunsuz miqrantlar üz tutduqları ölkələrdə sosial-iqtisadi şəraitə mənfi təsir göstərirlər. Bu mənfi təsirlərə görə hazırda bir çox ölkə miqrasiya məsələsinə müsbət yanaşmır. Ölkələrinə miqrantların daxil olmasını istəmirlər. Miqrant axını çox zaman qəbul edən ölkələrdə cinayətkarlığın artmasına səbəb olur. Bir sıra hallarda miqrasiya cinayətkarlığın fəallaşması ilə müşayiət olunur. Bütün dünyada mütəşəkkil cinayətkarlıq qanunsuz miqrantlar hesabına sıralarını genişləndirir. Cinayətkar birliklərə üzv olan miqrantlar öz soydaşlarından ibarət qruplar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu bütün miqrantlar cinayətkardır demək deyil. Lakin ölkədə cinayətkarlıqla məşğul olanlar ölkələrin miqrasiya məsələsinə mənfi yanaşmasına səbəb olur. [3]

Ölkəyə çoxlu miqrantın gəlişi onların iş yerləri ilə təmin edilməsi problemini aktuallaşdırır. Mövcud iş yerlərinin mühüm hissəsini miqrantların tutması yerli sakinlərin iş tapmaq imkanlarını məhdudlaşdırır və onların narazılığına səbəb olur. Miqrantlara müavinət ayrılması və onların təminatı son nəticədə qəbul edən ölkənin dövlət büdcəsinə birbaşa təsir göstərir. Digər tərəfdən, miqrantlar qazandıqları pulu tez-tez vətənlərinə göndərirlər. Bununla da onlar kasıb ölkələrə sosial yardıma görə kəskin pul çatışmazlığının və qida, yanacaq və digər kritik idxal mallarının alınması üçün valyuta azlığının öhdəsindən gəlməyə yardım edirlər. Miqrantları qəbul edən ölkələr üçün tərəzinin bir gözündə işləyən, səmərəli, ağıllı və qabiliyyətli miqrantlardan gələn fayda, digər gözündə isə əcnəbilərə görə yerli əhali və hakimiyyət arasında narazılığın tədricən artması var. [4]

Nəticə olaraq, biz beynəlxalq aləmdə miqrasiyanın həm müsbət, həm mənfi təsirlərini görürük. Təbii ki, hər bir dövlət ilk olaraq öz əhalisini və onların rifahını düşünür. Bu səbəbdən dünya dövlətləri, həmçinin Azərbaycan Respublikası da miqrasiya məsələsinə müxtəlif cür yanaşır və miqrasiya ilə bağlı müvafiq siyasət yeridirlər. Buradan aydın olur ki, miqrant məsələsi hələ də dövlətlət üçün həssas bir məsələ olaraq qalmaqdadır.

Ədəbiyyat siyahısı:

1. https://banco.az/az/news/miqrasiya-sebebleri-ve-miqrantlarin-uzlesdiyi-problemler-hansilardir. Tərlan Qəhrəmanova
2. https://genprosecutor.gov.az/az/post/7385
3. https://525.az/news/82087-miqrantlar-problemi-beynelxalq-munasibetler-mustevisinde. Əlimusa İbrahimov
4. https://www.bbc.com/azeri/international-46601895

Kərimova Rəvanə Rahim
Elmi rəhbər:müəllim Məmmədova Səbinə İlqar
Azərbaycan Dillər Universiteti

ETNİKLİK ANLAYIŞI VƏ ETNİK MÜNAQİŞƏLƏR

Etniklik – etnososial təhsil, xüsusi etnik, etnopsixoloji, etnomədəni, dil və dini əlamətlərə malikdir. Onun başa düşülməsi siyasi-hüquqi terminlərdə "milli azlıq" kimi şərh edilir. Beynəlxalq hüquqi aktlarda, BMT Konvensiyalarında "milli azlıq" və "etnik azlıq" (qrup) çox zaman adekvat kimi işlənilir. Müasir

alimlərin böyük əksəriyyəti tərəfindən etnik qrupların bu tip xarakterik əlamətləri göstərilir: ümumi mədəni ənənələr, identiklik, xüsusi mədəni nailiyyətlər, spesifik sosial institutların olması, ümumi özünüaparma xarakteristikası, xüsusi simvolik əlaqələr, irqi və fiziki yaxınlıq, ümumi ənənələr, din, mədəni dərkedilmə, ümumi miqrasiya, ailənikah münasibətlərinin ümumi forması, ümumi dil və praktikada bütün göstərilən parametrlərə müxtəlif kombinasiyalarda rast gəlinir. Bunların hər biri ayrı-ayrılıqda mühüm əhəmiyyət daşıyır. Ekspert Niyaz Niftiyevin fikrincə, beynəlxalq hüquqda "azlıq" anlayışı 1560-1648-ci illər arasında Avropada yaşanan protestant-katolik qarşıdurması ilə ortaya çıxmışdır. 1598-ci ildə Fransa kralı IV Henri tərəfindən qəbul edilən Nant Fərmanında və 1648-ci il Vestfal Sülh Sazişində protestant vətəndaşlarını əhatə edən hökmlərdə azlıq hüquqlarına da yer verilmişdir. "Etnik" sözünün etimologiyasından bəhs edən Ronald Cakson qeyd edir ki, "etnik" sözü yunanca "ethnikos"dan törəmiş və cəmiyyətdə xarici qrup, yaxud, milliyyət mənasını ifadə edir. Latın dilində olan "ethnicus", təkcə, "xarici" yox, həm də "bütpərəst" mənasında işlədilmişdir. [1]

Etniklik anlayışı üç fərqli vasitələrlə ictimai elmlər sahəsinə gəlmişdir: 1) Avropa xaricindəki mədəniyyətlərin sosial-antropoloji araşdırmaları vasitəsi ilə; 2) mədəniyyət, dil və din baxımından heterogen dövlətlərdə millət quruluculuğu prosesləri və münaqişələrin öyrənilməsinə dair ictimai-siyasi və tarix araşdırmaları vasitəsilə; 3) ABŞ və Avropada gedən miqrasiya və inteqrasiya tədqiqatları vasitəsilə. [2]

Etniklik anlayışı (İngiliscə etnicity) bir az problemli anlayışdır, onun üzərində çox mübahisələr getmişdir. Əslində, çətinlik etnik fərqlərin qrup mənsubiyyətinin nə dərəcədə obyektiv meyarlara əsaslanmasını və ya onların sosial strukturların nəticələri olmasını müəyyən etməkdən ibarətdir. Bir çox tədqiqatçılar hesab edirlər ki, etnik sərhədlər müxtəlif xalqlar arasında olan mədəniyyət xüsusiyyətlərinə əsaslanır. Bütün tanınmış tərifl ərə əsasən, etniklik bir xalqın özünü bir xalq kimi necə qavramasından bəhs edir. Bu İngilislərə, Fransızlara, İsveçlilərə, Ruslara, Moldovlara, Samilərə, Türklərə, Kürdlərə, Yəhudilərə və hər hansı bir xalqa tətbiq oluna bilər. Bu xalqların bəziləri məlum bir ərazidə suverenliyə malikdirlər, digərləri müəyyən ərazilərdə dövlət hüquqlarına malik olmadan, digərləri isə heç bir ərazi hüququ olmadan yaşayırlar. Yuxarıda qeyd olunanların hamısı, ehtimal ki, İsrail xaricindəki Yəhudilər istisna olmaqla, öz dillərinə sahibdirlər. Samilərin təkçə İsveçdə hələ bir neçə dilləri var. Adı çəkilən xalqların çoxu, romalılar istisna olmaqla, dominant bir dinə malikdirlər. Həm də yaxşı məlumdur ki, bu xalqların öz yemək mədəniyyətləri vardır. Məsələn, piti, bozbaş və digər Azərbaycan xörəklərinə Azərbaycandan kənarda əsasən rast gəlinməz. Mədəniyyət (xalq mədəniyyəti, incəsənət və populyar mədəniyyət) etnikliyin tərkibinə daxil olmasaydı, qəribə olardı. [3]

Soyuq müharibənin bitməsindən sonra dünyada daxili münaqişələrin sayı artmışdır. Bu münaqişələrin baş vermə səbəblərindən biri də etnik amildir. Etnik münaqişə – etnik əlamətlərə görə qruplararası münaqişə formalarından biridir. Burada mənafeləri toqquşan qruplar etnik əlamətlərə görə qütbləşir.Etnik münaqişə beynəlxalq sülh və təhlükəsizliyə əsas təhdidlərdən biridir. Balkanlar, Ruanda, Çeçenistan, İraq, İndoneziya, Şri-Lanka, Hindistan və Darfurda, həmçinin, İsrail, İordan çayının qərb sahili və Qəzza zolağında baş verən münaqişələr 20-ci illərin sonlarından ən tanınmış və ən ölümcül nümunələr sırasındadır. [4]

Etnik münaqişələrin əsas mənfi nəticəsi kimi insan itkilərini göstərmək lazımdır. Etnik münaqişələrin nəticələri sosial-siyasi mühitə, sosial-siyasi sistemə təsir edir, siyasi və geosiyasi əhəmiyyətə malikdir. Etnik münaqişələrin qaçılmaz nəticələrindən biri də münaqişəli regionlardan əhalinin miqrasiyasıdır. Etnik münaqişələr miqrasiya axınını gücləndirir və qaçqın probleminin yaranmasına səbəb olur. Bu isə öz növbəsində, daha bir münaqişə tipinin ortaya çıxmasına – köçkünlərlə (qaçqınlarla) yerli əhali arasında münaqişəyə səbəb ola bilər. Müasir dövrdə silahlı etnik münaqişələr postsovet məkanında, keçmiş Yuqoslaviya məkanında və s. regionlarda qaçqın və məcburi köçkün axınına səbəb oldu. Etnik müharibələr bir sıra dövlətlərin etnik tərkibini və insanların taleyini əsaslı şəkildə dəyişə bilər. [5]

Bütün bunlar onu göstərir ki, müasir münaqişələrdə milli-mədəni və dini fərqlərin rolunu inkar etmək olmaz. Lakin bu problemlərin də həll edilməsi qeyri-mümkün deyildir. Bunun üçün bacarıqlı, sadiq və prinsipial liderlər lazımdır və bu həlləri təmin etmək və saxlamaq üçün beynəlxalq ictimaiyyətin uzunmüddətli öhdəliyi lazımdır. Ancaq təəssüf ki, bu günə qədər də beynəlxalq təşkilatlar etnik münaqişələr və digər münaqişələrin həll olunmasında mühüm rola malik ola bilməyib.

Ədəbiyyat siyahısı:

1. https://saadatkarimi.wordpress.com/2019/04/18/etniklik/ Bölüm I.2. Etniklik-Səadət Kərimi. Azərbaycanın Milli və Siyasi İdeologiyası Haqqında kitabından.
2. https://www.anl.az/down/meqale/525/2022/yanvar/779167.htm 525-ci qəzet.- 2022.- 27 yanvar.- S.13.

3. https://www.anl.az/down/meqale/xalqcebhesi/2016/aprel/486773.htm Cavid-Xalq Cəbhəsi.- 2016.- 22 aprel.- S.13
4. https://www.anl.az/el/q/qarabag_3/q-3.htm/Ağayar Şükürov
5. ETNİK MÜNAQİŞƏLƏR. dərslikdən hissələr | Shahla Nuruzade - Academia.edu

Kərimova Mayisa Namiq qızı
Elmi rəhbər: m. Mustafayeva Şəfəq
Azərbaycan Dillər Universiteti

ÜMUMİLLİ LİDERİMİZ HEYDƏR ƏLİYEV SİYASƏTİ VƏ UZAQ YAPONİYA

Ümumimilli liderimiz H.Əliyev Yaponiyanın baş naziri Ryutaro Haşimotonun dəvəti ilə 24-27 fevral tarixində 1998-ci ildə Yaponiyada ilk dəfə rəsmi səfərdə olmuşdur. Yaponiyanın Tokio və Kioto şəhərlərini əhatə edən səfər çərçivəsində ümumimilli liderimiz Heydər Əliyev bu ölkənin imperatoru əlahəzrət Akihito, baş nazir Haşimoto, hökümətin bir çox üzvləri, o cümlədən bu ölkənin çox saylı investorları, iş adamları ilə görüşüb, danışıqlar aparmışdır. Bu səfər nəticəsində iki ölkə arasında 7 sənəd imzalanmışdır.

İki ən mühüm sənəd – "İki ölkə arasında dostluq və tərəfdaşlıq haqqında birgə bəyanat" və "Yaponiya və Azərbaycan arasında iqtisadiyyat və ticarət sahəsində əməkdaşlıq haqqında birgə bəyanat" 26 fevral 1998-ci ildə Tokioda Yaponiyanın baş naziri Haşimoto və ümumimilli liderimiz Heydər Əliyev tərəfindən imzalanmışdır [2].

Qalan 5 sənəd isə hər iki dövlətin müxtəlif hökümət qrumları arasında imzalamış və bu sənədlər Yaponiya - Azərbaycan münasibətlərinin hüquqi - normativ əsaslandırılması baxımından baza rolunu oynamışdır.

Ümumimilli liderimiz Heydər Əliyevin Yaponiyaya beş günlük səfəri həm bu ölkənin, həm də beynəlxalq kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olmüşdur. Səfər çərçivəsində ümumimilli liderimiz Heydər Əliyev Röyter agentliyinə, Yaponiyanın "Asahi" və "En-Eyç-Key" telekanallarına, "Nikkey Simbun", "Asahi Simbun", "Sankey Simbun", "Yomiuri Simbun" qəzetlərinə geniş müsahibələr vermişdir. Həmin müsahibələrində bu rəsmi səfəri Azərbaycan Prezidenti Heydər Əliyev Yaponiya və Azərbaycan arasında diplomatik, siyasi-iqtisadi əlaqələrin qurulmasında və inkişafında tarixi əhəmiyyətə malik səfər kimi qiymətləndirilmişdir [3].

Müsahibələrdən birində "Azərbaycan ilə Yaponiya arasında dostluq münasibətlərinin inkişafı üçün nə lazımdır?" sualına ümumimilli liderimiz Heydər Əliyev belə cavab vermişdir:

Ümumimilli liderimiz Heydər Əliyevin Yaponiyanın "Sankey Simbun" qəzetinin müxbirinin "Müasir "İpək yolu"nu görmək istəyirsiniz. Bununla konkret olaraq nəyi demək istəyirsiniz?"- sualına: "Bu çox mühüm bir problemdir. Biz artıq bununla çox ciddi məşğul oluruq. Biz Avropa-Asiya nəqliyyat magistralı yaratmışıq. Ancaq bu, "İpək yolu"nun bir hissəsidir. "İpək yolu"nun böyük bir hissəsi isə Yaponiyadan başlamış Avropada İspaniyaya, İrlandiyaya qədərdir.."[1]

Hazırda Azərbaycan-Yaponiya iqtisadi və mədəni münasibətləri özünün dinamik inkişaf mərhələsinə qədəm qoyub. Prezidenti İlham Əliyevin 8-11 mart 2006-cı ildə bu ölkəyə etdiyi rəsmi səfərdən sonra iki ölkə arasındakı siyasi-iqtisadi münasibətlər yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu səfər iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsinə rəvac verib. Cənubi Qafqazda Yaponiyanın əsas tərəfdaşı olan Azərbaycan Respublikası bu ölkədən yeni texnologiyaların və müasir texnikanın milli iqtisadiyyata tətbiq edilməsi sahəsində və müştərək layihələrin həyata keçirilməsində fəal əməkdaşlığını davam etdirir. 2023-cü ildə Yaponiya Azərbaycan dostluğunun 30 illiyi münasibəti ilə Azərbaycanda bir çox tədbirlər həyata keçirilmişdir Təhsilin inkişaf etdirilməsi sahəsində Azərbaycan Yaponiya əlaqələrində Yaponiya hökümətinin "Ot kökləri və insan təhlükəsizliyi" qrant proqramının həyata keçirilməsi üstünlük təşkil edir.

Ədəbiyyat siyahısı

1. Azərbaycan Prezidenti Heydər Əliyevin Yaponiyanın "Sankey Simbun" qəzetinin müxbiri ilə müsahibəsi - 27 fevral 1998-ci il https://lib.aliyevheritage.org/az/3593494.html
2. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Yaponiyaya rəsmi səfərinin (24-27 fevral 1998-ci il) iqtisadi aspektləri mövzusunda ümumi tarixi arayış https://lib.aliyev-heritage.org/az/6017125].html
3. Heydər Əliyevin beynəlxalq münasibətlər təlimində Asiya amili http://www.anl.az/down/meqale/xalqqazeti/2016/iyun/495837.htm

Мамедова Сабина Джабир
Научный руководитель: ст. преп. Гусейнова Гюльхар Акрам
Азербайджанский Университет Языков

ГЕЙДАР АЛИЕВ И МОЛОДЁЖЬ

Гейдар Алиев, как выдающаяся политическая фигура, оказал огромное влияние на развитие современной Азербайджанской Республики. Его политическая карьера и влияние на молодежь стали объектом активного анализа и дискуссий.

Гейдар Алиев пришел к власти в период, когда Азербайджан стоял перед рядом серьезных социально-экономических проблем, включая высокий уровень безработицы и недостаточное развитие образования и инфраструктуры. В своей политике он активно уделял внимание молодежи, реализуя меры по стимулированию их образовательного и профессионального роста. Главные моменты его влияния на молодежную политику:

1. Развитие образования: Под руководством Гейдара Алиева в Азербайджане была проведена значительная работа по модернизации образовательной системы. Это включало строительство новых школ и университетов, обновление учебных программ и повышение качества образования. Результатом стало повышение доступности образования для молодежи и улучшение их возможностей для дальнейшего профессионального роста.

2. Поддержка молодежных организаций: Под руководством Г.Алиева были созданы и активно поддерживались молодежные организации, предоставляя молодым людям площадку для выражения своих интересов и инициатив. Это способствовало их социальной адаптации и участию в общественной жизни страны. [2, 35]

3. Стимулирование молодежного предпринимательства: Политика Г.Алиева также ориентировалась на поддержку молодых предпринимателей. Были созданы специальные программы и финансовые механизмы для стимулирования молодежного предпринимательства, что способствовало росту экономики и снижению уровня безработицы среди молодежи. [2, 70]

Влияние политики Гейдара Алиева на молодежь:

1. Социально-экономическое развитие: Под руководством Г.Алиева были созданы условия для стабильного социально-экономического развития страны, что положительно сказалось на жизни молодежи. Улучшение образования, расширение возможностей для занятости и развитие инфраструктуры способствовали повышению уровня жизни молодых людей. [1, 45]

2. Участие в политической жизни: Под руководством Г.Алиева молодежь получила больше возможностей для участия в политической жизни страны. Он поддерживал и развивал молодежные политические движения, предоставляя им платформу для выражения своих взглядов и инициатив.

Таким образом, роль Гейдара Алиева в формировании и развитии молодежной сферы в Азербайджане оказалась значительной и многоаспектной. Его политика образования, поддержки молодежных организаций и стимулирования предпринимательства сыграла важную роль в интеграции молодежи в социально-экономическую жизнь страны и создании благоприятных условий для их развития и самореализации.

Использованная литература:

1. Гейдар Алиев. "Моё XX столетие". Москва: Интерпрессервис, 1999.
2. Светлана Гасимова. "Молодёжная политика Гейдара Алиева". Баку: Издательство "Шарг-Гарб", 2007.

Məsimova Nərgiz İlqar qızı
Elmi rəhbər: b/m tarix üzrə fəlsəfə doktoru Həyatova Firuzə Akif
Azərbaycan Dillər Universiteti

ВНЕШНЯЯ ПОЛИТИКА ВЕЛИКОБРИТАНИИ ВО ВРЕМЯ ПРАВЛЕНИЯ БЕНДЖАМИНА ДИЗРАЭЛИ

Внешняя политика Великобритании при правлении Бенджамина Дизраэли была охарактеризована активным стремлением к укреплению имперской власти и установлению Великобритании в качестве ведущей мировой державы.

Первая основная задача, которая стояла под руководством Дизраэли, это активно продолжить свою политику колониального расширения. Перед кабинетом министров Дизраэли в 1874 году находились в первую очередь азиатские интересы, среди которых оставалось сохранение и укрепление позиции на подступах к Индии [1, с. 1]. В 1875 году был приобретен частичный контроль в Египте, что позволило Великобритании укрепить свое присутствие в Средиземноморье и обеспечить контроль над Суэцким каналом, важным торговым путем в Индию.

Вторая задача Дизраэли во внешней политике была направлена на борьбу за влияние с другими европейскими державами. Английская экспансия в Азии и на Ближнем Востоке выдавалась за совокупность оборонительных мер, осуществляемых для того, чтобы парировать планы России захватить Индию [2, с. 90]. В 1878 году Дизраэли принял активное участие в Берлинском конгрессе, где были разрешены споры между Россией и Османской империи, а также были разрушены планы по осуществлению влияния на Балканах.

Третья задача правительства Дизраэли состояла в решение комплекса проблем, объединявшихся понятием «восточный вопрос». Три фактора определяли политику Англии в разразившемся восточном кризисе.

Во-первых, ее заинтересованность в поддержании целостности Османской империи; во-вторых, ее отношение к расстановке сил в Европе и наконец, борьба по вопросам внешней политики внутри страны [3, с.180].

В заключение, внешняя политика Великобритании при правлении Бенджамина Дизраэли была направлена на усиление имперской власти Великобритании и увеличение ее влияния в мировой арене. Это достигалось через колониальное расширение и борьбу за влияние с другими державами.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Колониальная политика Великобритании лекционный материал
2. Трухановский Владимир Григорьевич Бенджамин Дизраэли, или История одной невероятной карьеры 1993 г.,стр 90
3. История внешней политики Великобритании Н.К. Капитанова и Е.В. Романова 2020 г.,стр 180

Həsənova Cəlalət İmran qızı
Elmi rəhbər: Professor Abdullayeva Şəfəq Hüseyn qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ TƏHSİL

Ulu öndər Heydər Əliyevin Azərbaycan xalqının gələcəyinə istiqamətlənmiş strategiyasında təhsil sahəsinin inkişaf etdirilməsi prioritet istiqamətlərdən biri olub. “Təhsil sahəsi həyatımızın ən gərəkli, ən mühüm sahəsidir. O, milli məqsədlər, mənafelər əsasında qurulmalıdır”, - deyən dahi rəhbər təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb [1].

Azərbaycan təhsilinin gələcək inkişafına zəmin yaradan islahatlar.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə həyata keçirilən təhsil islahatları bu sahənin inkişafına zəmin yaratdı. Hələ 1972-ci ildə “Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında” və 1973-cü ildə “Kənd ümumtəhsil

məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarların icrası nəticəsində respublikada orta məktəb şəbəkəsi genişləndirildi, əsaslı keyfiyyət dəyişikliyinə nail olundu. Həmçinin məktəblərin dərsliklərlə təminatı problemi həll edildi və 1978-ci ildən etibarən şagirdlərə dərsliklərin pulsuz verilməsinə başlanıldı [4].

Ali təhsilin prioritetliyi və milli kadr potensialının gücləndirilməsi.

Dahi rəhbərin təhsil siyasətində ali məktəblərin fəaliyyətinin daha da yaxşılaşdırılması, maddi-texniki bazasının möhkəmləndirilməsi xüsusi yer tuturdu. 1969-cu il noyabrın 1-də Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) 50 illiyinə həsr olunmuş təntənəli yığıncaqda iştirak edən Heydər Əliyev ana dilində söylədiyi nitqində ali təhsil sahəsində qarşıda duran vəzifələrdən danışdı. Bu, təkcə universitet kollektivi deyil, bütün Azərbaycan cəmiyyəti üçün milli ruhun oyanması istiqamətində bir dönüş anı oldu. Universitetin Azərbaycan xalqının həyatında, Azərbaycan elminin inkişafında mühüm rolunu vurğulayan Heydər Əliyev dedi: "1919-cu ildə, Azərbaycanın ictimai dairələrində universitet açmaq haqqında məsələ müzakirə olunduqda bəziləri şəkk gətirib deyirdilər ki, bu iş baş tutmayacaqdır, yaxşısı budur gəncləri xarici ölkələrin tanınmış universitet mərkəzlərində təhsil almağa göndərək. Bu gün biz həmin inamsızlara deyə bilərik ki, dörd qitənin elçiləri təhsil almaq üçün Azərbaycana gəlirlər" [3].

Azərbaycanda hərbi kadr hazırlığının başlanğıc nöqtəsi

Dahi rəhbəri düşündürən əsas məsələlərdən biri də azərbaycanlı gənclərin orduya hazırlanması və hərbi məktəblərə cəlb edilməsi idi. Onun təşəbbüsünün və uzaqgörənliyinin nəticəsi olaraq 1971-ci ildə Cəmşid Naxçıvanski adına hərbi təmayüllü məktəb yaradıldı. Hərbi məktəbdə yüzlərlə Azərbaycan vətəndaşı təhsil almağa başladı. Ulu Öndər taleyini hərb sənətinə, zabitlik peşəsinə həsr edənlərə böyük hörmətlə yanaşır və onların xidmətlərini həmişə yüksək qiymətləndirirdi. Cəmşid Naxçıvanski adına Hərbi Liseyin milli zabit kadrların hazırlanmasında və Silahlı Qüvvələrimizin formalaşmasında müstəsna rolu olub. Bu gün də ordumuzun sıralarında xidmət edən zabitlərin əksəriyyəti Cəmşid Naxçıvanski adına Hərbi Liseyin məzunlarıdır. Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə böyük hünər və rəşadət göstərdilər [5].

Müstəqil Azərbaycanda dünya təhsil sisteminə inteqrasiya istiqamətində atılan ilk addımlar

"Təhsil millətin gələcəyidir", - deyən Ulu Öndər Azərbaycana rəhbərliyinin ikinci dövründə (1993-2003) bu sahənin inkişafına xüsusi diqqət yetirirdi. Nəzərə almaq lazımdır ki, ötən əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərindən başlayaraq Ermənistanın təcavüzkar siyasəti nəticəsində soydaşlarımızın deportasiyası və Qarabağın dağlıq hissəsinin işğal edilməsi ilə bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkün düşməsi Azərbaycan təhsili üçün əlavə çətinliklər yaratmışdı. Respublikanın çox ağır vəziyyətində rəhbərliyə qayıdan Heydər Əliyev bir çox problemləri həll etməklə yanaşı, təhsil sahəsində zamanın tələblərinə uyğun islahatlar həyata keçirməyə başladı. 1991-1993-cü illərdə təhsil müəssisələrinin pozulmuş fəaliyyəti normal vəziyyətə gətirildi, planlı islahatların əsası qoyuldu [2 səh 2].

"Azərbaycan Respublikasının təhsil sisteminin təkmilləşdirilməsi haqqında" 2000-ci il 13 iyun, "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyun, "Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust, "Azərbaycan Respublikasında dövlət dili haqqında" Qanunun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanlar təhsilimizin dünya standartları səviyyəsinə qaldırılmasında böyük rol oynayıb [1].

Ədəbiyyat siyahısı

1. https://azertag.az/xeber/azerbaycan_tehsilinin_inkisafinda_ulu_onder_heyder_eliyevin_tarixi_xidmetleri-2341676
2. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1454.pdf
3. https://heqiqet.az/index.php?newsid=25712
4. https://ikisahil.az/post/480109-ulu-onderin-tehsil-strategiyasi
5. https://www.yeniazerbaycan.com/YAPxeber_e85167_az.html

Dadaşov Əskər Ramin oğlu
Elmi rəhbər: Professor Abdullayeva Şəfəq Hüseyn qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Yaşadığı ömrünün hər anını milli dirçəlişin və bəşəri dəyərlərin inkişafına həsr edən dahi lider Heydər Əliyev daim ziyalılara diqqətlə yanaşırdı [1].

Heydər Əliyev ədəbiyyatdan da, teatr və kino sənətindən də, musiqi və rəssamlıqdan da bəhs edəndə həmin sahələrə məhz dövlətçilik mənafeləri baxımından yanaşırdı. Azərbaycan dili, ədəbiyyatı, mədəni-mənəvi dəyərləri ümumilli liderin azərbaycançılıq fəlsəfəsinin, müstəqil Azərbaycanın milli və dövlət ideologiyasının əsas məxəzləri, bədii-fəlsəfi mənbələridir [3].

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu Azərbaycan Yazıçılar Birliyinin 75 illiyinə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan ədəbiyyatı" kitabını nəşr etdirmişdir. "Şərq-Qərb" nəşriyyatında nəfis tərtibatda işıq üzü görən kitabda müasir Azərbaycan dövlətinin banisi, ümummilli lider Heydər Əliyevin ömür yoluna, ictimai-siyasi fəaliyyətinə müxtəsər nəzər salınmış, ulu öndərimizin milli ədəbiyyatımızla bağlı fikir və mülahizələri təhlil edilmiş, folklorun və klassik ədəbi irsin tədqiqinə, nəşrinə, təbliğinə qayğısından söz açılmış, mədəniyyət sahəsində müdrik siyasətinin mahiyyəti diqqətə çatdırılmışdır [3].

Məhz Heydər Əliyevin böyük nüfuzu sayəsində XX əsr Azərbaycan ədəbiyyatının klassiklərinə – Süleyman Rəhimova, Rəsul Rzaya, Mirzə İbrahimova, Süleyman Rüstəmə o dövrün ən şərəfli mükafatı – Sosialist Əməyi Qəhrəmanı adları verildi. Ədəbiyyatımız və mədəniyyətimiz dünyanın ən qabaqcıl mədəniyyətləri sırasına yüksəldi [3].

Heydər Əliyev dünyanın qədim, böyük türk eposu "Kitabi–Dədə Qorqud" un 1300 illiyini bütün dünyada keçirməklə həm dastanın ilk növbədə Azərbaycan dastanı olduğunu sübut etdi, həm də Sovet rejiminin pərən-pərən saldığı dünya türklərini bu dastan ətrafında bir yerə toplamaqla türk birliyi yaratmağa nail oldu. Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, türkləri birləşdirmək üçün onları ortaq məxrəcə gətirən ideyanı ortaya qoymaq lazımdır. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. 2 noyabr 1994-cü ildə 80-dən artıq millətin nümayəndəsi iştirak edən Türkiyə Böyük Millət Məclisindəki çıxışında H.Əliyev demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət–ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır" [2].

Böyük romantik şair və filosof H.Cavidin nəşinin uzaq Sibirdən gətirib doğma Naxçıvanda torpağa qovuşdurması, Cavidlər məqbərəsinin tikilməsi, Bakıda böyük hürufi şair İmadəddin Nəsimiyə, romantik şair Hüseyn Cavidə, Nəriman Nərimanova, Cəfər Cabbarlıya möhtəşəm heykəllər qoydurması Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına qayğısının böyük təzahürü idi [3].

Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə "Kitabi-Dədə Qorqud" eposunun, Füzuli, Nəsimi kimi korifey sənətkarların dünya miqyasında yubileylərinin keçirilməsi, Molla Pənah Vaqifin, Hüseyn Cavidin məqbərələrinin inşa edilməsi, İmadəddin Nəsiminin, Nəriman Nərimanovun, Cəfər Cabbarlının heykəllərinin ucaldılması, şəhidlərin xatirə kompleksinin və digər monumental sənət əsərlərinin yaradılması, ədəbiyyat və mədəniyyət xadimlərimizin ev muzeylərinin açılması əlamətdar hadisələr idi. Bütün bunlar Azərbaycan xalqının milli mədəniyyətinin misli görünməmiş yüksəlişinin təzahürləri idi [4].

Ədəbiyyat siyahısı

1. https://www.anl.az/down/meqale/edebiyyat/edebiyyat_oktyabr2009/91518.htm
2. https://azfakt.com/heyder__liyev_ve_azerbaycan_edebiyyat_-139173-xeber.html
3. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-v%C9%99-%C9%99d%C9%99biyyatimiz/
4. https://1001info.az/az/posts/detail/heyder-eliyev-ve-azerbaycan-edebiyyati-baxis-1652183955

Babayeva Nəzrin Nazim qızı
Elmi rəhbər:Aqil Şahmuradov Şövkət, dosent
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCANIN TRANZİT İMKANLARI VƏ ONUN "BİR KƏMƏR, BİR QURŞAQ LAYİHƏSİNDƏ YERİ

Xəzər dənizinin sahilində yerləşən Azərbaycan təbii sərvətlərlə zəngindir. Bu səbəbdən ölkəmiz bir çox qlobal və regional aktorların diqqət mərkəzindədir. Çinin Azərbaycanda maraqlarının əsasını Azərbaycanın Çindən Avropaya doğru uzanan dəmir yolu xəttinin inşası ilə bağlı gördüyü işlər və onun tranzit imkanları təşkil edir. Bundan başqa, Azərbaycandan keçən marşrut Çin mallarının təhlükəsiz daşınmasını təmin edəcək. Eyni zamanda, Azərbaycanın təbii qaz ehtiyatları və regiondakı gücü Çinin diqqətinin Azərbaycana yönəltməsinə şərait yaradır. Azərbaycanla bağlı qeyd edilməli olan digər əhəmiyyətli məqam onun, "Bir kəmər, bir qurşaq" layihəsinə yeni iştirakçıların cəlb edilməsi prosesində mühüm geosiyasi, siyasi, mədəni və tranzit bir mövqeyə malik olmasıdır [1].

"Bir kəmər, bir qurşaq" layihəsi çərçivəsində Azərbaycanda həyata keçirilən layihələrdən biri Bakı-Tbilisi-Qars dəmir yolu xəttidir. Türkiyə, Azərbaycan və Gürcüstanın birgə əməkdaşlığı nəticəsində həyata keçirilən BTQ dəmir yolu xətti sözügedən üç ölkənin maliyyə imkanları ilə həyata keçirilib. Dəmir yolu xəttinin Azərbaycandan keçən 503 kilometrlik hissəsi "Bir Kəmər, bir qurşaq" layihəsinə uyğun bir yoldur [1].

Bakının cənubundan 70 km. məsafədə Ələt qəsəbəsində yerləşən "Bakı-Ələt Dəniz Ticarət Limanı"nın inşası ilə əlaqədar qanun layihəsi 2007-ci ildə Prezident İlham Əliyev tərəfindən imzalanmışdır. Bu layihə Hollandiya şirkəti "Royal Haskoning" tərəfindən hazırlanmış və Azərbaycan şirkəti "Evrascon" tərəfindən icra edilmişdir. 2010-cu il 3 noyabr tarixində Prezident İlham Əliyev yeni limanın təməlini qoymuş və layihənin ilk mərhələsində yük gəmilərinin, konteyner sahəsinin, təchizat yolunun, infrastruktur təsisatlarının və binalarının tikintisinə başlanılmışdır. Bu limanın Azərbaycandakı təchizat təhlükəsizliyi problemlərini həll etməsi, Bakını Xəzər dənizi hövzəsində çox modern və böyük bir logistika və təchizat mərkəzinə çevirməsi, Xəzərsahili dövlətlər arasında əməkdaşlığı dərinləşdirməsi və Şərq-Qərb nəqliyyat dəhlizləri üçün yeni fürsətlər yaratması proqnozlaşdırılır [2].

Bu liman üçün Ələt qəsəbəsinin seçilməsi təsadüfi deyil. Şimal-Cənub quru yolu dəhlizi və Şərq-Qərb dəhlizi qovşağında əlverişli bir mövqeyə sahib və yüklərin hər istiqamətə daşınmasını asanlaşdıran Ələt limanı, Qərbi (Türkiyə və AB), cənubu (İran və Hindistan) və şimalı (Rusiya) bir-biri ilə əlaqələndirən quru yolu və dəmiryollarının kəsişdiyi məkanda yerləşir. Eyni zamanda, burada dəniz limanının inşa edilməsi ilə su yollarının da nəqliyyat yolları şəbəkəsinə əlavə edilməsi məsələsi gündəmdədir ki, bu da regionun geniş ixrac potensialına sahib beynəlxalq nəqliyyat mərkəzinə çevrilməsinə zəmin yaradır. Məhz bu səbəbdən Ələt limanı strateji fürsətlər baxımından Azərbaycan üçün böyük əhəmiyyət kəsb edir. Bu liman Çin üçün də olduqca əhəmiyyətlidir [2].

İpək Yolu İqtisadi Qurşağının Orta Şərq-Qərb hissəsini təşkil edən Transxəzər beynəlxalq nəqliyyat marşrutu üçün Xəzər dənizindən istifadə olunur. Bu dəhlizin potensial istifadə yolları arasında, Qərbi Çindən Qazaxıstana Khorgoz sərhəd məntəqəsindən daxil olan yükləri Xəzər dənizi vasitəsilə Aktaudan Bakıya və ardınca Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə Türkiyəyə nəql etmək imkanları mövcuddur. Buradan yüklər Qaradənizdən Yunanıstana göndərilə bilər. Bu baxımdan, Ələt limanı "Bir Kəmər, bir qurşaq" layihəsi üçün əhəmiyyətli bir marşruta çevrilmişdir. Çindən gələn yüklərin bu limana və buradan da Avropaya nəqli BTQ dəmir yolu xətti vasitəsilə həyata keçiriləcək. Bu səbəbdən də indiyədək Çin, bu limanı təxminən 2 milyon dollar dəyərində avadanlıqla təchiz etmiş və onu inkişaf etdirmək üçün 70 milyon dollara yaxın vəsait ayırmışdır [2].

Ədəbiyyat siyahısı

1. https://dergipark.org.tr/tr/download/article-file/1219826
2. http://iibfdergisi.ksu.edu.tr/tr/download/article-file/2411878

Hacızadə Sevinc Tofiq qızı
Elmi rəhbər: B/m Əbdürrəhimova Şəfa Rasim qızı
Azərbaycan Dillər Universiteti

FRANSA VƏ AZƏRBAYCANDA GENDER VƏ ZORAKILIĞIN MÜQAYİSƏLİ TƏHLİLİ

Azərbaycanda gender əsaslı məhdudiyyətlər və qadına qarşı diskriminasiya cə-miyyətin patriarxal dəyərlərinə, sosial normalara və sərt gender rol və stereotiplərə dayanır. İslamın ölkədə əsas dini təriqət olaraq mövcudluğu ictimai həyat və sosial təşkilatlanmada ənənəvi gender normalarının daha da möhkəmləndirilməsinə xidmət edib [1].

Məişət zorakılığının gender xarakteri Cənubi Qafqazın digər ölkələrində olduğu kimi Azərbaycanda da aktual problem olaraq qalır. Qadınlara qarşı zorakılıq, xüsusilə də məişət zorakılığı və cinsi zorakılıq kimi məsələlər barədə məlumatların toplanması kifayət qədər çətindir. Əksər cəmiyyətlərdə zorakılığa məruz qalmış şəxslərin çoxu yetərli dəlillərin olmaması, dövlət qurumlarına etibarın olmaması və ya zə-rərçəkənin günahlandırılması kimi müxtəlif səbəblərə görə cinsi zorakılıq halları barədə cinayət mühakimə sisteminə müraciət etmirlər [2].

Qadınlara Qarşı Zorakılıq Milli Müşahidə Qrupunun məlumatına görə, Fransada 2019-cu ildə 213 min qadın fiziki və ya cinsi zorakılığın qurbanı olduğunu bildirib. Bəziləri həyat yoldaşından və ya keçmiş həyat yoldaşından psixoloji və ya inzibati zorakılığa da məruz qalırlar. Hər il 94 000 qadın zorlamanın və ya zorlamaya cəhdin qurbanı olur. Bu zorakılıqla sosial kateqoriyasından, milliyyətindən, yaşından asılı olmayaraq bütün qadınlar üzləşə bilər.

Fransada və Azərbaycanda cinsi zorakılıq və ya cəmiyyətdəki cinsi diskriminasiya müxtəlifdir. Fransada cinslərin bərabər haqları və imkanları qorunur, lakin hələ də cinsi zorakılıq və cinsi ayrı-seçkilik problemi ilə mübarizə aparılır. Azərbaycanda isə cinsi ayrı-seçkilik daha aşkar ola bilir, lakin son illərdə cinslər arasında bərabərlik və qadınların hüquqlarının qorunması ilə bağlı qanunvericilikdə ciddi addımlar atılmışdır.

Fransada Qadınların Zorakılıqdan Müdafiəsi və İnsan Alverinə Qarşı Mübarizə üzrə Nazirliklərarası Missiya (MİPROF) 3 yanvar 2013-cü il tarixdə yaradılmışdır. Beləliklə, MİPROF "qadınlara qarşı zorakılıqla bağlı məlumatların toplanması, təhlili və yayılması" və "zorakılıq qurbanı olan qadınların müdafiəsi sahəsində tədqiqatların aparılması və qiymətləndirmə işlərinə töhfə vermək" üçün məsuliyyət daşıyır [4].

Azərbaycan Respublikasının Gender Bərabərliyi Qanunu 2006-cı ildə qəbul edilib. Qanunda gender bərabərliyi və ayrı-seçkiliyə yol verilməməsi ilə bağlı bir sıra terminlər öz əksini tapır. 2010-cu ildə məişət zorakılığının qarşısının alınması haqda qanununun qəbul edilməsi qadın hüquqlarının qorunması və qadınlara qarşı şiddət və ayrı-seçkiliyin qarşısının alınması üçün atılan mütərəqqi addımlardan biri oldu. Məişət zorakılığının qarşısının alınması haqda qanun ailə zorakılığı ilə əlaqəli hüquq sahəsini birbaşa tənzimləyən qanunvericilik aktıdır. Bu qanun məişət zorakılığının qarşısının alınması üçün əsas prinsipləri təmin edir və şikayətlərə baxılma qaydalarını və məişət zorakılığı qurbanlarının qorunma mexanizmlərini müəyyənləşdirir. Həm Fransada, həm də Azərbaycanda bütün bunlara baxmayaraq, məişət zorakılığı qanunvericiliyində və onun tətbiqində ciddi çatışmazlıqlar müşahidə edilir. Qanunvericilikdə məişət zorakılığı ilə bağlı bir sıra müddəalar nəzərdə tutulsa da, qanunda hələ də boşluqlar qalmaqdadır.

Ədəbiyyat siyahısı:

1. Azərbaycanda qadınlar özəl sektorda: imkanlar və çətinliklər. Gender Dəyərləndirmə Hesabatı, UNFPA-2018. URL:https://www.nhc.no/content/uploads/2021/05/Azerbaijani-language-
2. Arrêtons les violences. 2020. URL: https://arretonslesviolences.gouv.fr/je-suis-professionnel/chiffres-de-reference-violences-faites-aux-femmes
3. Gerasimenko Q. Azərbaycanda qadınlara qarşı zorakılığın iqtisadi yükü. 2020: URL:https://azerbaijan.unfpa.org/sites/default/files/pub-pdf/gbv_cost_report_aze.pdf
4. Médesins du monde France. URL: https://www.medecinsdumonde.org/tribune/notre-systeme-institutionnel
5. 5.Tilt; Violences de genre dans le monde. 2022. URL: https://www.tilt.fr/articles/les-violences-faites-aux-femmes-en-est-ou

Kərimli Fatimə Elmar qızı
Elmi rəhbər: müəl. Leyla Xanseyidova
Azərbaycan Dillər Universiteti

SOSİAL SİYASƏTDƏ HEYDƏR ƏLİYEVİN YOLU

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasətin əsas xarakterik cəhəti sosial siyasətin dayanıqlı olması, ölkənin iqtisadi bazisinə əsaslanması, və onun mükəmməl və dünya təcrübəsində uğurla sınaqdan çıxmış normativ hüquqi bazaya söykənməsidir.

Heydər Əliyevin sosial siyasətinin inkişaf tarixinə nəzər yetirsək görərik ki, ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial sahədə əhəmiyyətli addımlar atılmışdır.

Heydər Əliyevin həyata keçirdiyi sosial siyasət əsasən də elmi-nəzəri əsaslara söykənirdi. Sosial siyasətin və sosial siyasət modellərinin elmi-nəzəri aspektlərinə toxunmadan bu siyasətin tam dərki, onun mahiyyətinin açıqlanması mümkün deyildir.

Heydər Əliyev güclü dövlət ideyasına sadiq qalaraq ilk növbədə sosial problemlərin həlli sahəsində dövlətin rolunun artırılmasına xüsusi əhəmiyyət verirdi. [1].

Ulu öndərimizin rəhbərliyi ilə iqtisadi islahatların və liberal bazar münasibətlərinin genişlənməsi və sürətlənməsi məqsədilə ilk növbədə bu sahədə müvafiq qanunların, baza sənədlərinin mövcudluğu, onların təkmilləşdirilməsi prosesi uğurla həyata keçirildı [2].

Heydər Əliyevin sosial siyasətinin başlıca istiqamətləri: Pensiya islahatları, Monetizasiya - güzəşt və imtiyazların müavinətlərlə əvəz edilməsi, yoxsulluğun azaldılması idi [1].

"Vətəndaşların pensiya təminatı haqqında" qanuna əlavə və dəyişikliklər, "Sosial sığorta haqqında" Qanun, "Aztəminatlı ailələrə verilən müavinətlərin artırılması haqqında" Azərbaycan Respublikasının sərəncamı, "Minumum aylıq əmək haqqının artırılması haqqında" və "Pensiyaların artırılması haqqında" Azərbaycan Respublikasının Prezidentinin fərmanları və s. qəbul edilib [3].

Məhz Heydər Əliyev tərəfindən qoyulmuş sosial siyasət yolu bu gün İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

İlham Əliyevin dövlət quruculuğu modeli özünəməxsus ştrixlərlə də diqqəti cəlb edir. Ulu öndərin irimiqyaslı neft qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə külli miqdarda maliyyə vəsaitlərinin daxil olması Heydər Əliyev tərəfindən başlanan islahatların, o cümlədən sosial islahatların daha da gücləndirilməsi, infrastrukturanın yeniləşdirilməsi üçün şərait yaratdı.

Cənab İlham Əliyevin modern sosial siyasətinin qloballığı və əhəmiyyəti ondadır ki, onun mövcud istiqamətləri var. Bu istiqamətləri aşağıdakı kimi təsnifləşdirmək olar: müavinət sisteminin sığorta sistemindən ayrılması, Regional idarəetməyə xüsusi önəm verilməsi, məqsədli dövlət proqramlarının inkişafa stimul yaradılması, sosial problemləri yaradan səbəblərin aşkarlanması, cəmiyyətin sosial rifahının yüksəldilməsi üçün yeni idarəetmə institutlarının fəaliyyətinin təkmilləşdirilməsi və yeni yanaşmanın tətbiqi. Mövcud qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması.

Son illərdə tibb sahəsində irimiqyaslı işlər görülməsi, əhatəli qanunvericilik bazası yaradılması, tibbi sığortanın işə düşməsi, bölgələrdə yüksək ixtisaslı tibbi kadrların çalışması tibbi xidmətin keyfiyyətinə yüksəldilməsinə təsir göstərir. Eyni zamanda reproduktiv sağlamlığın qorunması istiqamətində də ciddi işlərin görülür.

Yoxsulluğun aradan qaldırılması və davamlı inkişaf, regionların sosial-iqtisadi inkişafı Dövlət proqramları çərçivəsində ardıcıl işlər görülür.

Ədəbiyyat siyahısı:

1. Rəcəbli, H. Sosial siyasətin Heydər Əliyev modeli // Azərbaycan. - 2010.- 7 may, - s. 3.
2. İbrahimqızı, M. Sosial siyasətin Heydər Əliyev modeli: [Elektron resurs], URL: https://sesqazeti.az/news/politics/914041.html
3. Quliyev, M. Sosial müdafiənin Heydər Əliyev nümunəs: [Elektron resurs], URL: https://modern.az/news/38066/

Məmmədli Nailə
Elmi rəhbər: dosent Rəcəbova Aidə Əkbər
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏT SİYASƏTİ

Azərbaycan öz mədəniyyəti, incəsənəti, milli-mənəvi dəyərləri ilə dünyada tanınmışdır. Xalqımızın milli-mənəvi dəyərlərinin kökləri çox-çox qədim zamanlara gedib çıxır. XX əsrdə isə xalqımızın mədəni həyatında yeni bir dövr başlanmışdır. Bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür.

Ulu öndər hər zaman qeyd edirdi ki, milli düşüncə tərzimizin əsasını milli mədəniyyətimiz təşkil edir. Köklü mənəvi və mədəni dəyərlərimizi gələcək nəsillərə düzgün şəkildə aşıkamalıyıq. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, Heydər Əliyev o sahəyə diqqət göstərməsin. Musiqimiz də, teatrımız da, kino sənətimiz də, heykəltaraşlıq və rəssamlığımız da, xalça sənətimiz də bugünkü inkişafında ulu öndərin çox dəyərli ideyalarından bəhrələnib. Heydər Əliyevin uğurlu mədəniyyət siyasətinin nəticəsində biz mədəniyyətimizi dünyaya tanıtdıq. Heydər Əliyevinin mədəniyyət siyasəti əsasən iki qola ayrılmışdı. Bunlardan ilk hissəsi mədəniyyət sahələrinə verilən diqqət, digər isə və ən əsası mədəniyyət xadimlərimizin aşkarlanması idi. Heydər Əliyev mədəniyyətimizi yaradan, onu inkişaf etdirən insanların əməyini yüksək qiymətləndirir, onların daim qayğısını çəkirdi.

Hələ sovetlər dönəmində Heydər Əliyev Azərbaycanda mədəniyyətin maddi-texniki bazasının möhkəmlənməsinə xüsusi diqqət yetirirdi. Nə qədər kinoteatrlar, teatr binaları, muzeylər inşa olundu. Mədəniyyətimizin kadr potensialı gücləndirildi. SSRİ-nin ən nüfuzlu incəsənət yönlü ali məktəblərində Azərbaycan gəncləri təhsil alıb Bakıya dönürdülər. Sankt-Peterburqun, Moskvanın teatr, rəssamlıq, musiqi üzrə ali təhsil ocaqlarını bitirmiş gənclər bu gün Azərbaycan mədəniyyətinin aparıcı sənətkarlarıdır. Heydər Əliyev bu kadrların hazırlanmasında ona görə maraqlı idi ki, gələcək müstəqil Azərbaycanımız üçün onlar gərəkli olacaqdılar. Necə ki, oldular da.

Azərbaycanın müstəqilliyini qazandıqdan sonra bir müddət keçdikdən sonra mədəniyyətimiz böyük çətinliklərlə üzləşsə də, Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də dirçəlməsinə yeni təkan verdi. Sosial problemlərə görə xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı və diqqət göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçıların üzünə açdı. Azərbaycanda bir çox tamaşa müəssisələri təmir olundu, Filarmoniya təmirdən sonra yenidən istifadəyə verildi.[1]

Ulu öndərin hakimiyyəti illərində muzey və kitabxana işi, rəssamlıq, heykəltaraşlıq və memarlıq sənəti sürətlə inkişaf etmişdir. Bakıda ucaldılmış çox dəyərli heykəllər, inşa edilmiş müasir və klassik ənənələri birləşdirən əzəmətli binalar xalqımızın milli sərvətinə çevrilmişdir. Bakımız gözəlləşmiş, yeni görünüş almışdır. Elə regionlarımızda da mədəniyyətin inkişafı diqqətdən yayınmamışdır.

Azərbaycanın qədim şəhərsalma ənənələrini özündə ehtiva edən İçərişəhərin Şirvanşahlar Saray Kompleksi ilə birgə YUNESKO-nun maddi irs siyahısına daxil edilməsi böyük tarixi hadisə idi.Açığı bir Azərbaycanlı olaraq ölkəmizin mədəniyyət və incəsənət nümunələrini YUNESKO maddi irs siyahısında görmək məni həddindən artıq sevindirdi və qürurlandırdı.[2]

Ümumilli liderimiz Heydər Əliyev bir çox kəlamlarını tarixə qızıl hərflərlə yazmışdı.Bu yazını da bu kəlamlardan biri ilə tamamlamaq istəyirəm. "Şübhəsiz ki, insanlara şeir qədər, ədəbiyyat qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur".

Ədəbiyyat siyahısı:

1. Xalq qəzeti.- 2010.- 6 may.- S. 5.
2. YUNESKO-nun maddi irs siyahısı

Məhəmmədpur Səhər Əlirza
Elmi rəhbər: Dosent, s.e.f.d. Nadir Quliyev
Azərbaycan Dillər Universiteti

MÜASIR AZƏRBAYCANDA MULTİKULTURALİZM SİYASƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Etnik-mədəni müxtəlifliyi ilə seçilən Azərbaycanda xalqlar və dinlər arasında münasibətlər, bu gün tolerantlıq adlandırdığımız tarixi birgəyaşayış prinsipləri çoxəsrlik ənənələrə, qarşılıqlı hörmətə, inam və əməkdaşlığa əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin daim vurğuladığı kimi, "Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir". Buradakı "Azərbaycan xalqı" termini dövlətimizin Əsas Qanununda – Azərbaycan Respublikasının Konstitusiyasında təsbit edildiyi kimi, etnik, dini və sosial mən-subiyyətindən asılı olmayaraq bütün vətəndaşların hüquq bərabərliyi, dini etiqad azadlığı, birlik, sarsılmaz ittifaq və qardaşlıq münasibətlərini ifadə edir [3].

Hazırda "Azərbaycan multikulturalizmi" modeli regionda sabitliyin və sülhün qorunub saxlanılması, bununla bağlı qlobal miqyasda münaqişələrin aradan qaldırılması üçün səmərəli vasitəyə çevrilib. Məlumdur ki, Azərbaycanda tarixən müxtəlif xalqlar və dini icmalar məskunlaşmış, ölkəmizin ictimai-siyasi və mədəni həyatında mühüm rol oynamış, eyni zamanda, öz etnik-mədəni xüsusiyyətlərini, inanclarını qoruyub saxlamışlar. Onların həyat tərzi və adət-ənənələri Azərbaycan dövlətinin məqsədyönlü siyasəti sayəsində hətta qarşılıqlı mədəni mübadilə nəticəsində Azərbaycan mədəniyyətinə böyük töhfələr veriblər. Bu prinsiplərin əsası vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Heydər Əliyev hesab edirdi ki, dini, irqi, milliyyəti, maddi sərvəti heç vaxt bir insanın digərindən üstün olmasına səbəb ola bilməz. Ulu Öndərin "Azərbaycan multikulturalizmi" modelinin formalaşmasında və inkişafında əvəzsiz xidmətləri olmuşdur. Ümummilli liderin çıxışlarının birində bu birliyin mahiyyəti, sarsılmaz gücü haqqında belə demişdir: "Respublikamızın ən mühüm sərvəti əsrlər boyu bu torpaqda yaşamış, taleyini, canını bu torpağa bağlayanlardır. , müxtəlif millətlərdəndirlər, fərqli dindarlardır. Ölkə nə qədər çox insan birləşdirsə, bir o qədər zəngin olar" [1].

Qeyd edildiyi kimi Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir. Heydər Əliyevin təşəbbüsü və göstərişi ilə milli azlıqların ədəbiyyat, mədəniyyət, dil, tarix, adət-ənənələrinin qorunub saxlanmasına, inkişaf etdirilməsinə qanuni zəmin yaradıldı. Azərbaycan Respublikası Konstitusiyasının 25-ci maddəsi ilə mənşəyindən, irqindən, dinindən və dilindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarına hörmət təmin olundu. Bununla yanaşı, Ulu öndərin hakimiyyətə gəlməsindən sonra qəbul edilən bir çox qanunlarda Azərbaycan ərazisində yaşayan bütün milli azlıqların mədəni kimliyinə təminat verildi [3]

Ümummilli lider Heydər Əliyev respublikada yenidən hakimiyyətə qayıdanda cəmiyyətin dinə bağlı durumu belə mürəkkəb və ziddiyyətli idi. Bu cür çətin şəraitdən yalnız yüksək dövlətçilik təcrübəsi olan bir şəxs baş çıxara, vəziyyəti düzgün qiymətləndirib dönüş yarada bilərdi. Yalnız Heydər Əliyev öz dərin biliyi, yüksək bacarığı, böyük idarəçilik təcrübəsi, düzgün və uzaqgörən siyasəti sayəsində dövlət-din münasibətlərini inzibatçılığa yol vermədən, məqbul beynəlxalq standartlara müvafiq şəkildə öz təbii məcrasına qaytara bilər, dövlətin strateji xəttinə əsasən tənzim edə bilərdi [2].

Tarixi keçmişimiz, mədəniyyətimiz göstərir ki, Azərbaycanda müxtəlif dinlərin nümayəndələri həmişə çox rahat şəkildə, bir ailə kimi yaşayıblar. Tarixi-dini abidələrimiz qədim tariximizi göstərir, eyni zamanda, Azərbaycanın müxtəlif dinlərin nümayəndələri üçün doğma yurdu vəziəsini üstlənmişdir. Bununla da bu gün biz böyük fəxr və qürur hissi ilə deyə bilrik ki, saysız-hesabsız mədəniyyətlərə ev sahibliyi etmiş yurdumuz, Azərbaycan bütün dünyaya dözümlülük, tolerantlıq örnəyi kimi göstərilir [1].

İstinadlar:

1. 1.http://www.anl.az/down/meqale/hurriyyet/2019/noyabr/686480.htm
2. https://multiculturalism.preslib.az/en_a1.html
3. The Constitution of the Republic of Azerbaijan

Salmanova Aynurə Əfqan qızı
Elmi rəhbər: Dosent Quliyev Nadir Novruz oğlu
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCANDA MULTİKULTURALİZMİN BƏRQƏRAR OLUNMASI

Azərbaycanda multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti səviyyəsində inkişaf etdirilməsinin əsaslarını ölkənin qədim dövlətçilik tarixi və bu ənənələrin inkişafı təşkil edir. Tarixi ənənələrə nəzər salsaq görərik ki, istər Səfəvilər dövləti, istər XIX-XX əsrlər maarifçilik dalğası, istərsə də Xalq Cümhuriyyəti dövründə Azərbaycan ərazisində yaşayan digər etnik xalqlar və dini qrupların nümayəndələrinin təmsilçiliyini özündə cəmləyən bu siyasi davranış XX əsrin sonlarında ulu öndər Heydər Əliyev tərəfindən dövlətçilik ideologiyası formasına çevrilmişdir. [4. S-4]

Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin tarixi təcrübədə əsaslandığı, siyasi idarəçilikdə tətbiq etdiyi azərbaycançılıq milli ideologiya proqramını öz məzmununa görə XIX əsr Azərbaycan maarifçilərinin milli şüurun tərəqqi modern cəmiyyət layihəsi ilə müqayisə etmək olar. Hətta Heydər Əliyev klassiklərimizin əsasını qoyduqları azərbaycançılıq milli ideologiyasının tərəqqi konsepsiyasını XX əsrdə dünya səviyyəsində əməkdaşlıqlar, mədəniyyətlərarası dialoq, ədəbiyyat, mədəniyyət, siyasət və daha müxtəlif istiqamətlərdə əlaqələr məzmununda zənginləşdirməklə, tolerantlıq hadisəsini müasir dövrün mühün ictimai-siyasi akkordları ilə inkişaf etdirmək, multikulturalizm hisslərini gücləndirməklə öz sələflərindən irəli gedərək Azərbaycanda yaşayan bütün xalqların, millətlərinhəmçinin etnik toplumların monolit birlik həmrəylik dövlət idarəçiliyi təlimini yaratmışdır. [3]

Ümummilli lider Heydər Əliyev 2001-ci il noyabrın 9-da Dünya azərbaycanlılarının I qurultayında dövlətin siyasətini səciyyələndirərkən onun prioritet istiqamətini nəzərə çatdırmışdır: "Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycanın dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq". [2]

Azərbaycanın müstəqillik yolunda əmin addımlarla irəlilədiyi ilk illərdə Ulu Öndər Heydər Əliyevin ölkənin vahidliyi və bütövlüyünü təmin etməyin ən uğurlu modeli kimi Azərbaycançılığı dövlət siyasəti halına gətirməsi, həmçinin, XXI əsrin astanasında beynəlxalq miqyasda iqtisadi-siyasi sferada dayanıqlılığı və etibarlı tərəfdaş imici ilə qəbul edilən ölkəmizdə multikulturalizmin dövlət siyasətinin mühüm istiqamətlərindən birinə çevrilməsi Azərbaycan dövlətçilik tarixində imza atılan, dönüş xarakterli uğurlardan sayılır. Çünki Azərbaycançılığın inkişafı multikultural mühitdən kənarda reallaşa bilməzdi. [1]

Azərbaycançılıq ideologiyasının çağdaş təkamül mərhələsi özünəməxsus dinamizmi ilə zənginləşməkdə, milli ictimai şüurun əsaslarını müəyyənləşdirməkdə və Azərbaycan xalqının dünya birliyindəki mövqelərini inamla yüksəltməkdədir.

Ədəbiyyat siyahısı:

1. Amil Cavadov. Multikulturalizmin Azərbaycan modeli, 18.10.2023
2. Azərbaycançılıq. https://multiculturalism.preslib.az/az_a2.html
3. Xatirə Quliyeva. Azərbaycançılıq ideologiyasından multikulturalizmə kimi milli mədəniyyətlərarası dialoq fəlsəfəmiz. 16.06.2021. www.science.gov.az
4. M.Hacıyeva, N.Alışova. Multikulturalizm Azərbaycanın həyat tərzidir. Bakı 2016

Əhmədova Hənifə Qəhrəman qızı
Elmi rəhbər: b/m t.ü.f.d. Quluzadə Təranə Nəsimi qızı
Azərbaycan Dillər Universiteti

II QARABAĞ MÜHARİBƏSİNDƏN SONRA AZƏRBAYCAN-İSRAİL HƏRBİ-SİYASİ ƏMƏKDAŞLIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

Azərbaycanın İsraillə hərbi-siyasi əməkdaşlığı milli təhlükəsizliyimizin əsas sütunlarından biri olub, postmünaqişə dövründə yüksələn xəttlə inkişaf edir. 44 günlük müharibədən sonra Azərbaycan İs-

raildən 2 milyard dollar dəyərində silah sazişi üzərində aktiv danışıqlar aparmışdır. İsrailin nüfuzlu "İsrael Hayom" nəşrinə görə, İsrail istehsallı silahların alınması bir neçə əsas amilə söykənir. Birincisi, Azərbaycan və Ermənistan arasında şərti sərhəd boyunca gərginlik hələ də davam edir. Azərbaycan 44 günlük müharibədə istifadə etdiyi silahların yeniləri ilə əvəzlənməsi və müdafiə qabiliyyətinin artırılmasında obyektiv maraqlıdır. Vurğulayaq ki, Stokholm Sülh Tədqiqatları İnstitutunun (SİPRİ) hesablamalarına görə 2011-2020-ci illərdə Azərbaycana Rusiyadan sonra ən çox silah ixracı İsraildən gəlmişdir. İsrail bu istiqamətdə hətta Türkiyəni belə üstələmişdir. SİPRİ-nin digər hesabatına görə isə 2016-2020-ci illərdə Azərbaycanın silah idxalının 69%-i İsrailin payına düşmüşdür. Bu göstərici İsrailin həmin dövrdəki silah ixracının 17%-ni təşkil edirdi. Rusiyanın Ukraynada hərbi məğlubiyyətləri Rusiya istehsallı silahlara tələbatı azaldıb [1,2].

Azərbaycanın İsraildə Ticarət və Turizm nümayəndəliyinin açılması ilə bağlı 29 iyul 2021-ci il tarixli qərarı iki ölkə arasında əlaqələrin dərinləşməsinin vacib göstəricilərindəndir. İsrail mənbələrinə görə İsrailin bəzi şirkətləri Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpasında yaxından iştirak edir. İsrailin bir çox müdafiə şirkətləri, o cümlədən "Israel Aerospace Industries" (İsrail Aerokosmik Sənayesi), "Elbit", "Rafael" və başqaları öz məhsullarını Azərbaycana ixrac edirlər. İsrail istehsallı "kamikadze" dronlar, "Harop" döyüş sursatları II Qarabağ müharibəsində özünü yüksək səviyyədə nümayiş etdirib, İsraildən alınan silahlar Ermənistanın postmünaqişə dövründə də sülhə məcbur edilmə siyasətində vacib rol oynayırlar [2,3].

Azərbaycanın hava məkanının etibarlı mühafizə altında olmasında İsrail istehsallı "Barak 8" hava hücumundan müdafiə sistemi və "Green Pine" radar sisteminin rolunu xüsusi vurğulamaq lazımdır. Azərbaycanın ordu xidmətində olan İsrail istehsallı "Skystriker" və "Orbiter 1K" pilotsuz təyyarələri, Türkiyə istehsallı dronlar ilə birlikdə ölkəmizin aerokratiya nomosunda üstünlüyünün məhək daşını təşkil edir. "Spike" tank əleyhinə idarə olunan raketlər və "LORA" operativ-taktiki raket sistemləri isə Ermənistanla gərgin münasibətlər şəraitində vəziyyətə yerində nəzarət etməyə imkan verir [2].

İrandan gələn təhlükələr Azərbaycanın xüsusi xidmət orqanlarını İsrailin xüsusi xidmət orqanları ilə sıx əməkdaşlıq etməyə sövq edir. Azərbaycanı hərbi sahədə dəstəkləməklə İsrail bir tərəfdən Cənubi Qafqazda möhkəmlənmək, digər tərəfdən İranın diqqətini şimala yönləndirərək, onun imkan və resurslarını parçalamaq istəyir. Rəsmi Bakı İsrail ilə hərbi tərəfdaşlığın üçüncü tərəfə qarşı olmadığını bəyan etsə də, praktikada Bakı və Tel-Əviv birliyi İranın potensial təhlükəsini real təhlükəyə çevirməyinin qarşısını alır. Əksəriyyəti müsəlman olan bir dövlətin yəhudi dövləti ilə yaxşı münasibətlər qurması Tehran rejimi tərəfindən rədd edilir. 2021-ci ilin sentyabrında İran Azərbaycan sərhədi boyunca minlərlə hərbçi toplayıb, böyük hərbi təlim keçirmişdi. Təhlükə dərhal Bakının sərt reaksiyasına səbəb oldu. Prezident İlham Əliyevin İsrail istehsalı olan "Harop" kamikadze dronu qarşısında foto-video şəkilləri İrana bir subliminal mesaj oldu.

Azərbaycan ərazilərinin 30 il ərzində işğal altında qalmasına məhəl qoymayan İran, Ermənistana həm münaqişə, həm də postmünaqişə dövründə yaxından dəstək olmuşdur. İran-Ermənistan tandemi Azərbaycanı İsraillə daha yaxından əməkdaşlıq etməyə stimullaşdırır. İranın Azərbaycan sərhədləri yaxınlığında 2022-ci il hərbi təlimləri, Qafanda konsulluq açması isə Azərbaycanın İsraildə səfirliyinin açılmasını aktual etmişdir. 2023-cü il martın 29-u Azərbaycan Respublikasının İsrail Dövlətindəki Səfirliyinin açılması da münasibətlərin daha da güclənməsinin bariz nümunəsi oldu.

Ədəbiyyat siyahısı:

1. Arms transfers to conflict zones: The case of Nagorno-Karabakh. https://www.sipri.org/commentary/topical-backgrounder/2021/arms-transfers-conflict-zones case-nagorno-karabakh
2. Azerbaijan Reportedly in Talks with Israel to Sign Arms Deal. https://caspiannews.com/news-detail/azerbaijan-reportedly-in-talks-with-israel-to-sign-arms-deal-2021-8-20-0/
3. Israel's Role in the Second Armenia-Azerbaijan War and Its Implications for the Future. https://www.fdd.org/analysis/2022/09/13/israels-role-armenia-azerbaijan-war/

Məmmədova Leyla Anar
Elmi rəhbər: P.ü.f.d., b/m. Məmmədova Günay Kamil
Azərbaycan Dillər Universiteti

ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Dövlətin inkişafında elm və təhsil başlıca vasitədir. Dünyəvi təhsilə inkişaf yolunu seçən Azərbaycan Respublikasında müstəqilliyin bərpasından sonra bu strateji sahəyə milli təhlükəsizliyin mühüm amil-

lərindən biri kimi xüsusi diqqət yetirilməsi ölkədə bu məsələnin vacib əhəmiyyət kəsb etdiyinə nümunədir. İnkişafa gedən yolda uğur qazanmaq üçün isə, dünyanın bir çox dövlətləri ilə diplomatik əlaqələrin yaradılması, sosial-iqtisadi, mədəni, elm-təhsil və digər sahələrdə beynəlxalq norma və tələblərə uyğun əməkdaşlığın qurulması vacibdir. Buna görə, təhsildə islahatlar aparmaq dövlətin ali məqsədinə çevrilmişdir. Bu sahədə ulu öndər Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi zaman ərzində həm birinci, həm də ikinci dönəmində həyata keçirilən təhsil siyasətinin əhəmiyyətli nəticələrinin dünəninə və bugününə diqqət yetirmək lazımdır [1. s. 2].

Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə ötən əsrin 70-ci illərində və 80-ci illərin əvvəllərində ali təhsil müəssisələrinə olan diqqətin genişləndirilməsi, maddi-texniki bazanın yenilənməsi və yüksək ixtisaslı kadr hazırlığı istiqamətində böyük işlər görülmüş, həmçinin ali məktəblər üçün çoxlu sayda tədris korpusları, yataqxana kompleksləri tikilmişdi.

1970-1980-ci illərdə Azərbaycanda yeni texnologiyalara əsaslanan istehsal sahələrinin yaradılması həmin sahələr üzrə ali və orta ixtisas təhsili müəssisələrinin, elmi tədqiqat institutlarının yaradılmasına şərait yaratmışdır. Müstəqillik illərində də Ümummilli Liderimiz ali təhsilin inkişafı sahəsində mühüm qərarlar qəbul etmişdir. 1993-1994-cü tədris ilindən ödənişli təhsil yaradılmışdır. Bu, demək olar ki, çətin iqtisadi şəraitdə ali təhsil müəssisələrinin maliyyə imkanlarının yaxşılaşmasına təkan vermişdir. 1997-ci ildə bakalavriat təhsilini başa vuran məzunlar ilk dəfə olaraq magistratura səviyyəsində təhsil almağa başladılar. Bu da gənc nəslin özünü inkişaf etdirməsində mühüm rol oynayırdı. 2000-ci ildən etibarən ali təhsil müəssisələri universitet statusu almışdır. Daha sonra isə, ali təhsil müəssisələrində xarici ədəbiyyatdan olan kitabların tərcümə olunmus variantlarının, müxtəlif elmi məqalələrin, qəzetlərin, jurnalların olduğu xüsusi otaqların təşkil olunması, bunun həyata keçirilməsi üçün xüsusi kadrların yığılması kimi müxtəlif sayda əhəmiyyətli işlər görülmüşdür [3. s.7].

Azərbaycan Respublikasında təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını artırmaq, onların təhsil alması üçün daha əlverişli şərait yaratmaq və təhsilə olan həvəslərini artırmaq məqsədilə respublikanın ali məktəblərinə qəbul imtahanlarında ən yüksək nəticə göstərmiş 102 nəfər tələbə üçün Azərbaycan Respublikası Prezidentinin "Ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" 2001-ci il 3 sentyabr tarixli fərmanı da Ulu Öndərin gənclərin ali təhsil almaları istiqamətində mühüm addımı idi. Prezident təqaüdü gənclər arasında yüksək bilik, bacarıq, səriştələr və yüksək əxlaqi dəyərlər qazanmaq uğrunda yarışa çevrilərək xalqa, müstəqil dövlətə sədaqətlə xidmət edəcək yaradıcı şəxsiyyətin formalaşdırılmasına verilən böyük töhfə idi [5].

Ümummilli Lider Heydər Əliyevin 29 avqust 1997-ci ildə Azərbaycanın və xarici ölkələrin ali məktəblərinə qəbul olunmuş bir qrupu və onların valideynləri ilə görüşdə demişdi: "Biz 1970-ci ildən başlayaraq Azərbaycandan gənclərin keçmiş Sovetlər İttifaqının ən böyük universitetlərinə, ali məktəblərinə oxumağa göndərilməsinə nail olduq. Onların sayı hər il artırıldı. Mənim xatirimdədir, 70-ci illərin sonunda ildə 800-900 nəfər və 80-ci illərin əvvəlində ildə 1000-1400 nəfərə qədər gənclərimiz respublikamızdan kənardakı ali məktəblərə göndərildi. Bunun böyük əhəmiyyəti var idi. İndi biz bunun nəticələrini görürük" [2].

Bugün təhsilimizin inkişafında, savadlılığın yüksək səviyyəyə çatmasında Ulu Öndər Heydər Əliyevin rolu danılmazdır və Prezident İlham Əliyev tərəfindən inkişaf etdirilən Azərbaycanın təhsil sahəsini uğurla davam etdirilir və müstəqilliyimizi, dövlətimizin iqtisadi daimiliyini təmin edir [4].

Ədəbiyyat siyahısı

1. Habil Həmidov,AMEA-nın Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunun aparıcı elmi işçisi, pedaqoji elmlər namizədi, Azərbaycan, 2008.5 dekabr. S.2
2. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" // https://e-qanun.az/framework/5363
3. Xalq qəzeti. 2018.5 may. № 101. S. 7.
4. Ceyhun Bayramov, Azərbaycan Respublikasının Təhsil naziri (keçmiş) "Azərbaycan" https://www.muallim.edu.az/news.php?id=6595
5. "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 13 iyun 2000-ci il tarixli Fərmanı // https://e-qanun.az/framework/767

Факультет MO 383R, Оруджева Джахан Новруз
Научный руководитель: Доц. Магеррамова Севда
Азербайджанский Университет Языков

РОЛЬ ГЕЙДАРА АЛИЕВА В СОХРАНЕНИИ КУЛЬТУРНОГО РАЗНООБРАЗИЯ НА ЮЖНОМ КАВКАЗЕ

Великий лидер Гейдар Алиев играл значительную роль в различных аспектах политики на Закавказье, включая вопросы культурного разнообразия. В ходе президентства Гейдар Алиев проводил политику многонационального единства, стремясь создать условия для мирного сосуществования различных этнических групп на территории Азербайджана. Он поддерживал создание условий для обеспечения равных возможностей и доступа к образованию, здравоохранению, трудоустройству и другим социальным благам для всех этнических групп. Это повлияло на сохранение и уважение культурного разнообразия. Этносы тесно связаны с политикой мультикультурализма. На одном из своих выступлений Великий лидер упомянул: «Государство, чем больше народов оно объединяет, тем богаче, так как каждый из народов вносит свой вклад в общемировую культуру и цивилизацию» [1]. Конечно же малые народы являются важным субъектом государства, которые обогащают культуру. В настоящее время народы, которые издревле заселились на горах Большого Кавказа, сталкиваются с проблемами социального и экономического характера. Зачастую на данный момент они изолированы и не имеют должных условий для жизни, это приводит к тому, что население зная о стандартах в больших городах переезжают, что способствует к искоренению обычаев и традиций своего народа.

В глобализирующем мире конца XX века Азербайджан столкнулся с угрозами о потере национальных моральных ценностей. Но политика по спасению индивидуальностей каждого народа, проведенная Гейдаром Алиевым, несмотря на весь риск смогла защитить независимость нашей страны и заложила основу развития будущего Азербайджана. Ильхам Алиев подчеркнул то, что мультикультурализм является образом жизни населения,тому доказательство провозглашение 2016 года - Годом мультикультурализма [2].

В нашей республике живут представители разных народов. Здесь проживают представители Древней Кавказской Албании - цахуры, авары и др. После восстановления независимости Азербайджан делал акцент на малые народы, в том числе на цахуров. Провели дискуссии по поводу сохранения этнографических ценностей цахуров - сохранение языка, свадебные обряды, национальная кухня. На территории Азербайджана цахуры проживают в Загатальском, Балакенском и Гахском районе. В Загатальском районе находится центр Культуры Цахуров [3]. До сих пор в Цахурских селах преподают родной язык сельчан. При центре Культуры Цахуров действуют музыкальные - танцевальные ансамбли, которые не позволят забыть музыку и танцы цахурского народа. Они имеют уникальное место со своей богатой культурой, создали узы дружбы между Азербайджанцами и другими малыми народами. Благодаря совместной сплоченности народов Азербайджан смог сохранить политику, введенную в оборот начиная с эры Гейдара Алиева, продолжая Ильхамом Алиевым. Гейдар Алиев придавал большое значение сохранению и восстановлению исторически значимых памятников культуры. Политика Гейдара Алиева по отношению к малым народам Южного Кавказа была направлена на создание условий для их благополучия, уважения культурного многообразия и укрепления межэтнического согласия. Это включало в себя здания, мечети, церкви, мавзолеи и другие архитектурные сооружения, которые являлись частью культурного наследия Азербайджана. Признание культурного разнообразия способствует гармоничному и устойчивому развитию нашей страны.

Список используемой литературы:

1. Гейдар Алиев - основоположник политического мультикультурализма Азербайджана https://1news.az/news/20170617023800426-Geidar-Aliev-osnovopolozhnik-politicheskogo-multikulturalizma-Azerbaidzhana
2. Мультикультуральное общество и межнациональные отношения в современном Азербайджане https://www.elibrary.az/docs/jurnal/jrn2016_278.htm
3. Etnik - mədəni müxtəliflik. Saxurlar http://multikulturalizm.gov.az/az/post/1143/saxurlar.htm

Abdullayeva Latafat Sabuhi
Faculty of Education-1
Scientific supervisor: senior teacher
Rajabova Sudaba Shamsaddin
Azerbaijan University of Languages

ALIYEV`S PHILOSOPHY OF STATEHOOD

It is very difficult to assess the personality of Great Leader Heydar Aliyev. His life and activities are an example for history. He left to the people of Azerbaijan the greatest work he created at the expense of his hard work - an independent, democratic Azerbaijan.

Heydar Aliyev always benefited from the newest achievements of scientific thought in his activity and political experience [1]

Heydar Aliyev is the savior head of state in the history of Azerbaijan.

In 1993, both the independence and the territorial integrity of Azerbaijan as a state could be subject to a "vertical" and "horizontal" political division, perhaps speaking in a political sense. [2] In other words, the rights and responsibility could be divided between the governments of individual states and other international organizations. The great leader who said "I will give the rest of my life to my people" actually saved the state from foreign interference and internal strife. The great leader's state youth policy, state women's policy, state family policy, state children's policy as a whole is a school to be studied in the history of world political gender studies. [3, s.6]

According to the national leader: "Men should always look up to women, they should have special respect for women, they should treat women carefully... I have respected women all my life and I have invited our society, nation, and people to respect women."

In the philosophy of Heydar Aliyev, his views and opinions, most of the expressions of the great leader have gained the legal status of a wise saying. [4, s.3] His ideas, which we use today as a product of theoretical thinking, are the fruit of an inner talent in the philosophy of personality.

Today, our nation, the state of Azerbaijan founded by Heydar Aliyev, his bright carries his dreams and ideas towards the great future together with his most worthy and most reliable follower, the President of the Republic of Azerbaijan, Ilham Aliyev.

References

1. http://www.anl.az/down/meqale/ses/2014/aprel/364582.htm
2. https://525.az/news/123857-heyder-eliyev-ve-azerbaycanda-dovlet-quruculugunun-siyasi felsefesi
3. Fətəliyev A. Heydər Əliyev ziyası. Ədalət qəzeti,- 2009.- 9 may.- 6 s. http://anl.az/down/meqale/adalet/adalet_may2009/78441.htm2009
4. AZƏRTAC. Heydər Əliyev milli birliyimizin yaradıcısıdır.Azərbaycan qəzeti,-2009,12 iyun 3 s.
5. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyun2009/82443.htm

Aliyeva Mahsati Azad
Faculty of Education-1
Scientific supervisor: senior teacher
Rajabova Sudaba Shamsaddin
Azerbaijan University of Languages

A GENIUS WHOSE NAME IS WRITTEN FOREVER IN HISTORY

101 years have passed since the birth of the great leader Heydar Aliyev. Time brings a deeper meaning to the political views of the national leader Heydar Aliyev, it shows more clearly that he is connected to the present and future of our country by very strong strings. He dedicated his life to his native people. [1]

The people of Azerbaijan knew that they need a leader like Heydar Aliyev who can take control of the country in this difficult and crisis period. The great leader, who saw the meaning of his life in the

service of his people and state, during his leadership of our independent young republic, made Azerbaijan a country with great influence and voice in the international arena in a very short time. On September 20, 1994, oil contracts were signed, which was a turning point in the most recent history of Azerbaijan. This Agreement, which was later called the "Contract of the Century", created a reliable foundation for the future development and security of our country, and strengthened its position on the world map. [2] The work of the great leader was to create, to establish the ideal, and to serve the people. Because for Heydar Aliyev, who dedicated his whole life to the ideal of Azerbaijan, the restoration of territorial integrity and the liberation of Karabakh from the enemy was the most sacred act. It was his son Ilham Aliyev who carried out this act. Such foresight of the brilliant politician Heydar Aliyev stemmed from the confidence in the perspective of the political line defined by him for the strategic development of the country on the one hand, and on the other hand from the faith in the successors of this political course.[3] Time, as always, confirmed how right, wise and visionary Heydar Aliyev is. The intellectual potential, patriotism, and irrevocable will of Heydar Aliyev's political successor, Ilham Aliyev, made this great dream of our people a reality. There is no area of socio-economic and social-cultural life of modern Azerbaijan where the fundamental results of Heydar Aliyev's constructive activity are not clearly visible.[2] There is a saying that the enormity of historical figures begins to be seen more clearly with the passage of time. Because they fulfill the mission of ahead of time by determining the future of their nation with their visionary decisions. In this place, the historical speech of national leader Heydar Aliyev comes to mind. [1] "As much as it is difficult to gain independence, it is even more difficult to maintain it and make it last forever." His political successor Commander in Chief Ilham Aliyev Ilham Heydar oglu Aliyev continues this difficult and honorable mission with determination and dignity.

Bless your soul, GREAT LEADER! Your deed, wish, and will have been fulfilled.

References

1. https://www.qanunla.az/tarix-yazan-ve-adi-tarixe-ebedi-yazilan-dahi-sexsiyyet/
2. https://www.yeniazerbaycan.com/Siyaset_e16115_az.html
3. https://xalqqazeti.az/az/siyaset/152156-tarixi-zeferimiz-heyder-eliyev- siyasetinin

Alishli Gunay Ashraf
Faculty of Education-1
Scientific supervisor: senior teacher
Rajabova Sudaba Shamsaddin
Azerbaijan University of Languages

A UNIQUE LEADER OF AZERBAIJAN PEOPLE

Heydar Aliyev, who devoted his life to prosperity and well-being of his nation, holds a special place in the history of Azerbaijan. A talented politician and public figure Heydar Aliyev demonstrated his ability as a national leader and became a legend even when he was alive. Heydar Aliyev, who assumed the leadership of the country during the most difficult of times at the request of his nation, gave great confidence to the people and laid the foundation for a country with the strong economic development. He participated in the most complex historical processes in the world without losing his self-control in difficult situations. [1] He created a new milestone in the modern history of Azerbaijan. Heydar Aliyev was a unique leader, who gained the love and respect of millions of people through his bright ideas and genuine works [2].

He will remain with us eternally through his ideas and the works he fulfill for the future of Azerbaijan.

Considered as the greatest Azerbaijani politician, he was awarded a number of state orders and medals and international awards. He was also elected as honorable doctor of universities in many countries including the Lenin Order -four times- and Order of Red Star, he received orders and medals from foreign countries. He also received "Yaroslav Mudry" Order, the supreme order of Ukraine, "Peace Premium of Ataturk" Order, the high order of Turkey, and also the Honorable Professor of Moscow State University.

President Heydar Aliyev was elected professor and full member of the Academy of Safety, Defense and Legal Norms Problems of the Russian Federation.

Azerbaijani National leader Heydar Aliyev died on December 12, 2003, but the memory of the brilliant politician is still alive to this day.[3, s.8-9].

He will remain forever in the memory and hearts of the people as positive changes in their lives.

Every year, the people of Azerbaijan and all Azerbaijanis living around the world keep in memory his cherished. Heydar Aliyev lives and will live eternally because he has always been related with strong bonds with the people, which were the source of his strength and power. His immortal ideas and wise policy was successfully continued by President Ilham Aliyev.[4] Under this far sighted policy, Azerbaijan is rapidly developing and gaining more reputation in the world day by day.

References

1. AzərTAc Heydər Əliyev milli birliyimizin yaradıcısıdır. Azərbaycan.-2009.- 12 iyun.- 3 s. http://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyun2009/82443.htm
2. Novruzov T. Azadlığın Heydər Əliyev yolu. –Azərbaycan, -Səs qəzeti -2023, -18 fevral- 8-9 s. www.sesqazeti.azhttp://ek.anl.az/lib/item?id=chamo:836887&theme=e-kataloq
3. .https://www.azernews.az/nation/74581.html
4. 4.https://science.gov.az/az/news/open/26127

Шафиева Сабина Алигисмат г.
Научный руководитель - Каримова Айсель Гахраман г.
Азербайджанский Университет Языков

ГЕЙДАР АЛИЕВ -ОСНОВОПОЛОЖНИК СОВРЕМЕННОЙ АЗЕРБАЙДЖАНСКОЙ ИДЕОЛОГИИ

Анализ пути, пройденного Азербайджаном все эти годы, свидетельствует о том, что в тот период такую трудную, сложную и почетную миссию, как строительство государства, мог возглавить человек, обладающий твердой волей, широким и глобальным мировоззрением, пользующийся большой поддержкой народа и превратившийся в его национального лидера. Единственной личностью, способной в конце 90-х годов XX столетия возвыситься до уровня общенационального лидера в Азербайджане и справиться с этой работой, был именно Гейдар Алиев.

Важную часть теоретической и практической деятельности Гейдара Алиева составляют его учение о национальной государственности, национально-духовное и идейно-политическое мировоззрение. Исследование его богатого наследия в этой сфере достойно играть роль примера не только для нынешних общественно-политических кругов, но и для грядущих поколений, всех лидеров, которые будут руководить Азербайджаном [3]. Практическая деятельность и идейно-политические взгляды Гейдара Алиева сыграли огромную роль в возвращении азербайджанского народа, который на протяжении многих лет был лишен государственности и национально-духовных корней, национальные и государственные интересы которого были попраны, к своим истокам, его самоутверждении.

В государственном учении Гейдара Алиева нашли отражение понятие сильного государства и его экономические, политические, социальные и духовные основы со всеми атрибутами. Сильное государство, о котором думал Гейдар Алиев, требовало обладающей национальным единством системы с совершенным механизмом центрального и местного управления, стабильной общественно-политической жизнью, действующими законами, справедливым обществом, где люди ценятся и привлекаются к процессам в зависимости от способностей. [2].

Великий лидер не только осуществил концепцию создания независимого Азербайджанского государства, но и создал национальное учение – идеологию азербайджанства, объединяющую граждан Азербайджана, мобилизующую наш народ вокруг единой идеи, убеждений, целей и задач на международной арене. Во времена Гейдара Алиева создание национальной идеологии, объединяющей граждан Азербайджана вокруг единой идеи и цели, было поднято на уровень государ-

ственной политики, а также следует особо подчеркнуть тот факт, что как и в других сферах, он сохранил принцип преемственности Азербайджанской Демократической Республики и в формировании системы национально-идеологических взглядов и обратился к идеологии азербайджанства, выдвинутой ими в свое время как консолидирующей идеи [1, с. 86]. Гейдар Алиев отмечал, что национальная идеология должна быть связана с нашим историческим прошлым, обычаями и традициями нации, настоящим и будущим государства.

Придав идее азербайджанства совершенно новое содержание, Гейдар Алиев привел ее в соответствие с национально-этническими особенностями Азербайджана, велением времени и современными условиями в мире. Поэтому Гейдара Алиева можно считать основоположником современной идеологии азербайджанства – национального учения, учитывающего веление времени, основы государственности, национально-этнические условия.

Литература:

1. Алиев, М. Общенациональный лидер Гейдар Алиев и Азербайджанская модель Мультикультурализма / Dergipark, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı, 85 - 93, 26.08.2023
2. Гейдар Алиев и учение о национальной государственности – Азербайджанства // Гейдар Алиев и учение о национальной государственности - Азербайджанство - АЗЕРТАДЖ (azertag.az). 16.05.2018, (16:04)
3. Общенациональный лидер Гейдар Алиев - основоположник политической стабильности в Азербайджане // Общенациональный лидер Гейдар Алиев – основоположник политической стабильности в Азербайджане - АЗЕРТАДЖ (azertag.az). 03.09.2022, (17:46)

Bəhrəmov Emil Kamran oğlu
Fəlsəfə və ictimai elmlə kafedrasının
baş müəllimi Yusifova Kəmalə Xəlil qızı
9 iyul Universiteti, İzmir, Türkiyə

HAYDAR ALİYEV VE BAĞIMSIZ AZERBAYCAN'IN KÜLTÜR POLİTİKASI

Azerbaycan halkı insanlık tarihine güçlü kişilikler kazandırmıştır. Bu tür ender tarihi şahsiyetler arasında, büyüklüğü, tükenmez kararlılığı, derin felsefi ve analitik düşüncesi, ansiklopedik teorik ve pratik bilgisi, doğuştan yeteneği, dehası bilgeliği ve esnek olmayan, çelik siyasi iradesiyle öne çıkan, bağımsız Azerbaycan'ın kurucusu Haydar Aliyev'in özel bir yeri vardır.

Yıllar geçtikçe Azerbaycan halkının bu ölümsüz evladı, evrensel tarihin dehası, onun siyasi ve manevi örnek haline gelen onurlu yaşam tarzı, tarihi öneme sahip büyük hizmetleri, zamana direnen stratejik çizgisi, insanları, tüm insanlığı şaşırtmaya devam ediyor.

Baxımsızlığımızın ilk yıllarında birçok iç ve dış sorunun pençesinde olan cumhuriyet, son derece zor ve karmaşık bir devletleşme sürecinden geçmek zorunda kaldı. O yıllarda kültürde karışıklık, belirsizlik ve çeşitli olumsuz eğilimler yaşanıyordu. Bir yanda anarşi olarak anlaşılan özgürlük, diğer yanda iktidardaki profesyonel olmayanların kültüre çok tuhaf, hatta son derece basit ve naif yaklaşımı, örneğin Batı kültürünün, sanatının, değerlerinin ve eğitim bize tamamen yabancıdır ve gereksizliğinin ilan edilmesi bu alanın normal gelişimini engellemekte, modern Azerbaycan kültürünü genel toplumsal akıştan izole etmekte ve ona büyük bir darbe indirerek sağlıklı rekabet eğilimini azaltmaktadır. Genel olarak bu aşamada düşünülen kültür politikasının bulunmadığı söylenebilir.

Nihayet 1993 yılında halkın isteği üzerine büyük lider Haydar Aliyev'in ülkenin liderliğine dönmesiyle durum kökten değişti. O andan itibaren Azerbaycan'ın gelecekteki kalkınmasının stratejisi ve ana parametreleri belirlendi, kültür politikası da dahil olmak üzere devlet yaşamının tüm alanlarının modernleşme ve dönüşüm aşaması başladı [1].

Günümüzde yeni bir kültür politikasının oluşturulması, amaç ve ilkelerinin netleştirilmesi, çağın gereksinimlerinin karşılanması en önemli ve acil sorunlar arasında yer almaktadır. Bilimsel temelli bu politikanın bir sonucu olarak, kültürel gelişme, süreklilik, veraset, milliyet, özgünlük, Azerbaycan halkının eşsiz kültürel gen havuzunun korunması, açıklık ve demokrasi fikirleri teşvik edilmekte ve aktif olarak

uygulanmaktadır. Ulu önder Haydar Aliyev'in önderliğinde, modern dünya biliminde ve uygulamasında var olan birçok model arasından, kültürler diyaloğu modeli ülkemizde seçilip benimsenmiştir. Bu model, Azerbaycan'ın muhatap olarak küresel kültürel sürece katılımını esas almakta və cumhuriyetimizin en uygun sosyo-kültürel dinamiklerini destekleme fırsatı sunmaktadır.

1993-2003 yılları arasında yeni kültür politikası doğrultusunda devlet eliyle çok sayıda ve önemli çalışmalar yapıldı. Öncelikle kültür politikalarının uygulanmasının en temel araçlarından biri olan, dünya standartlarını ve ulusal özellikleri dikkate alan hukuksal açıdan mükemmel yasaların geliştirilmesine ciddi önem verilmiştir. "Kültür Hakkında", "Tarihi ve Kültürel Anıtların Korunması Hakkında", "Turizm Hakkında", "Yayıncılık Hakkında", "Müzeler Hakkında", "Arşiv Fonu Hakkında", "Mimari Faaliyetler Hakkında" kanunlar olmak üzere bir dizi kanun, a yani 2003 yılı da dahil olmak üzere 21 kanun Milli Meclis'te kabul edilmiş ve Cumhurbaşkanı tarafından onaylanmıştır. Eğitim ve sağlık sistemlerinde reformlar başlatılmış, bilim, edebiyat ve basında ideolojik sansür kaldırılmış, sporda büyük başarılar elde edilmiştir.

2003 yılından sonra Azerbaycan Cumhuriyeti Cumhurbaşkanı İlham Aliyev'in önderliğinde dahi Haydar Aliyev tarafından kurulan bu politika, çok başarılı bir şekilde sürdürülmüş ve çağın gereklerine uygun yeniliklerle zenginleştirilmiştir [2].

2004 yılından bu yana, Haydar Aliyev Vakfı başta olmak üzere sivil toplum kuruluşları, ülkenin kültürel yaşamının düzenlenmesi ve kültür politikasının etkin bir şekilde uygulanmasına yakından katılmıştır.

Büyük liderin siyasi ideolojisini yansıtmak, milli devletçilik fikirlerini ve Azerbaycanlılık ideolojisini sürekli olarak yeni nesillere aşılamak amacıyla oluşturulan vakıf Azerbaycan'ın sosyal ve kültürel yaşamında son derece büyük rol oynamıştır. Bu yıllarda amacına uygun, yoğun ve verimli faaliyeti ile ölçeği ve kalitesi itibariyle ülkemizde benzeri olmayan yeni bir kurum olduğunu açıkça kanıtlamıştır.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. http://shirvan-ih.gov.az/az/news/heyder-eliyev-ve-azerbaycan-inceseneti.html
2. http://www.anl.az/down/meqale/xalqqazeti/2014/may/369124.

Yusifova Leyli Rəşid qızı
Elmi rəhbər:Fəlsəfə və ictimai elmər kafedrasının
baş müəllimi Yusifova Kəmalə Xəlil qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ MƏDƏNİYYƏTİN İNTİBAHI

Böyük siyasi və dövlət xadimi, zəmanəmizin dahi şəxsiyyəti, müasir və demokratik Azərbaycan dövlətçiliyinin banisi, ümummilli lider Heydər Əliyevin çoxşaxəli fəaliyyəti və əldə etdiyi nailiyyətlər elmin bir neçə istiqaməti üzrə tədqiqat obyektidir.

Uğurlu islahatların əldə etdiyi nailiyyətlər, apardığı daxili və xarici siyasət sayəsində Azərbaycanın dünya birliyinə qoşulması, beynəlxalq əlaqələrin inkişafında, güclü dövlət quruculuğunda əldə etdiyi nailiyyətlər müasir dövlət siyasətində idarəetmənin elmi əsaslarını nəzəri cəhətdən müəyyən edir. Heydər Əliyev şəxsiyyətinin, fəaliyyətinin və irsinin dərin çoxşaxəli tədqiqi və təhlili səmərəli nəticələrlə müşayiət olunur. Bu nəticələr müasir Azərbaycan dövlətinin və cəmiyyətinin bugünkü və gələcək nailiyyətlərinin xeyrinə hesablanır, həm də inkişaf və əməkdaşlıq maraqlarının tələblərinə cavab verməyə xidmət edir.

İspan filosofu, yazıçısı və ictimai xadimi Migel de Unamuno deyirdi ki, "azadlığa aparan yeganə yol mədəniyyətdir". Uçuş azadlığını elan etməyə ehtiyac yoxdur - bizə qanad verin. İnsanlara mədəniyyət verin" [1].

Azadlıq yolunda Azərbaycan xalqına mədəniyyət "qanadlar"ını verən məhz Heydər Əliyev oldu! Azərbaycan mədəniyyətinin daha da inkişafı, onun yeni təzahür formalarına yiyələnməsi, məzmununun zənginləşməsi və nailiyyətləri sahəsində onun çoxşaxəli fəaliyyətidir. yüksəkliklər qlobal sivilizasiya modelləri təkcə müstəqil Azərbaycan dövlətçiliyinin təşəkkülü və inkişafı dövrünü əhatə etməyən əsl intibahı doğurdu.

Onun respublikaya rəhbərlik etdiyi dövrdə mədəniyyət sahəsinin bütün sahələri çiçəkləndi. Onun daimi diqqəti və yeni yaradıcılıq şedevrlərinin yaranması üçün ən əlverişli şəraitin yaradılması sayəsində

musiqi sənəti Qara Qarayevin, Fikrət Əmirovun, Niyazinin yeni möhtəşəm əsərləri ilə zənginləşmişdir. Müslüm Maqomayevin, Rəşid Beybutovun, Lütfiyar İmanovun, Zeynəb Xanlarovanın vokal yaradıcılığı görünməmiş ölçülərə çatdı. Həmin illərdə 10-dan çox mədəniyyət və incəsənət xadimi Sosialist Əməyi Qəhrəmanı fəxri adına layiq görüldü. Ən yaxşı rəssam və rejissorlar, müğənnilər və bəstəkarlar isə təkcə respublikanın deyil, həm də SSRİ-nin fəxri adlarını aldılar.

Milli mədəniyyətin yenidən dirçəlişi Heydər Əliyevin yeni müstəqil dövlətçilik quruculuğundakı titanik fəaliyyəti sayəsində tapdı və bu sahənin dinamik inkişafını təmin etdi.

1993-cü ildən müasir Azərbaycan dövlətçiliyinin formalaşması üçün kompleks mexanizm yaradan dahi rəhbər müstəqil Azərbaycanın çoxəsrlik ən dərin mədəni irsə və bu sahədə əldə edilmiş nailiyyətlərə əsaslanaraq yeni ideoloji doktrinasının formalaşdırılmasının zəruriliyini göstərdi [2].

Dövrümüzün görkəmli dövlət xadimi, Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə musiqi, təsviri sənət, xalçaçılıq, memarlıq sahələrində əldə olunan bütün nailiyyətlər Heydər Əliyevin mədəni quruculuq, onun dövlətçilik siyasətinin layiqli davamıdır.

Prezident İlham Əliyevin qlobal nüfuzu Azərbaycanın, onun parlaq paytaxtı Bakının beynəlxalq forumlar, idman yarışları, musiqi yarışmaları, foto və təsviri sənət sərgiləri, xalçaçılıq və memarlıq mərkəzinə çevrilməsinə öz töhfəsini verib.

XIX əsrin görkəmli ingilis şairi və mədəniyyət tənqidçisi Arnold Metyu bir vaxtlar etiraf edirdi ki, mədəniyyət eyfoniya və işıq istəyidir. O zaman Azərbaycan İntibahını doğuran dahi Heydər Əliyevin ideya və fəaliyyəti dünya tarixində eyfoniyanın və işığın ən parlaq təzahürlərindən biridir!

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. http://www.anl.az/down/meqale/bakrabochiy/2023/may/850014.htm
2. http://www.anl.az/down/meqale/xalqqazeti/2014/may/369124.htm

Гасанова Медина Ильхам
Научный руководитель: ст.преп. Ахмедова Гюльшан
Азербайджанский Университет Языков

ГЕЙДАР АЛИЕВ И АЗЕРБАЙДЖАНСКИЙ НАРОД

Гейдар Алиев был великим человеком, исторической личностью, такие люди появляются, возможно, раз в столетие и приходят в самое тяжелое время, именно тогда, когда в них особенно нуждаются. Народ не забывает своих лидеров и героев, чья жизнь была посвящена великому служению родине, стране, народу. На протяжении жизни Гейдар Алиев осуществлял деятельность руководителя государства, с его именем было связано решение практически всех проблем, реализация судьбоносных для страны идей. Гейдар Алиев играл важную роль в формировании и развитии Азербайджана как независимого государства. Его политика направлена была на укрепление государственности, экономическое развитие и поддержку национальной идентичности. Одним из ключевых аспектов его влияния была стабилизация политической ситуации в стране после развала СССР. Алиев провел реформы, направленные на укрепление внутренней стабильности и создание условий для экономического развития. Он также активно действовал на международной арене, укрепляя позиции Азербайджана на мировой арене.Гейдар Алиев, политический деятель, оказавший значительное воздействие на историю и развитие Азербайджана во второй половине XX века, является фигурой, на которую нельзя не обратить внимание при изучении политической и социальной динамики региона. Его лидерство, начавшееся еще в советскую эпоху, продолжалось и после развала СССР, когда он стал президентом республики в 1993 году. Гейдар Алиев стремился к укреплению государственности и экономическому развитию страны, придавая особое внимание национальным интересам и безопасности. Его политика внутри страны и на международной арене была направлена на укрепление позиций Азербайджана и защиту его интересов.Роль Гейдара Алиева в истории Азербайджана нельзя недооценивать. Его лидерство сыграло ключевую роль в формировании современного облика страны и оставило глубокий след в сознании азербайджанского народа.Гейдар Алиев оставался центральной фигурой в политической жизни страны и символом единства и стабильности для многих азербайджанцев.

Использованная литература:

1. azərtac.az; статья «ГЕЙДАР АЛИЕВ СДЕЛАЛ ДЛЯ СВОЕГО НАРОДА ВСЕ, ЧТО БЫЛО В ЕГО СИЛАХ, ТЕПЕРЬ ОЧЕРЕДЬ ЗА НАРОДОМ»; дата:18.12.2003
2. president.az

Nəbiyeva Günel Nəsimi qızı
Elmi rəhbər: fil.f.d., dosent Xuraman Əsgərova Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ GƏNCLİK

"*Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdü, həm də sabahıdır, ümididir"*
Ulu Öndər Heydər Əliyev [1]

Tarixən hər bir xalq özünün xoşbəxt gələcəyə olan ümidlərini ilk növbədə gənc nəslə bağlayır. Savadlı, geniş dünya görüşünə malik gənclərin yetişdirilməsi hər bir ölkə üçün başlıca bir məsələdir. Çünki ölkənin gələcəyi, müqəddəratı indiki gənclərdən asılı olacaq. Ölkənin hərtərəfli uğurlu inkişafına hər bir gənc öz töhfəsini verməlidir. Nəsillər dəyişir, ölkələr inkişaf edir ancaq ənənələr, milli dəyərlər yaşayır. Gənc nəslin vətənpərvərlik, Vətənə sevgi ruhunda tərbiyə olunması xalqın rifahının, ölkənin çiçəklənmə-

sinin rəhnidir. Bu gün iftixarla demək olar ki, müasir Azərbaycan gəncliyi milli-mənəvi dəyərlərini, doğma ana dilimizi, ata-babalardan qalan adət-ənənələrimizi göz bəbəyi kimi qoruyub yaşadır.

Məlum olduğu kimi, Azərbaycan bu gün ictimai həyatın müxtəlif sahələrində, makroiqtisadi səviyyədə sürətli inkişafa, yüksəlişə nail olan dövlətdir. Şübhəsiz ki, ölkənin ümumi inkişaf prosesindən əhalinin bütün təbəqələri ilə yanaşı, gənclər də geniş şəkildə bəhrələnirlər. Sirr deyil ki, ölkəmizdə uğurlu dövlət gənclər siyasətinin əsası xalqımızın Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər hər zaman gənclərə xüsusi qayğı ilə yanaşmış, gənclərin problemləri hər an Onun diqqət mərkəzində olmuş, yüksək intellektual səviyyəyə, müasir dünyagörüşünə malik gənc nəslin yetişməsinə olduqca böyük əhəmiyyət vermişdir. Ulu öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə böyük qayğısı təkcə müstəqillik illərində deyil, hələ Sovet dönəmində də aşkar müşahidə olunurdu. [2]

Belə ki, ötən əsrin 70-ci illərində məhz Ümummilli liderin təşəbbüsü və gərgin səyləri nəticəsində on beş mindən artıq azərbaycanlı gənc SSRİ-nin 170-dən çox təhsil müəssisəsində ali təhsil almışlar. Bu addım Azərbaycanda ən müxtəlif sahələr üzrə peşəkar kadr bazasının formalaşmasına xidmət etmişdir. Azərbaycan Respublikasının müstəqilliyinin ilk illərindəncə digər sahələrin inkişafı ilə yanaşı, gənclərin üzləşdikləri problemlərin həlli də Heydər Əliyev üçün prioritet təşkil etmişdir. Ölkənin siyasi həyatında heç də ürəkaçan hadisələrin baş vermədiyi bir vaxtda, 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması sübut edirdi ki, Ulu öndər ölkənin gələcəyini birbaşa gənclərin hərtərəfli inkişafı ilə bağlayırdı. [3]

Ulu öndər Heydər Əliyevin gənclər siyasəti 5 mühüm istiqaməti ehtiva edirdi. Milli-mənəvi dəyərlərimizin qorunmasında gənclərin rolunu artırmaq, gənc nəslin tarixi köklərimizə bağlı olaraq vətənpərvərlik ruhunda tərbiyələndirilməsini təmin etmək, gənclərin elmi, intellektual potensialının artırılması üçün ciddi təhsil və mədəni islahatlar həyata keçirmək, gənclərin təşkilatlanmasını təmin etməklə, onları müstəqilliyimizin keşiyində vahid qüvvə kimi birləşməyə səfərbər etmək, gənclərin dövlət idarəçiliyində rolunu əhəmiyyətli dərəcədə artırmaq və onların məsuliyyət hissini formalaşdırmaq, Azərbaycan dövlətinin beynəlxalq aləmə inteqrasiyasının yaratdığı imkanlardan gənclərin maksimum səviyyədə yararlanmasına möhkəm əsaslar yaratmaq ümummilli liderin müəyyən etdiyi strateji hədəflər olub.

Ümummilli Liderimiz həmişə gənclərimizə böyük ümidlər bəsləyir, dəfələrlə qeyd edirdi ki, Azərbaycanın gələcəyi gənclərin əlindədir. Həyatı boyu, respublikaya rəhbərliyinin bütün dövrlərində Ulu Öndər sağlam, normal gəncliyin, bu dövlətə sahib dura biləcək bir nəslin yetişməsinə xidmət edirdi. Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin əsas tərkib hissələrindən biri hesab edir, imkan və bacarıqlarını yüksək qiymətləndirir, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verir, bu siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biri kimi dəyərləndirirdi. [4]

Ədəbiyyat siyahısı:

1. H. Əliyev 100. Sitatlar və kəlamlar. Bakı, 2023 2. https://modern.az/news/10912/gencler-bizim-sabahimizdir/
2. https://sesqazeti.az/news/politics/1056080.html
3. https://www.yeniazerbaycan.com/Siyaset_e17345_az.html

Təhsil 1 fakültəsi, Kərimova Fatimə Emil qızı
Elmi rəhbər: fil.f.d., dos. Pirnəzərova Gülənbər
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI

Tarix uzaqlaşdıqca biz Heydər Əliyev dühasının əzəmətini, onun şəxsiyyətinin böyüklüyünü daha aydın dərk edirik. Əslində bu qeyri-adi şəxsiyyət hər zaman bizim əhatəmizdədir. Çünki Ulu Öndərin layiqli davamçısı prezidentimiz İlham Əliyev Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanı məhz onun miras qoyduğu dövlətçilik prinsipləri ilə idarə edir, onun imkan tapıb həyata keçirə bilmədiyi idealları tarixə çevirir. Heydər Əliyevin miras qoyduğu sərvətlər içərisində onun zəngin nəzəri irsi xüsusi yer tutur. Onun irsi bizim milli sərvətimizdir. Bu qiymətli irsin mühüm bir hissəsini onun mədəniyyət, ədəbiyyat və incəsənətin müxtəlif növ və janrları haqqında nəzəri konsepsiyaları müəyyənləşdirir.

Heydər Əliyev Azərbaycan xalqının misilsiz sərvəti olan klassik irsə, ümumən bədii ədəbiyyata xüsusi önəm verirdi. Onun bir fikri bütövlükdə ədəbiyyata, zəngin söz sənətimizə münasibəti üçün epiqraf "Bu gün ümumiyyətlə, müstəqillikdən danışarkən ədəbiyyatımızın xalqımız üçün nə qədər zəngin sərvət olduğunu qeyd etmək lazımdır. Bizim ədəbiyyatımız, mədəniyyətimiz xalqımızın milli sərvətidir və intellektual mülkiyyətidir. Bizim ədəbiyyatımızın xalqımıza etdiyi ən böyük xidmət ondan ibarətdir ki, şairlərimiz, yazıçılarımız öz əsərləri ilə Azərbaycanda, xalqımızda, millətimizdə daim milli hissiyyatları oyatmağa çalışmışlar. Milli özünüdərk, milli oyanış, dirçəliş prosesi xaıqımıza birinci növbədə ədəbiyyatdan keçir." Bu fikir olduqca doğrudur. Dünyanın böyük yazıçılarından biri, nəhəng türk ədibi Çingiz Aytmatov "Heydər Əliyev tarixi, hətta əfsanəvi şəxsiyyətdir" deyirdi. Bu həqiqətən belədir. O, dünyanın qədim, böyük türk eposu "Kitabi–Dədə Qorqud"un 1300 illiyini bütün dünyada keçirməklə həm dastanın ilk növbədə Azərbaycan hadisəsi olduğunu sübut etdi, həm də Sovet rejiminin pərən-pərən saldığı dünya türklərini bu dastan ətrafında bir yerə toplamaqla türk birliyi yaratmağa nail oldu. Heydər Əliyev hamıdan yaxşı bilirdi ki, türkləri birləşdirmək üçün onları ortaq məxrəcə gətirən ideyanı ortaya qoymaq lazımdır. Məhz onun müdrikliyi, böyük uzaqgörənliyi sayəsində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin 500 illiyi bütün dünyada qeyd olundu. 2 noyabr 1994-cü ildə 80-dən artıq millətin nümayəndəsi iştirak edən Türkiyə Böyük Millət Məclisindəki çıxışında H.Əliyev demişdir: "Füzuli keçmişdə də türkləri birləşdirən bir şəxsiyyət olmuşdur. Amma indi türk dünyası XX əsrdə parçalanmış olduğu bir halda, türk dünyasına mənsub ölkələrin, demək olar ki, tam əksəriyyətinin (bir Türkiyədən savayı) onların həyatına, tarixinə, adət-ənənəsinə uyğun olmayan rejimlər içərisində yaşadığı vaxtda Füzuli bizi yaşadaraq bu günlərə gətirib çıxarmışdır." Böyük romantik şair və filosof H.Cavidin nəşinin uzaq Sibirdən gətirib doğma Naxçıvanda torpağa qovuşdurması, Cavidlər məqbərəsinin tikilməsi, Bakıda böyük hürufi şair İmadəddin Nəsimiyə, romantik şair Hüseyn Cavidə, Nəriman Nərimanova, Cəfər Cabbarlıya möhtəşəm heykəllər qoydurması Heydər Əliyevin Azərbaycan klassik ədəbiyyatına qayğısının böyük təzahürü idi.

Azərbaycanın milli-mənəvi və əxlaqi dəyərlərinin ümumbəşəri ideyalarla zənginləşdirilməsində onun misilsiz xidmətləri olmuşdur. O, Azərbaycan xalqının qəhrəmanlıqlarla dolu tarixi keçmişinə, zəngin mənəvi dəyərlərinə, maddi-mənəvi irsinə, incəsənətinə qayğı ilə yanaşmışdır. Heydər Əliyev Azərbaycan mədəniyyətinin hamisi olmuşdur. O, xalqın mənəviyyatını zənginləşdirən, onu bütün dünyada tanıdan milli mədəniyyətimizin hərtərəfli inkişafını, yüksəlişini daim izləmiş, ona ən ümdə vəzifəsi kimi baxmışdır. Heydər Əliyev deyirdi:

"Ədəbiyyatımızın, incəsənətimizin, mədəniyyətimizin ən böyük və fərqləndirici xüsusiyyətlərindən biri də odur ki, zaman-zaman istedadlı insanlar mədəniyyətimizdə yeni yollar, yeni cığırlar açırlar, yeni formalar meydana gətirirlər."

"Azərbaycanı sevmək – Azərbaycançılıq hissiyyatını özündə cəm etmək deməkdir".

Ədəbiyyat

1. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heyd%C9%99r-%C9%99liyev-v%C9%99-%C9%99d%C9%99biyyatimiz/ [1]
2. https://serqqapisi.gov.az/xeberler/heyder-eliyevin-hikmetli-kelamlari-azad-ve-musteqil-azerbaycan-ideyasinin-tercumani-kimi-1 [2]
3. Heydər Əliyev Sitatlar və Kəlamlar- Sitate und Sprüche [3]

Bakirli Fidan Natiq
Associate-professor Shukurova Farida Shahlar
Azerbaijan University of Languages

ADVANTAGES OF KNOWING A FOREIGN LANGUAGE

In today's globalized world, being able to speak a foreign language has become more important than ever before. With jobs expanding across borders and international travel becoming more accessible, the ability to communicate with people from different cultures and backgrounds has become a key skill for success. There are numerous advantages of knowing foreign languages:

Firstly, a person's ability to multi-task is developed. Multilingual people, especially children, are skilled at switching between two systems of speech, writing and structure. According to a study from the Pennsylvania State University, this ''juggling'' skill makes them good multitaskers, because they can

easily switch between different structures. In one study, participants used a driving simulator while doing separate, distracting tasks at the same time. The research found that people who spoke more than one language make fewer errors in their driving. [2. par.7]

Secondly, memory is improved. Educators often liken the brain to a muscle, because it functions better with exercise. Learning a new language involves memorizing rules and vocabulary, which helps strengthen that mental ‘’muscle.’’ This exercise improves overall memory, which means that multiple language speakers are better at remembering lists or sequences. Studies show that bilinguals are better at retaining shopping lists, names and directions. [2. par.8]

Thirdly, the mind becomes keener. A study conducted in Spain showed that polyglots, or multilingual people, have alert and keen minds. They easily spot anything that is irrelevant or deceptive. The study was conducted comparing multilingual and monolingual people. The result was that the discipline that they developed in studying an unknown subject has molded them to become more perceptive. Thus, they learn to be critical-thinkers. [3. p.5]

Also, knowing a foreign language can give people a competitive edge in the job market. Many companies are looking for candidates who can communicate with clients or partners from different countries, and having a foreign language on his or her own resume can set him or her apart from other candidates.

Learning a foreign language goes beyond just communicating with others. It can also help us understand the culture and history of the country where the language is spoken. This can lead to a greater appreciation and respect for other cultures, which is critical in today's diverse workplace. By understanding the nuances of a different culture, we can avoid cultural misunderstandings and work more effectively with colleagues from different backgrounds. This can also help us to adapt more easily to new environments when traveling or working abroad. In addition, learning a new language can provide a sense of accomplishment and boost our confidence. This can help us to take on new challenges and achieve our goals, both personally and professionally. [1. par. 6]

In conclusion, learning a foreign language has become a critical skill in today's globalized world. It can improve communication, increase career opportunities, promote cultural understanding, and even enhance cognitive function. If we are a professional looking to advance our career or simply want to broaden our horizons, we should consider learning a new language. It may be one of the best investments we can make in ourselves.

References:

1. https://www.linkedin.com/pulse/importance-foreign-languages-kabilan-m
2. https://www.scribd.com/document/187204859/Why-Learn-a-Foreign-Language
3. https://www.scribd.com/presentation/297628632/The-Advantages-of-Learning-a-Foreign-Language
4. https://studycorgi.com/benefits-of-knowing-a-foreign-language/

Məmmədzadə Sara Anar qızı
Elmi rəhbər: Baş Müəllim Məmmədova Sevinc
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ MUSİQİ SƏNƏTİ

Ulu Öndər Heydər Əliyevin birinci hakimiyyəti illərində, məhz bu böyük şəxsiyyətin qayğısı nəticəsində milli ideyaların təcəssümü olan dünya şöhrətli sənət əsərləri yarandı.1982-ci ilin may ayında Q. Qarayevin dəfn mərasimində çıxış edən Heydər Əliyev deyirdi: "Qara Qarayevin əsərləri Azərbaycan xalqının qədim musiqi mədəniyyətinin bütün zənginliyini özündə təcəssüm etdirir". O, daha sonra deyirdi: "Qara Qarayev Azərbaycan xalqının zəngin tarixinə neçə-neçə ilhamlı səhifələr həsr etmişdir".[1]

Heydər Əliyev tanınmış isdedadlı bəstəkar, böyük gələcəyinə inandığı Arif Məlikova qayğı göstərir, onun "Məhəbbət əfsanəsi" baletini Azərbaycan xalqının milli musiqisini dünyaya tanıdan şah əsərlərdən biri hesab edirdi.[1]

Heydər Əliyev Azərbaycan musiqisinin dünya miqyasında tanıdılması yönündə böyük işlər görürdü. Onun hakimiyyəti illərində Azərbaycan mədəniyyəti ölkə sərhədlərini sürətlə aşaraq dünya miqyasına daha geniş çıxırdı. Buna dair yüzlərlə misal göstərmək olar. 1973-cü ilin payızında SSRİ xalq artisti Rəşid Behbudovun rəhbərliyi altında Mahnı Teatrı Latın Amerikası ölkələrində uğurla konsertlər verdi.[1]

Heydər Əliyevin xidmətləri nəticəsində Azərbaycan mədəniyyəti, sözün həqiqi mənasında, yüksəliş dövrü keçdi. Dahi şəxsiyyət bütün sahələrlə bərabər musiqi sahəsinədə xüsusi diqqət və qayğı ilə yanaşırdı. Çünki xalq musiqimiz Azərbaycan mədəniyyətinin, tarixinin, əsasını təşkil edir. [2]

Xalqımız Azərbaycana dünya şöhrəti qazandıran istedatlı musiqiçiləri ilə haqlı olaraq fəxr etmiş, edir və edəcəkdir.Məhz buna görədə ulu öndər həmişə bəstəkarlara, ifaçılara, musiqişünaslara qayğı və hörmətlə yanaşmış, onlar ilə tez-tez görüşlər təşkil etmiş və əməklərini daima yüksək qiymətləndirmişdir. Ümummilli lider Azərbaycan musiqisinin dünya arenasına çıxması üçün böyük işlər görürdü. Onun sərəncamı ilə Azərbaycan musiqisinin inkişafında böyük xidmətləri olan şəxsiyyətlərə Prezident təqaüdü verilmiş, onların bir çoxu isə dövlətin ən yüksək orden və mükafatları ilə təltif olunmuşdular. O, Azərbaycan musiqi mədəniyyətinin böyük yaradıcıları olan dünya şöhrətli bəstəkarlar Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov, Niyazi, Arif Məlikov, məşhur müğənnilər Rəşid Behbudov, Müslüm Maqomayev, Şövkət Ələkbərova, Zeynəb Xanlarova və başqalarının sənətinə yüksək qiymət vermişdir.[2]

Azərbaycan Milli Konservatoriyası da Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 2000-ci il 13 iyun tarixli qərarı və şəxsi təşəbbüsü ilə təsis edilmişdir. Ulu öndərin sevərək dinlədiyi musiqilər içərisində Tofiq Quliyevin mahnılarını da xüsusilə qeyd etmək istərdik. Heydər Əliyevin bəstəkarın 80 illik yubiley gecəsində etdiyi çıxışı onun Tofiq Quliyev musiqisinə olan sevgisini əks etdirir.[2]

Heydər Əliyev bəstəkarlarla görüşlərində hər zaman deyirdi: "Mahnı janrı gözəldir, duyumludur, lakin mən istərdim ki, bizim bəstəkarlar irihəcmli əsərlər, operalar, baletlər yazsınlar və dünyada təbliğ olunsunlar".[3]

Ulu öndərin mahnı janrına xüsusi rəğbətinin olduğunun dəfələrlə şahidi olmuşuq. "Mən şeirə də, mahnıya da hissiyyatlı adamam" – deyən Heydər Əliyevin hələ illər öncə sənət adamları ilə görüşlərində mahnı janrı haqqında önəmli fikir və düşüncələri var idi.[4]

Ulu öndərimizin sözlərini burada xatırlamaq yerinə düşər: "Musiqini hər yerdə dinləyirlər, kəndli də, fəhlə də, zehni əmək adamı da, təqaüdçü də, uşaq da dinləyir, yaşından asılı olmayaraq hamı dinləyir. Buna görə də insanların şüurunun yüksəlməsinə musiqinin təsirini artırmaq, mənəvi, estetik tərbiyə problemlərinin həllinə onun təsirini gücləndirmək, musiqinin geniş kütlələrə emosional təsirini qüvvətləndirmək sizin borcunuzdur. Bu, böyük və eyni zamanda çox nəcib bir vəzifədir. Biz əmin olmaq istəyirik ki, ayrılıqda hər bir bəstəkar və birlikdə hamınız bütün yaradıcılıq fəaliyyətinizlə Azərbaycan musiqisini daha da inkişaf etdirməyə çalışacaqsınız".[4]

Ədəbiyyat siyahısı:

1. https://sesqazeti.az/news/mia/215300.html
2. http://konservatoriya.az/?p=3885
3. https://www.medeniyyet.az/page/news/68000/Heyder-Eliyev-ve-musiqi medeniyyeti.html
4. https://turktoday.info/az/heyd%C9%99r-%C9%99liyev

Əhmədova Fidan Akif qızı
Elmi rəhbər:Baş Müəllim Məmmədova Sevinc Razim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ RƏSSAMLIQ SƏNƏTİ

Milli mədəniyyətimizin, incəsənətimizin bir çox sahələri Ulu öndər Heydər Əliyevin həm sovet Azərbaycanına, həm də müstəqil respublikamıza rəhbərliyi dövründə onun xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu sadəcə bir siyasi rəhbər, respublikanın başçısı tərəfindən deyil, eyni zamanda mədəni irsə, incəsənət tarixinə, nəzəriyyəsinə yaxından bələd olan, əsl sənətkarlığı dərindən duyan, dəyərləndirən, yüksək estetik zövqü, təhlil bacarığı və obyektiv mülahizələri ilə diqqət çəkən sənət bilicisi tərəfindən göstərilən diqqət və qayğı idi [2]. Məhz buna görə Heydər Əliyevin sənət adamları ilə görüşlərdə, incəsənətlə bağlı müxtəlif toplantılarda çıxışları hər zaman peşəkar səviyyədə olurdu. Həmin çıxışlarda sənətə və sənətkarlığa obyektiv qiymət də vardı, əsaslı tənqid və təhlil də vardı, dəyərli tövsiyələr də. Bu baxımdan Heydər Əliyevin 1982-ci il oktyabrın 13-də, Azərbaycan rəssamlarının IX qurultayından sonra Rəssamlar İttifaqı İdarə heyətinin üzvləri, tanınmış təsviri sənət ustaları ilə görüşdə geniş nitq söyləməsi incəsənət tariximiz üçün tarixi hadisə idi. Onu da qeyd edək ki, bu, Heydər Əliyevin Moskvaya – SSRİ rəhbərliyində yüksək vəzifəyə getməzdən öncə respublikanın başçısı, Azərbaycan KP MK-nın Birinci katibi kimi Bakıda rəssamlarla

sonuncu geniş görüşü idi. Onun respublikada rəssamlığın inkişafı, yaradıcılıq məsələləri ilə bağlı söylədiyi fikir və tövsiyələr sonradan yaradıcılıq təşkilatının, təsviri sənət ustalarının fəaliyyətində nə dərəcədə əksini tapdı – bu ayrı bir yazının mövzusudur. Amma birmənalı şəkildə deyə bilərik ki, 41 il əvvəl deyilənlərin əksəriyyəti bu gün aktualdır. Həmin nitqdən kiçik bir hissəni – o dövr üçün mütləq olan siyasi-ideoloji ritorikanı – çıxarsaq, o, əslində, indiyə, müasir Azərbaycan rəssamlığına da xitab edilən bir nitqdir.

Azərbaycan rəssamlarının IX qurultayı öz işini müvəffəqiyyətlə başa çatdırmışdır. Mən bu hadisə münasibətilə sizi təbrik etmək, yeni yaradıcılıq müvəffəqiyyətləri arzulamaq istərdim. İttifaqınızın yaşı az deyildir, Azərbaycan rəssamlarının indiyədək doqquz qurultayı keçirilmişdir. İttifaq böyük və yekdil kollektivə çevrilmişdir.[2]

M.Dadaşov Heydər Əliyevlə bağlı xatirələrini bölüşərkən bildirirdi ki, Ulu Öndər həqiqətən də unikal bir insan idi. Onun bilmədiyi, məlumatı olmadığı bir sahə yox idi. Eləcə də incəsənəti gözəl bilirdi. Heydər Əliyevin sənət adamlarına verdiyi dəyər, onlara münasibəti hər zaman yüksək səviyyədə olub. Ömər Eldarovun sözlərinə görə, Heydər Əliyevin nəslində də rəssamlar olub. Onun böyük qardaşı Hüseyn Əliyev Azərbaycanın məşhur xalq rəssamı olub. Heydər Əliyevin qardaşı oğlu Rasim Əliyev də uzun illər Bakının baş memarı idi.[3]. "Bir dəfə mənə demişdi ki, Naxçıvanda orta məktəbdə oxuyarkən rəsm çəkməyi xoşlayırdı. Öz rəsmlərini mənə göstərmişdi. Bu, o zaman rəssamlıq öyrənməyən gənc oğlan üçün çox yaxşı şəkillər idi. Onun rəssam olmaq arzusu var idi. 1939-cu ildə Heydər Əliyev Bakıda Azərbaycan Sənaye İnstitutunun memarlıq fakültəsinə daxil oldu. Amma müharibə ona təhsilini başa vurmağa imkan verməyib. Müharibə onun planlarını yarıda qoyub" [3].

Heydər Əliyev yaradıcı adamların Azərbaycan incəsənətinə verdiyi bədii töhfələri dəyərləndirməyi də önəmli hesab edirdi. Onun ölkəyə rəhbərlik etdiyi uzun müddətdə yüzlərlə fırça və tişə ustası fəxri adların daşıyıcısı olmuş, onlarla yaradıcı isə dövlət mükafatına layiq görülmüşdür. Sənətkarların milli mədəniyyətimizin inkişafı naminə göstərdiyi xidmətlər də Heydər Əliyevin nəzərindən qaçmamış və onların xatirəsi layiqincə əbədiləşdirilmişdir. Bu gün Bakının və digər yaşayış məntəqələrinin küçələri Məhəmməd, Ə.Əzimzadə, S.Bəhlulzadə, K.Kazımzadə, T.Şıxəliyev, S.Salamzadə və b. sənətkarların adını daşıyır. Onların yaşadıqları binaları xatirə lövhələri bəzəyir. Paytaxtda və Əmircan qəsəbəsində Ə.Əzimzadə və Bəhlulzadənin abidlərinin ucaldılması və ev-muzeylərinin təşkili də bu görkəmli sənətkarların xatirəsinə hörmətin nümunəsidir [1].

Ədəbiyyat siyahısı:

1. Mədəniyyət qəzeti -9 may- 2009- S.6 Ziyadxan Əliyev
2. https://medeniyyet.az/page/news/67713/Heyder-Eliyev-ressamlara-neleri-tovsiye-etmisdi.html?lang=az
3. https://sputnik.az/amp/20231212/heyder-eliyevle-bagli-xos-xatireler-resm-cekmeyi-gozel-yumoru-ve-unikal-yanasmasi-vardi-437163951.html

Nuriyeva Sevinc
Filologiya fakültəsi, 441 qrup
Elmi rəhbər: Gözəlova Tahirə, baş müəllim
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK İDEALARI VƏ MÜASİR DÖVR

Milli azadlığa nail olmaq üçün milli oyanış, milli dirçəliş,
milli ruhun canlanması lazımdır.
Heydər Əliyev

Tarix boyu böyük ədəbiyyat həmişə dünyanın qüdrətli dövlət xadimlərinin həyatında və siyasi fəaliyyətində mühüm yer tutmuşdur. Dövlət xadimlərindən bir çoxu dünya ədəbiyyatının ən fəal mütaliəçisi kimi fərqlənmişlər. Belə siyasi rəhbərlər hətta bədii ədəbiyyata dair bilik və informasiyaları ilə ziyalı mühitini heyrətləndirmişlər. Başqa qrup dövlət başçıları şeir həvəskarları olmuş, rəğbət bəslədikləri şairlərin əsərlərini ən ciddi məclislərdə əzbər söyləmişlər. Hətta tarixdə şeir yazan, dramatik əsərlərini teatrlara təqdim edən rəhbərlər də olmuşdur. Az da olsa ədəbiyyatdan, yazıçıdan uzaqda dayanan, bu sahəyə rəğbəti olmadığını gizlədə bilməyən ölkə başçıları haqqında da məlumatlar mövcuddur. Bütün bunlarla bərabər ədəbiyyatı dövlət siyasətinin üzvi tərkib hissəsi səviyyəsində qəbul edən, bu tükənməz xəzinədən milli siyasətin həyata keçirilməsində bacarıqla və yaradıcı şəkildə faydalanan dövlət xadimləri də olmuşdur.

Görkəmli dövlət xadimi Heydər Əliyevin taleyində və siyasi fəaliyyətində ədəbiyyat faktorunun yeri, rolu və imkanları çox geniş anlayış olub, yuxarıda sadalanan prinsiplərin bir çoxunu özündə cəmləşdirir. Hər şeydən əvvəl onu qeyd etmək lazımdır ki, Heydər Əliyev dünyada geniş və sistemli ədəbiyyat biliyinə malik olan nadir dövlət xadimlərindəndir. Hələ gənclik illərindən etibarən qeyri-adi mütaliə qabiliyyəti ilə fərqlənən, hətta cavan yaşlarında tamaşalarda peşəkar teatr xadimləri ilə yanaşı cəsarətlə səhnəyə çıxan Heydər Əliyevin dünyabaxışının formalaşmasında ədəbiyyat amili xüsusi yer tutmuşdur. Bu tarixi şəxsiyyət bədii ədəbiyyatın şəxsi taleyindəki böyük rolunu özü də etiraf etmişdir. O, 1997-ci ildə, müstəqillik dövründə keçirilən Azərbaycan yazıçılarının onuncu qurultayındakı nitqində bu həqiqəti aşağıdakı kimi etiraf etmişdir: "Şəxsən mən ədəbiyyatı çox sevən adamam və gənc vaxtlarımdan, hətta uşaqlıqdan, məktəbdə ilk ədəbiyyat nümunələrini oxuyandan ədəbiyyatı sevmişəm... mənim bir insan kimi formalaşmağımda, təhsilimdə, əxlaqımda, mənəviyyatımda ədəbiyyatın, mədəniyyətin çox böyük rolu olmuşdur. Mən orta məktəbdə oxuyarkən Azərbaycan şairlərinin, yazıçılarının bütün əsərlərini sevə-sevə oxumuşdum... O illərdə, o uşaqlıq və gənclik illərində onlar mənə o qədər təsir edib ki, mən onları unutmamışam. Bu "oxumuşam, unutmamışam" sözləri sadəcə bir fikir deyil. Yəni onlar mənə təsir edib, mən onlardan bəhrələnmişəm, mənəvi qida almışam".

Heydər Əliyevin geniş həcmə malik olan şeirləri, poemalardan böyük parçaları, dramlarda əsas obrazların sözlərini əzbər bilməsi və bütün bunları uzun illər yaddaşında qoruyub saxlaması onun hərtərəfli inkişaf etmiş şəxsiyyət kimi qeyri-adi üstünlüyünün əsas göstəricilərindən biri idi. Siyasi-tarixi baxımdan möhtəşəm xəzinə kimi qabarıq şəkildə diqqəti cəlb edən Heydər Əliyevin bənzərsiz ədəbiyyat yaddaşına malik olması onun görkəmli dövlət xadimi obrazını əlavə cizgilərlə tamamlamış və zənginləşdirmişdir. Heydər Əliyev təkcə geniş və mükəmməl ədəbiyyat biliyi ilə deyil, həm də fenomenal ədəbiyyat yaddaşı ilə nəinki diqqəti cəlb etmiş, hətta çox hallarda ətrafındakıları heyrətləndirmiş və təəccübləndirmişdir.

Əlbəttə, görkəmli dövlət xadimi Heydər Əliyevin də xüsusi rəğbət bəslədiyi yazıçı və şairlər, ayrıca fərqləndirdiyi, üstünlük verdiyi bədii əsərlər olmuşdur. Bu məqamda dövlət xadimliyi çərçivəsində onun şəxsi ədəbi zövqü və maraqları da ifadə olunur. Böyük siyasi xadim dram əsərləri içərisində Cəlil Məmmədquluzadənin "Ölülər" tragikomediyasına, şairlərdən xalq şairi Səməd Vurğunun "Azərbaycan"ına, poema baxımından Məhəmmədhüseyn Şəhriyarın "Heydərbabaya salam" poemasına, milli mətbuat sarıdan "Molla Nəsrəddin" jurnalına, opera üzrə Üzeyir Hacıbəyovun "Koroğlu"suna, mənzum faciələrdən Hüseyn Cavidin "İblis" əsərinə... ayrıca önəm verdiyini və ədəbi nümunələri xüsusilə fərqləndirdiyini nəzərə çarpdırmışdır. Hətta belə məqamlarda da Heydər Əliyevin bədii ədəbiyyata münasibətdə şəxsi maraqları ilə dövlətçilik düşüncəsinin üst-üstə düşdüyü, bir-birini tamamladığı aşkar müşahidə olunur.

Bütövlükdə isə Heydər Əliyev ədəbiyyata xalqın milli-tarixi varlığının, mənəviyyatının üzvi tərkib hissəsi kimi baxmış, mənsub olduğu xalqı ədəbiyyatı ilə bir yerdə bütöv bir tamın ayrılmaz hissəsi kimi dəyərləndirmişdir. Yəni Heydər Əliyevin ədəbiyyat sevgisi Vətən və xalq sevgisinin əsas göstəricilərindən, zəruri amillərindən birini təşkil edir. Görkəmli dövlət xadimi hələ 1972-ci ildə Azərbaycan yazıçılarının beşinci qurultayındakı tarixi nitqində məsələnin bu cəhətini ön mövqeyə çəkərək demişdi: "Azərbaycan ədəbiyyatı həmişə öz xalqının həyatının ön sıralarında irəliləmişdir. Bu ədəbiyyat xalqımızın qəhrəmanlıq tarixini ədəbiləşdirib bizə çatdırmış, bizim qarşımızda bütün əzəməti ilə açmışdır".

Ədəbiyyat:

1. https://dergipark.org.tr/en/download/article-file/3363927
2. https://www.researchgate.net/publication/375927577_Heydr_liyevin_Mustqil_Dovltcilik_Ideallari_v_Muasir_Dovr

Hasanquliyeva Cəmilə İbadət qızı
Alman dili, Təhsil 1 fakultəsi, I kurs, qrup 114
Elmi rəhbər: B/m Sevinc Razim qızı Məmmədova
Azərbaycan Dillər Universiteti

ALMANİYADA VƏ AZƏRBAYCANDA ADƏT-ƏNƏNƏLƏR, ONLARIN OXŞAR VƏ FƏRQLİ CƏHƏTLƏRİ

Hər xalqın özünəməxsus müəyyən adət-ənənələri və davranış tərzi vardır. Adət və ənənələr əxlaqın ümumi prinsiplərinə uyğun olaraq yaranır və formalaşır. Adət və ənənələr məhz əxlaqın ümumi prinsip-

ləri əsasında formalaşdığı üçün qanun təsiri bağışlayır [1, s.244]. Almaniyada çoxlu sayda müşahidə olunan bayramlar vardır ki, bu bayramlar ölkənin hər bir şəhərində qeyd olunur. Bunlardan "Qələbə günü", "Milad bayramı", "Alman birliyi günü", "Martin günü", "Pasxa bayramı" – "Ostern" hüquqi, qanuni ictimai bayramlar sırasına daxildir və hər il qeyd olunur. Azərbaycanda isə "Novruz", "Yeni il", "Qurban bayramı", "Respublika günü" və s. qeyd edilir.

Pasxa el arasında həm də Qızıl yumurta bayramı kimi tanınan xristian festival və bayramıdır. Pasxa bayramında Almaniyada ən məşhur ənənələrdən biri Pasxa fəvvarələrini bəzəməkdir. Burada fəvvarələr və bulaqlar rəngli Pasxa yumurtaları, çiçəklərlə bəzədilir. Bir çox yerlərdə qeyd olunan başqa bir adət Pasxa tonqalının yandırılmasıdır. Xüsusilə Şimali Almaniyada bu çox məşhurdur və tez-tez bütün kənd icmaları tərəfindən təşkil edilir. Pasxa gəzintisi bir çox alman üçün Pasxa həftəsonunun ayrılmaz hissəsidir [2].

Azərbaycanda adətə görə Novruz bayramında göyərdilən səməni yazın gəlməsinin, əkinçiliyin rəmzidir. Tədqiqatçıların araşdırmalarına görə, Su çərşənbəsi Yalançı çərşənbə, Əzəl çərşənbə də deyirlər. Adət olaraqsa qızlar bulaqlardan sərin, şirin su gətirərdilər, evin ətrafına çiləyərdilər, üzlərini yuyardılar. Od çərşənbəsi xalq arasında Xəbərçi çərşənbə adlanır. Od çərşənbəsində tonqallar qalayır, xonçalar bəzəyirdilər. Üçüncü çərşənbə yel çərşənbəsidir. Yel çərşənbəsi Azərbaycanın bir sıra bölgələrində günümüzdə də.

Ölü çərşənbəsi kimi qeyd olunur. Həmin gün insanlar yaxınlarının məzarlarını ziyarət edər, qəbirləri qışın palçığınpdan təmizləyərdilər. Torpaq çərşənbəsi sonuncudur. Yaşlı qadınlar "Səməni, saxla məni, ildə göyərdərəm səni" deyib buğda isladardılar. Bir çox regionlarda İlaxır çərşənbənin təntənəsi Novruzu belə üstələyir. Tonqallar çatılır, od üstündən tullanılır, evlərə torba atırlar. Axır çərşənbədə evlərdə şam yandırılır, xonça düzəldilir [3].

Bu iki fərqli xalqa, millətə məxsus olan bayramları qarşılaşdırdıqda onların bir çox oxşar və fərqli cəhətlərinə rast gəlinir. Novruz bayramı martın 21-də, Pasxa bayramı isə aprel ayının ilk həftəsinə təsadüf edir. Lakin onların hər ikisi biri xristian, digəri isə müsəlman aləmində yeni ilin başlanması günü kimi qeyd olunur, hər iki bayramın rəmzi kimi yumurta bəzədilməsi, müxtəlif növ şirniyyatların hazırlanması ilə bilinir. Digər oxşar cəhət isə artıq hər iki bayramın öz dini əhəmiyyətini itirməsidir. Yəni onlar artıq bayram deyil, xalqların adət-ənənələrinə uyğunlaşdırılan, onlara bir növ müsbət təsir göstərən bir el şənliyidirlər. Beləliklə, Almaniya və Azərbaycan tamamilə ayrı qitələrdə yerləşir. Lakin buna baxmayaraq xalqlarımızın adət-ənənələri və bayramları arasında çoxlu sayda oxşar və fərqli cəhətləri var.

Ədəbiyyat siyahısı:

1. İlqar Hüseynov, Azərbaycan milli adət-ənənələrinin bədii-estetik mahiyyəti, Bakı Mars-Print, 2002,305 səh
2. https://az.wikipedia.org/wiki/Pasxa#cite_ref-6
3. https://az.wikipedia.org/wiki/Novruz_bayram%C4%B1

Гулиева Рена Зохраб
Научный руководитель: преп. Агагасымов Руфат Рафиг
Азербайджанский Университет Языков

АНАЛИЗ ПОЛОЖЕНИЙ И ЗНАЧЕНИЯ КОДЕКСА 100 СТАТЕЙ (ЗАВЕЩАНИЕ ИЭЯСУ ТОКУГАВА)

На современном этапе истории Японии является одной из ведущих стран мира. Большинство экспертов, справедливо считают, что возвышение Японии началось с периода реставрации Мэйдзи 1868 года. Однако сами японцы началом нового времени указывают создание сёгуната Токугава. Первый сёгун династии Токугава Иэясу Токугава смог объединить страну и подчинить её центральной властью. Своими преобразованиями Иэясу Токугава создал базис для будущего успеха страны. В этом контексте достаточную значимость приобретает политическое завещание Иэясу Токугава (так называемый «Кодекс 100 статей»).

1. Фактически состоящий из 101 статьи Кодекс предлагал различные законы и советы по управлению страной. Основной целью документа было стремление укрепить существующую власть рода Токугава. Для этого Иэясу Токугава закреплял необходимость чёткого подчинения младших старшим. Этот принцип был перенят у конфуцианства. Согласно конфуцианскому прин-

ципу «сяо» (сыновней почтительности) младший всегда должен подчиняться старшему. Причём старшинство определялось не только возрастом, но и занимаемыми должностью или общественным положением. Статья 14 Кодекса чётко гласит «недопустимо, чтобы низшие пренебрегали теми, кто выше их» [3, с. 14]. Более того убийство родителя, наставника или господина считалось наитягчайшим преступлением. Это преступление согласно статье 34 Кодекса также должно было получить самое строгое наказание, а именно убийство всех родственников до десятой степени родства [3, с. 21]. Иэясу Токугава также предостерегал своих потомков от того, чтобы они попадали под влияние близких или родных жены и наложниц (статья 22) [3, с. 18].

2. При этом сам документ представлял собой особняк консерватизма, стремящийся закрепить существующие порядки. Так, статья 13 запрещала вносить в Кодекс изменения даже в случае наличия ошибок [3, с. 14].

3. Несмотря на это, Кодекс также вводил ряд прогрессивных мер, нацеленные на развитие страны. Статья 10 требовала, чтобы все граждане знали и выполняли существующие в стране законы [1, с. 116]. В 68 статье Кодекса Иэясу Токугава признаёт, что несмотря на древность японской цивилизации Япония «по культуре и наукам уступает иным краям». В связи с этим необходимо «устроив надлежащим образом школы, тем самым нужно и должно прославить расцвет страны и правящего дома» [3, с. 29]. Надо сказать, что в последнем вопросе сёгунат достиг большого успеха. К началу XIX века в стране действовало почти 11 тысяч храмовых школ (тэракоя). В этих школах даже дети из простых семей могли научиться писать, читать и основам арифметики. В результате в стране существенно вырос уровень образованных граждан, которые смогли осуществить рывок периода Мэйдзи.

Вывод. Кодекс Иэясу Токугава является консервативным документом, основной целью которого является укрепление существовавшего в стране в тот период строя. При этом ряд его положений создали предпосылки для модернизации страны в эпоху Мэйдзи.

Список использованной литературы

1. Агафонова Н. Особенности уголовно-правовой системы Японии XVII в. – второй половины XIX вв. // Вестник Московской международной Академии: Москва, № 2, 2021, с. 114-130.
2. История Японии. Т. 1: с древнейших времён до 1868 года. Москва: Институт Востоковедения РАН, 1998, 659 с.
3. Филиппов А. «Стостатейные установления Токугава» 1616 г. и «Кодекс из ста статей» 1742 г.: Право, общество и идеология Японии первой половины эпохи Эдо. Санкт-Петербург: Издательство Санкт-Петербургского университета, 1998, 186 с.

Quluzadə Elmar Faiq oğlu
Elmi rəhbər: Prof. Şəfəq Hüseyn Abdullayeva qızı
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCANIN NEFT SƏNAYESİNİN İNKİŞAFINDA DÖNÜM NÖQTƏSİ: ƏSRİN MÜQAVİLƏSİ

1994-cü il sentyabrın 20-də Gülüstan sarayında Xəzər dənizinin Azərbaycan sektorundakı “Azəri”, “Çıraq”, “Günəşli” yataqlarının dərin su laylarında neftin birgə istismarı haqqında “məhsulun pay bölgüsü” adlı saziş imzalanmışdır. Tarixi, siyasi və beynəlxalq əhəmiyyətinə görə “Əsrin müqaviləsi” kimi tanınan bu müqavilə təxminən 400 səhifə həcmində dörd dildə yazılmışdır. Müqavilə 8 ölkədən (Azərbaycan, ABŞ, İngiltərə, Rusiya, Türkiyə, Norveç, Yaponiya və Səudiyyə Ərəbistanı) 13 ən məşhur neft şirkətini (Amoko, BP, McDermott, Yunokal, SOCAR, LUKoil, Statoil, Exxon, Türkiyə Petrolları) əhatə edir [1]. 2017-ci il sentyabrın 14-də Bakıda yerləşən Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan hissəsində əsas neft yataqları kompleksi olan “Azəri”, “Çıraq” və “Günəşli” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasilatına dair razılaşmaya əlavə və dəyişikliklər edilir. Sazişə edilən yeni əlavələrə görə “Azəri-Çıraq-Günəşli” neft yatağının birgə işlənməsi 2050-ci ilə qədər uzadılır. Yeni sazişdə xarici investorların Azərbaycana 3,6 milyard dollar bonus ödəməsi və “SOCAR”-ın səhmlərinin 11,6 faizdən 25 faizə yüksəldilməsi nəzərdə tutulur. Neftdən Azərbaycana gəlir marjasının 75 faiz olacağı

təxmin edilir. Bu müqavilə ilə Azərbaycanda neft sənayesinin inkişafında yeni mərhələnin əsası qoyuldu [2]. "Əsrin müqaviləsi" ilə müstəqilliyini möhkəmləndirməklə Azərbaycan bütün dünya dövlətlərinə sərvətlərinə tam nəzarət etdiyini göstərdi. Təsadüfi deyil ki, Azərbaycanda bu müqavilənin imzalanma mərasimində ulu öndər Heydər Əliyev çıxış edərək demişdir: "Belə bir addım atmaqla biz dünyaya sübut etdik ki, Azərbaycan qlobal iqtisadiyyata açıq bir ölkədir. Bu müqaviləni imzalamaqla biz Azərbaycanı bir daha dünyaya tanıtmış oluruq". "Azərbaycan yarandığı gündən tam müstəqildir, xalqımızın öz resursları var. Biz dünyanın ən böyük şirkətləri arasında əlaqələr qururuq. Bu müqaviləni imzalamaqla biz xarici investisiyalar üçün Azərbaycanda böyük yol açmış oluruq." [3].

İstifadə edilmiş ədəbiyyat

1. Əsrin müqaviləsi : [Elektron resurs] / URL: https://azerbaijan.az/related-information/132
2. Contract of the Century, 2020: [Electronic resource] / URL: https://minenergy.gov.az/en/neft/esrin-muqavilesi
3. The contract of the century – a national strategy for success: [Electronic resource] / URL: https://www.bp.com/en_az/azerbaijan/home/who-we-are/operationsprojects/acg2/the-contract-of-the-century---a-national-strategy-for-success.html

Abbasov Ləzim Sarvan
Elmi rəhbər: Lalə Xanseyidova Seyidağa
Azərbaycan Dillər Ubiversiteti

1918-Cİ İL BAKI MART HADİSƏLƏRİ

Giriş

Çar Rusiyasının Cənubi Qafqazda zəifləməsi ilə regiondakı sükut yerini böyük anarxiyaya verdi. Ardınca tez-tez dəyişən hökumətlər və qurumların xalqda və regionda iqtidar sahibi olmaması, fikir ayrılığı və milli qarşıdurmanın nəticəsi olaraq mart hadisələri baş Verdi.

Rusiya 1917-ci il Oktyabrda baş vermiş silahlı çevrilişdən sonra bolşeviklər iqtidarı ələ keçirdikdən sonra müharibədən geri çəkildi. Bu hadisə ilə Cənubi Qafqazda da ciddi bir siyasi boşluq yarandı. Vəziyyətdən istifadə edən Bakı bolşevikləri müstəqilliklərini elan etdilər və 31 oktyabr 1917-ci ildə Stepan Şaumyanın rəhbərliyi ilə Bakı Xalq Komissarları Sovetini qurduqlarını elan etdilər. Kommuna rus və erməni üzvlərdən ibarət idi. Çünki XIX əsrin sonlarından etibarən Bakı mühüm bir sənaye mərkəzinə çevrilmiş, köçlər nəticəsində şəhərdə fəhlə sayı çoxalmışdı. Bununla əlaqədar olaraq sosialist hərəkatın əsas mərkəzlərindən biri halına gətirmişdi. [2. s.39]. Rusiya Bakıya olduqca dəyər verir və onun siyasi, iqtisadi önəmini anlayırdı. Buna görə də Şaumyana yüksək səviyyədə dəstək verilirdi. Bundan əlavə, almanlarda Bakının bolşeviklərdə qalması tərəfdarı idi. Alman hökuməti və bolşeviklər arasında bağlanan müqavilə də bunu təsdiq edirdi.Şaumyanın planına görə isə siyasətdən uzaq qalan Azərbaycan xalqının ictimai və siyasi rəyini formalaşdırmaq üçün sinifi mübarizə fonunda milli qarşıdurmadan istifadə edəcəkdi. O bununla həm də Müsavatın silahlanma prosesinin qarşısını almaq istəyirdi.Onlar anlayırdılar ki, "Müsavat'ın siyasi nüfuzunun milli hissələrin simasında real hərbi güclə möhkəmləndirilməsi, partiyanın Azərbaycanda tam hökmranlığına gətirib çıxara bilər. Bu baxımdan tamamilə təbiidir ki, "Müsavat"ın mövqeləri gücləndikcə, onun Bakı Soveti ilə münasibətləri daha da gərginləşirdi[1.S.213;].Hər iki tərəf hər şeyin fərqində idi. Ancaq Müsavat baş verəcək silahlı qarşıdurma üçün hazır deyildi. Bunun əksinə bolşeviklər hazır idi və onlar üçün kiçik bir bəhanə lazım idi. Məhz bu bəhanə Hacı Zeynalabdinin oğlunun dəfnindən dərhal sonra, dəfndə iştirak etmək üçün gələn Müsəlman alayının tərki-silah edilməsi xalqda böyük bir çaxnaşmaya səbəb oldu. Günlərlə davam edən atışmalarda bolşevik-daşnak erməni silahlı dəstələri Bakıda analoqu olmayan faciələr törətdilər. O gün Bakıda minlərlə insan günahsiz yerə qətllə yetirildi. Bir çox önəmli yerlər yandırıldı, talan edildi, dağıdıldı. Şəhər iflic vəziyyətə düşmüşdü. Hadisələrdən dərhal sonra Bakı Soveti F. Xoyskinin başçılıq etdiyi şəhər Dumasının buraxılması haqqında qərar qəbul etdi və bununla Bakıda bolşeviklərə müxalif mövqedə duran sonuncu qurum da ləğv edilmiş oldu.[1.,s230] Şaumyan mart hadisələri törədəndə düşünürdü ki, Bolşevik şəhərdəki rəğbəti artacaq ancaq bunun tam əksinə bolşeviklərin Azərbaycan əhalisi arasındakı cüzi nüfuzunu belə birdəfəlik sarsıdaraq, "Müsavat"ın başçılıq etdiyi milli qüvvələrin sosial bazasını xeyli genişləndirmiş oldu. Bu hadisələrin azərbaycalılar üçün digər müsbət tərəfi isə, Azərbaycan milli hərəkatı daxilində konsolidasiya proseslərinin güclənməsi oldu.

Yekun

Milli qarşıdurmaların nəticəsi olaraq mart hadisələri baş verdi. İrəvan, Gəncə, Bakı, Qubada dünya daha bir örnəyinə rastlamadığımız faciələrə şahid olduq. Bunların ardınca hökumətlər istefaya getməsi, fikir ayrılıqlarının artması ilə müstəqil dövlət fikri siyasi xadimlərimizdə və xalqda mənimsəndi.

İstifadə olunan ədəbiyyat:

1. 1.Aydin Balayev "Azərbaycan Cümhuriyyətinin Doğuşu" JekoPrint Çap evi 2022
2. 2.Abdülhamid Avşar " Kafkaz Islam Ordusu" ÇAPAR 2023
3. 3."Nəriman Nərimanovun əsərləri" ŞƏRQ-QƏRB nəşriyyat 2005
4. 4.Vaqif Şirinoğlu" Cənubi Qafqazın ictimai-iqtisadi və siyasi vəziyyətinin
5. öyrənilməsində Zaqafqaziya seyminin sənədləri" 2022. FÜYUZAT Nəşriyyat
6. 5.Mirzə Bala Məmmədzadə "Milli Azərbaycan Hərəkatı" 2018. MGT Nəşriyyat

Muxtarova Fatimə Namiq qızı
fil.f.d., dosent Xuraman Əsgərova Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ QAÇQINLAR

“Ulu öndər Heydər Əliyev qaçqın və məcburi köçkünlərin əsl himayədarı idi”.
Heydər Əliyev

Azərbaycan Respublikası müstəqillik yolunda inamla addımlayır. Müstəqilliyimizin möhkəmləndirilməsində, ölkəmizin günü-gündən inkişaf etməsində ulu öndər Heydər Əliyevin böyük xidmətləri olmuşdur. Azərbaycanı dağılmaq təhlükəsindən məhz ulu öndərin hakimiyyətə gəlişi xilas etdi. Ümummilli liderin ən böyük xidmətlərindən biri bundan ibarət oldu ki, Azərbaycanda qanlı müharibəni dayandırdı, 1994-cü ildə atəşkəs elan olundu. Azərbaycan “azad nəfəs” aldı.

Ölkədə quruculuq işlərinə başlanılması üçün imkanlar yarandı. Elə həmin il dünyanın iri neft şirkətlərinin iştirakı ilə “əsrin müqaviləsi” imzalandı. Bakı-Tbilisi-Ceyhan kəmərinin çəkilişi ölkəmizin ilk uğurlu iqtisadi nailiyyəti oldu. Azərbaycanımız dünyada tanınmağa başladı, çox uğurlu xarici siyasət nəticəsində Azərbaycan nüfuzlu beynəlxalq təşkilatların üzvü oldu. Aparılan davamlı islahatlar Azərbaycanda iqtisadi sabitlik yaradılmasına imkan verdi, sosial sahələrdə islahatlara başlanıldı.

Ancaq torpaqlarımızın 20 faizinin işğalı, bir milyondan çox qaçqın və məcburi köçkünün problemləri hələ də öz həllini gözləyirdi. Heydər Əliyev hakimiyyətə gəldiyi ilk vaxtlardan bu problemlərlə ciddi məşğul olurdu. Beynəlxalq aləmdə Ermənistanın təcavüzkar dövlət kimi tanıdılması, BMT-nin işğal olunmuş Azərbaycan torpaqlarının azad edilməsi ilə bağlı qətnamələrinə əməl olunması, qaçqınların sosial problemlərinin həlli və s. istiqamətlərdə davamlı siyasət həyata keçirən ümummilli lider bunu özünün bir nömrəli problemi adlandırırdı.

Qaçqın və məcburi köçkünlərin sosial problemləri Heydər Əliyevi daim narahat edirdi. Ulu öndər dəfələrlə çadır şəhərciklərində olmuş, qaçqın və məcburi köçkünlərin yaşayış şəraiti ilə tanış olmuşdu. Onun bu şəhərciklərə hər gəlişi əsl bayram olardı. Heydər Əliyevin hakimiyyəti illərində qaçqın və məcburi köçkünlər beynəlxalq humanitar yardım alır, onların məişət şəraitinin yaxşılaşdırılması üçün dövlət səviyyəsində tədbirlər həyata keçirilirdi. Çıxışlarının birində ulu öndər demişdi: “Bu insanların məskunlaşdıqları yerlərdə yaşamaları, əmək fəaliyyəti ilə məşğul olmaları üçün bütün imkanlardan istifadə edirik. Biz əlimizdən gələni edirik ki, sizin yaşayışınız müəyyən qədər normal olsun. Amma aydındır ki, yerini, yurdunu itirmiş insanların yaşayışı çətindir. Bu, sizi də, bizi də incidir”. Göründüyü kimi, bu dahi şəxsiyyət insanların ağrılarını dərindən duyur, onların xilası yollarını axtarırdı. Heydər Əliyev işğal altında olan torpaqların azad edilməsi üçün bütün imkanlardan istifadə edirdi.

Azərbaycanlı qaçqın və məcburi köçkünlər ölkənin, demək olar ki, əksər bölgələrində məskunlaşmışlar. Bu cür məskunlaşma onların idarə edilməsində də problemlər yaradırdı. Ancaq məcburi köçkünlərin bu problemləri də tədricən həll olunmaqdadır. Ulu öndərinsiyasi kursunun uğurlu davamçısı möhtərəm Prezidentimiz İlham Əliyev hakimiyyətdəolduğu illərdə bu problemə xüsusi önəm vermiş, bir neçə dövlət proqramı imzalamışdır. 2004-cü il iyulun 1-də möhtərəm Prezidentimizin imzaladığı “Qaçqın və

məcburiköçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" 2005-2007-ci illəri əhatə edirdi. O, reallaşandan sonra, 2007-ci il oktyabrın 31-də həmin proqrama əlavələr edilməsi ilə bağlı cənab Prezidentin xüsusi sərəncamı oldu. Fəxrlə deyə bilərik ki, möhtərəm Prezidentimizin səyi nəticəsində artıq Azərbaycanda birçadır şəhərciyi belə qalmamışdır. İndi onların yerində gözəl, yaraşıqlı, hər cür rahatlığı olanyeni qəsəbələr salınmışdır. Yaxın gələcəkdə isə böyük şəhərlərdə məskunlaşan qaçqın vəməcburi köçkünlər də yeni yaşayış mənzilləri ilə təmin olunacaqlar. Doğrudan da, Heydər Əliyevin qaçqın və məcburi köçkünlərə göstərdiyi qayğı bu gün Prezidentimiz tərəfindəndavam etdirilir, onların yaşayış şəraiti, məşğulluğu getdikcə yaxşılaşdırılır. MöhtərəmPrezidentimizin apardığı uğurlu xarici siyasət onu deməyə əsas verir ki, yaxın gələcəkdətorpaqlarımız işğaldan azad ediləcək və doğma yurdlarından didərgin düşmüş insanlar özyerlərinə qayıdacaqlar.

Mən Bakının Nizami rayonunda məskunlaşmış qaçqın və məcburi köçkünlərin işi üzrə rayon şöbəsinə rəhbərlik edirəm. Bu rayonda müvəqqəti məskunlaşmış insanlar demək olar ki, dövlətimizin hər cür qayğısı ilə əhatə olunmuşlar.

Prezidentimizin qaçqın və məcburi köçkünlərinin həyat şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması ilə bağlı imzaladığı dövlət proqramının həyata keçirilməsində Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Əli Həsənov və Nizami Rayon İcra Hakimiyyətinin başçısı Mehbalı Əliyevin xüsusi xidmətləri olmuşdur. Bu vaxta kimi rayonumuzda məskunlaşan insanların elə problemləri olmamışdır ki, rayonun rəhbərliyi onları operativ surətdə həll etməsin. Demək olar ki, icra başçısı hər gün bizim problemlərimizlə maraqlanır, lazım olan köməkliyi göstərir. Ən əsası budur ki, Mehbalı müəllim verdiyi tapşırıqlara özü nəzarət edir. Tez-tez qaçqınların məskunlaşdıqları yerlərdə olur.

Nizami rayonu ərazisində 7988 qaçqın və məcburi köçkün, o cümlədən müvəqqəti qeydiyyatda olan 13104 nəfər, qeydiyyatda olmayan xeyli sayda məcburi köçkün məskunlaşmışdır. Ərazisi işğal olunmuş 11 rayondan olan bu insanların 1853 nəfəri ictimai binalarda, 4971 nəfəri təhsil müəssisələrində, 60 nəfəri sanatoriyalarda, 211 nəfəri qohum evində, 2263 nəfəri tikintisi yarımçıq qalmış binalarda məskunlaşmışdır.

Respublikamızın hər yerində olduğu kimi, Nizami rayonu ərazisində də müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkünlərin problemləri ilə bağlı xeyli iş görülmüşdür. Təkcə 2008-ci ildə 201 ailədə 1038 nəfərin yeni ödəniş əsasında kommunal xərcləri (su, işıq, qaz, kanalizasiya, rabitə və s.) ödənilmişdir. Ümumilikdə isə 14500 nəfər məcburi köçkünün kommunal xərcləri dövlət tərəfindən verilir. 450 nəfər məcburi köçkünün müraciətinə baxılaraq onların ərizələri Dövlət Qaçqınkoma təqdim edilməklə onlara status vəsiqəsi verilmişdir.

Müxtəlif problemlərlə bağlı respublikanın əlaqədar təşkilatlarına ünvanlanmış 60 ərizəyə cavab verilmişdir. Şöbəyə müraciət edən məcburi köçkünlərdən 186 nəfər qeydiyyatdan çıxarılmışdır. Yeni doğulmuş və yeni ailə quranlar bütövlükdə qeydiyyata götürülmüşdür. Ərizə ilə müraciət edən xeyli məcburi köçkünün hər nəfərinə 20 manat olmaqla yardım edilmişdir.

Xocalının anım günü 32 Xocalı ailəsinə "Xudafərin" şadlıq sarayında süfrə açılıraq onlara ərzaq yardımı edilmişdir. Humanitar təşkilatlar da bu insanlara vaxtaşırı öz köməkliklərini göstərmişlər. Məsələn, "UMCOR" təşkilatı 150 nəfərə pulsuz dərman paylamışdır. Nəsimi küçəsi, 14 ünvanında yerləşən yataqxanada məskunlaşmış məcburi köçkünlərə əl dəsmalı və sabun paylanmışdır. 124 saylı Şuşa seçki dairəsində işıqlanma sistemi təmir edilmişdir.

Hasanova Fatima Kamran
Elmi rəhbər: Ph.D., Ibadli Vasila Alif
Azərbaycan Dillər Universiteti

GENDER EQUALİTY AND CULTURAL POLİCY: HAYDAR ALİYEV'S EFFORTS IN PROMOTİNG WOMEN IN AZERBAİJANİ CULTURE

In my research, a topic of gender equality and cultural policy was explored, focusing on national leader Heydar Aliyev's efforts to promote women in Azerbaijani culture, recognizing his significant role in the fate of the Azerbaijani people. This thesis aims to assess the effectiveness and importance of these endeavors. Aliyev's initiatives in cultural policy have played a pivotal role in the development of Azerbaijan as an independent state.

Before delving into Heydar Aliyev's policies, it is essential to examine the concepts of gender equality and cultural policy. Gender considerations are pertinent both in the broader definition of culture as a 'social construction' and in the formulation and implementation of cultural policies. Cultural rights are human rights, applicable to both women and men. Throughout all spheres of culture, human rights are fundamental for fostering cultural diversity and nurturing human creativity. The right to freely participate in the cultural life of the community, to appreciate the arts, and to partake in scientific progress and its benefits is enshrined in the Universal Declaration of Human Rights, adopted by the United Nations General Assembly in 1948 [2].

To fully comprehend the relationship between gender and culture, it is necessary to understand gender schema theory. Introduced by psychologist Sandra Bem in 1981, gender schema theory posits that children acquire knowledge about male and female roles from their cultural environment. According to this theory, children adjust their behavior to conform to the gender norms prevalent in their culture from an early stage of social development. Gender schema theory suggests that our perceptions of gender are shaped by the cultures in which we live. This theory has significantly contributed to our understanding of how gender expectations are socially and culturally constructed, informing research on discrimination, stereotyping, marginalized populations, and mental health [3].

Understanding how gender schemas are formed can provide insight into how beliefs influence behavior and interactions with the world. Gender schemas not only affect how people process information but also influence attitudes and beliefs that guide "gender-appropriate" behavior. For instance, in a traditional culture, a child may believe that a woman's role is in childcare, while a man's role is in employment and industry, thereby determining a person's value and potential within that culture. Conversely, in a more progressive culture, a girl may pursue a career, choose not to have children, or opt not to marry [1,p 289].

This knowledge underscores the impact of perceptions of women and their roles in society, both globally and in Azerbaijan. Throughout history and literature, Azerbaijani women have been depicted with remarkable courage and intelligence. Women have been portrayed wielding swords, fighting alongside men, and making wise decisions for the future of the country. One notable figure is Sara Khatun, the first female diplomat in Azerbaijani history.

References:

1. Multikulturalizmə giriş, Ali məktəblər üçün dərslik, Bakı-2019
2. “Gender Schema Theory and Roles in Culture”, https://www.verywellmind.com/what-is-gender-schema-theory-2795205
3. “Relevance of gender in the policy area”, https://eige.europa.eu/gender-mainstreaming/policy-areas/culture#:~:text=Gender%20equality%20is%20a%20key,freedom%20of%20expression%20for%20all%22

Məmmədli Günay Telman
Elmi rəhbər: b/m.Ağayeva Xəyalə Rafael
Aərbaycan Dillər Universiteti

BOLQARISTANDA TURİZMİN İNKİŞAFI

Bolqarıstan turizmi ölkə iqtisadiyyatının əsas sahələrindən biridir. Bolqarıstanda hər cür turizm yaxşı inkişaf edib: istirahət, idman, mədəniyyət və s. Ölkəyə əsasən Rumınya, Yunanıstan, Ukrayna, AFR, Rusiya, Makedoniya və Serbiyadan daha çox turist gəlir.

Bolqarıstanın bütün şərq sərhəddi Qara dənizdən (394 km) keçir və bu hissə Aralıq dənizindən (38%) və dünya okeanından (35%) müqayisədə daha az şorandır (18%). Duzlu dəniz suyu (tərkibində xlor və yod var) və günəş şüası güclü antiseptik təsir göstərir. Həmçinin dəniz kənarı hava ağciyər xəstəliklərinin müalicəsində çox effektlidir [1, s.46].

Bolqarıstan çimərlikləri bütün Qara dəniz sahillərindən 200 km sahəsini tutur. “Bolqarıstanın Qara dəniz sahili haqqında” qanuna əsasən çimərliklər yalnız Bolqarıstan Respublikasının dövlət mülkiyyətidir və bütün vətəndaşlar dəniz sahəsinə pulsuz və sərbəst giriş hüququna malikdirlər. Bolqarıstanın paytaxtı

və ən böyük şəhəri Sofiya, Avropanın ən uçuz paytaxtlarındandır. Bununla yanaşı yaxındakı dağ-xizək kurortu və balneoloji müalicə mərkəzlərinə görə hər il minlərlə turisti özünə cəlb edir Şəhər orta əsrlərə aid kilsə və qəsrləri, parkları, muzeyləri ilə də turistlər arasında məşhurdur.

Ölkə ərazisində turizmin inkişafına təsir edən məqamlardan biri də, burada Xüsusi Qorunan Təbiət Ərazilərinin (XQTƏ) saynının çox olmasıdır. 1977-ci ildən UNESCO-nun İnsan və Biosfer (MAB) Proqramı çərçivəsində Təbiət Qoruğu statusnu almış Bistrişko Branişte qoruğu buna bariz nümunədir. Mərkəzi Balkan Milli Parkı turistlərin, təbiəti sevərlərin və alimlərin sevimli məkanıdır. Park Rodop qarışıq meşələr zonasında yerləşir [3, s.32]. Ərazidə çoxlu nadir bitki və heyvan növləri mövcuddur.

Bolqarıstanın cənub-şərqi Qara dəniz sahilindəki liman şəhəri Burqasdan cənubda yerləşən Poda, Qara dəniz və üç böyük göl – Vaya gölü, Mandra gölü və Atanasovsko gölü ilə əhatə olunmuşdur. Poda ilə qorunan ərazi ilə yanaşı, Burqaz gölləri adlanan böyük bir bataqlıq ərazisini meydana gətirirlər [2, s.174]. Şərqi Avropa köçəri yolundan istifadə edən köçəri quşların çoxu üçün Via Pontika istirahət stansiyası olaraq bioloji əhəmiyyətli bir sahədir.

Ölkəyə gələn turistlərin ən çox ziyarət etdikləri yerlərdən biri Boyana kilsəsidir. Kilsə Sofiyanın 8 km. cənubunda, Vitoşa dağının ətəyində yerləşir. Plovdiv Sofiyadan sonra 2-ci ən böyük şəhəridir. 2014-cü ildə Plovdiv Avropanın mədəniyyət paytaxtı seçilmişdir.

Qızılqum – Bolqarıstan Qara dəniz sahilində kurortdur. Varna mərkəzindən on səkkiz kilometr şimal-şərqdə milli parkın ərazisində yerləşir. Kurort kimi 1957-ci ildən fəaliyyətə başlamışdır[2, s.169]. Dəniz iqlimi, günəşin ultrabənövşəyi şüalanma, dəniz suyu, duzları və mikroelementlər, müalicəvi palçıq və otlar müxtəlif növ zəngin təbii amillər müalicəsi üçün istifadə olunur. Qızılqumda çox saylı istirahət, otel, qonaq evləri, əyləncə mərkəzləri var.

Bolqarıstanın turizm potensialı onu göstərir ki, turizmin inkişafı sahəsində qarşıya qoyulan əsas məqsədlər kifayət qədər genişdir- turizm ehtiyatlarının öyrənilməsi, genişləndirilməsi, turistlərin tələbatının ödənilməsi üçün zəruri xidmətlərin təşkili və müasir standartlara uyğunlaşdırılması, sanatoriya-kurort imkanlarının genişləndirilməsi, mehmanxanaların və digər turizm obyektlərinin sayının artırılması, turizm marşrutlarının çoxaldılması və s.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Dimitrov, P. M., Kraseta, R. Bulgarian tourism and the problem of poverty alleviation in Bulgaria. .Tourism & Management Studies, 2018
2. Ramazan Özey-Balkanlar və Balkan ülkeleri coğrafyası. Pegen Akademi, Ankara 2022
3. S.İvanov. “Tourism Management and Planning in Bulgaria”, SSRN Electronic Journal,2020

Həsənli Könül İsmayıl qızı
fil.f .d., dosent Əsgərova Xuraman Səlim qızı
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri

HEYDƏR ƏLİYEVİN NEFT STRATEGİYASI

“Neft strategiyası Azərbaycanın işıqlı gələcəyidir”.
Heydər Əliyev

XX əsrin son otuz ili Azərbaycanın siyasi tarixində önəmli yer tutur. Ən əsası ona görə ki, bu dövrdə Azərbaycana dünya şöhrətli siyasi xadim, dölət idarəçiliyində zəngin təcrübəyə malik fenomenal şəxsiyyət Heydə Əliyev rəhbərlik etmişdir. Azərbaycan dövlətçilik tarixinə öz adını əbədi həkk etmiş bu dahi şəxsiyyətin ölkəmizə rəhbərlik etdiyi illər intibah, milli tərəqqi, milli oynanış və nəhayət müstəqil dövlət quruculuğu kimi qəbul edilir. Heydər Əliyevin siyasi və dövlət fəaliyyətinin ən böyük nəticəsi quruculuğuna bilavasitə rəhbərlik etdiyi və xalqımıza bəxş etdiyi suveren Azərbaycan Respublikası və bu suverenliyin, milli dövlətçiliyin qarantı olan neft strategiyası hesab olunur.

1969-cu ildən başlayaraq Azərbaycanın xalq təsərrüfatının bütün sahələri kimi neft və qaz sənayesinin də yüksək dinamik inkişaf mərhələsinə qədəm qoyması ilə səciyyələnir. Bu dövrdə Azərbaycanın neft və qaz sənayesinin inkişaf tarixində yeni mərhələ başlayır.

Bu dövrdə dünyada analoqu olmayan Dərin Dəniz Özülləri zavodunun Azərbaycanda, Bakıda tikilməsi üçün o zaman Sovetlər məkanında 450 mln. ABŞ dollarının ayrılması, bunun üçün Moskvadan belə bir icazənin alınmasına nail olunması (bu zavodun Həştərxanda tikilməsi nəzərdə tutulmuşdu) cənab Heydər Əliyevin möhkəm iradəsinin və cəsarətinin nəticəsi idi. Zavodun tikilməsinə 1978-ci ildə başlandı və 1989-cu ildə istismara verildi.

Bütün bunlar Azərbaycanın ümummilli lideri Heydər Əliyevin uzaqgörən və müdrik siyasətinin nəticəsi idi. O, çox gözəl anlayırdı ki, görülən bütün bu nəhəng işlər gələcəkdə müstəqillik qazanacaq Azərbaycanın istiqadi müstəqilliyinin əsasını təşkil edəcəkdir. Tarix ümummilli lider Heydər Əliyevin haqlı olduğunu sübut etdi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra 90-cı illərin əvvəllərində bir çox çətinliklərlə üzləşmişdir. SSRİ-nin keçmiş respublikaları ilə Azərbaycan Respublikası arasında iqtisadi əlaqələrin qırılması, respublika ərazisində qeyri-sabitliyin mövcud olması, maliyyə və texniki təchizatın sıfra enməsi neft və qaz sənayesinin ağır böhran vəziyyətinə salmışdır. Bütün bu çətinliklər maliyyə, texniki və digər problemlər aşkar edilmiş "Azəri", "Çıraq", "Günəşli" kimi yataqların işlənməsinə imkan vermirdi. Belə vəziyyətdə xalqın tələbi ilə ikinci dəfə Azərbaycana rəhbərliyə qayıdan cənab Heydər Əliyev "Neft Azərbaycanın milli sərvətidir" devizi ilə çıxış edərək, respublikanın neft sənayesinin bərpası və inkişafı ilə yaxından məşğul olmuşdur. Azərbaycan xalqının ümummilli lideri xarici iri neft şirkətlərini Azərbaycana dəvət etmək qərarına gəldi və "Yeni neft strategiyası" tez bir vaxtda işlənib hazırlandı. O dövrdə Azərbaycan Prezidentinin sərəncamı ilə Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə xarici şirkətlərlə danışıqlara başlandı. Azərbaycanı labüd fəlakətdən xilas edən dahi rəhbər Heydər Əliyev onun iqtisadi yüksəlişi üçün də tədbirlər görməyə başladı. Elə ilk günlərdən ARDNŞ-in birinci vitse-prezidenti, İlham Əliyev danışıqlar prosesinə cəlb edildi, yeni neft strategiyasının hazırlanmasının və uğurla həyata keçirilməsinin ən fəal iştirakçılarından oldu. 1994-cü ilin sentyabrın 20-də Azəri-Çıraq-Günəşli (dərin sulu hissəsi) yataqlarının işlənməsi üzrə dünyanın 7 ölkəsinin 11 məşhur neft şirkəti ilə "Məhsulun Pay Bölgüsü" sazişi – "Əsrin müqaviləsi" imzalandı.

"Əsrin müqaviləsi"nin imzalanmasından keçən 20 ildən artıq müddət ərzində ümummilli lider Heydər Əliyevin "Yeni neft strategiyası"nın çox böyük uğurla reallaşması günümüzün reallığına çevrilmişdir.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Heydər Əliyev 100. Sitatlar və kəlamlar. Bakı, 2023
2. https://www.socar.az/

Hüseynova Nəzrin Rasim qızı
fil.f.d, dosent Əsgərova Xuraman Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ UŞAQLAR

“Uşaqlar bizim gələcəyimizdir, gələcəyimizi nə cür tərbiyə edəcəyiksə, ölkəmizin, millətimizin, dövlətimizin sabahı bundan asılı olacaqdır“ Ulu Öndər Heydər Əliyev Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin və məsuliyyətli olduğu qədər də şərəflidir. Əgər gələcəyimizi bugünün uşaqlarına əmanət ediriksə, onların düzgün tərbiyə olunması, hansı ideyalara qulluq etməsi hər birimizi ciddi düşündürməlidir. Ona görə də uşaqlara hər zaman diqqət və qayğı göstərilir, onların düzgün tərbiyə olunmalarına, qarşılaşdıqları problemlərin aradan qaldırılmasına, hərtərəfli təhsil almalarına dövlət səviyyəsində nəzarət edilir. Axı uşaqlar dövlətin gələcəyi, dayağıdır.Bu gün müstəqil Azərbaycanın uşaqları diqqət və qayğı ilə tam əhatə olunub. Hətta regionlarda ən ucqar kəndlərdə də uşaq bağçaları fəaliyyət göstərir. Ulu öndər Heydər Əliyevin “Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Ona görə də hər bir insanpərvər cəmiyyətdə uşaqlara daimi xüsusi qayğı, xüsusi diqqət göstərilibdir” – müdrik kəlamı uşaqlara olan məhəbbətinin təzahüri idi.[1]

Hazırda uşaqlara göstərilən qayğı göz qabağındadır. Ulu öndərimiz H.Əliyevin təşəbbüsü ilə Azərbaycan 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuş, “Uşaq hüquqları haqqında”

Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, "SOS Kinderdorf İnternəşnl" təşkilatı ilə respublika hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən "Bakı SOS uşaq kəndi" salınmışdır. Burada Avropa standartlarına uyğun 12 ailə evi, uşaq bağçası və altı digər yardımçı bina fəaliyyət göstərir. Ailə evlərinin hər birində 8-10, umumilikdə isə kənddə 100-dən artıq uşağın yaşaması üçün hər çürşərait yaradılmışdır. Burada kimsəsiz, valideyn himayəsindən məhrum, yetim, atılmış uşaqlar tərbiyə alırlar.

Heydər Əliyev xalqımızın sabahını – gənc nəsli yaşatmaq, uşaqlar arasında fərqli həyat səviyyəsini yaxşılaşdırmaq üçün xarici ölkələrin diqqətini Respublikamıza yönəltmişdi. Bu gün ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün geniş hərəkat başlanmışdır. Uşaqların Beynəlxalq televiziya və radio günü münasibətilə keçirilən ənənəvi bayramında iştirak edən ulu öndərimiz Heydər Əliyev demişdir: "Artıq biz ictimai-siyasi cəhətdən çox sabit bir Azərbaycan yaratmışıq. İnsanlar rahat yaşasınlar və biz bunu, sabitliyi daimi edəcəyik... Əmin olun ki, siz bizim rastlaşdığımız çətinliklərlə rastlaşmayacaqsınız. Ancaq bu, sizə imkan verəcək ki, bizim başladığımız işləri daha da uğurla həyata keçirəsiniz. Siz bizim ümidimiz, gələcəyimizsiniz"

Hazırda təhsildən kənarda qalan uşaqların məktəblərə cəlb edilməsi ilə əlaqədar Təhsil Nazirliyinin müvafiq şöbələrində, icra nümayəndəliklərində, azyaşlılarla iş üzrə hüquq-mühafizə orqanlarında ciddi işlər aparılır. Kimsəsiz, valideyn himayəsindən məhrum uşaqlar axtarılıb tapılır, onlar internat məktəblərinə, uşaq evlərinə verilirlər. Çətin tərbiyə olunanlar isə xüsusi nəzarətdə saxlanılırlar. Bu işdə məktəbdənkənar müəssisələrin fəaliyyəti xüsusi qeyd olunmalıdır. Çünki təhsil sistemi yalnız uşaq və yeniyetmələrin savad almasını biliklərə yiyələnməsini əhatə etmir, həm də onların şəxsiyyət kimi formalaşmasını nəzərdə tutur. Bu sistemə isə uşaqların fəaliyyətinin bütün istiqamətləri, o cümlədən asudə vaxtlarının və istirahətlərini səmərəli təşkili də daxil edilir.

Fəxr edirəm ki, bizim Azərbaycanın gözəl, göyçək, istedadlı balaları, övladları var. Fəxr edirəm ki, Azərbaycanın gələcəyi bu qədər gözəl təməl əsasında qurulur. Siz bugünkü həyatınızla, təhsilinizlə, öz istedadınızı inkişaf etdirməklə Azərbaycanın gələcəyinin binasını qurursunuz, böyük binanı qurursunuz. Müstəqil Azərbaycanın, daim müstəqillik içində yaşayan Azərbaycanın böyük binasını qurursunuz.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Firidun bəy Köçərli adına Respublika Uşaq Kitabxanası. https://clb.az › html › heydar.aliyev... Heydər Əliyev və uşaqlar – Bakı
2. Azərbaycan müəllimi https://www.muallim.edu.az›news Sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyi - uşaqlar

Orucova Fatimə Rafiq qızı
fil.f.d., dosent Xuraman Əsgərova Səlim qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV DÖVRÜNDƏ AZƏRBAYCAN MİLLİ MƏDƏNİYYƏT STRATEQİYASI: İNKIŞAF VƏ İRADƏ

Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyası, ölkənin mədəniyyət sahəsində böyük bir dönüşüm və inkişaf dövrünün başlangıcı olmuşdur. Bu strateji, milli mədəniyyətin qorunması, inkişafı və yayılması üçün əsas prinsipləri müəyyənləşdirir və bu sahədə fəaliyyətləri dəstəkləyir. Heydər Əliyev dövrü, Azərbaycanın mədəniyyət sahəsində böyük bir iradə və sahibkarlıq nümayiş etdirməsi ilə diqqət çəkmişdir. Bu məqalədə, Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyasının əsas prinsipləri və nailiyyətləri müzakirə olunacaq.

Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyası, milli mədəniyyətin möhkəmləndirilməsi və inkişafı üçün əsas məqsədləri təyin edən və həyata keçirən bir strateji sənədidir. Bu strateji, mədəni irs və dövlətçilik mədəniyyəti ideyalarını dəstəkləyərək Azərbaycanın mədəniyyət varlığının möhkəmləndirilməsini hədəfləyir. Azərbaycan Milli Mədəniyyət Strateqiyasının əsas prinsipləri arasında milli mədəniyyətin qorunması, tarixi və mədəni irsin təbliği, yenilikçilik və sənaye mədəniyyəti inkişafı, dövlət tərəfindən mədəniyyət sahəsində dəstəyin artırılması kimi elementlər yer alır. Heydər Əliyev dövründə, bu prinsiplər doğrultusunda mədəniyyət institutları və layihələri təşkil edilmiş və dəstəklənmişdir.

Mədəniyyət sahəsində infrastrukturun inkişafı, mədəniyyət turizminin gücləndirilməsi və milli mədəniyyətin beynəlxalq miqyasda təbliğinin artırılması da stratejiyanın əsas məqsədləri arasındadır.

Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyasının nailiyyətləri arasında mədəniyyət sahəsində böyük inkişaf, tarixi abidələrin və mədəni irsin qorunması, beynəlxalq arenada Azərbaycan mədəniyyətinin təbliği, vətəndaşların mədəniyyətə marağı və mədəniyyət tədbirlərinin aktivləşməsi göstərilə bilər.

Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyası, ölkənin mədəniyyət sahəsində böyük iradə və sahibkarlıq göstərməsi ilə diqqət çəkmişdir. Bu strateji, milli mədəniyyətin möhkəmləndirilməsi, tarixi irsin qorunması və inkişafı, mədəniyyət turizminin gücləndirilməsi və beynəlxalq miqyasda Azərbaycan mədəniyyətinin təbliğinin artırılması üçün əsaslı addımlar atılmasını təmin etmişdir. Heydər Əliyev dövründə Azərbaycan Milli Mədəniyyət Strateqiyasının nailiyyətləri, ölkənin mədəniyyət varlığını möhkəmləndirməkdə və beynəlxalq miqyasda tanınmasında əhəmiyyətli rol oynamışdır.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Heydər Əliyev 100. Sitatlar və Kəlamlar. Bakı 2023

Muradlı Nuray Məmməd qızı
fil.f.d., dosent Əsgərova Xuraman Səlim qızı
Azərbaycan Dillər Universiteti, Bakı şəhəri

HEYDƏR ƏLİYEV VƏ İNCƏSƏNƏT

"Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir!" Heydər Əliyev [1]

Ümummilli lider Heydər Əliyev Azərbaycanımızın müasir simasını müəyyən edən dahi şəxsiyyətdir. Böyük rəhbər iki dəfə ölkəmizin həyatına xilaskar kimi daxil olaraq vətənini və xalqını çox mürəkkəb vəziyyətlərdən çıxarmışdı. Heydər Əliyev elə bir düha idi ki, ondan neçə-neçə nəsillər bundan sonra da daim öyrənəcək, nümunə götürəcək. Azərbaycan xalqının bir neçə nəslinə isə ulu öndərlə eyni zamanda yaşamaq səadəti qismət olub. Bir çoxlarımız bu böyük insanla çiyin-çiyinə işləməyin məsuliyyətini, çətinliyini və xoşbəxtliyini əyani şəkildə hiss etmişik.

Viktor Mari Hüqo demişdir: "Əsl insanın vəzifəsinin yarısı vətənə, digər yarısı da xalqa xidmət etməkdən ibarətdir." Tükənməz millət sevgisinin nəticəsidir ki, müstəsna xidmətləri ilə Azərbaycanın taleyində misilsiz rolu olan, müstəqilliyimizin müəllifi və müasir dövlətimizin memarı, ölkəmizi sürətli inkişaf yoluna çıxarmaqla dünya birliyinə qovuşdurmuş dünya şöhrətli nəhəng siyasətçi-Heydər Əliyevin doğum günü hər il respublikamızda, eləcə də onun hüdudlarından çox-çox uzaqlarda böyük təntənə ilə qeyd olunur, əbədiyaşar liderimizin parlaq xatirəsi dərin ehtiramla yad edilir.

XX əsrdə xalqımızın mədəni həyatında yeni bir dövr başlanmışdır. Bu, ulu öndər Heydər Əliyevin adı ilə bağlı olan bir dövrdür. Ulu öndər hakimyyətdə olduğu bütün dövrlərdə xalqın mədəniyyətinin inkişafını həmişə diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışı sanki Azərbaycan mədəniyyətinin də tərəqqisinə yeni təkan verdi. Sosial problemlər ucbatından xarici ölkələrə üz tutan sənət adamları Vətənə döndülər, onlara xüsusi qayğı göstərilməyə başlandı. Bağlanmış teatrlar, kitabxanalar, muzeylər öz qapılarını yenidən tamaşaçıların üzünə açdı. Azərbaycanda bir çox tamaşa müəssisələri təmir olundu, Filarmoniya təmirdən sonra yenidən istifadəyə verildi.

Musiqi sənətimizin inkişafına xüsusi qayğı ilə yanaşan ulu öndərin sərəncamı ilə 24 bəstəkar və musiqişünasa Prezident təqaüdü verildi. Onların bir çoxu "Şöhrət" ordeninə layiq görüldülər.

Azərbaycanda beynəlxalq səviyyəli kinofestivallar keçirilir, filmlərimiz beynəlxalq festivallarda nümayiş etdirilməyə başlayırdı. Ən əhəmiyyətli fakt bu idi ki, Azərbaycanda ilk film nümayiş etdirildiyi 2 avqust (1898) kino işçilərinin peşə bayramı kimi qeyd olunmağa başladı. Əgər 1994-1996-cı illərdə iki film istehsal olunmuşdusa, 1998-2000-ci illərdə dövlət sifarişi ilə dörd tammetrajlı bədii film yaradıldı.

Bu gün mədəniyyət obyektləri təmir olunur, yeniləri inşa edilir. Bakıda təmir olunmamış teatr binası qalmamışdır. "Nizami" kinoteatrı əsaslı təmir olunur, Milli Akademik Dram Teatrın təmiri başa

çatmaq üzrədir. Bakının 2009-cu ildə İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi Azərbaycan mədəniyyətinin dünyaya inteqrasiyası istiqamətində çox önəmli bir hadisə idi.

Heydər Əliyevin mədəniyyət siyasətinin reallaşması işində bu gün ulu öndərin adını şərəflə daşıyan Fondun böyük xidmətləri vardır. Milli-mənəvi dəyərlərimizə qayğı, onların qorunması və təbliğində Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın xidmətləri əvəzsizdir. Fondun muğam sənətimizin inkişafına, Azərbaycan mədəniyyətinin dünyada tanınmasına, milli-mənəvi dəyərlərimizin təbliğinə həsr etdiyi davamlı tədbirlər olduqca əhəmiyyətlidir. İndi Bakıda Muğam Mərkəzi fəaliyyət göstərir, Xalça Muzeyi inşa olunur, yeni sərgi salonları yaradılır. Bunlar Heydər Əliyev ideyalarında güc alan dövlət başçımızın həyata keçirdiyi mədəniyyət siyasətinin real nəticələridir.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Heydər Əliyev 100. Sitatlar və kəlamlar. Bakı, 2023
2. Xalq qəzeti. 6 may 2010, s.5

Факультет: Образование 1, Рагимли Банучичек Эльдар гызы
Научный руководитель: ст. препод. Наджафова Гюльбениз Камал гызы
Азербайджанский Университет Языков

КУЛЬТУРНАЯ МИССИЯ НАЦИОНАЛЬНОГО ЛИДЕРА АЗЕРБАЙДЖАНА ГЕЙДАРА АЛИЕВА

Данная статья посвящена культурной миссии общенационального лидера Азербайджана Гейдара Алиева. Будучи основателем национальной независимости и государственного суверенитета Азербайджана, являясь Президентом республики, Гейдар Алиев впервые разработал и реализовал стратегию современной культурной политики. Основываясь на историческую роль Гейдара Алиева в развитии азербайджанского музыкального искусства, опираясь на ценнейшие результаты этой прогрессивной деятельности, автор впервые выдвинул музыковедческую концепцию о культурной миссии Национального лидера Азербайджана.

Говоря о культурной миссии Гейдара Алиева, необходимо отметить, что эта миссия тесно связана с музыкальной культурой Азербайджана, а также служила развитию и пропаганде классического и современного музыкального искусства, сохранению традиционного мугама и ашыгской музыки, распространению и превращению азербайджанской музыки в всемирное культурное достояние. Своей величайшей культурной миссией Гейдар Алиев на протяжении полвека всесторонне развивал традиционную и профессиональную музыкальную культуру Азербайджана, создал всевозможные условии для развитии современного музыкального искусства и образования, добился громадных успехов в сохранении и пропаганде музыкальной наследии народа, также выдающихся азербайджанских композиторов, дирижёров, музыковедов, исполнителей, широко развивал музыкально-культурных связей Азербайджана с разными регионами и странами. В результате многовековая музыкальная культура Азербайджана занимала достойное место в новой мировой истории, была признана международной общественностью как всемирная художественная ценность, стала равноправной и неотъемлемой частью современной музыкальной- культурной прогрессии.

Непосредственная связь азербайджанской музыкальной культуры с политической и государственной деятельностью Гейдара Алиева, его прогрессивная культурная политика, целью которого является интенсивное развитие и прославление азербайджанского музыкального искусства, постоянный выход ее на современную мировую музыкальную арену, а также распространение во всем мире национальных музыкально-художественных достижений ставит перед современной музыкальной наукой ряд важных и серьезных научно-исследовательских задач.

Музыковедческое исследование великих заслуг культурной миссии Национального лидера Гейдара Алиева в развитии азербайджанской музыкальной культуры, как одна из актуальных и современных задач музыкознания, решается успешно.

Литература:
1. Абдулалиев А. Музыкальный анализ произведений о Гейдара Алиеве // Материалы республиканской научной конференции аспирантов и молодых исследователей. - Б.: Министерство образования Азербайджанской Республики, 2004 - С. 51-52. (на азерб. языке).
2. Абдулалиев А. Гейдар Алиев и музыкальная культура Азербайджана // «Мусиги дунйасы» («Музыкальный мир»). - Б., 2008. - № 1-2/35 - С. 418. (на азерб. языке).
3. Медушевский В. О методе музыковедения // Методологические проблемы музыкознания: сб статей. - М.: Музыка, 1987. - С. 206- 230.

Мамедзаде Фатима Вюсал гызы
Факультет: Образование 1,
Научный руководитель: ст. препод. Наджафова Гюльбяниз Кямал гызы
Азербайджанский Университет Языков

ГЕЙДАР АЛИЕВ О ТЕАТРАЛЬНОМ ИСКУССТВЕ

О деятельности и жизни Общенационального лидера Азербайджана, Гейдара Алирза оглу Алиева написано немало. Проводилось много конференций, творческих и научных встреч, посвященных Г. Алиеву. Например в 2013-ом году в Союзе театральных деятелей Азербайджана состоялась конференция на тему "Гейдар Алиев и театр", посвященная 90-летию Общенационального лидера. В то время была организована фотовыставка, отражающая встречи великого лидера Гейдара Алиева с деятелями театра и культуры. Гейдар Алиев всегда участвовал в развитии театра. Наряду с другими областями нашей культуры, Гейдар Алиев постоянно заботился о театральном искусстве, представители культуры и искусства постоянно удостаивались почетных званий, высоких наград. Начиная с 1969 года, то есть с периода руководства страной великим лидером в театральной жизни Азербайджана стало ощущаться оживление. Общенациональный лидер Гейдар Алиев часто участвовал в церемониях открытия культурных центров, премьерах спектаклей различных театров, встречаясь с актерами за кулисами, интересовался их проблемами. Посещение общенационального лидера театра вдохновлял театральные коллективы к новым творческим свершениям. Несмотря на то, что вся его жизнь была посвящена политической деятельности, а руководство государством всегда держало под прессом огромной ответственности и обязанности своевременно и адекватно отвечать на вызовы времени, он всегда держал руку на пульсе национального искусства, всегда был в курсе того, что заслуживало внимания. Гейдар Алиев очень любил театр.

Гейдар Алиев постоянно принимал участие в церемониях открытия культурных центров, в премьерах спектаклей различных театров. Приход руководителя республики в театр всегда вдохновлял артистов на новые творческие свершения, способствовал обогащению и обновлению репертуара. “Мир живет и развивается благодаря созиданию” – эта фраза принадлежит Г. Алиеву и открыто, в полной мере характеризует его отношение к творческому процессу и творческой личности, в целом. Он лично дружил с Кара Караевым, Фикретом Амировым, Ниязи. Гейдар Алиев посещал многие спектакли, оперы, балеты и всегда проходил за кулисы, чтобы побеседовать с людьми искусства. И всегда он делал тонкие замечания, чувствовалось, что он очень внимательно все прослеживает, знает этих людей искусства, знаком с их произведениями. Деятели культуры Азербайджана высоко ценили заботу и внимание к ним руководителя государства. Их благодарная память, в частности, проявилась на прошедшей в 1999 году церемонии вручения им высоких наград азербайджанского государства – орденов «Независимость» и «Слава», которые Гейдар Алиев вручал лично. Воспоминания о Гейдаре Алиеве, которыми деятели культуры неустанно при случае делятся, обогащая образ общенационального лидера Азербайджана дополнительными красками, яркими чертами личности, также представляют собой особую ценность как для нынешнего, так и для будущих поколений. Им есть, у кого учиться высокому профессионализму и культуре.

Литература:
1. Г. Алиев 100. Цитаты и высказывания. Баку, 2023 https://philosophy.edu.az/az

Закирли Зейнаб Микаил гызы
Факультет: Образование 1,
Научный Руководитель: ст. преподаватель Наджафова Гюльбяниз Кямал гызы
Азербайджанский Университет языков

ГЕЙДАР АЛИЕВ О РОЛИ ЯЗЫКА И ЛИТЕРАТУРЫ В ОБЩЕСТВЕ

Языковая политика занимает очень важное место в масштабной политико-идеологической деятельности общенационального лидера Гейдара Алиева. Великий сын азербайджанского народа, лидер мирового масштаба с самого начала своего руководства Азербайджаном в конце 60-х годов прошлого века. Благодаря личной инициативе и настойчивости, непоколебимой воле и серьезным усилиям великого государственного деятеля в 1978 году в Конституцию Азербайджана была включена отдельная статья о функционировании азербайджанского языка как государственного. Гейдар Алиев всегда уделял внимание историческому прошлому нашего языка. Поэтому он подписал важные документы.

Среди них особое место, конечно, занимает Постановление от 18 июня 2001 года «О совершенствовании внедрения государственного языка». Прежде всего это историческое Постановление, имеющее исключительное значение с точки зрения определения, формирования и укрепления языковой политики независимого Азербайджанского государства, содержащее исчерпывающую и обширную информацию о государственном языке.

Еще одним важным шагом в развитии азербайджанского языка является Закон Азербайджанской Республики «О государственном языке Азербайджанской Республики», подписанный великим лидером 30 сентября 2002 года. В этом законе, нашли отражение такие вопросы, как развитие, защита, соблюдение норм литературного языка, создание необходимых условий для развития теоретических и прикладных направлений лингвистической науки в нашей стране.

Общенациональный лидер Азербайджана Гейдар Алиев называл писателя «главным хранителем национальных ценностей культуры». Он призывал писателей создавать свои произведения о героическом прошлом Азербайджана и, определив задачу писателей в этом направлении, говорил: «Родина Низами и Физули, Хагани и Насими, Ахундова и Мамедгулузаде, Узеира Гаджибекова и Мамедсаида Ордубади ждет от своих современных писателей и поэтов ярких исторических полотен, создания художественной галереи выдающихся деятелей истории, культуры и науки Азербайджана».

Общенациональный лидер Азербайджана Гейдар Алиев принимал активное участие, выступая с глубоко содержательными речами на писательских съездах Республики, на всесоюзных писательских форумах, на юбилейных торжествах азербайджанских классиков и крупнейших современных деятелей литературы и искусства. Посещая театральные постановки их произведений, проводил с ними регулярные личные и коллективные встречи, обменивался с ними мнениями, поощрял и всячески поддерживал их смелые, здоровые, творческие поиски.

Гейдар Алиев считал, что литература является важнейшим средством формирования мировоззрения и эстетических вкусов людей, национального самосознания и самопознания. Каждое его выступление по вопросам литературы- это конкретно исторический программный документ своей эпохи, составляющий часть нашей духовной жизни.

30-го октября 1997 года состоялся 10-ый съезд писательского объединения Азербайджана. Президент Азербайджанской Республики Гейдар Алиев присутствовал на этом съезде. В конце съезда он выступил с речью: «Наша литература и культура – национальное богатство и интеллектуальная собственность нашего народа». В своей речи он отметил, что «художественная литература мыслится нам как полноводная река народной жизни, могучий поток народного интеллекта, несущий в себе через века и исторические эпохи мысль народа, его гуманистические идеалы, мечты и чаяния, волю к свободе».

16 апреля 1995 года состоялся творческий вечер М.Араза, на котором выступил Гейдар Алиев. Говоря «о большом значении творчества поэта в жизни азербайджанского народа», – Гейдар Алиев перешел к широкому обобщению, выдвинул ценную идею о «необходимости поднять авторитет нашей интеллигенции, деятелей культуры и науки», справедливо утверждая, что «народ познается своей интеллигенцией, своей культурой, своей наукой», изложив тем самым суть политики государства в области литературно-культурной жизни.

Литература:
1. Алиев Г. Высокий долг и идеи литературы: речи, доклады, выступления / Г. Алиев. - Баку: Озан, 1999. - 495 с.
2. Гейдар Алиев и культура: обращения, выступления, интервью, поздравления, сведения: в 3-х томах. - Т. 1: 1969-1982, 1993-1996. -Нурлар, 2008. - 504 с.
3. 3.Гейдар Алиев и литература Азербайджана. - Баку, Восток-Запад, 2009. - 248 с.

Факультет: Образование 1, Меликова Айла, Фахраддин гызы
Научный руководитель: ст. препод. Наджафова Гюльбениз Камал г.
Азербайджанский Университет Языков

ГЕЙДАР АЛИЕВ И НАЦИОНАЛЬНО-ДУХОВНЫЕ ЦЕННОСТИ

«Жившие и творившие в прошлом наши ученые, писатели, поэты, композиторы оставили после себя богатое наследие. Долг нынешнего поколения развивать на основе оставленного наследия нашу науку и культуру». – Г.Алиев Политическая и государственная деятельность Гейдара Алиева, летопись его жизни – это история развития и укрепления национальной государственности Азербайджана, яркие страницы важного периода в жизни страны. Годы руководства Гейдара Алиева Азербайджаном характеризуются прогрессом в экономической, общественно-политической, культурно-нравственной жизни нашей страны; период расцвета культуры, развития и обогащения всех ее сфер. Он был единственным руководителем в истории Азербайджана, возвысившимся до политического Олимпа такой сверхдержавы, как СССР, и конкретной работой доказавшим, что является выдающимся государственным и политическим деятелем мирового масштаба. [1., с.75] Десятилетия, в течение которых руководил нашей страной этот выдающийся человек, феноменальный политический деятель, навеки вписавший свое имя в современную историю азербайджанской государственности, можно назвать периодом возрождения, национального прогресса, национального пробуждения и, наконец, периодом строительства независимого государства. Самым главным итогом политической и государственной деятельности Гейдара Алиева является независимая Азербайджанская Республика, созданная под его непосредственным руководством и оставленная им в дар людям. Деятельность нашего общенационального лидера во все времена была многоплановой, комплексной, взаимосвязанной. Он был талантливым руководителем, профессионалом своего дела, ни одна сфера жизнедеятельности государства не оставалась вне его внимания. С самого начала своего пребывания на посту, Гейдар Алиев придавал особенное значение духовным и национально-культурным ценностям народа, его самобытности, языку, традициям. Гейдар Алиев всегда был с народом, гордился выдающимися деятелями литературы, искусства, науки, образования, считал своим почетным долгом делать все, чтобы народ и весь мир знали о них. Только благодаря личным заслугам и неустанной работе Гейдара Алиева национальное наследие и культурные ценности азербайджанского народа не растворились в безликой массовой культуре тоталитарного советского государства, напротив, были сохранены и приумножены. Мудрый политик и стратег с чуткостью и дальновидностью относился к духовным ценностям азербайджанского народа, к увековечению памяти и распространению творчества выдающихся деятелей, носителей азербайджанской культуры, науки, литературы, к проведению на высоком мировом уровне юбилеев и знаменательных дат таких выдающихся сыновей азербайджанского народа, как С.Вургун, Уз.Гаджибеков, Дж.Джаббарлы, Н.Нариманов, Дж.Мамедгулузаде, Г.Джавид, М.Магомаев, М.Ордубади, ашуг Алескер, тарист Г.Пиримов, режиссер Казымов, всемирно известных народных певцов Бюль-Бюль и Р.Бейбудов. Распространять национальную культуру среди других народов он считал обязанным себя и обязывал других. Пропаганда в мировом сообществе выдающихся деятелей азербайджанской культуры, знакомство широких масс с их творчеством были яркими проявлениями патриотизма Гейдара Алиева, его стремления сберечь наши национальные ценности. Он хорошо знал азербайдхсанскую культуру, глубоко вникал в ее нюансы, искренне желал, чтобы каждый азербайджанец и человек любой другой национальности знал и чувствовал красоту и самобытность азербайджанской культуры. Его мечты о будущем

Азербайджана были непоколебимы. С мыслями о будущем он закладывал основы грандиозных проектов, великих дел. Такое отношение главы государства к национальному наследию должно стать образцом для будущих поколений.

Литература:
1. «Dirçəliş -XXI əsr»-2008.-№128-129.-C.73-90
2. Гейдар Алиев.100. Цитаты и высказывания. Баку,2023

Təhsil 1 fakültəsi, Məmmədli Gülnar Şahin qızı
Elmi rəhbər:fil.f.d.,dos Pirnəzərova Gülənbər Məhərrəm qızı
Azərbaycan Dillər Universiteti

GƏNCLƏRİN ELMİ-İCTİMAİ FƏALİYYƏTİNİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEVİN ROLU

Gənclər cəmiyyətin aparıcı təbəqəsi, gələcəyidir. İnkişaf, inteqrasiya onlarla bir addımlayır. Savadlı, yüksək mədəni tərbiyəyə malik, sağlam ruhlu, vətənpərvər gənclər yetişdirmək dövlət üçün önəmlidir. Öz gələcəyini düşünən hər bir dövlət də gənclərə qayğı göstərməlidir. Gənclərə qayğı göstərən, onlara dəyər verən hər bir dövlət öz firavan gələcəyini qurmaq üçün addımlar atmış olur. Savadlı, sağlam ruhlu, düzgün tərbiyəvi ruhda böyüdülmüş gənclərin olması gələcəyimizin parlaqlığından xəbər verir. Bu gerçəyi anlayan, gənclərə önəm verən, gələcəyimizin parlaq olması yolunda lazımı tədbirlər görən Heydər Əliyevdir.

"Bizim bugünkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir."[1]

Heydər Əliyev Ümummilli liderimiz Heydər Əliyev ictimai-siyasi, mədəni həyatımızda müxtəlif, sistemli islahatlar aparmışdır. Böyük öndərimiz insan hüquqlarının qorunmasına həmişə diqqət yetirirdi. Bütün proseslər zamanı gənclərin fəaliyyətinə xüsusi diqqət yetirir, onların dövlət idarələrində, müxtəlif qurumlarda fəal iştirakını təmin edirdi.

Ötən əsrin 90-cı illərinin əvvəllərində dünyada, o cümlədən Azərbaycanda baş verən ictimai-siyasi hadisələr dəyişdikcə, gənclər qarşısında duran problemlər və onların həlli yolları da dəyişməyə başladı. Bütün bunları bilən ümummilli liderimiz Heydər Əliyev gənc nəslin mütəşəkkil formada yetişdirilməsi üçün 1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyini yaratdı. Nazirlik yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirməyə başladı. Bu siyasətin davamı olaraq 1996-cı il yanvarın 26-da ulu öndər Heydər Əliyevin imzaladığı Sərəncama əsasən, fevralın 2-də Azərbaycan Respublikası gənclərinin ilk forumunun keçirilməsi qərara alındı. Bu forumun keçirilməsi ilə dövlət siyasətində gənclərə diqqət, qayğı daha da artırıldı. Forum müstəqil Azərbaycan Respublikasının gəncləri qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində ölkə gənclərinin hər bir sahədə fəal iştirak etməyə hazır olduğunu nümayiş etdirdi və gənclərlə işin nəzərəçarpacaq dərəcədə canlanmasına səbəb oldu. Ümummilli lider Heydər Əliyev gənclər siyasətinin uğurla həyata keçirilməsi məqsədi ilə bu sahənin zəruri qanunvericilik bazasının formalaşdırılmasını təmin etdi. Gənclərin sosial, iqtisadi və s. Problemlərinin həllinə yönəldilən, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən fərman və sərəncamlar, dövlət proqramları bu qəbildəndir. Qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.[2]

Cənab prezidentimiz İlham Əliyev Heydər Əliyevin gənclər siyasətinə sadiq qalır. Gənclərin problemlərinin həlli, xarici ölkələrdə təhsili, mənəvi tərbiyədə inkişafı, vətənpərvərlik ruhunda inkişafı istiqamətində müxtəlif işlər görülür, tədbirlər aparılır. Bu cür şəraitlərin yaradılması isə Heydər Əliyevin gənclərə qayğısından və etimadından irəli gəlir. Gənclərimiz də bu qayğını, diqqəti yüksək dəyərləndirir və öz məsuliyyətini dərk edir. Ölkəmizdə vətənpərvər, sağlam ruhlu, intellektual gənc nəsil formalaşıb və formalaşmağa da davam edir.

Azərbaycan hökuməti müasir gənclərimizlə bərabər gələcəkdə yetişəcək gəncləri də düşünüb. Belə ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra öz təbii sərvətlərindən istifadə edilməsi məsələsi ön plana çəkildi. Çünki, respublikamıza neft sərvətlərinin sahibi kimi tarixi şans verilmişdi və bundan da dövlət

başçısı Heydər Əliyev böyük uzaqgörənliklə istifadə etdi. İri həcmli neft müqavilələri bağlandı, Azərbaycan neftini dünya bazarına daşıyacaq neft kəmərləri tikildi. Ən əsası neftin satışından gəlirlər əldə etməyə başladıqdan dərhal sonra Neft Fondu təsis edilmişdir.[1]

Ümummilli liderimiz Heydər Əliyevin əsasını qoyduğu inkişaf və tərəqqi siyasəti nəticəsində bu gün ölkəmiz yeni bir inkişaf dövrünə qədəm qoyub. Artıq prezident İlham Əliyevin uğurlu siyasətinin nəticələri özünü əhalinin rifah halının yüksəlməsində və iqtisadi inkişaf sahəsində göstərməkdədir.[1]

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://haydaraliyevcenter.wordpress.com/heyder-eliyev/heydər-əliyev-muasir-gənclər-siyasətinin-banisidir/
2. https://mod.gov.az/az/pre/25662.html

Əliyeva Kifayət Samiq qızı
fil.f.d., dosent Pirnəzərova Gülənbər Məhərrəm qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV TƏRƏFİNDƏN ƏSASI QOYULMUŞ MÜASİR MULTİKULTURAL AZƏRBAYCAN

Bildiyimiz kimi, qədim xalq mədəniyyətinə malik olan Azərbaycan xalqının mühüm coğrafi məkanda yerləşməsi, faktiki olaraq, qədim zamanlardan burada müxtəlif etnik nümayəndələrin yerləşməsinə, bu etnik nümayəndələrin özlərinə məxsus mənəvi dəyərlərinin birləşməsinə səbəb olmuşdur. Qədim yaşayış məskənlərindən biri olan ölkəmiz öz mədəni dəyərləri baxımından qonşu dövlətlər arasında daim seçilmişdir və bu baxımdan hər zaman ölkəmiz qonşu dövlətlərlə daim qarşılıqlı əlaqədə olmuş, bu baxımdan mədəni dəyərlər mühüm qarşılıqlı əlaqələrlə inkişaf etmişdir. Ümumən, ölkəmiz tarixən müxtəlif etnik birliklərin, millətlərin nümayəndələrinin məskən saldığı yurd olmuşdur. Ölkəmizin qədim idarəetmə mədəniyyəti Azərbaycanda multikultural, tolerant siyasətin məhz tarixən dövlət səviyyəsində həyata keçirildiyini sübut edir.

Faktiki olaraq, ölkəmizdə müxtəlif mədəni dəyərlərin qovuşma səbəblərindən ilki və ən önəmlisi Azərbaycanın əlverişli coğrafi məkanda – Şərqlə Qərbin qovşağında yer almasıdır [5].

Tarixdən məlum olduğu kimi, Azərbaycan 70 il sovet Rusiyasının əsarəti altında olmuş və bu zaman ərzində milli-mənəvi dəyərlərimizin aradan qaldırılması uğrunda addımlar atılırdı. Bütün bu addımlara baxmayaraq xalqımız öx milli-mənəvi dəyərləinə hər zaman sadiq qalmağı ba cara bilmişdir.

Ölkəmiz müstəqillik əldə etdikdən sonra Ulu Öndər Heydər Əliyev çox mühüm demokratik siyasət yürütmüş, multikulturalimz və tolerantlığın inkişaf etməsinə böyük diqqət ayırmış, müxtəlif dini dəyərlərə mənsub insanlara bərabər hüquqlar vermişdir. Heydər Əliyev digər dinlərə dözümlülük göstərdiyini öz fəaliyyəti ilə daim bildirmişdir. O, ölkə daxilində olan xristianların hüquqlarının qorunasına xüsusi fikir veriləcəyini qeyd etməklə öz tolerant siyasətini sübut etmiş olurdu [6].

Ulu Öndərimizin tolerantlıq və multikulturalizm haqqqında çox sayda çıxışları olmuş və mühüm əhəmiyyətli fikirləri mövcuddur: "Tolerantlıq, dözümlülük çox geniş anlayışdır. O, həm insani münasibətlərin, həm insan cəmiyyətində gedən proseslərin, həm də dövlətlərarası, millətlərarası, dinlərarası münasibətlərin bir çox cəhətlərinə aiddir... O, təkcə dinlərin bir-birinə dözümlülüyünü deyil, həm də birbirinin adətlərinə, mənəviyyatına dözümlülük, mədəniyyətlərə dözümlülük deməkdir" [4, səh.1].

Ümumiyyətlə, Heydər Əliyev hakimiyyətə gəldiyi ilk vaxtdan hüquq və azadlıqların, dini və vicdan azadlıqlarının qorunmasına böyük diqqət ayırmışdır. Ulu Öndərimiz heç vaxt digər dinlərə məxsus xalq nümayəndələrinə ayrı-seçkilik qoymur, ölkədə məscid, kilsə, sinaqoqların təmir və tikintisinə diqqət ayırırdı, bu, Ulu Öndərimizin çox böyük şəxsiyyət olmasını bir daha sübut edir [2, səh.143-148]. Azərbaycan xalqı qədim zamanlardan multikultural və tolerant dəyərlərə malik xalq olmuş və bu gün də ölkəmiz bu dəyərləri ilə tanınır. Müasir Azərbaycan Respublikasının multikultural istiqamətdə inkişafının banisi məhz Heydər Əliyev olmuşdur və bu gün bu siyasət olduqca inkişaf etmiş və etməkdədir.

Fikrimi Heydər Əliyevin öz sözləri ilə tamamlamağı məqsədəuyğun hesab edirəm: - "Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir" [1].

İstifadə olunan ədəbiyyat siyahısı:
1. Heydər Əliyev 100: Sitatlar və kəlamlar. Bakı, 2023
2. İsmayılov G. Tolerantlıq: Bildiklərimiz və bilmədiklərimiz. Bakı, «NURLAR» Nəşriyyat, 2014.
3. Məmmədov F. Kulturologiya effektivli həyat və fəaliyyətə aparan yol kimi. Bakı, "Çıraq",2008
4. Dövlət və Din - № 8 (37) AVQUST 2015 5. http://multiculturalism.preslib.az/az_a1.html 6. http://www.xalqqazeti.com/az/news/politics/78385

Məmmədzadə Məxmər Mütalif qızı
fil.f.d.,dos. Pirnəzərova Gülənbər Məhərrəm qızı
Azərbaycan Dillər Universieti

HEYDƏR ƏLİYEVİN KÖRPƏLƏRƏ QAYĞISI

Uşaq ailənin, xalqın, dövlətin ən qiymətli sərvətidir. Bu qiymətli sərvəti fiziki və mənəvi cəhətdən sağlam, cəmiyyətə faydalı vətəndaş, Vətənə sadiq övlad kimi böyütmək çətin, məsuliyyətli və bir o qədər də şərəflidir.

Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub.Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi və onlara böyük qayğı və diqqət göstərirdi.Azərbaycan körpələrinin sağlamlığı, onların yaxşı təlim, tərbiyə və təhsil alması, Vətən və xalq üçün gərəkli övlad kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur.

Ulu öndər Heydər Əliyev demişdir: "Mənim üçün ən əziz nemət Azərbaycanın uşaqlarıdır, Azərbaycanın böyük gələcəyi Azərbaycanın gənclərindən və uşaqlarından asılıdır. [1]

Azərbaycanın işıqlı gələcəyinin gənclərdən və uşaqlardan asılı olduğunu deyən Ulu Öndər Heydər Əliyev bütün zamanlarda onların qayğısına qalmış, uşaqların sağlam və vətənpərvər ruhda böyümələri üçün mühüm işlər görmüşdür. Dahi lider ölkəmizdə hakimiyyətə gəldiyi vaxtdan etibarən uşaqların hüquqlarının qorunması istiqamətində bir çox qanunlar qəbul edilmişdir.

Uşaqları bütün varlığı ilə sevən ulu öndərimizin təşəbbüsü ilə Azərbaycan 1994-cü ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasına qoşulmuş, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, "SOS Kinderdorf internəşnl" təşkilatı ilə respublika hökuməti arasında əldə olunmuş razılaşmaya əsasən "Bakı SOS uşaq kəndi" salınmışdır.[2]

Ulu Öndər dəfələrlə vurğulamışdır ki, uşaqların kamil tərbiyə alaraq layiqli bir şəxsiyyət kimi formalaşması mühüm əhəmiyyət kəsb edir. Əlbəttə, hər bir uşağın şəxsiyyət kimi formalaşmasında təhsilin rolu danılmazdır. Ulu öndərimiz uşaqların inkişafı üçün təhsil sahəsində də islahatlar həyata keçirmişdir. 1972-1973-cü illərdə Azərbaycanda orta təhsil müəssisələrinin sayı 3 dəfə artmışdır. Bu yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi. Ümummilli Lider Heydər Əliyevin sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə ölkədə 5 yeni təhsil müəssisəsi açılmışdır, ali məktəblərdə təhsil alanların sayı isə 70 mindən 100 minə qədər artmışdır.[2]

Ulu Öndər Heydər Əliyev böyük ictimai-siyasi problemlərlə üzləşmiş, ədalətsiz müharibəyə cəlb olunmuş və torpaqlarının 20 faizini itirmiş ölkəmizi xilas edərkən uşaqların taleyini bir an belə unutmamışdır. Ümumilli Lider böyük işlərdən vaxt taparaq həmişə uşaqların görüşünə gəlmiş, onların problemlərini həll etməyə çalışmışdır. Məhz bu sonsuz diqqət və qayğının nəticəsi idi ki, uşaqlar ulu öndər Heydər Əliyevlə hər bir görüşdən sonsuz coşqu, böyük həyat eşqi alırdılar. Heç şübhəsiz bu səmimi görüşlər hər bir uşağın yaddaşında əbədi iz qoymuşdur.

Ulu Öndərin əsasını qoyduğu uşaq siyasəti və uşaqlarla bağlı görülən işlər bu gün də davam etməkdədir. Elə bunun nəticəsidir ki,uşaqlarımızın, gənclərimizin müxtəlif sahələrdə uğurlarının şahidi oluruq. Onlar indi Azərbaycanı uğurla təmsil edir, üçrəngli bayrağımızı yüksəklərə qaldırırlar. Necə deyərlər, insan çəkilən hər bir zəhmətin bir gün bəhrəsini görür. Elə Heydər Əliyevin uşaqlara verdiyi qiymət, göstərdiyi diqqət və qayğının nəticəsidir ki,onlar böyüyüb Azərbaycanı belə sevgi və məhəbbətlə təbliğ edərək müxtəlif sahələrdə birincilik uğrunda əllərindən gələni edirlər.

İstifadə olunmuş ədəbiyyat siyahısı:
1. https://www.azerbaijan-news.az/az/posts/detail/usaqlara-qaygi-her-bir-vetendasin-borcudur-1670711233
2. https://aia.az/47936-heydr-liyev-uaqlar-sonsuz-mhbbtl-sevn-lider.html

Yusifzadə Aycan Rəşad qızı
Elmi rəhbər: fil.f.d., dosent Əsgərov Xuraman Səlim qızı
Azərbaycan Dillər Universitetinin

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN XALQI

Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm.
Azərbaycan mənim həyatımın mənasıdır.
Heydər Əliyev

Azərbaycan xalqının böyük oğlu, müstəqil Azərbaycan dövlətinin qurucusu, Azərbaycan siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, yuxarıda sadaladığımız titulların heç biri Onun titanik fəaliyyətini tam əhatə etmir. Biz bu gün Azərbaycan tarixində Heydər Əliyev erasını yaratmış Ulu öndər haqqında danışarkən, adətən, Onu bir Ümummilli lider kimi səciyyələndiririk. Əlbəttə, bu, mübahisəsiz olaraq belədir. Amma bu zaman bizə elə gəlir ki, Heydər Əliyevin fəaliyyətini bir qədər məhdudlaşdırmış oluruq. Onun fəaliyyətinə bir qədər sırf milli kontekstdə yanaşmış oluruq. Lakin Heydər Əliyev şəxsiyyəti və onun fəaliyyəti təkcə Azərbaycanın etnosiyasi coğrafiyası ilə bağlı deyil və Ulu öndərin bir siyasətçi kimi fəaliyyəti də Azərbaycanın etnosiyasi coğrafiyası ilə məhdudlaşmır. O, istər Sovet xalqları müstəvisində və istərsə də Şərqi Avropadan tutmuş, hətta, Afrika ölkələrinə qədər olan xalqların tarixində rol oynamış, onların yaxından tanıdığı və onların həyatına təsir edəcək proseslərə imza atmış bir şəxsiyyətdir. Heydər Əliyevin Azərbaycan xalqı qarşısında böyük xidmətlərindən söhbət açanda ilk öncə 1969-1982-ci illərə, onun Sovetlər birliyi dövründə respublikamıza rəhbərlik etdiyi vaxtlara nəzər yetirmək vacibdir. Həmin illərdə yaşamış dövlət və sənət xadimləri, təsərrüfat adamları, ziyalılar daim Ulu Öndərimizlə bağlı xatirələrində belə görkəmli şəxsiyyətin müasiri olmaqdan qürurlandıqlarını bildirir və qeyd edirlər ki, onun Azərbaycana rəhbərliyi ölkəmizin tarixində əsaslı dönüş nöqtəsi olub. O vaxta kimi Azərbaycan adlı respublika nəinki dünya, hətta ittifaq miqyasında o qədər də tanınmırdı. Halbuki respublikamız ittifaqda zəngin yerüstü, yeraltı sərvətləri ilə seçilib. Amma respublikamızın adı ucqar milli əyalətlərdən biri kimi çəkilirdi. Məhz 1969-cu ilin tarixi iyul plenumunda Heydər Əliyevin respublika rəhbəri təyin edilməsi ilə Azərbaycanın tarixində sürətli inkişaf dövrü başlayıb. Qısa vaxt ərzində onun təşəbbüsü ilə mühüm sənaye müəssisələri Azərbaycanın şəhərlərində inşa edilib, təsərrüfat, elm və təhsil qətiyyətli islahatlar həyata keçirilib [2].

12 dekabr tarixi müasir dövlətçiliyimizin banisi, ümummilli liderimiz Heydər Əliyevin həyatla cismani vidalaşdığı gündür. Onun fiziki yoxluğundan neçə illər ötməsinə baxmayaraq, Azərbaycan xalqı öz xilaskarını heç zaman unutmur, daim onu ehtiramla yad edir. Tək 12 dekabr günündə deyil, adi vaxtlarda da insanlar Fəxri xiyabana gedərək onun məzarını ziyarət edir, ruhu qarşısında baş əyirlər. Ulu Öndərin əbədiləşən ömür yolunu düşünəndə belə qənaətə gəlirik ki, ömrünü xalqına həsr edən, milləti, dövləti üçün misilsiz xidmətlər göstərən rəhbərlər heç zaman unudula bilməz.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. H.Əliyev 100. Sitatlar və kəlamlar. Bakı,2023
2. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının qanunu. 9 aprel 2002-ci il // "Gələcək gənclərindir", Bakı: Azərbaycan, 2004, s. 410–416.
3. Yeni Azərbaycan. 6 may 2011, s.4.

Təhsil 1 fakültəsi, Qurbanova Ayan Rəşad qızı
Elmi rəhbər: fil.f.d., dos. Gülənbər Pirnəzərova Məhərrəm qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEVİN VƏTƏNPƏRVƏRLİK HİSSLƏRİNƏ DAİR

Heydər Əliyev özünün böyük və mənalı ömrünü xalqına, Azərbaycanın möhkəmlənməsinə və yüksəlişinə həsr etmiş yüksək idarəçilik ənənəsi yaratmış və ümummilli lider zirvəsinə yüksəlmişdir. Ulu ön-

dərin yaratdığı idarəçilik müstəqilliyimizi qorunması, vətənə, millətə, xalqa sədaqətlə xidmət kimi dəyərlərdən qaynaqlanır. “Həyatımın sonuna qədər xalqıma sədaqətlə xidmət edəcək və bütün fəaliyyətimi Azərbaycan Respublikasının gələcək inkişafına sərf edəcəyəm”. Ulu öndər Heydər Əliyev bu andını 1993-cü ildə müstəqil Azərbaycanın Prezidenti seçildiyi gün xalqına, bütün dünyaya bəyan etdi. Ulu öndərin həyat və fəaliyyətinin elə bir məqamı, elə bir mərhələsi yoxdur ki, onun bu anda sədaqətinin şahidi olmayasan. Və düşünürsən ki, bu şərəfli ömrü yaşamış insan Vətəninə, canı qədər sevdiyi Azərbaycanına, xalqına sədaqət andını öz pak vicdanı qarşısında içib.”[1]

Azərbaycan xalqının ən mühüm milli-mənəvi dəyərlərindən biri öz doğma yurduna bağlılığıdır. Azərbaycan təkcə bu ərazidə yaşayan və fəaliyyət göstərən azərbaycanlıların deyil, həmçinin dünyanın hər yerində yaşayan

Azərbaycanlıların doğma vətənidir.

Bütün Türk dünyasının böyük oğlu, ümummilli liderimiz Heydər Əliyev öz parlaq nitqlərində XX əsrdə xalqımızın əldə etdiyi tarixi qələbəni – müstəqilliyimizin qorunub saxlanılmasında xalqın milli şüurunun güclü şəkildə oyanmasından həmçinin vətənpərvərlik hisslərinin oyanmasından bəhs etmişdir. “Bütün varlığı, ruhu, duyğuları ilə xalqına, vətəninə bağlı olan, ömrünün 34 ilini milli dövlətçilik ideologiyasının inkişafına və bərqərar olmasına həsr edən, Azərbaycanı qarış-qarış qurub inkişaf etdirən Heydər Əliyev təkcə milli-mənəvi dəyərlərimizin, dövlətçiliyimizin təşəkkülünə deyil həmçinin milli-mənlik və milli kimlik şüurumuzun inkişafına təkan verdi”.[2] Bu isə Heydər Əliyevin Azərbaycan xalqının inkişafında əvəzsiz rolunu bir daha sübut edir.

Tarixdə mövcud olan dövlətlər və xalqlar yalnız özlərinin maddi sərvətləri və siyasi qüdrətləri ilə deyil zamanı üçün böyük izlər qoymuş və möhtəşəm işlər görmüş tarixi şəxsiyyətləri ilə tanınırlar. Çünki zamanın istər intibah, istərsə də sərt dönəmlərində millətin və xalqın tale yolu görkəmli tarixi şəxsiyyətlərin fəaliyyəti ilə müəyyənləşir. Həmin şəxsiyyətlər olduqca mürəkkəb və taleyüklü məsələləri həll etmək, vətəni xilas etmək üçün tarixin ən həlledici məqamında meydana çıxırlar.

“Azərbaycanda tarixi ənənələrdən, milli-mənəvi keyfiyyətlərdən bəhrələnərək ölkəsini dünyanın nüfuzlu təsisatlarına inteqrasiya yolu ilə inkişaf etdirmək, xalqının milli hüquqlarını, tarixi haqlarını həyata keçirmək kimi şərəfli missiyanı çiyinlərinə götürən, yeni dünya sisteminin düzənləndiyi və onun yeni idarəetmə formasının meydana gəldiyi bir dövrdə sərt taleyüklü məsələləri həll etməyi bacaran tarixi şəxsiyyətlərin varlığı hər bir azərbaycanlının qürur mənbəyidir”[3].

Heydər Əliyev çox böyük maneələri dəf etmiş və ən uca zirvələri fəth etməyi bacarmışdır. Tariximizin son yetmiş ili bu parlaq zəka sahibinin ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. https://www.anl.az/down/meqale/azerbaycan/azerbaycan_mart2009/71516.htm
2. https://www.yeniazerbaycan.com/Siyaset_e11386_az.html
3. https://nuhcixan.az/news/siyaset/78554-heyder-eliyev-irsi-vetene-sedaqet-hissleri-formalasdirir

Факультет 1, Мусаева Мярьям Эльшад гызы
Старший руководитель: Гусейнова Наиля Исмихановна
Азербайджанский университет языков

ГЕЙДАР АЛИЕВ И АРХИТЕКТУРА

Обращаясь к личности Гейдар Алиева, нельзя не восхищаться многогранностью талантов этого Человека! Он выдающийся политический и государственный деятель, наделённый выдающимися способностями, энциклопедическими знаниями, широким кругозором, удивительной работоспособностью. Находясь на должности первого секретаря Центрального Комитета Коммунистической Партии Азербайджана, обременённый тяжелейшим грузом государственных проблем, он не забывал о своей любви к искусству, литературе, театру, архитектуре, а также к нуждам народа, простых граждан страны, которую возглавлял. [1]

В 70-80 годах прошлого века (во время правления Гейдара Алиева) в Азербайджане началось бурное развитие во всех сферах жизни, началось преображение Баку. Потребность населения в

жильё привела к появлению жилых микрорайонов, доступных, удобных, просторных, построенных по единому плану. В то же время решалась и транспортная проблема города, были введены в строй большинство великолепных станций метрополитена.

А как прекрасны станции бакинского метро! Это не просто сложнейшие технические сооружения, это настоящие подземные дворцы, отделанные мрамором и другими дорогостоящими материалами, украшенные мозаикой и фресками, сценами из трудовых будней наших нефтяников. Станция метро «Низами» - это шедевр зодчества, стены которого украшены мозаичными картинами- сюжетами из произведений великого поэта Азербайджана!

В этот период был сделан большой вклад в архитектурные сооружения Азербайджана. Есть выражение «Архитектура – это эпоха, запечатлённая в камне». Архитектурные сооружения периода правления Гейдара Алиева, появившаяся благодаря его участию, отличаются красотой, изяществом, присущим национальному стилю, высоким качеством и современностью. Здесь можно отметить такие сооружения, как дворец «Гюлистан», дворец «Улдуз», здание железнодорожного и морского вокзалов, гостиниц «Карабах» и «Москва», здание КГБ Азербайджанской ССР. Все вышеперечисленные здания украсили Баку. [2]

А какие замечательные памятники украсили наш город! Это памятники героям Азербайджана, поэтам, политическим деятелям. Завораживают своим великолепием и монументальностью памятники Гусейну Джавиду, Джафару Джаббарлы, Нариман Нариманову, Мехти Гусейн-заде.

Будучи на посту президента уже суверенного, свободного Азербайджана, Гейдар Алиев, как дальновидный политик понимал, что Азербайджан должен стать стабильным, мощным государством, привлекательным для сотрудничества с другими странами, привлекательным для туристов всего мира. Именно при нём были заложены все основы, превратившие Азербайджан в рай на Земле, а Баку- в город-сказку в жемчужину Кавказа! [5]

Использованная литература:

1. https://1news.az/news/20200129074311471
2. http://www.anl.az/down/meqale/bakrabochiy/2020/fevral/701588.htm
3. https://ru.wikipedia.org/wiki
4. H.Əliyev 100. Sitatlar və kəlamlar. Bakı, 2023
5. https://president.az/ru/pages/view/azerbaijan/leader

Faculty of Education 1, Gambarova Firuza Karim gizi
Head teacher: Naila Huseynova Ismikhan gizi
Azerbaijan University of Languages

HEYDAR ALIYEV AND HISTORY

"There is no more difficult road than the road of independence."
Heydar Aliyev

There are leaders who remain in history, but there are leaders who create history. Heydar Aliyev was the very leader who created the modern history of Azerbaijan, becoming a true legend of his time. Heydar Alirza oglu Aliyev was born on 10 May 1923 in the city of Nakhchivan, Azerbaijan. The history remembers him as a unique leader, a powerful head of state, a selfless man, and a legendary figure able to take on his shoulders a difficult historical task of state building. Heydar Aliyev came to state power on July 14, 1969 as the first secretary of the Communist Party of Azerbaijan under the USSR.

During the years on power he assumed the responsibility for Azerbaijan, together with the people he overcame the heavy and severe obstacles, and established a strong independent republic that we call modern Azerbaijan now.At that time, he completely renewed and upgraded the oil industry, commissioned a number of plants and factories, including high-tech alumina production, hydroelectric power station, textile mill and production of household air conditioners."Modernization" can be the most accurate word to describe his activity. Coming to state power in Azerbaijan during the Soviet period he

commissioned a process of deep modernization in Azerbaijan, which long used to act as a provincial raw outskirt of the Soviet empire. [4]

Heydar Aliyev's philosophy of Azerbaijanism, after gaining independence, determined the place of Azerbaijan in the modern world, provided a strong basis for the solidarity of the world Azerbaijanis as an ideological ground to the national statehood. "Azerbaijanism means preserving national identity, national and spiritual values, and at the same time embelishing them with universal values, as well as ensuring the development of each person" [1,p.253]

Heydar Aliyev attached great importance to upgrading education in the country. Education and upbringing of the younger generation were always the key milestone in state program of the farsighted leader. Heydar Aliyev not only ensured political stability in Azerbaijan but also laid the groundwork for its economic independence. He implemented an anti-crisis program to revive production, improve finances, and attract foreign investment. The signing of the "Contract of the Century" with Western oil companies in 1994 was pivotal, contributing to internal stability and foreign policy success. Aliyev's leadership in projects like the Baku-Tbilisi-Ceyhan pipeline attracted significant Western capital, creating jobs and developing various sectors, leading to Azerbaijan's remarkable economic growth, the highest in the former Soviet space. Additionally, he initiated the development of a new Constitution in 1995 to establish a stable democratic foundation for Azerbaijan's future. [3,p.94-96]

Heydar Aliyev died on December 12, 2003, but the memory of the brilliant politician is still alive to this day. Aliyev's legacy as a symbol of devotion to Azerbaijan lives on, cherished by the Azerbaijani people for his lifelong dedication to serving his homeland during challenging times. His immortal ideas and wise policy was successfully continued by President Ilham Aliyev. Under this farsighted policy, Azerbaijan is rapidly developing and gaining more reputation in the world day by day. [2,p.345]

Literature

1. „Heydar Aliyev: The Great Leader" by Dr. Anar İskandarov
2. „Heydar Aliyev: His life and Political Career" by Fuad Akhundov
3. „Heydar Aliyev:Portraits of National Leadership" by Adjar Babayev
4. „AZERNEWS Newspaper„ https://www.azernews.az/nation/106282.htm

Təhsil 1 fakültəsi, Quliyeva Gülşən Sənan qızı
Elmi rəhbər:fil.f.d.,dos.Pirnəzərova Gülənbər Məhərrəm qızı
Azərbaycan Dillər Universiteti

MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZİN QORUNMASINDA HEYDƏR ƏLİYEVİN ROLU

Milli dəyərlərimizin qorunması və inkişafı ulu öndərimizin adı ilə bağlıdır. Onun Azərbaycana rəhbərliyinin birinci dövründə ölkəmizin sosial-iqtisadi və mədəni həyatında yeniliklər başlanmışdır. Ümummilli lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə xalqımızın milli-mənəvi dəyərlərinin, məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlər həyata keçirilmişdir. Bu onun xalqa bağlılığının bariz nümunəsidir.

Heydər Əliyevin elmə, mədəniyyətə, incəsənətə, ədəbiyyata verdiyi dəyər Azərbaycançılıq ideyaları uğrunda aparılan siyasət idi. O, "Kitabi-Dədə Qorqud" kimi xalqın qəhrəmanlıq dastanının dəyərləndirilməsi və gələcək nəslə ötürülməsində olduqca böyük xidmət göstərdi. Belə ki, dastanın 1300 illik yaşının keçirilməsi Ulu Öndərin milli ruha, qədim etnik düşüncəyə, ulu söykökə bağlılığını və bu kökə sədaqətini açıq etiraf etdi. Mənsub olduğu xalqın tarixi keçmişinə, mədəni irsinə və milli dəyərlər sisteminə sönməz məhəbbət duyğularıyla yanaşan Ulu Öndər deyirdi: "Bizim hamımızı birləşdirən, həmrəy edən Azərbaycançılıq ideyasıdır. Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". [2]

Ulu Öndər Heydər Əliyev milli soy-kökə bağlantının əsas atributlarından biri olan ana dilinə həssas münasibət bəsləmişdir. Heydər Əliyev hər zaman rəsmi tədbirlərdə Azərbaycan dilində çıxış edirdi.

1974-cü ildə Azərbaycan dilinin tədqiqinə görə bir qrup dilçi alimin Dövlət mükafatlarına layiq görülməsi, o cümlədən 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinin çapı, Azərbaycan Elmlər Akademiya-

sının Dilçilik İnstitutunun yaradılması və nəhayət, Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi təsbit olunması da Ulu Öndərin ana dilinin xalqı milli özünüdərkə daşıyan ən ciddi amillərdən biri kimi dəyərləndirməsinin daha bir təsdiqidir. [3]

Müstəqillik əldə olunan zaman ölkəmizdə 20-yə yaxın məscid var idi. Ulu öndər Azərbaycanın müqəddəs məkanlarına, İslam dininə inancı və ehtiramı özündə ehtiva edən ocaqlara dövlət qayğısını sərgiləməklə Azərbaycanın, o cümlədən, özünün İslam dininə münasibətini nümayiş etdirdi. Qeyd edək ki, Bibiheybət məscidində yenidənqurma və əsaslı təmir işləri başlandı. Dünyanın bir çox yerlərindən gələn müsəlmanların ziyarətgahına çevrilmiş məscid sovet əsgərləri tərəfindən 1933-cü ildə partladılıb dağıdılmışdı. VII əsrin yadigarı olan Bibiheybət ziyarətgahı əsrlər boyu insanların inanc və ibadət yeri olub və Azərbaycan xalqı tərəfindən qorunub. XIII əsrdə burada Şirvanşahlar tərəfindən məscid tikilib. Milli-mənəvi dəyərlərin təbliğ olunması, milli ənənələrimizə qayıdış prosesi Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışından sonra yenidən vüsət aldı. Ulu Öndərin səyləri nəticəsində ölkədə sabitlik yarandı, quruculuq, inkişaf dövrü başladı. Həmin dövrdə dövlət büdcəsinin olduqca aşağı olmasına baxmayaraq Bibiheybət məscidinin bərpası üçün ümummilli liderimiz 1994-cü ildə qərar imzaladı. Bundan başqa, 1994-cü ildə Qurban bayramında ulu öndər Heydər Əliyev məscidi ziyarət etdi və binasının tikilməsi üçün göstəriş verdi. 1997-ci ildə İslam peyğəmbəri Həzrəti Məhəmmədin mövludu günündə Heydər Əliyevin iştirakı ilə məscidin bünövrəsi qoyuldu. [4]

Ədəbiyyat siyahısı:

1. https://elibrary.az/docs/jurnal/jrn2017_1048.pdf
2. https://serqqapisi.gov.az/xeberler/ulu-onder-heyder-eliyev-ve-milli-menevi-deyerlerimiz
3. https://www.azerbaijan-news.az/az/posts/detail/heyder-eliyev-ideologiyasi-milli-menevi-deyerler-ve-milli-ozunuderk-mustevisinde-1651963977
4. https://yeniazerbaycan.com/Siyaset_e2824_az.html

Şahin Hacıyev Azər oğlu
Elmi rəhbər: Gülnar Allahverdiyeva Əli qızı
Azərbaycan Dillər Universiteti

MÜASİR DÖVR VƏ İSLAMAFOBİYA

Dünya dinlər olan islam, xristian və iudaizmin, eləcə də digər konfesiyalarm daşıyıcılarının qarşılıqlı etimad şəraitində yaşamalarına Azərbaycanda dövlətçiliyin möhkəmləndirilməsi işinin tərkib hissəsi kimi baxılmalıdır. Bu baxımdan dini əqidənin, vicdan və etiqad azadlığının inaneəsiz həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. Azərbaycanda dini tolerantlıq qeyd edilən amillərin reallaşmasına əlverişli mühit yaradır. Əfsuslar olsun ki, İslamofobiya etimoloji cəhətdən İslam qorxusu kimi İslama və ya müsəlmanlara qarşı düşmənçilik anlayışını ifadə edən bir termindir və günümüzdəki aktual olan problemli mövzulardandır. İslamofobiya İslama və müsəlmanlara qarşı irrasional qorxuya və ya qərəzli münasibətə istinad edir, çox vaxt müsəlmanlara qarşı ayrı-seçkilik və zorakılıq aktlarına gətirib çıxarır. İlk dəfə 1990-cı ildə istifadə olunmuş bu termin 1997-ci ildə nəşr olunmuş "İslamofobiya: hamımız üçün bir təhdid" adlı Rannimed hesabatı o dövrdə İngiltərənin daxili işlər naziri vəzifəsini tutan Cak Strou tərəfindən hazırladılmışdı. 2001-ci ilin 11 sentyabr hadisəsindən sonraki araşdırmalar həm ABŞ-da, həm də Avropada islamofob hərəkətlərin artdığını göstərir. Bu münasibətin qurbanlarını müdafiə etmək üçün müxtəlif ölkələrdə birliklər yaradılıb. Bir sözlə, "islamofobiya" İslam və müsəlmanlar sarıdan sosial narahatlığı ifadə edir. Çoxmillətli və çoxkonfessiyalı ölkə olan Azərbaycanımızda bütün dinlərin və etnik qrupların nümayəndələri əmin-amanlıq şəraitində bir ailə kimi yaşayırlar. XXI əsrdə islamofobiya, ksenofobiya və irqçiliyə yer olmamalıdır. Terrorizm və ekstremizmi hər hansı bir din, millət, sivilizasiya və ya etnik qrupla əlaqələndirmək yanlış yanaşmadır. Dindən siyasi məqsədlər üçün istifadə yalnız cəmiyyətlər daxilində nifaq və qarşıdurma yaratmağa xidmət edir. Bu təzahürlər, eyni zamanda, insanlığı humanizm ideallarından və ümumbəşəri dəyərlərdən məhrum edir, nəticədə sivilizasiyalararası münaqişələrə gətirib çıxarır. Dinin cəmiyyətdə oynadığı rol artan templə getdiyindən dinin sosial təchizat kimi dəyərləndirilməsinə əsas yaratmışdır. Bunun nəticəsidir ki, hazırki mərhələdə din öz muxtariyyətini saxlamışdır. Dini etiqad

və vicdan azadlığı öz əksini Azərbaycan konstitusiyasında tapmışdır. Konstitusiyanın 48-ci maddəsində deyilir: "Hər kəsin vicdan azadlığı var". Əsas qanunda bu maddənin təsbiti insanların etiqad azadlığına təminat verməsinin göstəricisidir ki, bu da demokratik dövlət quruculuğunun komponentlərindən birini təşkil edir.Bundan əlavə olaraq, Bakı şəhərində 08.03.2024 ci ildə "Müxtəlifliyin qorunması:İslamofobiya ilə mübarizə" adlı beynəlxalq konfrans keçirilmişdir. Konfransda prezident İlham Əliyevdə iştirak etmişdir. Prezidentimiz İslamafobiyanın ciddiliyini vurğulayaq, çıxışında bildirmişdir "Təəssüflər olsun ki, dünyada islamofobiya meyilləri sürətlə artmaqdadır. İslamın potensial təhlükə mənbəyi kimi aşılandığının, müsəlmanlara qarşı şübhə, ayrı-seçkilik və açıq nifrətin gündən-günə daha geniş yayıldığının şahidi oluruq. Çoxda uzaq olmayan bir tarixdə 22.03.2024 cü ildə Moskva şəhərində baş verən terror aktın 150 nəfərə yaxın insan ölümü ilə nəticəsində Rusiya Prezidenti Vladimir Putin "Crocus City Hall"a silahlı hücumun "radikal islamçılar"ın əli ilə törədildiyini deyib. Bu isə öz növbəsində olan hadisələrin hansısa ölkə və ya təriqət deyildə daha çox dinə nifrət üzərindən bütün bir dinə sitayiş edən insanları əhatə etdiyinin bir daha sübutudur. Əminəm ki, konfrans islamofobiyaya qarşı birgə səylərlə mübarizəyə, dinlərin və inancların müxtəlifliyinə hörmətə əsaslanan tolerantlıq və sülh mədəniyyətinin təşviqi ilə bağlı yeni təşəbbüslərin irəli sürülməsinə töhfə verəcəkdir."

Ədəbiyyat:

1. Azərbaycan Respublikası prezidentinin fərman və sərəncamları. Azərtac.az. və President.az saytı Azərtac qəzeti. 08.03.2024 buraxlışı
2. İslamofobia Nədir? Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi.
3. 11 sentyabr 2001 terror aktları BCC.COM
4. Moskvada silahlı hücum: BCC.COM

İsmayılova Sevgili Rövşən qızı
Təhsil 1 fakültəsi,
Elmi rəhbər:fil.f.d.,dos.Əsgərova Xuraman Səlim qızı
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN DÖVLƏTİNİN QURUCUSU VƏ XİLASKARI

Adı müasir tariximizə qızıl hərflərlə yazılan Heydər Əliyevi ancaq yeri-göyü işığa qərq edən, qaranlıqları aydınlaşdıran Günəşlə, uca göylərə yüksələn zirvə ilə müqayisə etmək mümkündür. O, bütün cəhətlərə görə hər zaman zirvədə dayanacaq bir şəxsiyyətdir. Xalqımız fəxr edə bilər ki, onun ləyaqətli övladı Heydər Əliyev hələ sağlığında ikən öz adını dünyanın sayılıb-seçilən görkəmli dövlət xadimlərinin, tarixi simalarının siyahısına yazmışdır.

Hər kəsin dəyəri onun yaşadığı zaman kəsiyində göstərdiyi xidmətləri, əməlləri ilə ölçülür. Bu mənada ümummilli liderimiz Heydər Əliyev barəsində belə demək mümkündür: Taleyin ona bəxş etdiyi fitri qabiliyyətini, bütün bacarığını, əqli və fiziki potensialını ana yurdu Azərbaycana həsr etmişdir!

Böyük tarixi şəxsiyyət Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 30 ildən artıq dövrə nəzər salsaq, bunu aydın sezə bilərik. Məlumdur ki, H.Əliyev respublikamıza müxtəlif ictimai-siyasi formasiyalarda rəhbərlik etmişdir və bu cəhətdən onun Azərbaycana rəhbərlik illərini iki mərhələyə bölmək mümkündür. Birinci mərhələ 1969-1985-ci illəri, əhatə edir. Həmin dövrdə Azərbaycan keçmiş Sovet İttifaqının tərkibində olsa da, Heydər Əliyev ittifaq büdcəsindən respublikamıza daha çox vəsait ayrılması üçün sözün əsl mənasında qətiyyət göstərmişdir. O hələ Sovet İttifaqının mövcudluğu şəraitində gələcəyi düşünür, respublikamızın nə vaxtsa müstəqilliyə qovuşacağına inanır və bundan ötrü güclü maddi-texniki baza yaradırdı.[3,s.324-325]

Heydər Əliyev ikinci dəfə Azərbaycana respublikamız müstəqillik qazandıqdan sonra – 1993-2003-cü illərdə rəhbərlik etmişdir.Azərbaycanın ali rəhbərliyinə qayıdanda ölkəmizdə çox ağır vəziyyət hökm sürürdü. Bax, bu fəlakət anında Azərbaycan xalqının, Vətənin yeganə ümid yeri, qurtuluş çırağı Heydər Əliyev idi. Müdrik xalqımız, o zaman qəti və sərrast hərəkət edərək yeganə düzgün addımı atdı – dünyanın bu böyük siyasət adamı xalqın təkidli tələbi ilə hakimiyyətə gətirildi. Bununla da, Azərbaycanın xarici və daxili düşmənlərinin oxu daşa dəydi, bədxahlarımızın arzuları gözlərində qaldı. Məhz o zaman –

1993-cü ilin iyun günlərində Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə Azərbaycanın qurtuluşunda həlledici dönüş baş verdi. Müdrik dövlət xadimi bir neçə siyasi gedişdən sonra vətəndaş müharibəsi təhlükəsini aradan qaldırdı. Xarici və daxili düşmənlərin Azərbaycanı parçalayıb yox etmək, müstəqil dövlətimizi aradan götürmək planı puça çıxdı. Beləliklə, vətənimiz məkrli düşmənlərin hazırladığı uçuruma yuvarlanmadı, fəlakətdən, ölüm qəzasından yan keçdi. Qurtuluş savaşında qələbəyə doğru dönüş başlandı.[2]

Buna görə də Heydər Əliyevin adı tarixə digər böyük xidmətləri ilə yanaşı, ilk növbədə müstəqil Azərbaycanın qurucusu kimi daxil olmuşdur. Onun rəhbərliyi altında keçən illər respublikamız üçün sabitliyin möhkəmlənməsi, iqtisadi çiçəklənmə, nüfuzlu beynəlxalq təşkilatlarla, dünya dövlətləri ilə sıx əməkdaşlıq qurulması, əhalinin rifah halının yaxşılaşması illəri olmuşdur.

Bir sözlə, zəmanəmizin qüdrətli siyasətçisi Heydər Əliyev öz doğma xalqını dibi görünməyən yarğanların, uçurumların üzərindən böyük müdrikliklə, incə və çevik siyasətlə, nazik tellər üzərindən keçirib bu günlərə çatdırdı!

Bəli, Heydər Əliyevin böyüklüyü ilk növbədə onun milliliyində, mənsub olduğu xalqa, adət-ənənələrə bağlılığında, vətənpərvərliyində idi.Heydər Əlİyevin həyatsevərliliyinin, bitib-tükənməyən həvəsinin təməlində ana Vətən, doğma Azərbaycan dayanırdı. Bu böyük insan köklərə möhkəm bağlı olduğuna görə güclü, qüdrətli idi. Böyük öndər bütün həyatı və fəaliyyəti boyu xalqını özünə arxa sanmış və özü də xalqa dayaq durmuşdur. Dillər əzbəri olan "Xalq-Heydər – Heydər-Xalq" deyimi də məhz bu qırılmaz bağlılığın dəqiq ifadəsidir.Şair Nəsib Qaramanlı yazır: Bu Vətənə xidmətində, Bu millətə hörmətində,Bu dövlətin qüdrətində Yaşayır Heydər babamız!Əməli zəfər babamız![1]

Ədəbiyyat siyahısı

1. Xalq"qəzeti: Müasir Azərbaycanın qurucusu və xilaskarı.12 dekabr 2018
2. "Səs"qəzeti:Heydər Əliyev Azərbaycan Dövlətinin xilaskarı və qurucusudur. 3 may 2023.
3. Tahir Abdullayev:Məqalələr toplusu.Bakı,2008 [s.324-326]

Ağalarlı Nəzrin
Təhssil 1 fakültəsi, B20-414B qrupu
Elmi rəhbər: Gözəlova Tahirə, baş müəllim
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCANA FƏDA EDİLMİŞ ŞƏRƏFLİ ÖMÜR

Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir.
Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir.
Heydər Əliyev

Böyük Çin filosofu Konfutsi yazırdı ki, hər bir insanın həyat yolunu onun mənəvi dünyası, xarakteri müəyyən edir. Bəşər övladının mahiyyəti, mənəvi keyfiyyətləri həqiqətən də onun əməllərində, fəaliyyətində real təcəssümünü tapır. Dərk edilmiş məsuliyyətdən irəli gələn bu fəaliyyət həm də şəxsiyyət ucalığına qovuşmuş bu insanların cəmiyyətdəki layiqli mövqeyini, ictimai statusunu müəyyənləşdirir. Yəqin elə buna görədir ki, xeyirxah və alicənab insan kimi tanınaraq ömrün kamillik zirvəsinə yetişmək, bu dünyada iz qoymaq xoşbəxtliyi heç də hamıya nəsib olmur.

Sağlığında böyük hörmət-izzət sahibi olan, haqq dünyasına qovuşduqdan sonra çoxlarının xatirəsində kamil insan, sədaqətli dost, vətənpərvər ictimai-siyasi xadim, unudulmaz müəllim və qayğıkeş ailə başçısı kimi qalan belə insanlardan biri də Zakir Həsən oğlu Sərdarovdur. Cəmiyyətə xüsusi təqdimata ehtiyacı olmayan bu parlaq şəxsiyyət qəzavü-qədərdən cəmi 55 il ömür sürsə də, insanlığın zinəti sayılan saf və münis dəyərləri parlaq xarakterində yaşadıb, şəxsiyyətini, mənliyini, ad-sanını və həyat prinsiplərini qoruya bilib.

Antik yunan mütəfəkkiri Diogen bir dəfə günorta vaxtı əlində yanan çıraqla küçələri dolaşarkən, ətrafdakıların təəccüb və sual dolu baxışlarına cavab kimi "Əsl insan axtarıram", – deyir. Xalqımız qədim zamanlardan daxilən zəngin, nəcib, xeyirxah və mərd insanları ilə qürur duyub, onları özünün milli sərvəti sayıb. Bu insanlar xalqın zəngin mənəviyyatını, əxlaqını parlaq şəxsiyyətlərində qoruyub, həyatda

kişi kimi yaşamaq, ad qoymaq üçün insana ləyaqət və şərəf hissinin yetərli olduğunu sübuta yetiriblər. Uzun illər jurnalistika sahəsində çalışaraq qələminin qüdrəti ilə publisistika zivrəsinə yüksələn, milli tariximizin sanballı araşdırıcılarından biri kimi elmdə sözünü deyən, Milli Məclisin deputatı statusunda layiqli xidmətilə seçilən, Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti vəzifəsində gəncliyin nurlu sabahına çalışan Zakir Sərdarov də məhz belə kişilərdən idi. Çağdaş tariximizin ən çətin, taleyüklü dövründə Azərbaycanın nicatını, xilas yolunu haqlı olaraq Heydər Əliyev dühasının böyük siyasətə qayıdışında – yenidən hakimiyyət olimpinə yüksəlməsində görən məşhur "91-lər"in sırasında adı daim ehtiramla çəkilən Zakir Sərdarov ləyaqətli və şərəfli ömür yolu, vətənpərvər ictimai-siyasi fəaliyyəti ilə onu tanıyanların qəlbində silinməz iz qoyub.

Hər bir şəxsiyyət üzləşdiyi amansız mühitdən də əvvəl məhz ailə ocağında yetişir, formalaşır, gələcək həyat yolunu müəyyənləşdirməyə çalışır. İnsan xarakterinin formalaşmasında onun doğulub boya-başa çatdığı, suyunu-çörəyini daddığı, havasını udduğu ana təbiətin də rolu az deyil. Müdriklərimiz əbəs yerə "ot kökü üstə bitər" deməyiblər. Hələ yetkinlik yaşından Zakir Sərdarovun boya-başa çatdığı halal ailə, əhatə olunduğu saf mühit onu məhz kişi kimi yaşamağa, ömrü ləyaqətlə başa vurmağa, daim haqqa, ədalətə tapınmağa, mübariz olmağa məhkum edib. 1943-cü il dekabrın 31-də qədim yurd yerimiz olan Qərbi Azərbaycanın Qaraqoyunlu mahalının Yanıqtəpə kəndində qulluqçu ailəsində anadan olan Zakir Sərdarovun cəmiyyət üçün layiqli vətəndaş və şəxsiyyət kimi yetişməsində ilk növbədə valideynlərinin böyük rolu olub. Ailəsini dolandırmaq üçün hər bir əziyyətə qatlaşan atası Həsən kişi el arasında mərdliyi, sözünə bütövlüyü, yüksək insani keyfiyyətləri ilə tanınıb. Tanınmış Əfəndilər nəslindən olan anası Züleyxa xanım isə Azərbaycan qadınına xas isməti, namusu, ailəcanlılığı nəcib xarakterində cəmləyib.

Ədəbiyyat:

1. https://redaksiya.az/azerbaycana-feda-edilmis-serefli-omur/
2. https://xalqqazeti.az/az/sosial-heyat/124429-dogma-xalqina-hesr-olunmus-serefli-omur

Məmmədzadə Aytac
ADU, Təhsil -1 fakültəsi, B20-414A qrupu
Elmi rəhbər: Gözəlova Tahirə, baş müəllim

ƏBƏDİ MÜSTƏQİLLİK TARİXİ YAZAN LİDER HEYDƏR ƏLİYEV

Xalq azadlıq uğrunda mübarizə apararkən qurbanlar verməlidir.
Keçmişdə də belə olmuşdur, bu gün də belədir, gələcəkdə də belə olacaqdır.
Heydər Əliyev

Dünya ölkələrinin tarixində olduğu kimi, Azərbaycan dövlətçiliyinin tarixi də göstərir ki, şəxsiyyətlərin gücü, ağlı və siyasi müdrikliyi bütün ölkənin həyatında taleyüklü rol oynayır. Bu şəxsiyyətlər içində hər zaman bir boy uca görünəcək bir zirvədə müstəqil Azərbaycanın qurucusu və memarı, ümummilli liderimiz Heydər Əliyevin əzəmətli abidəsi ucalacaq. İllər keçəcək, müstəqil Azərbaycanın hakimiyyət olimpinə çox dövlət başçıları, siyasi xadimlər gələcək, amma ulu öndər Heydər Əliyevin göstərdiyi xidmətlərin səviyyəsinə qalxmaq, onun ucaldığı zirvəyə ucalmaq kimsəyə nəsib olmayacaq.

Türk xalqının böyük oğlu, tanınmış dövlət xadimi Bülənt Ecevit siyasət nəhəngi Heydər Əliyevin xidmətlərini qiymətləndirərkən böyük fəxarətlə demişdir: "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir". Haqlı olaraq bu gün Heydər Əliyevin adı XX əsrin siyasət nəhənglərinin panteonunda Şarl de Qoll, Uinston Çerçil, Konrad Adenaur, Ruzvelt kimi dahilərlə yanaşı çəkilir.

Heydər Əliyevin 30 illik siyasət epoxası xalqımızın yüz illərlə həsrətində olduğu Azərbaycanın dövlət müstəqilliyinin əldə edilməsi, onun azad inkişafı və yüksəlişi naminə apardığı mübarizələr və qələbələr tarixidir. Bu epoxanı araşdırmaq, tarixi qələbələrin dəyərini vermək təbii ki, alimlərin, politoloqların və tədqiqatçıların işidir. Amma bu siyasət nəhənginin, böyük dahinin müasiri, onun komandasının üzvlərindən biri olmaq şərəfi taleyimizə yazıldığı üçün ulu öndərdən danışmağı da özümüzə şərəf və qürur hesab edirik.

Ulu öndərin Azərbaycana rəhbərliyinin 30 ilinin az qala yarıdan çoxu Sovet dönəminə təsadüf edir. Nə qədər qəribə olsa da, əslində Heydər Əliyev elə bu illərdə, Sovet imperiyasının sərt rejiminə baxmayaraq, Azərbaycanın gələcək müstəqilliyi üçün göstərdiyi misilsiz xidmətlərilə adını tarixə yazmışdı. Amma nadir istedad sahibi olan bu dahinin təyinatı başqa idi və Tanrı onu məhz öz missiyasını yerinə yetirmək üçün ən sərt və amansız mübarizələrdən belə qalib çıxarır, qoruyur və irəli aparırdı.

Ulu öndər həmin illəri xatırlayaraq müsahibələrinin birində deyirdi: "Bütün həyatım boyu mənə qarşı paxıllıq hissləri ilə üzləşmişəm. Amma tale elə gətirib ki, mən həmişə uğur qazanmışam. Mən çox ağır və mürəkkəb həyat yaşamışam. Gənclik illərində də, sonra da mənim çətin işim olub. Yaşıma uyğun olmayaraq, vəzifə pillələrində sürətlə qalxmışam. Ona görə də həyatımın bütün mərhələlərində həmişə özümə qarşı paxıllıq hiss etmişm".

Bu parlaq şəxsiyyətin məhz həmin illərdəki fəaliyyətini izləyəndə onun – təpədən dırnağa böyük azərbaycanlının, Vətənini hədsiz dərəcədə sevən bir insanın ölkəsinin tarixinə, keçmişinə, mədəniyyətinə, ədəbiyyatına son dərəcə böyük sevgi və sayğı ilə yanaşdığını görür və heyrətlənməyə bilmirsən. Onun həyatının hər hansı dövrünü araşdırıb, xidmətlərini təhlil etdikdə aydın olur ki, bu dərin zəka sahibi hələ Dövlət Təhlükəsizlik orqanı kimi çox sərt rejimli bir müəssisədə çalışanda belə, içində Azərbaycanın müstəqillik arzuları alışıb yanırmış. Bu arzular onun bütün fəaliyyəti boyu çox aydın şəkildə özünü göstərmişdir. Artıq müstəqillik illərində ulu öndər mətbuat orqanlarına verdiyi müsahibələrinin birində bunu etiraf etdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun, hər şeydən əvvəl iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Moskvada məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır. Mən onlara demirdim nə üçün bu lazımdır...

Mən istəyirdim mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".

"Tarix göstərir ki, şəxsiyyətin gücü bütün ölkənin taleyində mühüm rol oynayır. Əgər müəyyən məqamlarda SSRİ-nin başında daha güclü xarakterə malik insan, məsələn, Heydər Əliyev qalmış olsaydı, bəlli deyil ki, ölkənin taleyi necə olacaqdı". Bu, artıq Sovet imperiyası süquta uğrayandan sonra bütün postsovet məkanında tez-tez səslənən ən populyar fikirlərdən biridir. Çünki bu şəxsiyyətin nüfuzu, gücü və xalq arasındakı məhəbbəti hamıya məlum idi. Əslində Qorbaçova qədər onun SSRİ-yə rəhbər olacağı fikri bütün dünya mətbuatında geniş müzakirə olunurdu.

Ədəbiyyat:

1. https://files.preslib.az/projects/heydaraliyev/articles/he1169.pdf
2. https://yeniazerbaycan.com/Arxiv_e59438_az.html

Qaraşlı Aydan
Təhssil 1 fakültəsi, B20-414B qrupu
Elmi rəhbər: Gözəlova Tahirə, baş müəllim
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV AZƏRBAYCAN TARİXİNİN FENOMENİ

Tarixi olduğu kimi qəbul etmək, dərk etmək və olduğu kimi qiymətləndirmək lazımdır.
Heydər Əliyev

Ulu öndər Heydər Əliyevin anadan olmasından 91 il ötür. Hər ötən il Heydər Əliyev dühasının böyüklüyünü, möhtəşəmliyini bir daha üzə çıxarır. Zaman Ümummilli lider Heydər Əliyevin siyasi baxışlarına daha dərin məna qazandırır, Onun Vətənimizin bu gününə və gələcəyinə çox möhkəm tellərlə bağlı olduğunu daha aydın göstərir. Dövrümüzün ictimai-siyasi reallıqları, geopolitik məkanda baş verən gözlənilməz dəyişikliklər və bütün bu təlatümlərin fövqündə dayanan müasir milli dövlətçiliyimiz Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun rasional əsaslar üzərində, mükəmməl bir məntiqdən - Heydər Əliyev zəkasından yoğrulduğunu bir daha sübut edir. Böyük siyasi mütəfəkkir kimi, Ümummilli liderin keçdiyi həyat yolu və bütöv bir xalqın gələcəyini müəyyən edən uğurlu siyasi kursunun kökündə dayanan səbəblər haqqında çoxsaylı dəyərli əsərlər yazılmışdır. Bu araşdırmalarda Ulu öndər

Heydər Əliyev yeni tarixdə xalqımızın yetişdirdiyi ən böyük düha sahibi kimi xarakterizə olunur və bu şəksizdir. Lakin Heydər Əliyev şəxsiyyətinə təkcə Azərbaycan kontekstində deyil, daha geniş miqyasda - XX əsrin qlobal siyasi aynasında baxmaq, dünya siyasətinin formalaşmasında mühüm rol oynamış siyasi xadimlərlə, dövlət rəhbərləri ilə bir sırada nəzər salmaq Onun siyasi portretini daha önəmli cizgilərlə zənginləşdirmiş olar. Ümummilli lider Heydər Əliyevin siyasi fəaliyyəti, əsasən, XX əsrin ikinci yarısı ilə bağlıdır. Bütövlükdə XX əsr bəşər tarixində bir çox tələtümlü hadisələrin baş verdiyi, iki dünya mü-haribəsinin od ələdiyi, çoxsaylı milli dövlətlərin meydana gəldiyi, siyasi və iqtisadi böhranların qaçılmaz olduğu və eyni zamanda, dünya inkişafına təkan verən proseslərin yaşandığı qlobal ziddiyyətlərlə dolu dramatik yüzillik kimi səciyyələndirilir. Bəşəriyyət məhz tarixi şəxsiyyətlərin sayəsində ziddiyyətli, odlu-alovlu dünyadan sabit və dayanıqlı dünyaya keçid aldı. XX əsrin tarixi məhz şəxsiyyətlərin tarixdəki rolu baxımından ibrətamiz bir dövr oldu. Bu tarixi Çörçilsiz, De Qollsuz, Kennedisiz, Mandelasız və eləcə də Heydər Əliyevsiz təsəvvür etmək mümkün deyil. Tarixi sınaqlar qarşısında öz xalqlarını məhv olmaq təhlükəsindən böyük siyasi məharət hesabına çıxarmağa nail olmuş bu tarixi şəxsiyyətlər XX əsrin müxtəlif dövrlərində təkcə öz ölkələrinin deyil, həm də regionun və bu regionda yaşayan xalqların tarixində dönüş yaratmağa nail olmuşlar. Həyat və mübarizə yollarına nəzər saldığımız liderlər fəaliyyət göstərdikləri məkanın coğrafi sərhədlərini aşaraq universal düşüncə sahibləri, dünyanın yeni sosial yaşam, yeni siyasət reallıqlarını ərsəyə gətirən yaradıcı insanlar kimi tanınmışlar. Onlar üçün məkan və zaman fərqi yoxdur. Bu baxımdan, Ulu öndər Heydər Əliyevin malik olduğu ali insani keyfiyyətlər və siyasi qabiliyyətlər Ona istənilən siyasi mühitdə və istənilən coğrafi məkanda siyasi elitanın ən yüksək pilləsində qərarlaşmağı təmin edə bilərdi. Belə bir dühanın məhz Azərbaycan xalqına mənsub olması və Özündən sonra bu xalqın tarixində yaradıcı iz və daha uzaq gələcəyə hesablanmış siyasi irs qoyması bütövlükdə xalqımızın milli uğuru və iftixar mənbəyidir. Müasir dünya tarixində yaradıcı iz qoymuş digər tarixi şəxsiyyətlərlə ortaq məziyyətlər daşıdığı üçün və bəzi hallarda isə həmin siyasi xadimləri belə üstələyən keyfiyyətlərə malik olduğu üçün Ulu öndər Heydər Əliyev dünya miqyaslı fenomenal şəxsiyyətdir, Azərbaycan xalqının hər zaman fəxr edəcəyi və həyat yolundan ibrət götürəcəyi böyük bir mütəfəkkirdir.

Ədəbiyyat:

1. https://anl.az/down/meqale/azerbaycan/azerbaycan_iyul2009/86109.htm
2. https://cavansir.feyziyev.com/bloq/tarixde-heyder-eliyev-fenomeni.php

İbrahimov Rəsul Elşan oğlu
Elmi rəhbər: müəllim, Feyziyeva Günay Mobil qızı
Azərbaycan Dillər Universiteti

AKP DÖVRÜNDƏ TÜRKİYƏ-İSRAİL MÜNASİBƏTLƏRİ

Türkiyə Respublikasının xarici siyasətində İsraillə münasibətlər xüsusi yer tutur. 1949-cu ilin mart ayında Türkiyənin İsrailin müstəqilliyini tanıması ilə ikitərəfli münasibətlər başladı. 1948-1949-cu illər Ərəb-İsrail Müharibəsi zamanı ərəb ölkələri Türkiyəni öz tərəfinə çəkməyə çalışsa da, Türkiyə hökuməti barışdırıcı mövqe göstərmişdir[1]. Türkiyə və İsrailin ikitərəfli münasibətləri siyasi, iqtisadi istiqamətdə inkişaf etmişdir.

İkitərəfli münasibətlər AKP-nin (Ədalət və İnkişaf partiyası 2003) hakimiyyətə gəlişi ilə öz istiqamətini dəyişdirdi. AKP hakimiyyətinə kimi strateji əhəmiyyət daşıyan münasibətlər 2008-2009-cu illərdən gərginləşməsi ilə əvvəlki səviyyəsini itirmişdir. Türkiyənin Fələstin və Qüds mövzusundakı mövqeyi, Türkiyə-İsrail əlaqələrini müəyyən edən ən önəmli məsələ olmuşdur. İsrail dövlətini 1949-cu ildə tanıyan ilk müsəlman ölkə olan Türkiyənin, İsrail rəhbərliyinin Fələstin torpaqlarına nəzarəti genişləndirməsinə göstərdiyi reaksiya münasibətlərinin inkişafına da istiqamət vermişdi.

Siyasi xətti dinyönümlü olan sağçı AKP hakimiyyətinin sədri R.T.Ərdoğanın 2005-ci ildə İsrailə ziyarəti əks-səda yaratmışdır. Bu səfər qonşu ərəb dövlətlərinin Fələstin məsələsinə dair gözləntilərini doğrultmamışdı.

2009-cu ildə Dünya İqtisadi Forumunda R.T.Ərdoğanın İsrail Prezidentinin çıxışına və auditoriyaya etirazı tarixə ikitərəfli münasibətlərdə siyasi böhran kimi qəbul edilmişdir. Həmçinin, siyasi böhranın da-

vamı olaraq 2010-cu ildəki Mavi Mərmərə hadisəsi ilə daha da gərginləşən əlaqələr 2013-cü ildə tərəflərin gərginliyin azaldılması cəhdləri ilə nəticələnir [3, 4].

”Osmanlı Varisi” kimi Yaxın Şərqdə nüfuzunu yaymaq istəyən AKP hakimiyyəti ilə İsrail administrasiyası arasında Fələstin məsələsi ilə bağlı zaman-zaman gərginliklər yaşanmasına gətirib çıxarmışdı. Lakin, “Osmanlı Varisliyi” siyasəti də yeganə səbəb deyil. İslam dünyasında siyasi lider kimi çıxış edən AKP adminstrasiyasının İslam dünyasında nüfuz artırmaq istəyi də gərginliyin yaşanmasına təsir edən əsas səbəblərdəndir. Bütün bu gərginliklərə baxmayaraq, iqtisadi sahədə əlaqələr inkişaf etmişdir. Belə ki, 2002-ci ildə 1,41 milyard dollar olan ticarət həcmi 2022-ci ildə 8,91 milyard dollara yüksəlmişdir [2]. Bütün bu gərginliklərdən ən çox təsirlənən sahə isə turizm sahəsi olmuşdur. Nəticədə, siyasi sferada gərginliklər yaşansa da, AKP hakimiyyəti dövründə iqtisadi əlaqələr ciddi şəkildə təsirlənməmişdir.

İkitərəfli münasibətlərdə Azərbaycan faktorunu da xüsusi vurğulamaq lazımdır. İsrailin İslam dünyasındakı əsas müttəfiqi olan Azərbaycan digər tərəfdən Türkiyənin strateji müttəfiqi hesab olunur. Antisemitizm tarixi olmayan, həm İsrail, həm də Türkiyə ilə yaxşı münasibətləri olan Azərbaycan bəhs olunan iki ölkənin bir-birinə yaxınlaşmasına böyük təsir göstərir. Xüsusilə, II Qarabağ müharibəsində qazanılan zəfər ilə dünya arenasında nüfuzu artan ölkəmizin gələcəkdə də Yaxın Şərqin iki nüfuzlu dövləti arasında əlaqələrin normallaşması və inkşafına töhfə şansı digər ölkələrə nisbətən yüksəkdir [5].

II Qarabağ savaşından sonra yumşalan münasibətlər 07 oktyabr 2023-cü il Həmasın İsrailə terror hücumu və İsrailin əks terror əməliyyatları ilə gərginləşmişdir. Qəzza Zolağındakı davam edən hərbi əməliyyatlar bu yumşalma zamanına mənfi təsir göstərdi və əlaqələrin yenidən gərginləşməsinə gətirib çıxardı. Türkiyə-İsrail əlaqələrinin inkişaf dinamikasını Qəzza zolağındakı hadisələrin nəticəsindən sonra daha aydın təhlil etmək mümkündür.

Ədəbiyyat siyahısı:

1. Türkiye-İsrail İlişkileri // www.kdu.edu.tr
2. Türkiye-İsrail Ekonomik ilişkileri AK parti İktidarında // www.euronews.com
3. "Adelet ve Kalkınma Partisi Döneminde Türkiye-İsrail İlişkileri" // www.unis.asbu.edu.tr
4. AKP dönemi TR-İsrail ilişkileri // www.cloudfront.com
5. "Azərbaycan Türkiyə-İsrail münasibətlərini yenidən bərpa edə bilərmi?" // www.moderator.az

Qurbanlı Pakizə Rüfət qızı
Elmi rəhbər: fil.f.d., dosent Zeynalova Sənubər Surxay qızı
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN QADINI

Azərbaycanın minillik tarixinin bütün dövrlərində qadın məsələsi cəmiyyətin daima diqqətində olmuşdur. Qadınlar siyasət, diplomatiya, ədəbiyyat, incəsənət və iqtisadiyyat sahələrində öz sözlərini demişdirlər. Qadınların ictimai və siyasi həyatın bütün sahələrində fəal olmalarının formalaşması isə Ulu öndərimiz Heydər Əliyevin 40 ilə yaxın bir müddət ərzində apardığı qadın siyasəti sayəsində olmuşdur. Azərbaycanda qadınların hüquqlarının qorunması, onların ictimai fəallığının təşkili məsələsi Heydər Əliyev tərəfindən hər zaman diqqət mərkəzində saxlanılıb. Ümummilli liderimizin hələ 1969-cu ildə hakimiyyətə gəldiyi dövrdən etibarən dövlət strukturlarında, məsuliyyətli ictimai işlərdə qadınların irəli çəkildiyini görə bilərik. 1993-cü ildən sonrakı dövrdə də ölkəmizdə qadınlarımızın aktiv fəaliyyəti hər zaman diqqət mərkəzində olub. Müstəqil Azərbaycanın 1995-ci ilin 12 noyabrında qəbul edilən Konstitusiyası qadınların kişilərlə bərabər hüququnu təsdiqləməklə demokratik dövlət quruculuğu prosesində onların fəal iştirakının hüquqi bazasını yaratmışdır. Məlumdur ki, Azərbaycan Respublikası Konstitusiyasının 55-56-cı maddəsində qadınlar da daxil olmaqla bütün vətəndaşların dövlətin idarə olunmasında iştirak etmək hüququ təsbit edilir [2, s.11].

Onlar dövlət orqanlarında qulluq etmək və bütün seçkilərdə qeyd-şərtsiz iştirak etmək hüququna malikdirlər. Respublikada qadınlara dair dövlət siyasətini daha mütəşəkkil şəkildə həyata keçirmək məqsədilə Ümummilli lider Heydər Əliyev 14 yanvar 1998-ci il tarixli fərmanı ilə Qadın Problemləri üzrə Dövlət Komitəsi yaratdı və Nazirlər Kabinetinə ölkənin siyasi, sosial-iqtisadi, mədəni həyatında qadınla-

rın rolunu artırmaq məqsədilə müvafiq təkliflər işləyib hazırlamağı tapşırdı. Bu ulu öndərimizin Azərbaycan qadınlarına göstərdiyi qayğının parlaq nümunəsi idi. Eyni zamanda qadın problemlərinin həlli zərurəti 1998-ci il sentyabrın 25-də keçirilmiş ilk qurultayda qeyd olundu. Heydər Əliyevin 6 mart 2000-ci il tarixdə "Azərbaycan Respublikasında Dövlət Qadın Siyasətinin həyata keçirilməsi haqqında" imzaladığı 289 saylı Fərmanı respublika qadınlarına 8 Mart bayramı qabağı önəmli hədiyyə olmuşdu. Fərmanda qadınların rəhbərlik səviyyəsində kişilərlə bərabər təmsil olunması, Dövlət Statistika Komitəsinə Qadın Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə standartlara cavab verən statistik məlumatların hazırlanması, Nazirlər Kabinetinə ölkədə gedən iqtisadi islahatlar çərçivəsində həyata keçirilən işlərdə gender siyasəti tələblərini rəhbər tutaraq qadınlar üçün kişilərlə bərabər imkanlar yaradılması, qaçqın və məcburi köçkün qadınların məşğulluğunun təmin edilməsi məqsədi ilə onların münasib işlə təmin edilməsi proqramının hazırlanıb həyata keçirilməsi, Ümummilli liderimizin, respublika əhalisinin yarıdan çoxunu təşkil edən qadınlara böyük diqqəti idi [3, s.11]. Azərbaycan qadınları böyük fərəh hissi duya bilərlər ki, respublikamızın prezidenti möhtərəm İlham Əliyev ulu öndər Heydər Əliyevin göstəriş və nəsihətlərini özünün bu sahədə fəaliyyət proqramı kimi qəbul etmiş və onu zənginləşdirmə yolunda cəsarətli addımlar atmışdır.

Azərbaycanda dövlət quruculuğu məsələsində Heydər Əliyev zəkası, təcrübəsi öz bəhrəsini verməyə başladı. Bu gün Azərbaycan qadını cəmiyyətin bərabərhüquqlu bir üzvüdür və öz huquqlarını qoruyur. [5, s.91] İndi dünyanın hər yerində qadınların bərabərlik tərəqqi sülh uğrunda mübarizə hərəkatı geniş vüsət almışdır. Ötən illərin sonlarında isə Azərbaycanda elə bir şərait yarandı ki qadınlarımız öz potensiallarını üzə çıxara bildilər. Unutmayaq ki, qadınla yüksələn cəmiyyət, xalq, vətən basılmaz olur.

Ədəbiyyat

1. Azərbaycan tarixi 1918-1920, Cəmil Həsənli, Azərbaycan Kültür Dərnəyi, Ankara 1998
2. Azərbaycan Respublikasının Ailə və Qadın Problemləri üzrə Milli Fəaliyyət Planı (MPF) 2007-2010-cu illər
3. Gender elminə giriş, Qərb Universiteti Gender Araşdırmaları Mərkəzi, 1-ci cild, Bakı 2005
4. Müstəqilliyimizin təminatçısı, İradə Hüseynova, Təhsil Nəşriyyatı, Bakı 2003
5. Women in Elective Office 2008, Center for American Women and Politics,
6. Eagleton Institute of Politics, The State University of New Jersey, 2008

Zeynalova Bənövşə Canlar qızı, 277
Elmi rəhbər: müəl. Tajdehibonab Mehparə
Azərbaycan Dillər Universiteti

ÇEXİYA MEMARLIQ ABİDƏSİ – MÜQƏDDƏS VİT KAFEDRALI

Çexiya göz oxşayan memarlıq abidələri ilə məşhurdur. Bunlardan biri də Praqada yerləşən qotik üslublu Müqəddəs Vit kafedralıdır. Müqəddəs Vit kafedralı çex xalqının sənət və ümummilli yadigarı hesab olunur. Müqəddəs Vit kafedralı haqqında bir çox əyləncəli faktlar vardır: Müqəddəs Vit kafedralının Qarqoylları bir çox heykəltəraşlar tərəfindən yaradılmışdır, ona görə də fasadda iki oxşarı tapa bilməzsiniz. Yağış suyu drenajlarının praktiki məqsədinə xidmət etməklə yanaşı, qarqoyllar şeytanın bir çox üzlərini təmsil edir. Yerli sakinlər zarafatla deyirlər ki, heykəltəraşlar kafedral canavarlarının üzlərini yaradarkən qayınanalarından ilham almışlar. Bəli, bu bir çex yumorudur!

Praqa kafedralının tikintisi yarımçıq dayansa belə, burada hələ də kütləvi, dəfn və tacqoyma mərasimləri keçirilirdi. Bina indiki ölçüsünün yalnız yarısı olduğundan bütün tamaşaçıları yerləşdirmək üçün əlavə taxta eyvanlar tikilməli idi. Qanuni olaraq, Müqəddəs Vit Kafedralı nə kilsəyə, nə də dövlətə aiddir. 1950-ci illərdə onun tikintisi başa çatdıqdan sonra, hər iki tərəf məhkəmədə kafedralın mülkiyyəti uğrunda mübarizə apardı və bu, kompromislə başa çatdı: Praqadakı ən mühüm kilsə özünəməxsus olacaq.

Sol tərəfdəki üçüncü ibadətgahda yerləşən Alfons Muça tərəfindən hazırlanmış vitraj şüşələrdir. Rozet pəncərəsinin altında olduqca müasir paltarda dörd kişi büstünü görə bilərsiniz. Bunlar kafedralın tikintisini başa çatdıran memar və rəssamlardır: Yozef Moker, Frantisek Kisela. Xarici məbədin qərb fasadı ilk növbədə hündürlüyü ilə heyranedicidir. Qərb qüllələrinin hündürlüyü 82 metrdir, onların arasında ajur qızılgül formasında 10 metrlik dairəvi pəncərə yerləşir. 1954-cü ildə hökumətin qərarı ilə bütün Praqa qalası "bütün çexoslovak xalqının" mülkiyyətinə və Prezident Aparatının idarəçiliyinə həvalə edildi.

Bütpərəst Siciliya senatorunun oğlu olan Vitus tibb bacısı tərəfindən xristianlığı qəbul etdi və sonra həlak oldu. O, İmperator Diokletianın oğlundan pis ruhu qovduğu üçün əsəb xəstəliklərinin himayədarı oldu. Bildiyimiz kimi Müqəddəs Vit Kafedrali Praqanın ən böyük və ən əhəmiyyətli məbədidir. Burada dini ayinlərlə yanaşı, Çex kral və kraliçalarının tacqoyma mərasimləri də keçirilirdi. Kafedral bir neçə himayədarın, zadəganların və arxiyepiskopların dəfn yeridir.

Ədəbiyyat siyahısı:

1. A.C.Seyidova., "Avropa mədəniyyəti və dünya sivilizasiyasına onun təsiri". Metodik vəsait. Bakı 2015.
2. https://www.praguehere.com/st-vitus-cathedral/
3. https://thecreativeadventurer.com/a-guided-tour-of-st-vitus-cathedrals-incredible-stained-glass/

Quliyeva Aysu Ramin, qr.277
Elmi rəhbər: müəl. Tajdehibonab Mehparə
Azərbaycan Dillər Universiteti

İVAN KUPALA BAYRAMI

İvan Kupala slavyanların, xüsusilə də şərq slavyanlarının ənənəvi bayramıdır. Bu bayram gündönümü ilə bağlıdır. Belə ki, bu bayramdan əvvəl günün uzunluğu daha uzun, ondan sonra isə daha qısa olur. Bütpərəst bayramı olan bu bayram əvvəllər iyunun 23-dən 24-nə keçən gecə, Qriqorian təqvimi tətbiq edildikdən sonra isə iyulun 6-dan 7-nə keçən gecə qeyd olunmağa başlamışdı. İvan Kupala daha çox bütpərəst köklərə malik olsa da, Xristianların Vəftizçi Yəhyanın Doğulması bayramı ilə üst-üstə düşür və müasir adı Vəftizçi Yəhyanın kilsə adından gəlirdi [1].

Kupala ənənələri təbiətə sitayişi nümayiş etdirir. Məhz buna görə də, əsas qəhrəmanlar insanlar deyil, su, otlar, bitkilər, Ay və Günəşdir. Kupala gecəsində əsas əyləncələr çimmək, çələng toxumaq, odun üstündən tullanmaq, fal baxmaq, ağac bəzəmək və qıjı çiçəyi axtarmaq idi.

Odun üstündən tullanmaq şənliyin əsas hissəsi idi. Belə bir maraqlı fakt vardır ki, Kupala atəşi sürtünmə nəticəsində əldə edilən "canlı alov"la yandırılır. Tonqal əsasən günəş batdıqdan sonra yandırılır və səhərə qədər sönməməsi üçün nəzarətdə saxlanılırdı. Alovu yandırmaq şərəfi cəmiyyətin ən yaşlı üzvünə verilirdi. Gənc cütlüklər əl-ələ tutaraq alovların üstündən atlanırdılar və inanırdılar ki, bir-birlərinin əllərini buraxmasalar, tezliklə evlənəcəklər. Kəndlilər hətta mal-qaralarını odun arasından keçirdilər ki, daha çox çox süd versin və xəstələnməsinlər. Əgər ailədə uşaq xəstə idisə, onun köynəyi tonqalda yandırılırdı. Onlar inanırdılar ki, o zaman uşaq sağalacaq [4].

Ən maraqlı və qeyri-adi ənənə, fern (qıjı) çiçəyinin axtarışıdır. Əfsanəyə görə, bu çiçək yalnız Kupala gecəsində çiçək açır. İnanca görə, onu yalnız çox şanslı bir gənc tapa bilər. Digər ayinlərdən fərqli olaraq, bu ayin fərdi şəkildə yerinə yetirilməli idi. Bu isə yalnız cəsurlar üçündü, çünki gecəyarısı meşədə dolaşmaq lazım idi. Əfsanələrə görə, bu çiçəyin sehrli gücləri var, kim onu qoparsa, heyvanların və bitkilərin dilini başa düşəcək və gizli xəzinələri görə biləcəkdi. Ən əsası da, bu çiçək ona sevgi və xoşbəxtlik gətirəcəkdi. Bundan başqa, onlar hesab edirdilər ki, insan evə qıjı çiçəyi ilə qayıdanda heç vaxt geriyə baxmamalıdır, çünki şər qüvvə çiçəyi əlindən ala bilər. Həm də qıjı çiçəyini heç kimə göstərmək və bu barədə danışmaq olmazdı [4].

Kupala günü insanlar cadugərlərdən ehtiyat etməli idilər. Bunun üçün onlar sarımsağı boyunlarına asardılar ya da kəmərlərində gizlədərdilər. Özlərindən əlavə, evlərini də natəmizlikdən qorumalı idilər. Belə bir mərasim var idi ki, darvazanın üstünə iki şam və tırmıkdan dəmir dişlər qoyulmalı idi. Beləliklə, cadugər həyətə girə bilməyəcəkdi.

Kupalada ən məşhur ənənələrdən biri gənc qızlar tərəfindən çələnglərin toxunmasıdır. Hər qız özünəməxsus şəkildə müxtəlif çöl çiçəklərindən çələnglər toxuyurdu. Daha sonra qızlar çələngləri suya buraxırdılar. Əgər çələng yaxşı üzürsə, o zaman qız tezliklə evlənəcək, çələng yerində fırlanırsa, o, hələ də qız olacaq və batırsa, o, ümumiyyətlə evlənə bilməyəcək [3].

İvan Kupalada çimmək - Bu ayin bölgələrdən asılı olaraq müxtəlif olmuşdur. Bəzi kəndlərdə belə hesab olunurdu ki, günəş su ilə eyni səviyyədə olanda çimmək lazımdır. Onda insan pak olar. Digər bölgələrdə isə çimmək qəti qadağan edilirdi. Deyirdilər ki, bu anda suya qurban lazımdır.

Kupalada şənlik zamanı gənc bir ağac müxtəlif güllər, lentlər və çələnglərlə bəzədilirdi. Ən çox söyüd və ağcaqayın, daha az isə albalı və ya şam ağacı seçilirdi. Bütün şənliklər bitdikdən sonra ağacı məhv edirdilər [2].

Hazırda insanlar bu ayinlərin əhəmiyyətinə və zərurətinə inanmağı dayandırmışdır, lakin yenə də adət-ənənələrə əməl edirlər. Onlar bilirlər ki, bu, heç bir şəkildə məhsuldarlığa təsir etmir, sadəcə əylənmək və əcdadlarının adət-ənənələrini qorumaq üçün belə bayramları təşkil edirlər.

Ədəbiyyat siyahısı

1. Зеленин Д. К. - Восточнославянская этнография. М., Наука, 1991
2. https://uk.m.wikipedia.org/wiki/%D0%A1%D0%B2%D1%8F%D1%82%D0%BE_%D0%9A%D1%83%D0%BF%D0%B0%D0%BB%D0%B0#
3. https://life.pravda.com.ua/society/64a5a10d0862f/
4. https://tsn.ua/ukrayina/koli-ivana-kupala-2023-roku-yaki-tradiciyi-isnuyut-narodni-prikmeti-2345653.html
5. https://visitukraine.today/uk/blog/2201/oi-na-ivana-ta-i-na-kupala-istoriya-svyata-tradicii-ta-zaboroni

Əhmədli Aynur Zaur qızı, qr. 374
Elmi rəhbər: müəl. Tajdehibonab Mehparə
Azərbaycan Dillər Universiteti

XAÇLAR TƏPƏSİ

Şaulyay (Litva) şəhərindən təxminən 12 km şimalda, Şaulyay - Riqa dəmir yolu xəttinin yaxınlığında, çox da böyük olmayan, sıx şəkildə xaçlarla işarələnmiş uzunsov bir dağ var. Bu, Məsihin bütün dövrlərin və nəsillərin insanları xilas etdiyi çarmıx qurbanına hörmət və sədaqətdən xəbər verən məşhur Xaç təpəsidir. Xaç təpəsi bizə təkcə Xilaskarın əzab və ölümünü deyil, həm də Onun dirilməsini və yüksəldilməsini, həmçinin Xaçın sirri vasitəsilə hər bir insanın yüksəldilməsini xatırladır. Xaçlar təpəsinə səyahət edənlər, orada dua edənlər çarmıxdan çıxan gücə, tükənməz ümidə və Tanrı məhəbbətinə inama şəhadət verirlər.

Orta əsrlərdə bu dağda salnamələrdə "Kula" adlanan taxta qala dayanırdı. Qala 1348-ci ildə Litva ordusu tərəfindən dağıdılmışdı. Uzun illər dağ çılpaq qaldı. XIX əsr Pilies təpəsi, Jurgaiçhiai, Domantay təpəsi, Maldaviay təpəsi adlanan təpənin ortasında xaç tikilməyə başlandı. Yerli insanlar deyirlər ki, ilk xaçlar Allaha sağlamlıq üçün dua etmək üçün tikilib. Digər rəvayətlərə görə, dağda xaç 1863-cü ildə üsyanda həlak olanların xatirəsinə tikilməyə başlanıb. Çar hökuməti üsyanı yatırdıqdan sonra xaç tikintisini qadağan etdi - evlərində xaç olan insanlar cəzalandırıldı, xaçlar dağıdıldı. Bunların edilməsinə baxmayaraq dindar insanların xaç tikməkdən imtina etmək niyyəti yox idi, lakin onlar daha uzaq bir yer seçdilərm - Xaçlar təpəsini. Buna görə də Xaç təpəsi həm də bütün maneələri dəf edən imanın gücünün əlamətidir.

Çar hökumətinin qadağalarına, Birinci Dünya müharibəsinə baxmayaraq, Xaç təpəsi tədricən böyüdü. Dağ müharibələrarası dövrdə çiçəkləndi. İnsanlar dua etmək üçün oraya çıxaraq kütləvi şəkildə qurbanlar kəsirdilər. Xüsusilə yay tətillərində dağa çoxlu adam toplaşırdı. İyulun ortalarında Xaçlar təpəsində indulgensiyalar qeyd olundu.

Sovet işğalı zamanı dağda xaçların qoyulması qəti qadağan edilmiş, ibadət edənlər təqib edilərək cəzalandırılmışdı. Təkcə bu deyil, dağın özü də bir neçə dəfə ciddi ziyan görüb, üzərində ucaldılan bütün xaçlar süpürülüb, ona gedən yollar kəsilib. Bir anda onlar hətta Xaçlar təpəsini su basmağa cəhd etdilər. Hər şey işğalçı hakimiyyətin gözləntilərinin əksinə getdi: dağ nə qədər şiddətlə dağıdıldısa, bir o qədər güclü şəkildə bərpa olundu. İnsanlar təhlükəyə, qadağalara və təqiblərə baxmayaraq gecələr xaç düzəldir və onları dağa daşıyırdılar. Xaç təpəsi dini azadlığın boğulmasına qarşı qəhrəmancasına müqavimətin simvoluna çevrildi.

Litva müstəqilliyini bərpa etdikdən sonra zəvvarlar ardı-arası kəsilməyən axınla Xaç dağına axışmağa başladılar. Xaçlar da dağın özünə sığmadığı üçün dağın ətəyində tikilməyə başlandı. Xaç təpəsinin tarixində onu bütün dünyada məşhurlaşdıran ən mühüm hadisə 1993-cü ildə Papa II İohann Pavelin səfəri oldu. 7 sentyabr Müqəddəs Ata Xaç təpəsində dua etdi, Müqəddəs Peteri qurban verdi. Dağın yanında tikilən kilsədə ibadət mərasimi və toplanmış nəhəng mömin izdihamına müraciət edərək dedi: "Qoy Məsihdən sonra ikinci minilliyin sonunda bu Xaç dağı şəhadət etsin və yeni, üçüncü minilliyi elan etsin,

başqa heç bir yerdə tapa bilməyəcəyimiz qurtuluşu və azadlığı elan etsin, yalnız Xilaskarımızın Xaç və Dirilişində." Papa daha sonra müxtəlif çıxışlarında Xaçlar təpəsinə səfərini dəfələrlə xatırladıb.

II İohann Pavel İtaliyadakı La Verna dağının Fransiskan monastırını ziyarət edərkən, fransiskalıları Xaç dağında bir ermitaj tikməyə təşviq etdi. 2000-ci ildə 8 iyul tikilmiş monastır təqdis olundu. [1.2]

ŞaulyayYeparxiyasının yaradılmasından sonra Xaçlar təpəsinin tarixində yeni səhifə açıldı. Xaçlar təpəsi Kafedralın altındakı əsas ziyarətgah olan Şaulyay yeparxiyasının ürəyinə çevrildi. Şaulyay yepiskopu Eugenijus Bartulis Xaçlar təpəsinin indulgensiyalarını qeyd etməyi təzələdi.

Ədəbiyyat siyahısı:

1. https://kryziukalnas.lt/apie/
2. https://welovelithuania.com/kryziu-kalnas/
3. https://az.1xmatch.com/gora-krestov-v-litve-litva-podrobnaya-informaciya-s-foto/
4. https://lt.wikipedia.org/wiki/Kry%C5%BEi%C5%B3_kalnas

Rəhimova Həcər Mənsur qızı
Elmi rəhbər: m. Nigar Dünyamalılı Mübariz
Azərbaycan Dillər Universiteti

PAKİSTANDA ƏHALİ ARTIMININ YARATDIĞI PROBLEMLƏR

Əhalinin sürətli şəkildə artımı dünyanın ən sıx məskunlaşan əhalisinə malik beşinci ölkəsi kimi tanınan Pakistanı təhdid edir. Fəsadlar ağır zərbə vurur, həyati vacib resursları sıxışdırır, iqtisadiyyatı şikəst edir və sosial infrastrukturu ağırlaşdırır. Bu artıma bir neçə amil səbəb olur. BMT-nin məlumatına görə, hazırkı artım tempi nəzarətsiz davam edərsə, Pakistan əhalisinin 2050-ci ilə qədər 403 milyona çatacağı proqnozlaşdırılır. Pakistan ailə planlaması proqramına başlayan ilk Asiya ölkələrindən biri olsa da, müsbət nəticələr eldəedə bilməyib [1, s.3].

2023-cü il siyahıyaalınmasının yekun nəticələrinə görə Pakistanın əhalisi 241,492,197 nəfərdir. Bu rəqəmlərə əsasən Pakistan dünyanın ən çox əhalisi olan beşinci ölkəsidir [1, s.5].

Ailə planlaşdırılması ilə bağlı görülmüş tədbirlər təkcə əhalinin artımının qarşısını almağa kömək etməyəcək, həm də Pakistanın rifahını yaxşılaşdıracaq.

Tarixən Pakistan yüksək uşaq ölüm nisbətləri ilə mübarizə aparır, bunun ilk növbədə səbəbi səhiyyə və sanitariyada ciddi problemlərin olmasıdır. Uşaqlarını itirmək qorxusu hələ də bir çox ailələrdə qorxu yaradır və körpələrin sağ qalması ilə bağlı qeyri-müəyyənliklərdən sığorta növü kimi daha böyük ailələrə üstünlük verilməsinə səbəb olur. Pakistanda uşaq ölüm nisbətləri dünya üzrə orta göstəricidən təxminən iki dəfə çoxdur[2, s.4].

Pakistanda dini inanclar əhalinin artımına ciddi şəkildə təsir edir. Bəzi dini inanclar nəsil artırmağın vacibliyini vurğulayır və uşaqlara nemət və ilahi lütf mənbəyi kimi baxır [3, s. 3].

Əhalinin artması ilə su, qida və enerji kimi əsas resurslara tələbat sürətli şəkildə artır və ölkənin onsuz da məhdud olan təbii ehtiyatlarına böyük təzyiq göstərir. İnsanlarının artan ehtiyacları infrastruktura və ətraf mühitə əhəmiyyətli yüklər qoyur,həyati vacib ekosistemlərin davamlılığını və tarazlığını təhdid edir. Əhalinin yüksək artımı problemi işsizlik və yoxsulluğun aktual problemlərini kəskinləşdirir. Əhali artdıqca səhiyyə xidmətlərinə tələbat artır. Eynilə, təhsil sektorunda da problemlər yaranır. Nəticə etibarı ilə, ölkənin hamıya bərabər təhsil imkanları təqdim etməsinə mane olur. Artan əhalinin ətraf mühitə əhəmiyyətli təsiri var, tullantıların əmələ gəlməsinə və çirklənmənin artmasına səbəb olur, bu da öz növbəsində ətraf mühitin deqradasiyasını gücləndirir və iqlim dəyişikliklərinə səbəb olur. Urbanizasiyanın sürətləndirilmiş tempi meşələrin qırılmasını gücləndirir, biomüxtəlifliyi və ekoloji tarazlığı təhdid edir. Bundan əlavə, sənaye, nəqliyyat və enerji istehlakından artan tullantılar iqlim dəyişikliyinə təsir edir, bu da ekstremal hava hadisələri, qeyri-sabit yağış nümunələri və temperaturun artması ilə nəticələnirn [2, s.6].

Əhali artımına effektiv nəzarət etmək üçün Pakistan ailə planlamasına üstünlük verməli və onun faydaları haqqında əhalini maarifləndirməlidir. Qadınlar təhsilli, maliyyə cəhətdən müstəqil olduqda, onlar dünyaya övlad gətirməklə bağlı düzgün qərarlar qəbul edə bilərlər. Qadınların təhsilinə sərmayə qoymaq ölkənin gələcəyinə qoyulan sərmayədir.

Ədəbiyyat siyahısı

1. "Pakistan". Pakistan – The World Factbook. CIA. Archived from the original on 6 May 2022. Retrieved 8 May 2022.
2. Hardee Karen; Leahy Elizabeth (2007). "Population, Fertility and Family Planning in Pakistan: A Program in Stagnation". Population Action International. 4 (1): 1–12.
3. "Pakistan: Debating Islam and family planning." IRIN. UN Office for the Coordination of Humanitarian Affairs. 06 Apr 2011.

Həsənova Reyhanə Valeh
Elmi rəhbər: B/M Höküməə Abbasova Fərzux
Azərbaycan Dillər Universiteti

BERGEN BÖLGƏSİNİN TURİZM POTENSİALI

Norveçin qərb sahilindəki Vestland qraflığında yerləşən Bergen tarixən Bjørgvin olaraq tanınmışdır. 2021-ci ilə görə şəhərin əhalisi təxminən 285900 nəfərdir və Norveçin ikinci ən böyük şəhəridir. Bergen bələdiyyəsinin ərazisi 465 km²-dir və Bergenshalvoyen yarımadasında yerləşir. Şəhərin mərkəzi və şimal məhəlləsi Byfjorden, yəni 'şəhər fiyordu', üzərində yer alır və dağlarla əhatələnibdir. Bergen Vestland qraflığının inzibati mərkəzidir və səkkiz rayonu əhatə edir: Arna, Bergenhus, Fana, Fyllingsdalen, Laksevåg, Ytrebygda, Arstad və Asane [1].

Bergenə baş çəkən hər bir qonaq mütləq Bryggen məhəlləsini ziyarət etməlidir. Bergenin bu məhəlləsi 12-ci əsrdə Hanza tacirləri tərəfindən tikilmiş, Skandinaviya sahillərində ən böyük ticarət mərkəzinə çevrilmişdir. Bu gün sahil UNESCO-nun mədəni irs siyahısına daxil edilmiş və liman boyunca ahəngdar şəkildə düzülmüş parlaq evlər şəhərin əlamətdar simvoludur [2].

Bergen Norveçin qərbində yerləşən tarixi bir liman şəhəridir və UNESCO-nun Dünya İrsi siyahısına daxil edilmişdir. Şəhər heyratamiz təbii gözəlliyi, zəngin mədəni irsi və memarlığı ilə tanınır. Bergenin turizm potensialı aşağıdakı elementlərə əsaslanır.

1. Təbii gözəllik: Bergen fiyordun möhtəşəm mənzərələri ilə əhatə olunmuşdur. Sognefjord və Hardangerfjord kimi yaxınlıqdakı Fiyordlar təbiət həvəskarlarını araşdırmaq üçün unikal imkanlar təqdim edir.

2. Mədəni irs: Bergen, orta əsr tarixi limanı, rəngarəng taxta evləri və Bergen qalası kimi əhəmiyyətli tarixi tikililəri ilə zəngin bir mədəni irsə sahibdir.

3. Festivallar və tədbirlər: Bergen il ərzində müxtəlif festivallara ev sahibliyi edir. Ən məşhuru hər yay keçirilən Bergen beynəlxalq festivalıdır. Bundan əlavə, musiqi, bədii və mədəni tədbirlər şəhərin turizm potensialını da artırır.

4. Aktiv turizm: Bergen və ətrafı yürüyüş, dağ velosipedi, balıqçılıq və kanoe daxil olmaqla açıq fəaliyyətlər üçün idealdır. Ulriken və Fleien kimi dağlar təbiət həvəskarları üçün məşhur marşrutlardır.

5. Dəniz turizmi: Bergen Norveçin ən vacib dəniz limanlarından biridir. Kruiz gəmilərində, yaxtalarda və dəniz turlarında şəhəri ziyarət edən turistlər şəhərin dəniz ənənələri və mənzərələri ilə tanış olurlar.

6. Gastronomiya: Bergen təzə dəniz məhsulları ilə məşhurdur. Şəhərin hər yerində yerləşən bir neçə restoran yerli yeməklər təklif edir və ziyarətçilərə unikal yeməklər və içkilər təqdim edir [3].

Bergen bölgəsinin turizm potensialı bu gün də aktualdır, çünki şəhər təbii gözəlliyi, tarixi zənginliyi və müxtəlif fəaliyyətləri ilə ziyarətçiləri cəlb etməyə davam edir. Bu potensial, şəhərin UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilməsi, fiyordların möhtəşəm mənzərələrinə ev sahibliyi etməsi və mədəni irslə zəngin olması ilə sıx bağlıdır. Bergendəki Festivallar və tədbirlər də bölgənin turizm potensialını artırır. Nəticədə şəhər hər il minlərlə yerli və xarici turist qəbul edir, turizm sənayesi də böyük iqtisadi əhəmiyyətə malikdir. Bu, Bergenin turizm potensialının gələcəkdə də əhəmiyyətli olacağını göstərir [4].

Ədəbiyyat

1. Folketall per 1. januar 2022 (in Norwegian Bokmål). SSB. 19 May 2021. Retrieved 10 August 2022.
2. Brekke, Nils Georg (1993). Kulturhistorisk vegbok Hordaland (in Norwegian). Bergen: Hordaland Fylkeskommune. ISBN 82-7326-026-7.

3. BERGEN GUIDE - THE OFFICIAL GUIDE FOR BERGEN, Bergen-Guide-en-2022-23.pdf (visitbergen.com)
4. Jinyi Hu, A Brief Introduction to Norway's Tourism Status, Ls2Ru0e3dOneaMQgGQgeFhIfV5u1rmBOeDJWvURi.pdf (francis-press.com)

Quliyeva Fərmayə Teymur qızı
Elmi rəhbər: c.ü.f.d. Hacıyeva G.N.
Azərbaycan Dillər Universiteti

MƏRKƏZİ VƏ ŞƏRQİ AVROPA ÖLKƏLƏRİNDƏ NƏQLİYYAT SİSTEMİNİN İNKİŞAF TARİXİ

Nəqliyyat son bir neçə onillik ərzində Mərkəzi və Şərqi Avropa ölkələrində iqtisadi inkişafın əsasını təşkil edir. Xüsusilə regionun milli, Avropa və qlobal iqtisadiyyata inteqrasiyasına şərait yaratmışdır. Statistik mənada nəqliyyat xidmətlərinə dəmir yolu, boru kəməri, avtomobil, su və ya hava nəqliyyatı ilə sərnişin və ya yük daşımalarının təmin edilməsi ilə bağlı fəaliyyətlər daxildir. Coğrafi mövqeyi-nəzərdən səmərəli nəqliyyat həm ölkələr daxilində, həm də Avropa səviyyəsində regional disbalansların düzəldilməsinə kömək edir. Bu nəqliyyat funksiyası Avropada interasiya perspektivləri və Avropa İttifaqı (Aİ) ilə Mərkəzi və Şərqi Avropa ölkələri arasında intensivləşmiş mübadilələr baxımından xüsusilə vacibdir.

Keçid dövründə Mərkəzi və Şərqi Avropa ölkərində nəqliyyat sektoru kəskin dəyişikliklərə məruz qalmışdır. Mərkəzi və Şərqi Avropa ilə keçmiş Sovet ittifaqı arasında ticarət əlaqələrində azalma müşahidə olunurdu. Qərb istiqamətində gedən nəqliyyat marşurtları şərqə doğru gedənlərin hesabına əhəmiyyət qazanmışdır. [2] 1990-cı illərdə bir neçə keçid iqtisadiyyatı nəqliyyat xidmətlərinin ixracını əhəmiyyətli dərəcədə artırdı. Bu, xüsusən də Mərkəzi və Şərqi Avropada Macarıstan, Polşa və Baltikyanı dövlətlərinə aid idi. 1991-1997-ci illər ərzində Polşa istisna olmaqla digər ölkələrdə nəqliyyatın ixracı 3-4 dəfə artmışdır. Nəticədə, bu ölkələr nəqliyyat xidmətlərinin xalis ixracatçıları kimi öz mövqelərini möhkəmləndirmişlər. Regionda onilliklər ərzində hökm sürən mərkəzləşdirilmiş planlaşdırma sistemi əsas sənaye sahələrinə və dəmir yolu nəqliyyayı rejiminə üstünlük verirdi. Regionda quru yük daşımalarında uzun məsafələrə daşınan aşağı əlavə dəyərli mallardan (kömür, metal filizləri, metal məmulatları və tikinti materialları) ibarət toplu dəmir yolu yük daşımaları üstünlük təşkil edirdi.

XX əsrin sonlarında nəqliyyat sektorunda mülkiyyətdə böyük dəyişikliklər baş verdi. Bu, xüsusilə dəmir yolu ilə müqayisədə daha az kapital tələb edən avtomobil nəqliyyatı sektorunun özəlləşdirilməsi idi. Mərkəzi və Şərqi Avropada dövlətə məxsus avtomobil nəqliyyatı müəssisələrinin rolu onların sayı, istehsalı və dövriyyəsi baxımından durmadan azalmışdır. Mərkəzi və Şərqi Avropada yollar müxtəlif keyfiyyətdədir, lakin sıxlığı baxımından Aİ şəbəkəsi ilə müqayisə oluna bilər. Bu regionun altı ölkəsində yol şəbəkəsinin ümumi uzunluğu 704,170 km-dir ki, bunun da 206,280 km-i (və ya 29%) avtomobil yollarını təmsil edir [3]. Ümumiləşdirsək, 1990-cı illərdə və bu gün də nəqliyyat sektoru Mərkəzi və Şərqi Avropa və MDB ölkələrinin iqtisadiyyatlarında mühüm mövqeyini qoruyub saxlamışdır. Eyni zamanda, keçid dövründə o, kəskin struktur dəyişikliklərinə məruz qalmışdır. Bunlara ixrac nəqliyyat axınının keçmiş sovet respublikaları hesabına Qərbi Avropanın xeyrinə yönləndirilməsi, kütləvi aşağı dəyərli yüklərdən fərqli olaraq yüksək qiymətli malların rolunun artması və dəmir yollarının zərərinə avtomobil nəqliyyatının müstəsna artımı daxildir. Mərkəzi planlaşdırma sistemindən miras qalmış, onillik az sərmayə ilə daha da zədələnmiş geniş, lakin çox vaxt səmərəsiz nəqliyyat infrastrukturu keçid iqtisadiyyatlarında müasir nəqliyyat xidmətlərinin inkişafına mane olmaqda davam edir. Beynəlxalq sərmayə və nəqliyyat sektorunda dünyanın ən yaxşı təcrübəsindən istifadə etməklə bu sektorun modernləşdirilməsinin çətin sınaqları ilə üzləşmək tələb olunur.

İstifadə olunan ədəbiyyat

1. Ильющенко И.Г. // Транспортная система Европейского союза: опыт, проблемы и перспективы развития, Вестник ВГАВТ серия «Экономика и управления на транспорте» Новгород, 2007, с. 64-69.
2. European Conference of Ministers of Transport, Transport Infrastructure in central and eastern European Countries, 1995, Paris, p. 105.
3. Lijewski S.T. The impact of political changes on transport in Central and Eastern Europe, in “Transport Reviews”, 1996, vol.16, No.1, p. 37-53.

Мамедова Нигяр Рамин
Научный руководитель: преп. Агагасымов Руфат Рафиг
Азербайджанский Университет Языков

АНАЛИЗ ПРИЧИН ВОЗВЫШЕНИЯ И МОГУЩЕСТВА КЛАССА САМУРАЕВ В ЯПОНИИ

В 1185 году в результате ожесточённой войны Минамото-но Ёритомо смог заложил основы первого сёгуната в истории Японии. С этого периода фактически на протяжении 7 веков высшая власть в стране принадлежала классу самураев (воинов). Только в 1867 году представитель третьего сёгуната Токугава-но Ёсинобу отрёкся от власти. Подобное продолжительное правление воинов достаточно редкая практика для мировой истории. Как правило военные могут прийти к власти, но подобные режимы бывают недостаточно долговечные. В Японии существовали определённые факторы, которые позволили самураям так долго удерживаться у власти.

1. Япония в силу своего островного положения на протяжении большей части истории была защищена от оккупации внешними силами. Наиболее близко к оккупации Японии подошёл внук Чингис -хана Хубилай. Он дважды посылал огромный флот к берегам Японии. Однако оба раза начинался мощный шторм, который уничтожил большую часть армии Хубилая. Впоследствии указанный шторм был назван японцами «ками кадзэ» (божественный ветер) [2, с. 239–241]. В результате практически до XIX века смогла сохранить свою самостоятельность.

2. Отсутствие угрозы внешней оккупации убирало необходимость содержания крупных вооружённых сил, которые требовали затрату значительных материальных и финансовых ресурсов. В результате японская армия была достаточно малочисленной. Так, император Камму (781–806) после ослабления китайской империи Тан и снижения риска нападения с материка снизил численность вооружённых сил до 3 тысяч человек [2, с. 152].

3. С другой стороны, в Японии не существовало и внутренней угрозы власти императора. Япония переняла многие элементы государственного управления у Китая. Однако японские элиты отказались принимать китайский институт «мандата Неба». Так, в период существования в Китае государства Чжоу была предложена концепция «мандата Неба». Согласно этой концепции, Небо является прародителем всех китайцев. Без воли Неба ничего на земле не происходит. Небо дарует право на высшую власть в стране тому жителю Китая, который обладает наибольшей добродетелью (дэ). Если же указанный правитель или его потомки потеряют дэ, то Небо передаст власть другому [1, с. 662]. Концепцией «мандата Неба» широко пользовались различные силы для легитимизации власти в случае успешного захвата страны. Отказ от концепции «мандата Неба» защищала императорскую власть в Японии также от внутренних угроз.

4. Таким образом, отсутствие внутренних и внешних угроз для собственной власти позволяло императору отказаться от содержания крупных вооружённых сил. Местные феодалы же наоборот должны были содержать значительные войска для защиты собственных земель и имущества от атак конкурентов. В XII веке окрепшие феодалы решили попытаться захватить центральную власть. Не обладающий значительной военной мощью император не смог им ничего противопоставить.

Вывод. Таким образом, географическое положение и отказ от концепции «мандата Неба» защищали императорскую власть в Японии от внутренних и внешних угроз. В связи с этим императору не нужно было содержать многочисленные вооружённые силы. Это создало условия для захвата власти самураями.

Список использованной литературы

1. История Китая с древнейших времён до начала XXI века: в 10 томах. Т. 1. под ред. Тихвинского С. Москва: Наука, 2016, 974 с.
2. История Японии. Т. 1: с древнейших времён до 1868 года. Москва: Институт Востоковедения РАН, 1998, 659

Qurayışova Dilarə Asəf
Müəllim Məmmədova Səbinə İlqar
Azərbaycan Dillər Universiteti

RUSİYA-UKRAYNA MÜNAQİŞƏSİNİN GEOSİYASİ NƏTİCƏLƏRİ

2014-cü ildə Krımın ilhaqından və Donbasdakı gizli müharibədən sonra Rusiya 2022-ci il fevralın 24-də Ukraynanın bütün ərazisinə açıq şəkildə hücum etdi. Moskvanın Kiyevi tez bir zamanda ələ keçirməklə bütün Ukrayna ərazisinə nəzarəti ələ keçirmək kimi ilk planı iflasa uğradı. Əvəzində uzun sürən köhnəlmə müharibəsi yaşanır. Rusiya müharibəsinin vəhşiliyi və Moskvanın maksimum tələbləri danışıqlar prosesini çətinləşdirir. Rusiyada müharibə getdikcə daha güclü daxili repressiyalarla müşayiət olunur. Eyni zamanda, hərbi uğursuzluqlar və yüksək itki rəqəmləri ilə yanaşı sanksiyaların təsiri gələcəkdə siyasi rəhbərliyə təzyiqləri artıra bilər. Digər tərəfdən isə Ukraynada müharibə milli kimliyi və ölkənin Qərbə istiqamətini gücləndirir.

Rusiyanın Ukraynaya qarşı təcavüzkar müharibəsi həm də Moskvanın Soyuq Müharibə bitdikdən sonra qurulan Avropa təhlükəsizlik nizamını öz xeyrinə yenidən formalaşdırmaq cəhdini təmsil edir. Belə ki, Rusiyanın Ukraynaya hücumu Avropanın təhlükəsizlik arxitekturasına ciddi ziyan vurdu və buna görə də Avropanın qalan neytral və qeyri-NATO dövlətləri münaqişədə öz mövqelərini müəyyənləşdirməyə çalışmağa başladılar - və onların əksəriyyəti bu və ya digər dərəcədə NATO-ya üz tutdu. NATO Şərqdə müdafiəsini əhəmiyyətli dərəcədə gücləndirir. Tarixi bir addımla Finlandiya və İsveç onilliklər boyu ittifaqda neytral qaldıqdan sonra Atlantik Alyansa qoşulmağa qərar verdilər. Avropa Birliyi Ukraynaya hərbi dəstəyi Avropa Sülh Fondundan maliyyələşdirir.

İsveçrə, Sinqapur, Andorra və s. kimi neytral dövlətlər neytrallıq statusundan imtina edərək Ukraynaya dəstək olacaqlarına qərar vermişlər.

Bundan əlavə, Ukrayna Aİ-yə üzvlük üçün müraciət edib və Aİ-yə namizəd statusu verilib ki, bunun üçün bir tərəfdən güclü siyasi impuls var, lakin bu, Aİ-nın ölkəni özünə çəkmək qabiliyyəti ilə bağlı köhnə suallar doğurur. Üstəlik, Avropanın təhlükəsizlik nizamındakı dəyişikliklər Transatlantik münasibətlərə də təsir edir. NATO öz üzv dövlətləri üçün ərazi müdafiəsinin təməl daşı kimi geri döndü və ABŞ Avropadakı mövcudluğunu bir daha artırdı. Bununla belə, Avropanın strateji suverenliyinin Transatlantik Alyansla əlaqəsi birmənalı olaraq qalır və növbəti prezident seçkilərindən sonra ABŞ-ın Avropa təhlükəsizliyinə sadiqliyinin davamlılığı açıq məsələdir. Aydın olur ki, Rusiya-Ukrayna münaqişəsi təkcə beynəlxalq sistemə, dünya nizamına və qlobal geosiyasətə ciddi təsir göstərməyib, həm də siyasi blokların yenidən təşkilinə ciddi təsir göstərib.

Çünki münaqişə Rusiya və Ukrayna arasında siyasi zorakılıqdan kənara çıxaraq Rusiya, ABŞ və Avropa arasında mürəkkəb mübarizə və oyunu əhatə edir. Xüsusilə, ABŞ Rusiya-Ukrayna münaqişəsi vasitəsilə qlobal müttəfiq sistemini konsolidasiya etməyə, nizamlamağa və yenidən təşkil etməyə çalışarkən, o, həm də münaqişəni Amerika hegemonluğunun təminatı və saxlanması üçün xüsusi platformaya çevirir.

Ümumiyyətlə, güman etmək olar ki, Şərqi Avropadakı müharibənin arxasında ABŞ və Avropa İttifaqı (Aİ) dayanır. Vaxtilə NATO-nun şərqə doğru genişlənmə cəhdinə cavab olaraq Rusiya Ukraynaya hücum etdi. Beləliklə, Qərbin təhrikləri ilə əvvəlcə Ukrayna bataqlığa çevrildi, sonra da Rusiya bu bataqlığa çəkildi. Qərbin əsas məqsədi Şərqi Avropadakı mövqelərinin möhkəmləndirilməsi və Rusiyanın regiondakı təsir imkanlarının azaldılması idi. Həmçinin, perspektivdə Çinin imkanlarının zəiflədilməsi də Qərbin uğrunda çalışdığı məqsədlərdəndir. Amma zaman keçdikcə görürük ki, artıq kollektiv Qərbin öz daxilində də Ukraynadakı vəziyyətlə bağlı ziddiyyət yaranır. Rəsmi Vaşinqton Kiyevə yardımı dayandırıb. Aİ ölkələrinin bəziləri, xüsusilə Fransa Ukraynaya qoşun göndərmək barədə danışırlar. Digərləri isə bu ehtimalı tamamilə istisna edirlər.

Beləliklə, regional müharibə artıq qlobal "kor düyünə" çevrilib.

Müharibənin gedişatı ilə bağlı deyə bilərik ki, Ukraynadakı müharibə yaxın vaxtda başa çatana oxşamır. Həmçinin, həm Kiyevin, həm də Moskvanın radikal mövqeyi onu deməyə əsas verir ki, məhz M.Podolyakın dediyi kimidir: müharibənin siyasi həlli yoxdur. Heç Qərb də buna imkan verməz. Çünki siyasi həll tərəflərin danışıqlar masası arxasına oturması, konsensus əldə etməsi deməkdir. Bu isə ABŞ və Aİ-nin planlarına ziddir.

Müharibənin necə bitəcəyi ilə bağlı müxtəlif ssenarilər olsa da, görünən odur ki, Qərb bu prosesdə getdikcə daha da fəallaşacaq. Bu isə birbaşa NATO-Rusiya toqquşması riskini artıracaq.

İstifadə olunmuş ədəbiyyat siyahısı:

1. https://www.swp-berlin.org/en/topics/dossiers/russias-war-against-ukraine-and-its-consequences
2. https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC10239536/
3. https://www.kas.de/en/political-and-social-impact-one-year-after-the-start-of-russias-war-of-aggression-against-ukraine
4. Геополитические последствия в результате российского вторжения на Украину – Википедия (wikipedia.org)
5. Rusiya-Ukrayna müharibəsi düyünlənir - rəsmi Kiyev siyasi çözümdən imtina edir - ŞƏRH | Report.az

Məmmədova Əzizə Seymur
Elmi rəhbər: B/M Hökumə Abbasova Fərzux
Azərbaycan Dillər Universiteti

ŞİMALİ AMERİKA KOLONİYA DÖVRÜNDƏ

Şimali Amerika ərazisidə məskunlaşma qədim zamanlardan olmuşdur. Bura ayaq basmış ilk Avropalılar Vikinqlər idi, onlar 11-ci əsrdə bura Qrenlandiyadan keçərək gəlmişdirlər. 1492-1504-cü illər arasında Kristofer Kolumb Amerika qitəsinə kəşf üçün dörd İspan transatlantik dəniz ekspedisiyasına rəhbərlik etmişdir. Bu səyahətlər Yeni Dünya haqqında geniş məlumat əldə etməyə səbəb oldu. Bu sıçrayış Amerika qitəsinin müstəmləkələşməsi, əlaqəli bioloji mübadilə və trans-Atlantik ticarəti görən Kəşflər Əsri kimi tanınan dövrün açılışını etdi [4, 50].

1565-ci ildə əsası qoyulan Saint Auqustin ABŞ-da Avropa və Afrika-Amerika mənşəli inşa edilmiş ən qədim yaşayış məntəqəsidir. İngilislərin müstəmləkə etdiyi Ceymstaun qırx iki il əvvəl və Zəvvarlar Plimut Rokuna enməmişdən əlli beş il əvvəl ispanlar bu ölkənin ilk yaşayış məntəqəsini Saint Auqustində qurdular [5].

17-ci əsrdə Amerikaya gələnlərin əksəriyyəti ingilislər olsa da, lakin ispanlar, hollandlar, isveçlilər, almanlar, fransızlar, Afrika və başqa yerlərdən gələn qullar da var idi. 1680-ci ildən sonra İngiltərə immiqrasiyanın əsas mənbəyi olmaqdan çıxdı, onu Şotlandlar və "Şotland-İrlandlar" əvəz etdi. Bundan əlavə, on minlərlə qaçqın Avropanın şimal qərbindən müharibədən, zülmdən və kənar mülkədarlıqdan xilas olmaq üçün qaçdı. 1690-cı ilə qədər Amerika əhalisi dörddə bir milyona yüksəldi. Ailələr vaxtaşırı bir koloniyadan digərinə köçsələr də, ayrı-ayrı koloniyalar arasında fərqlər qeyd olunurdu [3, 24].

İngilislərin ilk müstəmləkəsi Virciniya 1607-ci ildə Ceymstaun şəhərində yaradılmışdır. Yeni İngiltərə koloniyaları, Merilend və Pensilvaniya, əsas etibarilə onların qurucularının dinin tətbiqi ilə bağlı narahatlıqları ilə motivasiya edilmişdi. Digər koloniyalar biznes və iqtisadi genişlənmə üçün yaradılmışdır. Orta Koloniyalar keçmiş Hollandiya koloniyası olan Yeni Hollandiyada quruldu [3, 25].

17-ci əsrin başlanğıcında Şimali Amerikada hökmranlıq uğrunda Fransa, İspaniya və İngiltərə mübarizə aparırdı. Bunlardan bu əraziyə ən gec gələni İngiltərə nəhayət indiki Birləşmiş Ştatların başlanğıcını nəzarətə götürdü. Xarici müharibələrdən və daxili dini çəkişmələrdən əziyyət çəkən fransızlar yeni qitənin imkanlarını dərk edə bilmədilər və onların Müqəddəs Lourens vadisində məskunlaşmaları zəif inkişaf etdi. Lakin ingilislər ser Humphrey Gilbert rəhbərliyindəki ilk uğursuzluqlardan sonra tezliklə hollandların daha kiçik müstəmləkəçilik təşəbbüsünü mənimsədilər.

1625-1775-ci illər arasında müstəmləkə əhalisi yerli amerikalıları sıxışdıraraq 2 min nəfərdən 2,4 milyona qədər artdı. Əhaliyə bütün koloniyalarda qanuni olan köləlik sisteminə tabe olan insanlar daxil idi. 18-ci əsrdə Britaniya hökuməti merkantilizm siyasəti ilə fəaliyyət göstərirdi, bu siyasətdə mərkəzi hökumət Britaniyanın iqtisadi faydası üçün öz müstəmləkələrini idarə edirdi [2].

13 müstəmləkə yüksək dərəcədə özünüidarəetmə və aktiv yerli seçkilərə malik idi və onlar Londonun onlara daha çox nəzarət etmək tələblərinə müqavimət göstərdilər. Fransa və Hindistan müttəfiqlərinə qarşı Fransa və Hindistan müharibəsi İngiltərə ilə 13 koloniya arasında artan gərginliyə səbəb oldu.

Bir əsr yarım ərzində İngilislərin Atlantik sahillərində 13 çiçəklənən koloniyaları var idi: Massaçusets, Nyu-Hempşir, Rod-Aylend, Konnektikut, Nyu-York, Pensilvaniya, Delaver, Nyu-Cersi, Merilend,

Virciniya, Şimali Karolina, Cənubi Karolina və Corciya. On üç müstəmləkə 17-18-ci əsrlərdə Şimali Amerikanın Atlantik sahillərində Britaniya koloniyaları qrupu idi. İmperator hökumətinə qarşı narazılıqlar 13 koloniyanın 1774-cü ildə birləşməyə başlamasına və 1775-ci ilə qədər İngilis məmurlarını qovulmasına səbəb oldu. Filadelfiyada keçirilən İkinci Kontinental Konqresində toplananlar Amerika İnqilab Müharibəsi ilə mübarizə aparmaq üçün Corc Vaşinqtonu Kontinental Ordunun baş komandanı təyin etdilər. 1776-cı ildə Konqres Amerika Birləşmiş Ştatları kimi Müstəqillik Bəyannaməsini qəbul etdi. Fransızların köməyi ilə işğalçı İngilis ordularını məğlub edən On Üç Koloniya 1783-cü ildə Paris müqaviləsi ilə suverenlik əldə etdi [1].

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Amerikanın Erkən İngilis Kolonizasiyası https://history-maps.com/az/story/History-of-the-United-States/event/Early-British-Colonization-of-the-Americas
2. Historymaps – Amerika Birləşmiş Ştatlarının müstəmləkəçilik tarixi https://history-maps.com/az/story/Colonial-History-of-the-United-States
3. Donald A. Ritchie, American History, The Modern Era Since 1865, Glencoe/McGrow Hill, Ohio, 1999.
4. Outline of U.S. History: 1776-2011, by U.S. Department Of State, 2005.
5. St.Augustine – Our History https://www.citystaug.com/693/Our-Histor

Əli Həsən Zahir
Elmi rəhbər: Aygün Soltanzadə Nizami
Azərbaycan Dillər Universiteti

İSTANBULUN FƏTHİ

Konstantinapol şəhəri tarix boyu 28 dəfə mühasirəyə alınmışdır . Şəhər son dəfə 1453-cü ildə 7 ci Osmanlı hökmdarı Sultan II Mehmed tərəfindən alınmışdır. 1451-ci il 18 fevralda Sultan Mehmed taxta keçəndə saraya gələn Avropa səfirlərinə yumşaq və mülayim davranır və bu avropalıların Mehmed haqqında səhv düşünmələrinə səbəb olur. Sultanın ilk səfəri ölkədə qiyam qaldıran Karaman bəyliyinə olur, o karamanlıları məğlub etsə də yerli ruhanilərin araya girməsi ilə müharibəni bitirir və Ədirnəyə geri qayıdır. [2]

O dövrdə bir Osmanlı şəhzadəsi İstanbulda əsir idi. Onun əsirlikdən qaçması Osmanlı üçün yaxşı deyildi və Romalılar onu azad etməklə bağlı Mehmedi təhdid etmək istəyəndə, o şahzadə üçün verilən bacın kəsildiyini bildirdi və bununla da İstanbulun fəthi prosesi başlandı. İlk olaraq, Qara Dənizdən gələcək hücumlara qarşı qalalar tikdirdi və onlara top yerləşdirdi. Beləliklə, İstanbul üçün olacaq yardımın qarşısını aldı, Balkanlarda İskəndər bəy üsyanına qarşı ordu göndərdi və Mərmərədə donanma saxlayıb dənizdən gələcək dəstəyi qarşıladı. Sultan Mehmed bir top töktürmə ustası idi, bununla bərabər dövrün ən böyuk topçu ustaların bir araya gətirdi və olduqca bahalı Şahi toplarını tökdürdü. Ordu mühasirəyə hazır idi, bununla yanaşı Romalılar da müdafiə olunmağa hazır idi. Dövrün məlumatlarına əsasən qalanı 20 min nəfər müdafiə edirdi, Osmanlılar isə 200 minə yaxın idi.[1] Muhasirə 6 aprel 1453-ci il türklərin top atəşi ilə başladı. Mühasirədə lağım döyüşləri oldu, ancaq böyük nailiyyət əldə oluna bilmədi. Mühasirədən bir müddət sonra macar elçiləri sultanın qarşısına çıxıb, mühasirənin dərhal dayandırılmasınıtələb etdi, yoxsa macar kralının hücuma keçəcəyini bildirdi. Bəzi paşalar mühasirəni qaldırmaq istəsə də, Sultan və dövlətin irəli gələn din xadimləri və alimləri buna qəti qarşı idilər.

Sultan Mehmed həmin gündən "Fatih" ləqəbini alır. İstanbul artıq həmişəlik Türk Müsəlman dünyasının olur.

İstifadə olunan ədəbiyyat siyahısı

1. İstanbul'un Fethine Giden Süreç https://interaktif.trthaber.com/2018/istanbul-fetih/
2. 1453: İstanbul'un Fethi https://www.worldhistory.org/trans/tr/2-1180/1453-istanbulun-fethi/

Orucova Leyla Abduləhəd
Elmi rəhbər: B/M Höküməə Abbasova Fərzux
Azərbaycan Dillər Universiteti

ABŞ İKİNCİ DÜNYA MÜHARİBƏSİNDƏ

Dünya müharibələri (I və II) tarixin ən dəhşətli müharibələri sayılır. Hər iki müharibə milyonlarla insanın ölümünə, geniş dağıntılara, əhəmiyyətli iqtisadi itkilərlə, inflyasiya və işsizliyə səbəb olmuşdur. Birinci Dünya müharibəsi ilə müqayisədə İkinci Dünya müharibəsi daha ağır itkilərlə nəticələnmişdir.

İkinci Dünya Müharibəsinin başlanmasının səbəbləri çox idi. Bunlara Birinci Dünya Müharibəsindən sonra Versal Müqaviləsinin təsiri, dünya miqyasında iqtisadi depressiya, "sakitləşmə siyasətinin" uğursuzluğu, Almaniya və Yaponiyada militarizmin yüksəlişi və Millətlər Liqasının uğursuzluğu daxildir. Birinci Dünya müharibəsi və onun nəticələrindən razı qalmayan ölkələr bu müharibənin başlaması və davam etməsində ciddi rol oynadılar. Beləliklə dünya ölkələri hələ Birinci Dünya müharibəsinin fəsadlarından qurtulmamış, 1939-cu ildə Almaniyanın Polşaya hücumu ilə İkinci Dünya müharibəsi başlayır [1].

Coğrafi mövqeyinə görə fərqli qitədə yerləşən ABŞ həm I, həm də II dünya müharibəsində digər ölkələrdən fərqli olaraq, nəinki ciddi mənfi nəticələrlə üzləşmir, hətta kifayət qədər iqtisadi gəlir də əldə etməyə başlayır.

Birinci Dünya müharibəsində "bitərəflik" siyasəti yürüdən ABŞ İkınci Dünya müharibəsində bu siyasətini davam etdirə bilmir. Belə ki, ilk dövrlərdə ABŞ müharibədən kənar qalmağı bacarsa da, 7 dekabr 1941-ci il Pearl Harbor bazasının Yapon hərbi dəniz qüvvələri tərəfindən bombalanması ilə ABŞ Yaponiyaya müharibə elan edir [1].

Paralel olaraq yapon qoşunlarının Tailand və Böyük Britaniyanın müstəmləkələri olan Malayziya və Birmanı işğal etməsi Böyük Britaniyanın da Yaponiyaya müharibə elan etməsi ilə nəticələnir. Eyni zamanda Almaniya və İtaliyada ABŞ-a müharibə elan edir. Beləliklə ABŞ rəsmi olaraq müharibəyə qoşulur, hərbi əməliyyatlar Şərqə və Sakit okeana yayılır, müharibə sözun əsl mənasında, dünya müharibəsinə çevrilir [3, 221].

Müharibənin elan olunmasından sonra 1941-ci il iyulun 12-də ABŞ, SSRİ və Böyük Britanya arasında saziş imzalanır. Saziş "Antihitler koalisiyası" adlandırılır və bu sazişlə hər üç ölkə bir-birini müdafiə etdiyini bildirir [1].

Bundan sonra ABŞ prizidenti Franklin Ruzvelt və Britaniya baş naziri Uinston Çörçill Atlantik okeanda-hərbi gəmidə görüşürlər. Nəticədə 1941-ci il avqustun 14-də "Atlantika Xartiyası" imzalanır. Bu xartiyaya əsasən hər iki dövlət başqa ərazilər ələ keçirmək niyyətində olmadığını bildir, xalqların azadlıqlarını təsdiq edir, zorakılığa və faşizmə qarşı çıxırdılar. SSRİ bu xartiyaya Çexislovakiya və Polşa höküməətlərini tanıdıqdan sonra qoşula bilir [3, 223].

1942-ci ildə Stalin Almaniyanı iki cəbhədə vuruşmağa məcbur etmək üçün Avropada ikinci cəbhə açılması tələbini irəli sürür. Lakin o zamanlar ABŞ və Britaniya şəraitin buna uyğun olmadığını bildirərək, tələbi rədd edirlər. Daha sonra müttəfiqlər Avropada ikinci cəbhənin açılmasını müzakirə etmək üçün 1943-cü il "Tehran konfransında"görüşürlər.1944-cü il bu cəbhənin Fransada açılmasına qərar verilir. Bu cəbhənin açılmasına daha sonra ABŞ-a prezident seçiləcək Dauyt Eyzenhauer komandanlıq edir. İkinci cəbhənin açılmasından sonra ABŞ Marian, Flippin və Marşal adalarını tutaraq Yaponiyanın əsas dəniz yollarını nəzarət altına ala bilir [2, 591].

Almaniyanın təslim olmasında sonra müttəfiqlər "dünyanın müharibədən sonrakı taleyinə həsr edilmiş" Potsdam konfransında görüşürlər. Almaniyanın təslim olmasına abaxmayaraq İkinci Dünya müharibəsi sonlanmamışdı. Yaponiya ABŞ, SSRİ və Çinin təslim olma tələblərini rədd edirdi. Hətta müharibədə təslim olmamaq üçün öz hərbi təyyarələrini ABŞ-ın hərbi təyyarələrinə vuraraq öz canları hesabına vuruşurdular. Beləliklə ABŞ həm Yaponiyanı dayandırmaq, həm də dünyaya öz gücünü göstərmək məqsədilə 1945-ci il 6 avqust Xirosimaya, 9 avqust Naqasakiyə atom bombası atır. Beləcə Yaponiya təslim olur, İkinci Dünya müharibəsi başa çatır [3, 226].

İkinci Dünya müharibəsinə qoşulmasına və döyüşlərdə iştirakına baxmayaraq ABŞ müharibədən hərbi, siyasi və iqtisadi cəhətdən güclü ölkə kimi çıxır. Bu müharibədən sonra ABŞ dünyanın başlıca iki gücündən birinə çevrilir və bu günə qədər hələ də öz mövqeyini qoruyur.

İstifadə olunan ədəbiyyat siyahısı
1. World War II, https://www.britannica.com/place/United-States/World-War-II
2. Donald A. Ritchie, American History, The Modern Era Since 1865, Glencoe/McGrow Hill, Ohio, 1999.
3. Outline of U.S. History: 1776-2011, by U.S. Department Of State, 2005

Mahmudova Rəhimə Vüsal qızı
Elmi rəhbər: dos. Emil Qasımov
Azərbaycan Dillər Universiteti

HEYDƏR ƏLİYEV – İSTİQLAL CARÇISI

Hər bir ölkənin müstəqilliyi həmin ölkə vətəndaşları üçün ən müqəddəs və ən şirin nemətdir. Azərbaycan xalqı bu müstəqilliyin yolunu illərlə gözləyib. Müstəqilliyə qovuşmaq üçün ağır mübarizələrdən keçib. Bu yolda minlərlə şəhid verib və sonda istəyinə nail olub. Əlbəttə, müstəqilliyi əldə etmək nə qədər çətindirsə, onu qoruyub saxlamaq bir o qədər mürəkkəbdir. Yəni qüdrətli, möhkəm və dayanıqlı dövlət olmadan azadlıq və müstəqillik də yoxdur. Bir sözlə, Azərbaycan xalqını, dövlətini müstəqilliyinə qovuşduran və hakimiyyəti illərində bu müstəqilliyi göz bəbəyi kimi qoruyub saxlayan ulu öndər Heydər Əliyev olub [1].

H.Əliyev kimi dühanın müdrik rəhbərliyi, çoxşaxəli fəaliyyəti, vətən və xalq qarşısındakı misilsiz xidmətləri onun Azərbaycan xalqının, dövlətinin taleyində həlledici rol oynadığını aydınca ortaya qoyur. Azərbaycanın demokratik və bəşəri dəyərlərə sadiq müstəqil bir dövlət kimi formalaşması ümummilli liderin 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı nəticəsində baş verdi. Belə ki, 1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkədə daxili vəziyyət və hakimiyyət böhranı yaşanırdı. 1993-cü ilin yayında isə Azərbaycanda vətəndaş müharibəsi təhlükəsi yarandı. Vətənin belə ağır günündə xalq Naxçıvandan Azərbaycanın görkəmli oğlu H. Əliyevi Bakıya dəvət etdi. H. Əliyev xalqın və respublikanın hakim dairələrinin dəvətini qəbul edib, iyunun 9-da Bakıya gəldi. O, çox qısa zamanda Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ala bildi. 1993-cü il iyunun 15-də H.Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Beləliklə, 15 iyun tariximizə Milli Qurtuluş Günü kimi daxil oldu. Milli Məclis 1997-ci ilin iyununda bu günü bayram elan etdi [1].

Ulu Öndər 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrdə dönüş yarandı. Bundan başqa elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. H. Əliyevin həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin nəticəsi kimi, Milli Ordu formalaşdırıldı. Azərbaycanın milli mənafelərini qorumağa qadir nizami silahlı qüvvələr yaradıldı. Digər tərəfdən, atəşkəsə nail olmaq üçün bütün siyasi və diplomatik vasitələr işə salındı. Bunun da nəticəsində 1994-cü ilin mayında atəşkəsə nail olundu. Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan istifadə edərək H. Əliyev 1994-cü ilin sentyabrında "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsini imzaladı. Bu da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin parlaq təzahürüdür [2].

Millət vəkili Aydın Mirzəzadə də qeyd edib ki, H. Əliyevin həyat və fəaliyyəti əsasən üç mərhələdə araşdırılması vacibdir: "Ulu öndərimiz 1969-cu ilə qədərki dövrdə özünü büruzə verməyərək, dövlət təhlükəsizliyimizi qorumaq üçün bütün həyatı boyu çalışdı. İkinci mərhələdə o, siyasi arenaya çıxdı və hamı Heydər Əliyev adlı bir şəxsiyyəti tanıdı. Qısa müddət ərzində Azərbaycanı bataqlıqdan xilas etdi, ona yeni bir nəfəs verdi. Həmin illərdə qazandıqlarımız bugünkü müstəqil Azərbaycanın gələcək uğurlarından xəbər verirdi. Həyatının üçüncü mərhələsində isə H. Əliyev milləti bəlalardan qurtardı, xilas etdi, xalqımız milli qurtuluşa nail oldu" [2].

Ədəbiyyat siyahısı:
1. https://files.preslib.az/projects/heydaraliyev/articles/he0283.pdf
2. https://ilhamaliyev.preslib.az/docs/i01.pdf

Zeynalov Murad Seymur oğlu
Elmi rəhbər: f.ü.f.d., dosent Ağayeva Kifayət
Azərbaycan Dillər Universiteti

NORVEÇDƏ QADINLARIN SİYASİ NÜMAYƏNDƏLİYİ

1960-cı illərdə qadın hərəkatının ikinci dalğası baş verəndən bəri bir çox liberal demokratiyada qadınların siyasi vəziyyəti nəzərəçarpacaq dərəcədə dəyişdi. 1970-ci illərin sonlarından bəri siyasi partiyalara qadınları siyasi sistemə cəlb etmək və ümumiyyətlə cəmiyyətdə gender bərabərliyinə nail olmaq üçün siyasət hazırlamaq üçün şərait yaradıldı. Norveç seçkilərində seçici fəallığı həmişə 70-80 faiz arasında olub ki, bu da AB ölkələrinin orta göstəricisindən bir qədər yüksəkdir [3].

Norveç qadınlarının siyasi uğurunun dörd səbəbdən qaynaqlandığını iddia etmək olar. Birincisi, tarixi və mədəni şərtlər qadınları siyasətə cəlb etmək üçün əlverişli idi. İkincisi, Norveçin siyasi qurumları qadınların siyasi həyatda iştirakını asanlaşdırdı. Üçüncüsü, güclü və yaxşı təşkil olunmuş qadın hərəkatının strategiyaları qadınların iştirak və təmsilçilik şanslarının artmasına böyük töhfə verdi. Nəhayət, qadınların əmək fəaliyyətinə yüksək cəlb edilməsi Norveçdəki qadınların siyasi fəaliyyətinə təsir etdi.

Parlament üzvü olan ilk qadın Anna Rogstad idi. 1911-ci ildə liberal sol partiyanın millət vəkili olaraq yerini aldı. Bu, müəyyən vəsait və ya gəliri olan məhdud sayda qadının parlament seçkilərində səs vermək hüququ qazanmasından cəmi dörd il sonra baş verdi. Dəyişikliklərin nəticələrindən biri də qadınların indi də ilkin seçkilərdə iştirak etmək hüququna sahib olması idi. Bu, Anna Rogstadın 1913-cü ildə qadınlar üçün ümumi seçki hüququnun tətbiq edilməsindən iki il əvvəl parlament üzvü vəzifəsini tutmasına imkan verdi. Mühafizəkarlar Partiyasından olan memar Karen Plathın ilk qadın millət vəkili olmasından 11 il əvvəl [1, s.14].

1979-cu ildə Norveç gender bərabərliyi ilə bağlı ən vacib qanunlardan birini qəbul etdi. "Likestillingsloven" (gender bərabərliyi qanunu) adlanır və bu qanun Norveçdə qadın siyasətçilərin sayının artmasına kömək etməklə yanaşı, Norveç cəmiyyətində gender bərabərliyinin əsas prinsipinə çevrilmişdir [2, s.109]. Bu qanun 1981-ci ildə hökumətə gələn bir qadın tərəfindən ciddi şəkildə tətbiq edildi və ya demək olar ki, dəstəkləndi. İlk qadın baş nazir Gru Haarlem Brundtland, bütün nazirlərinin yarısı olaraq qadınları seçdi. Bu Brundtland siyasəti demək olar ki, bütün Norveç seçkilərini təsir etdi və "yuxarıdan aşağıya" prinsipinə əsaslanan siyasi sistem geniş yayıldı. Bundan sonra seçkilərdə qadın namizədlərin faizi 40 faizə yüksəldi (1986-cı ildə) və 1993-cü ildə qadın siyasətçilərin faizi 40-ı keçdi. Deyə bilərik ki, bu günə qədər Norveçdəki nümayəndələrin və nazirlərin yüksək faizi Brundtlandın gender bərabərliyi qanunu ilə əlaqəli aktiv təşəbbüslərindən çox təsirlənir.

Nəticədə, bu amillərin birləşməsi Norveç siyasətində qadınların statusunun artmasına səbəb oldu. Ümumdünya seçki hüququnun əvvəldən Norveç qadınlarını daha siyasi cəhətdən şüurlu hala gətirdiyi və seçkilərdə daha yüksək seçici fəallığına səbəb olduğu güman edilir. Nəticədə, seçkilərdə daha çox qadın iştirak edir və bir çox qadın namizəd Norveçin həm milli, həm də yerli hökumətlərinə nümayəndə seçildi.

Üstəlik, parlamentdəki qadın siyasətçilərin sayının artması və bu siyasətin həyata keçirilməsi praktikası sayəsində parlamentin nəzərdən keçirdiyi əsas gündəm maddələrində əhəmiyyətli dəyişikliklər baş verdi. Əvvəllər parlament əksər ölkələrdə olduğu kimi ilk növbədə sənaye, enerji, xarici siyasət və ya müdafiə ilə məşğul olurdu, lakin indi sosial təminat, ətraf mühit, gender bərabərliyi və iş şəraitinə diqqət yetirir. Beləliklə, parlament adi insanlar (qadınlar da daxil olmaqla) üçün vacib olan məsələlərə daha çox diqqət ayırmağa başladı və bu, daha çox qadının siyasi həyatda iştirak etməsinə imkan verdi.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Marit Synn0ve Smerkerud Gilbert B.A. (Honours), Concordia University, 1992 - Women's political representation in norway: a comparative analytica l perspective // https://open.library.ubc.ca/soa/cIRcle/collections/ubctheses/831/items/1.0086835
2. Yukiko Takezawa: Political Participation of Women in Norway // http://ir-lib.wilmina.ac.jp/dspace/handle/10775/917
3. Statistisk sentralbyrå // https://www.ssb.no/

Aişə Mustafa Natiq qızı

Elmi rəhbər: Tarix üzrə fəlsəfə doktoru Şahismayıl İsmayılov:
Azərbaycan Dillər Universiteti

İLHAM ƏLİYEV DÖVRÜNDƏ TÜRKİYƏ CUMHURİYYƏTİ İLƏ AZƏRBAYCAN RESPUBLİKASI ARASINDA İQTİSADİ VƏ MƏNƏVİ ƏLAQƏLƏR

Xarici dövlətlərdən Azərbaycanla ən çox əməkdaşlıq edən ölkələr siyahısı təqdim etsəydim, ilk sırada Türkiyə Cumhuriyyətini qeyd edərdim. Məsələyə bir millət, iki dövlət prinsipi əsasında yanaşsaq, bu cür düşünmək normaldır. İldən-ilə Azərbaycan və Türkiyə iqtisadi, mədəni, energetik, geoenergetik, siyasi, hərbi və s. sahələrdə ortaq maraq dairələri genişlənirməsi bu iki qardaş dövlətin yaxınlaşmasına, o cümlədən birgə əməkdaşlıq ilə yeni lahiyələr qəbul etməsinə səbəb olur.

2010-cu ildə Azərbaycan Dövlət Neft Şirkəti ilə Türkiyənin BOTAŞ şirkəti arasında imzalanmış müqavilə də İ.Əliyevin iqtisadi uğurlarına əlavə olundu. Bu lahiyə ilə isə Azərbaycan qazı həm Türkiyəyə həm də Avropa dövlətlərinə satışını reallaşdırdı.[1.]

Regionun və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rolu böyük olan digər bir lahiyə isə Cənub Qaz Dəhlizinin tərkib hissəsi olan TANAP və TAP lahiyələrini vurğulamışdır. TANAP çərçivəsində Türkiyəyə ilk qaz nəqlinə 2018-ci ildə başlanmışdır. 2019-cu ilin sonlarında isə Cənub Qaz Kolidorunun digər mühüm komponenti olan Trans-Adriatik boru xəttinə bağlanaraq (TAP) Yunanıstan, Albaniya, Bolqarıstan və İtaliya üzərindən Avropaya çatdırılmağa başlanılmışdır.

Bəs mədəni əlaqələr?

İ.Əliyev Avropa dövlətləri ilə yanaşı həm də türk cəmiyyəti ilə mədəni əlaqələrin genişlənməsinə önəm verirdi. Bu əlaqələrin genişlənməsində Azərbaycanda Atatürk Mərkəzinin yaradılması əhəmiyyətli rol oynadı. 2008-ci ildə avropada və qonşu regionlarda mədəniyyət nazirlərinin konfransı, 2009-cu ildə türkdilli ölkələrin mədəniyyət nazirlərinin və ayrıca islam ölkələri mədəniyyət nazirlərinin konfransı, 2010-cu ildə isə dünya dini liderlərinin Sammiti keçirilmişdir.[3.]

1992-ci il. Bakı və İstanbulda keçirilmiş türk dövlətlərinin mədəniyyət nazirlərinin görüşlər gedirdi. Əldə edilən razılaşmalar əsasında Türk mədəniyyəti və incəsənətinin inkşafı üzrə Beynəlxalq Təşkilat (TÜRKSOY) yaradılması haqqında fikirlər irəli sürüldü. 1993-cü ildə isə mərkəzi Ankara şəhərində olan TÜRKSOY yaradıldı. Yarandığı ilk dövrlərdən indiyə kimi və hal-hazırda da Azərbaycanla bağlı lahiyələr həyata keçirir. 2013-cü ildə Üzeyir Hacıbəylinin Arşın mal alan operattasının 100 illiyi ilə əlaqədar TÜRKSOY və Azərbaycan Mədəniyyət Turizim nazirliyinin əməkdaşlığı nəticəsində operettanın konsert versiyası UNESCO səhnəsində göstərilib və bu lahiyədə Türkiyə və Azərbaycan sənətçilərinin birgə çıxışı olub. Qurumun 10, 15, 20 illik yubileyləri zamanı Türkiyədə üzv ölkələrdən dəvət edilən mədəniyyət xadimlərinin, incəsənət nümayəndələrinin iştrakı ilə tədbirlər keçirilmişdir. 2018-ci ildə isə TÜRKSOY tərəfindən "Qara Qarayev ili" elan olunmuşdur və Ankarada açılış mərasimi qeyd edilmişdir.[2.]

Azərbaycan həm H.Əliyevin həm də İ.Əliyevin dövründə bir sıra xarici təşkilatlara üzv olduğunu yəqin ki çoxumuz bilirik. Birləşmiş Millətlər Təşkilatı(BMT), AVROPA Təhlükəsizlik və Əməkdaşlıq təşkilatı (ATƏT), Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı(QİƏT), Türk Şurası və İslam Əməkdaşlıq Təşkilatı və s. kimi təşkilatlarda fəaliyyət göstərməklə yanaşı həm də Türkiyə ilə birgə əməkdaşlıq göstərərək beynəlxalq platformalarda dünya dövlətlərinə nümunə oluruq.

Bütün qeyd edilən faktlar onu sübut edir ki, Azərbaycan və Türkiyə arasında sarsılmaz bir bağ var. Hal-hazırda İ.Əliyev və R.T.Ərdoğan iki dövlət arasındakı münasibətləri daha da yüksək səviyyəyə qaldırmağa cəhd edirlər. Mən əminliklə deyə bilərəm ki, gələcək dövrlərdə də Respublikamız və Türkiyə Cumhuriyyəti, dünya dövlətlərinə dostluq və qardaşlıq anlayışının mükəmməl nümunəsi olmaqda davam edəcək.

İstifadə olunmuş ədəbiyyat:

1. Ekspress.2018.4 aprel N.5. səh 10.
2. Xalq qəzeti M.Mükərrəmoğlu 17.02.2018
3. Mədəniyyət qəzeti. 2010. 30 aprel

Mirzəzadə Aytac Eldar
tarix üzrə fəlsəfə doktoru, dos.İsmayılov Şahismayıl Namaz
Azərbaycan Dillər Universiteti

AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİ DÖVRÜNDƏ TÜRKİYƏ İLƏ MƏDƏNİ VƏ İQTİSADİ ƏLAQƏLƏR

1918-1920-ci illər Azərbaycan xalqının tarixində zaman etibarilə kiçik bir dövr olsa da,bu iki il ərzində görülən işlərin siyasi məzmunu böyük əhəmiyyət daşımaqdadır.Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dövlətçilik ənənələrinin varislik prinsipi üzrə inkişafında növbəti həlqə olmaqla yanaşı, eyni zamanda böyük bir xalqın siyasi və mənəvi özünüdərk prosesində də misilsiz rol oynamışdır.XX əsrin əvvəllərində Azərbaycan milli azadlıq hərəkatının idealoqu və lideri,görkəmli dövlət xadimi M.Ə.Rəsulzadə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının əhəmiyyətini belə qiymətləndirirdi:"Azərbaycan dövri-istiqlalına bolşeviklər "MÜSAVAT DÖVRÜ"deyirlər.Fəqət xalq bu dövrə AZƏRBAYCAN DÖVRÜ deyir.Xalqın düşüncəsində AZƏRBAYCAN məhfumu coğrafi bir mənadan ziyadə fikir və əməl şəklində təcəssüm ediyor. İstiqlal xaricində onun üçün bir Azərbaycan yoxdur"[9,s.95].XIX-XX əsrlərdə baş verən hərbi-siyasi hadisələrin Azərbaycan xalqının tarixində silinməz izlər buraxmasını nəzərə alan Ulu Öndər Heydər Əliyev bu dövrün öyrənilməsinə xüsusi diqqət yetirir və qeyd edirdi ki, başqa dövrlərdən fərqli olaraq, XIX-XX əsr tariximiz daha çox təhrif edilmişdir. Buna görə də Ulu Öndər 31yanvar 1997-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi və müxbir üzvləri ilə görüşündə tarixçilərin qarşısında Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv,olduğu kimi yazılmasını təxirəsalınmaz vəzifə kimi qoymuş və demişdir:"…indi akademiyanın qarşısında duran vəzifələrdən biri də Azərbaycan xalqının XIX-XXəsrlər tarixinin yazılmasıdır"[1].

Bəhs olunan dövrdə maliyyə imkanları məhdud olmasına baxmayaraq, Azərbaycan hökuməti ölkədə maarifin bərpa və inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəmədi, eyni zamanda bu sahədə yardım üçün Osmanlı hökumətinə də müraciət etdi.Azərbaycanın məktəblərinin milliləşdirilməsini həyata keçirmək üçün Türkiyədən müəllimlərin dəvət edilməsini və dərsliklərin gətirilməsini zəruri hesab edən hökumət bu məqsədlə 1918-ci iliyunun 22-də İstanbula səriştəli bir şəxsin ezam olunması haqqında qərar verdi.[2,s.215]1918-ci ilin iyul ayında maarif naziri N.Yusifbəyli Türkiyədən Azərbaycana çox sayda müəllim kadrlarının və dərs vəsaitlərinin göndərilməsi ilə bağlı İstanbuldakı Azərbaycan nümayəndə heyətinin rəhbəri M.Ə.Rəsulzadəyə müraciət etdi.Bu müraciətlə bağlı olaraq M.Ə.Rəsulzadə İstanbulda fəaliyyət göstərən Qafqaz Tərəqqi Cəmiyyətinin sədri Məsud Əfəndi ilə görüşdü. Üzvləri,əsasən, mühacir azərbaycanlılardan ibarət olan və Osmanlı hökuməti tərəfindən dəstəklənən Qafqaz Tərəqqi Cəmiyyəti gələcəkdə Qafqaz müsəlmanlarının Osmanlı imperiyasına birləşməsinə zəmin hazırlamaq üçün bölgə ilə Türkiyə arasında əlaqələrin genişləndirilməsini və Qafqaz müsəlmanlarının İstanbulda təhsil almalarına yardım etmək kimi işlərlə məşğul olurdu [3,s.3]. Azərbaycan gənclərinin Türkiyənin ali məktəblərində təhsil alması məsələsi də maarif sahəsindəki Azərbaycan-Osmanlı əməkdaşlığında xüsusi yer tuturdu. Qeyd edək ki,bu sahədə ilk addımlar hələ Azərbaycanın müstəqilliyinin elan olunmasından xeyli əvvəl atılmışdı. XIX əsrin sonu-XX əsrin əvvəllərində Əlibəy Hüseynzadə,Hüseyn Cavid,Abdulla Məmmədzadə, Məşədi Cəmil və digər Azərbaycan gəncləri fərdi təşəbbüsləri ilə İstanbuldakı ali məktəblərdə təhsil almışlar. Birinci Dünya müharibəsinin başlaması bu tendensiyanın davam etməsinə imkan verməsə də, rus imperiyasının süqutundan sonra Azərbaycan gəncləri yenidəntəhsil almaq üçün Türkiyə ali məktəblərinə üz tutdular. Azərbaycan Cümhuriyyətinin yaranması ərəfəsində Cənubi Qafqazda yaranan anarxiya səbəbindən Bakı Hərbi Məktəbinin tələbəsi Zeynalabdin Hüseynzadənin yarımçıq qalmış təhsilini Türkiyədə davam etməsi üçün hələ 1918-ci ilin mayında Osmanlı Hərbi Nazirliyinə müraciət edilmişdi. Ənvər paşa bu müraciətə müsbət yanaşdı və 25 may 1918-ci il tarixində adı çəkilən şəxsin İstanbul Qülləli Məktəbinə qəbul edilməsi ilə bağlı hökumətə təqdimat yazdı[6]. Bu təqdimata dərhal müsbət verildi. Mayın 26-da Osmanlı sultanı Mehmed Rəşad, sədrəzəm Tələt paşa və hərbi-vəzir Ənvər paşanın imzaladıqları <<irade-i səniyyə>> ilə Zeynalabdin Hüseynzadə İstanbul Qülləli Məktəbinə qəbul edildi[5]. M.Ə.Rəsulzadə 1918-ci ilin avqust ayında Osmanlı maarif naziri Nazim bəylə görüşü zamanı Azərbaycan üçün müəllim kadrları hazırlanması işinə yardım etmək məqsədilə İstanbuldakı pedaqoji məktəbə azərbaycanlı tələbələrin qəbul edilməsi məsələsini qaldırdı və buna razılıq aldı. O,Azərbaycan hökumətinə göndərdiyi 2 sentyabr 1918-ci il tarixli məktubunda Maarif Nazirliyindən Türkiyəyə pedaqoji

təhsil almaq üçün göndəriləcək tələbə sayını müəyyənləşdirməyi və lazımi tədarüklər görülməsi üçün ona bu say barədə məlumat verilməsini xahiş edirdi[6]. Azərbaycan və Osmanlı imperiyası arasında mədəni əlaqələrin inkişafet dirilməsi və Azərbaycan mədəniyyətinin Türkiyədə təbliğ olunması istiqamətində teatr truppaları, bir qədər sonra isə Azərbaycan Türk Dram Teatrı da əvəzsiz xidmətlər göstərmişdir.Bəhs edilən dövrdə Azərbaycan teatr sahəsində Türkiyədən irəlidə idi.Azərbaycan teatr truppalarının tamaşalarında qadınların rol alması Türkiyədə böyük əks-səda doğurmuş və bununla bağlı 1918-ci ilin avqust-sentyabr aylarında İstanbul mətbuatında heyrət dolu məqalələr,müsahibələr dərc edilmişdi[7,s.12].Bu məqalələr İstanbulda Azərbaycan teatrına böyük maraq oyandırdı.1918-ci ilin oktyabrında Azərbaycan Türk Dram kompaniyası Türkiyəyə qastrol səfərinə yola düşdü. Azərbaycan artistlərinin qastrol səfəri təkcə İstanbulda dörd aya qədər davam etdi. 1919-cu ilin yanvar-may ayları ərzində İstanbulda səfərdə olan Azərbaycan Türk Dram Operetta kompaniyası buradakı teatr salonlarında bir çox Azərbaycan tamaşalarını səhnələşdirdi. Məsələn: Məşədi İbad, Ac həriflər, Arşın mal alan, Əsli və Kərəm, Ər və arvad, Evli ikən bekar, Ağa Məhəmməd Şah Qacar və s. Bu çıxışlar zamanı səsləndirilən "İlk bahar, Mars, Papuri, Gecə həyatı, Vals,Çoban qutusu, Bənd oldum" və digər Azərbaycan mahnıları böyük marağa səbəb olmuşdu[8,s.4].Beləliklə,bütün bunları ümumiləşdirərək qeyd edə bilərik ki, 1919-cu ili Azərbaycanla Türkiyə arasında mədəni-maarif sahəsində ən məhsuldar il hesab edilir.

İstifadə olunmuş ədəbiyyat:

1. Azərbaycan Elmlər Akademiyasının rəhbərliyi, həqiqi vəmüxbir üzvləri,universitet direktorları və aparıcı alimləri ilə görüşdə Azərbaycan prezidenti Heydər Əliyevin nitqi
2. Азербайджанская Демократическая Республика (1918-1920).Законодательныеакты. Баку, Азербайджан, 1998, s.215
3. Kafkaz Terraki Cemiyyeti/Zaman, no.93,s.3
4. Türkiye Cumhuriyyeti Başbakanlık Osmanlı Arşivi (BOA) no.163/12.
5. BOA no.163/12.1-2
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi Siyasi Sənədlər
7. Arxivi, f.277, siy.2,iş7.1vş17a-18a
8. Azerbaycan Hariciye Nazırı ile Gayri Siyasi Bir Mülakat/Temaşa, no.8
9. Azerbaycan Türk Dram-Operet Kumpanyası/no.13705
10. M.Ə.Rəsulzadə .Azərbaycan Cümhuriyyəti.Bakı Elm1990.
11. Rəşad Qasımov. Azərbaycan Xalq Cümhuriyyəti- Osmanlı münasibətləri
12. Vasif Qafarov. Təhsil və mədəniyyət sahəsində Azərbaycan-Osmanlı əməkdaşlığı

Fərid Hacızadə Emnəli
BMR-fakültəsi
Elmi rəhbər: t.ü.f.d Lamiyyə Namazova Səxavət
Azərbaycan Dillər Universiteti

ƏSRİN MÜQAVİLƏSİ

1993-cü ildə xalqın tələbi ilə Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanın siyasi eyni zamanda iqtisadi həyatında mühüm dəyişikliklərin təməlini qoydu. Azərbaycanda baş vermiş böyük fəlakətlərin qarşısını almağa nail olan Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün də tədbirlərin görülməsi təşəbbüsü ilə çıxış etdi. SOCAR-ın vitse-prezidenti İlham Əliyev ilk gündən danışıqlar prosesinə cəlb olunub və sözügedən prosesin ən fəal iştirakçısına çevrilib. O, öz fəaliyyətində güclü ideyaya sadiq qalıb: "Bizim məqsədimiz təkcə neft hasil etmək deyil, həm də onu nəql etmək və gəlir əldə etməkdir. Xalqın iştirak etdiyi çoxsaylı görüşlər və danışıqlar bu şüar altında aparılıb. Bütün çətinliklərə baxmayaraq, müqavilə Azərbaycanın milli maraqlarına uyğun işlənib.[2]

1994-cü ilin 20 sentyabr tarixində Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və dərinsulu "Günəşli" neft yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında" ilk beynəlxalq müqavilə Gülüstan sarayında imzalanıb. Bu müqavilə əhəmiyyətinə görə "Əsrin müqaviləsi" adlanır. İlk neft müqaviləsi 30 il müddətinə bağlanmışdı. Müqaviləni 8 ölkədən 12 şirkət imzalayıb.

Əsrin müqaviləsi başlayandan Azərbaycan iqtisadiyyatında mühüm dəyişikliklər baş vermiş, böyük işlər görülmüşdür. İlk növbədə, neft hasilatı layihəsi çərçivəsində 1995-ci ildə "Çıraq-1" müasir standartlara uyğun bərpa edilmiş və sözügedən zavodun yuxarı modulu modernləşdirilmiş və zəngin quyuların qazılması üçün yeni texnologiyalarla təchiz edilmişdir.[2]

"Əsrin müqaviləsi"nin əhəmiyyətinə gəlincə, Heydər Əliyev onun dəyərini ən yaxşı ifadə etdi: "Bu müqaviləni imzalamaqla biz bir daha dünyaya nümayiş etdirdik ki, Azərbaycan tam müstəqil dövlətdir və onun xalqı öz sərvətlərinə öz nəzarəti altındadır. Bu müqaviləni imzalamaqla biz dünyanın inkişaf etmiş ölkələri, onların ən böyük neft şirkətləri ilə əlaqələr yaratmış, Azərbaycanın qlobal iqtisadiyyata inteqrasiyası, azad bazar iqtisadiyyatının qurulması üçün əsas yaratmışıq. Biz bu müqaviləni imzalamaqla müstəqil Azərbaycan Respublikasının hüquqi və demokratik dövlət olduğunu dünyaya bir daha nümayiş etdirdik"[1]

Əsrin müqaviləsi"ndən sonra dünyanın iri neft şirkətləri ilə Xəzər dənizinin Azərbaycan sektorundakı digər yataqlarla bağlı 31 beynəlxalq müqavilə imzalanıb. Azərbaycan neftini dünya bazarlarına çıxaran boru kəmərlərinin sayı üçə çatıb. "Əsrin müqaviləsi"nin imzalanması həm də Azərbaycana qaz istehsalçısı və ixracatçısına çevrilmək imkanı verdi.[1]

2017-ci il sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri -Çıraq-Günəşli" yataqlarının birgə işlənməsinə dair düzəliş edilmiş və yenidən işlənmiş sazişin imzalanması mərasimi olmuşdur. Yeni Sazişlə "Azəri-Çıraq-Günəşli" neft yatağının işlənməsi 2050-ci ilə qədər uzadılıb. Azərbaycanın neft diplomatiyası bu gün də uğurla davam edir. Onun prioriteti enerji ixracının şaxələndirilməsidir. Bu siyasət Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkənin əhəmiyyətini ildən-ilə artırır.

Prezident İlham Əliyevin dediyi kimi, "Əsrin müqaviləsi"ndə əldə olunan misilsiz uğurlar neftçilərimizin fədakar əməyinin nəticəsidir. Məhz onların sayəsində Azərbaycan geniş neft sənayesi infrastrukturuna malikdir və dünyada neft ölkəsi kimi tanınır".

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. "Azərbaycan" qəzeti, 20 noyabr 1994
2. N. Əliyev, E. Şahbazov. "Heydər Əliyev və Azərbaycan neftinin inkişafı", s.75. Bakı: Azərnəşr

Мурадов Джавидан Таир оглы
Научный руководитель: доц. Шукюфа Барат гызы Джабарова
Азербайджанский Университет Языков

КНИГИ ДОНАЛЬДА ТРАМПА КАК ФУНДАМЕНТ ЕГО ПОЛИТИЧЕСКОЙ ПРОГРАММЫ В ПЕРИОД ПРЕЗИДЕНТСТВА

Предвыборная программа является основополагающим документом, выражающим отношение кандидата к наиболее актуальным вопросам в стране. Зачастую, основные пункты, затронутые в программе, бывают сформированы ближе к президентским выборам и имеют достаточно популистский характер. В случае избрания такого кандидата, можно столкнуться с несоответствием изначальной повестки с проводимой политикой.

Дональд Трамп является исключением из правил. Такие труды как «Time to Get Tough: Make America Great Again!» 2011 года и «Crippled America: How to Make America Great Again» 2015 года являлись концептуальной базой Трампа как в период выборов, так и президентства. По названию этих книг можно понять, откуда был взят слоган "Make America Great Again".

Основные вопросы, затронутые в данных книгах, формировались и дополнялись в соответствии со временем. Одна книга была издана в период первого президенства Барака Обамы, вторая же в период второго срока. Порой, можно было столкнуться с мыслями, которые были полностью противоположны управлению Обамы и имплементированы позже со стороны самого Трампа. Как пример, можно привести отношения с Китаем и медицинская программа Obamacare.

К другим ключевым вопросам, затронутым в данных трудах и реализуемых в период управления Трампом можно отнести:

· Негативное влияние нелегальной миграции со стороны Мексики, ввиду чего страдает безопасность национальных границ, экономика и институт гражданства [1, с.24-29]. Решение этой проблемы Трамп видел в построении стены на границе, способной удержать поток.

· Налоговая политика периода Обамы казалась Трампу предельно деструктивной для американской экономики [2, с.57-63]. Огромный бэкграунд в бизнес-индустрии позволял исправить недочёт налоговой системы. В книгах были описаны особенности корпоративных налогов и предложены новые ставки по ним. Это правило коснулось и подоходного налога.

Целые главы этих книг были посвящены и внешнеполитическим вопросам, касающихся отношений с Россией, Ираном, Северной Кореей и другими государствами.

Таким образом, можно сказать, что, несмотря на долгую предпринимательскую, а ничуть не политическую карьеру, Дональд Трамп в своих книгах смог описать истинный дух американский политики, защищающий американские ценности, народ и государство, что и было его путеводной звездой в течение четырёх лет.

Использованная литература:

1. Donald Trump. Crippled America: How To Make America Great Again. Threshold Editions, 2015.
2. Donald Trump. Time To Get Tough Again. Washington D.C., Regnery Publishing, 2011

Aisha Gasanova Nail
Academic supervisor: PhD Rana Rajabli Gazanfar
Minsk State Linguistic University, Minsk

THE ROLE OF NATIONAL TRADITIONS IN THE FAMILY

This article examines the influence of national traditions on family relationships. The research is based on an analysis of different cultures and their influence on the structure and dynamics of family ties. Research data showing how national traditions shape behavior and values within the family context.

Traditions in the family are an indispensable part of our lives. Through traditions we can strengthen the bond with our ancestors, create a cosiness in the family and a spiritual connection. Also, living in another country, we can forget the traditions of our homeland.

1. National traditions and family identity:

The concept of "tradition" came to us from Latin language which means "to transmit". Hence there is a transmission of traditions from generation to generation. Our ancestors through traditions signified their belonging to a particular group. Historically, observance of traditions was considered obligatory and people taught their descendants by passing on traditions to them as an inheritance [2].

2. Cultural practices and rituals:

One of the major traditions is the celebration of holidays. The most important celebration for people is their birthday. Historians claim that Birthdays first appeared in Egypt. History records the first mention of a birthday in 3000 BC [1].

3. Passing on values

Passing on the traditions of your country or religion and teaching them to the younger generation allows you to be closer to your roots. By learning the ancient festivals and customs of your nation, people become united. Ancient civilizations and cultural achievements gravitated towards self-preservation rather than innovation. A mechanism was developed to preserve civilization and culture that is in place today. Art, knowledge, achievements of our ancestors can be referred to cultural traditions.

4. Common experience:

National traditions often involve collective participation, the development of shared experiences and memories within the family. There are family traditions that were formed by our ancestors: grandparents and older ancestors. Observing their customs is an expression of respect and love for relatives. We strengthen the bonds and pass the knowledge on. Through this, we make our relatives more united. Traditions help to make the family special.

5. Adaptation and Revitalization:

Despite challenges, families often adapt and revitalize traditions to suit modern contexts.

You can create your own traditions that your family members and future generations will honor. Reconstructing the traditions of your country or religion and teaching them to younger generations allows you to be closer to your roots.

The results of the study showed that national traditions have a significant impact on the structure of the family, the roles of its members, ways of resolving conflicts and communication within the family.

In conclusion, it can be noted that studying the role of national traditions in family relationships is an important direction for understanding cultural differences and improving intercultural understanding.

Reference list

1. https://www.nkj.ru/archive/articles/14921/
2. https://patriotsport.moscow/tradicii-russkoj-kultury-kak-sredstvo-vospitanija-obuchenija-i-razvitija/

Əliyeva Mehriban Savalan qızı
Elmi rəhbər: b/m Sevinc Qurbanova Əşrəf
Azərbaycan Dillər Universiteti

"BOSTON ÇAY QONAQLIĞI" – AMERİKA İNQİLABININ BAŞLANĞICI

"Boston çay qonaqlığı" 16 dekabr 1773-cü ildə baş verib. Bu hadisə Britaniya hökumətinə qarşı olan vətənpərvərlərdən ibarət radikal qrup olan "Azadlıq oğullarının" etirazı idi. Onlar etiraz aksiyasını Boston limanında üç ticarət gəmisinin göyərtəsinə qalxaraq, gəmilərin çay yükünü okeana ataraq təşkil ediblər. Nəticədə suya 342 sandıq çay atılaraq məhv oldu [1, s.1]. Kolonistlərin bəziləri "Mohawk" hinduları kimi geyinmişdilər, lakin onların xarici görünüşü heç kimi aldatmadı. İngilislər çayı kimin məhv etdiyini bilirdilər.

Müstəmləkəçilərin çayı okeana atmasının bir neçə səbəbləri var idi. Çay ingilislər və müstəmləkələr arasında sevimli içki idi. O, həmçinin Ost-Hind ingilis ticarət şirkətinin əsas gəlir mənbəyi idi və müstəmləkələrə yalnız bu şirkətdən çay ala biləcəklərini söylədilər. Onlara çay üçün yüksək vergi ödəməli olduqları da bildirilmişdi. Çay qanunu vergisi müstəmləkəçilərin narazılığına səbəb olmuşdur. Beləki, müstəmləkəçilərin fikrincə onlar Britaniya parlamentində təmsil olunmur və vergilərin necə ödənilməsi barədə söz sahibi deyildilər. Onlar çay vergisini ödəməkdən imtina edərək, çayın İngiltərəyə qaytarılmasını tələb etdilər. Tələb yerinə yetirilməyəndə, çayı okeana ataraq İngiltərənin ədalətsiz vergilərinə etiraz etmək qərarına gəldilər.

Boston çay qonaqlığından sonra Britaniya kralı III Corc və Britaniya parlamenti müstəmləkələrdə təsirinin azalmasını başa düşdülər. Səlahiyyətini bərqərar etmək və həm Massaçusets, həm də Bostonu qanunsuzluqlarına görə cəzalandırmaq üçün Parlament 1774-cü ildə Məcburi Aktlar kimi tanınan dörd ayrı qanun qəbul etdi. Dözülməz Aktlara cavab olaraq, müstəmləkə liderləri 1774-cü ilin sentyabrında Filadelfiyada I Kontinental Konqres çağırdılar. Birinci Kontinental Konqres inqilaba doğru böyük bir addım oldu [1. s.1-2].

İstifadə olunan ədəbiyyat siyahısı

1. Causes of the American Revolution: The Boston Tea Party (1773) // https://www.commackschools.org/Downloads/Boston%20Tea%20Party%20-%20Coercive%20-%20First%20Contl%20Congress.pdf

Məmmədov Nihat Neymət oğlu
Elmi rəhbər: Dos. Quliyev Nadir Novruz oğlu
Azərbaycan Dillər Universiteti

ERMƏNİ LOBBİSİNİN TƏSİRİ İLƏ ABŞ SENATINDA AZƏRBAYCANA QARŞI S.3000 ADLI DÜZƏLİŞİN QƏBUL OLUNMASI

15 noyabr 2023-cü il noyabrın 15-i tarixində ABŞ Senatı səsvermə yolu ilə S.3000 adlı düzəlişlə "2023-cü il Ermənilərin Müdafiəsi Aktını" qəbul etdi. Bu düzəliş ABŞ Senatında senatorlar cənab Rubio,

Piters, Kessidi, Riketts, Van Hollen, Kennedi və xanım Şahen tərəfindən təqdim edildi. Bu düzəliş 2024-2025-ci maliyyə illəri üçün Azərbaycana yardım ilə bağlı Administrasiyanın Azadlığa Dəstək Aktının 907-ci bölməsindən imtina vaxtını uzatmayaraq Azərbaycana bütün hərbi yardımı dayandıracaq [3]. ABŞ Dövlət katibinin köməkçisi O'Brien-in etdiyi şərhlər rəsmi Bakıda narahatçılığa səbəb olmuşdu. ABŞ rəsmiləri Ermənistan-Azərbaycan sülh məsələsini, Azərbaycan-ABŞ arasında ikitərəfli münasibətləri və Cənubi Qafqazda regional nəqliyyat layihələrini şərh etmişdilər. Dövlət katibinin köməkçisi O'Brien vurğulamışdı ki, sülh danışıqlarında əhəmiyyətli dərəcədə irəliləyiş əldə edilmədən Azərbaycan ilə münasibətlər normal davam edə bilməz: "Biz bir neçə yüksək səviyyəli səfərdən imtina etmişik, rəsmi Bakının hərəkətlərini qınamışıq və 907-dən imtinanı ləğv etmişik." [1]. 2023-cü il 19-20 sentyabr tarixlərində keçirilən antiterror əməliyyatlarından sonra ABŞ və Azərbaycan arasında münasibətlərdə müəyyən qədər gərginlik yaşandı. 2023-cü il noyabr ayının əvvəllərində Azərbaycan Respublikası Ermənistan ilə sülh danışıqlarında Rusiya və Qərbin vasitəçiliyinə ümid etmədiyini dəfələrlə bəyan etdi. ABŞ Konqresinin dinləmələrinə cavab olaraq, Rəsmi Bakı Ermənistan ilə sülh məsələsi çərçivəsində Vaşinqtonda keçirilməli olan görüşləri rədd etdikdən sonra Azərbaycan Prezidentinin Xarici siyasət məsələləri üzrə köməkçisi Hikmət Hacıyev mövqeyini təkrarlayıb. "Birincisi, regional sülh və təhlükəsizlik Parisdə, Brüsseldə, Moskvada və ya Vaşinqtonda deyil. Sülh regiondadır", - deyə Hikmət Hacıyev keçmiş “Twitter” olan “X” platformasında öz hesabında yazmışdı. Hikmət Hacıyevin sözlərinə əsasən, iki ölkə arasında sülh əldə edildikdən sonra “digər tərəfdaşlar da bu sazişi dəstəkləyə bilərlər” [2].

İstifadə edilmiş ədəbiyyat

1. Huseynov Vasif. Strained Relations Between Azerbaijan and the West, Eurasia Daily Monitor, 2023 : [Electronic resource] / URL: https://jamestown.org/program/strained-relations-between-azerbaijan-and-the-west/
2. Rahimli J. Building a Stronger Azerbaijan-USA Partnership: Looking Towards the Future, 2023 : [Electronic resource] / URL: https://www.linkedin.com/pulse/building-stronger-azerbaijan-usa-partnership-looking-javid
3. US Senate Adopts S.3000 the Armenian Protection Act of 2023, Suspends All Military Aid to Azerbaijan, 2023: [Electronic resource] / URL: https://massispost.com/2023/11/us-senate-adopts-s-3000-the-armenian-protection-act-of-2023-suspends-all-military-aid-to-azerbaija

Самедзаде Вилаят Омар оглу
Научный руководитель: п. Эльшан Исаев Эльманоглы
Азербайджанский университет языков

НОВЫЕ ПРИОРИТЕТЫ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ ВО ВНЕШНЕЙ ПОЛИТИКЕ

После начала специальной военной операции на территории Украины и введения многочисленных санкций против Российской Федерации, началась новая концепция и новые приоритеты во внешней политике. Российская федерация стремится к максимальному укреплению новой международный системы, которая прежде всего основана на уважение и равноправия государств друг с другом. Россия стремится к ликвидации доминации блока НАТО в первую очередь США, в свою очередь НАТО не хочет такой невыгодной к себе политики и максимально поддерживает Украину, чтобы та вела войну против России, исчерпывая её ресурсы [1].

Российская Федерация уже начала выделять большое внимание к экономическому и торговому сотрудничеству со странами Азии, Африки, Южной Америки и других регионов, в том числе из-за того, что Российская Федерация состоит в международных торговых организациях ШОС, ЕАЭС и БРИКС [2].

Обеспечение безопасности и стабильности Российской Федерацией является так же одной из важных частей ее новой приоритетной политики. Российская федерация заинтересована в том, чтобы на всей территории постсоветского пространства был мир, и она заинтересована в подписании мирного договора между Азербайджаном и Арменией, в урегулирования конфликтов с Грузией, Украиной, и в средней Азии. Россия так же на данный момент старается обеспечить безопасность и стабильность в военном блоке ОДКБ.

Российская Федерация так же ведёт борьбу с терроризмом, в первую очередь Россия ведёт борьбу против Исламского государства (Игил), особенно у правительства России в приоритете

полное ликвидация данной террористической организацией, в следствие чего она проводит военную операцию в Сирии (с 2015 года), поддерживает другие государства которые ведут борьбу против терроризма, и в целом на данный момент этот курс для России является очень приоритетным [3].

Российская Федерация ведёт так же сотрудничество на мировом уровне в содействии международным усилиям всех стран по борьбе с климатом. Правительство России работает над личным планом по улучшению климата, для снижения газовых паров и выбросов отходов. Российская Федерация так же и подписала и ратифицировала Киотский договор, по которому она обязывается уменьшить выбросы парникового газа [4].

На основе всех вышеперечисленных пяти факторов можно сказать, что во внешней политике Российская Федерация будет стремиться в первую очередь к мультиполярному миру и укреплению уважения между государствами.

Список использованной литературы

1. В.В.Путин., «О формирование многополярной системы' – 2023 – URL: http://surl.li/rscmb
2. Максим Решетников., «О расширение кооперации со странами-партнерами приоритет для России» - 2022 – URL: http://surl.li/rscus
3. Салимов Парваз., «О подходе России к урегулированию конфликтов на постсоветском пространстве» - 2019 – URL: http://surl.li/rsczs
4. Рено Селигман., «О проблеме изменения климата: как ее решают в России?» - 2020 – URL: http://surl.li/rsdro

Əsgərova Sevinc Əhməd qızı
Elmi rəhbər: müəl. Ələsgərova Sara Tahir
Azərbaycan Dillər Universiteti

BRAZİLİYANIN SƏHİYYƏ SİSTEMİNİN ÖZƏLLİKLƏRİ

Braziliya Cənubi Amerika ərazicə ən böyük və ən inkişaf etmiş biridir. 1500-cü ildən 1822-ci ilə qədər portuqal müstəmləkəsi olmuş Braziliyaçox çətinliklə müstəqillik əldə etsədə,uzun illər qeyri-demokratik rejimlərlə idarə olunması ölkənin inkişafını ləngitmişdir.Braziliya regionda qabaqcıl səhiyyə sistemi ilə fərqlənir. 1923-cü ildə əvvəllər özəl sektorda işləyənlər üçün sosial təminat sisteminin yaradılması ilə Braziliyanın müasir səhiyyəsinin əsası qoyuldu. Bu müddət ərzində sağlamlıq konstitusion hüquq deyildi, ona görə də səhiyyə sisteminə çıxış prioritet deyildi. Sosial təminat modeli özəl sektorda işəgötürənlər və işçilər tərəfindən məcburi ödənişlərə əsaslanırdı. Bu modelə kənd təsərrüfatı və qeyri-rəsmi sektor işçiləri daxil edilməmişdi və əhalinin əksəriyyəti sığortasız kənarda qalmışdı. Bu dövrdə qurulmuş səhiyyə maliyyəsinin strukturu 1970-ci illərə qədər bəzi tibbi xidmətlər üçün tibbi əhatə dairəsini genişləndirmək üçün səhiyyə islahatına başlanılana qədər praktiki olaraq toxunulmaz idi[1] .

Braziliyanın səhiyyə sistemi son illərdə əhəmiyyətli irəliləyiş əldə etsə də, hələ də böyük problemlərlə üzləşir. Çətinliklərə baxmayaraq, Braziliya ilkin tibbi yardıma çıxışı yaxşılaşdıran və körpə ölüm nisbətini azaldan ailə sağlamlığı proqramının həyata keçirilməsi kimi səhiyyə sahəsində təsirli addımlar atdı. Lakin çox vaxt kənd yerlərində, yüksək yoxsulluq səviyyəsinə malik bölgələrdə və mərkəz əyalətlərdə səhiyyənin əlçatanlığı və keyfiyyəti məsələsində bərabərsizliklər özünü göstərir. Əhalinin əhatə dairəsi baxımından bu bərabərsizliyi aradan qaldırmaq üçün Braziliya son illərdə əhəmiyyətli irəliləyişlər əldə etmişdir. Ölkədə nəzəri cəhətdən bütün vətəndaşları əhatə edən universal səhiyyə sistemi mövcuddur və hökumət kənd yerlərində və digər xidmət göstərilməyən regionlarda səhiyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsinə əhəmiyyətli investisiyalar yatırdır.Braziliya səhiyyəsinin ən əsas xüsusiyyəti regionda yeganə universal sığorta sisteminin mövcudolduğu ölkə olmasıdır. Braziliyanın sığorta sistemi təkcə öz vətəndaşlarını deyil, eyni zamanda ölkədə olan miqrant, məcburi köçkünləri, həmçinin Braziliya ərazisinə müvəqqəti daxil olan bütün turist və səyahətçiləri də əhatə edir [3].

Bütün bu çatışmazlıqlara baxmayaraq, Braziliya səhiyyə sistemi də bir sıra əhəmiyyətli uğurlar əldə etmişdir. Bəlkə də ən diqqət çəkəni, bütün Braziliya vətəndaşlarına pulsuz tibbi xidmət göstərən universal səhiyyə sistemi olan Sistema Único de Saúde-nin (SUS) yaradılmasıdır [1]. SUS bir çox insanın, xüsusən də yoxsulluq şəraitində yaşayanların səhiyyə xidmətlərinə çıxış imkanlarının yaxşılaşdırılmasında mühüm

rol oynayır. Braziliya səhiyyə sisteminin digər mühüm nailiyyəti uşaq ölümlərinin 1990-cı ildə 1000 diri doğulana 53 ölümdən 2019-cu ildə 1000 diri doğulana 12 ölümə enməsidir. Bu, Braziliyada qadınlar və uşaqlar üçün sağlamlıq nəticələrinin əhəmiyyətli dərəcədə yaxşılaşdığını göstərir [2].

Ölkə Ümumdünya Səhiyyə Təşkilatının səhiyyə sistemləri reytinqində 190 ölkə arasında 125-ci yeri tutur ki, bu da ölkənin səhiyyə sistemində ciddi çatışmamazlıqlar olduğunu göstərir [3].

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Alexander Muacevic and John R Adler. A Closer Look Into Brazil's Healthcare System. 2023,may//https://www.ncbi.nlm.nih.gov/pmc/articles/PMC10231901/
2. Compartive health policy of Brazil//https://www.publichealth.columbia.edu/research/others/comparative-health-policy-library/brazil-summary
3. İnternational health policy of Brazil//https://www.commonwealthfund.org/international-health-policy-center/countries/brazil

İbrahimov Orxan Məhərrəm oğlu
Elmi rəhbər: müəl. Səbinə Muradova İlham
Azərbaycan Dillər Universiteti

BISMARK VƏ BEVERİC SOSİAL SİYASƏT MODELLƏRİNİN TƏHLİLİ

Qərbin sənayeləşmiş ölkələri iqtisadi böhrandan qurtulmaq üçün „Sosial dövlət" prinsipini reallaşdırdılar. Heç şübhəsiz ki, kommunizmin də o dövrdə Şərqi Avropaya doğru genişlənməsi həmin səbəblər arasında idi. Yəni kapitalizm həm də sosializmlə mübarizə metodu olaraq İkinci dünya müharibəsindən sonra „Sosial dövlət" planlamasına getmək məcburiyyətində qalmışdı. Mən isə bu yazımda Sosial müdafiə kontekstindən çıxış edərək „Bismark və Beveric" „Sosial təhlükəsizlik" modellərinin müqayisəli analizini verməyə çalışacağam.

Alman „Sosial siğorta" sistemi 1883-1889-cu illərdə ilk dəfə O.V.Bismarkın kanslerliyi dövründə Alman imperiyası tərəfindən qurulmuşdur. Bismark Almaniyada Sosial siğorta sistemlərini təşkil edəndə həmin vaxt digər Avropa ölkələrində axtarışlar daha çox „İş qəzaları və peşə xəstəlikləri" sahəsində idi. Bismarkın Sosial təhlükəsizlik siyasəti yeritməkdəməqsədi inkişaf edən sosialist meyllərə qarşı bir tərəfdən ənənəvi metodlarla mübarizə aparmaq, digər tərəfdən isə sosial siyasət sahəsində reformlar gətirərək sosialistlərin təsirini azaltmaq olmuşdu[1]. Sistem əvvəlcə müəyyən bir əmək haqqına sahib sənaye işçilərini əhatə etmiş, sonrasında isə digər əmək haqqı sahiblərinə doğru genişlənmişdir. Sistem tamamilə şəxsi siğorta anlayışını mənimsəmiş və üzvlüyü məcburi hala gətirmişdir. 1883-cü ildə xəstəlik siğortası, 1884-cü ildə iş qəzası siğortası, 1889-cu ildə əlillik və yaşlılıq siğortaları qəbul edilmişdir. Xəstəlik siğortası 1/3 hissəsi işçinin, 2/3 hissəsi isə idarə heyətinin ödənəyi hesabına təşkil edilməkdə olub xəstəlik müddətində pulsuz tibbi yardım və on üç həftə müddətincə yarım maaş məbləğində müvəqqəti işdən azad olma müəyyən edilmişdir. Şikəstlik və yaşlılıq siğortasında isə siğortalı və idarə heyəti ödənəyi ilə yanaşı dövlətində ümumi büdcədən əl tutması nəzərdə tutulmuşdur[1]. İş qəzalarının isə təkcə idarə heyəti ittifaqları tərəfindən qarşılanması zəruri sayılmışdır. Bismarkın Sosial təhlükəsizlik sistemi bütün dünyada maraq oyadaraq 1895-ci ildən etibarən digər Avropa ölkələrində də bu modelin mexanizminə uyğun sosial təhlükəsizlik qanunları tətbiq edilmişdir[2]. Bu sistemin maliyyə əsası işçinin və idarə heyətindəkilərin milli gəlirlərinə müvafiq sığorta ödəmələridir. Buda Bismark modelini Beveric modelindən fərqləndirən əsas şərtdir[3].

İkinci dünya müharibəsi illərində Böyük Britaniyanın sosial müdafiə sistemi dağınıq və köhnəlmiş olub müasir tələbata uymurdu. Vəziyyətdən çıxış yolu isə Villiam Beveric rəhbərliyindəki komissiyanın 1942-ci ildə hazırladığı 172 səhifəlik məruzədə öz əksini tapdı. Başlıca olaraq insanların yoxsulluqdan qurtuluş çarələri öz əksini tapdı.Sosial sığortalar yolu ilə milli gəlirin cəmiyyət içərisində yenidən paylanması məqsədəuyğun sayılmış, hər kəs üçün minimum milli gəlir sığortası verilməsi məsləhət görülmüşdür [2]. Burada bir neçə prinsip irəli sürülmüşdür. 1.Ümumilik və siğorta yardımlarında təklik prinsipi. 2. İdarəetmədə birlik prinsipi 3. Kompensasiyalarda təklik və vergilərlə təmin etmə prinsipi. 4. Rifah və milli sağlamlıq siyasətilə dəstəklənmə [3].

Bismark modeli işçi və idarə heyəti-direktoriyasının qarşılıqlı maddı yardımları ilə təşkil olunarkən Beveric modeli isə sosial təhlükəsizlik nazirliyi nəzdində minimum milli gəlir ödəməyi ilə bütün ingilis xalqına nüfuz edir.Lakin sistem olaraq Bismark modeli daha ağlabatandır. Bismark modeli daha yönlü və konkret şəkildə işçi və idarə heyətini, onların ailələrinidə əhatə etməklə bütöv alman xalqınada töhvə vermiş olur. Oxşar cəhətləri isə hər iki model bütün xalqa nüfuz edir və hər ikisi də siğorta sistemindən yararlanır.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Aysen Tokol, Yusuf Alper. Sosyal Politika.Uludag Universitesi,2013
2. Ali Seyyar. Sosyal politika bilimine giriş,Sakarya 2011
3. M. RefikKorkusuz. Sosyalgüvenlik hukuku.2015

İbrahimli Orxan İman oğlu
Elmi rəhbər: müəl. Sara Ələsgərova Tahir
Azərbaycan Dillər Universiteti

BRAZİLİYANIN XARİCİ SİYASƏT PRİORİTETLƏRİ

Braziliya Cənubi Amerikanın ən inkişaf etmiş ölkələrindən biridir. Braziliya portuqal müstəmləkəsi olmuş və rəsmi dili portuqal olan yeganə Cənubi Amerika ölkəsidir. Portuqaliyanın təsiriilə Braziliya regionda digər ispan müstəmləkəsi olmuş region ölkələrindən özünəməxsus xüsusiyyətləri ilə fərqlənir. Braziliya öz xarici siyasət kursunda daha cox iqtisadi gücünə arxalanır. O, eyni zamanda iqtisadi cəhətdən regionun ən nəhəng iqtisadiyyatına malikdir belə ki, onun iqtisadiyyatı ildə 1,8 trilyon dollar təşkil etməkdədir. Bu da Braziliyanın Cənubi Amerika ölkələrinə ABŞ-la müqayisədə daha aşağı kredit verməyə imkan verir. Bununlada regionda həm öz nüfuzunu artırır həm də, region ölkələrinin ABŞ-dan aslılığını azaldır. Ümumiyyətlə, Braziliya xarici siyasətində ABŞ-la birbaşa toqquşmadan qaçır, "soft power" yəni yumşaq gücdən istifadə edərək regionda ABŞ-ın təsirini azaltmağa çalışır[1].

Braziliya iqtisadi cəhətdən Aİ-na rəqib ola biləcək BRICS təşkilatının qurucu üzvüdür. Braziliya, Rusiya, Hindistan, Çin, və Cənubi Afrika ölkələrinin qurduğu bu təşkillat proqnozlara əsasən 2050- ci ilə qədər Avropa ittifaqından iqtisadi yöndən daha güclü olması gözlənilir. Braziliya bu gün regional güc hesab edilir, lakin xarici siyasət prioritetləri kimi qlobal güc olmağı da hədəfləyir. Braziliya BMT-nin Təhlükəsizlik Şurasına daimi üzv olmaq niyyətindədir. BMT TŞ-nın 5 daimi üzvünün sayının artırılmasını təklif edən Braziliya bu məqsədinə çatmaq üçün Yaponiya, Almaniya və Hindistanla birgə G4 birliyini yaradıblar. G4-lüyün məqsədi BMT TŞ-nın daimi üzvlərinin sayının 5 dən 9-a qaldırılmasıdır. Braziliya G20-nin də aktiv üzvlərindən biridir [1]. Braziliya daxili siyasətində bir çox problemlərlə üzləşsədə xarici siyasətində effektiv addımlar atmaqdadır bu da onun dünyada öz sözünü deyə bilən dövlətlərdən biri edir. Braziliyanın 2018-ci 22 iyulda ildə seçilən qalmaqallı prezidenti Bolsanoro daxili siyasətində diktaturluğa meyilli olsada,daxili siyasətdə yarıtmaz addımlarına baxmayaraq xarici siyasətdə Braziliyanın regional güc mövqeyini qorumağı bacardı [3].

Son seçkilərdə qalib gələn cari prezident Lula de Silva isə Braziliyanın xarici siyasətində ABŞ-la və Latın Amerika ölkələri ilə sıx əməkdaşlığa önəm verir. O prezident seçkisindən sonra öz xarici siyasət kursunu açıqlayanda zəngin və ən güclü ölkələrlə bərabərhüquqlu kimi danışan və eyni zamanda daha kasıb ölkələrin inkişafına töhfə verən, suveren Braziliya üçün darıxdığını qeyd etdi [2].

Lula xarici siyasət prioritetləri sırasında, Mercosur gömrük ittifaqını və hazırda fəaliyyət göstərməyən regional təşkilat olan Unasuru gücləndirməklə Cənubi Amerika və Latın Amerikasını inteqrasiya etmək, Afrika ölkələri ilə texniki əməkdaşlıq etmək, və Braziliya, Rusiya, Hindistan, Çin və Cənubi Afrikadan ibarət BRİKS qrupunun fəaliyyətini gücləndirmək olduğunu qeyd etdi[1].

Onilliklərdir Braziliya xarici siyasət prioritetləri sırasında olan Braziliyanın BMT Təhlükəsizlik Şurasının daimi üzvləri sırasına daxil edilmə məsələsi isə hələ də gündəmdədir.

İstifadə edilmiş ədəbiyyat siyahısı:

1. Foreign Affairs of Brazil // Homepage – Ministério das Relações Exteriores // www.gov.br)
2. Foreign Policy of Brazil // Brazil Elections: What Is Lula's Foreign Policy?, brazilforeignpolicy.com
3. Foreign policy of Jair Bolsanoro // "Novo chanceler de Bolsonaro promete diplomacia da saúde e atuação sem preferências". April 6, 2021.

Cəfərov Nihat Arif oğlu
Elmi rəhbər: müəl. Seyidova Aygün
Azərbaycan Dillər Universiteti

CƏNUBİ AMERİKADA ERKƏN SİVİLİZASİYALAR – NASKA MƏDƏNİYYƏTİ

Cənubi Amerikada yaşayan ibtidai insanların mədəniyyəti məişət və əmək fəaliyyətinə görə bir-birindən fərqli idi. Onlar əsasən Odlu Torpağın tropik meşəlikləri və düzənliklərində məskunlaşmışdılar. Onların əsas məşğuliyyəti balıqçılıq, ovçuluq, meyvə yığıcılığı idi. Cənubi Amerikanın ilk insan məskənlərinin Sibirdən Berinq boğazından keçərək Şimali Amerikaya, oradan cənuba köç etdiyi güman edilir. Bu regionda insan məskəninə dair ən erkən arxeoloji sübutlar Cənubi Çilidəki Monte Verdedə tapılmışdır və ehtimal olunur ki, eramızdan əvvəl 16500-cü ilə aiddir [2].

Bu regionda bir çox mədəniyyətlər formalaşmışdır, onların sırasında moçika, çavin, parakas, naska mədəniyyətlərini göstərə bilərik. Naska mədəniyyəti öz dini rituallarına, hələ də sirri tapılmamış naska xəttlərinə, seramik qablarına görə daha məşhurdur. Naska sivilizasiyası eramızdan əvvəl 200-600-cü illərdə Peruda öz çiçəklənmə dövrünü yaşamışdır. Şəhərsalma, qala, məbəd qədim Naska memarlığının əsas nümunələrindən hesab edilirdi.Insanlar təbiət tanrılarına sitayiş edirdilər və onların şərəfinə Kauaçidə piramidalar tikmişdilər [4].

Naska mədəniyyəti iki dövrə bölünür,erkən və orta naska dövrü. Erkən Naska dövründə insanlar kənd təsərrüfatı, ticarət və balıq ovu ilə məşğul idilər. Kənd təsərrüfatında yeraltı suvarma sistemlərindən istifadə etmişlər. Kəndlərdə insanların özünəməxsus dini ritualları və dəfn adətləri var idi və Kauaçi əsas dini mərkəz idi.Şəhərin ən məşhur abidəsi Eskakeriya adlanan müqəddəs yer hesab olunurdu. Orta naska dövründəisə Kauaçi dini mərkəz kimi öz əhəmiyyətini itirdi,hökümət bütün əhalini vahid hökümətdə mərkəzləşdirə bilmədi, sosial mürəkkəblik artdı və insanlar bu əraziləri tərk etməyə başladılar [3].

Bu sivilizasiya həm də Pisko vadisində səhra düzündə həkk olunmuş bir sıra möhtəşəm və iri miqyaslı fiqurların təsvirləri olan Naska xəttləri ilə məşhurdur. Naska xəttlərini ilk dəfə 1920-ci ildə təyyarə Peru səhrası üzərindən uçarkən müşahidəetmişdi [1]. Bu xətlərin niyə çəkildiyinə dair bir çox nəzəriyyələr mövcuddur. Fərziyyələrdən birinə görə bu məşhur xəttlər vasitəsiylə insanlar Naskada məhsulun əkilməsi və yığılmasında kömək edən bir növ astronomik düzülmələr rolunu oynayırdı [2]. Ancaq ən çox qəbul edilən Mariya Rayxenin və Simon Veyzbardın fərziyyələridir. Mariya Rayxeya görə bu ulduzların yüksəlməsi, günəş gündönümü kimi planetar hadisələrlə bağlı çəkilmişdi. Veyzbardın nəzəriyyəsinə əsasən, bu xəttlər nəhəng astronomik təqvimdir və yağıntının ölçülməsi üçün istifadə edilmişdir [3].

Naska xətləri şəhərin şimal-qərbindəki quraq Pampa Koloradada yerləşir və yer səthinə həkk olunmuşdu. Bu xəttlər təxminən 190 kvadrat mil (500 kvadrat km) ərazini əhatə edir [1]. Bu təsvirlər 120-200 metrlik quş, kərtənkələ, meymun, böcək, ilan, it, həndəsi fiqurlar və s təsvirlərdən ibarətdir. Bunlardan bəziləri naskalıların allahları hesab edilirdi. Bu unikal nəhəng şəkil qalereyasındakı təsvirlərin cizgilərinin ölçü qeydiyyatını ilk dəfə alman riyaziyyatçısı professor Mariya Rayxe aparmışdı [4]. Bu xəttlər 1994-cü ildə YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilmişdir [3].

Naska mədəniyyəti eyni zamanda gözəl polixrom qabları ilə məşhur idi və bu qablar azı 15 fərqli rənglə boyanırdı. Onlarda toxuculuq sənəti də heyrətamiz şəkildə inkişaf etmişdi və rənglərlə çox gözəl işləməyi bacarırdılar[3]. Naska mədəniyyətində memarlıq, sənətkarlıq özünəməxsus ornamentlərinə görə digər sivilizasiyalardan fərqlənirdi. Dulusçuluq sənətində keramika qablar üzərində rənglərin kompozisiyası Naska mədəniyyətinin keçmişdən günümüzə gəlib çatan ən gözəl incilərindəndir.

İstifadə olunan ədəbiyyat siyahısı

1. The editors of Encyclopedia Britannica article history, Nazca lines// https://www-britannica-com.translate.goog/place/Nazca-Lines
2. Ancient civilisations and mysteries of South America// https://global.hurtigruten.com/destinations/south-america/inspiration/ancient-civilisations-and-mysteries/
3. Nazca civilization // https://www.peru-explorer.com/nasca/nazca_civilization.htm
4. World History Encyclopedia, Nazca civilization //https://www.worldhistory.org/Nazca_Civilization/

Bədəlbəyli Nigar Yaşar qızı

Elmi rəhbər: Dos. Rəna Rəcəbli Qəzənfər
Azərbaycan Dillər Universiteti

YAPONİYA MƏDƏNİYYƏTİNİN İQTİSADİYYATA TƏSİRİ

Yaponiyanın əsrarəngiz gözəlliyi olan təbiətə malik olması, Yapon xalqının onu digər xalqlardan fərqləndirə biləcək bir xüsusiyyətə sahib olmasına səbəb olmuşdur. Bu xüsusiyyət gözəllikdən zövq almaq bacarığıdır. Yapon mədəniyyətinə qədim Çin mədəniyyətinin təsiri böyük olsada Yapon mədəniyyəti müasir dövrə qədər özünəməxsusluğunu qoruyub saxlaya bilmişdir. Yapon mədəniyyətinin əsasını təbiətdə mövcud olan gözəlliyi tapıb aşkara çıxartmaq və onu xüsusi bir şəkildə nümayiş etdirmək təşkil edir. Yaponlar bunu bir neçə sahədə qabarıq şəkildə göstərir. Bu sahələr iqtisadiyyata olduqca böyük təsir göstərir. Bunlara misal olaraq aşağıdakıları göstərmək olar.

İkebana (生花, *ike* – "həyat", *bana* – "güllər", *tərc.* "canlı güllər") və ya **Kado** (華道, "güllərin yolu") – kəsilmiş güllərdən müxtəlif kompozisiyalar yaratmaqdan ibarət ənənəvi yapon sənəti. Müasir dövürdə bu sənət növü dahada inkişaf edərək iqtisadiyyata təsir göstərmişdir [1].

Yüz illər boyu mövcud olan çay adəti Yaponiyada "Çay seremoniyası" adlanır və bu mərasim yaponlar üçün tamam başqa məna kəsb edir. Adətən əksər ölkələrdə bu cür çay mərasimləri olur, lakin yaponlar bunu o qədər böyütmüşlər ki, mədəniyyətin böyük bir hissəsinə çevrilmişdir [2].

Yaponlar simmetrik olanı təbii hesab etmirlər. Təbiətdə heçnə simmetrik olmadığına görə evlərdə də simmetriyaya rast gəlmək qeyri-mümkündür. Evin qarşı-qarşıya olan divarlarında bele simmetriklik görmək mümkün deyil. Evin hər bir küncü bir-birindən fərqlənir. Evlər ilin dörd fəsilinə uyğun şəkildə tikilir. Yayda evləri hərəkət edən divarlar sayəsində genişləndirmək belə mümkündür.Yaponlar bu cür evlərin tikintisinə görə böyük uğurlar qazanmışdır [3].

Bir ölkəni daha yaxşı tanıya bilmək üçün o ölkənin yeməklərindən yemək lazımdır. Bir ölkənin yeməkləri o ölkənin milli xarakterini, ləzzət tərzini, estetik anlayışını, həyat formasını və s. göstərən elementlərdən biridir. Bu səbəbdəndir ki, yemək mədəniyyəti deyilən anlayış mövcuddur. Yapon mətbəxi dünyada məşhur mətbəxlərdən biridir. Ən məhşur yemək növü sayılan suşi demək olar bütün dünyada maraqla yeyilir [4].

Bu cür mədəniyyət nümunələri turistləri hər zaman Yaponiyaya cəlb edir. Ona görə də mədəniyyətin iqtisadiyyatda böyük payi vardır.

İstifadə olunan ədəbiyyat siyahısı

1. https://www.ikenobo.jp/
2. https://note.com/ladylike/n/n5b1d28e586be
3. https://www.houzz.jp/ideabooks/53387313/list
4. https://www.meiji.co.jp/meiji-shokuiku/japaneseculture/washoku/

Nəsirova Nəsibə Elşən qızı
Elmi rəhbər: müəl. Nailə Məmmədova Xudaqulu
Azərbaycan Dilləri Universiteti

YAPONİYADA TƏHSİL SİYASƏTİNİN ÖZÜNƏMƏXSUSLUĞU

Yaponiya tarixinə nəzər saldıqda burada təhsillə bağlı bir səra mühüm hadisələrə rast gəlmək olar. Yaponlar kiçik yaşlarından ciddi və davamlı şəkildə müvafiq biliklərə yiyələnməyə başlayırlar. Təhsil sistemində aparılan mütərəqqi islahatlar II Dünya müharibəsindən sonrakı onilliklərdə ölkənin tərəqqisi və iqtisadi inkişafında mühüm rol oynayıb. 1947ci ildə "Fundamental təhsil və Məktəb Təhsili" qanunu qəbul olunub [1]. Təhsil Qanunu bu gün də mövcud olan təhsil sistemini müəyyən edir. Belə ki, məktəbəqədər təhsil 6 yaşa qədər uşaqları əhatə edir.Ümumi orta təhsil isə İbtidai təhsil (6 il) Aşağı orta məktəb(3il) Yuxarı orta məktəb (3 il) olmaqla 3 mərhələyə bölünür. Ali təhsil də eyni qayda ilə bakalavriat (6 il) magisturatura (2 il) doktorantura (2 il) olmaqla 3 mərhələni əhatə edir [2].

Yaponiya təhsili federal hökumət və regional strukturlar prefektura və bələdiyyələr tərəfindən idarə olunur. Federal hökumətin fəaliyyətinə təhsil sisteminin iadrə edilməsi,milli kurikulum standartlarının yaradılması, müəllimlərə lisenziyaların verilməsi, təhsilin maliyyələşdirilməsi, dərsliklərin paylanması aiddir.

Bəs Yaponiyanın təhsil sisteminin digər ölkələrdən fərqlənən mühüm məqamlar nələrdir? Yaponiyada hər bir məktəbin xüsusi geyim forması var. İngiltərə və ABŞ kimi ölkələrdə məktəblərdə sərbəst geyim tətbiq edilir lakin Yaponiya hər bir məktəbin forması məsələsində israrlıdır [1].

Məktəblilər 10 yaşına qədər sınağa girmirlər.Yaponiya 10 yaşına qədər şagirdlərini heç bir şəkildə imtahan etməyərək onların özlərini inkişaf etdirməsinə şərait yaradır.

Məktəblərdə xidmətçi heyəti yoxdur. Yaponiyadadakı məktəblərdə xidmətçi heyəti olmur bunun əvəzinə şagirdlər və müəllimlər təmizlik işləri ilə məşğul olular. Beləliklə şagirdlərin həm ətraf mühiti təmiz saxlaması həm də komanda halında işini anlaması təmin olunur.

Yeməkləri məktəb təmin edir.Dünya üzərində bir çox ölkələrdə yeməkxana mədəniyyəti var ancaq Yaponiyada məktəblilər günorta aralarında eyni yeməyi məhz öz siniflərində yeyir.Bunun səbəbi isə şagirdlərin öz aralarında haqqını yaxşı tanıya bilməsidi.

Tələbələrin universitetdəki gələcəyi tək bir sınağa bağlıdır.Belə ki,yaponlar bu imtahanı "cəhənnəm imtahanı" kimi səciyyələndirir. Avropa ölkələri, ABŞ və Kanada kimi ölkələrdə universitetə keçiddə daha fərqli və tələbələrin rahat olduğu bir sistem olsa da vahid imtahan sisteminin tələbələri daha intizamlı olmağa vadar etdiyi deyilir.

Şagirdlər çox ciddi bir səbəb olmadıqca dərslərə davam edir.İmtahan sisteminin gətirdiyi intizamla yanaşı şagirdlər akademik kayeralarına əhəmiyyət verir və çox ciddi mənfi bir cəhət olmadıqca dərsləri davam etdirirlər.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Hirotoshi Yamasaki. Teachers and Teacher Education in Japan: Bull gradiation school education Hiroshima University, 2016
2. Kıral E., B.Kıral. Japonya ilköğretim sistemi ve Türkiye ilköğretim sisteminin karşılaştırılması // - Diyerbakır: Dicle Üniversitesi Ziya Gökalp Eğitim Fakültesi Dergisi, 2009
3. Ministry of Education, Culture, Sports, Science and Technology // https://www.mext.go.jp/en/
4. Mahmudov M. Dünyada təhsil sistemləri. - Bakı: Mütərcim, 2014

Padarova Nərmin Elxan qızı
Elmi rəhbər: b/m Sevinc Qurbanova Əşrəf
Azərbaycan Dilləri Universiteti

KARİB BÖHRANIN SƏBƏBLƏRİ VƏ NƏTİCƏLƏRİ

Soyuq müharibə dövründə ABŞ və SSRİ arasındakı gərginlik hələ də davam edirdi. Bu gərginlik 1950-ci illərdə daha geniş vüsət almışdı. Hər iki ölkə hərbi gücünü artırırdı. Siyasi və hərbi gücü ilə ətrafdakı ölkələrə təsir edərək öz tərəfinə çəkməyə çalışırdı. ABŞ-nin Kubanı 1952-ci ildə öz nəzarəti altına alması, SSRİ-nin Çində və Koreyada kommunizmi yayması bu iki güclü dövlət arasındakı qarşıdurmanı göstərirdi [3].

Fidel Kastro 1959-cu ildə Kubada hakimiyyətə gəlir. O, ABŞ ilə problemlər yaşayır və buna görə də SSRİ-dən kömək istəyir. 28 oktyabr 1959-cu ildə ABŞ Türkiyə və Yunanıstan ərazisinə Yupiter raketinin yerləşdirilməsi haqqında saziş imzalayır və buna cavab olaraq SSRİ 1960-cı ildə Kubaya raketlər yerləşdirir. SSRİ-nin lideri Nikita Xruşşov bu planı gizli həyata keçirməyə çalışırdı. Onun fikrincə bu əməliyyatdan dünyanın xəbəri olmayacaqdı. Xruşşovun planına əsasən SSRİ ABŞ-nin yaxınına nüvə silahı yerləşdirəcək və beləliklə, ABŞ-ə qarşı daha güclü mövqe tutacaqdı [1].

SSRİ Baş naziri N.Xruşşov 1960-cı ilin mayında Kubanı sovet silahları ilə müdafiə edəcəyinə söz verdi. O, ABŞ-nin Kubada orta mənzilli sovet raketlərinin quraşdırılmasının qarşısını almayacağını düşünürdü. Kubada yerləşdirilən bu raketlər bir neçə dəqiqə ərzində ABŞ-nin şərqinin çox hissəsini vura bilərdi. ABŞ 28 avqust 1960-cı ildə Kuba ilə ticarətə embarqo qoyur və bundan istifadə edərək SSRİ hökuməti sentyabr ayında ilk böyük silahları Kubaya gizli şəkildə yerləşdirir. 2 yanvar 1961-ci ildə N.Xruşşov Kubanın Moskva səfirliyində keçirilən toplantısında Kubada sovet hərbi bazası olduğunu deyilən fərziyyələri rədd edir [4, s. 347-348].

ABŞ 1962-ci ilin iyulunda öyrənir ki, Sovet İttifaqı Kubaya raket göndərməyə başlayıb. Uzun müzakirələrdən sonra Con Kennedi Kubanın dənizdən mühasirəyə alınması barədə qərar verir [1].

22 oktyabr tarixində onlara qarşı embarqoya başlayır. Bu zaman SSRİ gəmiləri Atlantik okeanı ilə Kubaya yaxınlaşmağa başladı. Buna görə də, Xruşşov hadisə ilə bağlı açıqlama verməyə məcbur olur. O bildirir ki, silahlar müdafiə xarakterlidir və gəmilərin dayandırılması üçün əmr verməyəcək. O, 1962-ci il oktyabrın 27-də C.Kennediyə məktub göndərir. Bildirir ki, ABŞ 1961-ci ildə Türkiyədə tikdiyi hərbi bazanı sökdüyü halda SSRİ də Kubada eyni addımı atacaq. C.Kennedi cavabında Rusiya Kubada nüvə yerləşdirdiyi nüvə silahlarını geri çəkərsə həmin ölkəyə qarşı mühasirəyə son verəcəyini və işğal planını həyata keçirməyəcəyini deyir. Uzun müzakirələrdən sonra C.Kennedi bildirir ki, Türkiyəyə yerləşdirdikləri nüvə silahlarını köhnəldikləri üçün 6 ay ərzində sökəcəklər [2, s.157]. Sonra da, "ABŞ-nin onsuz da Kubanı işğal etmək fikri yox idi", - deyə əlavə edir. Xruşşov Kennedinin təklifini müsbət qarşılayır. Nəticədə, embarqo sona çatır və Kubadakı sovet gəmiləri geri çəkilir. Beləliklə, 1962-ci il Karib böhranı sona çatır.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Cuban missile crisis. 5 march 2024 // https://www.britannica.com/event/Cuban-missile-crisis
2. Mustafayeva S.M., Qurbanova Ş.M. Con Kennedinin prezidentlik dövründə ABŞ-ın xarici siyasəti. Tarix və onun problemləri, №2, 2014, s. 157-162
3. Məmmədov Rəvan. Nüvə müharibəsinin addımlığında - Karib böhranı, 28 fevral 2023 // https://fraza.az/az/news/read/454
4. The Cuban Missile crisis. A chronology of events // https://nsarchive2.gwu.edu/nsa/cuba_mis_cri/590101_620919%20Chronology%201.pdf

Qulamzadə Fatimə Yunus qızı
Elmi rəhbər: t.ü.f.d. Təranə Quluzadə Nəsimi
Azərbaycan Dillər Universiteti

JERONİMO VƏ APAÇİLƏRİN MƏĞLUBİYYƏTİ

Jeronimo (1829-1909) Çirikavaca apaçi qrupunun Bedonkohe apaçi lideri idi. Nəsillər boyu apaçilər həm ispanlar, həm də şimali amerikalılar tərəfindən Cənub-Qərbdə öz vətənlərinin ağ müstəmləkəçiliyinə müqavimət göstərmişlər. Jeronimo 1846-cı ildə döyüşçülər şurasına qəbul edildiyi gündən Meksikanın Sonora və Çihuahua əyalətlərinə basqınlarda iştirak edərək əcdadlarının ənənəsini davam etdirdi. 1858-ci ildə meksikalı Albay və 400 adamı Jeronimo və dostları düşərgədə olmadıqları zaman buraya basqın edib insanları qətlə yetirmişlər. Düşərgəyə döndüyündə ailəsinin meksikalılar tərəfindən öldürülməsi onu daha da qəzəbləndirir [1]. O, meksikalılara qarşı mübarizəyə başladı və bir döyüşçü dəstəsinin başçısı oldu.

Jeronimo 1850-ci illərdə ağdərili amerikalılar ilə ilk tanışlığı və onlarla hətta ticarət əlaqələri qurduğunu vurğulamışdır [2, s.113-114]. Lakin on ildən sonra bura ağdərili döyüşçü - əsgərlərin gəlməsi ilə problemlərin yaranmasını qeyd etmişdi. Jeronimo da onlara qarşı döyüşə qatılmış və bunları demişdir: “Haqsızlığa uğrayan mən olmasam da, qəbiləmdən bəziləri uğramışdı. Mən də onlarla birlikdə savaşdım. Çünki qızıldərililər deyil, günahkar əsgərlərdi” [2, s.114].

1870-ci illərin əvəllərində Arizona departamentinin komandiri polkovnik leytenant C.F.Kruk ərazidə nisbi sülhün qısa müddətdə olsa da, bərqərar olunmasına nail oldu. Jeronimonun təşviqi ilə sonrada yüzlərlə apaçi ağlara qarşı mübarizəni davam etdirmək üçün rezervasiyanı tərk etdi. 1874-cü ildə təxminən 4,000 apaçi ABŞ səlahiyyətliləri tərəfindən Arizonanın şərq-mərkəzində San-Karlosdakı rezervasiyaya məcburi halda köçürüldü. Ənənəvi qəbilə hüquqlarından məhrum olan, yemək azlığı və vətən həsrəti ilə onlar Jeronimoya müraciət etdilər. Arizonadakı Skeleton Kanyonda keçirilən konfransda (3 sentyabr 1886-cı il) Miles Jeronimonu bir daha təslim olmaya vadar etdi və Floridada qeyri-müəyyən sürgündən sonra ona və davamçılarına Arizonaya qayıtmalarına icazə verilicəyini vəd etdi. Lakin vəd yerinə yetirilmədi. Jeronimo və məhbus yoldaşları ağır işlərə məruz qaldılar [1].

Jeronimo və davamçıları 1894-cü ildə Oklahoma ştatının Fort Sille sürgünə göndərildi. Orada əkinçiliklə məşğul olan Jeronimo öz xalqı tərəfindən hələ də lider kimi yüksək qiymətləndirilirdi. 1898-ci ildə Omahada Trans-Mississipi və Beynəlxalq Sərgi, 1901-ci ildə Buffaloda Pan-Amerika Sərgisi və 1904-cü ildə Sent-Luisdəki Luiziana Satınalma Sərgisi kimi milli tədbirlərdə iştirak etmişdir. Jeronimo,

federal hökuməti öz xalqının Arizona vətəninə qayıtmasına icazə verilməsinə nail ola bilmədi. O, 17 fevral 1909-cu ildə Fort Sill-də vəfat etdi və davamçıları Apaçi qəbiristanlığında dəfn edildi [3].

Tarixdə unutulmaz izlər qoyan Jeronimo hələ də şüarlarda yaşamaqdadır. ABŞ ordusunun ilk rəsmi paraşüt bölməsi yaradılanda alayın şüarı olaraq Jeronimo ifadəsinin istifadəsi nəzərdə tutulmuşdu. Alay komandiri, Jeronimonun nəvələrini taparaq onlarla əlaqə yaradır. Onlar alayın şüarı olaraq onun adından istifadə etmək üçün nəvələrindən icazə alırlar [4]. Günümüzdə də bu alayın şüarı eynidir.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Geronimo. Apache Warrior, Leader & Legend. 6 march 2024 // https://www.britannica.com/biography/Geronimo
2. Barrett S.M. Geronimo`s story of his life // https://www.ibiblio.org/ebooks/Geronimo/GerStory.pdf
3. Geronimo. Oklahoma Historical Society // https://www.okhistory.org/publications/enc/entry?entry=GE009
4. Uçaktan atlarkan neden "Geronimo" denir? 6 Mayıs 2012 // https://opereysin.com/arastirma/4784-ucaktan-atlarken-neden-geronimo-denir/

Yusifzadə Bəxtiyar İslam oğlu
Elmi rəhər: b/m Sevinc Qurbanova Əşrəf
Azərbaycan Dillər Universiteti

PREZİDENT RİÇARD NİKSON VƏ UOTERQEYT QALMAQALI

1968-ci il seçkilərində Respublikaçı namizəd kimi iştirak edən Nikson, Demokratlar Partiyasının namizədi Hubert Humphrey və Amerika müstəqil namizəd Corc Uolles qarşısında seçkilərdə qalib gəldi. Nikson Amerika ictimaiyyəti tərəfindən çox bəyənilməyən Vyetnam müharibəsini bitirmək vədi əsasında kampaniya aparırdı [1, s. 206]. O, "Vyetnamlaşdırma" siyasətini həyata keçirdi. Niksonun hakimiyyəti dövründə bir neçə mühüm daxili siyasət həyata keçirirdi. Xarici siyasətdə isə Sovet İttifaqı ilə gərginliyi azaldılması siyasətini həyata keçirdi və Çinlə diplomatik əlaqələr açdı ki, bu da beynəlxaq münasibətlərə uzun müddət təsir göstərdi. 1972-ci ildə Nikson yenidən prezident seçildi [1, s.207].

Lakin Niksonun yenidən prezident seçilməsi Uoterqeyt qalmaqalını ört-basdır etməyə kifayət etmədi. Uoterqeyt qalmaqalı 1972-ci ildə Demokratlar Partiyasının Milli Komitəsinin Uoterqeyt kompleksində yerləşən qərargahına bir sıra gizli və qanunsuz basqınlarla başladı. Vaşinqtondakı Uoterqeyt otelində yerləşən mənzil qərargahına qulaqasma qurğuları və fotokameralar yerləşdirmək istəyən 5 nəfər həbs edilir [1,s.207]. Bu hadisə Respublikaçılar Partiyasından prezidentliyə namizəd Riçard Niksonun seçki kampaniyası zamanı baş verdi.

Başlanğıcda bu basqın sadə oğurluq cəhdi kimi görünürdü, lakin sonradan dəlillər reydlərin planlaşdırılması və həyata keçirilməsində Nikson administrasiyası və Respublikaçılar Partiyasının cinayət əməllərini üzə çıxardı. Nikson və onun yaxın müşavirləri, hökumət və polis hadisəni ört-basdır etməyə çalışdılar.

Qalmaqal ortaya çıxandan sonra Konqres Uoterqeyt qalmaqalını araşdırmaq üçün komissiya yaratdı. Bu proses zamanı ortaya çıxan dəlillər Nikson administrasiyasının qanunsuz fəaliyyətlərini və cinayətlərini göstərirdi. Niksonun Oval Ofisindəki səs yazı Uoterqeyt işi ilə bağlı mühüm sübutlar var idi.

Uoterqeyt günahkarları 1973-cü ildə mühakimə olundu. Əksəriyyət günahlarını etiraf etdi, bu da onların iş üzrə sorğu-sual oluna bilməyəcəyini ifadə etdi. Onlardan biri hakimə bildirib ki, respublikaçıların mühüm məmurları hadisənin planlaşdırılmasına kömək ediblər. Tezliklə araşdırma sübutların gizlədildiyini göstərdi [2].

Niksonun vəzifədən uzaqlaşdırılması ehtimalı olduqda, Nikson 8 avqust 1974-cü ildə istefa verdi. Bu, Birləşmiş Ştatların tarixində prezidentin istefası ilə nəticələnən yeganə hadisədir. Cerald Ford Niksonun istefası ilə prezidentliyə yüksəldi və Niksonu əfv etdi.

Riçard Nikson ABŞ tarixində ilk istefa verən prezident kimi düşüb, bu iki il davam etmiş Uoterqeyt qalmaqalına son qoymaq üçün nümunəsiz addım olmaqla yanaşı, ABŞ tarixində görünməmiş konstitusiya böhranı kimi dəyərləndirib [1, s.204]. Uoterqeyt qalmaqalı Niksonun həyata keçirdiyi uğurlu addımları kölgədə qoydu.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Bayramzadə Elşən. Amerika prezidentləri. Bakı, 2012, 248 səh.
2. The Watergate Scandal. US History Shorts // https://www.rcsdk12.org/cms/lib04/NY01001156/Centricity/Domain/4818/6.2%20History%20Shorts%20The%20Watergate%20Scandal.pdf

Şərifəliyeva Aysel Nəcməddin qızı
Elmi rəhbər: Dos. Rəna Rəcəbli Qəzənfər
Azərbaycan Dillər Universiteti

BELARUS RESPUBLİKASINDA MÜHAFİZƏ EDİLƏN ƏRAZİLƏRİN YARANMA TARİXİ

Ətraf mühitə artan antropogen təsir təbii ekosistemlərin transformasiyası və deqradasiyası, bitki və heyvan növlərinin nəsli kəsilməsi, ekosistemlərin ümumi dayanıqlığının azalması da daxil olmaqla qlobal əhəmiyyətli bir sıra mənfi nəticələrlə özünü göstərir.Biomüxtəlifliyin, ekosistemlərin və təbii komplekslərin bütövlüyünün və dayanıqlığının qorunmasına yönəldilmiş tədbirlərdən biri də xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılmasıdır.Xüsusi mühafizə olunan təbiət ərazilərinin yaradılması flora və faunanın müxtəlifliyinin qorunması, növ tərkibinin artırılmasının mühüm mexanizmidir. Belorusiyada bu məsələyə qanunvericilik səviyyəsində də böyük diqqət yetirilir.

Belorusiyada xüsusi mühafizə olunan təbiət ərazilərinin formalaşması tarixi 1925-ci ildə Berezinski biosfer qoruğunun yaradıldığı dövrə gedib çıxır [2,s.3]. Sonrakı illərdə digər qoruqlar, xüsusən də ov qoruqları və təbiət abidələri yaradılaraq fəaliyyət göstərdi. Tarix boyu Belorusiyada təbiət qoruqlarının inkişafı anlayışları, ekoloji ərazilərin kateqoriyaları və zonaların mühafizə olunan ərazilərə aid edilməsinə dair tələblər dəyişdi. 1980-ci illərdə xüsusi mühafizə olunan təbiət əraziləri sisteminin inkişafı planlı xarakter almağa başladı [2, s.5].

Belorusiyada ətraf mühitin mühafizəsi sahəsində milli qanunvericiliyin formalaşdırılması prosesi, 1994-cü ildə "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanun qəbul edilməsi ilə başlandı. Sonradan o, xüsusi mühafizə olunan təbiət ərazilərinin elan edilməsi və fəaliyyət göstərməsi təcrübəsini tənzimləyən "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" qanuna çevrildi. Qanun xüsusi mühafizə olunan təbiət əraziləri kateqoriyasının nizamnaməsini, onların elan edilməsi, transformasiyası və istismarına xitam verilməsi qaydasını, habelə həmin ərazilərin idarə olunmasını və mühafizə rejimini təmin edir. Qeyd edək ki, 2008-ci ildə "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" qanuna edilən növbəti dəyişiklikdə idarəetmə planı kimi anlayış ortaya çıxmışdır. İdarəetmə planı strateji planlaşdırma sənədidir. O, bioloji müxtəlifliyi və ekoloji sistemləri qorumaq və bərpa etmək üçün mühafizə olunan ərazilərdə həyata keçirilməli olan zəruri mühafizə tədbirlərinin siyahısını müəyyən edir."Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" ilk qanun sayəsində ölkədə mühafizə olunan ərazilərin yeni kateqoriyalarının yaradılmasına imkan verən şərait yaranmışdır. Beləliklə, ilk dəfə 1990-cı ildə dörd milli park: onlardan ikisi mövcud qoruqlar əsasında –"Pripyatsky" və "Belovejskaya Puşça", həmçinin mühüm turizm və rekreasiya əhəmiyyəti olan iki yeni milli park – "Naroçanski" və "Braslavski" yaradılmışdır [1, s.9].

Ekoloji qanunvericiliyin inkişafı ilə əlaqədar 2018-ci ildə "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" qanun bilavasitə qüvvədə olan qanuna çevrilmişdir. Belorusiyada ehtiyatların mühafizəsini və ekoturizmin inkişafını təmin etmək üçün dövlət ekoloji qurumlarının yaradılması nəzərdə tutulur. Hazırda onların sayı 29-dur.

Ölkədə Bioloji və Landşaft Müxtəlifliyinin Qorunması üzrə Pan-Avropa Strategiyasının tədbirlərindən biri kimi ekoloji şəbəkənin formalaşdırılması konsepsiyası təsdiq edilmişdir. Bu şəbəkə ölkə prezidentinin 13 mart 2018-ci il tarixli 108 nömrəli Sərəncamı ilə təsdiq olunmuşdur. Qeyd edək ki, ekoloji şəbəkənin sahəsi bu gün Belorusiyanın ümumi ərazisinin 16%-ni təşkil edir.

Son on il ərzində bütün Belorusiyanın milli parkları və ölkə əhəmiyyətli böyük təbiət qoruqları üçün idarəetmə planları hazırlanmış və yenilənmişdir. Onların arasında "Sporovski", "Zvanets", "Yelnya", "Pribujskoye Polesie", həmçinin "Nalibokski" vardır.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Гельман, В.С. Растительность Припятского заповедника. Заповедники Белоруссии: Исследования. Минск: Ураджай, 1985. Вып. 9. – С. 9-20.
2. Адукацыя і выхаванне, Национальные парки и заповедники Беларуси. Серия "Я горжусь!",2022, С.48
3. http://25.by/1995/braslavpark

Həsənova Aysel Anar qızı
Elmi rəhbər: müəl. Nailə Məmmədova Xudaqulu
Azərbaycan Dilləri Universiteti

SOSİAL EHTİYAC ANLAYIŞI VƏ ONUN TƏSNİFATI

İnsanın ehtiyacları sonsuz olduğundan, ödənilməli olan, başqa ehtiyacları da var. Yaxşı, ehtiyaclar bir insanın istədiyindən məhrum olduqda ortaya çıxan narazılıq və bədbəxtlik hissi ilə əlaqədardır. Bu hiss əvvəlcə ehtiyac artdıqda mənfi olur, sonra yerinə yetirildikdə müsbət olur. Bir insanın diqqəti, ehtiyaclarını ödəyə biləcək obyektlərə müraciət edərək dünya qavrayışını müəyyənləşdirir. Həyat boyu insanın ehtiyacları dəyişir və müxtəlif olur.

Sosial ehtiyac anlayışı, insanların birlikdə olduğu cəmiyyət mühitində dəstəkləşmə, münasibətlərin qurulması, mənsubiyyət hissi və məsuliyyət hissi kimi sosial tələbatları ifadə edir. Bu anlayış, insanların digər insanlarla əlaqələrini və cəmiyyətdə yer almanın vacibliyini nəzərə alır. Sosial ehtiyaclar, insanların maddi olmayan, psixoloji və əhvaliyyətlərini əhatə edir və insanları digər insanlarla əlaqələri yolu ilə ictimaiyyətə inteqrasiya etməyə sərf edir. Bu anlayış, insanların sosial mədəniyyət, dəyərlər, normativlər və qaydalara uyğun şəkildə cəmiyyətə daxil olmaq və cəmiyyətdə yer almaq ehtiyacını vurğular [2].

Sosial ehtiyacın anlaşılması əsasənbu kateqoriyalara ayrılır:

1.Əsas sosial ehtiyaclar: bunlar insanların Təhlükəsizlik, sığınacaq, qida və su kimi əsas ehtiyaclarını ödəmək üçün hiss etdikləri ehtiyaclardır.

2.Sosial əlaqələr və münasibətlər: bunlar insanların sosial qarşılıqlı əlaqə, Qəbul, sevgi və sevgi və mənsubiyyət ehtiyaclarıdır.

3.Dəyər və hörmət: insanların başqaları tərəfindən qiymətləndirilməsinə, hörmət edilməsinə, qayğısına qalmasına və qiymətləndirilməsinə ehtiyacına aiddir.

4.Azadlıq və özünə hörmət: insanların öz düşüncələrini ifadə etmək, öz qərarlarını vermək, sərbəst hərəkət etmək və öz dəyərlərinə hörmət etmək ehtiyacıdır.

Bu cür təsnifatlar bir insanın sosial ehtiyaclarını və onların məmnuniyyəti ilə əlaqəli müxtəlif cəhətləri anlamağa kömək edir.

Yaponiyada sosial ehtiyacların anlaşılması çox vaxt cəmiyyətin dəyərlərinə, adətlərinə və mədəni normalarına əsaslanır. Yaponiya cəmiyyəti sosial əlaqələrə, ailə münasibətlərinə və sosial birliyə qayğı göstərən bir quruluşa malikdir [3]. Bu anlayışda ailə, dostlar və iş mühiti kimi sosial münasibətlər böyük əhəmiyyət kəsb edir. Cəmiyyətin ümumi qəbul edilmiş normalarına uyğunluq sosial status və hörmət baxımından vacibdir. Bundan əlavə, insanların cəmiyyətin gözləntilərinə və rollarına uyğun davranması gözlənilir. Yaponiyada sosial xidmətlər və dəstək şəbəkələri də güclüdür ki, bu da sosial ehtiyacların ödənilməsində mühüm rol oynayır [1].

Sosial ehtiyaclar ümumiyyətlə üç əsas qrupa bölünə bilər: öhdəlik, qəbul və ləyaqət. Öhdəlik ehtiyacı insanların sevgi, diqqət və dəstək istəyinə aiddir. Qəbul ehtiyacı insanların sosial tanınma və mənsubiyyət hissi əldə etmək istəyinə aiddir. Digər tərəfdən hörmət ehtiyacı, insanların öz dəyərlərinə, bacarıqlarına və töhfələrinə hörmət etmək istəklərinə aiddir [4]. Bu kateqoriyalar insanların səylərini sosial münasibətlər qurmağa və cəmiyyətdə özlərini möhkəmləndirməyə yönəldir.

Sosial ehtiyacların ödənilməsi insanların xoşbəxtliyi, rifahı və psixoloji sağlamlığı üçün vacibdir. Bu səbəbdən cəmiyyətlər tez-tez sosial dəstək sistemlərini, şəbəkələri və qurumları inkişaf etdirərək sosial ehtiyacları ödəməyə çalışırlar.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Giddens, Anthony. “Sosial ehtiyacların təsnifatı və önəmi.” Sociological Forum 25.1 (2010): 113-130.
2. MacGillivray, Ian K., və sosial araşdırmalar üçün tədqiqat qrupu. “Sosial ehtiyacların anatomiyası: bir tədqiqat qonşuluğu.” Social Forces 70.1 (1991) 11-31
3. Homans, George C. “Modern cəmiyyətdə sosial ehtiyacların strukturu və funksiyası.” American Journal of Sociology 55.4 (1950): 307-318.
4. Payne, Geoff, və Tony Spybey. Sosial ehtiyaclar: təsnifat və tədqiqat metodolojisinin müasir problemləri. Oxford University Press, 2010

Aydan Qəhrəmanova Nəsib qızı
Elmi rəhbər: Dos. Rəna Rəcəbli Qəzənfər
Azərbaycan Dillər Universiteti

BİRİNCİ DÜNYA MÜHARİBƏSİ ƏRƏFƏSİNDƏ OSMANLI İMPERİYASININ XARİCİ SİYASƏTİNDƏ VƏZİYYƏT

Birinci Dünya müharibəsi ərəfəsində Osmanlı imperiyasının xarici siyasətinə bir çox faktorlar təsir göstərmişdi. Gərgin daxili siyasi proseslərlə üzləşən Osmanlı sosial iqtisadi təzyiqlərlə yanaşı qlobal və regional xarici siyasət amilləri ilə də üzləşmişdi. XX əsrin əvvəllərində konstitusiyalı monarxiya islahatlarının baş tutmaması ittihatçı gənc türklər hərəkatı, Avropa siyasi iqtisadi dairələrinin təzyiqləri Osmanlını xarici siyasətdə seçim etməyə məcbur qoyurdu. 1911-1912-ci illərdə Balkan müharibəsi dövrünü keçmiş Osmanlı imperiyasının xarici siyasətində özünü göstərən bir sıra mühüm məsələlər vardı. Sarayın yeni və daha böyük müharibənin başlayacağını proqnozlaşdırması aydın idi. Balkan müharibəsi Osmanlı dövlətinin mövqelərini xeyli zəiflətmişdi. Yeni müharibədə bu dövlət öz müttəfiqlərini seçməli idi. Birinci dünya müharibəsi ərəfəsində Osmanlı sarayı Böyük Britaniya ilə müttəfiqlik yaratmaq üçün bir sıra cəhdlər göstərsədə istəyinə nail ola bilməmişdi [1,s.1].

Avropanın inkişaf etmiş ölkələri olan Böyük Britaniya və Fransa kimi ölkələr "xəstə adam" saydıqları Osmanlını məğlub etmək, ərazilərini mənimsəmək siyasəti yürüdürdülər. Böyük Britaniya Yaxın Şərq siyasətində Osmanlını parçalamaq üçün yeni Ərəb dövlətləri və Yəhudi dövləti yaratmağı nəzərdə tuturdu. Rusiya, Berlin konfransı nəticəsində diplomatik baxımdan məğlubiyyətə uğradan yeni bir müharibə vasitəsilə Osmanlının Anadolu bölgəsini ələ keçirtmək, daha çox torpaqlar əldə etməyi planlaşdırırdı.

Fransa isə Yaxın Şərqdə, xüsusən Suriya ərazisində möhkəmlənmək üçün Osmanlı daxilində dini etnik ocaqlar yaratmağa çalışırdı.Osmanlıya qarşı diplomatik baxımdan birləşmiş Avropa qüvvələri erməni-ərəb üsyanlarını yaratmağa çalışır,ölkə daxilində siyasi-iqtisadi vəziyətin pisləşməsi üçün əllərindən gələni əsirgəmirdilər. Böyük Britaniya ilə müttəfiqlik qura bilməyən Osmanlı tezliklə Almaniya ilə əlaqələr quraraq rəsmi Berlinin simasında müttəfiqini tapdı [2,s.114].

Osmanlı imperiyası Balkan müharibəsi (1877-1878) dövründə itirdiyi əraziləri geri qaytarmaq və digər dövlətlərin, xüsusi ilə Yaxın Şərqdə, eləcə də Balkanlarda hərbi və diplomatik uğursuzluğunun əvəzini çıxmağa çalışırdı.

İstifadə olunan ədəbiyyat siyahısı

1. Görgülü İsmet // https://www.ttk.gov.tr/belgelerle-tarih/osmanli-imparatorlugunun-i-dunya-harbine-girisi-ve-carpistigi-cepheler/
2. Eugene Rogan, "The Ottoman Endgame: War, Revolution, and the Making of the Modern Middle East", 2016, 550 səh.
3. Renee Worringer, "Osmanlı İmperatorluğu'nun qısa tarixi", 2023, 336 səh

Dəmirova Aydan Ceyhun qızı
Elmi rəhbər: müəl. Ələsgərova Sara Tahir
Azərbaycan Dillər Universiteti

EKVADORDA SOSİAL PROBLEMLƏR

Cənubi Amerika ölkələri üç yüzillik müstəmləkə əsarəti yaşamış, müstəqillikdən sonra uzun müddət diktatura və hərbi rejimlərlə idarə edilmiş və demokratiyaya keçid dövrünü çox ağrılı period kimi yaşamış yeni demokratiya rejimində olan ölkələrdir. Region ölkələrindən olan Ekvador da həm uzunmüddətli müstəmləkə istismarına məruz qaldığına görə, həm də hərbi rejimlərin dövründə qeyri-demokratik idarə olunmağına görə tarixən bir sıra sosial problemlərləüzləşmişdir. Ekvador son dönəmlərdə, prezidentliyə namizədin, eləcə də bir neçə bələdiyyə sədrinin, hüquq müdafiəçisinin, sosial liderin öldürülməsi və geniş yayılmış zorakılıqla nəticələnən ciddi daxili silahlı münaqişə problemi ilə üzləşir. Bu ölkədə baş verənlər Latın Amerikası regionunun üzləşdiyi sosial problemlərin ən yaxşı nümunəsidir [3].

Bu zorakılıq dalğası içərisində narkotiklərin qanunsuz dövriyyəsi məsələsi Ekvadorda hələ də əsas sosial problem olaraq qalır. Narkotik ticarəti sənayesinin genişlənməsi prosesi ilə, kokainə qlobal tələbatın artması və fentanil kimi opioidlərin istehlakının artması nəticəsində bu Cənubi Amerika ölkəsi Kolumbiyadan sonra dünyanın narkotikdövriyyəsi üzrə ən mühüm regional mərkəzinə çevrilmişdir [2].

Ekvador narkotiklərin saxlanması, emalı və paylanmasıepisentri kimi və müxtəlif cinayət təşkilatlarının ona nəzarət üzərində mübahisə etdiyi yerdir. Belə ki, regionun müxtəlif ölkələrində olduğu kimi Ekvadorda da narkotik ticarəti uşaqların dəstələr tərəfindən işə götürülməsindən məsuldur, insan alveri, fahişəlik, narkotik satışı, qəsb və oğurluq kimi bütün qeyri-qanuni fəaliyyətlərdə artım müşahidə olunur [2].

Ekvadorun digər bir önəmli problemi Latın Amerikası regionunda gündəm məsələ olan həbsxanalardır. Ekvador korrupsiyanı sözün əsl mənasında əks etdirir. Müxtəlif hökumətlərin penitensiar sistemdən imtina etməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinin artması və hərtərəfli cinayət siyasətinin olmaması ilə dövlət öz penitensiar sisteminə nəzarəti itirirdi, buna görə də mütəşəkkil cinayətkarlıq həbsxanaları narkotik vasitələrin qanunsuz dövriyyəsi üçün əməliyyat bazasına çevirdi [1].

Oradan cinayətkar dəstələr hakimiyyət orqanları və mühafizəçilərlə əlbir olaraq hər cür cinayət əməllərini törətmək üçün cəzasız fəaliyyət göstərirlər. Bundan başqa, zorakılıq, yoxsulluq, savadsızlıq və kasıblarla zənginlər arasındakı sinfi mübarizə də ölkənin əsas sosial problemləri siyahısındadır. Ekvadorda baş verənlərə görə müxtəlif siyasi partiyalar günahkardırlar, çünki dövlətin bu cinayətkar təşkilatlara nəzarəti zəiflətməsi, siyasi zorakılığın artmasına və onların cəzasız qalmasına şərait yaratmışdır. Bütün bu problemlərin başında siyasi qeyri-sabitlik dayanır.

İstifadə edilmiş ədəbiyyat siyahısı

1. Problemas sociales del Ecuador // https://www.monografias.com/trabajos6/proso/proso
2. Principales problemas de Ecuador según la población en agosto de 2023
3. // https://es.statista.com/estadisticas/1405158/los-peores-problemas-de-ecuador-segun-la-opinion-publica/
4. Social problems in Ecuador. Universal project // https://www-eluniversal-com-mx.cdn.ampproject.org/v/s/www.eluniversal.com

Zamanova Gülnar Çingiz qızı
Elmi rəhbər: dos., s.e.f.d. Quliyev Nadir Novruz oğlu
Azərbaycan Dillər Universiteti

ERMƏNİSTAN-AZƏRBAYCAN MÜNASİBƏTLƏRİNİN NİZAMLANMASINDA "VAŞİNQTON SƏNƏDİ"NİN ROLU

27 sentyabr 2022-ci ildə Vaşinqtonda ABŞ-nin təşəbbüsü və iştirakı ilə Azərbaycan və Ermənistan rəsmiləri arasında üçtərəfli görüş keçirilmişdir. Görüşün nəticələri sonradan "Vaşinqton sənədi" [1] adı altında açıq məlumat bazalarına sızdırılmışdır .

"Vaşinqton sənədi" Azərbaycanın milli təhlükəsizliyinin əsas prinsiplərinə uyğun olub, Ermənistanla münasibətlərin normallaşdırılması istiqamətində mühüm addım hesab olunur. Bildiyimiz kimi beynəlxalq hüququn 10 imperativ prinsipindən biri –"xalqların öz müqəddəratını təyinetmə" yalnız xalqlara şamil olunur. Vaşinqton sənədinin vacib xüsusiyyətlərindən biri odur ki, sənəddə Qarabağ ermənilərinə münasibətdə "xalq" sözündən istifadə olunmayıb. Bundan belə nəticə çıxartmaq olar ki, "Vaşinqton sənədi" Qarabağ ermənilərinə öz müqəddaratını təyin etmək prinsipini şamil etmir. "Xalq" sözünün əvəzinə sənəddə Qarabağ ermənilərinə münasibətdə "sakinlər" ("residents"), "etnik icma" ("ethnic community"), "azlıq qrup" ("minority group") kimi sözlərdən istifadə olunmuşdur. Bu terminlər isə praktikada ermənilərə "status"un təqdim edilməsini qeyri-mümkün edir.

Sənəddə "Dağlıq Qarabağ" sözündən istifadə olunsa da, aşağı hissədə Azərbaycan hökümətinin bu regionu "Qarabağ" adlandırdığı xüsusi vurğulanır. Bildiyimiz kimi, Ermənistan hökuməti bu regionu "Dağlıq Qarabağ" adlandırır və hətta 10 noyabr sazişində də regionun məhz belə adlanmasını əsas gətirərək, "Dağlıq Qarabağ" adlı vahidin mövcud olduğunda israr edir. Əksinə, Azərbaycan Prezidentinin müvafiq qərarına əsasən, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin yerində Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalar bərqərar olmuşdur. Vaşinqton sənədində "Dağlıq Qarabağ" terminin işlənməsi müzakirə

obyektinin coğrafi konturlarından, “Qarabağ” qeydi isə ABŞ-ın Azərbaycanın daxili qanunvericiliyinin nəzərə alınmasından xəbər verir.

Sənəd dolayısı olaraq, Azərbaycanın Laçın dəhlizində gömrük postunun qurulması hüququnu özündə ehtiva edir. Belə ki, normallaşma prosesinin Qərb, xüsusilə də, ABŞ modeli dəhlizlər məntiqini inkar edir.

Sənəddə Azərbaycanla suverenliyinə xələl gətirməmək şərti ilə nümayəndələrin Qarabağ regionundakı fəaliyyətindən bəhs olunur. Sənəddə Azərbaycandan savayı hər hansı ölkə və ya tərəfin region üzərində suverenliyi qeyd edilmir. Cümlələrin belə ifadə forması sənəddə Qarabağ üzərində yeganə suverenliyin məhz Azərbaycana məxsus olmasından xəbər verir.

Digər bəndə görə sülh sazişi delimitasiya prosesi ilə paralel aparılmalı və 2022-ci ilin sonuna qədər yekunlaşmalı idi. Bildiyimiz kimi, Azərbaycan Ermənistana həmin ilin sonuna qədər sülh sazişini imzalamağa vaxt vermişdir. Vaşinqton sənədində də son tarix kimi ilin sonunun göstərilməsi ABŞ və Azərbaycan mövqelərində oxşarlıqdan xəbər verir.

İstifadə olunan ədəbiyyat siyahısı:

1. Документ, связанный с трехсторонними переговорами, отредактирован по настоянию Азербайджана (2022) https://media.az/read/1067879

Quluzadə Fidan Rəşad
Elmi rəhbər:Dosent Rəcəbova Aidə Əkbər
Azərbaycan Dillər Universiteti

“YAŞIL DÜNYA NAMİNƏ HƏMRƏYLİK İLİ”

Yaşıl dünya – adından da göründüyü kimi yaşıl həyatın rəngi təbiətin ve ekologiyanın rəmzinin harmoniya və tarazlığını özündə əks etdirir.Bu rəng yaradılışla,baharla,canlanma və dünyanın yeni rəngə boyanması ilə assosiasiya edilir. O bizi fiziki səviyyədə və hətta pisixoloji,ruhi mənada sakitləşdirir.Biz onu daha çox gözümüzün gördüyü,duyğularımızın onu qəbul etdiyi qədər həyatımızın vacib bir elementi hesab edirik.

Psixologiyada yaşıl rəng böyümə,inkişaf, çiçəklənmə, stabillik, yeni başlanğıc hesab edilir.İnsan mənfi emosiyalardan arındıqda müsbət enerjiyə doğru yönəlir.Bu isə sarı rəngdən yaşıla doğru hərəkətin başlanğıcı kimi düşünülə bilər.Yəni mənfidən müsbətə.

Müasir dünyamızda insan enerjisinin və təbiətin qorunması məsələsi qlobal bəşəri problemdir.Hər il dünya alimləri bu problem ətrafında öz bilik və təcrübələri ilə problemin həllinə dair layihələr irəli sürürlər. Bəs ekoloji təmiz dünyanı necə yaratmalı,nece qurmalı?! Dünyada meşələri,təmiz şirin su hövzələrini, gur sulu çayları, unikal dəyərləri necə qorumağın yolları axtarılır.Bu zənginliyi və təbii resursları necə yaxşılaşdırmalı, necə qorumalı?! Bütün bu suallar yaşıl dünya ideyasının mühafizəkarlarının qarşısında duran vacib məsələlərdəndir.

XX-ci əsrin sonlarında bəşəriyyətin üzləşdiyi ekoloji problemlər əlbəttəki bizim ölkəmiz üçün də maraq doğuran məsələlərdəndir.Azərbaycan prezidentinin “Yaşıl dünya naminə həmrəylik ili” adlandırdığı 2024-cü il Azərbaycan elminin və ekologiyasının qarşısında ciddi suallar qoyur.

Burada çağırışlar,perespektivdə duran məsələlər ənənəvi enerji mənbələrində təbiətin qorunmasi ilə bərabər yeni dünya texnologiyalarına keçid məsələlərini də gündəmə gətirir.

Bildiyimiz kimi son illərdə dünyada baş verən meşə yanğınları atmosfer qatının çirklənməsinə,hava tərkibinin pozulmasına,hektarlarla oksigen bazasının məhv olmasına gətirir çıxardır.Bu səbəbdən meşələrin qorunması və bərpası olduqca aktual və vacibdir.Ancaq burada qarşıya çıxan problemlər də az deyil. Dilemma ondadır ki, meşələrin bərpasıyla bərabər,yanğınların qarşısını kəsmək o qədər də asan və sadə məsələ deyil.Və yaxud başqa bir misal,yaşıl dünya nitratlardan,kimyəvi gübrələrdən bir çox şeylərdən imtina etməyi nəzərdə tutur.Halbuki bu başqa bir tərəfdən kənd təsərrüfatı məhsullarının kəmiyyət və keyfiyyətinə təsir edəcəkdir. Bu isə fermer təsərrüfatının müflisləşməsinə gətirib çıxaracaqdır[3]. Belə dilemmalar az deyil. Hazırda dünya qlobal istiləşmə problemi ilə üz-üzədir. Qlobal istiləşmə ilə mübarizə prioritet məsələlərdən birinə çevrilib. Buna görə də dünyada müxtəlif cəmiyyətlər formalaşır,ekoloji məsələlərin həllinə yönələn mühim addımlar atılır.

“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ölkə prezidentinin irəli sürdüyü planlar arasında 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair əsas prinsiplərdən biri təmiz ətraf mühit və yaşıl artım ölkəsi adına nail olmaq məsələsidir.[1] Həmin prinsipə əsasən yaşıllıqların bərpası,meşə zolaqlarının salınması, ətraf mühitin sağlamlaşdırılması, su ehtiyatlarından,dayanıqlı enerji mənbələrindən istifadə nəzərdə tutulur.

“Yaşıl dünya naminə həmrəylik ili” nəzərdə tutulan məsələlərdən biri də işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzur,eləcə də Naxçıvan Muxtar Respublikasının yaşıl enerji zonası kimi fəaliyyətə başlamasıdır.[1]

Azad olunmuş ərazilərdə aparılan geniş miqyaslı bərpa və yenidənqurma prosesində vandalizmə məruz qalmış zəngin meşələrimizin bərpa edilməsi hazırda qarşıda duran mühüm addımlardan biridir. ”Ağıllı kənd”,”ağıllı şəhər” kimi müasir innovasiyalar lahiyələrinin tətbiqi isə ekologiya sisteminə yeni yanaşmadır. Azərbaycanda ekoloji sağlamlığa təbiətin qorunmasına qayğı müstəqillik illərində geniş miqyas almışdır.

2011-ci ildə Leyla xanım Əliyevanın təşəbüsü ilə yaradılan“İDEA”ictimai birliyi bu sahədə böyük təşəbbüslər irəli sürmüş,təşkilatın ictimai maarifləndirmə,gənclərlə əməkdaşlıq sahəsində apardığı iş böyük nəticələr vermişdir.“İDEA”ictimai birliyinin və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə birgə fəaliyyəti nəticəsində Azərbaycanın müxtəlif bölgələrində xüsusi ilə aran rayonlarında yeni meşə zolaqları salınmışdır. “Hərəyə bir ağac əkək” layihəsi geniş yaşıllıq hərəkatına çevrilmişdir.

Bu il BMT-nin iqlim dəyişmələri üzrə çərçivə konvensiyasının tərəflər konfransının 29-cu sesiyası COB-29 kimi mötəbər bir tədbir Azərbaycanda keçiriləcək. Bu ölkəmiz üçün əhəmiyyətli bir hadisədir. Ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunmasına verdiyi dəyər iqlim dəyişmələrinin qarşısının alınması işinə verdiyi töhfə dünya ölkələri arasında BMT səviyyəsində öz sözünü deyəcəkdir. Bu isə ölkə başcımız İlham Əliyevin Yaşıl dünya naminə həmrəyliyə verdiyi dəstəyin və bu yöndə aparılan islahatların dəstəkçisi olduğunu göstərən mühüm bir amildir.

Ədəbiyyat siyahısı:

1. Azərbaycan Respublikasıında 2024-cü ilin “Yaşıl dünya naminə həmrəylik ili” elan edilməsi haqqında Azərbaycan Respublikası prezidentinin Sərəncamı.
2. Andrey Fursov: “Yeni yaşıl dünya- bu Bioekofaşizim dünyasıdır” adlı məqalə.
3. İsa Həbibbəyli. AMEA “Bizim yaşıl dünyamızı qoruyaq” konfransından çıxış

Агакишиева Суруш Этимад гызы
Филология Группа: 342
Научный руководитель: Джабарова Шукюфа Барат гызы
Азербайджанский Университет Языков.

«ГЕЙДАР АЛИЕВ И ВОПРОСЫ МУЛЬТИКУЛЬТУРАЛИЗМА В АЗЕРБАЙДЖАНЕ»

